**SEYYİD ƏLİƏKBƏR OCAQ NEJAD**

# AŞURA DƏRSLƏRİ

**2-ci cild**

**Bakı-2017**

**Seyyid Əliəkbər Ocaq Nejad. Aşura dərsləri  (2-ci cild)**

**Bakı, “----------------”, 2017, --- səh. ----**

**Tərtib edən: Zakir Babayev**

**Redaktor:     Seyid Əliəsgər Behbudlu**

***Hörmətli oxucu!***

*Əlinizdə olan bu kitab Seyyid Əliəkbər Ocaq Nejadın “Aşura dərsləri” mövzusunda söylədiyi moizələr əsasında hazırlanmışdır.*

*Kitabda əziz İslam Peyğəmbərinin (s) nəvəsi İmam Hüseynin (ə) Kərbəla hadisəsi geniş surətdə təhlil olunmuşdur. Kərbəla dövrünün tarixi şəxsiyyətlərinin müsbət və mənfi obrazları simasında insani dəyərlər, əxlaqi prinsipləri öz əksini tapmışdır. Həmçinin İmam Hüseynə (ə) və onunla birgə şəhid olanlara əzadarlıq etməyin fəlsəfəsindən söz açılmışdır.*

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
21 sentyabr 2017-ci il tarixli DK-829/B saylı məktubuna əsasən çap olunmasına razılıq verilmişdir.

# ƏZADARLIĞIN MƏNASI

بِسمِ اللهِ الرحمنِ الرحِيمِ اَلْحمدُ لِلهِ رب الْعالَمِين السلام على رسولُ الله
اَمِينِ اللهِ على وحيِه و عزائِمِ امرِه اَلْخاتِمِ لِماسبق والْفاتِحِ لِمستقْبِل والْمهيمِنِ
على ذلِك كُله السلام على وصِيه اَمِيرِالْمؤمِنين و على فاطِمةَ الزهراءِ سيدةِ
نِساءِ الْعالَمِين السلام على الْحسنِ والْحسين والأَئمةِ التسعةِ الْمعصومِين
مِن اَولادِ الْحسين السلام عليهم و رحمةُ الله واللعن الدائم على أعدائِهم
أعداء الله اِلى يومِ لِقاءِ الله
أعوذُ بِالله مِن الشيطانِ الرجِيم.
قُل لا أسألُكُم علَيهِ أجرا إلا الْمودةَ فِي الْقُربى ومن يقْتِرف حسنةً نزِد لَه
فِيها حسنا إن الله غَفُور شكُور.

De: "Mən sizdən peyğəmbərliyimin əvəzində qohumlarıma (Əhli-beytimə) sevgidən başqa bir mükafat istəmirəm". Kim yaxşı bir iş görsə, onun yaxşılığını artırarıq. Çünki Allah bağışlayandır, qədirbiləndir.

*Şura surəsi, ayə-23*

* * *

*Ey əzizi Həzrəti Zəhra, salam olsun sənə!*
*Ey şəhidi əsri aşura, salam olsun sənə!*

*Ey Hüseyn, ey hovzi kövsər ləblərin altda nihan,*
*Aləm heyrandır, bu qüdrətlən ki, verdin təşnə can.*
*Şərbətin zəhraveyi şəmşir, qüslün oldu qan,*
*Həm susuz, həm sahibi dərya, salam olsun sənə!*

*Ey rəşidə doxtəri Siddiqə, ey şahi zənan,*
*Rütbədə fəxrul-əimmə, nitqi ecazül-bəyan,*
*Müstəcabud-də'və xatun, əmmeyi Sahib Zaman,*
*Mahi ismət Zeynəbi Kubra, salam olsun sənə!*

* * *

Hər ilin məhərrəm ayında dünyanın bir çox yerlərində Əhli-beyt (ə) aşiqləri İmam Hüseyn (ə) üçün əza saxlayırlar. Daha doğrusu, müsəlmanlar bir bacı və bir qardaşın tarixdə yaratdıqları "şah əsər"ə görə təşkil etdikləri əzadarlıqlar vasitəsilə onlara öz minnətdarlığını bildirir.

Bu gün İslamın olduğu kimi müsəlmanlara çatdırılmasına məhz onlar səbəb olmuşlar. Bu gün bütün dünyada məscid-lərin minarələrindən, hətta bəzi yerlərdə Həzrət Əlinin (ə) adı çəkilməsə də belə, Həzrət Peyğəmbərin (s) adının çəkilməsi yenə də onların sayəsində mümkün olmuşdur. Əgər İmam Hüseynin (ə) Kərbəlası olmasaydı, əgər o şəhadət, rəşadət, şücaət və o izzət Kərbəlada izhar olmasaydı, bu gün Həzrət Peyğəmbərin (s) adının belə bizədək gəlib çatması şübhə altında olardı.

Bəli, Həzrət Peyğəmbərin (s) mübarək adının və müqəddəs kitabımız olan Qurani-kərimin bu gün də mövcud olması və onların əbədi olaraq yaşayacağına əminliyimizin səbəbi Kərbəlada tökülən o pak qanlardır. Həmin hərəkata rəhbərlik edən şəxs Xanım Fatimeyi Zəhranın (s.ə) oğlu İmam Hüseyn (ə) və onun başladığı bu hərəkatı (İnqilabı) tamamlayan isə Xanım Fatimeyi Zəhranın (s.ə) qucağında tərbiyə almış və tarixdə qəhrəmanlar qəhrəmanı kimi tanınmış Xanım Zeynəbdir (s.ə).

Biz bu gün onlara minnətdarıq.

## Əzadarlıq nədir?

Bir mövzu vardır ki, xalqın dilində çox işlədilir və bəziləri bu barədə daha ətraflı məlumat əldə etmək üçün müəyyən suallar verirlər. Həmin mövzu əzadarlıq, xüsusilə İmam Hüseyn (ə) və onunla birgə şəhid olanlar üçün matəm saxlayıb əzadarlıq etməkdən ibarətdir. Burada çox yaxşı olar ki, həmin mövzu barədə müəyyən qədər söz açıb zehnlərə gələn bir sıra sualları cavablandıraq.

Bəzən görürürk ki, dünyada İslam dini barədə heç bir məlumatı olmayan, ayrı-ayrı adamlardan bir neçə kəlməni uzaqdan eşitmiş bəzi savadsız insanlar təəssüflər olsun ki, bu müqəddəs din haqda müəyyən sözləri deyərək fikir söyləməyi belə özlərinə icazə vermişlər. Beləki onlar özlərini camaatın gözündə sanki bir islamşünas kimi göstərməyə çalışmış, bəziləri də öz maddi mənfəətlərinə görə onların dediklərini müxtəlif informasiya vasitələri ilə insanlar arasında yaymaqla məşğul olurlar. Onların bu kimi sözlərin həqiqətindən, mənasından və dəlil-sübutundan heç bir xəbərləri yoxdur. Onlar öz dünyalarına görə, pul qazanmaqlarına xatir belə sözləri yazıb xalq arasında yayırlar. Bəzi cavanlar da bu yazıları oxuduqda zehinlərində müəyyən suallar yaranır ki, “1400 ildən sonra əza saxlamağın nə mənası var?!” “Biz nə üçün əzadarlıq edirik?!” Belə suallardan müxtəlif mənalar əldə etməyə cəhd göstərir və onları cəmiyyətdə yaymağa çalışırlar.

Bu məsələyə aydınlıq gətirib düşüncələrdə yaradılan suallara cavab vermək üçün bir neçə mətləbi diqqətə çatdırmağı lazım bilirəm.

Alimlər demişkən “əzadarlıq” “ذِكْر” (zikr) məquləsindən hesab olunur. Yəni əzadarlıq zikr mənasının cərgəsində qərar tutub. Sual oluna bilər ki əgər belədirsə bəs zikrin mənası nədir? Cavab olaraq demək olar ki zikrin mənası “yad etmək”,

“xatırlamaq” deməkdir. Məsələn, insan “Subhanallah”, “La ilahə illəllah” və s. zikrləri deməklə Allahı yad edir. Qurani-Kərimdə də – “و اذْكُروا الله” (Allahı yad edin!) – ayəsinə dəfələrlə rast gəlirik.

Əzadarlıq isə müsibət görmüş hər bir insanın müsibətini yada salmaq və ona başsağlığı vermək deməkdir. Qısaca desək, təbii və yaxud qeyri-təbii hadisələr nəticəsində dünyasını dəyişmiş bir insanı yada salmaq və o hadisə münasibətilə başsağlığı söyləmək əzadarlığın mənasıdır.

Alimlər deyirlər ki, insanlar adətən bir çox məsələləri yadlarından çıxarırlar. İnsanlar unutqandır, yəni yavaş-yavaş və zaman keçdikcə hər bir şeyi unudurlar. İnsanın bir növ təbiəti belədir.

Bəzi məsələlər insan üçün faydalı olmasına baxmayaraq insan yavaş-yavaş onu unudur, qəflətə düşür və həmin faydalı şey onun əlindən çıxır. Həmçinin insana ziyan vuran bir hadisə və yaxud bir əməli yadında saxlaması lazım olduğu halda onu da unudur. Belə ki insana zərbə dəyməsin deyə onu yadda saxlamaq lazım gəlir. Lakin yavaş-yavaş onu unudur, zaman keçir və sonda ziyana uğrayır. Belə bir halda insana daim xəbərdarlıq etmək, yadına salmaq lazımdır. Yəni insanın yadından çıxartdığı və bunun nəticəsində də mənfəətini əldən verəcəyi həmin xeyirli məsələni onun yadına salmaq gərəkdir. Həmçinin insana ziyanı olan məsələləri unutduğuna görə də ziyana düşməsin deyə həmin məsələləri də onun yadına salmaq zəruridir. Elə bu səbəbdən də deyirlər ki, insana daim gərək xəbərdarlıq edilsin və yadına salınsın.

Sual oluna bilər ki, alimlərin insan barədə söylədikləri görəsən Quranda da bəyan olunubmu? Bu sualın cavabında açıq aydın demək olar ki, onlarca, yüzlərlə, hətta minlərlə məsələ vardır ki, Allah-taala onları bizim unutmamağımız üçün və bizə xatırlatmaq məqsədilə müxtəlif ayələrdə bəyan etmişdir. Nümunə üçün onlardan bir neçəsinə diqqət yetirək:

1. Allahı yaddan çıxarmayın;

Quranın bir çox ayələrində qeyd olunub ki, Allahı yaddan çıxarmayın. Allahın mübarək adını, sifətlərini zikr etməklə yadınızdan çıxmasına imkan verməyin. Çünki insan Allahı unudsa, hər bir şey məhv olar. Əgər O, unudulsa, insan insaniyyətdən xaric olub heyvaniyyətə daxil olar. Əgər O, yaddan çıxsa, heç bir heyvan insan kimi yırtıcı ola bilməz. Yırtıcı heyvanlar, məsələn, şir, bəbir, canavar və s. ən çoxu bir qoyun, yaxud bir quş ovlayıb yeyə bilərlər. Yəni gücü çatan heyvanı ovlayıb yeyirlər. Lakin insan belə deyil. İnsan əgər Allahı tanımasa və ya Onu yaddan çıxartsa, minlərlə insanları bətbəxt edər, milyonlarla insanları cəhənnəmə aparar. Yetmiş il kommunistlər "Allahı inkar edəcəyik və hər kim Allahın adını dilinə gətirsə, onun dilini kəsəcəyik" – deyə söylədilər. O fasiqlər bu məsələni yetmiş il sınaqdan keçirdikdən sonra başa düşdülər ki, yolu səhv gediblər. Görün bu yetmiş ildə neçə milyon insanı cəhənnəmə apardılar. İnsan belə bir varlıqdır.

İnsan əgər fasiq olsa, əgər Allahı tanımasa, elə bir iş görər ki, dünyada milyonlarla insan ağır-ağır xəstəliklərə düçar olar. Müəyyən insanların pullaşması üçün milyonlarla insan ağır qızdırma və ya başqa ağır xəstəliklərlə yataqda yatırlar. İnsan fasiq olsa, əlbəttə ki, axırı belə faciəli olar.

Tarixdə nə qədər günahsız insanları qətlə yetirmişlər. Hesablayın, baxın görün şirlər nə dəqər insan parçalayıb yeyiblər, yaxud fasiq insanlar nə qədər insanı qətlə yetiriblər. Bu, müqayisəyəgəlməz bir həddədir. Əgər hər bir şir gündə bir insan yesə, yenə də tarix boyu fasiq bir insanın qətlə yetirdiyi və qarət etdiyi insanların sayından azdır. Elə bu səbəbdən də insana göstəriş verilir ki, heç bir vaxt Allahı unutmasın. Bu haqda Quranda bir çox ayələr zikr olunmuşdur.

2. Allahın nemətlərini unutmayın;

3. İnsan nə üçün xəlq olunduğunu unutmamalıdır;

4. Axirət və əbədiyyəti unutmayın;
5. Ölümü unutmayın;
6. Bərzəxi yaddan çıxarmayın.
7. Qiyamət gününü xatırlayın.
8. Əməllərin haqq-hesab ediləcəyi günü yadınıza salın;
9. Cənnət və cəhənnəmi yadınızda saxlayın;
10. Vacib və haramları unutmayın;

Yəni, Allahın sizə vacib və haram buyurduğu şeyləri heç vaxt yadınızdan çıxarmayın. "La ilahə illəllah" və yaxud "Subhanallah" zikrini demək nə üçün müstəhəbdir? Hədislərdə belə nəql olunub ki, hər kim gündə bir dəfə "Subhanallah" desə, Allahın əmri ilə onun üçün cənnətdə bir ağac əkilər.

Hədislərdə nəql olunur ki, əgər bir nəfər Məkkədə Allah evinin ziyarətində bircə dəfə "Subhanallah" zikrini söyləsə, iki ölkənin[1] yığdığı vergilər Allah yolunda sədəqə verilsə belə savabı həmin hacının söylədiyi bircə bu zikrin savabına çata bilməz. Bu onu göstərir ki, Allah-taala Məkkəyə nə qədər çox dəyər və əzəmət bəxş etmişdir.

Bu kəlmənin həqiqi mənası o deməkdir ki, hər bir insan haram bir əməllə üzləşdiyi zaman bir dəfə "Subhanallah" deyərək harama göz yumsun. Bunu etdiyi zaman onun üçün behiştdə bir ağac əkərlər. Bir daha onun qarşısına haram çıxsa və bu dəfə də harama göz yumsa, yenə də onun üçün bir ağac əkərlər. Gərək bu iş axıra qədər belə davam etsin. Yəni insan sonradan günah etməklə onları yandırıb məhv etməməlidir.

Hər kim belə bir "Subhanallah" desə və onu özü cənnətə gedənə qədər qoruyub saxlasa, bu, çox dəyərli bir əməldir. Bu elə də asan bir iş deyil. Hünər istəyir ki, insan bircə kəlmə "Subhanəllah" dedikdən sonra onu Qiyamət gününə

---

[1] Bu "iki ölkə" ifadəsində məqsəd İraq və Suriyadır.

kimi qoruyub saxlasın. Bunun üçün insan bütün haram və günahlardan çəkinməlidir.

9. İlahi rəhbərləri unutmayın və onların qarşısında öz vəzifənizi bilin;

10. Şeytanı unutmayın.

Şeytanın xəlq olunmasını, məhz sizin üçün xəlq olunduğunu və heç bir vaxt sizi unutmadığını yaddan çıxarmayın. Heç bir vaxt yaddan çıxarmayın ki, Allaha and içmiş bir düşməniniz vardır. O, Allahın izzətinə and içərək – "Onların hamısını aldadıb yoldan çıxaracağam", – deyə bildirmişdir. O, öz andını heç bir vaxt yadından çıxarmır. Quranda da buyurulur ki, ey insan, sən onu (şeytanı) yadından çıxarma.

Quran təkidlə bildirir ki, əgər yuxarıda sadaladıqlarımızı unutsanız, o zaman ziyan görəcəksiniz. Əgər onları unutsanız, hədəfə çatmayacaq və məqsədə nail ola bilməyəcəksiniz.

## Xatırlamağın yolları

Burada bir məsələ vardır və o da bundan ibarətdir ki, görəsən, Quran xatırlamağı necə bəyan edir? Başqa sözlə desək, Quran özü necə yada salır və bu barədə bizdən nə istəyir?

Bəzi vaxtlar Allah-taala insanı qəflətdən oyatmaq üçün onu bəlaya düçar edir. Yəni insanı bir növ bəzi hadisələrlə başa salır və insan bu hadisənin nəticəsində qəflətdən oyanır.

Bəzən də Allah-taala insanı peyğəmbərlərin vasitəsilə qəflətdən oyadır. Peyğəmbərləri yadımızdan çıxanları yadımıza salmaq üçün göndərmişdir. Odur ki, peyğəmbərə – "Xatırlat! Həqiqətən sən yada salansan", [1] – deyə buyurmuşdur.

Bəzən isə Allah-taala möminlərdən istəyir ki, bir-birilərinə xatərlatsınlar. Əgər iki mömin bir məntəqədə yaşayırlarsa və birinin namaz qılmaq yadından çıxıbsa, yaxud bu dünyada

[1] Ğaşiyə surəsi, 21-ci ayə.

namazın vacib olduğunu unudubsa, digəri bu məsələni ona xatırlatmalıdır. Əgər insan zər aləmində Allaha “İlahi, dünyaya getsəm, Sənə səcdə edəcəyəm”, – deyə söz verdiyini unudubsa, bunu ona xatırlatmaq lazımdır. Orucun vacib olması haqda nazil edilən ayənin ona aid olduğunu unudubsa, deməli, bunu onun yadına salmaq gərəkdir. Öz insanlığını unudubsa, yenə də yadına salmalıdır.

### 1. Əyyamullahı (Allahın günlərini) xatırlayın

Allah-taala Qurani-kərimdə Həzrət Peyğəmbərə (s) buyurur ki, əyyamullahı insanların yadına sal. Allah-taala Həzrət Peyğəmbərin (s) vasitəsilə bunu bizə xatırladır. Allah-taala Quranda buyurur:

وَلَقَدْ أَرْسَلْنَا مُوسَى بِآيَاتِنَا أَنْ أَخْرِجْ قَوْمَكَ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ
وَذَكِّرْهُمْ بِأَيَّامِ اللَّهِ إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِكُلِّ صَبَّارٍ شَكُورٍ

–Həqiqətən, Biz Musanı Öz nişanələrimizlə və möcüzələrimizlə göndərdik ki, öz qövmünü nadanlıq, itaətsizlik və küfr zülmətlərindən iman nuruna tərəf çıxart. Və Allahın günlərini onların yadına sal ki, həqiqətən, bunda (xatırlatmada) hər bir səbir və şükür edən insan üçün nişanələr vardır.[1]

### “Əyyamullah” nə deməkdir?

Buradan qarşıya belə bir sual çıxır. Görəsən, Allahın günləri dedikdə, nə nəzərdə tutulur? Həzrət Musa (ə) nəyi bizim yadımıza salmalıdır? “Əyyamullah”ı, yəni Allahın günlərini insanların yadına salmaq bütün peyğəmbərlərin vəzifəsidir. Məgər bütün günlər Allahın deyilmi? Məgər məkanların hamısı Allahın deyilmi?

---

[1] İbrahim surəsi, 5-ci ayə.

Məlum məsələdir ki, bütün günlər və məkanlar Allahın ixtiyarındadır. Lakin bəzən görürük ki, məsələn, “Beytullah” (“Allahın evi”) kimi sözlər də istifadə olunur. Yəni ora xüsusi bir yerdir. Məkkədə Kəbə evi “Beytullah” adlanır.

Bütün günlər Allahındır, lakin “Allahın günlərini yada sal” deyildikdə, deməli bu günlər xüsusi günlərdir.

**Xüsusi günlər**

Şiə və sünni təfsirçiləri öz kitablarında xüsusi günləri bəyan etmişlər. Yümunə üçün onlardan bir neçəsinə diqqət etməyimiz yaxşı olardı:

1. Peyğəmbərlərin tağutlara qalib gəldiyi günlər əyyamullahdır;

2. Allah-taalanın Öz bəndələrinə nemətləri nazil etdiyi günlər əyyamullahdır;

3. Allahın düşmənlərinin zəlil halda məğlub olduğu günlər əyyamullahdır;

4. İnsanın ibrət dərsi aldığı hər hansı bir gün əyyamullahdır;

5. Bidətlərin aradan getdiyi və ədalətin bərpa olduğu günlər əyyamullahdır;

6. Həzrət Mehdinin (ə.c) qiyam edəcəyi gün əyyamullahdır;

7. Qiyamət günü əyyamullahdır;

8. Allahın insanları nemət və yaxud bəlalar vasitəsilə imtahana çəkdiyi günlər əyyamullahdır;

9. İnsanlara moizə olunan, bərəkət verilən və insanın qəflətdən oyanaraq hidayət olunmasına səbəb olan hər bir gün əyyamullahdır;

Bəzən biz camaat arasında belə günlərə “əlamətdar günlər” deyirik. İnsan belə günləri yada salmaqla zülmətlərdən çıxaraq nura daxil olur və azğınlıqlardan çıxıb hidayətə daxil olur.

10. Allahın yer üzündəki höccətlərinin dünyaya gəldikləri və dünyadan getdikləri günlər də əyyamullah sayılır. Belə günlərdə də insanlar hidayət olunurlar.

Böyük İslam Peyğəmbərinin (s) dünyaya gəldiyi gün Kəsranın sütunları dağıldı, filan yerin suyu qurudu, filan atəşgahın atəşi söndü. Həmin gün şeytan səhərə kimi ağladı. Cənab Cəbrayıldan (ə) soruşdu: Bu gecə nə olub belə? Mən bu gecəni çox əlamətdar bir gecə görürəm.

Cəbrayıl (ə) dedi: Bu gecə İslam Peyğəmbəri (s) dünyaya gəlib.

Həmin gün həmişə qeyd olunmalıdır. Belə günlər qeyd olunduqca insanlar daha çox hidayət olunurlar. Həmin günün insanların hidayət edilməsində böyük rolu vardır. Çünki dünyada bütün hidayətlərin mənşəyi Həzrət Peyğəmbərdir (s). Həzrət Peyğəmbərə (s) də bunu Allah-taala bəxş etmişdir. Həzrət Peyğəmbərin (s) dünyadan köçdüyü gün də belədir.

Həzrət Əli (ə) kimi bir höccət dünyaya gələndə Kəbə evinin divarı yarılır, Fatimə bint Əsədə – "Daxil ol bu evə", – deyə müraciət olunur. Belə bir gün gərək yaddaşlarda qalsın və həmişə qeyd olunsun. Kəbə evində dünyaya gələn bir şəxsin illər ötdükdən sonra ağ saqqalı Kufə məscidində fasiq bir terrorist insanların vasitəsilə al-qana boyanır. O günlər əyyamullah sayılır. Həmin gün gərək həmişə qeyd olunsun. Elə bu səbəbdən də heç bir vaxt yaddan çıxmaması üçün Allah-taala Həzrət Əlinin (ə) dünyaya gəlməsini Öz evi ilə, dünyadan getməsini isə Qədr gecələri ilə əlaqələndirib.

İmam Hüseynin (ə) Kərbəlada yetmiş iki nəfərlə birgə minlərlə münafiqin qarşısında dayanaraq şəhid olması və İslam dinini öz məcrasına qaytarması da əyyamullah hesab olunur. Əgər İmam Hüseyn (ə) olmasaydı, İslam öz məcrasından çıxardı. Həzrətin (ə) qiyamı nəticəsində bu gün Quran da, İslam da, Əhli-beyt də (ə) müsəlmanların əlindədir. Ancaq bəzi insanlar bunu anlamırlar. Onların düşündüyünə

görə, fasiq insanlarla əlbir olub günahsız insanları öldürmək bidət sayılmır, lakin İmam Hüseynin (ə) əzasında əyləşib onu xatırlamaq isə bidət sayılır. Çünki İmam Hüseynə (ə) əzadarlıq etmək, xatırlamaq onlara sərf etmir.

İmam Hüseyn (ə) Kərbəlada bir söz demək istəyirdi və məqsədinə də nail oldu. Həzrət (ə) demək istəyirdi ki, ey Yezid, sən özünü Həzrət Peyğəmbərin (s) xəlifəsi hesab edirsən?! İstədiyin bir ölkədə hakim ola bilərsən, lakin Həzrət Peyğəmbərin (s) yerində əyləşib özünü o həzrətin xəlifəsi kimi qələmə verməyinə imkan verməyəcəyəm. Çünki sən bu məqama layiq deyilsən. Sən sərxoş halda Həzrət Peyğəmbərin (s) yerində əyləşə bilməzsən. Atan Müaviyə cümə namazını həftənin üçüncü günü qıldı. Mən dünyaya sübut edəcəyəm ki, sən İslam xəlifəsi deyilsən. "İslam xəlifəsi" adını üzərindən götürdüyündən sonra nə istəyirsən et və kimə istəyirsən hakim ol.

Həzrət (ə) bu sözləri söylədi və sözünün üstündə də durdu. Əgər o gün İmam Hüseyn (ə) Yezidə bu sözləri deməsəydi və həmin gün Yezid İslam xəlifəsi adı ilə özünü təqdim etsəydi, bu gün bütün müsəlmanların başı aşağı olardı. Çünki Yezid şəhvətpərəst, gecələri səhərə kimi əyyaşlıqla keçirən bir insan idi. Belə bir nadürüstün müsəlmanlara hakim olmaslı müsəlmanlar üçün çox ağır olacaqdı. İmam Hüseyn (ə) da onun müsəlmanlara xəlifə olmasına imkan vermedi.

**Məhərrəm və aşura əyyamullahdır**

Məhərrəm ayı və aşura günü əyyamullah sayılır. Bütün müsəlmanlar bu günü qeyd etməyə borcludurlar. Aşura gününün müsəlmanların hidayət olunmasında və İslam dininin yaşamasında böyük rolu vardır.

**2. Allahın nişanələrini qoruyun**

Allahın yer üzündə höccətlərinin dünyaya gəldiyi və şəhid olduğu günlərin qeyd olunmasına ikinci dəlil Allahın nişanələridir. Allah-taala Həcc surəsinin 32-ci ayəsində belə buyurur:

ومن يعظم شعائِر اللهِ فَإِنها مِن تقْوى الْقُلُوبِ

–Kim Allahın nişanələrinə ehtiram göstərsə, şübhəsiz, (bu ehtiram) qəlblərdəki təqvadan hasil olur.

“شعائر” (şəair) sözü “شعِيره” (şəirə) kəlməsinin cəm formasıdır. “شعِيره” (şəirə) əlamət, nişanə mənasını bildirir.

Həzrət Peyğəmbər (s) və onun Əhli-beyti (ə) Allahın nişanələridir. Həzrət Əli (ə) buyurmuşdur:

أنا الْحجةُ الْعظْمي و الْآيةُ الْكُبري و الْمثَلُ الْأعلي

–Mən (öz dövrümdə) Allahın ən əzəmətli höccəti, ən böyük nişanəsi və ən yüksək məsəliyəm (danışanıyam).

Müctəhidlərə ona görə “ayətullah” deyilir ki, onlar “Allahın nişanələri”dirlər. Çünki Allahın hökmü və qanunu onların dili ilə insanlara çatdırılır. Onlara baxanda Allah yada düşür. Onlardan ən üstünü Həzrət Əlidir (ə).

Elə buna görə də əgər insanlar onların həm viladət günlərini və həm də şəhadət günlərini yadlarında saxlasalar, bu zaman onlara hörmət və ehtiram etmiş olarlar.

**Allahın nişanələrinə ehtiram göstərilməsinin yolları**

1. Onları tanımaq;
2. Daim onları yada salmaq;
3. Onların əmrinə tabe olmaq.

İmam Hüseynə (ə) əza saxlamaq ona olunan hörmətin ən az dərəcəsidir və bu əzadarlığın vasitəsilə böyük məqamlara ucalmaq olar.

## Əzadarlığın qaydası

Bəziləri soruşurlar ki, İmam Hüseynə (ə) ehtiram əlaməti olaraq ağlamaq nəyə lazımdır? Bunun cavabını Həzrət (ə) özü buyurmuşdur: "Əgər mənə hörmət edib əza saxlamaq istəyirsinizsə, gərək ağlayasınız."

İmam Sadiq (ə) buyurmuşdur:

من ذُكِرنا عِندہ فَفاضت عيناه حرم اللهُ وجهه علي النار

–Hər bir kəsin yanında bizim adımız çəkilsə və o şəxsin gözündən yaş axsa, Allah onun üzünü (camalını cəhənnəm) oduna haram edər.

Həzrət Peyğəmbərin (s) məhəbbətinə, İmam Hüseynin (ə) müsibətinə görə əgər bir üzə gözyaşı tökülsə, Allah ona cəhənnəm odunu haram etmişdir.

Heç kəs elə düşünməsin ki, onlara necə əza saxlamağı isə biz özümüzdən düzəltmişik. Bunu Həzrət Peyğəmbər (s), eləcə də məsum imamlar (ə) özləri buyurmuşlar. Hər kim o günləri yad etmək istəyirsə, gərək ağlamaqla, onların əhvalatlarını danışmaqla və rövzə oxumaqla yad etsin.

Hər bir millətin özünəməxsus əza saxlamaq qaydaları vardır və öz ənənələrinə uyğun əza saxlamalıdırlar. Məsələn, bəzi ölkələrdə qara geyinmək, bəzi ölkələrdə ağlamaq əzadarlıq əlaməti hesab olunur.

*Fiyuzi ibadət Hüseyndir, Hüseyn,*
*Lüzumi dəyanət Hüseyndir, Hüseyn.*
*Füruği itaət Hüseyndir, Hüseyn,*
*Dəlili səadət Hüseyndir, Hüseyn,*
*Çün məhrəm Hüseyndir, Hüseyn.*
*Məqudən ibarət Hüseyndir, Hüseyn.*

*Hüseyn məfxəri şahi lövlakidir,*
*Hüseyn zinəti ərşü əflakidir,*
*Hüseyn izzəti aləmi xakidir,*
*Hüseyn pakidir, pakidir, pakidir,*
*Müqəddəs viladət Hüseyndir, Hüseyn.*

*Edən qətligahində qan dəstəmaz,*
*Alan dərgəhi həqqidən imtiyaz,*
*Qılan xətmi peyğəmbəri sərfəraz,*
*Əda eyləyən topraq üstə nəmaz,*
*Zəmani şəhadət Hüseyndir, Hüseyn.*

*Behiştdir Hüseyn qaninin qiyməti,*
*Çəkib bu məqamə öz əbdiyyəti,*
*Hüseyn ilə kim getsə var izzəti,*
*Hüseynsiz behiştin nədir ləzzəti,*
*Behişti kəramət Hüseyndir, Hüseyn.*

## Aşura İslamda xüsusi günlərdən biridir

Yuxarıda dediklərimizdən belə bir nəticəyə gəlirik ki, müsəlmanlar, möminlər, Həzrət Peyğəmbəri (s) və onun Əhli-beytini (ə) sevənlər, ona "Ləbbeyk, la ilahə illəllah" deyənlər bu gün aşuranı qeyd etməklə və onu yaddan çıxmağa qoymamaqla əsl həqiqətdə Allahın buyurduğu "Allahən günlərini onlara xatırlat" ayəsinə əməl edirlər. İslamda hansı gün aşuradan daha mühüm gün ola bilər? Həzrət Peyğəmbərin (s) doğum günü, O Həzrətin (s) peyğəmbərliyə seçildiyi, İmam Əlinin (ə) doğum və şəhid olduğu gündən sonra İslam tarixində aşuradan daha mühüm bir gün gözə dəymir. Elə bu səbəbdən də aşura əyyamullah hesab edilir və möminlər həmişə bu günü Quranın buyurduğu kimi qeyd edirlər.

Həmçinin Qurani-kərimin “–Kim Allahın nişanələrinə ehtiram göstərsə, şübhəsiz, (bu ehtiram) qəlblərdəki təqvadan hasil olur.” – ayəsinə əsasən, müsəlmanlar və möminlər bu günü, yəni aşura gününü qeyd edirlər. Çünki aşura günü Allah-taalanın nişanələrindən biridir. Möminlər bu günü qeyd etməklə onun yaddaşlardan silinməsinə imkan vermirlər.

## Əhli-beytə (ə) məhəbbətin vacibliyi

Allah-taala Qurani-kərimin “Şura” surəsinin 23-cü ayəsində buyurur:

قُل لا أَسأَلُكُم عَلَيهِ أَجراً إِلا الْمَودةَ فِي الْقُربى

–De: “Sizdən bunun (ilahi tapşırıqların çatdırılması) müqabilində qohumlarımın barəsində (qəlb və əməldə olan) məhəbbətdən başqa bir muzd istəmirəm.”

Bu ayənin nazil olması səbəbi haqda alimlər belə yazırlar: “Ənsardan olan bir qrup müsəlman Həzrət Peyğəmbərin (s) yanına gəlib dedilər:

–Ya Rəsulallah! Sən bizi hidayət etdiyin üçün minnətdarlıq etmək məqsədilə sənin hüzuruna gəlmişik. Allah sənin vasitənlə bizi hidayət edib. Bu səbəbdən də sənə öz təşəkkürümüzü bildirmək istəyirik. Biz yoxsul, ac, insanlar idik, Allah-taala sənin bərəkətinin vasitəsilə bizə bərəkət verdi və indi biz gözəl günlər yaşayırıq. Ümmətin yolunda çəkdiyin zəhmətlərin müqabilində sənə dərin minnətdarlığımızı bildirmək və sənin istəyini yerinə yetirmək üçün gəlmişik. İstədiyin hər bir şeyi (ev, pul, var-dövlət) sənin ixtiyarında qoymağa hazırıq. Ürəyin hər nə istəyirsə, biz sənin qulluğunda hazırıq.”

Elə bu məqamda yuxarıda qeyd olunan ayə nazil oldu və Allah Həzrət Peyğəmbərə (s) buyurdu ki, onlara belə söyləsin: “Siz dediyiniz kimi, əgər mən sizi azğınlıqdan hidayət etmişəmsə, sizi düz yola yönəltmişəmsə, sizi yoxsulluqdan xilas etmişəmsə və sizi izzətə çatdırmışamsa, siz də bunun

müqabilində mənə təşəkkür etmək istəyirsinizsə, o zaman mən sizdən Əhli-beytimə məhəbbətdən savayı başqa heç bir əcr və muzd istəmirəm. Məndən sonra mənim Əhli-beytim, itrətim sizin aranızda yaşayacaqlar və onların məhəbbəti sizlərə vacibdir. Mən bu risalətimin müqabilində sizdən heç bir şey istəmirəm, yalnız Əhli-beytimi sevməyi, onlara ehtiram göstərməyi istəyirəm.”

İbn Abbas deyir:

لَما نزلَت " قُل لا أسأَلُكُم علَيهِ..." قالُوا: يا رسولَ الله! من قَرابتك هؤلاء الّذِين وجبت علَينا مودتهم؟ قالَ: علي و فاطِمةَ و ابناهما.

Bu ayə nazil olan zaman bəziləri o Həzrətdən (s) soruşdular:

–Ey Allahın Rəsulu (s)! Məhəbbəti bizlərə vacib olan yaxınların kimlərdir?

Həzrət Peyğəmbər (s) onların cavabında buyurdu:

–Əli, Fatimə və onların iki oğlu.

Bu hədis Əhli-sünnənin “əl-Kəşşaf”, “əd-Durrul-mənsur”, “Şəvahidut-tənzil” və s. kimi kitablarında nəql olunmuşdur.

Deməli bu hədisdən belə bir qənaətə gəlirik ki, Həzrət Peyğəmbər (s) bizi hidayət etdiyinə, bizi İslama dəvət etdiyinə, Allahı bizlərə tanıtdırdığına görə biz də ona təşəkkür etmək istəyiriksə, gərək onun Əhli-beytinə (ə) məhəbbət bəsləyək. Çünki Həzrət Peyğəmbər (s) özü buyurur ki, mən sizdən təşəkkür istəmirəm, mənim Əhli-beytim (ə) sizə əmanətdir və siz də bu əmanətə hörmətlə və izzətlə yanaşın.

## Bizim Əhli-beytə (ə) ehtiyacımız var

Burada belə bir sual yarana bilər və o da bundan ibarətdir ki, görəsən, Həzrət Peyğəmbərin (s) onun Əhli-beytinə (ə) məhəbbət bəslənilməsinə ehtiyacı var idimi? Həzrət Peyğəmbərdən (s) sonra ümmətin Xanım Fatiməni (s.ə), İmam

Həsəni (ə) və İmam Hüseyni (ə) sevməsinə nə ehtiyac var idi? Başqa sözlərlə desək, Həzrət Əlinin (ə) buna nə ehtiyacı var idi? Xanım Fatimeyi Zəhranın (s.ə) nə ehtiyacı var idi? İmam Həsənin (ə) və İmam Hüseynin (ə) ümmətin onları sevməsinə nə ehtiyacları var idi?

Bu sualın cavabında Allah-taala Quranın "Səbə" surəsinin 47-ci ayəsində belə buyurur:

قُلْ ما سأَلْتكُم من أجرٍ فَهو لكُم

–De: "Sizdən istəmədiyim bütün muzdlar sizin olsun. Sizdən istədiyim muzd (Əhli-beytimə məhəbbət) sizin öz xeyrinizədir."

Allah-taala Həzrət Peyğəmbərə (s) buyurur ki, ümmətə belə de: "Şəxsən nə mənim, nə Əlinin (ə), nə Zəhranın (s.ə) və nə də Həsənlə (ə) Hüseynin (ə) sizin məhəbbət bəsləməyinizə heç bir ehtiyacımız yoxdur."

Onlar Allahın sevdiyi insanlardır. Onlar Həzrət Peyğəmbərin (s) qucağında böyümüşlər. Həzrət Peyğəmbər (s) dəfələrlə onlara və ümmətə "Onlar cənnətin ağalarıdır", – deyə xitab etmişdir. Həzrət Peyğəmbər (s) buyurmuşdur:

أولُ من يدخلُ الْجنةَ فَاطِمة

–Cənnətə daxil olan ilk şəxs Fatimədir.

Onların əzəmətləri çox aydın bir məsələdir. Onların 1400 ildən sonra hər hansı bir azərbaycanlının, farsın, ərəbin və s. onları sevməsinə ehtiyacları yoxdur. Quran buyurur ki, sizin onlara məhəbbət bəsləməyə ehtiyacınız var. Siz müsəlmanların onların elminə, təqvasına, hakimiyyətlərinə, varlığına, məlumatlılığına və bəsirətlərinə ehtiyacınız vardır. Əgər onlar sizin aranızda olsa, o zaman siz hidayət olarsınız və sizə nuraniyyət bəxş edilər. O zaman siz onların vücudları sayəsində izzətli, xoşbəxt olar və tərəqqi etmiş olarsınız. Quran ayələrinə əsasən, onların hakimiyyəti Allahın hakimiyyətidir. Onların hakimiyyəti saleh insanların hakimiyyətidir. Onların

hakimiyyəti zülmün aradan qaldırılması və ədalətin bərqərar olunması üçündür. Onların hakimiyyətində insanlar üçün xeyli mənfəətlər vardır. Yer üzərində öz əli ilə İmam Hüseyni (ə) qətlə yetirib, Yezidi onun yerində əyləşdirən insanlardan bədbəxt insanlar yoxdur.

Bədbəxt insan həm də o insandır ki, min ildən sonra bir kitab yazaraq özündən hədislər uydurur və "Peyğəmbər (s) buyurub ki, Yezidə lənət oxumaq olmaz", – deyə söyləyir.

Həzrət Peyğəmbər (s) heç bir vaxt Quranın əksinə bir söz deməz. Həzrət Peyğəmbər (s) heç bir vaxt deməz ki, "şərab içən əmr sahibidir!" Həzrət Peyğəmbər (s) heç bir vaxt belə deməz və bu mümkün olan bir iş deyil. Çünki Həzrət Peyğəmbər (s) özü onu haram buyurmuşdur. Yezidin gördüyü işləri Həzrət Peyğəmbər (s) özü haram etmişdir. İndi necə deyə bilər ki, ona heç bir söz deməyin?! Bəs onda özü nə üçün Əbu Süfyana bunları deyirdi?!

Əbu Süfyanla Yezidin isə heç bir fərqi yoxdur. Əbu Süfyan Yezidin babasıdır. Heç bir vaxt ola bilməz ki, Həzrət Peyğəmbər (s) müşriklərlə 84 dəfə müharibə etsin, bu müharibələrdə müsəlmanların qanları tökülsün, o həzrətin özü yaralansın, dişi sınsın və sonra da desin ki, məndən sonra qoy bu ümmətə kim istəyir hakim olsun. Həzrət Peyğəmbərin (s) belə bir iş görməsi mümkün deyil.

Həzrət Peyğəmbər (s) heç bir vaxt razı olmazdı ki, zalım bir şəxs onun xəlifəsi olsun. Çünki Quran özü zalımlara lənət oxuyur. Həzrət Peyğəmbər (s) necə deyə bilər ki, "Yezidlə işiniz olmasın?" Axı, Həzrət Peyğəmbər (s) Quranın əleyhinə heç bir söz deməz.

İnsan bir kitab yazanda və ya bir məsələni oxuyanda gərək diqqətli olsun ki, orada heç bir ziddiyyətli məqamlara yol verməsin. Elə bu səbəbdən də əgər Əhli-beytin (ə) adı və İmam Hüseynin aşurası daim yaşasa, əgər onların əzası saxlanılsa, doğulduğu günlər qeyd olunsa, bütün bunlar

müsəlmanların xeyrinədir. İndi əgər hər hansı bir insan İmam Hüseynə (ə) xatir qara köynək geyinməsə və bunun əvəzinə qırmızı geyinsə, yaxud o həzrət üçün ehsan verməyib, pulunu başqa yerlərə xərcləsə, bunların o həzrətə heç bir ziyanı ola bilməz. Əksinə, həmin şəxsin əlindən böyük mənfəətlərin çıxmasına səbəb olar.

Odur ki, Həzrət Peyğəmbərin (s) ehtiramını bizə vacib buyurduğu həmin şəxsləri tanımaq lazımdır. Bəziləri bizə irad tuataraq deyir ki, olan olub, keçən keçib. Daha bunların nə mənası? Biz də onların cavabında deyirik ki, Allah bizə Quran nazil edib və bu müqəddəs kitabda da Əhli-beyti sevməyi bizə vacib buyurub. Məgər biz məhəbbətlərinin bizə vacib olduğu kəsləri tanımamalıyıqmı? Biz onları tanımalı, onlara məhəbbət və ehtiramımızı bildirməliyik. Əzadarlığa gədikdə isə əza saxlamaq onlara olan ehtiramın ilk addımı və mərhələsidir.

## Həzrət Peyğəmbərin (s) baxışında əzadarlıq

Qeyd olunan ayələrdən Əhli-beytə (ə) ehtiram göstərilməsinin vacib olduğunu bildiyimizdən və onlara əza saxlamaqla öz ehtiramımızı bildirməyimizdən əlavə gəlin baxaq görək, Həzrət Peyğəmbər (s) və onun Əhli-beyti (ə) əza məsələsini necə mənalandırıblar.

Bəzən İslam elmlərindən heç bir xəbəri olmayan bir sıra insanlar elə söhbətlər edirlər ki, sanki böyük islamşünasdırlar. Demokratiya və azadlıq adı altında istədiklərini deyirlər.

Gəlin baxaq görək, Həzrət Peyğəmbər (s) insanları əzadarlıq etməyə dəvət edibmi və əzadarlığı insanlara necə başa salmışdır? Həmçinin baxaq görək Həzrət Peyğəmbər (s) insanlardan necə əza saxlamağı tələb etmişdir?

**1. Şəhadətdən öncəki əzadarlıq**

Tarixi mənbələrdən də məlumdur ki, bəzən bir məsum başqa bir məsumun şəhadətindən əvvəl onun necə, harada və nə cür şəhid olacağını zikr etməklə əzadarlıq etmişdir. Alimlər kitablarda bu məslələri yazıb qeyd etmişlər. Məsələn, İmam Hüseyn (ə) şəhid edilməmişdən illər öncə qabaq İslam Peyğəmbəri (s), İmam Əli (ə), Xanım Fafimə (s.ə), İmam Həsən (ə) və cənab Cəbrayıl (ə) onun şəhadəti haqda xəbər vermişlərsə, deməli İmam Hüseynin (ə) şəhadətindən öncə Kərbəla hadisəsi haqda söhbətlər olmuş və onun üçün əzadarlıq edilmişdir. Nümunə üçün bu barədə nəql olmuş bir hədisə diqqət yetirək: İslam Peyğəmbəri (s) qızı Xanım Fatiməyə (s.ə) belə buyurmuşdur:

يا قَاطِمةُ، كُل عين باكِيةٌ يوم الْقِيامةِ ِالا عين بكَت علي مصابِ الْحسين. قَِانها ضاحِكَةٌ مستبشِرةٌ ِبنعِيمِ الْجنةِ

–Ey Fatimə! Qiyamət günü Hüseynin müsibətinə ağlayan gözdən savayı, bütün gözlər ağlayacaqlar. Həqiqətən, onlar güləcəklər və cənnətin nemətləri ilə müjdələnəcəklər.

Qiyamət günü həqiqətən çox ağır bir gün olacaq. Bunu insanların çoxu anlamırlar, lakin Həzrət Peyğəmbər (s) bunu çox gözəl başa düşürdü. İnsanlar sadəcə olaraq Quran ayələrində və hədislərdə qeyd edilən “Qiyamət günü çox çətin gündür” kəlamlarını eşitməklə kifayətlənirlər.

Qeyd olunan hədisdən belə başa düşülür ki, İmam Hüseynin (ə) əzası saxlanılacaq və bu əzada hər kim ağlasa, onun gözyaşı qəbul olunacaqdır. Deməli İmam Hüseynin (ə) əzasında ağlayan şəxsdən Allahın xoşuna gəlir. Bu əməldən həm Həzrət Peyğəmbər (s), həm qızı Xanım Fatimə (s) və həm də İmam Hüseyn (ə) özü razıdır. Həmçinin bu hədisdən belə başa düşülür ki, Həzrət Peyğəmbər (s) İmam Hüseynin (ə) əzasında ağlamaqdan söhbət açaraq buyurur: – “Qiyamət günü Hüseynə ağlayan gözdən savayı, bütün gözlər ağlaya-

caqlar. Onun üçün ağlayan gözlərə mələklər cənnət müjdəsi verəcəklər.

Ayişə xanım Həzrət Peyğəmbərdən (s) belə nəql edir: “Bir gün Həzrət Peyğəmbər (s) öz otağında əyləşmişdi. Bütün qapılar bağlı idi. Cənab Cəbrayıl (ə) nazil olub Həzrət Peyğəmbərə (s) vəhy gətirmişdi. İmam Hüseyn (ə) otaqda idi.[1] İmam Hüseyn (ə) gəlib Həzrət Peyğəmbərin (s) qucağında əyləşdi. Bunu görən Cəbrayıl (ə) o həzrətdən soruşdu:

–Ya Rəsulallah! Bu uşağı sevirsənmi?

Həzrət Peyğəmbər (s) buyurdu:

–Bəli, sevirəm.

Daha sonra Cəbrayıl (ə) “bu uşaq səndən sonra böyüyəcək və sənin ümmətin onu Kərbəlada şəhid edəcəkdir”, – deyə söylədi. Sonra isə bir ovuc torpaq çıxarıb Həzrət Peyğəmbərə (s) verdi və dedi: “Bu da həmin Kərbəlanın torpağıdır.”

Cəbrayıl (ə) gedəndən sonra Həzrət Peyğəmbər (s) əlində bir ovuc torpaq ağlaya-ağlaya otağından çıxıb mənə buyurdu:

اِن جبرِئيلَ اَخبرِني ان اِبني حسين مقْتلٌ فِي اَرضِ الطف و اِن اُمِتي ستفَتن بعدي

–Həqiqətən, Cəbrayıl (ə) mənə xəbər verdi ki, oğlum Hüseyn (ə) Təff çölündə (Kərbəlada) qətlə yetiriləcək və ümmətim məndən sonra imtahana çəkiləcək.

ثُم خرج اِلى اَصحابِهِ. فِهم عِلي و اَبوبكر و عمر و حذَيف و عمار و اَبوذر

Həzrət Peyğəmbər (s) bu sözləri dedikdən sonra məscidə daxil oldu. Orada bir qrup səhabə əyləşmişdi. Əli (ə), Əbu Bəkr, Ömər, Hüzeyfə, Əmmar və Abuzər onların arasında idilər. Onlar Həzrət Peyğəmbəri (s) narahat halda gördükdə

[1] Həzrət Peyğəmbərə (s) vəhy gələndə bəzi vaxtlar Həzrət Əli (ə), İmam Həsən (ə) və ya İmam Hüseyn (ə) onun yanında olanda onları eşiyə çıxartmırdı.

“Ya Rəsulallah, niyə narahatsınız?” – deyə soruşdular. Həzrət Peyğəmbər (s) onların cavabında “Cəbrayıl (ə) nazil olmuşdu və Hüseynin şəhid olacağını mənə xəbər verdi”, – deyə buyurdu. Daha sonra isə əlavə edərək belə buyurdu:

و جائَني بِهذِهِ التربةَ و أخبرني أن فِيها مضجعه

–Mənə bu torpağı gətirdi və xəbər verdi ki, bu yer onun dəfn olunacağı yerdir.

Həzrət Peyğəmbər (s) bunu deyib əlindəki torpağı da onlara göstərdi.

Əgər bu hadisəni cənab Cəbrayıl (ə) Həzrət Peyğəmbər (s) və Ayişə xanım danışırlarsa, deməli İmam Hüseynin (ə) şəhadətindən qabaq onun əzadarlığı haqda söhbətlər etmişlər.

Başqa bir rəvayətdə belə deyilir:

–İmam Hüseynin (ə) təvəllüdünün ikinci ili idi. Yəni onun iki yaşı olarkən Həzrət Peyğəmbər (s) səfərə yola düşürdü. Evdən çıxanda bir anlıq dayanıb “إنا لِلّهِ و إنا إليه راجِعون” (İnna lillahi və inna ileyhi raciun. – Allah tərəfindən gəlmişik və Ona tərəf də qayıdacağıq)[1] ayəsini oxudu və ağladı. Səhabələr o Həzrətin hərəkətlərinə fikir verirdilər.. Odur ki, “Ya Peyğəmbər (s), ağlamağının səbəbi nədir?” – deyə soruşdular. Həzrət Peyğəmbər (s) buyurdu: “Bu gün Hüseynin (ə) iki yaşı tamam oldu. Cənab Cəbrayıl (ə) nazil olmuşdu və mənə Hüseynin (ə) şəhadətini elə danışdı ki, sanki məni aparıb həmin kəsilən başları göstərdi.”

Həzrət Peyğəmbər (s) bunu deyib ağladı və onun bu sözlərini eşidənlər də ağlamağa başladılar.

Beləcə, Peyğəmbər (s) səfərə yollandı. Səfərdən qayıdandan sonra İmam Həsənin (ə) və İmam Hüseynin (ə) əllərindən tutub minbərə çıxdı. Bir əlini Həsənin (ə), digər əlini isə Hüseynin (ə) başına qoyaraq buyurdu:

---

[1] Adətən, bu ayəni ölüm haqda bir hadisə olanda oxuyarlar.

–İlahi! Məndən sonra bu iki oğlum yaşayacaqlar. Cəbrayıl (ə) mənə xəbər verdi ki, bu oğlumu (İmam Həsənə (ə) işarə edib) zəhərlə bu oğlumu isə (İmam Hüseynə (ə) işarə edib) qılıncla öldürəcəklər. İlahi, şəhadəti bu uşaqlara mübarək et! Öz bərəkətini bunların qatillərindən çək!

Həzrət Peyğəmbər (s) bunları söylədikcə camaat da ağlamağa başladı.

Odur ki, əgər bir şəxs İmam Hüseynin (ə) şəhadətindən danışırsa və digərləri də ağlayırsa, deməli bu, əza məclisidir. Həzrət Peyğəmbərin (s) rövzə oxuması və səhabələrin ağlaması elə əzadarlıq etməkdir.

Həzrət Peyğəmbər (s) onların ağladığını görüb buyurdu: "İndi ağlayırsınız, lakin vaxt gələcək Hüseynə (ə) kömək etməyəcəksiniz." Daha sonra məşhur hədisi orada bir daha bəyan etdi:

إِني تارِكٌ فِيكُم الثقَلَين: كِتاب اللهِ و عِترتي أَهلَ بيتي

–Mən gedirəm, lakin sizin aranızda iki qiymətli əmanət qoyuram. Biri Allahın kitabı, digəri isə mənim itrətim.

Bu hadisələrdən və məlum hədislərdən bir daha məlum olur ki, İmam Hüseynin (ə) şəhadətindən qabaq o həzrətə əzadarlıq edib və onun şəhadətindən söhbət açıblar.

**İmam Həsənin (ə) əza saxlaması**

Bütün tarix kitablarında İmam Həsənin (ə) həyatından bəhs edən tarixçilər yazıblar ki, o həzrət ömrünün son anlarında İmam Hüseyni (ə) bağrına basaraq bu cümləni deyib ağladı:

لا يوم كيومك يا أبا عبدِ الله

–Ey Əba Əbdillah, heç bir gün sənin gününə çatmaz.

**Həzrət Əlinin (ə) əzadar olması**

Abdullah ibn Qeys deyir: "Siffeyn müharibəsində mən Siffeynə çatanda düşmənlər artıq suyun yolunu bağlamışdılar. Həzrət Əli (ə) üzünü səhabələrinə tutaraq göstəriş verdi ki, bir dəstə gedib Fərat çayının suyunun yolunu açsınlar. Səhabələrdən bir dəstəsi döyüşə yollandı. Lakin heç bir nəticə əldə etmədən geri qayıtdılar. Onların əliboş qayıtdıqlarını görən İmam Hüseyn (ə) ayağa qalxıb suyun yolunu açmaq üçün icazə istədi. Həzrət Əli (ə) ona icazə verdi. İmam Hüseyn (ə) bir dəstə ilə suyun yolunu açmağa yollandı. Möhkəm bir savaş oldu və suyun yolunu bağlayanlar Fərat çayının ətrafından uzaqlaşdırıldı.

İmam Hüseynin (ə) qələbə ilə qayıtdığını Həzrət Əliyə (ə) xəbər verdilər. Elə bu zaman o həzrətin (ə) ağladığını gördülər. Dedilər: "Ya Əmirəlmöminin, oğlun qələbə çalıb, istədiyinə nail olub, bəs nə üçün ağlayırsan?" Həzrət Əli (ə) onların cavabında buyurdu:

–Siz mənim nə üçün ağladığımı bilmirsiniz. Siz bu günü görürsünüz, mən isə elə həmin bu Fərat çayının kənarında oğlum Hüseyni (ə) susuz şəhid edəcəkləri günü görürəm. Onu atdan yerə salacaqlar və atı sahibsiz halda "Fəryad o ümmətin əlindən ki, Peyğəmbər qızının öğlunu öldürdülər" deyə-deyə xeymələrə tərəf qayıdacaq.

Bütün bu hadisələrdən bizə məlum olur ki, İmam Hüseynin (ə) şəhadətindən illər öncə onun haqqında söhbətlər olmuş və onun əzadarlığı barədə danışılıb. İslam Peyğəmbəri (s), Həzrət Əli (ə) və Xanım Zəhra (s.ə) bu hadisəni yad edərək ağlamışlar. Xanım Zəhra (s.ə) dəfələrlə Həzrət Peyğəmbərin (s) bu hadisəyə ağladığını görmüşdür.

Bir gün Xanım Fatimeyi Zəhra (s.ə) Həzrət Peyğəmbərdən (s) "Niyə ağlayırsan?" – deyə soruşdu. Həzrət (s) buyurdu:

–Sənə deyərəm, amma gərək səbirli olasan.

Xanım Zəhra (s.ə) ərz etdi: Bəli atacan, səbr edərəm. Peyğəmbər (s) buyurdu:

–Həzrət Cəbrayıl (ə) mənə xəbər verdi ki, sənin oğlun Hüseyni (ə) qətlə yetirib, başını da bədənindən ayıracaqlar.

Xanım Zəhra (s.ə) ağlayaraq ərz etdi: “Atacan, icazə verirsənmi öz evimdə ağlayıb Hüseynə (ə) əza saxlayım?” Həzrət Peyğəmbər (s) qızına icazə verdikdə Xanım Zəhra (s.ə) ağlayaraq dedi: “وا مظلوما وا غريبا” – “Məzlum şəhid olan oğlum vay, qərib şəhid olan oğlum vay!”

Bu, Xanım Fatimeyi Zəhranın (s.ə) rövzəsidir. Hüseynin (ə) əzası cənnətdir, Hüseynin (ə) əzası izzətdir. Hüseynə (ə) əza saxlamaq səadətdir.

*Behişt adı ilə məni azdırma sən, ey zahid,*
*Mənim Hüseyndir Behiştim, canani neyləyirəm.*

*Nə vardır qəsrə əlaqəm, nə mayili tacəm,*
*Fəqət Hüseynə, Hüseynə, Hüseynə möhtacəm.*

*Hüseyn adı ilə o qədri üruc edər ruhim,*
*Ki, qah fikr edərəm mən də mərdi meracəm.*

*“Ənəl Hüseyn” demişəm, kafir olmuşam dostlar,*
*Gəlin, çəkin məni darə ki, mən də həllacəm.*

**2. Şəhadətdən sonrakı əzadarlıq**

Qeyd olundu ki, İslam Peyğəmbəri (s), Həzrət Əli (ə), İmam Həsən (ə) İmam Hüseynin (s) şəhadətindən illər öncə qabaq onun şəhid olacağı barədə xəbər vermiş və onun üçün göz yaşı tökərək əza saxlamışlar. Hətta həzrət Əbülfəzl (ə) dünyaya göz açdığı gün İmam Əlinin (ə) onun üçün ağladığının şahidi olmuşlar. Ümmül-Bənin o Həzrətdən (ə) nə üçün ağladığının soruşduqda, İmam (ə) Kərbəla hadisəsini ona danışmış və həzrət Əbülfəzlin (ə) şəhid olacağı barədə xəbər vermişdi.

İmam Hüseyn (ə) şəhid olduqdan sonra məsum imamların (ə) hərəkət və kəlamlarında da açıq aydın görmək olur ki, onlar da İmam Hüseyn (ə) üçün əza məclisi qurmuşdular. Tarixə diqqət yetirdikdə ilk əzadarlıq elə Kərbəlanın özündə təşkil olundu. İmam Hüseyn (ə) şəhid olduğu saatdan Xanım Zeynəb (s.ə) və digər qızlar əzadarlıq etməyə başladılar. Bu haqda bir çox hədis və rəvayətlərin nəql olunduğunu görürük. Həmin gündən bəri İmam Hüseynin (ə) əzadarlığı davam etməkdədir.

Burada sual yarana bilər ki, bu əzadarlıq bizlərə haradan gəlib çatıb? Kim deyib və bunu bizə kim öyrədib? Görəsən, İslam dinində belə bir şey varmı? Əgər varsa, buna dair əlimizdə hər hansı bir dəlil və ya sübut vardırmı? İmam Hüseyn (ə) öz istədiyinə çatdı və izzətlə şəhid oldu. Sonuncu dəfə ailəsi ilə vidalaşarkən onlara ağlamamağı tapşırdı. Hətta aşura gecəsi xanımların narahat olub ağladıqlarını görəndə İmam Hüseyn (ə) nəsihət edib sakitləşdirirdi. Bacısı Xanım Zeynəbin (s.ə) ağladığı yerlərdən biri də İmam Hüseynin (ə) vidalaşdığı zaman idi. Rəvayətə əsasən, Həzrət Zeynəb (s.ə) öz xeyməsindən çıxaraq anası Fatimeyi Zəhranın (s.ə) adını çəkdi və İmamı (ə) bir neçə dəqiqəlik saxladı.

*Bir neçə yol məhlənu məhla dedi,*
*Vəslə "bəla" ayrılığa "la" dedi,*
*Təngidi, vallah mənə dünya dedi,*
*Gəldi bacın dildə təmənna dedi,*
*Hüseyn, mərkəbi saxla, səni Zəhra dedi.*

İmam Hüseyn (ə) dayananıb bacısına bir neçə kəlmə ilə gözəl və aşiqanə nəsihət etdi.

*Yar baxır ağlama, ay zi məqam,*
*Olma belə qalibi bicani eşq.*

*Sinəvi qəmlər oxuna baz elə,*
*Hikməti nasutiyə sən naz elə,*
*Aləmi lahutitə pərvaz elə,*
*Fatimə tək eşqidə ecaz elə,*
*Əhmədi Muxtari sərəfraz elə,*
*Səy elə ol silsilə cünbani eşq.*

*Bacı!*
*Ruzi əzəl mətrəh olanda bəla,*
*Çatdı bəla ilə bizə Kərbəla,*
*Mən bu biyabanidə ollam fəna,*
*Ta nəfəsin var sənə var ibtila,*
*Çün eşq giriftarinə yoxdur dəva,*
*Dərdidi tənha bacı dərmani eşq.*

*Eşqimizin var əbədi dövləti,*
*Həqq Özü vermiş bizə bu neməti,*
*Neyləyirəm canu səru itrəti,*
*Bəsdi mənə dilbərimin vəsləti,*
*Xəncəru şəmşir ilə var ləzzəti,*
*Yar baxa doğrana qurbani eşq.*

Odur ki, bəziləri ortalığa belə bir sual qoyur ki, İmam Hüseyn (ə) şəhid olmaqla öz istədiyinə çatdı. Allaha qovuşmaq istəyirdi ki, buna da nail oldu. Burada ağlamaq nəyə lazımdır? Əksinə, olmazmı onun şəhadətə qovuşduğu üçün şadlıq və şənlik məclisləri təşkil edək? Burada nə üçün ağlayıb yas saxlamalıyıq?

Bu sualların cavabı belədir ki, əgər biz İmam Hüseynin (ə) şəhid olduğuna görə şadlıq məclisi qursaq, görəsən onun özü bizim bu hərəkətimizdən razı qalacaqmı? Biz İmam Hüseynə (ə) elə bir məclis keçirməliyik ki, gərək onun özünün də bu məclisdən xoşu gəlsin və bizim hərəkətimizdən razı qalsın. Onun acığı gəldiyi bir məclisi təşkil etmək düzgündürmü?

İmam Hüseyn (ə) onun üçün necə bir məclisin keçirilməsini bizə öyrətmişdir. Odur ki, əgər İmam Hüseyn (ə) necə bir məclisin keçirilməsini bizə başa salıbsa və biz isə başqa cür məclis təşkil etsək, o zaman ona hörmət etmiş sayılırıqmı?! İnsan özü üçün istədiyi kimi məclis təşkil edə bilər, lakin İmam Hüseyn (ə) üçün keçirilən məclis gərək onların bəyəndiyi kimi təşkil olunsun.

Gəlin baxaq görək Həzrət Peyğəmbər (s), Həzrət Əli (ə) Xanım Fatimeyi Zəhra (s.ə) və şəhidlər sərvərinin oğlu İmam Səccad (ə) necə bir məclisin keçirilməsini bəyənirlər? Görəsən İmam Baqir (ə) və İmam Sadiq (ə) bu haqda nə buyurmuşlar? Çünki onlar bizim üçün höccət və nümunədirlər. Baxaq görək İmam Sadiq (ə) şadlıq məclisi keçirib, yoxsa əza məclisi qurub? Onlar necə ediblərsə, biz də elə etməliyik. Həzrət Peyğəmbər (s) dəfələrlə buyurmuşdur: “Mənim Əhlibeytimə (ə) məhəbbət bəsləyin.” Biz də onlara öz məhəbbətimizi bildirmək üşün görəsən nə etsək, daha yaxşı olar?

İndi isə gəlin məsum imamlarımızın (ə) bu barədə buyurduğu kəlamlara və hərəkətlərinə diqqət yetirək. Görək onlar İmam Hüseynin (ə) məclisini hansı tərzdə keşirmiş və bizlərə də bu barədə hansı tövsiyələri buyurmuşlar:

**a) Əzadarlıq haqda məsumların kəlamları**

İmam Rza (ə) Şübeybin oğlu ilə söhbət edərkən ona belə buyurdu:

يا بن شبيب، اِنْ كُنت باكِياً لِشيءٍ فَابكِ لِلْحسينِ بنِ عِلي (ع). فَاِنه ذُبِح كَما يذبح الْكَبش.

–Ey Şəbibin oğlu, əgər ağlamaq istəsən, Hüseyn ibn Əli üçün (ə) ağla. Çünki onu qurbanlıq kimi kəsdilər.

İmam Sadiq (ə) buyurur:

كُل الْجزع و الْبكاءُ مكْروه سِوي الجَزع و الْبكاءُ علَي الْحسينِ

–Hüseynin (ə) əzasında nalə edib ağlamaqdan başqa bütün nalə və ağlamaqlar məkruhdur.

Yəni, insan İmam Hüseynin (ə) əzasında istədiyi qədər ağlayıb ah-nalə edə bilər. Əgər birinin övladı, yaxın bir adamı dünyadan köçübsə, ya xoşagəlməz bir hadisə baş veribsə, səbr etməsi daha yaxşıdır. Lakin İmam Hüseynin (ə) əzasında ağlayaraq səbirsizlik etmək savabdır.

Şəxsən İmam Hüseyn (ə) belə buyurmuşdur:

أنا قَتيلَ الْعبره لا يذْكُرني مومِن ِالاّ بكي

–Mən göz yaşları üçün öldürülürəm.[1] Məni xatırlayan elə bir mömin yoxdur ki ağlamasın.

İmamın (ə) bu kəlamından açıq-aydın bəlli olur ki, möminlər o həzrəti xatırladıqda qəlbləri kövrələr və ağlayarlar.

Əban ibn Təğlib deyir: “İmam Sadiq (ə) mənə belə buyurdu:

نفَس الْمهموم ِلظُلْمِنا تسِبح و همه لَنا عِبادةٌ و كِتمانُ سِرنا جِهاد ِفي سِبيلِ الله. ثم قَالَ اَبو عبدِ الله: يجِب اَنْ يكْتب هذا الْحدِيثُ ِبالذهبِ.

–Bizə olunan zülmü zikr edən şəxsin nəfəsi təsbih (Allaha zikr etmək), bu yolda çalışmağı ibadətdir sayılır. Bizim sirrimizi qorumaq isə Allah yolunda cihad etmək deməkdir.” Sonra buyurdu: “Bu sözlər qızıl hərflərlə yazılmalı olan bir kəlamdır.”

İmam Hüseynin (ə) əzasında əyləşən şəxsə aldığı hər bir nəfəsə görə zikrin savabı verilir. Hədislərə diqqət yetirdikdə görürük ki, bir neçə yerdə insanın nəfəsi ibadət və zikr sayılır:

1) Mübarək Ramazan ayında.

İslam Peyğəmbəri (s) Ramazan ayının gəlişi ilə əlaqədar söylədiyi xütbəsində buyurmuşdur ki, Ramazan ayında oruc tutub namaz qılan hər bir şəxsin aldığı hər nəfəs zikr sayılır.

---

[1] Əlbəttə İmamın (ə) bu cümləsinin müxtəlif mənaları da vardır.

2) Məkkədə hacıların aldığı nəfəs onlar üçün zikr sayılır.

Bəzi hədislərdə belə nəql olunub ki, hər bir hacı Məkkə şəhərinə daxil olan andan aldıqları hər bir nəfəs onlar üçün zikr və təsbeh sayılır.

3) Qum şəhərində alınan nəfəslər insan üçün ibadət və zikr sayılır.

Hədislərdə belə nəql olunmuşdur ki, Qum şəhərinə daxil olub nəfəs alan hər bir şəxsin aldığı nəfəsə zikr, yatdığı zaman isə yuxusu onun üçün ibadət hesab olunur. Çünki Qum şəhəri İslam elminin mərkəzi sayılır.

4) İmam Hüseynin (ə) əzasında iştirak edən möminlərin aldığı nəfəslər.

Yuxarıda qeyd olunduğu kimi Əhli-beytə, xüsusilə İmam Hüseynə (ə) olunan zülmləri xatırlayıb, onlar üçün əzadarlıq edən hər bir möminin nəfəsi təsbeh və zikir sayılır.

Həmçinin hədislərdə qeyd olunmuşdur ki, məsum imamlar (ə) üçün ağlayıb göz yaşı tökməyin savabının həddi-hüdudu yoxdur. İmam Sadiq (ə) bu barədə belə buyurmuşdur:

لِكُلِّ شيئٍ ثَوابِ الا الدمعةَ فِينا

–Hər bir ibadətin müəyyən olunmuş bir savabı vardır. Amma bizə ağlamağın savabının həddi yoxdur.

**Savabı məhdud olmayan əməllər**

Bir neçə xüsusi əməl vardır ki, onların savabının həddi müəyyən olunmamışdır. Yəni bu əməllərin savabının sayı o qədər çoxdur ki, Allahdan başqa heç kəs bilmir. O əməllərin bəzisi Quranda, bəzisi isə hədislərdə bəyan olunmuşdur. Numunə üçün o həmin əməllərə diqqət yetirək:

**1) Gecə namazı**

Allah-taala “Səcdə” surəsinin 17-ci ayəsində buyurur:

فَلَا تعلَم نفْس ما أُخفِي لَهم من قُرةِ أعينٍ جزاء بِما كَانوا يعملُونَ

–Etdikləri işin mükafatı olaraq onlar üçün gözlərə işıq gətirən nələrin gizləndiyini heç kəs bilməz!

Allah-taala bu ayədə hətta İslam Peyğəmbərini (s) belə istisna etmir. Gecəyarısı şirin yuxudan oyanaraq dəstəmaz alıb səcdə edən (gecə namazı qılan) şəxsə verilən savabın miqdarını yalnız Allah Özü bilir.

**2) Oruc**

İslam Peyğəmbəri (s) buyurmuşdur: "Allah-taala buyurur:

اَلصوم لي و أنا أجزي بِهِ

–Oruc Mənə məxsusdur və onun əcrini də (savabını) Özüm verəcəyəm."

Yəni onun da savabının miqdarını heç bir kəsə deməmişəm.

İmam Sadiq (ə) buyurur ki, İmam Hüseynin (ə) əzasında tökülən göz yaşlarının savabının nə qədər olduğu yalnız Allaha məlumdur. Ondan başqa heç kim onun miqdarını bilmir.

**3) Əhli-beytin (ə) əzadarlığında ağlamaq**

Yuxarıda qeyd olundu ki İmam Sadiq (ə) bu barədə belə buyurmuşdur: "Hər bir ibadətin müəyyən olunmuş bir savabı vardır. Amma bizə ağlamağın savabının həddi yoxdur."

Bu və bu kimi hədislər bizə öyrədir ki, İmam Hüseynin (ə) əzasında ağlamaq lazımdır. Yəni İmam Hüseyni (ə) və onunla birgə şəhid olanlar üçün məclis keçirmək istəyənlər, əza şəklində bir məclis təşkil etməlidir.

**b) Əzadarlıq haqda məsumların (ə) əməlləri**

İkinci məsələ bundan ibarətdir ki, görəsən, məsum imamlar özləri əza saxlayıblarmı? Görəsən, İmam Hüseyndən (ə) sonra gələn imamlar, o cümlədən İmam Səccad (ə), İmam

Baqir (ə) və İmam Sadiq (ə) və digər imamlarımız (ə) özləri nə ediblər? Nəql olunan hədislərdən belə məlum olur ki, onlar özləri də İmam Hüseynin (ə) müsibəti üçün əza saxlayıb ağlamışlar.

İmam Rza (ə) buyurur:

كَانَ اَبِي اِذا دخلَ شهر الْمحرم لا يري ضاحِكاً و كَانتِ الْكِئابةِ تغِلب علَيه حتي يمضي مِنه عشرةُ اَيامٍ فَاِذا كَانَ الْيوم الْعاشِر كَانَ ذِلك الْيوم يوم مصِيبتِهِ و حزنِهِ و بكائِهِ.

–Məhərrəm ayı daxil olan zaman atamı gülən halda görməzdim. Məhərrəm ayından on gün keçənə qədər həmişə kədərli olardı. Aşura günü isə onun müsibət, qəm-qüssə və ağladığı bir gün olurdu.

Yəni İmam Musa ibn Cəfər (ə) məhərrəm ayının ilk on gününü kədərli halda əza saxlayırdı, amma aşura günü isə ağlamaqla əzadarlıq edirdi.

İmam Sadiq (ə) İmam Əli ibn Hüseyn (ə) barədə belə buyurur:

بكى عِلي ابن الْحسين عِشرِين سنةً و ما وضِع بين يديهِ طَعام الاّ بكي.

–Kərbəla hadisəsindən sonra Əli ibn Hüseyn (ə) iyirmi il ağladı. Hər zaman onun qarşısına yemək (xörək və ya su) gətirdikdə, (İmam Hüseyni (ə) yad edərək) ağlayardı.

Çünki Həzrət (ə) özü Kərbəlada iştirak etmişdir və həmin hadisələrin canlı şahidi idi.

Belə məlum olur ki, məsum imamlar (ə) bizə əzadarlıq etməyi tövsiyə etdikləri kimi, özləri də İmam Hüseynə (ə) əza saxlamışdılar.

**c) Əzadarlığın təşkil olunmasına təkid**

Məsum imamlarımızdan (ə) nəql olunan hədislərə əsasən, əzadarlıq cəm şəkildə qeyd olunmalıdır. Yəni hər kəs istəsə

evində tək əyləşib əzadarlıq etməklə kifayətlənməməlidir. Bu əzadarlıq ictimaiyyətlə birgə keçirilməlidir.

İmam Sadiq (ə) Fuzeylə belə buyurdu:

تجلسون و تحدثون؟ فقالَ نعم. قالَ: ان تلك المجالس أحبها فأحيوا أمرنا فرحم الله من أحيا أمرنا

–İmam Hüseynə (ə) əzadarlıq məclisi təşkil edirsinizmi? Kərbəla hadisəsindən söz açırsınızmı? Fuzeyl dedi: "Bəli." Həzrət (ə) buyurdu: "Həqiqətən, mən bu məclisləri çox sevirəm. Bu kimi məclislərdə bizim söhbətlərimizi danışmaqla yaşadın. Bizim sözlərimizi yaşadanlara Allah rəhmət etsin."

İmam Sadiq (ə) buyurur ki, atam İmam Baqir (ə) öz evində əza məclisi təşkil edərdi.

و يأمر من في داره بالبكاء عليه و يقيم في داره مصيبته باظهار الجزع عليه و يتلاقون بالبكاء بعضهم بعضاً في البيوت و ليعز بعضهم بعضاً بمصاب الحسين (ع).

–Evdə olan hər bir kəsə ağlamaq göstərişi verərdi. İmam Hüseynə (ə) ağlamağı izhar etmək üçün evində məclis təşkil edərdi. Ağlayaraq bir-biriləri ilə görüşərdilər və İmam Hüseynin (ə) müsibətinə görə bir-birilərinə başsağlığı verirdilər.

Deməli imamlarımız (ə) İmam Hüseyn (ə) üçün həm özləri əza saxlamış, əzadarlıq məclisləri təşkil etmiş, həm də bizə bu işi görməyi təkid etmişlər.

### Mələklərin və bütün kainatın İmam Hüseynə (ə) əzadarlıq etməsi

Hədislərdə nəql olunur ki, hətta mələklər də Allahın əmri ilə İmam Hüseyn (ə) üçün əza saxlayırlar. Bəzi hədislərdə belə nəql olunmuşdur ki, mələklər hər gün ilahi ərşdə əzadarlıq edirlər. Bəzi hədislərdə isə qeyd olunur ki, mələklər hər gün Kərbəlada İmam Hüseynin (ə) hərəmində əzadarlıq edirlər.

Bəzi hədislərdə də qeyd olunmuşdur ki, Allah-taala İmam Hüseynin (ə) qəbrinin kənarında qiyamət gününədək əzadarlıq etməyi bir dəstə mələyə həvalə etmişdir.

Bundan əlavə bütün göylər, yer və yer ilə göy arasında olanların hamısı İmam Hüseynə (ə) əzadarlıq edirlər. Allah-taala Quranda belə buyurur:

يسبح لِلهِ ما فِي السماواتِ وما فِي الْأَرض

“Göylərdə və yerdə hər nə varsa, hamısı Allaha daim təsbih edirlər.”

Sual oluna bilər ki, görəsən, onların təsbih deməsi hansı formadadır? İnsanlar namaz qılıb səcdə etməklə və “Allahu əkbər”, “Subhanallah” zikrini deməklə Allaha təsbih edirlər. Vəs göy, yer və sair canlılar, əşyalar necə təsbih edir? Təbii ki, butun bunların hamısı özünəməxsus formada Allahı zikr edir. Eləcə də, Allahın əmri ilə İmam Hüseynə (ə) əza saxla-yırlar. Hər bir vücudun təsbih etməsi öz vücuduna uyğundur. İmam Sadiq (ə) buyurmuşdur:

اِن أبا عبدِ الله (ع) لَما مضى بكت علَيهِ السمواتِ السبع و الْأرضونَ السبع و ما فِيهن و ما بينهن و ما ينقَلِب علَيهن و الْجنةُ و النار و ما خلَق ربنا و ما يري و ما لا يري

–Əba Əbdillah (ə) şəhid olduqa göyün yeddi mərtəbəsi, yerin yeddi qatı, yerdə hər nə varsa və göylə yerin arasında hər nə varsa, cənnət və cəhənnəm, Rəbbinmizin xəlq etdiyi görünən və görünməyən hər bir varlıq (İmam Hüseynə (ə)) ağladılar.

Böyük ustad Şəhriyar yazır:

*Hüseynə yerlər ağlar, göylər ağlar,*
*Bətulo Murtəza Peyğəmbər ağlar.*

*Hüseynin köynəyi Zəhra əlində*[1]*,*
*Çəkər qiyha qiyamət məhşər ağlar.*
*Yazanda Ali Taha növhəsin mən,*
*Qələm gördüm sızıldar, dəftər ağlar.*

**İmam Hüseyn (ə) haqda şeir və mərsiyə yazmağa təşviq**

Yuxarıda qeyd etdiklərimizdən əlavə məsumlar imamlarımız (ə) İmam Hüseyn (ə) haqda şeir yazmağı da tövsiyə etmişlər. Nümunə üçün bu barədə bir hədisə diqqət yetirək. İmam Sadiq (ə) buyurur:

ما مِن أحدٍ قالَ فِي الْحسين شِعراً فَبكى و أبكى بِهِ الاّ أوجب اللّه له الْجنةَ و غَفَرَ له

–Hər kəs İmam Hüseyn (ə) haqda bir beyt şeir yazaraq ağlasa və yaxud həmin şeir vasitəsilə kimisə ağlatsa, Allah-taala cənnəti həmin şəxsə vacib edər və günahlarını bağışlayar.

Əbu Harun[2] nəql edir ki, bir gün İmam Sadiqin (ə) yanına getmişdim. İmam (ə) mənə buyurdu: Əbu Harun, yazdığın şeirlərdən bir neçəsini mənə oxuyarsanmı? Mən də ədəblə və sakit tərzdə şeirlərimdən bir neçə beyt oxudum. İmam (ə) buyurdu:

لا كَما تنشِدونَ و كَما ترثيه عِند قَبرِهِ

–Belə yox, özünüz tək olanda və (Hüseynin (ə)) qəbrinin yanında oxuduğunuz kimi oxuyun.

---

[1] Hədislərdə belə nəql olunub ki, məhşər günü Xanım Zəhra (s.ə) İmam Hüseynin (ə) qanlə köynəyini əlində tutub Kərbəla hadisəsini danışacaq. Məhşərdə olanların hamısı ağlayacaqlar. Ondan sonra cənnətə daxil olacaqlar. Axırıncı əza orada təşkil olunacaq.

[2] Əbu Harun şair idi.

Molla Məhəmməd Füzuli çox gözəl demişdir:

*Əhli-beytin səna və mərsiyəsi, əhsənü əfzəlul-fəzaildür,*
*Kim ki bir beyt ol xüsusda deyir, o, həman Əhli-beytə daxildür.*

Füzuli bu şerini İmam Sadiqin (ə) yuxarıdakı buyurduğu hədisə əsasən yazmışdır. Mümkündür bəzi şairlər öz düşüncələri əsasında məsumların (ə) barəsində bir sıra səhv təsəvvür və mənzərələr yaradaraq şeir yazsınlar. Lakin çox yaxşı olardı ki, onlar özlərini islah edərək şeir yazarkən Əhli-beytin (ə) kəlamlarına istinad etsinlər. Bunun üçün də şeir yazmaq tərzini Əbu Harundan, Füzulidən, Şəhriyardan və s. məşhur Əhli-beyt (ə) şairlərindən öyrənsinlər. Çünki onlar öz şeirlərini hədislərə istinad edərək əsasən qələmə almışlar.

**ç) İmam Hüseynin (ə) əzasına vəsait ayırmağa təkid**

Məsum imamlarımız İmam Hüseynin (ə) əzasına vəsait ayırmağı da bizlərə tövsiyə etmişlər. Odur ki, hər bir insan qazandığı puldan əyninə, yeməyinə, ailəsinə, evinə və s. işlər üçün xərclədiyi kimi, qazancının bir miqdarını da ayırıb İmam Hüseynin (ə) əzasına xərcləsin. Həzrət Peyğəmbər (s) buyurmuşdur:

من أراد التوسلَ اِلَي و اَنْ تكُونَ لَه عِندِي يد اَشفَع لَه بِها يوم الْقِيامة قَلْيصِل اَهلَ بيتي و يدخِلَ السرور علَيهم

–Mənə təvəssül etmək istəyən hər bir kəs qiyamət günü ona şəfaət etməyimdən ötrü bir bəhanə olması üçün gərək mənim Əhli-beytimə silə etsin (onlarla əlaqə saxlayaraq, bu yolda müəyyən qədər vəsait xərcləməklə onlar üçün məclislər qursun) və onları sevindirsin.

İmam Sadiq (ə) buyurur: Atam İmam Baqir (ə) vəsiyyət edərək mənə belə buyurdu:

اَوقِف لي مِن مالي كَذا وكذا النوادِب تندبني عشر سِنين بِمنى أيام مِنى

–Oğlum! Məndən sonra malımdan bir miqdarını (filan məbləğ) növhə oxuyanlara vəqf edərsən. Həcc mövsümündə hacılar Minada olarkən orada əza məclisi təşkil edib növhə oxusunlar.

Yuxarıda qeyd etdiyimiz hədislər bu mövzuda nəql olunan hədislərdən sadəcə bir nümunəsidir. Bu haqda Əhli-beyt (ə) imamlarından çoxlu hədislər nəql olunmuşdur. Həmin hədislərdən də açıq-aydın məlum olur ki, məsum imamlar (ə) həm əza saxlamağı bizlərə tövsiyə etmişlər, həm özləri əza saxlayıblar, həm əza məclisləri təşkil ediblər, həm də şairlərə Əhli-beyt (ə) haqqında mərsiyə yazmağı tövsiyə etiblər.

Ustad Şəhriyarın şagirdlərindən biri deyir: "Mən şeir yazanda onu ilk dəfə ustadıma oxuyurdum. Əksər hallarda hiss edirdim ki, yazdığım şeirlərdən onun xoşu gəlmir. Bir neçə beyt oxuyub şeiri yarımçıq saxlayırdım. Gedib bir həftə, on gün gecələr yatmadan və dincəlmədən yenə də çox mənalı bir şeir yazdıqdan sonra ustadın yanına gəlib oxuyardım. Yenə də mənə ötəri qulaq asdığını gördükdə başa düşürdüm ki, yazdığım şeir onun ürəyincə olmadı. Nəhayət, günlərin birində İmam Zaman (ə.c) haqda dərin məzmunlu bir şeir yazdım. Gəldim ustadın yanına. Ustad otağın bir küncündə əyləşmişdi. O həmişə yerdə bir döşəkçənin üstündə əyləşərdi. Mən ondan təzə yazdığım şeiri oxumaq üçün icazə istədim. İcazə verdikdən sonra mən də otağın digər tərəfində stulda əyləşdim. Ustad mənə baxıb buyurdu: "Oxu görək." Mən də şeiri oxumağa başladım. Birinci beyti oxuyan kimi gördüm ki, ustadın gözləri açıldı. İkinci beyti oxuyanda ustad uca səslə mənə buyurdu: "Hə! Bax belə!" Hər bir beyti oxuduqca o, əyləşdiyi yerdən yavaş-yavaş mənə sarı yaxınlaşırdı. Mən şerimi qurtardıqda ustad artıq mənim yanımda idi. Axırda mənə belə buyurdu: "Bax, belə yaz!"

Ədəbiyyatı əbədiləşdirən Əhli-beytin (ə) adıdır. Şeiri, bədii əsərləri, incəsənət nümunələrini əbədiləşdirən əbədi-

yaşar insanların şərafətidir. Əgər insan onları öz əsərində canlandıra bilsən, əsəri də əbədilik qazanar.

Deməli ayə və hədislərə əsasən qeyd olundu ki, aşuranı unutmamaq, onu həmişə yaşadıb xatırlamaq və əzadarlıq məclisləri qurmaq hər bir müsəlmanın borcudur. Məhərrəm və aşuranın barəsində həm onun sahibi, həm İslam Peyğəmbəri (s), həmdə məsum imamlarımız (ə) fikirlərini söyləmişlər. Buna gorə də onların hər bir fikri, hərəkət və sözləri bizim üçün höccətdir. Biz də öz işlərimizi onların kəlamlarının asasında qurmalı və onlara uyğun hərəkət etməliyik. Biri var insan hər hansı bir işi öz istədiyi kimi etsin, biri də var ki, ondan tələb olunanı yerinə yetirsin. Dində belədir ki, məsələn, namaz qılan insan namazını özü formalaşdırır. Yəni fikirləşir ki, sübh namazını istəsəm ucadan qılaram, istəsəm də asta səslə qılaram. Onsuz da Allah hər ikisini eşidir. Yaxud belə düşünür ki, namazın azərbaycanca, ərəbcə və ya farsca qılınmasının da heç bir fərqi yoxdur. Çünki Allah bütün dilləri bilir. Öz-özünə belə bir qərara gəlir ki, namazın mütləq ərəb dilində qılınması haqda fikrin heç bir mənası yoxdur. Yəni bu kimi düşüncələrlə yaşayan insan İslamın qaydalarına özü istədiyi kimi əməl edir. Təbiidir ki, belə bir əməlin heç bir dəyəri və qiyməti yoxdur. Əgər insan gecəni sübhədək öz istədiyi kimi namaz qılsa belə yenə də həmin namazların heç bir faydası yoxdur. Amma əgər iki rükət namazı vacib edən Allahın istəyinə uyğun şəkildə qılsa, o zaman belə bir namaz şərafətli ibadət sayılar. Çünki bu əməl ibadət hesab olunur və burada nəfsi istəklərə tabe olmaqdan söhbət getmir. Nəfsi istəklərə və insanın öz istəyinə uyğun şəkildə qılınan namazları və yaxud digər ibadətləri Allah bəyənmir. Allah-taala ibadəti vacib buyurub və onun necə yerinə yetirilməsini də müəyyənləşdirib.

Aydındır ki, həm Allahın əmrlərini yerinə yetirən və yetirməyən insanlar sonda Allahın hüzurunda dayanacaqlar. Allahın əmrlərinə olduğu kimi riayət edən şəxslərə Allah Özü mükafat verəcəkdir. Həmçinin bu əmrlərdən boyun qaçıranlar istəsələr də istəməsələr də belə Allahın hüzuruna gətiriləcəklər. Elə bu səbəbdən də Allahın səbri çoxdur. Çünki O, çox gözəl bilir ki, beş-altı gündən sonra insanlar Onun qarşısında cavab verməli olacaqlar. Tarix boyu Fironlar, Nəmrudlar, Qarunlar, Əbu Cəhllər və Əbu Süfyanlar, dünyaya meydan oxuyanlar onlar hara getdilər?! Bu gün də bəziləri kürsüdə əyləşib elə düşünürlər ki, həmişə həmin kürsüdə oturacaqlar. Necə ki, əvvəlkilər gəlib-getdilər, bunlar da bir zaman gedəcəklər. Həzrət Əli (ə) "Nəhcül-bəlağə"də buyurur:

أين الْعمالِقَةُ وأبناءُ الْعمالِقَةِ أين الْفَراعِنةُ وأبناءُ الْفَراعِنةِ

–Haradadır Əmaliqə və onların övladları? Haradadır Misir şahları olmuş Fironlar və onların övladları?

Hara getdi o insanlar? Göyə ox atıb Allahla döyüşmək istəyənlərin aqibəti necə oldu?. Onların bəzisi bir ağcaqanad, yaxud bir milçək vasitəsilə dünyadan getdilər.

Odur ki, insan dünyada hər bir hərəkətini Allahın buyurduqlarının əsasında qurmalı və ona uyğun hərəkət etməlidir. O cümlərdən İmam Hüseynin (ə) məclislərinin və əzadarlıqlarının təşkil olunması da Allahın, Peyğəmbər (s) və məsum imamlarımızın (ə) göstərişlərinə uyğun olmalıdır.

## İmam Hüseynə (ə) ağlamağın təsir və xüsusiyyətləri

*Həbibi risalət Hüseyndir, Hüseyn,*
*Siraci imamət Hüseyndir, Hüseyn,*
*Dəlili siyadət Hüseyndir, Hüseyn,*
*Sirati hidayət Hüseyndir, Hüseyn,*
*Əmini əmanət Hüseyndir, Hüseyn.*

*O şəh ki, ona xatəmül-ənbiya,*
*Ləqəb verdi reyhaneye Mustəfa,*
*Mükərrər dedi canüvə mən fəda,*
*Buyurdu öz əshabinə bərməla,*
*Şəfii qiyamət Hüseyndir, Hüseyn.*

*Gülabi pur ətri güli Mustəfa,*
*Səfabəxşe canu deli Mustəfa,*
*Bərazəndeye məhfili Mustəfa,*
*Fərazəndeye mənzili Mustəfa,*
*Hümaye səadət Hüseyndir, Hüseyn.*

*Hədisi kisadə olan mərdu zən,*
*Məhəmməddi, Zəhra, Əlidir, Həsən,*
*Olub Cəbrəil daxili əncümən,*
*Həmin əncümləndə güli pəncitən,*
*Bəhari təravət Hüseyndir, Hüseyn.*

Qeyd olundu ki, İmam Hüseynin (ə) həm şəhadətindən əvvəl, həm də sonra onun üçün əzadarlıq məclisləri təşkil olunmuşdur. Hədislərdə nəql olunur ki, İmam Hüseyn (ə) şəhid olarkən yer, göy, yerlə göy arasında olanlar, hətta göyün quşları da o həzrətə ağladı.

Burada sual oluna bilər ki, görəsən İmam Hüseyn (ə) üçün əzadarlıq edib ağlamaq insan üçün hansı təsir və xüsusiyyətlərə malikdir? Bu sualın cavabında deyə bilərik ki, o həzrətə (ə)

ağlamağın iki təsir və xüsusiyyəti vardır. Onlardan biri mənəvi təsirdir ki, qiyamət günü insana savab gətirəcəkdir. İkinci təsiri isə budur ki, insanın bu dünyada hidayət olunmasına, tərbiyələnməsinə və izzətə yetməsinə gətirib çıxarır. İmam Hüseynin (ə) əza məclisi insanları dünyada nuranilaşdirir. İmam Hüseynə (ə) ağlayan insan bu dünyada fateh olar və səadətə çatar.

## İmam Hüseynə (ə) ağlamağın mənəvi təsirləri

**1. Günahların bağışlanması**

İmam Hüseynə (ə) ağlamağın günahların bağışlanmasında çox böyük təsiri vardır. İmam Rza (ə) buyurmuşdur:

فَعلى مِثْلِ الْحسين فَلْيبكِ الْباكُون فَاِن الْبكاءَ علَيهِ يحط الذنوب الْعِظام

–Ağlamaq istəyən bir kəs Hüseynə (ə) ağlasın. Həqiqətən, ona ağlamaq insanın böyük günahlarını belə təmizləyər.

Yenə də İmam Rzadan (ə) başqa bir hədisdə belə nəql olunur:

يابن شبيب! اِنْ بكَيت علَي الْحسينِ (ع) حتي تصِير دموعك علَي خدك غَفَرَ اللهُ لَك كُل ذَنبٍ اَذْنبته صغِيراً كَانَ اَو كَبِيراً, قَلِلاً كَانَ اَو كَثِيراً

–Ey Şübeybin oğlu! Hüseynə (ə) ağlayan zaman əgər gözünün yaşı üzünə axsa, Allah sənin etdiyin bütün günahları bağışlayar. İstər o günahlar kiçik günahlar olsun, istərsə də böyük günahlar. İstər az günah olsun, istər çox günah.

**2. Kövsər suyundan bəhrələnmək**

Hər kim İmam Hüseynə (ə) əza saxlayıb onun müsibətinə ağlasa, qiyamətin ən böyük neməti olan Kövsər suyundan bəhrələnəcək. İmam Sadiq (ə) buyurmuşdur:

ما مِن عينٍ بكَت لَنا اِلّا نعمت بِالنظَرِ اِلي الْكَوثَر و سقِيت مِنه

–Biz Əhli-beytin (ə) əzasında ağlayan hər bir gözə Kövsərə baxmaq neməti və ondan sirab olmaq icazəsi veriləcəkdir.

Bu hədisdən belə məlum olur ki, Kövsər suyuna həm baxmaq və həm də onun suyundan içmək bir nemət sayılır. Kövsər suyuna baxmağa hər adama icazə verməyəcəklər. İmam Hüseynin (ə) əzasında ağlayan şəxsə qiyamət günü həm Kövsər suyuna baxmağa, həm də Həzrət Peyğəmbərin (s) və Həzrət Əlinin (ə) mübarək əllərindən Kövsər suyundan alıb içməyə icazə veriləcəkdir.

### 3. Ölüm halında məsum imamların (ə) insanın başı üzərinə gəlməsi

İnsan üçün ən çətin anlardan biri də dünyasını dəyişdiyi zamandır. İnsan anadan olan gündən eşidir ki, bir gün öləcəkdir. Hər dəfə də bunu eşidəndə insan narahat olur. Çünki insan bilir ki, həmin an çox çətin andır. İnsanın başının arxası yerə dəyən zaman ən çətin zamandır. Həmin an insanın gözü nəyisə axtarır.

Müsmə İraqi İmam Sadiqin (ə) dostlarından və Əhli-beyti (ə) sevən bir şəxs idi. O, öz yaşadığı məntəqədə çox məşhur bir insan (qazı) idi. Nəzarət altında olmasına baxmayaraq, hərdən İmam Sadiqin (ə) ziyarətinə gedərdi. Günlərin birində İmam Sadiq ondan soruşdu:

Ey Müsmə, cəddim Hüseynin (ə) qəbrini ziyarət edirsənmi?

Müsmə dedi: “Ey Allahın höccəti, mən nəzarət altında olduğuma görə və hamı məni tanıdığı üçün İmamın (ə) ziyarətinə gedə bilmirəm.”

Həzrət (ə) buyurdu: “Heç olmasa öz evində onun üçün əza saxlayırsanmı?”

Müsmə bunu eşidən kimi əlindəki tikəsini də yeyə bilmədi və həmin tikəni yerə saldı. Gözləri yaşla doldu və ağlayaraq dedi:

–Bəli, ağa! Həmişə evimdə İmam Hüseynə (ə) əza saxlayıb ağlayıram. Mənim qəlbim həmişə ona əzadardır.

Sonra İmam Sadiq (ə) Müsməyə buyurdu:

رحِم اللهُ دمعتك أما اِنك مِن الذِين يعدونَ مِن أهل الْجزع لَنا و الذِين يفْرحونَ لِفَرحِنا و يحزنونَ لِحزننا

–Allah sənin gözlərindən axan yaşlara Öz rəhmətini şamil etsin. Sən bizim üçün əzadarlıq edən insanlardan sayılırsan. Bizim şad olduğumuz anlarda şad olan və bizim qəmgin olduğumuz zaman qəmgin olan insanlardan sayılırsan.

Sonra buyurdu:

أما اِنك سترى عِند موتك حضور آبائي لَك

–Sən dünyanı dəyişən zaman (o çətin anda) mənim ata-babalarımın sənin yanında olduğunu görəcəksən.

Can verən zaman cəddim Peyğəmbər (s) İmam Əli (ə), İmam Həsən (ə), İmam Hüseyn (ə), İmam Zeynalabidin (ə), İmam Baqir (ə) sənin yanında olacaqlar. Onların gəlişi ilə sənin gözlərin aydın olacaq. Ölüm mələyi sənə öz anandan daha mehriban olacaq. Ananın öz övladına nə qədər məhəbbət bəsləməsi, mehriban olması məlum məsələdir. Ana özü ac və susuz qalar, amma razı olmaz ki, övladı ac və susuz qalsın. Özü soyuq yerdə yatar, amma razı olmaz ki, övladı soyuq yerdə yatsın.

Mərhum Şeyx Abdullah Həmzəzadə (r)[1] çox təqvalı, dəyərli və böyük alimlərdən biri idi. O, İmam Hüeynin (ə) və onun oğlu Əliəsğərin (ə) adını eşidən kimi elə ağlayırdı ki, göz yaşları mübarək saqqalını isladırdı. Ömrünün son üç ayı xəstə yatırdı. Xəstəliyi o qədər ağır idi ki, heç ayağa da qalxa bilmirdi. Onun yanında olan ailə üzvləri belə deyirlər: "Gecənin yarısı idi. Qonaqların hamısı getmişdilər və yalnız beş-altı

[1] Ərdəbil qəbiristanlığında dəfn olunub.

nəfər yaxın adamlar qalmışdı. Ağa öz otağında yatmışdı. Qapının üzərində onun özünün şəkli asılmışdı. Birdən gözlərini açıb qızını səslədi. Ağanın yeddi yaşında Məsumə adlı balaca bir qızı var idi. Həyat yoldaşı qalxıb "Bəli, ağa, nə lazımdır?", – deyə soruşdu. Ağa "O şəkli oradan götürün", – dedi. Təəccübləndik, görəsən, gecənin bu vaxtı niyə şəkli götürməyi tapşırır.

Biz onun sözünə əməl edib şəkli götürdük. Sonra yenə də qızını səslədi. Həyat yoldaşı "Bəli, ağa" – deyərək cavab verdi. Ağa dedi: "Mənim əsamı gətirin." Soruşduq: "Ağa, qalxmaq istəyirsənmi?" Dedi: "Əsamı gətirin." Həyat yoldaşı əsanı gətirdi. Daha sonra dedi: "Əmmaməmi gətirin." Biz daha çox təəccübləndik. Axı bu ayağa qalxa bilmir, oturub-dura bilmir. Görəsən, hara getmək istəyir?! Əmmaməni gətirib onun başına qoyduq. Sonra dedi: "Əbamı da gətirib çiynimə salın." Dedik: "Ağa, axı uzanmısan, onu necə sənin çiyninə salaq?" Dedi: "İndi qalxacağam." O, əsadan tutub qalxdı və əyləşdi. Sonra əbanı da onun çiyninə saldıq. Bir anlıq dayanıb ətrafa baxdıqdan sonra dedi: "Əssəlamu ələykə ya Rəsulullah (s)!" Sonra sakitləşdi, biz isə heç nə görmürdük. Daha sonra dedi: "Əssəlamu ələykə ya Əmirəlmöminin (ə)! Əssəlamu ələyki ya Fatimətəz-Zəhra (s.ə)!" Beləcə, bir-bir salam verməyə başladı. Düz on dörd məsumun hər birinə salam verdi. Sonra üç vəsiyyət etdi və "La ilahə illəllah" – deyərək dünyasını dəyişdi.

جان میدهم به شوق وصال تو یا حسین

گر بر سرم قدم ننهی جان نمی دهم

*Ya Hüseyn, səninlə görüşmək eşqilə can verirəm.*
*Gər başımın üzərində dayanmasan, can verməyəm.*

Möminlər həmişə ölüm ayağında olarkən gözləri İmam Hüseyni (ə) axtarır. Orada Hüseyndən (ə) başqa heç kim

(insana) fayda verə bilməz. Evin, malın, yaxud övladın heç birinin faydası olmayacaq. Orada yalnız Həzrət Əlinin (ə) mübarək camalının insana xeyri olacaqdır.

**4. Cəhənnəm atəşinin haram olması**

Allah-taala cəhənnəm atəşini İmam Hüseynin (ə) məclisində ağlayan hər bir kəsə haram etmişdir. İmam Sadiq (ə) buyurur:

من ذُكِرنا عِنده فَفاضت عيناه حرم اللهُ وجهه علَى النار

–Bizim adımız (müsibətimiz) kimin yanında zikr olunsa və onun gözündən yaş axsa, Allah-taala onun camalını cəhənnəm atəşinə haram edər.

Həzrət İbrahim Peyğəmbər (ə) üçün od cənnətə çevrildiyi kimi, Hüseynin (ə) adı gələn yerdə də od cənnətə çevrilir.

*Denən "Hüseyn", özüvi at yanar oda şahi,*
*O ad yanar odu bağ etməsə, yəhudəm mən.*
*Mənim gözüm qala xakə Hüseyn qoya qədəmin,*
*Bu gözü xak edərəm aqibət həsudəm mən.*

**5. Məsum imamların xeyir-duasını qazanmaq**

İmam Hüseynə (ə) ağlamağın mənəvi təsirlərindən biri də budur ki, məsum imamlar (ə) həmin şəxsə dua edərlər. Onların duasını qazanmaq insan üçün böyük bir şərəfdir. Əgər bir kəs İmam Hüseynin (ə) duasını qazana bilsə, çox böyük bir şərəfə çatmış olar.

**6. Qəbir rahatlığı**

Hər kəs İmam Hüseynə (ə) əzadarləq edib ağlasa, qəbirdə (bərzəxdə) onun rahatlığına səbəb olar. Bəzi əməllər vardır ki, bərzəxdə insanın rahatlığına gətirib çıxarır. Məsələn, Həzrət Peyğəmbərdən (s) nəql olunan bir hədisdə buyurulur ki, hər kim Quran oxusa, Allah-taala onun oxuduğu Quranı

gözəl bir cavan surətində onun yanına gətirər. O, həmin şəxsə baxar və “məni tanıyırsanmı?” – deyə soruşar. İnsan “yox, səni tanımıram, görməmişəm” – deyə söyləyər. Sonra o, özünü belə təqdim edər:

أنا الذِي كُنت أسهرت لَيلَك و أظْمأت هواجِرك و أجفَفْت رِيقَك و أسلت دمعتك و أؤول معك حيثُما ألُت

–Mən səni gecələr yatmağa qoymayan, (yayın istisində) dodaqlarını qurudan, gözünün yaşını axıdanam. İndi hara getsən, mən də səninləyəm.

Qiyamət səhnəsi çox qorxulu bir səhnədir. İnsanın görmədiyi bir yer və eşitmədiyi əhvalatlar və s. Tək qaldığından kiminləsə birlikdə olmaq istəyir. Həzrət Peyğəmbər (s) buyurur ki, əgər insan bu dünyada Quran oxusa, qiyamət günü həmin Quran gözəl bir cavan surətində gəlib ona munis olar və onu tək qalmağa qoymaz.

Belə rəvayət olunur ki, insanı qəbrə qoduqdan sonra bir nur insanın sağ tərəfində, digəri onun sol tərəfində, biri qarşısında, biri arxa tərəfində, bir nur ayaq tərəfində və nəhayət, ən çox nurlu olanı isə onun baş tərəfində dayanar. Baş tərəfdə dayanan nur bir-bir digərlərini sorğu-sual edər: Sağ tərəfdəki nurdan soruşar ki, sən kimsən? O da deyər: “Mən bunun namazıyam, qiyamət gününə qədər onunlayam.” Sol tərəfdəki nurdan soruşar ki, sən kimsən? O da deyər: “Mən bunun tutduğu orucam.” Qarşısında dayanan nurdan soruşar ki, bəs, sən kimsən? O da belə deyər: “Mən bunun həcc əməliyəm.” (İnsanın həcc əməli bir mələk surətində onun qəbrinə daxil olar, qiyamət gününə qədər onun yanında qalar və namaz qılıb ona hədiyyə edər.)

Beləcə, baş tərəfdəki nur soruşduqca cavabında deyərlər ki, mən onun infaqı, xümsü, zəkatı və s. əməlləriyəm... Nəhayət, onlar da baş tərəfdəki nurdan soruşarlar ki, bəs hamıdan

nuru çox olan sən kimsən? O da belə deyər: "Mən vilayətəm. Bu insan Həzrət Əlinin (ə) vilayətini qəbul etmişdir."

Əgər indi bu namazın, bu orucun onun yanında olmasına icazə verirlərsə, bunlar da vilayətə görədir. Vilayət olmayan yerdə həmin əməllərin heç birinin xeyri yoxdur. Təbii ki, həzrət Əlinin (ə) vilayətini qəbul etməyən bir şəxs bu hədisi heç vaxt qəbul etməz. Nübüvvət olmayan yerdə heç bir əməlin faydası olmadığı kimi, vilayətin də olmadığı yerdə heç bir əməlin faydası olmayacaqdır.

İnsanın İmam Hüseynə (ə) etdiyi əzadarlığı da bir nur surətində qəbir evində onun yanında olacaqdır.

Həmçinin bir möminin qəlbini şad etmək elə bir əməldir ki, bu da bir nur surətində qəbir evində sahibinin yanında olar. Mərhum Şüştəri deyir ki, İmam Hüseynə (ə) əzadarlıq etməklə insan Həzrət Fatimeyi Zəhranın (s.ə) qəlbini şad etmiş olur. Bu əməli ilə mükəmməl bir möminə xanımın qəlbini şad etmiş olur.

İmam Sadiq (ə) buyurmuşdur:

من ترك السعي فِي حوائِجِه فِي يومِ الْعاشورا جعلَ اللّهُ يوم الْقِيامة يوم سروره

– Kim aşura günü işlərini dayandırıb (İmam Hüseynə (ə) əzadarlıq edərək həmin günü özünə hüzn və matəm günü etsə) Allah-taala qiyamət gününü onun üçün şadlıq günü qərar verər.

İmam Rza (ə) buyurmuşdur:

من كان يوم عاشورا يوم مصِيبتِهِ و حزنِهِ و بكائِهِ جعلَ اللّهُ عز و جل يوم الْقِيامةِ يوم فَرحِهِ

–Hər kim aşura gününü özü üçün əza günü, hüzn və ağlamaq günü təyin etsə, Allah-taala qiyamət gününü onun üçün şadlıq günü qərar verər.

### 7. Hesab-kitabın asan olması

Hədislərdə belə nəql olunub ki, qiyamət günü insanları bir-bir adı ilə çağıracaqlar. O insanların adı peyğəmbərlərin adı ilə, Quran kəlmələri ilə uyğun gələrsə, həmin insanlar sevinə-sevinə irəli çıxacaqlar. Gözəl adı olmayan insanlar isə elə ilk andan başları aşağı gələcəklər.

İnsanları bir-bir çağırdıqdan sonra onun hesab-kitabını qarşısına qoyaraq “buyur bax” –deyəcəklər. Məsələn, əgər 60 yaşı varsa, onun 15 ilini çıxacaqlar, qalan 45 ilin hesabını soruşacaqlar. 45 ilin namazını, orucunu və anbaan insan nə edibsə, hamısını bir-bir soruşacaqlar. Nə qədər pul qazandığını, haradan qazanıb harada xərclədiyinin hesabını aparacaqlar.

Belə bir çətin anda İmam Hüseynin (ə) əzası insanın köməyinə çatacaqdır.

### 8. Əzadarlığın mükafatı behiştdir (cənnətdir)

İmam Hüseynə (ə) əzadarlıq etmək Qiyamət günü insanın hesab-kitabının yüngül və asan olmasına səbəb olar. Beləcə həmin şəxsi çox asan hesaba çəkdikdən sonra cənnətə aparar-lar. İmam Hüseyn (ə) buyurmuşdur:

من دمعت عيناه ِفينا قَطْرةً بوأه اللهُ عز و جل الجنةَ

–Hər kəs bizə xatir gözündən bir damla yaş axıtsa, Allah-taala cənnətdə ona yer verər.

Mərhum Şüştəri mübarək ramazan ayı ilə məhərrəm ayını müqayisə edərək deyir: Mübarək Ramazan ayında cənnətin qapıları açıldığı kimi, məhərrəm ayında da o qapılar açılır.

Sonra cənnətin qapılarının adlarını bir-bir sadalayır. Səkkizinci qapıya çatdıqda onun adının “Rəhmətullah”, “Babullahil-vasiə” (Allahın geniş qapısı) olduğunu bildirir. Bu qapı İmam Hüseynə (ə) məxsusdur və o həzrətin əzadarları bu qapıdan daxil olacaqlar. Hər kim cənnətin yeddi qapısın-

dan keçə bilməsə, əgər dünyada İmam Hüseynə (ə) əzadarlıq edibsə, səkkizinci qapıdan oraya daxil olacaq.

Böyük alim və müctəhidlərdən biri deyir: “Gecələrin birində yuxuda qiyamət gününü gördüm. Elə bu zaman müctəhidləri bir-bir məhşərə çağırırlar. Mən də dayanıb kənardan nəzarət edirəm. Gördüm ki, çox çətin haqq-hesab çəkirlər. Növbə mənə çatan zaman “sən kimsən?” – deyə soruşdular. Mən müctəhid olduğumu demədim və dedim ki, “Hüseyn aşiqiyəm, mənə o biri qapıdan daxil olmağa icazə verin.” Elə bu zaman yuxudan ayıldım və öz-özümə düşündüm ki, qiyamət günü cənnətin qapılarından daxil olmaq heç də asan bir iş deyildir.

*Ədnə səkkiz qapı var, bir qapısı babi şəhid,*
*Varid ordan olacaq, zümreye əhbabi şəhid,*
*Yığacaq başə öz aşiqlərin ərbabi şəhid,*
*Eşq pərvanələri dövri Hüseyni alacaq,*
*Şəmi tək Fatimənin oğlu vəsətdə qalacaq.*

*Ğeybidən səs gələcək yari sevənlər gəlsin,*
*Yar təxt üstə çıxıb, qanlı kəfənlər gəlsin,*
*Bir münadi də deyir, qarə geyənlər gəlsin,*
*Dəste Həqq münkirə cənnət yolunu bağlar o gün,*
*Kim Hüseynilərə dünyada gülüb, ağlar o gün.*

Nəzmə çəkilən bu şeir hədislərə istinadən qələmə alınmışdır. Bu misraların istinad etdiyi hədislərdən çox danışmaq olar. Nümunə üçün bir neçəsinə diqqət yetirək. Fəxri Razi və Zəməxşəri öz təfsir kitablarında belə nəql etmişlər:

من مات علي حب آل محمدٍ مات شهيداً

–Məhəmməd və Ali-Məhəmmədin məhəbbəti ilə dünyadan köçən hər bir kəs şəhid olaraq dünyadan köçmüş sayılar.

و من مات علي حب آل محمدٍ وسع اللهُ فِي قَبرِهِ و فُتِح لَه بابانِ الِي الْجنة

–Ali-Məhəmmədin məhəbbəti ilə ölən hər bir kəsin qəbrindən cənnətə qapılar açılacaq.

Ardınca buyurulur:

ألا و من مات علي حب آل محمدٍ جعلَ اللهُ قبره مزار ملائكةِ الرحمة

–Hər kim Məhəmməd və Ali-Məhəmmədin məhəbbəti ilə dünyadan köçsə, Allah onun qəbrini Mələklərin ziyarətgahı qərar verər.

Qiyamət gününə qədər mələklər onun qəbrini ziyarət edəcəklər. Elə bu səbəbdən də deyiblər ki, hər kim Əhli-beytin (ə) məhəbbəti ilə dünyadan köçsə, o insan qərib sayılmaz. Qərib o kəsdir ki, onun başının ağası olmasın.

Hər kim Peyğəmbər (s) və Əhli-beytini (ə) sevərsə, Qiyamət gününə qədər onun qəbri qərib olmayacaq. Çünki mələklər onu ziyarət edəcəklər. Mərhum Şərəfuddin kitabında yazır: “Övladlarıma vəsiyyət etmişəm ki, bu hədisi bir kağıza yazıb mənim kəfənimin arasına qoysunlar. Hər nə qədər kitab yazmışam, ibadət etmişəm, onlar bir yana və onların heç birinə ümidim yoxdur. Yalnız bu hədisi özümə dayaq olaraq qəbrə aparacağam.”

## ƏZADARLARIN MÜXTƏLİF DƏRƏCƏLƏRİ

*Təşnə su kənarində ləblərə salam olsun!*
*Qanə qərq olan başsız peykərə salam olsun!*

*Türbəti müqəddəs ki, kimyadan artıqdır,*
*Qubbeye münəvvər ki, noh səmadan artıqdır,*
*Buqeye mütəhhər ki, hər binadan artıqdır,*
*Kim diyə bilər Kəbə, Kərbəladan artıqdır,*
*Onda dəfn olan şahi bi sərə salam olsun!*

*Gül üzari zibayə, sərvü qəddi rənayə,*
*Əbrovani qövseynə, didehaye şəhlayə,*
*Qan ilə olan əlvan zülfi ənbərasayə,*
*Atların ayaqində parə-parə əzayə,*
*Qan həna xizab etmiş rəhbərə salam olsun!*

*Şiddəti susuzluqdan adlanan dodaqlarə,*
*At döşündə qaçmaqdan zəxmidar əyaqlarə,*
*Şamidə qaranlıqda ac yatan uşaqlarə,*
*Bir də Ümmü Külsümə, Zeynəbi deləfkarə,*
*Doxtərane xatune məhşərə salam olsun!*

Qeyd olundu ki, İmam Hüseyn (ə) həm şəhid olmamışdan illər öncə qabaq, həmdə şəhid olduqdan sonra o Həzrət üçün əzadarlıq olunmuşdur. İmam Hüseyn (ə) şəhid olduqa bacısı və varisi Xanım Zeynəb (s.ə) aşura günü Kərbəlada əza məclisini başladı və hətta Şamda Yezidin öz evində də əza məclisi təşkil etdi. Xanım Zeynəb (s.ə) İmam Hüseynin (ə) (anası Xanım Zəhranın (s.ə) toxuduğu və aşura günü əynindən çıxarılmış) qanlı köynəyini Yeziddən aldı və onun evini qara parçalarla bəzəyib qanlı köynəyi divardan asaraq əza məclisi təşkil etdi. Xanım Zeynəb (s.ə) Yezidə dedi ki, nə qədər sənin evində Hüseynə (ə) əza saxlamamışam, Şamdan getmə-yəcəyəm. Yezid də məcburiyyət qarşısında ona icazə verdi.

Xanım Zeynəb (s.ə) onunla üç şərt kəsmişdi: birincisi, İmam Hüseynin (ə) köynəyini versin; ikincisi, onun evində əza məclisi keçirməsinə etiraz etməsin; üçüncüsü, əza məclisinə gəlmək istəyənlərə mane olmasın. Yezid də bu şərtlərlə razılaşmışdı, lakin sonradan üçüncü şərtə əməl etmədi. Çünki gördülər ki, məclisdə iştirakcıların sayı yavaş-yavaş çoxalır və dünənə qədər İmam Hüseynin (ə) qətlinə gülənlərin əksəriyyəti artıq ağlayır. Bu məsələni Yezidə xəbər verdikdə o da əmr verdi ki, əza məclisinə gələnlərə mane olsunlar və məclisi də dağıtsınlar.

Xanım Zeynəb (s.ə) həm Kərbəlada, həm Şamda, daha sonra yenidən Kərbəlada o həzrətin qırx mərasimində və nəhayət, Mədinədə gecəni sübhə kimi mərsiyə deyib növhəxanlıq etmişdir.

*Çuxur yerin türbətin götürüb çəkən gözünə,*
*Tanıtdıran hamıya Kərbəlanı Zeynəbdir.*
*Gecələri sübhə kimi növhəxanlıq eləyən,*
*Hüseynin əvvəl olan növhəxani Zeynəbdir.*

İmam Hüseynə (ə) əzadarlıq edib ağlamağın çox böyük savabı vardır. Bunu da bilmək lazımdır ki, o Həzrətə (ə) əzadarlıq edənlər dərəcə etibarı ilə bir-birindən fərqlənir. Yəni bütün əzadarlar eyni dərəcəyə və eyni səviyyəyə malik deyillər. Təkcə İmam Hüseynin (ə) əzadarlarının dərəcələri deyil, ümumiyyətlə, bütün əməllərdə insanların dərəcələri və səviyyələri müxtəlif olur. O cümlədən bu məsələ namaz qılanlara, oruc tutanlara və s. əməlləri yerinə yetirənlərə də aiddir.

**1. Həccin savabı**

İnsan hədislərdə həccin savabını oxuduqda çox təəccüblənir və heyrətə gəlməyə bilmir. Savablar müxtəlif olduğundan başa düşülür ki, hacıların da səviyyələri və dərəcələri müxtəlifdir.

Böyük İslam Peyğəmbəri (s) həcc əməllərini yerinə yetirmək üçün Məkkə şəhərinə, oradan Ərəfata və oradan da Minaya getdi. Minada əməlləri başa çatdırdıqdan sonra Məkkəyə gəldiyi zaman Əbtəh[1] adlı bir məntəqədə bir nəfərlə rastlaşdı. Həmin şəxs Həzrət Peyğəmbərə (s) dedi:

–Ey Allahın Rəsulu, mənim də bu il sizinlə birlikdə həcc ziyarətində iştirak etmək niyyətim var idi. Lakin qarşıma bəzi problemlər çıxdı və sizinlə birgə ziyarətdə iştirak edə bilmədim. Amma maddi cəhətdən imkanım çoxdur. Qoyunlarım, mal-qaram və dəvələrim vardır. Sizin əldə etdiyiniz savabı mən də əldə etmək üçün nə versəm kifayət edər?

Həzrət Peyğəmbər (s) əli ilə Əbu Qubeys dağına işarə edərək buyurdu:

–Bu dağı görürsənmi? Əgər bu dağ boyda sənin sarı qızılın olsa və onun hamısını Allah-taala yolunda paylasan, yenə də həcc əməllərini yerinə yetirməyin savabına çata bilməzsən.

Bəzi hədislərdə təvafa verilən savab qeyd edilmişdir ki, bu da insanı heyrətə gətirir. Əgər bir şəxs günortanın istisində başıaçıq, ayaqyalın zikr edərək təvaf etsə, Allah-taala o insana yetmiş min savab verər. Həmçinin onun yetmiş min günahını pozar, cənnətdə məqamını yetmiş min dərəcə çoxaldar, yetmiş min hacətini qəbul edər, yetmiş min qul alıb azad etməyin savabını verər və qiyamət günü ona öz qohum-əqrəbasından yetmiş nəfəri cənnətə aparmaq icazəsi verər.

Gör həccin fəziləti nə qədərdir?! Gör Allah-taala hacıya nə qədər savab əta edir?!

Şəriətin hökmlərinin batinindən xəbəri olmayan və onları düzgün anlamayan kimsələr Kəbəni qara bir daş kimi görürlər. Təvafı isə qara daşın başına dövrə vurmaqdan savayı başqa bir şey hesab etmirlər. Elə bu səbəbdən də onun əksinə olaraq bəzi şeyləri qələmə almaqla öz abırlarını aparırlar.

---

[1] Mina ilə Məkkə arasındakı bir məntəqənin adıdır.

Görəsən, bu savabları bütün hacılara verirlərmi? Xeyr, müəyyən bir dərəcə vardır ki, hər kim özünü bu dərəcəyə çatdırsa, ona həmin savab veriləcək. Bəzi əməllər bütün insanlar üçündür, lakin bəzi fəzilətləri bütün insanlara vermirlər.

Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Hacılar üç qisimdir. Bir qrup hacı vardır ki, Allah onların həm keçmişdəki və həm də gələcəkdə ola biləcək günahlarını bağışlayır.

غُفِرَ لَه ذَنبه ما تقَدم مِنه و ما تأخر

İkinci qrup hacıların isə yalnız keçmiş günahlarını bağışlayır.

غُفِرَ لَه ذَنبه ما تقَدم مِنه

Üçüncü qrup hacılar da o şəxslərdir ki, Allah onların ailəsini və malını salamat saxlayır.

فَرجلٌ حفِظَ فِي أهلِهِ و مالِهِ

Allah-taala üçüncü qrup hacıları da əliboş yola salmır, onlara da nəsə verir. Lakin birinci və ikinci dəstə fərqlidir. Onlar da eyni yolla, eyni miniklərlə gediblər, eyni Miqatda ehram bağlayıblar, eyni karvanda olublar və zahirən eyni əməlləri də yerinə yetiriblər. Lakin batini bir məsələ vardır ki, bu da onların fərqlənməsinə səbəb olur."

**2. İmam Hüseynin (ə) ziyarətinin savabı**

Kərbəla ziyarəti də həcc ziyarəti kimidir. Bəzi hədislərdə qeyd olunur ki, hər kim Kərbəlada İmam Hüseyni (ə) ziyarət etsə, Allah onun bütün günahlarını bağışlayar. Bəzi hədislərdə də deyilir ki, hər kim eşqlə, şövqlə Kərbəlanı ziyarət etsə, Allah-taala:

a) Min qəbul olunmuş həccin savabını verər;

b) Min şəhidin savabını verər;

c) Min oruc tutan insanın orucunun savabını verər;

ç) Kərbəlaya getdiyi il dünyadan köçsə, ona qüsl verilən və dəfn olunan zaman mələklər gəlib kömək edər və onun bağışlanması üçün dua edərlər;

d) O insandan qəbir əzabını götürər;

e) O insandan qiyamətin əzabını götürər və bir mələyə "Ey insanlar, bu adam eşqlə Hüseyni (ə) ziyarət etmiş şəxsdir", – deyə nida etməyi tapşırar.

Oruc tutanlar, namaz qılanlar, xüms verənlər də belədir. Məsələnin zahiri tərəfi eynidir, hər ikisi gedib Kərbəlanı ziyarət ediblər. Lakin batini bir məsələ vardır ki, o da bunları bir-birindən fərqləndirir.

Görəsən, bunları bir-birindən ayıran o nəsnə nədən ibarətdir?

## Əzadarların mərifəti

Sadə sözlərlə desək, insanları dərəcə və səviyyə baxımından bir-birindən ayıran onların mərifətidir. Çünki savab hər bir insana onun mərifəti qədər verilir. İxlas, paklıq, ruhun səfası, ruhun səmimiyyəti və bunların hamısı mərifətin daxilində cəm olunmuşdur.

Bəzi alimlər İmam Hüseynin (ə) əzadarlarının altı qisim olduqlarını qeyd etmişlər. Onlardan dördünü əziz möminlərin nəzərinə çatdırmaq istərdim. Qalan iki qismi isə irfani və dərin mənalara malik olduğundan onun mənasını böyük arif insanlar açıqlaya bilər.

**Birinci dərəcə:**

İmam Hüseynə (ə) əza saxlayan və yalnız qəlblərində narahatlıq keçirməklə kifayətlənən şəxslər bu dərəcəyə aiddirlər. Onlar İmam Hüseynin (ə) müsibətinə yalnız qəlblərində əza saxlayırlar. Doğrudur, İmam Hüseyni (ə) öldürənlərə qarşı etirazlarını və narazılıqlarını ancaq öz qəlblərində bildirirlər ki, bu insanların zahirinə baxsan, heç nə hiss etməzsən.

Əlbəttə, bu mərtəbədən də aşağı mərtəbə yoxdur. Yəni bundan aşağı mərtəbədə olanlar ürəklərində İmam Hüseynin (ə) qətlinə razı olanlardır. İmam Hüseynin (ə) ziyarətnaməsində belə oxuyuruq:

لَعن اللهُ أُمةً قَتلَتك و لَعن اللهُ أُمةً ظَلَمتك و لَعن اللهُ أُمةً سمِعت بِذلِك فَرضِيت بِهِ

–Allah səni öldürənlərə lənət etsin! Allah sənə zülm edənlərə lənət etsin! Allah bunu eşidib razı qalanlara lənət etsin!

Yəni bunu eşidib qəlbində razılıq ifadə edən şəxs də o həzrətə zülm edənlərə şərikdir. Məlumdur ki, İmamın (ə) başını Şümr kəsib, ancaq yüz ildən sonra bunu eşidib qəlbində razılıq ifadə edən və heç bir etirazını bildirməyən bir şəxs də onunla eyni cərgədə qərar tutur.

Bu mərtəbədə insanın müsəlman və ya kafir olması baxımından da heç bir fərq yoxdur. İmam Hüseynin (ə) başına gələn müsibətə qəlbən narahat olan, lakin dili və əməli ilə heç bir etiraz etməyən hər bir kəs əzadar sayılır. Bu adamlar qəlbən narahat olduqlarına görə Allah onlara savab verəcəkdir. Lakin onların dərəcələri çox azdır

**Ayətullah Behcətidən bir xatirə**

Ayətullah Təsxiri mərhum Ayətullah Behcət ağadan belə nəql edir: "Ayətullah Behcəti deyir ki, Nəcəfi-Əşrəfin yaxınlığında, Fərat çayı ilə Dəclə çayının bir-biri ilə qovuşduğu yerdə bir kənd vardır. İmam Hüseynin (ə) zəvvarlarından biri hər cümə axşamı həmin məntəqədən keçib Nəcəfi-Əşrəfdə Həzrət Əlini (ə) ziyarət etməyə gedirmiş. Bu kənddə yaşayan bir nəfər isə həmişə oradan keçən Həzrət Əlinin (ə) zəvvarlarına nalayiq sözlər deyərmiş. Son dərəcə fasiq və pis bir adam imiş. Sözləri və əməli ilə həmişə buradan ötüb-keçən

zəvvarları incidərmiş. Günlərin bir günü Nəcəfə gedən həmin zəvvarlardan biri o şəxsin əlindən bezib Həzrət Əlinin (ə) hərəmini ziyarət etdikdən sonra elə hərəmin içərisində dayanıb deyir: “Ya Əli, yolda bir nəfər zəvvarlara əziyyət verir.”

Həmin şəxs deyir ki, sonra orada baş verənləri danışıb Həzrət Əliyə (ə) şikayət etdim. Sonra bir kənarda oturub dincələrkən yuxuya getdim. Yuxuda ailəmi gördüm və elə bu zaman Həzrət Əli (ə) gələrək “şikayətin var?” – deyə soruşdu. Ərz etdim: “Bəli, ya Əmirəlmöminin. Bir nəfər yolda dayanıb zəvvarlara əziyyət verir. Bir çarə qılın, onu cəzalandırın”. Həzrət mənə baxıb buyurdu: “Onun bizim boynumuzda haqqı vardır, elə buna görə də onunla bu dünyada işimiz yoxdur.” Mən çox narahat oldum və narahat halda da dedim ki, mən bu dəfə buraya gələndə o, mənə hətta sizin adınızı çəkərək hörmətsizlik etdi. Onun necə sizin boynunuzda haqqı ola bilər?

Həzrət buyurdu: “O şəxs bir gün orada, iki çayın bir-birinə qovuşduğu yerdə tək-tənha oturub suya baxırdı. Elə həmin vaxt Kərbəla hadisəsi onun yadına düşdü və o, öz-özünə dedi: “Ömər ibn Səd çox səhv iş görüb. Bu qədər sudan Hüseynə (ə) vermədi. Əgər versəydi nə olardı?!” O, bu sözləri deyəndən sonra suya gözündən bir damla yaş düşdü. Həmin gözyaşının ehtiramına xatir bizim bu dünyada onunla işimiz olmayacaq.”

Mən yuxudan ayıldım və evə qayıdanda yenə də həmin şəxslə rastlaşdım. Yenə də qarşımı kəsib istehza ilə dedi: “Yenə ağanı ziyarət etdin? Ziyarətin necə keçdi?”

Mən də onun cavabında dedim:

–Bəli, ziyarətə getdim, sənin dediklərini ağama çatdırdım və ondan sənə bir xəbər gətirmişəm.

“Nə xəbər gətirmisən?” – deyə soruşdu.

Dedim: “Əyləş, danışım.”

Bir kənarda əyləşdik və dedim ki, mən səndən ağama şikayət etdim və ağam da yuxuda mənə belə söylədi. Mən həmin söhbəti onun üçün nəql etdim. O, təəccüblə baxdı, baxdı və öz-özünə bir kəlmə dedi: “Axı mən o sözü deyəndə orada heç bir kəs yox idi. Bəli, demişəm, amma mən onu deyəndə tək idim. Əgər sənin ağan onu eşidibsə, ona qiymət veribsə və buna görə də mənimlə işləri yoxdursa, onda mən də deyirəm: “Əşhədü ənnə Əliyyən hüccətullah.” Belə bir ağanı mən də qəbul edirəm.”

Diqqət edin, İmam Hüseynin (ə) bu cür faciəli şəkildə ölümünə narahat olan şəxslərin kimliyindən asılı olmayaraq, onların arasında heç bir fərq qoyulmur. O həzrətin müsibətinə bir damla gözyaşı tökmətin özü də bir dərəcə deməkdir. Bu, ən aşağı dərəcədir, lakin fərqi yoxdur, dost olsun, ya düşmən, o da əcrini alacaqdır.

**İkinci dərəcə:**

İkinci dərəcəyə sahib olanlar o insanlardır ki, onlar İmam Hüseynin (ə) müsibətinə narazıdırlar və öz narazılıqlarını əməldə də izhar edirlər. Məsələn, ağlamaqla, sinə vurmaqla, qara köynək geyinməklə, növhə deməklə və yaxud həmin gün özünü əzalı bir insan kimi göstərməklə.

Bu dərəcədə olan insanlar az da olsa, İmam Hüseynlə (ə) əlaqələri vardır və İmam Hüseynə (ə) ehtiyacları olduğunu hiss edirlər. Bunlar həm qəlbdə və həm də əməldə əzadar hesab olunurlar. Burada da müsəlmanlar və ya müsəlman olmayanlar arasında heç bir fərq qoyulmur. Əgər hər hansı bir insan İmam Hüseynin (ə) şəhid olmasına razı deyilsə və onu öldürənlərə öz əməli ilə etiraz edirsə, istər mömin olsun, istərsə də mömin olmasın, Allah onun əcrini verəcəkdir.

**Fransız bir kişinin əhvalatı**

Mərhum Şeyx Məhəmməd Baqir Vaiz Xorasani deyir: "Bir dəfə məhərrəm ayında Fransada yaşayan iranlı tacirlər məni oraya, İmam Hüseynin (ə) əza məclisinə dəvət etdilər. Mən də qəbul etdim. Məhərrəm ayına bir-iki gün qalmışdı ki, biz yerləşdiyimiz mərkəzə bir nəfər fransız öz həyat yoldaşı və oğlu ilə birlikdə gəldilər. O, bizim dilimizi də bilmirdi. Ofisin rəhbərinə dedi ki, mən eşitmişəm sizin bir şeyxiniz bura gəlib və on gecə sizə söhbət edəcəkdir. Gəlmişəm sizdən xahiş edim ki, icazə verin o, gəlib mənim evimdə də on gün rövzə oxusun. Ondan soruşduq ki, nəyə görə belə etmək istəyirsən. Dedi: "Nəzir etmişəm."

Oradakılar məndən soruşdular ki, ağa, onun təklifini qəbul edirsinizmi? Biz bir neçə nəfərlə birlikdə səninlə gedərik və sən də onun evində rövzə oxuyarsan. Mən dedim ki, İmam Hüseynin (ə) adına xatir qəbul edirəm. Öz məclisimiz qurtaran kimi gedərik. Beləcə hər gün öz məclisimiz qurtaran kimi, onlar maşın göndərir və bir-iki nəfər mənimlə birlikdə onun evinə gedirdik. O, ailə üzvləri ilə bir otaqda otururdular və mən on-on beş dəqiqə İmam Hüseyndən (ə) rövzə oxuyur və sonra da qalxıb gəlirdik. Düz doqquz gecə belə davam etdi. Aşura gecəsinə məxsus olan əməlləri yerinə yetirmək üçün həmin gün onlara gedə bilmədim. Sabahısı gün gəlib dedi ki, gecə gözlədim, niyə gəlmədiniz? Maşın göndərdim, maşın da boş qayıtdı. Dedim ki, bəzi maneələr olduğundan gələ bilmədim. O dedi ki, mənim nəzirim on gecədir, xahiş edirəm, bu gecə də gəl və on gecə tamam olsun. Dedim ki, yaxşı, gələrəm.

Axşam olan kimi getdim, bir müddət rövzə oxudum və beləcə, on gecə tamam oldu. Sağollaşıb qayıtdım. Sabahısı gün həmin fransız bizim mərkəzə gəldi və əlində də çox qiymətli, gözəl bir hədiyyə gətirmişdi. Dedi ki, sən on gecə gəlib mənim evimdə rövzə oxudun, mən də bunu sənə

hədiyyə gətirmişəm. Mən dedim ki, bu hədiyyəni səndən götürə bilmərəm. Dedi ki, almasan, narahat olaram. Dedim ki, bir şərtim var, əgər sən o şərtə əməl etsən, qəbul edərəm. Dedi ki, yaxşı, buyur. Dedim ki, sən nəyə görə nəzir etmişdin, onun səbəbini mənə de. Sən müsəlman deyilsən, heç bizim dilimizi də bilmirsən. Bəs, nə üçün belə bir nəzir etmişdin? Bunu bilmək mənim üçün çox maraqlıdır.

Dedi ki, zərgərəm, qızıl satıram. Bir gün mən elə bu günlərdən birində ərəb ölkələrindən birinə getmişdim. Orada bir neç gün qalmalı oldum. Mənim bir qızıl qutum var idi, onu oğurladılar. Nəyim var idisə, hamısı onun içindəydi. Onun içində çox qiymətli əşyalarım var idi. Qutunun oğurlanmasına görə çox narahat oldum. Gecə oturub nə edəcəyim barədə düşünürdüm. Gördüm ki, küçədən bir səs gəlir. Soruşdum ki, bu nə səsdir? Dedilər ki, orada əzadarlıq məclisi var. Əzadarlığın nə olduğunu mənə başa saldılar. İslamda Əhli-beyt (ə), onları sevənlər və aşura haqda mənə məlumat verərək bu məsələləri izah etdilər. Gedib o əzadarlara qoşuldum və belə bir nəzir etdim:

–Ya Əba Əbdillah, sənin bu qədər əzəmətin var, 1400 ildən sonra bu qədər insan qara geyinib küçələrə tökülüblərsə, deməli sən çox dəyərli bir şəxs olmusan. Əgər kömək etsən və mən itmiş qutumu tapsam, mən də söz verirəm ki, gələn il on gün evimin qapısını açıb sənə əza saxlayacağam.

Sonra əzadarlıq etdiyim zaman gördüm ki, bir nəfər məni çağırır. Soruşdum ki, mənimlə nə işin var. Dedi ki, gəl kənara çıxaq. Onunla bir-iki addım kənara çəkildikdə dedi ki, bu əmanət sənindir. Aldım, baxıb gördüm ki, itirdiyim həmin qutudur. Otağıma qayıdanda qutunu açdım və gördüm ki, içindən heç nə götürməyiblər. Hər nə var idisə, hamısı yerindəydi. Beləcə, o vaxt nəzir etmişdim, indi isə nəzirimə əməl edirəm.

Kərbəla hadisəsi ilə bağlı belə əhvalatlar haqda kifayət qədər yazılıb. İmam Hüseyn (ə), Xanım Zəhra (s.ə) və Əhli-beyt (ə) haqqında belə hadisələr tarix boyu çox baş vermişdir. Burada müsəlman və ya qeyri-müsəlman arasında heç bir fərq yoxdur. İmam Hüseynə (ə) danışığı ilə, əza saxlamağı ilə, qara köynək geyinməyi ilə, ehsan verməklə əza saxlamaq ikinci dərəcəli əzadar olmaq deməkdir.

**Üçüncü dərəcə:**

Üçüncü dərəcədə o insanlar qərar tuturlar ki, Kərbəla hadisəsinin cinayətkarlarına öz etirazlarını bildirir və həm də onlara lənət oxuyurlar. Onlar imamətin nə olduğunu bilir və İmam Hüseyni (ə) də çox gözəl tanıyırlar. Onlar İmamı (ə) öldürənlərin fasiq adam olduqlarını da yaxşı bilirlər. Onlar İmamı (ə) imamət mənsəbindən kənarlaşdıranları da çox gözəl tanıyırlar. Elə buna görə də onların savabı yuxarıda qeyd etdiyimiz iki dərəcəyə mənsub olan insanların savabından daha çoxdur. Çünki mərifət çoxaldıqca savab da çoxalar.

İmam Sadiq (ə) buyurmuşdur: “Mənim nəvələrimdən biri Tus şəhərində şəhid olacaqdır. Hər kəs onu, yəni Əli ibn Musər-Rzanı (ə) “arifən bihəqqih” ziyarət etsə, onun cənnətə getməsinə mən zaminəm.” Soruşdular: “Ağa, “arifən bihəqqih” nə deməkdir?” Həzrət (ə) buyurdu: “Arifən bihəqqih”in iki mənası vardır. Biri budur ki, ziyarət etdiyin bu imam Allahın yer üzündəki höccətidir və ona itaət etmək vacibdir. (Əgər insanlar bunu dərk etsələr, onda çox məsələlər həll olunar.) İkincisi isə budur ki, bu imama verilən haqq (imamət haqqı) onun əlindən alınıb və ona zülm olunaraq öldürülüb.”

Əgər insan bunların hər ikisini başa düşsə, ona deyərlər mərifəti olan insan. Bu da mərifətin ən aşağı dərəcəsidir. Bu dərəcəyə çatan hər bir şəxs İmam Hüseynin (ə) yer üzündə Allahın höccəti olduğunu bilir və ona itaət etmək vacibdir. Bilir ki, İmam Hüseyni (ə) öldürənlər zalım, imamətə, vilayətə

və müsəlman cəmiyyətinə xəyanət edənlən insanlardır. Bu qədər mərifəti olan əzadarların[1] iki xüsusiyyəti vardır.

Birincisi, onlar İmam Hüseynə (ə) ağlayan zaman çox böyük məhəbbətlə ağlayırlar. İmam Hüseynin (ə) və övladlarının öldürülməsini, habelə ona edilən zülmləri xatırlayaraq ağlayırlar. Çünki onun mərifəti bu qədərdir. Növhə və mərsiyələri də bu səviyyədədir. Xanım Zeynəbin (s.ə) zəban halı ııə İmam Hüseynə (ə), İmam Hüseynin (ə) dili ilə uşaqlara növhə deyib ağlayırlar. Rövzəxanlar, mərsiyə oxuyanlar adətən öz atifə, duyğu və hissləri növhə deyib ağlayırlar.

*Hüseyn, gedirəm xərabeyi Şamə məni sal yola azan ver,*
*Gecələr bu niməmördə bədənimə tazə can ver,*
*Gecələr gəl hərdəm-hərdəm özünü mənə nişan ver.*

*Keçən gecə anamoğlu, mən sinə dağlamışam,*
*Yanan çadırda Rübab ağlayıb, mən ağlamışam.*

*Müsafirəm, səfər üstə mən şivənə gəlləm,*
*Hüseyn, indi gedirəm, ölməsəm yenə gəlləm.*

Diqqət etsəniz, bu növhələrin hamısında məhəbbət və atifə söhbətləri gedir. Xanım Rübab İmamın (ə) oğlu Əliəsğərə (ə) belə oxşama deyir:

*Oğul, altı aydı məni rağib eləmişdin özüvə,*
*Qəlbidə qüssəm olan vaxtda baxardım üzüvə,*
*Amma bu gecə harda qalıbsan, ana qurban gözüvə.*

*Allah oğul verər ana başin ucaltmağa,*
*Oğul, verdi səni qərib ananı tez qocaltmağa,*

İkincisi, bu adamlar (mərifətlə əzadarlıq edənlərin üçüncü qismi) əzadarlıq məclislərində öz hacət və istəklərini diləyirlər. Əzadarların böyük əksəriyyəti də bu qəbil insanlardır. Onlar İmam Hüseynin (ə) məclislərində yalvarıb dünyadakı prob-

---

[1] İndiki dövrdə olan əzadarların əksəriyyəti bu dərəcəyə daxildirlər.

lemlərinin həlli, qəbir əzabından amanda qalmaları, qiyamət gününün çətinliklərindən qurtulmaq üçün yalvarıb yaxarırlar. Qısa sözlə desək, dünya və axirət xoşbəxtliyini istəyirlər.

*Ey şahi təşnə, dərgəhüvə bəndə gəlmişəm,*
*Boşdur əlim, xəcalətü şərməndə gəlmişəm,*
*Bir dərdmənd nökərünəm mətləb almağa,*
*Aləm gəlib sənin qapına, mən də gəlmişəm.*

*Ömrümün sürətilən keçdi müfəssəl gecəsi,*
*Olmadı heyf ola taətlə mücəlləl gecəsi,*
*And verirəm səni Əkbər canına ey mövla,*
*Məni tək qoymayasan qəbrimin əvvəl gecəsi.*

Bunlar üçüncü dərəcənin əzadarlarıdır. Yaxşıdır, amma mükəmməl də deyillər. Çünki İmam Hüseynin (ə) əzasının mənası bunlar deyildir. Düzdür, bunlar yaxşı cəhətlərdir, lakin əzadarlıqda məqsəd bunların heç biri deyil. Bu savabların hamısı əzadara verilir, lakin əzadarlıqda məqsəd bunlar hesab edilmir. Əzadarlığın mənası dördüncü dərəcədə məlum olur. Dördüncü mərhələdə məlum olur ki, Allah-taala həmin savabları nəyə görə əzadara verir. Allah-taala bu savabları nə birinci dərəcədə olana, nə ikinci dərəcədə olana və nə də üçüncü dərəcədə olana vermir.

Qeyd etmişdik ki, hacılara verilən savablar müxtəlif olduğu kimi, əzadara da verilən savablar müxtəlifdir. İslam Peyğəmbəri (s) buyurmuşdur: "Əgər bir şəxs ehram bağlayıb "Ləbbeyk" deyərək Məkkəyə getsə və birdən yağış yağsa, o da yağışdan qaçmasa, Allah o hacıya onun üstünə düşən yağışın hər bir damlası qədər bir şəhidin savabını verər."

İmam Hüseynin (ə) əzası da bu cürdür. Birinci dərəcə budur ki, əgər ağlasa, bu dünyada onunla işimiz olmayacaq. İkinci dərəcə odur ki, əgər kafir də olsa, istədiyini verəcəyik. Çünki ürəyində də olsa belə İmam Hüseynin (ə) qatillərinə öz etirazını və narazılığını bildirib. Üçüncü dərəcə odur ki,

o, İmam Hüseyni (ə) imam kimi tanıyır və ona itaət etməyin vacib olduğunu bilir. Onu öldürənlərin zalım olduqlarını bilir və onlara lənət oxumağın lazım olduğunu bilir. Beləcə İmam Hüseyn (ə) üçün şeir, növhə, mərsiyə oxumaqla qara geyib əzadarlıq edir. Bütün bunlara görə insana əcr və savab verilir. Lakin İmam Hüseynin (ə) həqiqi yəni dördüncü dərəcəli əzadarlarına verilən savab onlara verilmir.

*Hüseynin oldi qandan rəxtixabi,*
*Kəfən geydi həriri afitabi.*
*Hüseynin sinəsi ovraq olanda,*
*Olub şirazəbənd Allah kitabi.*

*Fədayəm ol həqiqi eşqbazə,*
*Kifayət qıldı qani dəstəmazə,*
*Yıxılmış halda qəsd etdi nəmazə,*
*Qoyub alnın sücudi biniyazə,*
*Təlapuş eylədi qanla turabi.*

*Deyəndə səcdəsə Sübhanə Rəbbi,*
*Diriltdi vacibatü müstəhəbbi,*
*Dedi ləbbeyk ona zati mürəbbi,*
*Həbibi, uzkur ismi, təzdud hubbi,*
*Hüseyn canandan aldı bu cəvabi.*

*Edibdür səcdəsin yerdə o sərvər,*
*Dedi sər nizədə Allahu əkbər,*
*O qanki səcdə üstə tökdü xəncər,*
*Apardı ərşi əlayə mələklər,*
*Edə məbud o qani ərzyabi.*

*O qan məxsusidür pərvərdigarə,*
*Qarışmaz xakzarə, rigzarə,*
*O qan getdi hüzuri kirdigarə,*
*Asıldı ərşidən çün guşvarə,*
*O qan məhşərdə eylər inqilabi.*

**Dördüncü dərəcə:**

Qeyd etdik ki, insanların əməllərinin müxtəlif dərəcələri vardır. Hər bir əməlin öz dərəcəsinə görə ona savab verilir. Hədislərdə də qeyd olunub ki, iki rükət namazın savabı və şərafəti yetmiş qəbul olunmuş həccin savabından çoxdur. Lakin bu savabı bütün insanlara vermirlər. Bu savabların öz əhli vardır. Bəzi insanların namazından yalnız bir cümlə qəbul olunur. Məslən dörd rəkətli namzadan yalnız bircə “Allahu Əkbər” kəlməsi əməl dəftərinə yazılır. Bu insana yalnız həmin kəlmənin savabını verirlər. Bəzi insanlara isə yetmiş qəbul olunmuş həccin savabı verilir.

Həmçinin qeyd etdik ki, İmam Hüseynin (ə) əzadarlarının da mərifətdə müxtəlifdir dərəcələri və hər bir dərəcədə olan insanların da özünə məxsus savabı vardır. Həmin dərəcələrdən üçünü yuxarıda qeyd etdik.

Dördüncü dərəcədə olan əzadarlara gəldikdə isə sözün əsas cövhəri də elə bundadır ki, bütün əzadarlar özlərini be mərhələyə çatdırmağa çalışmalıdırlar. Bu dərəcədə olan əzadarlar o kəslərdir ki, İmam Hüseynin (ə) əzasına hədəf kimi yox, bir vasitə və vəsilə kimi baxırlar. Biri var ki, insan sinə vurmağı, qara köynək geyinməyi, ehsan etməyi, ağlayıb mərsiyə oxumağı hədəf bilir. Bir də var ki, bunların hamısından vasitə kimi istifadə edilir. Yəni bunların vasitəsilə insanlar İmam Hüseynə (ə), onun hədəfinə və nəhayət, Allaha yaxınlaşmaq istəyirlər. Məsələn, əgər bir nəfər evin damına çıxmaq istəyirsə, aydın məsələdir ki, bir nərdivan götürüb onun vasitəsilə dama çıxır. Həmin nərdivanın dəmirdən, taxtadan, qızıldan və ya gümüşdən olmasının insan üçün heç bir fərqi yoxdur. İnsan nərdivandan yalnız bir vasitə kimi istifadə edir. Odur ki, nərdivanın nədən hazırlanması mühüm deyil, mühüm olan odur ki, həmin əşya insanın sağ-salamat dama çıxmasında bir vasitə olsun. Əsas odur ki, çürük taxtadan və nazik dəmirdən olmasın. Bir də əsas odur ki, məqsəd yaddan

çıxmasın. Məsələn, bir nəfər nərdivanla dama çıxmaq istədiyi halda, yarıda gözəl havanın əsdiyini gorüb məqsədini unudaraq əyləşib təmiz hava qəbul etmək fikrinə düşür.

Əzadar İmam Hüseynin (ə) məclisinə hədəf gözü ilə baxmamalıdır, yəni buna bir vasitə kimi baxmalıdır. Dördüncü dərəcədə olan əzadarın məqsədi və düşüncəsi özünü İmam Hüseynə (ə) oxşatmaqdır. Üçüncü dərəcədə olan qara köynək geyinməklə və ağlamaqla özünü əzadara oxşatmaq istəyir. Lakin dördüncü dərəcədə olan isə özünü İmam Hüseynə (ə) oxşatmağa çalışır. Ayaqlarını onun ayaq izinə qoyur.

İlk növbədə onu tanımağa çalışır. Çünki əgər hər hansı bir insan özünü kiməsə oxşatmaq istəsə, gərək ilk növbədə onu yaxşı tanısın. İmam Hüseyni (ə) tanımaq böyük bir məsələdir. Bunun üçün insan gərək onun hədəfinin nədən ibarət olduğunu bilsin. Yəni bilməlidir ki, İmam Hüseyn (ə) nə üçün qiyam etdi?! Əksər müsəlmanlar zilhiccə ayının 8-i Məkkəyə axışıb gəldiyi halda, bəs İmam Hüseyn (ə) nə üçün Məkkədən çıxıb Kərbəlaya getdi?! Doğrudur, bəziləri elə güman edirdilər ki, İmam Hüseyn (ə) düzgün mövqe seçməyib. Elə buna görə də ona nəsihət vermək fikrinə düşürdülər. Həmin adamlar elə güman edirdilər ki, İmam Hüseyn (ə) şəriət məsələləri yaxşı bilmir. Əsl həqiqətdə isə onlar kiminlə söhbət etdiklərini yaxşı dərk etmirdilər. Təkcə onlar deyil, hətta 1400 ildən sonra kitab yazaraq "Hüseyn ibn Əliyə (ə) nəsihət etdilər, o isə nəsihətə qulaq asmadı", – deyə söyləyənlər də İmamı (ə) tanımamışdılar. Onlar elə güman edirlər ki, İmam Hüseyn (ə) öz vəzifəsini düzgün müəyyənləşdirə bilməmişdir.

Ancaq İmam Hüseynin (ə) əsas hədəfi dini dəyərlərin qorunub saxlanılmasından ibarət idi. Həzrət (ə) istəyirdi ki, dini dəyərlər məhv olub aradan getməsin. Yəni İmam Hüseynin (ə) hədəfi eynilə insanlara göndərilən peyğəmbərlərin hədəfi ilə bir növ üst-üstə düşürdü. Peyğəmbərlərin

hədəfi bu idi ki, insanlar ilk növbədə özlərini islah etsinlər, hidayət olunsunlar və özlərini pis sifətlərdən təmizləsinlər. Allah-taala Qurani-kərimdə on bir dəfə and içdikdən sonra buyurur:

قَد أفْلَح من زكاها. وقَد خاب من دساها

–Nəfsini təkamülə çatdıran və onu fikir və nəfs pisliklərindən təmizləyən şəxs, şübhəsizdir ki, nicat tapmışdır. Və nəfsini pisliklərə bulaşdırıb cəhalət, küfr və pozğunluq pərdəsi altında gizlədən şəxs isə, şübhəsiz, ziyana uğramışdır.[1]

Görəsən, nəyə görə Allah-taala on bir dəfə and içir?! Allah-taala yalnız və yalnız bu ayədən başqa Quranın heç bir surəsində ardıcıl olaraq on bir dəfə and içməmişdir. Peyğəmbərlərin və imamların ən başlıca hədəfini insanların nəfsinin təmizlənməsi, cəmiyyətin saflaşdırılması və onların təkamülə çatdırılması təşkil edir.

Əzadarlığın ikinci dərəcəsində əzadar cəmiyyəti saflaşdırmağa çalışır. Üçüncü mərhələdə isə insan kamilliyə çatmağa cəhd göstərməlidir. İmam Hüseynin (ə) məclisində kamilliyə çatmağa və hər gün bir addım Allaha yaxınlaşmağa müyəssər ola bilən hər bir kəs dördüncü dərəcəyə gəlib çatmış sayılır. İmam Hüseynin (ə) məclisinə dair qeyd olunan savabları məhz belə bir şəxsə verirlər.

Bildiyimiz kimi bütün din və təlimlər yekdilliliklə demişlər ki, insan kamilliyə çatmalıdır. Lakin kamilliyə yetişməyin yolunda ixtilaflar da mövcuddur. Məsələn, bir toplum hansısa bir məkana getməyi qərara alır, lakin hərəsi bir yolla getməyi təklif edir. Biri deyir ki, əgər bu yolla getsək, tez məqsədə çatarıq, digəri deyir ki, yox, o biri yolla getsək, daha tez məqsədə çatarıq. Bütün bu ixtilaflara baxmayaraq kamilliyin özünü hamı qəbul edir.

---

[1] Şəms surəsi, 9-10-cu ayələr.

Bəziləri deyirlər ki, var-dövlət sayəsində kamilliyə çatmaq olar. Bəziləri isə yalnız vəzifə sayəsində kamilliyə gəlib çatmağın mümkün olduğunu qəbul edirlər. Bəziləri də deyirlər ki, çoxlu övladın olması ilə insan kamilliyə gəlib çata bilər. Bəzilərinin fikrincə isə, əgər dünyada insanın qüdrəti çox olsa, kamilliyə nail ola bilər. Bunların hamısının da öz tərəfdarları vardır. Lakin İslam dini belə demir. İmam Hüseyn (ə) belə düşünmür. O Həzrət (ə) buyurur ki, insanın kamilliyə gəlib çatması vacibdir, lakin var-dövlət, vəzifə və qüdrətlə yox. Bunlar insanı şeytanın yoluna aparıb çıxarar.

## Təkamül (kamillik) qanunu

Bəs görəsən, bunun yolu nədir? İmam Hüseyn (ə) buyurur ki, kamilliyə gəlib çatmaq üçün müəyyən bir qanun vardır və hər kim həmin qanuna əməl etsə, kamilliyə çatmış olacaqdır. Hər kim əməl etməsə, heç bir vaxt həmin səviyyəyə gəlib çata bilməyəcəkdir. Həmin qanun isə bundan ibarətdir ki, hər bir şey gərək özündən daha qiymətli bir şeyə fəda olsun. Əgər fəda olsa, kamilliyə çatacaq, yox, əgər fəda olmasa, heç bir vaxt kamilliyə çata bilməyəcəkdir. İstər torpaq olsun, istər heyvan olsun və istərsə də insan olsun. Hamısında kamilliyə gəlib çatmağın bir qanunu vardır.

Məsələn, görəsən, çöldə və səhrada olan torpağın dəyəri nə qədərdir? Əgər o torpağa toxum səpsən və o da özünü toxuma fəda verərək orada bir ağac bitirib oranı yaşıllığa çevirsə, onun dəyər-qiyməti çoxalmazmı?! Torpaq özünü özündən daha qiymətli şeyə fəda etdiyinə görə onun qiyməti çoxalar. Çünki qanun bunu tələb edir.

Heyvanlar da elə bunun kimidir. Çünki qanun eynidir. Məsələn, əgər bir qoyunu kəsib onun ətini bir neçə nəfər arasında bölüşdürsən və onlar onu yeməklə bədənlərinin qanı və əti çoxalsa, təbiidir ki, həmin qoyunun qiyməti də xeyli çoxalar?! Qoyun ətinin vasitəsilə insanın bədəninin artan

ətinin və qanının qiyməti eynilə qoyunun qiyməti qədərdirmi?! Əgər bir qoyunu bütövlükdə 200 manata alırsansa, insanın bir barmağına 10000 manat da versən, heç kim onun kəsilməsinə razı olmaz.

Bu çəkdiyimiz misallar məsələnin daha da yaxşı anlaşılması üçündür. Bizə insanların kamilliyə çatması lazımdır. İnsanların kamilliyə gəlib çatmasının yalnız bir yolu vardır. Onun da yolu budur ki, öncə insan özündən daha qiymətli nəsnənin nə olduğunu bilməlidir. Gərək ilk növbədə onu axtarıb tapasan. Onu tapandan sonra gərək ömrünün hamısını ona sərf edəsən. Canını, malını, balalarını və ömrünü ona fəda etməlisən.

Dördüncü dərəcədə qərar tutan əzadar başa düşür ki, din insandan daha əhəmiyyətlidir. Mümkündür ki, bəziləri dini mənasız bir şey kimi qəbul etsinlər. Belə insanlar adi adət-ənənələrlə İmam Hüseynin (ə) əza məclisi arasında heç bir fərq görmürlər. Namaza, oruca və dinin başqa vacib buyurduğu əməllərə adət-ənənə kimi baxırlar. Belə insanların dindən heç bir anlayışı yoxdur. Onlar Allahı, peyğəmbərləri tanımırlar. Qurana və dinə olan münasibətləri ilə milli adət-ənənələrə, məsələn, Novruz bayramının bəzi adətlərinə olan münasibətləri arasında heç bir fərq hiss olunmur.

İmam Hüseynin (ə) əza məclisində dördüncü dərəcəyə gəlib çatan insan anlayır ki, din insandan daha əhəmiyyətlidir. İnsanın kamilliyə yetişməsi üçün onun mütləq özünü dinə qurban verməsindən savayı başqa heç bir yolu yoxdur. Bunun nəticəsi odur ki, əgər üçüncü dərəcədə olan əzadarlar İmam Hüseyndən (ə) hacət və savab almaq niyyətindədirlərsə, onlardan fərqli olaraq dördüncü dərəcədə olanlar isə öz canlarını fəda etmək istəyirlər. Bu da o deməkdir ki, İmam Hüseynin (ə) əza məclisində iştirak edənlər getdikcə öz dərəcələrini yüksəldirlər. Dördüncü dərəcədə qərar tutanlar artıq nəyə görə bu məclisdə iştirak etdiklərini yaxşı anlayırlar.

Beləcə, üçüncü dərəcədə qərar tutanlar onlara nə verəcəklərini düşünürlərsə, dördüncü dərəcədə qərar tutanlar isə onlardan nə tələb olunduğunu düşünürlər. Yəni bu mərhələdə olanlar özlərini öncədən lazım olan işə hazırlamaq fikri ilə yaşayırlar.

## "ثار الله" (Sarullah) və "و الوتر الموتور" (vəl-vitrəl-məvtur) kəlmələrinin mənası

Aşura ziyarətnaməsi çox mühüm ziyarətnamələrdən biridir ki, çox yaxşı olar insan ayda bir və ya iki dəfə onu oxusun. Daha yaxşı olar ki, həftədə bir dəfə oxusun. Əllamə Əmininin oğlu deyir ki, atam dünyasını dəyişəndən sonra onu yuxuda gördüm və soruşdum ki, orada vəziyyət necədir? Atam dedi ki, mən hər gün bir dəfə "Ziyarəti- aşura"nı oxuyardım. Bura gələndən sonra peşman oldum, gərək gündə iki dəfə oxuyardım. Ona verilən savabı burada başa düşmüşəm.

Aşura ziyarətnaməsini oxuyarkən İmam Hüseynə (ə) salam verərək belə oxuyuruq:

السلام عليك يا ثار الله وابن ثاره و الوتر الموتور

–Salam olsun sənə ey Allahın qanı! Və Allah qanının oğlu! Ey intiqamı alınmamış!

"ثار الله" (sarullah) lüğətdə – "Allahın qanı" deməkdir. İmam Hüseynin (ə) həm özü və həm də atası Allahın qanıdır. Bu barədə çox kitablar yazılmış söhbətlər olunmuşdur. "Allahın qanı" ifadəsini əgər qısa şəkildə şərh etmək istəsək, belə deyə bilərik ki, insanın fiziki bədənində qana ehtiyac olduğu kimi, onun ilahi həyatında da qan lazımdır. Qan insanın vücudunu canlandırdığı kimi, onun mənəvi ruhuna da həyat bəxş edir. Bu da İmamın (ə) vücududur.

Allah həm insanı və həm də onun bədənindəki qanı da xəlq edib. İnsanın qanı azalan kimi onda müxtəlif xəstəliklər baş qaldırır. Allah-taala İmamı (ə) cəmiyyətin ictimai-siyasi həyatının canlandırılması və nurlandırılması üçün bir qan misalında yaratmışdı. Əgər bir cəmiyyətdə imamı öldürsələr, həqiqətən də bu, həmin cəmiyyətin qanının alınması deməkdir. Təbiidir ki, belə bir cəmiyyətdə hər bir şey, o cümlədən də

bütün münasibətlər pozular. İmam sarullahdır və ona toxunmaq olmaz. Ona toxunduqda hər şey alt-üst olacaq. Necə ki, camaat İmam Hüseyni (ə) kənarlaşdırıb (ə) yerinə Yezidi qoyduqda hər şey pozulub dağıldı. İmam Hüseyn (ə) çıxışlarının birində buna işarə edərək belə buyurmuşdur:

عَلَي الِاسلامِ السلام اِذا قَد بلِيت الأُمةُ بِراعٍ مِثْل يزِيد

–Əgər bir cəmiyyətdə Yezid kimisi hakim olsa, o cəmiyyətdə İslamın fatihəsini oxumaq lazımdır.

Belə bir cəmiyyət bədəninin bütün qanı tükənmiş bir insana bənzəyir. İmamət ilə insaniyyətin əlaqəsi də məhz bundan ibarətdir ki, imamət cəmiyyətin bədəninin qanıdır.

"و الْوِتر الْموتور" (vəl-vitrəl-məvtur)– ifadəsinin mənası isə budur ki, müsibət görmüş və zülmə məruz qalmış hər bir insanın hələ intiqamı alınmayıb. İntiqamı alınmış şəxsə "وِتر الْموتور" – deməzlər. İmam Hüseynin (ə) intiqamı hələ alınmayıb. Sual oluna bilər ki, nə üçün alınmayıb? Məgər Muxtar Səqəfi İmam Hüseynin (ə) intiqamını almadımı?

Bəli, Muxtar Səqəfi intiqam aldı. O, Hərmələdən, Münqəzdən, Sənandan, Ömər Səddən və başqalarından intiqam aldı. Bəs niyə bu gün biz "Ziyarəti-aşura"da "intiqamı alınmayan" – deyirik?

Cavab budur ki, bəli İmam Hüseynin (ə) bədəninin intiqamı alındı, lakin imamlığının intiqamı hələ də alınmayıb. Kərbəlada iki növ müsibət baş verdi:

**1. Böyük faciə.** Yəni İmam Hüseynin (ə) və onun sadiq səhabələrinin şəhadəti. Altıaylıq körpənin şəhadəti, qolların kəsilməsi, qızların susuz saxlanılması və atların ayaqları altında əzib öldürmək və s. kimi zülmlərə böyük faciə deyilir. Onlar Kərbəlada çoxlu cinayətlər törətdilər. Bu gün Yezidi və tərəfdarlarını müdafiə edənlərə Allahın lənəti olsun!

**2. Daha böyük faciə.** Yəni İmamın (ə) öldürülməsi ilə cəmiyyətin imamətdən, məsum rəhbərdən və Allahın həqiqi xəlifəsindən məhrum edilməsi deməkdir.

İmam Hüseyni (ə) öldürmək böyük faciədi, amma imaməti aradan götürmək daha böyük faciədir.

Biz bu gün ona görə "وِتر الْموتور" – deyirik ki, İmam Hüseynin (ə) bədəninin intiqamı alınıb, amma imamətin intiqamı hələ alınmayıb. Başqa sözlə desək, İmamın (ə) intiqamı alınıb, amma imamətin intiqamı hələ alınmayıb. Hüseyn (ə) bir insan kimi öldürülmüşdür və onun intiqamı alınıb, lakin cəmiyyətdə imaməti öldürdülər, ancaq onun intiqamı hələ alınmayıb.

İbn Mülcəm Həzrət Əlini (ə) qətlə yetirdi. Onu öldürməklə Həzrət Əlinin (ə) bədəninin intiqamını aldılar. Bununla da Həzrətin (ə) bədəninin intiqamı alındı, amma imamətin intiqamı hələ alınmayıb. Muxtar (Allah ona rəhmət eləsin!) İmam Hüseynin (ə) bədəninin, Əliəsğərin, Əliəkbərin və Abbasın intiqamını aldı, ancaq o, imamətin intiqamını almayıb.

Elə bu səbəbdən də Ömər Sədin və onun oğlunun başının Muxtar Səqəfinin qarşısına qoyulduğu zaman dedi:

و لا سِواءٌ و اللهِ لو قتلْت ِبِهِ ثَلاثَةَ أرباع قُريش ما وفَوا أنملَةً ِمن أنامِلِه

–And olsun Allaha, əgər bunların (Kərbəlada İmam Hüseyni (ə) öldürən qoşunun) dörddə üç hissəsini öldürsəm də belə, Həzrətin (ə) bir barmağının yerini verməz.

Əgər bununla biz İmam Hüseynin (ə) bədəninin (cisminin) intiqamının alındığını qəbul etsək, deməli onun imamətinin intiqamı hələ alınmayıb. "وِتر الْموتور" (vəl-vitrəl-məvtur) – kəlməsinin mənası da elə budur.

Bu isə o deməkdir ki, əgər böyük faciənin intiqamı alınıbsa, daha böyük faciənin intiqamı hələ alınmayıb. İmam Zamanın (ə.c) görəcək işlərdən biri də İmam Hüseynin (ə)

intiqamını almaqdır. O həzrət imamətin intiqamını alacaqdır. Elə bu səbəbdən də dua edirik ki, "ilahi, bizi o həzrətin əsgərlərindən qərar ver!" Həmçinin dualarda oxuyuruq: "İlahi, mənim o həzrətin əsgərlərindən olmaq ləyaqətim varmı!" Yəni imamətin intiqamını almaqda mən də Həzrətə (ə.c) köməkçi olum. Elə bu səbəbdən hədislərdə belə nəql olunub:

من أحبنا فَلْيعملْ بِعملنا

–Hər kəs bizi istəyirsə, əməldə özünü bizə oxşatmalıdır.

İnsan var ki, təkcə qara köynək geyinməklə kifayətlənir, insan da vardır ki, əzadarlıq mərifətində dördüncü dərəcəyə qalxır və özünü İmam Hüseynə (ə) oxşatmağa çalışır.

Mərhum Mirzə İsmayıl deyir: "Hər gün aşuradır və hər yer Kərbəladır." – ifadəsi o demək deyil ki, siz hamınız Hüseynsiniz. Mənası budur ki, Hüseynsiz (ə) və Yezidsiz aşuranı təsəvvür etmək mümkün deyildir. Yəni, hər gün hər yerdə Hüseyn (ə) də var, Yeziddə var.

Dördüncü dərəcədə qərar tutan əzadarlar hər gün axtarışdadırlar, onlar hər gün zəmanənin İmam Hüseynini (ə) də, Yezidini də axtarıb tapır və İmam Hüseynə (ə) beyət edib ona qoşulurlar. Həqiqi əzadar gərək İmam Hüseynə (ə) beyət etsin.

Mərhum Şüştəri "Xəsaisül Hüseyn (ə)" adlı gözəl bir kitab yazmışdır və bu kitabda Kərbəla hadisəsini ramazan ayı, namaz və həcc əməlləri ilə müqayisə etmişdir. O deyir: "İmam Hüseynin (ə) əza məclisi "Hətim"dir. Kəbə evinin qapısı ilə Həcərül-əsvədin arasında olan məsafəyə "Hətim" deyilir. İmam Hüseynin (ə) əza məclisinin Hətimlə üç oxşarlığı vardır:

1. Kəbə evinin "Hətimi"ndə izdiham olduğu kimi, İmam Hüseynin (ə) məclisi də izdihamlı olur. Hər bir yerdə İmam Hüseynin (ə) adı ilə bağlı məclis qurulsa, cəmiyyət oraya axışır və axışmalıdırda.

2. Həzrət Adəmin (ə) tövbəsi Hətimdə qəbul olunmuşdur. Ora tövbələrin qəbul olunduğu yerdir. Bunun mənası odur ki, İmam Hüseynin (ə) məclisində iştirak edənlər gərək orada tövbə etsinlər. Onların ilk vəzifələri tövbə etməkdir. Dilləri ilə öz günahlarını Allaha etiraf edib bağışlanmalarını diləməkdir. Etiraf edib deməlidir ki, İlahi, bu günə kimi mən yolu səhv getmişəm və indi Sənə tərəf qayıdıram.

3. Hətimin yanında Həcərül-əsvəd yerləşir. Allah-taala insanlar hələ dünyaya gəlməmişdən qabaq, yəni aləmi zərdə onlardan vəd almışdır: "Mən sizin Rəbbiniz deyiləmmi?" Onların hamısı demişdilər: "Bəli, (Rəbbimiz olmağına) şəhadət verdik."[1] İnsan ruhlar aləmində söz verdilər ki, İlahi, yer üzünə gedəndən sonra Sənə səcdə edənlərdən olacağam, nübüvvəti, imaməti və vilayəti qəbul edəcəyəm və şeytana itaət etməyəcəyəm.

Hədislərdə belə nəql olunub ki, Həcərül-əsvəd bir zamanlar mələk idi. Allah-taala insanlardan vəd aldığı kimi, mələklərdən də söz almışdır. İlk olaraq "قَالُواْ بَلَى" (qalu bəla) – deyərək Allaha söz verən mələk Həcərül-əsvəddir. Sonra Allah-taala onu indiki şəkildə yer üzünə göndərdi. Hər kim gəlib Kəbə evində əlini həcərül-əsvəda vuraraq beyətini təzələsə, Allahın əmri ilə onu yadında saxlayar və həmin şəxsin barəsində şəhadət verəcək.

İnsan dünyaya gəlməmişdən qabaq beyət etmişdir, lakin dünyaya gəldikdən sonra verdiyi sözü yadından çıxartmışdı. Peyğəmbərlər gəlib onun yadına saldıqdan sonra gəlib Həcərül-əsvədə əl vurmaqla beyətini təzələyir. Hədislərdə nəql olunub ki, Həcərül-əsvədə əl vuran hər bir kəs həqiqətdə əlini Allahın əlinə qoymuş sayılır. Həcərül-əsvəd Allahın yer üzündəki əlidir. Hər kim ona əl vurursa, həqiqətdə Allah ilə görüşmüş sayılır. Yəni əhd-peymanını və Allah ilə beyətini təzələyir.

---

[1] Əraf surəsi, 172-ci ayə.

Sual oluna bilər ki, bu məsələnin İmam Hüseynin (ə) əzası ilə nə əlaqəsi vardır? Mərhum Şüştəri deyir ki, İmam Hüseynin (ə) əzasında iştirak edənlər həqiqətdə İmam Hüseynlə (ə) beyətlərini təzələyirlər. Yenə də sual oluna bilər ki, əgər burada İmam Hüseyn (ə) beyət etməkdən söhbət gedirsə, bəs ağlamağın mənası nədir? Başqa sözlə desək, ağlamağın beyət etməklə nə əlaqəsi vardır? Canını fəda etməyə hazır olanların ağlamağının mənası nədir? Ötən bəhslərdə əzadarlıq edənlərin mərifət baxımından dərəcələri barədə söz acdıq. Qeyd olundu ki, üçüncü dərəcədə əzadar ağlamaqla dünya və axirət hacətlərini istəyir. Bu da çox yaxşıdır. Lakin mərifətdə dördüncü dərəcədə olan insanların İmam Hüseynin (ə) əzasında ağlamalarının mənası nədir? Görəsən bu insanlar ağlamaqla nə demək istəyir?

Bu sualın cavabını bilmək üçün ilk növbədə ağlamağın mənasını bilmək lazımdır. Ağlamaq özünüifadənin bir vasitəsidir, onun da özünəməxsus mənası vardır. İnsan öz fikrini dili ilə başqalarına başa saldığı kimi və yaxud qələm vasitəsilə yazmaqla öz ürək sözlərini digərlərinə çatdırdığı kimi, habelə yol kənarlarında qoyulan işarələr (məsələn, burada dayanmaq olmaz, maşın saxlamaq olmaz və s.) insanlarla danışdığı kimi, insanlar da bəzən ağlamaqla nəyisə demək istəyirlər. Uşaq hər bir şeyi ağlamaqla anasına başa salır. Əgər acıbsa, ağlamaqla başa salır ki, acmışam, yeri narahatdırsa, ağlamaqla başa salır ki, yeri narahatdır.

Görəsən, İmam Hüseynin (ə) əzasında iştirak edən əzadar ağlamaqla nə demək istəyir? Bu sualın cavabında demək olar ki, ağlamağın müxtəlif mənaları vardır. Yəni insan müxtəlif səbəblərə görə ağlayır. Burada çox yaxşı olar ki, ağlamağın mənalarına diqqət yetirək:

**1. Allah xofundan ağlamaq**

Ağlamağın bir mənası budur ki, insan Allahın əzəmət və qorxusundan ağlayır. Quranda da bu barədə möminlərin barəsində söz açılmışdır:

إذَا تتلَى عليهم آيات الرحمن خروا سجدا وبكِي

–Rəhman olan Allahın ayələri (səma kitablarının ayələri və ya Onun tövhid və əzəmət nişanələri) onlara oxunan zaman ağlar və səcdə edən halda üzü üstə düşərdilər.

**2. Zəlilliyi bildirən ağlamaq**

Məsələn, var-dövləti əlindən çıxdığına görə ağlamaq. Belə insan zəlil olduğunu ağlamağı ilə bildirir.

**3. Şövq və sevincini ifadə edən ağlamaq**

Bəzi vaxtlar insan sevincindən ağlayır. Bəzən də insan çoxdan görmədiyi və sevdiyi bir insanı görən kimi bağrına basıb ağlayır.

İmam Hüseynin (ə) əzasında ağlayan əzadar bunların heç birinə görə ağlamır.

**4. İnsanın öz hisslərini ağlamaqla bildirməsi**

Bəzən bir insanın yanında hansısa bir heyvanın başını kəsəndə dözə bilməyib ağlayır. Və həmçinin kasıb bir uşağın ayaqyalın qarın üstündə yol getdiyini görən başqa bir şəxsin bu mənzərəyə dözə bilməyib ağladığını da müşahidə etmişik. Buna həssaslıq və duyğu deyərlər.

İkinci və üçüncü dərəcədə qərar tutan əzadarlar həssaslıq və duyğu üzündən ağlayırlar.

**5. İnsanın nəyisə təbliğ etmək məqsədilə ağlaması**

Əzadar ağlamaq vasitəsilə öz təbliğatını aparır. İmam Səccaq (ə) vəfat edən günə qədər ağladı. Bəzi tarix kitablarında

yazırlar ki, o, 40 il ağladı və ağlamağı ilə insanları başa salırdı. Hədislərdə belə nəql olunur ki, Həzrət (ə) bir qəssabın yanından keçərkən ondan "bu heyvanı kəsəndə ona su verdinizmi?" – deyə soruşur. Qəssab belə deyir: "Ağa, bizdə heyvanın başını kəsəndə ona su vermək adətdir." Həzrət (ə) ağlayaraq buyurur: "Mənim atamın da başını kəsdilər, lakin ona su vermədilər."

Bəli, İmam Səccad (ə) ağlamaqla atası İmam Hüseynin (ə) başına gələnləri təbliğ edirdi.

Xanım Fatimeyi Zəhra (s.ə) hər gün gedib Beytül-əhzandə ağlayırdı. Mədinə camaatı gəlib Həzrət Əliyə (ə) dedilər: "Xanıma de ki, ya gecələr ağlasın, biz gündüzlər dincələk, ya gündüzlər ağlasın, biz gecələr dincələk." Xanım Zəhra (s.ə) ağlamaqla dünyaya başa salmaq istəyirdi ki, ey dünya, İslam Peyğəmbərinin (s) cəmi bir qızı var, gəlin onun halına baxın! Xanım Zəhra (s.ə) ağlamaqla təbliğ edirdi.

### 6. İnsanın ağlamaqla kimin tərəfində olduğunu bildirməsi

Yəni şəxs öz ağlamağı ilə demək istəyir ki, bu insanla mənim hədəfim eynidir. Bəzən evdə kişi öz həyat yoldaşı ilə dava edir. Evdə olan körpə uşaq tez anasının ətəyindən yapışıb ağlayır. Yəni uşaq ağlamağı ilə demək istəyir ki, mən anamın tərəfindəyəm.

## Həqiqi əzadar

Dördüncü dərəcədə qərar tutan İmam Hüseynin (ə) əzadarlarının ağlamaqda məqsədləri İmam Hüseynin (ə) tərəfində olduqlarını bildirməkdir. Yəni qoy bütün dünya bilsin ki, mən İmam Hüseynin (ə) tərəfindəyəm. Qoy bütün dünya bilsin ki, mən onu öldürənləri zalım, qatil, fasiq və cinayətkar kimi qəbul edirəm. Qoy bütün dünya bilsin ki, mən İmam Hüseynin (ə) tərəfindəyəm.

Onlar təkcə ağlamaqla kifayətlənmirlər, bu yolda həmişə hər bir şeydən belə keçməyə hazırdırlar.

İmam Hüseynə (ə) ilk ağlayan şəxs Xanım Zeynəb (s.ə) olmuşdur. Kərbəlada şəhid olanlardan ikisi Xanım Zeynəbin (s.ə) oğlanları idi. Onlar meydana gedəndə Xanım Zeynəb (s.ə) xeyməsindən çıxmadı. Onlar şəhid oldular, Xanım (s.ə) yenə də xeyməsindən çıxmadı. İmam Hüseyn (ə) hər bir şəhidi xeyməyə gətirəndə Xanım Zeynəb (s.ə) xeyməsindən çıxıb ağlayır və növhə deyirdi. Amma onun iki oğlu şəhid olduqda öz xeyməsindən çıxmadı. Dedilər: "Niyə xeymədən çıxmırsan?" Dedi: "Nə olub məgər?" Dedilər: "Xanım, xeyməyə qurbanların gəlib." Xanım Zeynəb (s.ə) isə belə dedi:

*Buyurdu xaneyi səbri bilin, yıxan deyiləm,*
*Min oğlum ölsə də, xeymədən çıxan deyiləm.*

Çünki İmam Hüseyn (ə) məni görüb utanar. Oğlanlarımın cəsədi onun qolları üstə olanda gözü mənim gözümə sataşmasın. Oğlanlarım da İmam Hüseynə (ə) qurban, mən özüm də Hüseynə (ə) qurban.

Bu, dördüncü dərəcədə qərar tutan əzadardır. Xanım Zeynəbin (s.ə) ağlamasının mənası budur ki, qoy dünya bilsin, mən Hüseynin (ə) bacısıyam, mən onunlayam və nə qədər nəfəsim var, ölən günə qədər onu müdafiə edəcəyəm.

Həzrət Əbülfəzl Abbas da bu cür idi.

–And olsun Allaha! Qollarımı kəssəniz də, mən ölənə qədər İmam Hüseyni (ə) müdafiə edəcəyəm!

Züheyr aşura gecəsi (tasua günü) dedi:

و الله لَوددت أني قُتِلْت ثُم نشِرت ثُم قُتِلْت حتي أُقتل هكذا ألْف مرةٍ و أن الله يدفع ِبذلك القَتل عن نفْسك و عن انفُس هؤلاء فتيان ِمن أهل بيتك

–Ey Rəsulallahın oğlu! And olsun Allaha, əgər məni öldürsələr, yenidən diriltsələr, sonra bir daha öldürsələr, yenidən diriltsələr və min dəfə bunu təkrar etsələr, yenə də mən səndən əl çəkməyəcək və səni müdafiə edəcəyəm. Sənə ziyan dəyməsinə razı olmayacağam. Bunun vasitəsilə sən və sənin Əhli-beytin (ə) salamat qalsa, mən buna razıyam.

Bax, bunlar İmam Hüseynin (ə) həqiqi əzadarlarıdır və dördüncü dərəcədə yer almışlar.

**Diqqəti olunası əhəmiyyətli məsələ**

Dördüncü dərəcəyə çatmayan bəzi insanlar (əzadarlar) gərək şeytanın vəsvəsəsinə aldanmasınlar. Namaz da, oruc da, həcc də və bütün digər əməllər də eynilə belədir. Şeytan insanı azdırmaq üçün bütün vasitələrdən istifadə edərək insana yaxınlaşıb "sən böyük dərəcələrə çata bilmədiyin üçün artıq bu əməldən əl çək! Əgər övliyalar kimi namaz qıla bilmirsənsə, daha niyə namaz qılırsan!" – deyərək onu vəsvəsə etməyə başlayır.

Günlərin birində Həzrət Peyğəmbərə (s) dedilər: Ya Rəsuləllah, filan cavan həmişə sıninlə birlikdə namaz qılır, amma müəyyən günahları da edir. Peyğəmbər (s) buyurdu:

ِان صلاته تنهاه يوماً ما

–Həqiqətən, namaz bir gün onu o günahlardan çəkindirəcək.

Belə də oldu, az bir müddətdən sonra həmin şəxs tövbə etdi.

İmam Hüseynin (ə) əzadarları hər hansı bir dərəcədə olmasından asılı olmayaraq çalışmalıdırlar ki, yavaş-yavaş öz dərəcələrini yüksəltsinlər. Onlar ədəblə əzadarlıq məclislərində iştirak etsələr, Allah-taala onların mərifətlərini yüksəldər.

### Maraqlı bir hadisə

Hacı Rəsul Dadxah adlı bir şəxs Təbrizdə anadan olmuş və gənc yaşlarından Tehran şəhərində yaşayırdı. Təxminən əlli il bundan qabaq dünyasını dəyişib. Qum şəhərində Xanım Məsumənin (s.ə) hərəmində dəfn olunub. Qəbrinin üstünə gözəl bir şeir də yazılıb. Cavanlığında çox pis əməllərlə məşğul olub. Lakin uşaq vaxtından anası ona "Hüseyn, Hüseyn" deməyi öyrətmişdi.

*Anamdı öyrədən, gündə "ya Hüseyn" deyərəm,*
*Məhərrəm, səfər aylarını əynimə qara geyərəm.*

Hər il məhərrəm ayının on gününü məscidə gələrdi. Məscidə gələndə də ağzını yaxalayardı. O, belə nəql edir ki, bir gün məscidə gəldim. Məscidin sədri iki nəfərlə söhbət edərək mənə baxırdılar. Başa düşdüm ki, nəsə mənim haqqımda danışırlar. Bir qədər söhbət edəndən sonra onlardan biri, cavan bir oğlan gəlib mənim yanımda əyləşdi və mənə dedi:

–Rəsul, qalx ayağa və çıx məclisdən.

(Rəsul Dadxah çox güclü və cüssəli bir adam idi. Başqa vaxt olsaydı, o cavan oğlanla başqa cür davranardı.) Deyir: "İmam Hüseynin (ə) əza məclisi olduğuna görə heç bir söz demədən məclisdən çıxdım. Həmin cavan oğlan məni yola salanda dedi ki, bir daha bura gəlmə.

Mən oradan çıxıb evə gəldim, evdə heç bir kəs yox idi. Yatağıma girib yatmaq istəyəndə fikirləşdim ki, məni buradan qovdular, sabah hara (hansı məclisə) gedim? Gərək İmam

Hüseynin (ə) məclisində iştirak edim. Bunu fikirləşə-fikirləşə məni yuxu apardı və yatdım. Səhər tezdən günəş yenicə çıxmış və hava işıqlaşmışdı ki, gördüm qapı döyülür. Təəccübləndim, eşiyə çıxanda gördüm ki, məscidin sədridir. Qollarını mənim boynuma salıb dedi: "Məni bağışla!" Daha sonra dedi: "Rəsul, səndən iki xahiş etməyə gəlmişəm. Biri budur ki, məni bağışla. İkinci xahişim də budur ki, bu gündən məclisdə iştirak et. Axşam səni gözləyəcəyəm."

Dedim ki, yaxşı, gələrəm. Məscidin sədri getmək istəyəndə dedim ki, dayan, nəyə görə gəldiyini mənə deməsən, səni getməyə qoymayacağam. Dedi: "Rəsul, gecə məclis qurtarandan sonra evimə gedib yatdım. Yuxuda gördüm ki, qaranlıq bir çöldə iki ordu üz-üzə dayanıb. Biri Ömər ibn Sədin ordusu idi, digər tərəfdə isə İmam Hüseyn (ə) qadınlar və qızlarla birlikdə xeymələrin içərisində dayanmışdılar. Mən də bu iki ordunun ortasındaydım. Fikirləşdim ki, gedim xeymələrə tərəf və baxım görüm orada kimlər vardır. Qaranlıq gecədə yavaş-yavaş gəlib xeymələrə yaxınlaşanda gördüm ki, bir it o xeymələri qoruyur. Nə qədər xeymələrə daxil olmaq istəsəm də, it mənə mane oldu. Müxtəlif tərəflərdən xeymələrə daxil olmaq istədim, ancaq yenə də gəlib qarşımı kəsdi. O itə diqqətlə baxanda – Rəsul, bunu demək istəmirdim, amma məcburam, deməliyəm – gördüm ki, bədəni it bədənidir, amma başı sənin başındır."

Rəsul bunu eşidib hönkürtü ilə ağlamağa başladı. Sonra da məscidin sədrinə dedi: "Sən Allah, doğrudan deyirsən, mən İmam Hüseynin (ə) xeymələrini qoruyurdum?! Doğrudan deyirsən, İmam Hüseyn (ə) məni öz qapısında bir it kimi qəbul edib?! Xoş mənim halıma, ağam məni qəbul edib!"

O gündən Rəsul artıq əvvəlki Rəsul deyildi. Rəsul tamamilə dəyişdi və bu hadisədən sonra ibadətlə məşğul olmağa başladı, zahidlik etdi, camaat namazlarında iştirak etdi. Beləcə, Rəsul tövbə etdikdən sonra mərtəbələri bir-bir geridə

qoymağa başladı. Dördüncü dərəcəyə gəlib çatanda deyirdi: “Ya Hüseyn (ə), nəyim varsa, sənə qurbandır! Mənim heç bir ləyaqətim yoxdur, sənin xeymələrini qorumağı mənə layiq bilirsənsə, bu da mənə bəsdir!”

Beləliklə, Hacı Rəsul Dadxah 55 yaşında dünyasını dəyişdi.

Elə buna görə də deyilir ki, heç bir kəs öz əməllərindən məyusluq keçirməməlidir. Həmişə ümidvar olmalıdır. İmam Hüseynin (ə) qapısı çox böyük bir qapıdır. Onun qapısı Həzrət Peyğəmbərin (s) və Allah-taalanın qapısıdır.

***Allah-taala bizi bu qapıdan əliboş yola salmasın.***
***Amin!***

السلام عليك يا أبا عبدالله وعلى الأرواح التي حلت بفنائك عليك مني
سلام الله أبداً ما بقيت وبقي الليل والنهار ولا جعله الله آخر العهد مني
لزيارتكم السلام على الحسين وعلى علي بن الحسين وعلى أولاد
الحسين وعلى أصحاب الحسين

## “VƏSİLƏ” KƏLMƏSİNİN MƏNASI

يا أيها الذين آمنوا اتقوا الله وابتغوا إليه الوسيلة وجاهدوا في سبيله لعلكم تفلحون

Ey iman gətirənlər! Allahdan qorxun, Ona yaxınlaşmaq üçün bir vasitə axtarın. Onun yolunda cihad edin, bəlkə nicat taparsınız![1]

Bu ayənin barəsində bir neçə məsələyə toxunmaq istəyirəm.

Birinci məsələ budur ki, iki şeyi bir-birinə yaxınlaşdıran amilə “vəsilə” deyilir. Bu ayədə “vəsilə” kəlməsində məqsəd ondan ibarətdir ki, səni Allahla yaxınlaşdıran amili tap və onun vasitəsilə Allaha yaxınlaş.

İkinci məsələ budur ki, görəsən, bu amil nədən ibarətdir?

Həzrət Əli (ə) “Nəhcül-bəlağə”nin 110-cu xütbəsində buyurur: “Allah ilə insanı yaxınlaşdıran amil nə ola bilər?” Bunun ardınca Həzrət Əli (ə) onları bir-bir sadalayır:

إن أفضل ما توسل به المتوسلون إلى الله سبحانه و تعالي: الأيمان به وبرسوله، والجهاد في سبيله فإنه ذروة الإسلام، وكلمة الإخلاص فإنها الفطرة، وإقام الصلاة فإنها الملة، وإيتاء الزكاة فإنها فريضة واجبة، وصوم شهر رمضان فإنه جنة من العقاب، وحج البيت واعتماره فإنهما ينفيان الفقر ويرحضان الذنب، وصلة الرحم فإنها مثراة في المال ومنسأة في الأجل، وصدقة السر فإنها تكفر الخطيئة، وصدقة العلانية فإنها تدفع ميتة السوء، وصنائع المعروف فإنها تقي مصارع الهوان.

–Allaha tərəf yaxınlaşmağın ən yaxşı yolu Allahın vahidliyini və Onun Rəsulunun peyğəmbərliyini təsdiqləyib etiraf

[1] Maidə surəsi, 35-ci ayə.

etməkdir. İslamın ucalmasına səbəb olan Allah yolunda cihad etməkdir. Fitri və təbii olan ixlas kəlməsidir. İslam dininin dirilik və birlik nişanəsi olan namaz qılmaqdır. Allah tərəfindən müəyyən edilmiş pay olan zəkatdır. Onu ödəmək vacibdir. Əzab üçün sipər olan ramazan ayının orucudur. Allahın evinə həcc ziyarətinə getmək, onun ümrə əməllərini yerinə yetirməkdir. Həcc və ümrə yoxsulluğu, pərişanlığı aradan götürər, günahı yuyub insanı paklaşdırar. Malın, sərvətin artmasına və ömrün uzanmasına səbəb olan qohumlara baş çəkməkdir. Sədəqədir. Gizlin verilən sədəqə günahı örtər. Aşkar sədəqə pis ölümü dəf edər. Bəyənilmiş işlər görmək. Yaxşı əməllər insanı xar-zəlil olmaqdan qoruyar.

Allaha iman gətirmək, Həzrət Peyğəmbərə (s) iman gətirmək, Allah yolunda çalışmaq, ixlas, namaz, zəkat, oruc, həcc, sədəqə, qohumluq əlaqələri və saleh əməllər.

Bunların hər biri vəsilə ola bilər. Başqa hədislərdə qeyd olunmuşdur ki, şəfaət, peyğəmbərlər, imamlar, şəhidlər, saleh insanlar, mərifət əhli və abidlər insanları Allaha yaxınlaşdıra bilərlər. Hətta hədislərdə belə nəql olunmuşdur ki, Allahı onlara and verməklə insan Allaha yaxınlaşa bilər.

Mümkündür biri bu ayənin barəsində belə fikir irəli sürərərk düsin ki, Allaha yaxınlaşmaq üçün vasitə təqvadır. Təqva vasitəsilə Allaha yaxınlaşmaq lazımdır.

Ayəni belə məna edənlər də vardır. Lakin bu mənada bir nöqsan vardır. O da bundan ibarətdir ki, insan ayəni belə məna edərsə təqvadan savayı bütün digər qapıları öz üzünə bağlamış olur. Allaha yaxınlaşmağın imkanlarını özü üçün daraldır. Bu ona bənzəyir ki, bir həkim xəstəyə deyir: “Sənin bədənin çox zəifləyib, sən bu gün yalnız şirin yeməklər qəbul etməlisən.” Xəstə də həkimin dediklərinə əməl edərək həmin gün xurma yeməyə başlayır. Ona deyirlər ki, halva ye, halva da şirindir. Deyir ki, yox, yalnız xurma yeməliyəm.

Ona deyirlər ki, paxlava ye, o da şirindir. Deyir ki, yox, yalnız xurma yeməliyəm.

Belə bir insan öz imkanlarını daraldır və açıq qapıları öz üzünə bağlayır. Təqva da, namaz da və yuxarıda sadaladıqlarımızın hamısı vəsilə ola bilər. Bizə göstəriş verilib ki, bizi Allaha yaxınlaşdıran amilləri axtaraq tapaq və onların vasitəsilə özümüzü Allah-taalaya yaxınlaşdıraq.

Görəsən, Qurani-kərimdə təqvadan savayı başqa hansı vəsilələrə Allah-taala işarə etmişdir? Əgər Quranda Allah-taala təqvadan savayı başqa bir şey haqda söhbət edirsə, o zaman onların yalnız təqvanı vasitə qəbul edənlərin iddiası batildir.

Allah-taala Quranın "Nisa" surəsinin 64-cü ayəsində buyurur:

ولَو أنهم إِذ ظلَموٓاْ أنفُسهم جآؤوك فَاستغفَروٓاْ اللّه واستغفَر لَهم الرسولُ لَوجدواْ اللّه توابا رحِيم

–Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlsəydilər, sonra Allahdan bağışlanmaq istəsəydilər və Allahın Peyğəmbəri də (Allahdan) onlar üçün bağışlanmaq diləsəydi, şübhəsiz, Allahın çox tövbə qəbul edən və mehriban olduğunu görərdilər.

Yəni insanı təqvadan savayı Allaha yaxınlaşdıran başqa vəsilə də mövcuddur. Həmin vəsilə Həzrət Peyğəmbərin (s) mübarək vücududur. Ayədə deyilir ki, əgər günah etməklə özlərinə zülm edənlər sənin yanına gəlib Allahdan bağışlanmaq istəsəydilər, Allah onları bağışlayardı. Lakin onlar gəlmədilər.

Tarixdə bunun nümunəsi mövcuddur. Həzrət Yəqub Peyğəmbərin (ə) oğlanları, yəni Həzrət Yusifin (ə) qardaşları atalarının yanına gəlib Allahdan bağışlanmalarını istədilər. Qardaşların Həzrət Yusifi (ə) öldürmək istəmələrindən daha böyük nə günah ola bilər?! Onlar öz səhvlərini başa düşdükdə

atalarının yanına gəlib bağışlanmalarını dilədilər. Quran bu hadisəni belə bəyan edir:

قَالُواْ يا أبانا استغفِر لَنا ذُنوبنا إنا كُنا خاطِئين

–Yəqubun oğlanları dedilər: "Ey ata, Allahdan bizim günahlarımızın bağışlanmasını istə ki, həqiqətən, biz səhv etmişik."

Onların Allahdan bağışlanmalarını istəməyə üzləri gəlmədi. Odur ki, Allahın yanında hörməti olan başqa bir şəxsdən Allahın onları bağışlamasını istədilər. Ataları onlara heç demədi ki, "məni vasitə qərar versəniz, müşrik olarsınız!" Həzrət Yəqub (ə) peyğəmbər idi. O həzrət buyurdu:

قَالَ سوف أستغفِر لَكُم ربي إنه هو الْغفُور الرحِيم

–Dedi: "Tezliklə sizin üçün öz Rəbbimdən bağışlanmaq istəyərəm. Şübhəsiz, O, çox bağışlayan və mehribandır."

Hədislərdə belə nəql olunur ki, məsumlardan soruşdular: "Həzrət Yəqub (ə) onların bağışlanmasını nə vaxt istədi?" Həzrət Yəquba (ə) görə, ən yaxşı vaxt gecə, gecələrin ən fəzilətli vaxtı isə cümə axşamıdır. O həzrət cümə axşamı günü və gecəyarısı onların bağışlanmasını Allah-taaladan dilədi və Allah da onları bağışladı.

Üçüncü məsələ budur ki, görəsən, İslam Peyğəmbərini (s) vəsilə qərar verən olubmu? Bu haqda bizim hədis kitablarında çoxlu mötəbər rəvayətlər mövcuddur və biz belə mötəbər hədislərə əməl edirik. Əhli-sünnənin mötəbər hədis kitablarında bu məsələ qeyd olunmuşdur. Əhli-sünnənin məşhur kitablarından biri olan "Vəfaul-vəfa" əsərinin müəllifi Səmhudi həmin bəhsi öz əsərində açıqlayır. Müəllif əsərinin beş yerində "Həzrət Peyğəmbəri (s) vəsilə qərar veriblər", – deyə söyləmişdir. Biz burada onlardan üçü haqda qısaca bəhs edəcəyik. Dördüncü və beşinci qismin geniş şərhə ehtiyacı olduğundan burada onlar haqda açıqlama vermirik.

1. İslam Peyğəmbəri (s) hələ xəlq olunmamışdan öncə onu vəsilə qərar veriblər;

2. İslam Peyğəmbəri (s) dünyaya gələndən sonra (yəni dünyada olarkən) onu Allahla öz aralarında vəsilə qərar veriblər;

3. Həzrət Peyğəmbər (s) dünyasını dəyişəndən sonra, yəni xəlifələrin dönəmində də Allahın Rəsulunu (s) vəsilə qərar veriblər;

4. Bərzəx aləmində;

5. Qiyamət günündə.

**Birinci qismin hədisi:**

İslam Peyğəmbəri (s) hələ xəlq olunmamışdan qabaq onu vəsilə qərar veriblər. Bu barədə olan hədis "Vəfaul-vəfa" kitabında ikinci xəlifə tərəfindən nəql olunmuşdur. İkinci xəlifə belə demişdir:

عن عمر بن الْخطّاب: قَالَ رسول الله صلّ اللهُ عليهِ و سلم: لما اصاب ادم خطيئته رفع رأسه فقال يا رب أسئلك ِبحق محمد. قَالَ: يا آدم! كيف أعرفْت محمداً و لَم اخلُقُه بعد؟ فَقَالَ: يا رب, ِلأنك لَما خلَقْتِني ِبيدِك ونفخت فيّ روحك رفعت رأسي فرأيت على قوائم العرش مكتوباً لا إله إلا الله محمداً رسول الله فَعرِفْت أنك لَم تضِف ِالي ِاسمك ِالاّ أحب الخَلْقِ ِاليك. فَقَالَ الله: صدقْت يا آدم. ِانه لَأحب الخَلْقِ ِالَي وإذ قد سألتني بحقه فقد غفرت لك و لَو لا محمد ما خلَقْتك.

–Ömər ibn Xəttab deyir: "Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Adəmin (ə) başına o hadisələr gələndən sonra üzünü göy aləminə tutub dedi: "İlahi, Məhəmmədin hörmətinə xatir məni bağışlamağını istəyirəm." Allah-taala Adəmdən (ə) soruşdu: "Ey Adəm! Sən Məhəmmədi haradan tanıyırsan,

halbuki Mən onu hələ xəlq etməmişəm.” Adəm (ə) dedi: “İlahi, Sən məni xəlq edən zaman başımı göyə qaldırıb ətrafa baxdım. Ərşə nəzər salanda orada iki cümlə oxudum. Cümlənin birində belə yazılmışdı: “La ilahə illəllah.” Digər cümlədə isə yazılmışdı: “Muhəmmədun Rəsulullah.” Anladım ki, Sən Öz adının yanında ən çox sevdiyin bir şəxsin adını yazarsan.” Allah-taala buyurdu: “Düz deyirsən, ey Adəm. Həqiqətən, məxluqatın arasında Mənim üçün ən sevimlisi odur. Mən də onun hörmətinə xatir səni bağışladım.”

Daha sonra Allah-taala Adəmə (ə) buyurur ki, bunu da bilməyin yaxşı olar: “Əgər Məhəmməd olmasaydı, səni xəlq etməzdim.”

Əhli-sünnənin məşhur alimi Səmhudi deyir ki, bu hədisi İslam Peyğəmbərindən (s) və ikinci xəlifənin dilindən nəql etmişdir.

**İkinci qismin hədisi:**

Yəni İslam Peyğəmbəri (s) həyatda olarkən onu Allahla öz aralarında bir vəsilə qərar veriblər. Yenə də yuxarıda qeyd etdiyimiz kitabda Səmhudi Tirmizidən belə nəql edir: “Gözləri görməyən bir şəxs Həzrət Peyğəmbərin (s) yanına gəlib dedi: “Ey Allahın Rəsulu (s)! Gözlərim görmür, mənim çarəm nədir?” Həzrət (s) buyurdu: “Get dəstəmaz al.” Həmin şəxs də gedib dəstəmaz aldı. Sonra Həzrət Peyğəmbər (s) buyurdu: “İki rükət namaz qıl və Allaha belə dua elə:

اَللّهم اِني اَسئَلُك و اَتوجه اِلَيك بِنبيك محمدٍ نبي الرحمةِ

–İlahi, mən Səndən rəhmət peyğəmbəri olan həzrət Muhəmmədin (s) vasitəsilə gözlərimə şəfa verməyini istəyirəm.”

Həmin şəxs də qalxıb iki rükət namaz qıldı və bu duanı oxuyub səcdədən qalxanda artıq gözləri görürdü.

Bu hadisə Həzrət Peyğəmbərin (s) dövründə baş vermişdir. Elə Həzrət Peyğəmbərin (s) özü tövhidi insanlara başa

salırdı. Allahın Rəsulu (s) təqiyyə etmirdi və ona heç təqiyyə etmək də olmazdı. İmamlar təqiyyə edə bilərlər, lakin Həzrət Peyğəmbər (s) təqiyyə edə bilməz. Həzrət Peyğəmbəri (s) vəsilə qərar verən şəxsə Həzrət (s) heç bir etiraz etmədi. Hətta ona necə dua etməyi belə öyrətdi. Allah da onun duasını qəbul etdi.

**Üçüncü qismin hədisi:**

Yəni İslam Peyğəmbəri (s) dünyasını dəyişəndən sonra onu vəsilə qərar veriblər. Bəziləri belə güman edirlər ki, Həzrət Peyğəmbər (s) həyatda olanda onu vəsilə qərar vermək olar, elə ki, dünyasını dəyişdi, ondan daha heç nə istəmək olmaz. Amma İslam tarixi və hədislər bunun əksini deyir.

Üçüncü xəlifə Osman ibn Əffan müsəlmanların xəlifəsi olanda bir nəfər xəstə onun yanına gəlib onunla görüşmək istəyirdi, lakin ona icazə vermirdilər. O, bir neçə dəfə buna cəhd etsə də, heç bir şey alınmırdı. Osman ibn Hənif kənardan bu hadisəni müşahidə edirdi. O, həmin şəxsə dedi:

–Sənə nə lazımdır, nə istəyirsən?

Xəstə adam dedi:

–Xəlifəni görmək istəyirəm.

Osman ibn Hənif dedi: "Nə işin var, dərdini de?" Həmin şəxs məqsədini açıqladı və xəlifə ilə görüşmək istədiyini bildirdi. Osman ibn Hənif ona dedi: "Mən öz gözlərimlə görmüşəm ki, bir nəfər Həzrət Peyğəmbərə (s) şəxsi xahişilə bağlı müraciət etdiyi zaman Həzrət (s) ona dəstəmaz alıb iki rükət namaz qılmağı, daha sonra isə Allahın Peyğəmbərinə (s) and verdirməyi məsləhət bildi. Və həmin şəxs də bunu edib hacətini aldı. Sən də dəstəmaz al, iki rükət namaz qıl və Allaha yalvar, inşallah, Allah-taala sənə şəfa verər."

Osman ibn Hənif deyir ki, həmin xəstə dəstəmaz alaraq iki rükət namaz qıldı və Allahın Peyğəmbərinə (s) and verdirdikdən sonra istəyi qəbul olundu. O, istəyini alandan

sonra onu xəlifənin yanına gətirdim və hadisəni xəlifəyə danışdım. Xəlifə ona heç bir etiraz etmədi. Əksinə ona dedi ki, çox yaxşı iş görmüsən.

Xəlifə Osman onlara "siz müşrik olmusunuz, Həzrət Peyğəmbər (s) dünyasını dəyişib, vəfat etmiş bir insandan nə isə istəməzlər. Həzrət Peyğəmbər (s) əgər bunu sağlığında demişdisə, indi artıq dünyasını dəyişmişdir və sizin belə bir işi görməyə ixtiyarınız yoxdur", – deyə söyləmədi.

Osman ona görə etiraz etmədi ki, o, bu əməlin şirk olmadığını çox gözəl bilirdi. Sonradan bəziləri bu əməli şirk əməl kimi qəbul etdilər. İslamın ilk dövrlərində, yəni xəlifələrin zamanında bu əməl şirk əməl kimi qəbul olunmurdu.

Səmhudi "Vəfaul-vəfa" kitabında yazır: "İllərin birində müsəlmanlar ağır qıtlıqla üzləşməli olmuşdular. Bir dəstə müsəlman Ayişə xanımla məsləhətləşmək qərarına gəldilər. Başqa bir qrup müsəlman isə onların bu fikrinin əleyhinə çıxdı. Nəhayət, onun yanına gəlib vəziyyətin çox çətin olduğunu dedilər. Bildirdilər ki, arpa, buğda, un yoxdur və hər yerdə qıtlıq baş alıb gedir. Ayişə xanım dedi ki, mən bunun çarəsini bilirəm, əgər onu etsəniz, problemləriniz həll olunar. Soruşdular ki, bunun çarəsi nədir? Ayişə xanım dedi: "Həzrət Peyğəmbərin (s) dəfn olunduğu yerə gedin və sərdabənin tavanında səma ilə Həzrət Peyğəmbər (s) arasında heç bir maneə olmaması üçün orada balaca bir dəlik açın. Sonra Allaha yalvarın, Allah sizin dualarınızı qəbul edib yağış göndərər. Onlar Həzrət Peyğəmbərin (s) dəfn olunduğu sərdabənin tavanında balaca bir dəlik açdılar və dua etməyə başladılar. Allah-taala onların duasını qəbul etdi və yağış yağdırdı."

Bu hədisdə də görürük ki, Ayişə xanım onlara heç bir etiraz etmədi. Həmçinin onlar da Ayişə xanımın təklifinə etirazlarını bildirmədilər. Çünki Həzrət Peyğəmbər (s) artıq

dünyasını dəyişmişdi və burada söhbət onun qəbrinin üstündə edilən duadan gedirdi.

Buradan da belə bir nəticəyə gəlirik ki, İslam Peyğəmbərini (s) həm xilqətindən qabaq, həm həyatda olduğu dönəmdə və həm də dünyasını dəyişəndən sonra, yəni xəlifələrin zamanında vəsilə qərar veriblər.

Dördüncü məsələ bundan ibarətdir ki, vəsilə qərar verməyi hətta Həzrət Peyğəmbərin (s) özündən də soruşmuşdular. Bu barədə çoxlu hədislər nəql olunmuşdur. Həmin hədisləri bir yerə toplasaq, bircildlik bir kitab yaranar. Biz burada yalnız iki hədisi nəql etməklə kitayətlənirik.

Əhli-sünnənin ən mötəbər və ən gözəl kitablarından biri olan“Kənzül-ümmal” kitabında, ikinci hədisdə “Səhihi-Müslim”-dən belə nəql edilir. İslam Peyğəmbərindən (s) “vəsilə”nin nə olduğunu soruşdular. Həzrət (s) buyurdu:

اَلْوسِيلَةُ درجةٌ عِند الله لَيس فَوقَها درجة فَسئَلُوا اللهَ اَنْ يعِتيني الْوسِيلة

–Vəsilə Allah yanında bir dərəcədir və ondan yuxarı heç bir dərəcə yoxdur. Allah-taaladan həmin dərəcəni mənə mərhəmət etməsini istəyin.

“Səhihi-Müslim” kitabında digər bir hədisdə isə Həzrət Peyğəmbər (s) buyurur:

سلُوا اللهَ لي الْوسِيلة فَمن سئَلِني الْوسِيلَةَ حلت لَه الشفاعة

–Allahdan istəyin ki, məni vəsilə qərar versin. Hər kim məni vəsilə kimi (Allahdan) istəsə, mən də ona (qiyamət günü) şəfaət edəcəyəm.

Allahla insanlar arasında vəsilə olmaq böyük bir şərafətdir.

“Uyuni-əxbarur-Rza” əsərində İslam Peyğəmbərindən (s) belə bir hədis nəql olunur. İslam Peyğəmbəri (s) açıq-aşkar şəkildə buyurur:

قَالَ رسولُ اللهِ (ص) اَلْاَئِمةُ مِن وِلْدِ الْحسين (عليهم السلام) من اطاعهم فَقَدْ اَطاع الله و من عصاهم فَقَدْ عصى الله هم اَلْعروةُ الْوثْقَى و هم اَلْوسِيلة اَلي اللهِ تعالي

–Hər kim İmam Hüseynin (s) övladlarından olan imamlara itaət etsə, həqiqətdə Allaha itaət etmişdir. Hər kim onlara itaətsizlik etsə, həqiqətdə Allaha itaətsizlik etmişdir. Onlar qırılmayan möhkəm bir dəstəkdirlər. Allahla insanlar arasında olan vəsilə onlardır.

Yəni əgər vəsilə axtarırsınızsa, o zaman əsas vəsilə onlardır.

Burada daha iki məsələni də qeyd edib sonradan bir nəticəyə gəlmək istəyirəm. Yuxarıda deyilənlərdən belə məlum oldu ki, İmam Hüseyn (ə) bir vəsilədir. İmam Hüseyni (ə) vəsilə qərar verənlər yalnız üç yolla o həzrətə yetişə bilərlər. Dördüncü və ya beşinci bir yol mövcud deyil.

İmam Hüseynə (ə) beyət etməyin isə üç mərhələsi vardır.

**a) İmam Hüseynə (ə) beyət edərək onunla birgə şəhid olmaq**

Bu mərhələ (müasir dövrdə) heç bir kəsə nəsib olmayıb və bundan sonra da kiməsə nəsib olması mümkün deyildir. Qeyd edilən məqama layiq olanlar o həzrətlə birlikdə Kərbəlada şəhid oldular. Onlar İmam Hüseynə (ə) beyət edib axıradək öz sözlərinə sadiq qaldılar və sonda da şəhadət şərbətini içdilər.

Abuzər Ğəffarinin Con adında bir qulu var idi və onu İmam Hüseynə (ə) bağışlamışdı. Aşura günü Həzrət (ə) ona buyurdu: “Con get yaşa.” Con dedi: “Ağa, hara gedim, getmərəm, heç bu mümkündürmü?!” Belə olduqda İmam (ə) onu qəbul etdi. Con dedi: “İndi ki, məni qəbul etdin, səndən bir xahişim var. Mən zənciyəm, bədənimdən pis qoxu gəlir. Əgər mən şəhid olsam və qanım sizin yolda bu torpağa

tökülsə, sən dua elə ki, Allah-taala məni cənnətə ağdərili olaraq aparsın.”

O, həqiqətən də necə istəmişdisə, İmam Hüseyn (ə) ağa onun istəyini eləcə yerinə yetirdi.

Hər bir imamın öz səhifəsi vardır. Hədislərə əsasən, cənab Cəbrayıl (ə) hər bir imamın səhifəsini özünə vermişdir. İmam Hüseynin (ə) səhifəsində belə yazılmışdır:

يا حسين! اِشرِ نفْسكَ لِلّهِ و قاتِلْ حتي تقْتَلْ و اُخرج بِاَقْوامٍ لِشهادةٍ لا شهادةَ لَهم اِلاّ معك

–Ey Hüseyn! Canını Allaha sat! Son nəfəsinə qədər döyüş. Bir neçə nəfəri də özünlə birlikdə şəhid olmağa apar. Onlar yalnız sənin məhzrində şəhid olmalıdırlar.

Bu məqam, yəni İmam Hüseynə (ə) beyət etmək və onun gözü önündə şəhid olmaq artıq heç bir kəsə daha nəsib olmayacaqdır. Nə İmam Hüseyn (ə) bundan sonra qiyam edəcək və nə də Kərbəla hadisəsi bir daha baş verəcəkdir.

**b) İmam Hüseynə (ə) beyət edib özünü ona oxşatmaq**

İslam Peyğəmbəri (s) İmam Hüseyni (ə) minbərdə yanında əyləşdirib bütün müsəlmanlara təqdim edərək buyurdu: “Camaat! Bu, Əlinin oğlu Hüseyndir. Onu tanıyın!”

Peyğəmbərin (s) bu kəlamından açıq-aydın görünür ki, hər bir müsalmanın İmam Hüseynə (ə) mərifəti olmalıdır. Kimin ona mərifəti yoxdursa cərgədən çıxmışdır. Bizim bütün imamlar haqda məlumatımız olmalı vı onlara qarşı mərifətimiz olmalıdır. Yəqin ki, İmam Hüseyn (ə) bu baxımdan fərqlidir.

İbn Yəfur deyir ki, bir gün İmam Sadiqin (ə) yanına gəldim. Əyləşəndən sonra dedim ki, ağa, çox çətinliklə sizin yanınıza gəldim. Həzrət (ə) buyurdu:

–Şikayət etmə, çətinlikləri dilə gətirmə. (Onsuzda sənin zəhmətlərini Allah görür.)

Sonra buyurdu: “Haqqı və əzəməti məndən daha çox olanın ziyarətinə getmisənmi?”

Dedim: “Xeyr, o şəxs kimdir? Bu gün yer üzündə Allahın höccəti sizsiniz. Biz sizdən əzəmətlisini tanımırıq.”

Həzrət (ə) buyurdu: “O, Hüseyn ibn Əlidir. Onun haqqı bizdən çoxdur. Mütləq onun ziyarətinə gedin.”

Deməli ikinci mərhələdə, yəni İmam Hüseyn (ə) bu dünyada olmadığına görə, mömin beyət etməklə yanaşı gərək özünü ona oxşatsın. Həzrət (ə) bu dünyada olsaydı, onunla birgə şəhid olmalıydı. Belə bir insan lazım olan yerdə etirazını bildirir. Özünü İmam Hüseynə (ə) o qədər oxşadır ki, nəhayət, şəhid olur. Yəni belə insanlar sonda axtardıqları vəsiləni tapırlar. Tarix boyu İmam Hüseynin (ə) şəhid olduğu gündən bu günədək milyonlarla bu cür insanların adlarını çəkmək mümkündür.

Tarixdən bir nümunəni diqqətinizə çatdırmaq yerinə düşərdi. Kərbəla əsirlərini İbn Ziyadın yanına gətirəndən sonra İbn Ziyad minbərə çıxıb Əhli-beyt (ə) haqqında nalayiq sözlər deməyə başladı. Sonra üzünü Xanım Zeynəbə (s.ə) tutub dedi: “Gördün, Allah yalançını nə etdi?” Bunu eşidən yaşlı və iki gözünü (birini Cəməl döyüşündə, digərini isə Siffeyndə) itirmiş Həzrət Peyğəmbərin (s) səhabəsi Abdullah ibn Əfif ayağa qalxıb dedi:

يا ابن زِياد و يابن مرجانه ِابن الْكَذاب و ابن الْكَذاب أنت و أبوك و من استعملَك يا عدو الله أتقْتلُ الذريةَ الطّاهِرةَ الِتي قَد أذْهب اللهُ عنها الرجس و تزعم أنك علَي دِينِ الْاسلام

–Ey Ziyadın və Mərcanənin oğlu! Yalançı sənsən, sənin atandı və səni buraya vali təyin edəndir! Ey Allahın düşməni! Pak bir insanı öldürmüsən və elə güman edirsən ki, sən müsəlmansan?!

İbn Ziyad onun həbs edilməsini əmr etdi. Doğrudur, qəbilə camaatı bir müddət onu müdafiə etdi. Ancaq sonra İbn Ziyad onu həbs etdirib öz evində boynunu vurdurdu.

Abdullah ibn Əfif də İmam Hüseyn (ə) kimi zülmə öz etirazını bildirdi və sonra şəhid oldu. O, İmam Hüseynə (ə) beyət edərək beyətində də sadiq qaldı və özünü o həzrətə oxşatdı, sonda da şəhid oldu. İmam Hüseyn (ə) hər bir şeyindən keçdiyi kimi, özünü İmama (ə) oxşadan şəxslər də hər bir şeylərindən keçməyə hazırdırlar.

**c) İmam Hüseynə (ə) beyət edib onun hədəflərinin icrasına qoşulmaq**

Bu qrupa daxil olan insanlar o insanlardır ki, İmam Hüseyndən (s) sonra onun bütün hədəflərində ömürlərinin sonuna qədər iştirak edirlər. Onlar bu niyyətlə və şəhid olmaq istəyilə yaşayırlar. Lakin bu fəzilət onlara qismət olmur. Onlar öz əcəlləri ilə Allah yolunda ölürlər. İmam Hüseynin (ə) hədəfləri uğrunda çalışırlar, lakin şəhid olmaq onlara qismət olmur. İkinci qisimdə olanlara şəhidlik qismət olur, üçüncü qisimdə olanlara isə şəhidlik qismət olmur. Məsələn, İmam Hüseynin (ə) ərbəinində onun ilk zəvvarı olan Cabir ibn Abdullah Ənsari kimi şəxs.

Dövrünün alimlərindən biri olan Ətiyyə belə nəql edir ki, İmam Hüseynin (ə) şəhadət xəbərini eşidən kimi Cabir ibn Abdullah Ənsari ilə birlikdə piyada Kərbəlaya gəldik. Cabir həm yaşlı idi və həm də gözləri görmürdü. O, Həzrət Peyğəmbərin (s) səhabələrindən idi.

Cabir dedi ki, məni Fərat çayına apar. O, çayda qüsl alaraq ağ və təzə paltarlar geyindi. Sonra da özünə bir qədər ətir vurub dedi ki, Ətiyyə, indi də məni İmam Hüseynin (ə) qəbrinin üstünə apar. Onu qəbrin kənarına gətirdim.

و وقف جابِر الأنصاري علَى الْقبرِ فَأجهش ِبالْبكاءِ و قَالَ يا حسين ثلاثاً، ثُم قَالَ: حبيب لَا يجيب حبيبه وأنى لَك ِبالْجواب وقَد شطحت أوداجك على أنباجك، و فُرق بين رأسك و بدنك

–Əllərini həzrətin qəbri üstə qoyub ağlaya-ağlaya üç dəfə "Ya Hüseyn!!" deyib özündən getdi. Üzünə su vurub onu ayıltdım. Ayılandan sonra dedi: "Dost dosta məgər cavab verməzmi? Necə cavab versin? Hüseynin (ə) başı məgər bədənindədir ki, sənə cavab versin?!"

Sonra şəhidlərə salam verib dedi:

و الذِي بعثَ محمداً ِبالْحق نبِياً، لَقَد شاركْناكُم ِفيما دخلْتم ِفيهِ

–And olsun Məhəmmədi (s) haqq olaraq peyğəmbər göndərən Allaha! Biz sizinlə şərikik.

Ətiyyə dedi: "Ustad, bunların övladları şəhid olub, ataları şəhid olub, qadınları əsir olub, bizə heç bir şey olmadığı halda deyirsən ki, biz onlarla şərikik?" Cabir dedi:

ِإني سمِعت حبِيبِي رسولَ اللهِ صلى االله علَيهِ و آلِهِ و سلم يقُولُ: من أحب قَوماً حشِر معهم و من أحب عملَ قَومٍ أُشرِك ِفي عملهم، و الذِي بعثَ محمداً ِبالْحق نبِياً ِإن ِنيتي و ِنيةَ أصحابِي علَى ما مضى علَيهِ الْحسين علَيهِ السلام و أصحابِهِ

–Ətiyyə, mən həbibim Peyğəmbərdən (s) eşitmişəm ki, bir qövmü sevən və onun əməlinə razı olan hər bir kəs qiyamət günü onunla məşhur olacaq. And olsun Məhəmmədi (s) haqq olaraq peyğəmbər göndərən Allaha! Mənim Hüseynə (ə) çox böyük məhəbbətim var, mənim niyyətim onun niyyətidir.

Cabir İmam Hüseynə (ə) beyət etdi və onlarla şərik oldu. Elə buna görə də İmam Hüseynin (ə) ziyarətnaməsindən savayı, başqa heç bir ziyarətnamədə "Ləbbeyk" kəlməsi işlədilməmişdir. Yəni hər kim bu yolda iştirak etmək istəsə, yol açıqdır.

Yəni qapı açıqdır, iştirak etmək istəyənlərə icazə verilib və qapı hələ bağlanmayıb.

لَبيك داعِي اللهِ، إِنْ كانَ لَم يجِبك بدِني عِند استِغاثَتِك ولسانِي عِند استِنصارِك فَقَد أجابك قَلْبِي وسمعِي وبصرِي

–Ləbbeyk, sən məni çağıran zaman əgər bədənim (vücudum) cavab vermək üçün yox idisə, lakin indi gözüm, qulağım, qəlbim və ruhum sənə ləbbeyk deyir.

Burada bir incəliyə diqqət yetirməyimiz çox yaxşı olardı. Məlum məsələdir ki, qiyamət günü günahkarlardan bəzi əməllər tələb olunacaq (əlindən alınacaq). Məsələn, əgər bir şəxsin başqa birisinə 100 manat borcu varsa, qiyamət günü gəlib pulunu istəyəcək. Orada pul olmadığına görə həmin insan çətin vəziyyətdə qalacaq. Bir başqası gəlib deyəcəkdir ki, məsələn, mənə 1000 manat borcun var, pulumu ver. Deyəcək yoxumdur, deyəcəklər onda həcc əməlinin savabını ver. O da həcc əməlinin savabını verəcək. Bir başqa şəxs gəlib deyəcəkdir ki, filan vaxt mənim qeybətimi etmişdin, indi haqqımı ver. Deyəcək ki, verə bilmirəm. Deyəcəklər onda sədəqələrini ver. Yavaş-yavaş ondan əməllərini alıb aparacaqlar.

Dünyamızda da bunun oxşarını görmək mümkündür. Bir nəfər öz pulunu tələb edəndə və borclu onun pulunu verə bilməyəndə ondan şikayət edilir. Hakim də hökm çıxarır və onun bankda və ya başqa bir yerdəki pulunu, yaxud əmlakını müsadirə edib borc sahibinə verirlər. Lakin burada bəzi şeylər istisnadır. Məsələn, müəyyən miqdar pula görə evi müsadirə etmək qanuna ziddir. Girov kimi saxlamaq mümkündür, lakin tamamilə əlindən alıb onun borcunun ödənilməsi qanuna ziddir.

Bu məsələdən belə bir nəticəyə gəlirik ki, insanın əməli iki qisimdir: Bəzi əməlləri insanın əlindən alıb borcu olan şəxslərə verəcəklər, bəzi əməlləri isə onun əlindən almaya-

caqlar. Məsələn, imanı insanın əlindən heç kim alıb apara bilməz. Namazı, orucu, həcci və sədəqəni ibadət olduğuna görə alıb apara bilərlər.

Görəsən, İmam Hüseynə (ə) əzadarlıq etmək bu əməllərin hansı qisminə aiddir? Beyəti və şəhid olmağı insanın əlindən alıb aparmaq mümkün deyil. İnsanın beyətini və ya özünü Həzrət Hüseynə (ə) oxşatmasını da onun əlindən almaq qeyri-mümkündür. Həmçinin beyət etməyi və şərik olmağı da onun əlindən alıb apara bilməzlər. Çünki insanın niyyətini də onun əlindən kimsə ala bilməz.

Görəsən, əzadarlığı, yəni İmam Hüseynə (ə) ağlayıb növhə deməyi qiyamət günü insanın əlindən bilərlərmi? Bu da öz növbəsində iki qisimdir:

Bir növ əzadarlıq var ki, bir nəfər rövzə oxuyur, digərləri isə ağlayır. Bir növ də əzadarlıq var ki, insan İmam Hüseyni (ə) xatırlayaraq daxildən qəlbi yanaraq ağlayıb gözyaşı tökür. İkinci qisimdən olan əzadarlığın savabını heç kim insanın əlindən alıb apara bilməz.

Müsmə İraqi İmam Sadiqə (ə) dedi: "İmam Hüseynin (ə) müsibəti yadıma düşəndə yediyim tikə əlimdən yerə düşür."

Digər əzadarlıqları, məsələn, ehsan vermək, pul xərcləmək və rövzə eşidib ağlamaq kimi (günahın müqabilində) əməlləri insanın əlindən alıb aparmaq mümkündür.

Allah-taala İmam Hüseynin (ə) şərafəti və məqamına xatir bizləri qiyamət günü İmam Hüseyni (ə) sevib onun niyyətində olanlar cərgəsində qərar versin. Amin!

*Başına ondakı "qəhrən ləhəd"in daşı dəyər,*
*Dərdinə qəbirdə vallah, bu gözyaşı dəyər.*

Mərhum Qumru təxminən 130 il bundan qabaq dünyasını dəyişib və Dərbənd şəhərində dəfn olunub. Onun qəbrinin üstündə özünün bu şeiri yazılmışdır:

*Hər yerdə ya Hüseyn demişəm, ya Hüseyn sənə,*
*İndi yaman gündü, əlimdən yapış ağa.*
*Bu qəbir guşəsində qəribəm, adamsızam,*
*Burada nə bir qohum tapıldı, nə bir tanış ağa.*
*Qorxum budur karıxdıralar qəbirdə məni,*
*Lütf eylə, bu işə sən özün gəl qarış ağa.*
*Bir ömür mən sənin əvəzində danışmışam,*
*Bir yol da sən mənim əvəzimdə danış ağa.*

# QURAN VƏ SÜNNƏ NÖQTEYİ-NƏZƏRİNDƏN KƏRBƏLA HADİSƏSİ VƏ İMAM HÜSEYN (Ə) İNQİLABI

*Məktəbdir əhli-hikmətü ürfanə Kərbəla,*
*Ülvi şərəf bağışlayar insanə Kərbəla.*
*Həm gülşəni şəriətə qan ilə verdi su,*
*Həm tazə can bağışladı Quranə Kərbəla.*
*Gərçi sığıbdı türbəti ərzi İraqidə,*
*Sığmaz şərəfdə aləmi imkanə Kərbəla.*
*Bəsdir bu mərtəbət ki, qucağında yer verib,*
*Yetmiş iki şəhidi ləbətşanə Kərbəla.*
*Ta dini həqqi eyləyə tufanidən xilas,*
*Saldı zəmanə Nuhunu tufanə Kərbəla.*
*Yığdı göyün mələklərini bir çuxur yerə,*
*Qurdu o yerdə məclisi cananə Kərbəla.*
*Həm ağladıb məqami rəfii nübüvvəti,*
*Həm gətdi (gətirdi) ruhi seyidi əfqanə Kərbəla.*

Kərbəla hadisəsi və İmam Hüseynin (ə) nurani inqilabı həm tarix baxımından, həm hədis baxımından və həm də siyasi inqilablar baxımından təhlil olunmuşdur. Həmçinin İmam Hüseynin (ə) əzadarları və onlara verilən savab haqda müxtəlif təhlillər aparılmışdır. Biz burada Kərbəla hadisəsini və İmam Hüseynin (ə) mübarək hərəkatını, şəhid olmasını və onun mübarizəsini Quran baxımından təhlil etmək istəyirik. Əlinə qələm götürüb İslam tarixini yazan hər bir şəxs Kərbəla hadisəsi haqda da geniş məlumat vermişdir. Bu hadisə ilə bağlı minlərlə kitab yazılmışdır. Bəs, tarixdə xüsusi bir yeri olan bu hadisəni, İmam Hüseynin (ə) şəhadətini, aşuranı və inqilabı Quran necə qiymətləndirir? Odur ki, Quran ayələrinin gözü ilə Kərbəla hadisəsinə bir nəzər salaq. Bu məsələni aydınlaşdırmaq üçün bir neçə müqəddiməyə ehtiyac duyulur.

**Birinci müqəddimə: İnsanın təfsiri.**

**İnsan alimlərin nəzərində**

Ümumiyyətlə, insan barəsində bir çox kitablar yazılmış, nəzəriyyələr söylənilmiş və alimlər bu haqda müxtəlif fikirlər söyləmişlər. İnsana yalnız maddiyyat nöqteyi-nəzərindən baxan alimlər onu yalnız fiziki baxımdan araşdırmışlar. Onların nəzərincə, insanın cəmiyyətdə rolu eynilə maşının hissələri kimidir. Bu alimlərin fikrincə, maşının hər bir hissəsinin özünəməxsus rolu olduğu kimi, hər bir insanın da cəmiyyətdə özünəməxsus rolu vardır. Həmin alimlər insana bundan artıq hörmət bəsləməmiş və ona heç bir dərəcə verməmişlər.

Başqa bir qrup alimin nəzərincə, insan şəhvətpərəst bir canlıdır. İnsan şəhvət baxımından özünü təmin etdiyi zaman kamala və izzətə çatmış olur. Bu qrupa həm Qərb alimləri, həm də Şərq alimləri daxildirlər. Çox təəssüflər olsun ki, tarix boyu çox insanın beynini bu kimi batil sözlərlə doldurmuşlar.

İslam dininin nəzərində insan çox böyük bir məqama sahibdir. İslam dininin nəzərincə, Allah bütün məxluqatı məhz insan üçün xəlq etmişdir. Bu, "İnsanmehvəri" – (insan yaradılışın mehvəri) adlanır. Yəni aləmdə yaradılan hər bir şey, o cümlədən su, hava, kosmosda olan sistemlər, planetlər və s. hamısı insan üçün xəlq olunmuşdur. Bu haqda Quranda çoxlu ayələr mövcuddur. Biz burada bir ayəni qeyd etməklə kifayətlənirik.

سخر لَكُم ما فِي السماواتِ وما فِي الْأَرض

–Allah göylərdə və yerdə olanları sizin üçün ram etdi.[1]

Allah-taala insanı onlara hakim etmişdir və onların hamısı insan üçün yaradılmışdır. İnsan kəramətli və əzəmətli bir varlıqdır. "İsra" surəsinin 70-ci ayəsində deyilir:

---

[1] Loğman surəsi, 20-ci ayə.

وَلَقَدْ كَرَمنا بَني آدم

–Həqiqətən, Biz Adəm övladlarını kəramətli etrik.

"كَرَمنا" (kərrəmna) "kəramətli etdik" – kəlməsi yalnız insan haqqında deyilmişdir. "كَرَمنا" (kərrəmna) –yəni Adəmin (ə) övladlarına izzət, şövkət, şərafət və əzəmət bəxş etdik.

Yaradılışın mehvrı olan bu insanın üç əsas və mühüm cəhəti vardır.

**Birincisi,** insanın maddi (fiziki) cəhətidir. Yəni başqa canlılar kimi, insan da yeyir, içir, nəslini artırır və sair. İnsanın maddi cəhətini heç bir kəs inkar etmir. Bəzilərinin fikrincə, insanın yalnız maddi cəhəti vardır. İslamın nəzərincə isə, maddi cəhət insanın cəhətlərindən biridir, lakin hamısı deyildir.

**İkincisi,** insan ictimai, toplum halında yaşayır. Yəni insan tənha yaşaya bilməz, yalnız toplum halında yaşayır. Tək bir insanın yeməyini, geyimini və gündəlik tələbatını yalnız özünün təmin etməsi mümkün deyil. Allah-taala insanı toplum halında yaşamaq üçün xəlq etmişdir. Alimlər demişlər ki insan ictimai bir məxluqdur. Tək-tənha yaşasa, məhv olar.

**Üçüncüsü,** insanın mənəvi cəhətidir. Birinci və ikinci cəhətlər insanın mənəviyyətinin xidmətində olmalıdır. Məsələn, bəziləri belə deyirlər: "Yaşamaq üçün yeyirəm." Bunun əksinə olaraq bəziləri isə deyirlər ki, yemək üçün yaşayıram. "Yaşamaq üçün yeyirəm" fikrində yemək vasitədir, yəni yemək insanın yaşamasına xidmət edir. Yox, əgər əksini desək, yəni "yemək üçün yaşayıram" fikrində insan yeməyə xidmət etmiş sayılır. Ev insanın yaşaması üçün lazımdır. Belə deyil ki, insan gündə bir ev dəyişsin və ev üçün yaşasın. Paltar, yemək, ev və s. belədir.

**İnsanın yaranma səbəbi**

Bütün canlılar maddi (fiziki) cəhətdən insanla eynidirlər. Bəzi heyvanlar isə ictimai cəhətdən insanla tərəfdaşdırlar. Məsələn, arılar da insanlar kimi olmasa belə hər halda toplum halında yaşayırlar. İnsanda eyni zamanda mənəvi cəhət (üçüncü cəhət) olduğundan aləmdə olan bütün varlıqlardan üstün sayılır.

Sual oluna bilər ki, hər bir şey insan üçün yaradılmışdırsa, bəs onda insan özü nəyə görə (hansı hədəflə) xəlq olunmuşdur? Yemək, paltar, ev, vəzifə və s. insana xidmət edirsə, bəs insan nə üçün xəlq olunub?

İnsan Allahı dərk etmək və Ona ibadət etmək üçün xəlq olunmuşdur. İnsanın yaradılışında bundan başqa heç bir hədəf yoxdur. Təəssüflər olsun ki, insan hər şeyə vaxt tapır, lakin ibadət etməyə vaxtı olmur!!! Hər bir şeyə vaxt sərf edir, ibadət zamanı isə "vaxtım yoxdur" – deyir. Sanki dərsə gedən bir şagird hər şeyə vaxt tapır, lakin dərs oxumağa onun vaxtı olmur. Qurani-kərimdə deyilir:

وما خلَقْت الْجِن والْإِنس إلا لِيعبدون

–Cin və insanları yalnız Mənə ibadət etmələri üçün yaratmışam.[1]

**İkinci müqəddimə:**

**Mərifət və ibadətdə insana mütləq yolgöstərən olmalıdır**

İnsana yolgöstərən olmasa, mərifəti və ibadəti əldə etməsi çox çətin bir məsələ olar. İnsan ibadət üçün xəlq olunmuşdur, elə bu səbəbdən də ona ibadətin yolunu göstərən və onu mərifətə doğru hidayət edən bir şəxs mütləq lazımdır. Yəni yer üzündə mütləq bir höccət olmalıdır. Höccətin vəzifəsi insanların öz məqsədlərinə çatması üçün onları hidayət

---

[1] Zariyat surəsi, 56-cı ayə.

etməkdən ibarətdir. İnsanların məqsədi isə itaət etməkdir. İtaət etmək də Allaha qul olmaq deməkdir.

Deməli, Allah-taala insanları ibadət etmələri üçün xəlq etmişdir və birbaşa Onunla rabitə yaratmaq mümkün deyildir. Yəni hər bir insan təklikdə öz vəzifəsini Allah-taaladan öyrənə bilmir.

Allah-taala bizlərə iki höccət müəyyən etmişdir. Biri batini (daxili) höccətdir. Batini höccət dedikdə məqsəd ağıldır. Digəri isə zahiri höccətdir. Zahiri höccət dedikdə isə məqsəd peyğəmbərlərdir.

İmam Musa ibn Cəfər (ə) Hüşama belə buyurmuşdur:

يا هشام. اِن لِلهِ علَى الناسِ حجتينِ: حجةً ظاهِرةً و حجةً باطِنةً. فَاَما الظاهِرةُ فَالرسلُ و الْاَنبِياءُ و الْاَئمة. و اَما الْباطِنةُ فَالْعقُول.

–Ey Hüşam! Allahın insanlar üzərində iki höccəti vardır. Biri zahiri höccətdir, digəri isə batini (daxili) höccətdir. Zahiri höccət peyğəmbərlər, nəbilər və imamlardır. Batini (daxili) höccət isə ağıldır.

Allah-taalanın insana batini höccəti verməsi (təyin etməsi) vacib bir məsələdir. Çünki əgər o olmasa, Allahın insandan ibadət tələb etməsi mümkün (düzgün) olmazdı. İnsanın boynuna müəyyən bir vəzifənin qoyulmasının şərtlərindən biri məhz ağıldır. Məsələn, bir şəxsi bazara maşın almaq üçün göndərmək istədikdə, ilk növbədə gərək o şəxsin ağlı olsun. İkincisi, gərək onun elmi olsun (yəni maşın haqda anlayışı olsun) və nəhayət, üçüncüsü, onun gedib-gəlməyə imkanı olsun.

İnsanda ağıl olmasaydı, Allah insandan heç nə tələb etməzdi. Çünki ağılsız varlıqların heç bir vəzifəsi və ya öhdəliyi yoxdur. Ağlı olmayan məxluqatın boynunda heç bir vəzifə yoxdur və Allah-taala onlardan heç nə tələb etmir. Onlara nə peyğəmbərlər gəlib və nə də səmavi bir kitabları vardır. Həmçinin ağlı olmayan ruhi xəstələrin də boynunda heç bir öhdəlik yoxdur və Allah onlardan da heç nə tələb etmir.

**Ağlın növləri və mənası**

**1. Dərketmə qüvvəsi**

İnsan onun vasitəsilə dərk edir, fikirləşir və düşünür. Ağlın bu növü insanın boynunda olan öhdəliyin şərtlərindəndir. Əgər insanda bu ağıl olmasa, ona heç bir təklif yoxdur.

**2. Yaxşı əməllərlə pis əməlləri, xeyirlə şəri, xoşbəxtliklə bədbəxtliyi, nurla zülməti və haqq ilə batili ayıra bilən ağıl**

İnsan onun vasitəsilə səadətə çatır və bədbəxtliklərdən xilas olur. Allah-taala ağlın bu qismini birinci qismə görə yaratmışdır. Əgər ağlın birinci qismi olmasaydı, ikinci qismi də olmazdı. Allah-taala birinci qisim ağlı insana verməklə onu şərəfləndirmiş, ikinci qisim ağlı verməklə isə insana mərhəmət etmişdir.

Ağlın ikinci qismi haqda Quranda belə buyurulur:

كُلما أُلْقِي فِيها فَوج سأَلهم خزنتها أَلم يأْتكم نذِير. قَالُوا بلَى قَد جاءنا نذِير فَكذبنا وقُلْنا ما نزلَ الله مِن شيءٍ إِنْ أَنتم إِلا فِي ضلَالٍ كَبِيرٍ. وقَالُوا لَو كُنا نسمع أَو نعقِلُ ما كُنا فِي أَصحابِ السعِيرِ.

–Hər hansı bir dəstə oraya atıldıqları zaman gözətçilər[1] onlardan soruşarlar: “Məgər (dünyada) sizə bir qorxudan (peyğəmbər) gəlməmişdimi?” Deyərlər: “Bəli, şübhəsiz, bizə (Allah tərəfindən) bir qorxudan gəlmişdi, lakin biz onu təkzib etdik və dedik: Allah heç bir şey nazil etməmişdir. Siz ancaq böyük bir azğınlıq içindəsiniz.” Və deyərlər: “Əgər biz (həqiqətən) eşitsəydik, ya düşünsəydik, əsla yanar cəhənnəm odunun əhli zümrəsində olmazdıq.”[2]

---

[1] Cənnətin məmurları olduğu kimi, cəhənnəmin də məmurları var. Onlar cəhənnəm əhli ilə danışacaqlar.

[2] Mulk surəsi, 8-10-cu ayələr.

Cəhənnəm əhli deyər ki, İsa (ə) gəlmişdi, Musa (ə) gəlmişdi, İbrahim (ə) gəlmişdi, Nuh (ə) və İslam Peyğəmbəri (s) gəlmişdi. Lakin biz onları inkar etdik. Əgər ağlımız olsaydı və onların dediklərinə qulaq assaydıq, indi cəhənnəm əhli olmazdıq.

Bu ağıl xeyirlə şəri və haqq ilə batili ayırmaq üçün Allahın insana bəxş etdiyi ağıldır. İmam Sadiq (ə) buyurmuşdur:

اَلْعقْلُ ما عِبدَ بِهِ الرحمن و اكْتسِبَ بِهِ الْجِنان

–Ağıl ona deyilər ki, insan onun vasitəsilə Allah-taalaya ibadət etsin və cənnəti qazansın.

Rəvayətçi deyir: "İmamdan (ə) soruşdum:

فَالذِي كانَ فِي معاوِية؟

–Bəs, Müaviyədə olan nə idi?"

Həzrət (ə) buyurdu:

تِلْك النكْراء, تِلْك الشيطَنة و هِي شبِيهةٌ بِالْعقْل و لَيست بِالْعقْل.

–Müaviyədəki ağıl deyildi, ondakı hiylə və şeytanlıq idi. O da ağıla bənzəyır, lakin ağıl deyil.

Ağıl odur ki, insan onun vasitəsilə yola düz baxsın və yolda olan təhlükələri görə bilsin. Əgər bunu görə bilsə, belə insana "ağıllı insan" deyərlər. Yox, əgər yalnız yeyib-içməkdən savayı başqa bir iş görmürsə və öləndən sonra da cəhənnəm odunda yanacaqsa, ona "ağıllı insan" deməzlər. İnsan maddi cəhətini təmin etmək üçün yemək yeyib qidalanmalı, geyim geyməli və məskunlaşmalıdır. Lakin öz aqibəti haqqında da düşünməlidir.

Həzrət Əli (ə) buyurmuşdur: "Bir gün cənab Cəbrayıl (ə) Həzrət Adəmə (ə) dedi: "Allah mənə tapşırıb sənə bildirim ki, sənin üç hədiyyədən birini seçmək ixtiyarın var."

Adəm (ə) dedi: "Onlar nədən ibarətdir?"

Cəbrayıl (ə) dedi: "Ağıl, həya və din. Bu üçündən hər hansı birini istəyirsənsə, seçə bilərsən."

Adəm (ə) dedi: “Mən ağılı seçirəm.”

Cəbrayıl (ə) üzünü din ilə həyaya tutub dedi: “Siz artıq gedin və Adəmdən kənarda durun.”

Onlar dedilər: “Allah bizə əmr edib ki, hər bir yerdə ağılla birgə olun və heç bir vaxt ondan ayrılmayın.”

Bu hədisdən belə məlum olur ki, insanda ağıl olsa, dini və həyası da olar. Həzrət Peyğəmbər (s) də ağılı əsas götürüb insanları seçirdi.

Bir qrup insan Mədinənin ətrafında yaşayırdılar. Onlar müsəlmanlara çox əziyyət verib incidirdilər. İslam Peyğəmbəri (s) bundan xəbər tutduqda qoşunu hazır vəziyyətə gətirib Hüzeyl tayfasından olan cavan bir oğlanı onlara başçı təyin etdi. Müsəlmanlardan bir neçə nəfər Həzrət Peyğəmbərin (s) bu seçiminə etiraz etdilər və dedilər ki, biz onun rəhbərliyi altında heç bir yerə getmərik. Bizim hörmətli ağsaqqallarımız olan yerdə cavan bir oğlanı bizə başçı təyin etmisiniz?! Həzrət Peyğəmbər (s) onların etirazlarına üç cavab verdi:

İlk olaraq buyurdu: “Düzdür, bu oğlan cavandır, lakin onun böyük qəlbi, qolunun gücü, sağlam və nurani ağlı vardır.”

İkincisi: “Siz nəzərdə tutduğunuz ağsaqqalların yalnız saqqalları ağdır, qəlbləri qır kimi qaradır.”

Üçüncüsü: “Mən bu cavanı dəfələrlə sınamışam. Onun yaşı azdır, lakin ağlı qoca və təcrübəlidir. Mən bu səbəbdən onu seçmişəm.”

Elə bu səbəbdən də Həzrət Peyğəmbər (s) həmişə ağlı hər şeydən üstün hesab edirdi. İnsan ağlı vasitəsilə Allahın varlığını dərk edir. Buna görə də üsulid-dində (dinin əsasları məsələlərində) təqlid etmirik. Hamı Allahın varlığını, təkliyini, ədalətli olmasını, qüdrətli olmasını, müdrik olmasını öz ağlı ilə dərk edir. Peyğəmbərlər insanların yadına salmaq üçün gəlmişlər. Çünki ruhlar aləmində Allah insanlardan söz almışdır: “Mən sizin Rəbbiniz deyiləmmi?”

Onların hamısı demişdir: “Bəli, Rəbbimiz olmasına şəhadət verdik.” İnsan məhz orada Rəbbini qəbul edəndən sonra bu dünyaya gəlib və bura gələndən sonra həmin vədini unudub. Şəhvət, məhəbbət, mal-dövlət və övlad üzündən insan Allaha verdiyi vədini yaddan çıxardıb. Peyğəmbərlər də həmin vədi insanların yadına salmaq üçün dünyaya gəlmişlər.

Alimlər zahiri höccəti lütfkarlıq və mərhəmət qanunu kimi dəyərləndirirlər. Allah-taala peyğəmbərləri göndərməklə insanlara lütf və mərhəmət etmişdir. Bu, onun mərhəmətindən irəli gəlir. Çünki Allah-taala istəsəydi peyğəmbərləri göndərməyə də bilərdi. Allah-taala yaratdıqlarının çaşmasını istəmədiyindən peyğəmbərlər göndərmişdir. Bu ona bənzəyir ki, bir nəfər bir neçə nəfəri evinə qonaq çağırarkən vaxtı və ünvanı da onlara başa salır. Ünvanı onlara başa salmasına baxmayaraq, sonradan yolu çaşmasınlar deyə onların ardınca da bir nəfəri göndərir. Buna “lütf etdi” deyərlər və bu xüsusi bir lütf etməkdir. Çünki istəsəydi onların dalınca adam göndərməyə də bilərdi. İnsan dünyaya bir dəfə gəldiyindən bu dünyada heyrət içində və nigaran yaşayır. Odur ki, insanın yolunu azma ehtimalı da çoxdur.

### Quranda lütfkarlıq qanunu

Bu qanunun sübutu Quranda bəyan olunmuşdur. Allah-taala həm yolu insanlar üçün bəyan etmişdir və həm də yolda olan maneələri aradan qaldırmışdır. Əgər Allah-taala yolu insanlara başa salmasaydı və maneələri aradan qaldırmasaydı, o zaman insanın azma ehtimalı daha çox ola bilərdi və insan ona lazım olan ünvana gəlib çıxa bilməzdi. Allah-taala Leyl surəsinin 12-ci ayəsində belə buyurur:

إِنَّ عَلَيْنَا لَلْهُدَى

–Şübhəsiz, hidayət etmək Bizim öhdəmizdədir.[1]

---

[1] Ləyl surəsi, 12-ci ayə.

Yəni Allah-taala insanlara hidayət yolunu başa salmağı Öz öhdəsinə götürmüşdür. "Taha" surəsinin 134-cü ayəsində isə bu məsələni daha açıq şəkildə bəyan etmişdir.

ولو أنا أهلكْناهم ِبعذَابٍ من قَبِلِهِ لَقَالُوا ربنا لَولَا أَرسلْت ِإلَينا رسولًا فَنتبِع آياتِك ِمن قَبل أَن نذِل ونخزى

–Əgər Biz onları bundan (Məhəmmədin (s) peyğəmbərliyə göndərilməsindən və ya Quranın nazil olmasından) qabaq həlak etsəydik, mütləq "Ey Rəbbimiz, nə üçün bizə bir peyğəmbər göndərmədin ki, xar-zəlil olmamışdan qabaq Sənin ayələrinə tabe olaq" – deyərdilər.

Yəni əgər peyğəmbər göndərilməsəydi, qiyamət günü bunlar belə şikayət edə bilərdilər. Amma bunlara Quran nazil olub, peyğəmbər və höccət gəlib, habelə yolu da gözəl və açıq-aydın şəkildə bunlara bəyan ediblər. Odur ki, artıq qiyamət günü bunların heç bir bəhanələri olmayacaqdır. Allah-taala insanların öz dilində peyğəmbərlər göndərib və onlar da insanların bütün suallarını cavablandırıblar. Allah peyğəmbərləri insanlara cənnətin yolunu göstərmək üçün göndərib, insanlar isə onları necə öldürmək haqda düşünüblər.

Bir gün bir nəfər İslam Peyğəmbərinə (s) daş atdı. Həzrət Peyğəmbər (s) buna təbəssümlə cavab verdi. Soruşdular: "Ey Allahın Rəsulu (s), nə üçün gülürsən?" Həzrət (s) buyurdu: "Ona görə gülürəm ki, mən bunları cəhənnəmdən çıxarıb cənnətə aparmaq istəyirəm, bunlar isə əvəzində mənə daş atırlar."

Deməli, ağlın ikinci qismi bunlarda yoxdur. Bunlar fikirləşmirlər ki, bu işlərinin axırı necə olacaqdır?

Həzrət Əli (ə) buyurmuşdur:

و لَم يخلِ سبحانه خلْقَه ِمن نبِي مرسلٍ أَو كِتابٍ منزلٍ أَو حجةٍ لازِمةٍ

–Allah-taala yer üzünü əsla peyğəmbərsiz, nəbisiz, nazil olunmuş kitabsız və höccətsiz qoymayıb.

İnsan yaranan gündən ilk şəxs Allahın höccəti olub. Əgər dünyanın sonunda iki nəfər qalsa, son dünyadan gedən Allahın höccəti olacaqdır. Yəni dünyaya gələn ilk insan və dünyadan gedəcək son insan Allahın höccətidir.

Hüşam ibn Həkəm deyir: "Müsəlman olmayan bir şəxs gəlib İmam Sadiqdən (ə) soruşdu: "Siz necə sübut edə bilərsiniz ki, Allah-taala peyğəmbər göndərib?" Həzrət (ə) buyurdu: "Biz öncə sübut etmişik ki, aləmi yaradan (Allah) vardır. İnsanların Onunla birbaşa fiziki rabitə yaratmaları mümkün deyildir."

ثَبت اَن لَه سفَراءَ ِفي خلْقِهِ يعبرونَ عنه ِالي خلْقِهِ و عِبادِهِ و يدلونهم علَي مصالِحِهم و منافعهم و ما ِبِهِ بقاؤهم و ِفي تركِهِ فَناؤهم و هم الاَنِبياءُ علَيهم السلام. لكي لا يخلُو اَرض الله ِمِن حجةٍ.

–Deməli, təsdiq olunur ki, Onunla məxluqatı arasında Allahın sözlərini insanlara çatdırmaq üçün səfirləri olmalıdır. Həmçinin insanları onlar üçün məsləhətli və mənfəətli olan şeylərə dəvət etsinlər. Əməl etməklə yaşamalarına səbəb olan şeylərə dəvət etsinlər və onu tərk etməklə məhv olmalarına səbəb olan şeylərdən çəkindirsinlər. Bunlar peyğəmbərlərdir və yer üzü heç bir vaxt höccətsiz olmayıb.

Söylədiyimiz ayə və hədislərdən belə bir nəticəyə gəlirik ki, əgər Allah insanlara yol göstərmək, onları başa salmaq, eləcə də itaət etmələrini istəyirsə, gərək yer üzünə höccət göndərsin.

Hər iki höccət insanlara yol göstərərək bildirirlər ki, insanlar Allahın qarşısında səcdə etməli və Onun peyğəmbərlərinə isə itaət etməlidirlər.

**Üçüncü müqəddimə:**
**Allaha itaət etmək nə deməkdir?**

Biz hamımız qəbul edirik ki, insan gərək Allaha itaət etsin. Burada bir sual yaranır ki, Allaha itaət etmək nə deməkdir? İtaətin mənası nədir?

Bəziləri elə düşünürlər ki, bu sualın cavabı çox asandır. İtaət ona deyərlər ki, insan Allahın hökmlərini, əmrlərini, istəklərini öyrənsin və onları yerinə yetirsin. Əgər insan Allahın ondan nə istədiyini bilsə və o istəkləri lazımınca yerinə yetirsə, Allaha itaət etmiş sayılır. Bunu hamı bilir və hamı da qəbul edir.

Bunu biləndən sonra ikinci sual meydana çıxır. Biz, Allahın buyurduqlarını və əmrlərini haradan öyrənə bilərik?

Allahın hökmlərini iki mənbədən əldə etmək olar. Hər iki mənbəni Allah-taala Özü müəyyən etmişdir. İki mənbədən birincisi nazil etdiyi kitabdır (Quran). İkincisi isə təyin etdiyi peyğəmbərdir. Allahın insandan nə tələb etdiyini bu iki mənbədən əldə etmək olar. İnsanın bütün vəzifələrini məhz bu iki mənbə başa salır.

**Məsələnin geniş şəkildə izahı**

Allah-taala Öz istəklərini (hökmlərini) üç formada göndərmişdir. Başqa sözlərlə desək, Allah-taala üç növ Quran göndərib.

Birincisi, samit Qurandır, yəni gördüyümüz Qurani-kərimdir. İnsan onu açıb oxuyur və əgər açıb oxumasa, heç bir vaxt insanla danışa bilməz. Həzrət Əli (ə) buyurmuşdur: "Onu danışdırmasanız, danışmaz".

İkincisi, natiq Qurandır, danışan Quran. Yəni Həzrət Peyğəmbərin (s) sözü. Allah-taala peyğəmbər göndərib və peyğəmbərin də iki vəzifəsi vardır. Birincisi budur ki, Quran Peyğəmbərin (s) dili ilə bizə bəyan olunur. İnsanlar nə Allahı görürlər, nə də Cəbrayılı (ə) və ancaq Həzrət Peyğəmbərin (s)

dilindən Allahın hökmlərini eşidirlər. Quranın bəzi ayələri müsəlmanlara qaranlıq qalsa, Həzrət Peyğəmbər (s) onları müsəlmanlar üçün şərh etməlidir.

Üçüncüsü, "Qurani-mücəssəm", yəni "canlı Quran" adlanır. Yəni Həzrət Peyğəmbərin (s) əməlləri və hərəkətləri. Həzrət Peyğəmbərin (s) hərəkətləri və əməlləri Quranın mənasını təşkil edir. Belə ki, Həzrət Peyğəmbər (s) səxavətlidir, Quran da səxavətli olmağı tövsiyə edir. Həzrət Peyğəmbər (s) kəramətlidir, Quranda da kəramət haqda ayə vardır. Həzrət Peyğəmbər (s) namaz qılır, Quranda da namaz haqda ayə qeyd olunub. Həzrət Peyğəmbər (s) oruc tutur, Quranda da oruc haqqında ayələr vardır. Həzrət (s) yalan danışmır, Quran da yalanın haram olduğunu söyləyir. Həzrət Peyğəmbər (s) qeybət etmir, Quran ayələri də qeybətin haram olduğunu deyir. Yəni Quranın ayələri ilə Həzrət Peyğəmbərin (ə) əməlləri eynidir.

Görəsən, Quranda bu haqda ayələr mövcuddurmu? Bu suala cavab olaraq aşağıda bəzi məsələlərə toxunmaq istəyirik.

**Birinci: Quranda Quran**

Allah-taala Quranda buyurur ki, Mən sizə Quran kitabını göndərmişəm, bu kitaba itaət edin. Quran hidayət kitabıdır.

الم. ذَلِكَ الْكِتَابُ لاَ رَيْبَ فِيهِ هُدًى لِّلْمُتَّقِينَ

–Əlif, lam, mim. Barəsində heç bir şəkk-şübhə olmayan bu uca məqamlı kitab pəhrizkarlar üçün hidayət mənbəyidir.[1]

Bu kitabı açıb oxuyan və onun göstərişlərinə əməl edən insanlar hidayət olunarlar. Başqa bir ayədə belə deyilir:

نَزَّلَ عَلَيْكَ الْكِتَابَ بِالْحَقِّ مُصَدِّقاً لِّمَا بَيْنَ يَدَيْهِ وَأَنزَلَ التَّوْرَاةَ وَالإِنجِيلَ. مِن قَبْلُ هُدًى لِّلنَّاسِ وَأَنزَلَ الْفُرْقَانَ إِنَّ الَّذِينَ كَفَرُواْ بِآيَاتِ اللّهِ لَهُمْ عَذَابٌ شَدِيدٌ

---

[1] Bəqərə surəsi, 1-2-ci ayələr.

–Özündən qabaqkıları (peyğəmbərləri, şəriətləri və səmavi kitabları) təsdiq edən bu kitabı haqq olaraq sənə tədricən nazil etdi. Tövrat və İncili (onların hər birini isə) birdəfəlik və məcmu halında nazil etdi. Bundan öncə insanları hidayət etmək üçün! Və Furqanı (haqq ilə batili bir-birindən ayıran digər səma kitablarını) nazil etdi. Şübhəsiz, Allahın ayə və nişanələrini inkar edənlər üçün şiddətli bir əzab vardır.[1]

"Zumər" surəsinin 1-2-ci ayələrində deyilir:

تنزيلُ الْكِتابِ مِن اللهِ الْعزيزِ الْحكِيمِ. إنا أنزلْنا إليك الْكِتاب بِالْحق فَاعبدِ الله مخلِصا له الدين

–Bu kitab (hər şey üzərində) qüdrət və qələbə sahibi, (yaradılış və şəriət qanunları) möhkəm olan Allah tərəfindən nazil edilmişdir. Həqiqətən, bu kitabı sənə haqq olaraq (uca və ağıla müvafiq hədəflə) nazil etdik. Buna görə də Allaha etiqad və itaətini Onun üçün xalisləşdirmiş halda ibadət et.

Başqa bir ayədə deyilir:

يا أيها الناس قَد جاءتكُم موعِظَةٌ من ربكُم وشِفَاء لما فِي الصدورِ وهدى ورحمةٌ للْمؤمِنين

–Ey insanlar, şübhəsiz, Rəbbiniz tərəfindən sizin üçün bir öyüd-nəsihət (başdan-başa öyüd-nəsihət olan bir kitab), sinələrdə olan (xarab əqidələr və rəzil sifətlər) üçün bir şəfa və möminlər üçün bir hidayət və mərhəmət gəlmişdir.[2]

Yuxarıdakı ayələr bizə deyir ki, küfrün dərmanı, nifaqın dərmanı Qurandadır. Həmçinin nazil olunmuş bu Quran sakitdir və danışmır.

---

[1] Ali-İmran surəsi, 3-4-cü ayələr.
[2] Yunus surəsi, 57-ci ayə.

**İkinci: Quranda Həzrət Peyğəmbər (s)**

İslam Peyğəmbəri (s) Quranın danışan dilidir. Biz Quranı Həzrət Peyğəmbərin (s) dilindən eşidirik. Qurandakı ayə və surələri cənab Cəbrayıl (ə) birbaşa olaraq insanlara gətirməmişdir, onları Həzrət Peyğəmbərin (s) vasitəsilə insanlara çatdırmışdır. İnsanlar da Həzrət Peyğəmbərin (s) vasitəsilə hidayət olunurlar. Həzrət Peyğəmbərin (s) Quranın danışan dili olması məsələsi isə iki formada özünü göstərir:

**1. Quran Həzrət Peyğəmbərin (s) dili ilə hidayət edir**

Yəni Həzrət Peyğəmbər (s) Quranın vasitəsilə insanları hidayət edir.

الر كِتاب أنزلْناه إلَيك لِتخرِج الناس مِن الظلُماتِ إلَى النورِ بِإذْن ربهم إلَى صِراطِ الْعزِيز الْحمِيدِ

–Əlif, lam, ra. (Bu Quran dünyadakı) insanları onların Rəbbinin istək və köməyi ilə qaranlıqlardan (əqidə, əxlaq və əməl əyriliklərindən) nura (ilahi hidayətə) tərəf çıxarmağın və O qüdrət və mədh olunmuş xislətlər sahibi olan (Allah)ın yoluna istiqamətləndirməyin üçün sənə nazil etdiyimiz bir kitabdır.[1]

Ayədə deyilir ki, Həzrət Peyğəmbərin (s) köməyi ilə insanlar qaranlıqlardan nura çıxırlar. Quran isə bir vasitədir. Başqa sözlə desək, Həzrət Peyğəmbər (s) Quranın vasitəsilə insanları hidayət edir. Həmçinin Quran da Həzrət Peyğəmbərin (s) vasitəsilə insanları hidayət edir. Bunlar bir-birinin ayrılmaz tərkib hissəsidir. Elə biz də bunu təsdiq etmək istəyirik.

İnsan səfərə çıxanda maşının sükanının arxasında əyləşərək onu idarə etməyə başlayır. Belə olan halda, görəsən, insan maşını aparır, yoxsa maşın insanı aparır? Sürücü olmasa,

---

[1] İbrahim surəsi, 1-ci ayə.

maşın yolda gedə bilməz, maşın da olmasa, sürücü gedə bilməz. Yaxud yeri qazımaq istəyən bir şəxs külüng və beldən istifadə edir. Sual oluna bilər ki, yeri külüng qazır yoxsa həmin şəxs? Əgər o olmasa külüng qaza bilməz, həmçinin külüng olmasa o qaza bilməyəcək. Yəni onlar bir birinə bağlıdır.

"Əraf" surəsinin 2-ci ayəsində belə oxuyuruq:

كِتاب أُنزِلَ إِلَيك فَلاَ يكُن فِي صدرِك حرج منه لِتنذِر بِهِ وذِكْرى لِلْمؤمِنين

–Bu Quran sənə nazil edilmiş bir kitabdır. Buna görə də sinəndə ondan bir sıxıntı və tərəddüd olmasın ki, onun vasitəsilə insanları qorxudasan və bu, möminlər üçün bir öyüd olsun.

Ayədəki "sinəndə ondan bir sıxıntı və tərəddüd olmasın" – cümləsi ilə Allah-taala demək istəyir ki, bu risalətin axırının necə olacağı səni narahat etməsin. Onların sənin dəvətini qəbul edib-etməyəcəklərindən narahat olma. Təbliğatın nəticəsi haqda narahat olma və düşmənlərin əks-əməlləri də səni narahat etməsin.

Başqa bir ayədə deyilir:

وإِنه لَتنزِيلُ رب الْعالَمِين. نزلَ بِهِ الروح الْأَمِين. علَى قَلْبِك لِتكُونَ مِن الْمنذِرِين

–Şübhəsiz bu (Quran) aləmlərin Rəbbinin nazil etdiyidir. Ruhul-əmin (Cəbrayıl) onu endirdi. Qorxudanlardan (peyğəmbərlərdən) olasan deyə, sənin qəlbinə nazil etdi.[1]

**2. Həzrət Peyğəmbər (s) Quranı təfsir edəndir**

Yəni Həzrət Peyğəmbər (s) Quranın mübhəm (qaranlıq) ayələrini insanlar üçün təfsir edir. Təbiidir ki, hər bir ərəb

---

[1] Şüəra surəsi, 192-194-cü ayələr.

dilini bilən şəxs Quranı şərh edə bilməz. Bu elə bir elmdir ki, gərək onu müəllimdən öyrənəsən. Yəni dil bilmək elmli olmaq demək deyil. Elm öyrənmək üçün ustad və müəllim lazımdır.

Əbu Cəhl, Əbu Sufyan və onlar kimilər gecələr gedib Həzrət Peyğəmbərin (s) Quran ayələrini oxumasına qulaq asırdılar. Peyğəmbərin (s) evinin arxasında gizlənir və Həzrətin (s) namazda Quran ayələrini oxumasından ləzzət alırdılar. Evə qayıdanda isə bir-birilərinə rastlaşdıqda söz verirdilər ki, bu işi bir daha təkrar etməyəcəklər. Sabahısı gün yenə də bir-birindən xəbərsiz gələrək Quran ayələrinə qulaq asırdılar. Yenə də qayıdan zaman rastlaşırdılar və söz verirdilər ki, bir daha bu iş təkrarlanmayacaqdır. Beləcə, bir neçə gün elə bu şəkildə davam etdi. Əbu Cəhl Əbu Sufyandan soruşdu: “Sən Peyğəmbərin (s) oxuduqlarından nə başa düşürsən?” Əbu Sufyan dedi: “Düzünü bilmək istəyirsənsə o sözlərin çoxunu mən başa düşmürəm.”

Onların ədəbiyyatçı olmalarına və ərəb dili də onların öz doğma dilləri olmasına baxmayaraq, onlar Quran ayələrini başa düşmürdülər. Onlar savadsız adamlar deyildilər və öz dövrlərinin ziyalıları sayılırdılar. Onların yazdıqları şeirləri Kəbənin divarından asırdılar. Bütün bunlara baxmayaraq Quranın bir çox ayələrinin mənasını başa düşmürdülər.

Quranın qaranlıq qalan ayələrini Həzrət Peyğəmbər (s) insanlara başa salırdı. Məsələn, “Maidə” surəsinin 55-ci ayəsində deyilir:

إِنما وِليكُم اللّه ورسولُه والِذين آمنواْ الِذين يِقيمونَ الصلاَةَ ويؤتونَ الزكَاةَ وهم راكِعونَ

–Həqiqətən, sizin vəliniz (başçınız) və işlərinizin ixtiyar sahibi yalnız Allah, Onun peyğəmbəri və iman gətirənlərdir, yəni namaz qılıb rüku halında zəkat verən kəslərdir.

Bu ayənin "rüku halında zəkat verən kəslər" – cümləsindəki şəxsin kimliyini Həzrət Peyğəmbər (s) bizə başa salır. Yəni insanların Qurandakı qaranlıq ayələri özbaşına təfsir etməyə haqları yoxdur. Gərək onları Həzrət Peyğəmbərdən (s) soruşsunlar. Qurani-kərim bu haqda belə buyurur:

وأنزلنا إليك الذكر لتبين للناس ما نزل إليهم

–Və sənə də bu zikri (Quranı) nazil etdik ki, insanlara nazil olanı onlara açıqlayasan.[1]

Burada söhbət insanları hidayət etməkdən deyil, Quranı onlar üçün açıqlamaqdan gedir. Hər yerindən duran Quranı təfsir edə bilməz. Məgər hər kim ağsaqqaldırsa və ya hər kim güclü-qüdrətli cavandırsa, yaxud hər kimin pulu çoxdursa, onu təfsir edə bilərmi? Əlbəttə ki, xeyr. Düzgün təfsiri Həzrət Peyğəmbər (s) edə bilər. Həmin surənin 64-cü ayəsində deyilir:

وما أنزلنا عليك الكتاب إلا لتبين لهم

–Biz bu kitabı sənə yalnız onlara izah etməyin üçün nazil etmişik.

Bir şəxs İmam Sadiqdən (ə) soruşdu: "Ey Rəsulullahın övladı! Əgər düşmənlər bizə "Allahın höccəti yalnız Qurandır" – deyə söyləsələr, onların cavabında nə deyək?" Həzrət (ə) onun cavabında buyurdu:

اِذَنْ اَقُولُ لَهم: اِن الْقُرانَ لَيس بِناطِقٍ يأمر و ينهى و لكِن لِلْقُرانِ اَهلٌ يأمرونَ و ينهونَ

–Əgər bu sualı mənə versələr, onların cavabında deyərəm: "Həqiqətən, Quran yaxşı işlərə əmr etmək və pis işlərdən çəkindirmək üçün danışa bilmir. Lakin Quranın bir əhli vardır ki, o, (Quranı oxuyub başa düşəndən sonra) əmr edir və çəkindirir."

---

[1] Nəhl surəsi, 44-cü ayə.

Sonra Həzrət (ə) buyurdu:

نعم فِيه جملُ الْحدود و تفْسِيرها عِند الْحكْم (الحاكِم)

–Bəli, onda (Quranda) ümumi qanunlar vardır və onların təfsirini hakim bilir.

Məsələn, Quran deyir ki, namaz qılın. Lakin gündəlik neçə rükət namaz qılmaq, hansı sözləri demək, rükunun, təşəhhüdün necə yerinə yetirilməsi və s. kimi məsələlər Quranda qeyd olunmayıb. Əgər birisi "Quran mənə kifayət edər" – desə, bu zaman o şəxs namaz qıla bilməz. Çünki neçə rükət və necə qılınması Quranda yoxdur. Onun qılınma qaydasını Quranın təfsirçisi (Peyğəmbər (s) və məsum İmamlar) başa salır.

Bir gün Abuzər Həzrət Peyğəmbərdən (s) soruşdu: "Siz namaz qılmağı buyurursunuz. Bəs necə namaz qılaq?" Həzrət (s) buyurdu: "Gəl, dayan yanımda, bax gör mən necə namaz qılıram, sən də o cür namaz qıl."

Beləcə, Həzrət Peyğəmbər (s) namazı ona öyrətdi.

Quran buyurur ki, zəkat verin. Zəkatı necə ödəmək lazımdırsa, onu Peyğəmbər (s) müsəlmanlara başa salır.

Elə bu səbəbdən də əlimizdə olan Quran sakitdir, Peyğəmbər (s) natiqdir (danışandır).

**Üçüncü: Quranda Peyğəmbərin (s) əməlləri və rəftarı**

İslam Peyğəmbəri (s) Quranın canlı təcəssümüdür. Yəni İslam Peyğəmbərinin (s) əməlləri, hərəkətləri və rəftarı Quran ayələri ilə eynidir. Başqa sözlərlə desək, İslam Peyğəmbəri (s) Quranın kamil nümunəsidir.

Səid ibn Hüşam deyir: "Bir gün Ayişə xanımın evinə getmişdim. Ondan Həzrət Peyğəmbərin (s) əxlaqı barədə soruşdum. Ayişə xanım dedi: "Quran oxuyursan?" Dedim: "Bəli." Ayişə xanım dedi:

كَانَ خلْق رسول اللهِ الْقُران انما اَدبه اللهُ تعالي بِالْقُران.

–Rəsulullahın əxlaqı eynilə Qurandır. Allah-taala Həzrət Peyğəmbəri (s) Quranın vasitəsilə tərbiyə etmişdir.

Sonra Ayişə xanım Qurandan İslam Peyğəmbərinin (s) əxlaqının nümunəsi olan bir neçə ayəni oxudu.

Qurana baxsan, Həzrət Peyğəmbəri (s) görərsən, Həzrət Peyğəmbərə (s) baxsan, Quranı. Biri yazılıdır, digəri isə canlı. İslam Peyğəmbərinin (s) hər bir əməli bizim üçün höccətdir.

Quran İslam Peyğəmbərinin (s) əxlaqı haqda belə buyurur:

فَبِمَا رَحْمَةٍ مِنَ اللَّهِ لِنْتَ لَهُمْ وَلَوْ كُنْتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لَانْفَضُّوا مِنْ حَوْلِكَ

–Beləliklə, Allah tərəfindən olan rəhmətin bərəkəti sayəsində onlarla (öz ümmətinlə) mülayim oldun və əgər qaba və daşürəkli olsaydın, onlar mütləq sənin ətrafından dağılışardılar.[1]

Allah-taala İslam Peyğəmbərini (s) əxlaq nümunəsi kimi bizlərə təqdim etmişdir. Quran onun əxlaqı haqda buyurur:

إِنَّكَ لَعَلَى خُلُقٍ عَظِيمٍ

–Həqiqətən, sən (insana məxsus bütün əxlaqi fəzilətlərin cəm olduğu) böyük bir əxlaqa maliksən.[2]

Allah-taala bu ayədə demək istəyir ki, sən Mən əxlaqlı insanın necə olmasını görmək istədiyim kimisən. Quran əzəmətli olduğu kimi, Həzrət Peyğəmbər (s) də əzəmətlidir.

**İslam Peyğəmbərinin (s) məqamı**

Quran ilahi kəlam, danışmayan kitabı və İslam Peyğəmbərinin (s) əbədi möcüzəsidir. Əziz İslam Peyğəmbəri (s) iki cəhətdən Quranla bərabərdir.

---

[1] Ali-İmran surəsi, 159-cu ayə.

[2] Qələm surəsi, 4-cü ayə.

**1. Peyğəmbər (s) nübüvvət baxımından Quranla bərabərdir**

Çünki Həzrət Peyğəmbər (s) həm Quranın vasitəsilə hidayət edir, yəni Quran onun dilindən cari olur, həm də Quranı o izah edib açıqlayır.

**2. İslam Peyğəmbəri (s) əməl və əxlaq baxımından Quranla bərabərdir**

Yəni Quran xətt və sözlərdən ibarətdir, Həzrət Peyğəmbər (s) isə hərəkət, əməl və nümunədir. Təsəvvür edin ki, Quran üç hissədən ibarətdir. Bir hissəsi kağız üzərində yazılmış Quran, iki hissəsi isə İslam Peyğəmbəridir (s). Həzrət Peyğəmbərin (s) həm danışığı və həm də əməli Quranın eynidir. Yəni Həzrət Peyğəmbərin (s) əməlinə baxıb Quranı öyrənmək olar. Başqa sözlərlə desək, Həzrət Peyğəmbəri (s) Qurandan ayırmaq, Quranı Qurandan ayırmaq deməkdir və Həzrət Peyğəmbəri (s) Peyğəmbərdən (s) ayırmaq deməkdir. Quranı Həzrət Peyğəmbərdən (s) ayırmaq İslamı Qurandan ayırmaq deməkdir. Quranı Həzrət Peyğəmbərdən (s) ayırmaq haqqı haqdan ayırmaq deməkdir. Quranın bir ayəsini digər ayələrdən ayıra bilmədiyimiz kimi, Həzrət Peyğəmbəri (s) də Qurandan ayıra bilmərik. Yəni bu, mümkün olan bir iş deyil.

Allah-taala da insanları Quranın hər üç hissəsinə itaət etməyə dəvət etmişdir.

**1. Qurana tabe olmaq**

Bəzi ayələrdə sakit durub Quran oxuyana qulaq asmağa dəvət edir.

وإِذَا قُرِىءَ الْقُرْآنُ فَاستمِعوا لَه وأَنصِتوا لَعلَّكُم ترحمونَ

–Quran oxunan zaman ona qulaq asın və susun ki, bəlkə rəhm olundunuz.[1]

Bəzi ayələrdə isə Quranı oxumağa dəvət edir. İslam Peyğəmbərinə (s) xitab edərək buyurur:

وَرَتِّلِ الْقُرْآنَ تَرْتِيلاً

–Quranı aram-aram, aydın və qaydasında oxu![2]

Müsəlmanlara xitab edərək buyurur:

فَاقْرَؤُوا مَا تَيَسَّرَ مِنَ الْقُرْآنِ

–İndi isə siz (gecə namazından və) Qurandan müyəssər olanı oxuyun.[3]

Bəzi ayələrdə isə insanları Qurana yalnız pak halda toxunmağa dəvət edir.

إِنَّهُ لَقُرْآنٌ كَرِيمٌ. فِي كِتَابٍ مَكْنُونٍ. لَا يَمَسُّهُ إِلَّا الْمُطَهَّرُونَ. تَنْزِيلٌ مِنْ رَبِّ الْعَالَمِينَ.

–Həqiqətən, bu, (göndərənin və onu qəbul edənlərin yanında) kərim (çox gözəl, tərifլənmiş, qiymətli və əziz) bir Qurandır. (O,) örtülü bir yazıda (və hər bir dəyişiklikdən qorunmuş lövhədə)dır. Ona paklardan savayı başqa heç bir kəs toxuna bilməz. O, aləmlərin Rəbbi tərəfindən (Lövhi-məhfuza, oradan Cəbrayıla, ondan Peyğəmbərin qəlbinə və oradan da cəmiyyətə) nazil edilmişdir.[4]

Dəstəmazsız ona toxunmaq olmaz, boynunda qüslü olan şəxs ona toxuna bilməz. Yəni bu kitab möhtərəmdir.

Bəzi ayələrdə insanlar Qurana iman gətirməyə dəvət edilir.

فَآمِنُوا بِاللَّهِ وَرَسُولِهِ وَالنُّورِ الَّذِي أَنْزَلْنَا وَاللَّهُ

---

[1] Əraf surəsi, 204-cü ayə.
[2] Müzzəmmil surəsi, 4-cü ayə.
[3] Müzzəmmil surəsi, 20-ci ayə.
[4] Vaqiə surəsi, 77-80-ci ayələr.

–Elə isə Allaha, Onun Rəsuluna və nazil etdiyimiz nura (Qurana) iman gətirin![1]

Bəzi ayələrdə isə insanlar Qurana itaət etməyə dəvət olunur.

وهـذَا كِتاب أنزلْناه مبارك فَاتِبعوه واتقُواْ لَعلكُم ترحمونَ

–Bu, Bizim nazil etdiyimiz mübarək bir kitabdır. Ona görə də ona tabe olun və təqvalı olun, bəlkə rəhm olundunuz.[2]

اتِبعواْ ما أُنزِلَ إِلَيكُم من ربكُم ولاَ تتِبعواْ مِن دونِهِ أَولِياء

–Rəbbiniz tərəfindən sizə nazil olana (Qurana) tabe olun və Ondan başqa başçı və dostlara tabe olmayın![3]

Yəni təkcə iman gətirməklə kifayətlənməyin, onun sözlərinə tabe olun. Allah-taala bu ayələrdə insanları Qurana iman gətirməyə, dəstəmazsız ona toxunmamağa, biri oxuyanda qulaq asmağa, onu oxumağa və ona tabe olmağa dəvət edir. Müsəlman olan şəxs gərək bunlara əməl etsin.

**2. Peyğəmbərin sözlərinə (s) tabe olmaq**

Bəzi ayələr insanları Həzrət Peyğəmbərin (s) sözünə itaət etməyə dəvət edir. Çünki Həzrət Peyğəmbər (s) nə danışırsa, eynilə Quranın sözləridir və nə danışırsa, Allahın adından danışır. Bu haqda Quranda çoxlu ayələr mövcuddur. Allah-taala Həzrət Peyğəmbərə (s) itaət etməyi Özünə itaət etmək kimi qəbul edir.

وأَطِيعواْ اللّه ورسولَه

–Allaha və Onun Peyğəmbərinə itaət edin![4]

Başqa bir ayədə buyurur:

---

[1] Təğabun surəsi, 8-ci ayə.
[2] Ənam surəsi, 155-ci ayə.
[3] Əraf surəsi, 3-cü ayə.
[4] Ənfal surəsi, 1 və 20-ci ayə.

يا أيها الذِين آمنوا أطِيعوا اللّه وأطِيعوا الرسولَ

–Ey iman gətirənlər, Allaha itaət edin, Onun peyğəmbərinə tabe olun.[1]

Başqa bir ayədə buyurulur:

يا أيها الذِين آمنوا استجِيبوا لِلّهِ وللرسول إذا دعاكم لِما يحيِيكم

–Ey iman gətirənlər, sizi sizə həyat verən şeyə tərəf dəvət edən zaman Allahın və Onun Peyğəmbərinin çağırışını qəbul edin.[2]

Başqa bir ayədə buyurur ki, Həzrət Peyğəmbər (s) günahkarlardan uzaqdır.

فإنْ عصوك فقُلْ إني برِيءٌ مما تعملُونَ

–Əgər sənə itaətsizlik etsələr, de: "Mən sizin etdiklərinizdən (sizin çirkin və batil işlərinizdən) uzağam."

Bu ayələrdə Allah-taala insanları Həzrət Peyğəmbərin (s) sözünə itaət etməyə dəvət edir. Başqa ayələrdə buyurur ki, Həzrət Peyğəmbərin (s) sözündən çıxmaq cəhənnəm əzabına səbəb olar.

ومن يعصِ الله ورسوله فإن له نار جهنم خالِدِين فِيها أبدا

–Allaha və Onun Rəsuluna asi olanlar üçün, şübhəsiz, cəhənnəm əzabı vardır. Onlar orada əbədi qalarlar.[3]

Yəni Həzrət Peyğəmbər (s) şəriətin hökmlərini necə açıqlayıbsa, onları mütləq qəbul edin. İnsanın özünün ilahi hökmləri şərh etməyə ixtiyarı yoxdur. Allah-taala "Həşr" surəsinin 7-ci ayəsində bütün ixtiyarı Həzrət Peyğəmbərə (s) verərək buyurur:

وما آتاكم الرسولُ فخذُوه وما نهاكم عنه فانتهوا

---

[1] Nisa surəsi, 59-cu ayə.
[2] Ənfal surəsi, 24-cü ayə.
[3] Cinn surəsi, 23-cü ayə.

–Və Bizim Rəsulumuz sizə nə verirsə (hökmlər, maarif), onu götürün və sizə nəyi qadağan edirsə, ondan əl çəkin.

**3. Peyğəmbərin əxlaq və rəftarına (s) tabe olmaq**

Bəzi ayələrdə isə Allah-taala insanları Həzrət Peyğəmbərin (ə) əxlaqına tabe olmağa dəvət edir.

لَقَدَ كَانَ لَكُم فِي رسول اللهِ أُسوةٌ حسنةٌ لمن كَانَ يرجو الله والْيوم الْآخِر وذَكَر الله كَثِير

–Şübhəsiz, Allaha və axirət gününə (qəlbdə və əməldə) ümid bəsləyən və Allahı çox zikr edənlər üçün Allahın Rəsulunun rəftarında həyat örnəyi və nümunəsi vardır.[1]

Yəni Həzrət Peyğəmbərə (s) baxın, onun rəftarlarını və əməllərini təkrar edin.

Yuxarıda söylədiklərimizdən belə aydın olur ki, həm nazil olunmuş kitab (Quran) və həm də İslam Peyğəmbəri (s) insanlar üçün höccətdir. Həzrət Peyğəmbər (s) iki cəhətdən, yəni həm danışığı (sözü) və həm də əməli (rəftar və hərəkətləri) baxımından höccətdir. Həyatın hər bir sahəsində, o cümlədən siyasi, iqtisadi, ictimai və digər sahələrində Həzrət Peyğəmbərin (s) sözü və əməli insanlar üçün höccət və örnəkdir. Elə bu səbəbdən peyğəmbərlərdə "məsumluq" əsas şərtdir.

Həzrət Əli (s) buyurmuşdur:

كُنا اِذا أحمر الْبأس اِتقَينا بِرسول اللهِ (ص) فَلَم يكُن أحد مِنا أقْرب اِلَي الْعدو مِنه.

–Döyüşlərdə çətinlik çəkəndə Allahın Rəsuluna (s) sığınırdıq. Bəzi vaxtlar düşmənə ondan yaxın heç bir kəs olmurdu.

Həzrət Əli (ə) İslam Peyğəmbərini (s) belə təqdim edir.

[1] Əhzab surəsi, 21-ci ayə.

وَلَقَد كَانَ فِي رسول اللهِ -صلي اللهُ عليه وآله- كَافٍ لَكَ فِي الْأُسوةِ... فَتأسَّ بِنَبِيِّكَ الْأَطْيَبِ الْأَطْهَرِ -صلي اللهُ عليه وآله- فَإِنَّ فِيهِ أُسوةً لِمَن تأسَّي وعزاءً لِمَن تعزي ـ وأحب الْعِبادِ إِلَي اللهِ الْمتأسي بِنَبِيِّهِ، والْمقْتَصُّ لِأَثَرِهِ.

–Allahın Peyğəmbərinin (s) ardınca getmək sənə kifayət edər... Daha yaxşı və daha təmiz olan öz Peyğəmbərinə (s) tabe ol. O böyük şəxsin ardınca get. Çünki o həzrət tabe olan üçün itaətə layiqdir. Onunla bağlılığı olmasını istəyən üçün ən layiqli bağlılıqdır. Allah yanında ən sevimli bəndələr öz peyğəmbərlərinə tabe olub onun nişanələrinin ardınca gedənlərdir.[1]

Həzrət Peyğəmbərin (s) şücaəti kimi, mübarək kəlamları da, əməlləri də insanlara höccətdir (nümunədir). Elə bu səbəbdən Allah-taala “Ali-İmran” surəsinin 31-ci ayəsində buyurur:

قُلْ إِن كُنتم تحِبونَ اللّه فَاتبِعوني يحبِبكُم اللّه ويغفِر لَكُم ذُنوبكُم

–De: “Əgər Allahı sevirsinizsə, onda mənə tabe olun ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın.”

Yox, əgər biri “mən müsəlmanam, mən Allahı çox sevirəm” – söyləsə, amma namazı olmasa, oruc tutmasa və başqa vacib əməllərin heç biri olmasa, əksinə haram əməllərin əksəriyyətini yerinə yetirsə, onun söylədikləri mənasız sözlərdən savayı başqa bir şey deyildir. Belə bir adam haqda deyərlər: “Bunun bircə beş vaxt namazı çatmır.” Sözlə deyil, əməl ilə insan müsəlman olduğunu sübut etməlidir. Hər bir müsəlmanın həyatında əsas meyar İslam Peyğəmbəridir (s).

Həzrət Əli (ə) buyurmuşdur: “İslam Peyğəmbərindən (s) bir addım qabağa keçmək olmaz. Onun buyurduqlarına əsasən əməl etmək lazımdır.”

---

[1] Nəhcül-bəlağə, 159-cu xütbə.

İslam Peyğəmbəri (s) döyüşlərin birindən qayıtmışdı. Bir qadın o həzrət üçün bir miqdar ət gətirmişdi. Peyğəmbər (s) onun səbəbini soruşduqda qadın dedi: "Siz müharibədə olanda mən nəzir etmişdim ki, Həzrət Peyğəmbər (s) salamat gəlsin, mən bir qoyun kəsib ətindən bişirib Həzrət Peyğəmbər (s) üçün apararam. İndi nəzirimə əməl edirəm."

Cənab Cəbrayıl (ə) nazil olub Həzrət Peyğəmbərə (s) buyurdu ki, yemə, o, əti zəhərləyib gətirib. Əli ibn Əbitalib (ə), Büşr ibn Bura da orada idilər. Büşr Əliyə (ə) dedi ki, gəl bu yeməkdən yeyək, onsuz da Həzrət Peyğəmbər (s) onu tək yeməyəcək. Həzrət Əli (ə) buyurdu: "Biz onu tanımırıq, əgər Həzrət Peyğəmbər (s) "ye" desə, o zaman yeyərsən. Büşr ibn Bura zarafatlaşaraq yavaş-yavaş ətdən yeməyə başladı.

Həzrət Peyğəmbər (s) Cəbrayılın (ə) sözünü eşidən kimi əmr etdi ki, o xanımı çağırın gəlsin. Qadın gələndə Həzrət (s) ondan "gətirdiyin bu nədir?" – deyə soruşdu. Qadın "öncədən söylədim" – deyə cavab verdi. Həzrət (s) buyurdu: "Bilirəm, artıq mənə xəbər verdilər. Sən buna zəhər qatıb gətirmisən."

Qadın sirrin üstünün açıldığını gördükdə dedi: "Sən bu məsələdən agah olduğun üçün icazə ver, bunun sirrini sənə danışım. Müharibədə sənin əlinlə həm atam və həm də ərim öldürülmüşdür. Onları öldürdüyünə görə sənə qarşı mənim qəlbimdə olan kin-küdurət hələ çıxmayıb. Bunu ona görə etdim ki, əgər sən yalançı peyğəmbərsənsə, onda mən səndən intiqamımı almış olaram. Yox, əgər sən həqiqi peyğəmbərsənsə, onda Cəbrayıl (ə) sənə xəbər verər, sən də bu işdən xəbərdar olub ondan yeməzsən və mən də sənə iman gətirərəm."

Qadın bunu deyəndən sonra "Əşhəddu ənnəkə Rəsulullah", – deyib Həzrət Peyğəmbərə (s) iman gətirdi və həqiqi mənada da mömin oldu. Ömrünün sonuna qədər imanla yaşadı və öləndə də dünyadan imanla getdi.

Həzrət Peyğəmbər (s) əmr etdi ki, səhabələrdən bir neçə nəfər çağırın gəlsin. Səhabələr gələndən sonra Həzrət Peyğəmbər (s) əlini ətin üstünə qoyaraq bu duanı oxudu:

بِسمِ اللهِ الشافِى بِسمِ اللهِ الكافِى بِسمِ الله المُعافِى بِسمِ اللهِ الذِى لا يضر مع اسمِهِ شيئٌ ولا داءٌ فِى الأرضِ و لا فِى السماءِ و هو السمِيع العِليم

Sonra oradakılara buyurdu ki, artıq əti yemək olar. Zəhər öz təsirini itirdi və səhabələr o yeməkdən yeyən zaman Büşrü ağrılar tutdu. Onu başqa bir otağa apardılar. Səhabələr yeməyi yeyib qurtarandan sonra xəbər gəldi ki, Büşr dünyasını dəyişib. Həzrət Peyğəmbər (s) onun dəfninə hazırlıq işlərinin görülməsini əmr etdi. Bu xəbəri onun övladlarına da çatdırdılar. Cənazə hazır olanda Həzrət Peyğəmbərə (s) xəbər verdilər ki, dəfn üçün hər şey hazırdır, məsləhətdirsə cənazə namazını qılın. Həzrət Peyğəmbər (s) buyurdu: "Əli (ə) hanı? Əli (ə) onu bağışlamasa, mən ona namaz qılmaram. Əli (ə) ona "yemə!" demişdi, lakin o, sözə baxmamışdı. O, Əlinin (ə) sözünə baxmadığı üçün mən ona cənazə namazı qılmaram. Əli (ə) onu bağışlayandan sonra mən ona cənazə namazı qıla bilərəm."

Həzrət Əlini (ə) çağırdılar və o, gəldikdən sonra Həzrət Peyğəmbər (s) ona buyurdu ki, Büşr sənin sözünə baxmadığından əgər sən onu bağışlamasan, mən ona cənazə namazı qılmaram. Həzrət Əli (ə) buyurdu: "Ya Rəsulallah! O, həqiqi mənada yox, zarafatyana mənim sözlərimə baxmadı." İslam Peyğəmbəri (s) buyurdu: "Əgər o, həqiqi mənada sənin sözlərinə baxmasaydı, mən ona heç bir vaxt cənazə namazı qılmazdım, zarafat etdiyinə görə səndən halallıq istəyirəm."

Həzrət Əli (ə) buyurdu: "İlahi, mən Büşrü tanıyırdım. O, yaxşı insan idi. Lakin çox sadə idi. İlahi, o, zarafatyana mənim sözlərimə baxmadı. Sən Büşrə mərhəmət elə!"

Sonra Həzrət Peyğəmbər (s) onun cənazə namazını qıldı və oğlunu çağırıb buyurdu: “Səni həm təbrik edirəm və həm də sənə başsağlığı verirəm. Başsağlığı verirəm ki, atan dünyasını dəyişib. Təbrik edirəm ki, atan cənnətə daxil oldu.”

Bu hədisdən belə bir nəticəyə gəlirik ki, İslam Peyğəmbərindən (s) bircə addım belə qabağa keçmək olmaz. Büşr Həzrət Peyğəmbərin (s) sözündən qabaq yediyinə görə dünyasını dəyişdi. Əgər səbir edib Həzrət Peyğəmbər (s) icazə verəndən sonra həmin təamdan yesəydi, ona da heç nə olmazdı.

## QURANİ-NATİQLƏ QURANİ SAMİTİN (danışan Quranla sakit Quranın) MÜQAYİSƏSİ

*O ki, fələkləri heyran edib məqami Hüseyndir,*
*O ki, mələklərə naz eyliyər qulami Hüseyndir.*

*O ki, edibdi fələkdən uca mələkdən baş,*
*Hüseynin izzəttü iclalini mərami Hüseyndir.*

*Ədavət əhli qiyamət günü necə edər inkar,*
*O ki, qiyaməti isbat edib qiyami Hüseyndir.*

*O əssəlam ki, xudavəndi həyyi ləm yəzəli,*
*Ona ələykə bəyan etdi əssəlami Hüseyndir.*

*O asimandan uca xeymələr ki, kinə odunda,*
*Yanıb səpildi külü çöllərə xiyami Hüseyndir.*

*O kəski ayeyi Qurani kəlmə-kəlmə cidadə,*
*Kəsik baş ilə tilavət edib İmami Hüseyndir.*

*Fələk nə özbaşına xəm edibdi qəddini,*
*Seyyid, bükən fələk belini şənü ehtirami Hüseyndir.*

Ötən bəhslərdə qeyd olundu ki, Quranla Peyğəmbər (s) bir-birinin ayrılmaz hissələridir. Quaran kitabı yazılı surətdə, Peyğəmbər (s) isə həm natiq, həm də mücəssəm Qurandır. Yəni Peyğəmbər (s) Quranın danışan dili və canlısıdır. Onun sözlərini dinləyib hərəkətlərinə baxmaqla Quranın ayələrini öyrənmək olur. Quranı Peyğəmbərdən (s) ayırı hesab etmək Quranı Qurandan ayırmaq deməkdir. Quranı Peyğəmbərdən (s) ayırı hesab etmək İslamı İslamdan ayırmaq deməkdir. Quranı Peyğəmbərdən (s) ayırı hesab etmək haqqı haqqdan ayırmaq deməkdir. İslam Peyğəmbəri (s) bir peyğəmbər olaraq Qurani-kərim kimi böyük bir məqama sahibdir. Yəni onun sözü həqiqətdə Allahın sözüdür. Bəhsimizdən nəticə almaq üçün

və sözün əsas məğzinə çatmaq üçün burada bir mətləbə da diqqət yetirməyimiz lazım gəlir. O da bundan ibarətdir ki, həm Quran ayələrinə, həm də bəzi hədislərə əsaslanaraq Quranla Həzrət Peyğəmbəri (s) bir neçə cəhətdən müqayisə edək. Yəni danışan (natiq) Quranla, danışmayan (samit) Quranı müqayisə edək.

**1. Quran ilahi rəhmətə malik bir kitabdır**

Yəni Quran insanlar üçün bir rəhmətdir. Allah-taala "Nəhl" surəsinin 89-cu ayəsində buyurur:

ونزلْنا عليْك الْكِتاب تِبيانا لكُل شيءٍ وهدى ورحمةً وبشرى لِلْمسلِمِين

–Və hər bir şeyin (elm və maariflərin) dolğun açıqlaması və aydınlaşdırıcısını, müsəlmanlar üçün başdan-başa hidayət, rəhmət və müjdə mənbəyi olan bu kitabı sənə nazil etdik.

Bu ayədə Allah-taala buyurur ki, Quran bütün müsəlmanlar üçün bir rəhmətdir. Həmçinin "Ənbiya" surəsinin 107-ci ayəsində İslam Peyğəmbərinin (s) də bütün aləmlərə rəhmət olaraq göndərdiyini bəyan edir.

وما أرسلْناك إِلا رحمةً للْعالَمِين

–(Ya Məhəmməd!) Biz səni aləmdəkilər üçün yalnız bir rəhmət olaraq göndərmişik.

**2. Quran ümumbəşəri bir kitabdır**

Yəni Quran İncil və Tövratdan fərqlidir. Həmin fərqlərdən biri budur ki, Tövrat və İncil müəyyən bir qrup insanlar üçün nazil olmuşdur. Lakin Quran ümumbəşəri bir kitabdır. Odur ki, Allah-taala buyurur:

تبارك الذِي نزلَ الْفُرقَانَ علَى عبدِهِ لِيكُونَ لِلْعالَمِين نذِير

–Furqanı (haqq ilə batili bir-birindən ayıran Quranı) aləmdəkilərin hamısını (kökləri kəsilənədək bütün insan və cinləri) qorxutmaq üçün bəndəsinə tədricən nazil edən (Allah) uca, əbədi və çox bərəkətlidir.[1]

İslam Peyğəmbəri də (s) ümumbəşəri bir peyğəmbərdir. İslam Peyğəmbəri (s) Həzrət İsa (ə), Həzrət Musa (ə), Həzrət İbrahim (ə) kimi müəyyən bir cəmiyyətə peyğəmbər olaraq göndərilməmişdir. Onlar istər ülul-əzm peyğəmbərlərdən olsun, istərsə də qeyri peyğəmbərlərdən olsun, əsas odur ki, onlar müəyyən bir cəmiyyətə göndərilmişlər və təyin edilmiş zamana görə onlara kitab nazil olmuşdur. Amma həm Quran və həm də İslam Peyğəmbəri (s) bütün bəşəriyyətə göndərilmişdir. Allah-taala "Səbə" surəsinin 28-ci ayəsində buyurur:

وما أرسلْناكَ إلا كافةً للناسِ بشِيرا ونذِيرا

–Və Biz səni bütün insanlara (öz əsrindən dünyanın sonunadək) qoruyan və (salehlərə) müjdə verən və (pisləri) qorxudan (kimi) göndərdik.

Dünyada heç bri insan deyə bilməz ki, Quran mənim üçün nazil olmamışdır. Rəngindən, irqindən və yaşadığı yerdən asılı olmayaraq, Quran bütün insanların kitabı, İslam Peyğəmbəri (s) də bütün insanların peyğəmbəridir. Əziz Peyğəmbərimiz (s) özü də bu haqda buyurmuşdur:

أرسِلْتُ الي الْخلْقِ كافة

–Mən bütün insanlar üçün göndərilmişəm.

**3. Quran həm aydın, həm də hər şeyi aydınlaşdıran (izahedici) bir kitabdır**

الر تِلْكَ آيات الْكِتابِ وقُرآنٍ مبِينٍ

[1] Furqan surəsi, 1-ci ayə.

–Əlif, lam, ra. Bu (uca məqamlı) surə, bu kitabın və (özü) aydın (olan) və aydınlıq gətirən Quranın ayələridir.[1]

Bu söz Quranda Həzrət Peyğəmbər (s) haqqında da söylənilmişdir. İslam Peyğəmbəri (s) də hər bir şeyə aydınlıq gətirən bir peyğəmbərdir. Quran Allahın Rəsulu (s) haqqında buyurur:

وقُلْ إني أنا النذِير الْمبِين

–Və de: "Həqiqətən mən (sizi ilahi əzabın nazil olmasından çəkindirən) həmin aşkar qorxudanam."[2]

"Mubin" kəlməsi həm Quran haqqında və həm də Həzrət Peyğəmbər (s) haqqında işlədilmişdir. Həzrət Peyğəmbərin (s) risaləti həm aydındır (yəni onda heç bir şəkk-şübhə yoxdur) və həm də aydınlıq gətirəndir.

**4. Quranda heç bir səhv, xəta və əyrilik yoxdur**

Allah-taala Kəhf surəsinin 1-ci ayəsində belə buyurur:

الْحمد لِلهِ الذِي أنزلَ على عبدِهِ الْكِتاب ولَم يجعل له عِوج

–Həmd bu kitabı Öz bəndəsinə nazil etmiş və onda (kəlmə və mənasında) heç bir xəta və əyrilik qoymayan Allaha məxsusdur.[3]

Yəni Quranda həm elmi cəhətdən və həm də əxlaqi baxımdan insanları azdıran heç bir şey yoxdur. Əksinə, Quran insanları səhv yoldan düzgün yola dəvət edir. İslam Peyğəmbəri (s) də insanların hidayət yolunda heç bir səhv, əyrilik və xətaya yol verməmişdir. Allah-taala Quranda bunu müxtəlif ifadələrlə bəyan etmişdir. O cümlədən:

إنك لَمِن الْمرسلِين. على صِراطٍ مستقِيمٍ

[1] Hicr surəsi, 1-ci ayə.
[2] Hicr surəsi, 89-cu ayə.
[3] Kəhf surəsi, 1-ci ayə.

–Şübhəsiz, sən (Allahın) peyğəmbərlərindənsən (peyğəmbərliyə seçildiyin vaxtdan insanların nəsilləri kəsilincəyədək onlara göndərilmisən). Sən düzgün olan bir yoldasan.[1]

Hidayət etdiyin insanları da düz yola hidayət edirsən. Sənin sözündə, dəvətində heç bir xəta və əyrilik yoxdur. Quranda əyrilik olmadığı kimi, Həzrət Peyğəmbərin (s) dəvətində də heç bir əyrilik yoxdur.

### 5. Quranın daxil olduğu qəlbə Allah-taala əzab verməyəcək

Lakin Quranı yıxmaq məqsədilə öyrənənlərə şiddətli əzab veriləcək. Məsələn, məsciddə əyləşən hər bir kəsə aldığı nəfəsin hər birinə görə ona savab veriləcək. Çünki məscid Allahın evidir. Bu savab o zaman verilir ki, insan məscidə ibadət məqsədilə gəlsin. Əgər bir şəxs digər məscidləri yıxmaq üçün bir məscid tiksə, ona savab deyil, əzab veriləcəkdir. İslam Peyğəmbərinin (s) dönəmində belə bir məscidin (Zirar məscidi) sökülməsinə o həzrət özü əmr etmişdir. Və həmin məscidin sökülməsini ibadət olaraq bəyan etmişdir. Bəzi vaxtlar məscid tikmək ibadətdirsə, bəzi vaxtlar isə onu sökmək də ibadət sayılır.

SSRİ dönəmində kommunistlər İslam təlimlərini ona əməl etmək üçün deyil, İslamı məhv etmək məqsədilə öyrənirdilər. Bununla belə, özlərinə "İslamşünas" adı da verirdilər.

Əgər Quran insanın qəlbinə yaxşı mənada məsələn, öyrənmək üçün, hidayət olunmaq üçün, əməl etmək üçün daxil olsa, Allah-taala o qəlbə əzab verməyəcəkdir. Həzrət Əli (ə) buyurmuşdur:

اِقْرؤوا الْقُرانَ و استظْهروه فَاِن اللهَ تعالي لا يعذب قَلْباً وِعاءَ الْقُران.

–Quranı oxuyun və əzbərləyin (Qəlbinizi Quranla doldurun)! Quranın yeri olan hər bir qəlbə Allah-taala əzab verməyəcək.

---

[1] Yasin surəsi, 3-4-cü ayələr.

İslam Peyğəmbəri (s) də bunun kimidir. Yəni hər nə qədər İslam Peyğəmbəri (s) ümmətin arasındadır, Allah-taala həmin ümmətə əzab etməyəcəyini bildirmişdir. “Ənfal” surəsinin 33-cü ayəsində deyilir:

وما كَانَ اللّهُ لِيعذبهم وأنت فِيهم وما كَانَ اللّهُ معذبهم وهم يستغفِرونَ

–Lakin nə qədər ki, sən onların içindəsən, Allah onlara əzab verməyəcəkdir. Həmçinin nə qədər ki, onlar istiğfar edirlər (Allahdan bağışlanmalarını istəyirlər), Allah onlara əzab verən deyildir.

Bu ayədən məlum olur ki, Allah-taala iki səbəbə görə müşrik, kafir və münafiq olan insanlara əzab göndərmir:

Birinci səbəb odur ki, hər bir insan əgər etdiyi günaha görə tövbə edib öz peşmançılığını bildirsə, Allah-taala ona əzab nazil etməz. Çünki belə bir insan öz səhvini başa düşüb üzr istəmişdir.

İkinci səbəb isə odur ki, hər nə qədər Peyğəmbər (s) onların içərisindədir, Allah-taala onlara əzab nazil etməz. Qəlbində Quran olan insana əzab verilmədiyi kimi, içərisində peyğəmbər olan hər bir ümmətə də əzab verilmir.

**6. Quran əzizdir (əzəmətlidir)**

Allah-taala Fussilət surəsinin 41-42-ci ayələrində belə buyurur:

إِن الذِين كَفَروا بِالذكْرِ لَما جاءهم وإِنه لَكِتاب عزِيز. لَا يأْتِيهِ الْباطِلُ مِن بينِ يديهِ ولَا مِن خلْفِهِ تنزِيلٌ من حكِيمٍ حمِيدٍ

–Həqiqətən, öyüd verən bu Quran onlara gələn zaman onu inkar edənlər (odda olacaqlar). Doğrudan da bu (Quran) möhkəm, qalib və məğlubedilməz bir kitabdır.

Ona nə qarşısından, nə də arxasından batil yol tapa bilməz (onun hökm və təlimlərində, həmçinin keçmiş və gələcək barəsindəki xəbərlərində heç bir yanlışlıq ola bilməz). O, yaradılış və şəriəti möhkəm, Özü isə bütün cəhətlərdən təriflənmiş (Allah) tərəfindən nazil edilmişdir.

İnsanların Quranı qəbul edib-etməmələri onun izzətinə heç bir xələl yetirə bilməz və heç bir batil sözü ona daxil edə bilməyəcəklər.

Eləcədə İslam Peyğəmbəri (s) əzizdir. Həzrət Peyğəmbər (s) haqqında belə buyurulmuşdur:

وللهِ الْعِزةُ ولرسولِهِ وللْمؤمِنين ولَكِن الْمنافِقِين لَا يعلَمونَ

–İzzət və qüdrət Allaha, Onun Rəsuluna və möminlərə məxsusdur və lakin münafiqlər (bunu) bilmirlər.[1]

Həzrət Əli (ə) "Nəhcül-bəlağə"də İslam Peyğəmbəri (s) haqqında dəfələrlə söz açmışdır. Bəzi xütbələrdə geniş surətdə, bəzilərində isə xülasə şəklində söhbət etmişdir. 95-ci xütbədə Həzrət (ə) buyurur:

دفن اللهُ بِهِ الضغائِن و أطْفَأَ بِهِ النوائِر ألف بِهِ إخواناً و فَرق بِهِ أقْراناً أعز بِهِ الذلةَ و أذَل بِهِ الْعِزةَ.

–Allah-taala o həzrətin vasitəsilə çoxdankı kinləri məhv etdi və düşmənçilik atəşini söndürdü. İman qardaşları arasında ülfət və dostluq yaratdı, özününkülərin (Həmzə ilə Əbu Ləhəbin) arasında (İslama və küfrə görə) ayrılıq saldı. O böyük insanın zühuru və ərsəyə çatması ilə möminlərin zillət və çarəsizliyini başucalığına, şadlıq, üstünlük və böyüklüyə çevirdi, kafirləri isə bədbəxtliyə düçar etdi.

İslam Peyğəmbərinin (s) zühurundan qabaqkı cahil ərəblərin dönəminə baxsaq görərik ki, onlar ömrü boyu bir-birləri ilə müharibələrdə olmuşlar. Evlərində rahat yatdıqları günlər

---

[1] Munafiqun surəsi, 8-ci ayə.

çox az olmuşdur. Yəni həmişə həyatlarını döyüşlərdə keçirmişlər. Elə bu səbəbdən də qız uşaqlarını özləri diri-diri basdırırdılar ki, düşmənlərin əlinə əsir düşməsinlər. Xırda bir məsələdən ötrü böyük-böyük qəbilələr bir-birilərinin qanını tökürdülər. İslam Peyğəmbəri (s) belə bir cəmiyyəti hidayət etmək üçün göndərilmişdi. Və o həzrət buna nail oldu. Dünən bir-birilərini öldürməklə hədələyənlər indi artıq qardaş olublar və bir cərgədə dayanaraq İslam Peyğəmbərinə (s) iqtida edir və namaz qılırlar. Onlar qardaş olduqları üçün artıq namazlarında bir-birilərinə dualar da edirlər.

Həmçinin onların arasında (iman və küfr baxımından) ayrılıq saldı. Bəziləri Peyğəmbəri (s) qəbul etdi, məsələn, Həmzə, bəziləri isə o həzrəti qəbul etmədi, məsələn, Əbu Ləhəb. Halbuki onlar bundan qabaq bir yerdə əyləşmişdilər və bir fikirdə idilər. Bunun nümunəsini müasir dövrdə də görmək olar. Bəzi insanlar vardır ki, bir müddət dost olurlar. Onlardan bəzisi ibadət etməyə başlayır, digərləri isə ibadət etmədikləri üçün artıq onlar bir-birilərindən ayrılırlar. Hətta bəzən iş o yerə gəlib çatır ki, aralarında söz-söhbətlər də baş verir. Bu haqda Həzrət Əli (ə) buyurur:

و لَقَد كُنا مع رسول اللهِ صلّي اللّهُ علَيهِ و آلِهِ نقْتلُ آبائَنا و أبنائَنا و إخواننا و أعمامنا

–Biz Allahın Peyğəmbəri (s) ilə olduğumuz vaxt (məcburiyyət qarşısında iman gətirməyən) atalarımızı, övladlarımızı, qardaş və əmilərimizi (döyüşlərdə) öldürürdük.[1]

Artıq onlar bir yerdə yaşaya bilməzlər. Çünki biri "dünya beşgünlükdür, ye, iç və yaşa", – deyə düşünür. Digəri isə "yox, sən öz dünyana görə mənim axirətimi məhv edə bilməzsən", – deyir. Elə bu səbəbdən də onların arasında ayrılıq düşür. Sanki qızılla sarı dəmiri bir-birinə qatıb bir zinət əşyası

[1] Nəhcül-bəlağə, 95-ci xütbə.

düzəldiblər. Onu əridəndən sonra saxta qızıl həqiqi qızıldan ayrılır. Ona görə ki, onları əritdikdən sonra artıq bir-birinə qarışa bilməzlər.

İslam Peyğəmbərinin (s) dönəmində insanları bir-birindən (iman və küfr baxımından) ayıran haqq idi.

Həmçinin o dönəmdə zəlil olmuş bəzi insanlar ibadət və bəndəçilik vasitəsilə izzətə çatdılar və fironluq edənlər isə zəlil oldular. Həzrət Peyğəmbər (s) dünənədək sayılmayan, diqqət yetirilməyən bəzi insanları izzətləndirdi. Bilala, Abuzərə və Salmana izzət bəxş etdi. İslam Peyğəmbərinin (s) mübarək vücudi mömin səhabələri izzətli etdi. İslamdan qabaq özlərini böyük hesab edənlərsə artıq zəlil olmuşdular və elə bu səbəbdən də onlar İslam Peyğəmbəri (s) ilə müharibə edirdilər. Çünki adi, sadə camaat artıq onları saymırdı.

**7. Quran nurdur**

"Nisa" surəsinin 174-cü ayəsində buyurulur:

يا أيها الناس قد جاءكم برهانٌ من ربكم وأنزلنا إليكم نورا مبين

–Ey insanlar, həqiqətən, Rəbbinizdən sizə bir dəlil-sübut gəlmişdir. Və sizin üçün aşkar və aydınlıq gətirən bir nur (Quran) nazil etdik.

Qurani-kərimdə İslam Peyğəmbərinin (s) haqqında da belə deyilmişdir.

يا أيها النبي إنا أرسلناك شاهدا ومبشرا ونذير. وداعيا إلى الله بإذنه وسراجا منير

–Ey Peyğəmbər, həqiqətən, Biz səni (dünyada ümmətin əməllərinə şahid olub və axirətdə şəhadət verməк üçün) bir şahid və müjdəçi və qorxudan (kimi) göndərdik. Və həmçinin Allahın (yaradılış) izni (və nəsib etdiyi uğurları) ilə Ona tərəf dəvət edən və aydın və nur saçan bir çıraq (olaraq göndərdik).[1]

[1] Əhzab surəsi, 45-46-cı ayələr.

Allah-taala Qurana “nur” söylədiyi kimi, İslam Peyğəmbərinə (s) də “nur” deyir.

İslam Peyğəmbərinin (s) ziyarətnaməsində oxuyuruq:

السلام عليك يا نور الله.

–Salam olsun sənə, ey Allahın nuru!

**8. Quran mübarəkdir, bərəkətlidir**

Ənam surəsinin 155-ci ayəsində belə oxuyuruq:

وهـذا كتاب أنزلناه مبارك

–Bu, Bizim nazil etdiyimiz mübarək bir kitabdır.[1]

Başqa bir ayədə deyilir:

وهذا ذكر مبارك أنزلناه

–Nazil etdiyimiz bu (Quran bəşər cəmiyyəti üçün dünya və axirət baxımından) çox bərəkətli bir öyüd-nəsihətdir.[2]

İslam Peyğəmbəri də (s) mübarək və bərəkətlidir. Hətta o həzrətin öz dilindən belə nəql olunmuşdur:

جعل في النبوة و البركة

– Allah-taala məndə nübüvvət və bərəkət qərar vermişdir.

İmam Səccad (ə) Həzrət Peyğəmbər (s) barəsində buyurmuşdur:

امام الرحمة و قائد الخير و مفتاح البركة

–İslam Peyğəmbəri (s) rəhmətin (mərhəmətin) imamı (rəhbəri), xeyrin başçısı və bərəkətin açarıdır.

Açar olmadan (qıfılla bağlanmış) yerə daxil olmaq mümkün deyil. Bərəkətin də açarı Həzrət Peyğəmbərdir (s). İmam Baqir (ə) buyurmuşdur:

الطيب ذكره و المبارك إسمه

---

[1] Ənam surəsi, 155-ci ayə.

[2] Ənbiya surəsi, 50-ci ayə.

–Onun (Peyğəmbərin (s)) zikri xoşətirli, adı isə mübarəkdir.

**9. Quran moizədir**

Quranın moizə, öyüd-nəsihət olması haqda belə buyurulur:

يا أيها الناس قَد جاءتكُم موعِظَةٌ من ربكُم

–Ey insanlar, şübhəsiz, Rəbbiniz tərəfindən sizin üçün bir öyüd-nəsihət (başdan-başa öyüd-nəsihət olan bir kitab) gəlmişdir.[1]

İslam Peyğəmbəri (s) də həm moizə edərdi və həm də insanları moizəyə dəvət edərdi. Onun dili, danışığı və rəftarı moizədir. İslam Peyğəmbərinin (s) moizəsi ən bəlağətli və insanların ürəyinə yatan bir moizədir. Həzrət Əli (ə) bu barədə buyurmuşdur:

أرسلَه بِحجةٍ كافِيةٍ و موعِظَةٍ شافِيةٍ

–Allah-taala onu (Peyğəmbəri (s)) kifayət edən dəlil (Quranla) və şəfa verən nəsihətlə göndərdi.[2]

Həmçinin Həzrət (ə) buyurmuşdur:

و دعا إلي الْحِكْمةِ و الْموعِظَةِ الْحسنةِ

–İslam Peyğəmbəri (s) (onlara) nəsihət etməyə çalışdı. Hikmət, bilik və gözəl öyüdlərə dəvət etdi.[3]

**10. Quran itaət edilməsi vacib olan bir kitabdır**

وهـذَا كِتاب أنزلْناه مبارك فَاتبِعوه واتقُواْ لَعلَّكُم ترحمونَ

–Bu, Bizim nazil etdiyimiz mübarək bir kitabdır. Buna görə də ona tabe olun və təqvalı olun, bəlkə rəhm olundunuz.[4]

İslam Peyğəmbərinə (s) də itaət etmək vacibdir.

---

1 Yunis surəsi, 57-ci ayə.

2 Nəhcül-bəlağə, 161-cı xütbə.

3 Nəhcül-bəlağə, 95-ci xütbə.

4 Ənam surəsi, 155-ci ayə.

وما كانَ لِمؤمِنٍ ولا مؤمِنةٍ إذا قضى الله ورسولُه أمرا أن يكُونَ لَهم
الْخِيرةُ مِن أمرِهِم ومن يعصِ الله ورسولَه فَقد ضل ضلالًا مبين

–Və heç bir mömin kişiyə və mömin qadına yaraşmaz və şərən caiz, əqlən rəva deyil ki, Allah və Onun Rəsulu (onların barəsində) bir fərman verdikdə, onların öz işlərində ixtiyar sahibi olsunlar. Və kim Allaha və Onun Rəsuluna itaətsizlik etsə (asi olsa), şübhəsiz, açıq-aşkar azğınlığa düçar olmuşdur.[1]

### 11. Quran zülmətdən (qaranlıqlardan) nura hidayət edən bir kitabdır

الر كِتاب أنزلْناه إليك لِتخرِج الناس مِن الظلُماتِ إلى النورِ بِإذْنِ ربهم
إلى صِراطِ الْعزِيزِ الْحمِيد

–Əlif, lam, ra. Bu Quran dünyadakı insanları onların Rəbbinin istək və köməyi ilə qaranlıqlardan (əqidə, əxlaq və əməl əyriliklərindən) nura (ilahi hidayətə) tərəf çıxarmağın və O qüdrət və mədh olunmuş xislətlər sahibi olan (Allah)ın yoluna istiqamətləndirməyin üçün sənə nazil etdiyimiz bir kitabdır.[2]

Başqa bir ayədə buyurulur:

إن هـذا الْقُرآنَ يهدِي لِلتي هِي أقْوم ويبشر الْمؤمِنين الذِين يعملُونَ
الصالِحاتِ أن لَهم أجرا كَبِير

–Həqiqətən, bu Quran (insan cəmiyyətini) ən möhkəm və sabit yola və dinə hidayət edir və həmişə yaxşı işlər görən möminlərə, onlar üçün (dünyada və axirətdə) böyük bir mükafat olması müjdəsini verir.[3]

---

1 Əhzab surəsi, 36-cı ayə.
2 İbrahim surəsi, 1-ci ayə.
3 İsra surəsi, 9-cu ayə.

İslam Peyğəmbəri (s) də insanları zülmətlərdən (qaranlıqlardan) nura və batildən haqqa hidayət edir. Həzrət Əli (ə) İslam Peyğəmbəri (s) haqqında buyurur:

فَبعثَ اللهُ محمداً صلّي اللهُ علَيهِ و آلِهِ بِالْحق لِيخرِج عِباده مِن عِبادةِ الْأوثانِ الَي عِبادِتهِ و مِن طاعةِ الشيطانِ الَي طاعِتهِ

–Allah Məhəmmədi (s) haqqa və doğruluğa seçdi ki, bəndələrini bütlərə pərəstişdən çəkindirsin və Ona ibadətə, itaətə vadar etsin. Şeytanın ardınca getməyi qadağan edərək Ona itaətə yönəltsin.[1]

Digər bir xütbədə isə Həzrət (ə) belə buyurur:

أَفيضوا فِي ذِكْرِ اللهِ فَإنه اَحسن الذكْرِ وارغَبوا فِيها وعد الْمتقِين فَإن وعده أصدق الْوعدِ واقْتدوا بِهدي نِبيكُم فَإنه أَفْضلُ الْهدي واستنوا بسنِتهِ فَإنها أهدي السنن.

–Allahı xatırlamağa tələsin ki, Allahı anmaq zikrlərin ən yaxşısıdır. Pəhrizkarlara vəd verdiyinə (cənnətə) rəğbət göstərin ki, Onun vədi ən doğru vəddir. Öz peyğəmbərinizin hidayəti və göstərdiyi yolla gedin ki, onun yol göstərməyi hidayətlərin ən üstünüdür. Onun sünnəsi və yoluna uyğun rəftar edin. Çünki onun yolu ən doğru yolgöstərən sünnə və yoldur.[2]

### 12. Quran nicat bayrağıdır

İmam Səccad (ə) "Səhifeyi-Səccadiyyə" kitabında öz duasında Quran haqda buyurur:

علَم نِجاةٍ

–(Quran) nicat bayrağıdır (yolgöstərəndir).[3]

---

[1] Nəhcül-bəlağə, 147-ci xütbə.
[2] Nəhcül-bəlağə, 109-cu xütbə.
[3] Səhifeyi-Səccadiyyə, 42-ci dua.

Həzrət Peyğəmbər (s) haqqında isə belə buyurur:

علماً للدلالةِ عليك

– Məhəmmədi (s) Sənə sarı (gəlməyə) bayraq (nişanə) qərar verdin.[1]

**13. Quranın sözü qətidir**

إنه لَقَولٌ فَصلٌ. وما هو بالْهزل

–Quran şübhəsiz, (haqla batili) ayıran qəti bir kəlamdır. Və əsla boş bir söz və zarafat deyildir![2]

Həzrət Əli (ə) İslam Peyğəmbəri (s) haqda buyurmuşdur:

فَهو إمام من اتقي و بصيرةُ من اهتدي... و سنته الرشد و كَلامه الْفَصلُ

–O həzrət pəhrizkarların rəhbəri, görənlərin gözünün işığı... Onun üslubu dözümlülük, istiqaməti isə hidayət və yol göstərməkdir. Onun sözü (haqqı batildən) ayırandır.[3]

**14. Quran səmavi kitabları təsdiq edən və qoruyandır**

وأنزلْنا إلَيك الْكِتاب بالْحق مصدقًا لما بين يديهِ مِن الْكِتابِ ومهيمِنا عليهِ

–Biz bu kitabı sənə haqq və doğru olaraq özündən əvvəlki (səmavi) kitabları təsdiq edən və onlara hakim, nəzarətçi, qoruyan və şahid kimi nazil etdik.[4]

Həzrət Əli (ə) İslam Peyğəmbəri (s) haqqında buyurur:

فَإن اللهَ سبحانه بعثَ محمداً صلي اللهُ عليهِ و آلِهِ نذيراً لِلْعالَمين و مهيمِناً علي الْمرسلِين.

---

[1] Səhifeyi-Səccadiyyə, 42-ci dua.
[2] Tariq surəsi, 13-14-cü ayələr.
[3] Nəhcül-bəlağə, 94-cü xütbə.
[4] Maidə surəsi, 48-ci ayə.

–Həqiqətən, Allah-taala Məhəmmədi (s) bəşəriyyəti (ilahi əzabdan) qorxudan və peyğəmbərlərə şahid kimi göndərmişdir.[1]

**15. Quran şəfadır**

Allah-taala "İsra" surəsinin 82-ci ayəsində buyurur:

وننزلُ مِن الْقُرآن ما هو شِفَاء ورحمةٌ للْمؤمِنين

–Biz Qurandan möminlər üçün (mənəvi və ictimai xəstəliklərə) şəfa və rəhmət olan şeyi nazil edirik.

İslam Peyğəmbəri (s) də şəfavericidir. Həzrət Əli (ə) buyurur:

طَبيب دوار بِطِبِهِ قَد أحكَم مراهِمه و أحمي مواسِمهُ يضع مِن ذَالك حيثُ الْحاجةُ إلَيه...

–İslam Peyğəmbəri (s) öz tibbi və müalicəsilə həmişə gəzən (ruhani) bir təbibdir. Məlhəmlərini gücləndirərək hazırlamış, alətlərini qızdıraraq basmışdır. Lazım olan hər yerdə məlhəmlərini, dağ çəkən alətlərini müalicəyə ehtiyacı olan yaralı yerlərin üstünə qoyar...[2]

Quranın necə şəfalı olması barədə çox danışmaq olar. Quran bütün dərdlərin dərmanıdır. Quranını neçə neçə insana şəfa vermәsinin dəfələrlə şahidi olmuşuq. Lakin çox təəssüflər olsun ki, çox insanlar özlərinin be şəfadan məhrum etmişlər.

Mərhum Ayətullah Dəstğeyb Şirazi böyük alimlərdən biri idi. Bir çox kitabların müəllifidir. O, mübariz alimlərdən biri idi. Cümə namazına gedərkən terrorçu tərəfindən şəhid edilmişdi. Dəstğeyb ağa öz kəfənini də əvvəlcədən hazırlamışdı. İldə bir neçə dəfə açıb ona baxırdı. Kəfən üç parçadan

[1] Nəhcül-bəlağə, 62-ci məktub.
[2] Nəhcül-bəlağə, 107-ci xütbə.

ibarət olduğu halda, o, əlavə olaraq böyük bir parçadan bir kisə də düzəldib kəfəninin içinə qoymuşdu. Həyat yoldaşı onu nəyə görə hazırladığını soruşduqda ağa ona heç bir söz demirdi. O, şəhid olandan sonra böyük oğlu anasından kəfəni istədi. Həyat yoldaşı deyirdi ki, onun kəfənini bir boxçaya qoymuşdum. Həmin kisə kəfənə daxil olmadığına görə onu götürdüm və qalan parçaları ona verdim. Ağanı kəfənə büküb dəfn etdilər. Gecə ağanı yuxuda gördüm. Mənə belə dedi: "Məndən kisəni nəyə görə kəfənə artırdığımı soruşanda sənə cavab vermirdim. Mənim bədənimin bir parçası (partlayış nəticəsində) qapının arxasına düşüb. Oğluma de, onu götürüb qüsul versin və həmin kisəyə büküb dəfn etsin. Bu kisəni onun üçün saxlamışdım."

Ayətullah Dəstğeyb şəhid olmazdan illər öncə belə bir əhvalat danışardı: "Şiraz şəhərində yoluxucu bir xəstəlik yayılmışdı. Alimlərdən biri dedi: "İsra" surəsinin 82-ci ayəsini oxumaqla insanlara şəfa verin." Hər bir xəstəyə həmin ayəni oxuduqsa, o, şəfa tapdı."

Ustad Həsənəli Mustafa Fələstindən olan ərəb yazarlarından biridir. O deyir ki, bir dəfə 18 yaşlı oğlum xəstələnmişdi. Həkimlər dedilər ki, müalicənin heç bir xeyri yoxdur. Uşağın anası və mənim atamla anam həyətdə dayanmışdılar. Mən uşağn yanına gəlib "Ayətəl-kürsü"nü və "Qul" kəlməsi ilə başlayan dörd surəni oxumağa başladım. Allah-taala elə bununla da oğluma şəfa verdi.

Mərhum Seyid Əhmədağa Xonsari böyük alimlərdən biri idi. Qum şəhərində dəfn olunmuşdur. Onu mədə xəstəliyi ilə xəstəxanaya aparmışdılar. Həkim onu əməliyyat etmək istəyir, lakin o, əməliyyat üçün ona (narkoz) iynəsi vurulmasına etiraz edir. Deyir ki, bu iynəni mənə vurmaq olmaz. Gözüm görə-görə məni əməliyyat edin. Səbəbini soruşduqda ağa deyir: "Mən müctehidəm, fitva vermişəm ki, xüms, zəkat yığmağa icazə verdiyim nümayəndələrimin fəaliyyəti mən huşdan

getdikdən sonra ləğv olunur.[1] Mənim isə yüzdən çox nümayəndəm var. Onlar mənim əvəzimdən müsəlmanlardan xüms alırlar. Əgər mən huşdan getsəm, siz məni huşa gətirənədək onların nümayəndəlikləri batil olacaqdır, halbuki onların bundan xəbərləri yoxdur. Onların nümayəndəlikləri batil olandan sonra xəbərləri olmadan gedib müsəlmanlardan xüms alsalar günaha batacaqlar. Narkoz iynəsi vurulmadan məni əməliyyat etməyinizə icazə verirəm."

Həkimlər ona deyirlər ki, ağa, biz iynədən, bıçaq və qayçıdan istifadə edəcəyik, bədənini kəsib tikəcəyik. Onların ağrıları sizi narahat edəcəkdir. Xonsari ağa deyir: "Siz əməliyyat aparan zaman mən Quran ayələrini oxuyacağam. "Ənam" surəsinə çatdığım zaman əməliyyata başlaya bilərsiz. Onda mənim xəbərim olmayacaq."

Ayətullah Xonsari 1400 ildən sonra Həzrət Peyğəmbərə (s) iman gətirən bir şəxs idi.

Odur ki, Quran şəfa olduğu kimi İslam Peyğəmbəri (s) şədadır. Kim Quranı Həzrət Peyğəmbərdən (s) ayıra bilər? Halbukı Quran elə onun özünə nazil olmuşdur?! Cənab Cəbrayıl (ə) ayələri oxuyarkən Həzrət Peyğəmbər (s) onu görürdü!

Həzrət Əli (ə) buyurur ki, Həzrət Peyğəmbərin (s) mübarək başı mənim dizimin üstündə idi. Cənab Cəbrayıl (ə) gəlib ayələri ona oxuyurdu və mən onu görürdüm. Həzrət Peyğəmbəri (s) Qurandan ayırmaq mümkün olmadığı kimi, elə Həzrət Əlidən (ə) və digər imamlardan da ayırmaq mümkün deyildir.

Qurani-kərim həm cismin və həm də qəlblərdəki küfrün, nifaqın, fasiqliyin şəfasıdır. O, insanlara azğınlıqdan şəfa

---

[1] Digər müctehidlərdən fərqli olaraq Ayətullah Xonsarinin fətvasına əsasən bir müctehidin dünyadan getməsi ilə nümayəndəlikləri ləğv olunduğu kimi, həmin müctehid huşdan gedərsə yenə də nümayəndəlikləri ləğv olunur.

verdiyi kimi, İslam Peyğəmbəri də (s) insanlar üçün şəfavericidir. İslam Peyğəmbəri (s) Quranın ayələri ilə insanları hidayət etməklə onlara şəfa verir.

Qeyd olunan ayə və hədislərdən belə məlum olur ki, Həzrət Peyğəmbəri (s) Qurandan ayırmaq olmaz. Həzrət Peyğəmbəri (s) Qurandan ayırmaq Peyğəmbəri (s) Peyğəmbərdən (s) ayırmaq deməkdir. Yəni Peyğəmbərin (s) ruhu Quran deməkdir. Peyğəmbər (s) Quranın ayələrindən (sözlərindən) ləzzət alırdı. Həzrət Peyğəmbərin (s) həqiqi ümməti də elə bu cürdür.

Kərbəlada o zalımlar çalışırdılar ki, Həzrət Peyğəmbəri (s) Peyğəmbərdən (s) ayırsınlar. Bəzi vaxtlar gün kimi aydın məsələləri elə dolaşdırırlar ki, nəticədə də insanları çaşdırırlar. Gecə namazı qılan, "Peyğəmbərə (s) qurban olum" – deyən, Peyğəmbərin (s) qəbrini öpən bir şəxs Həzrət Peyğəmbərin (s) qucağında böyüyən bir insanın başını "qürbətən iləllah" deyib kəsdi.

*Şəhe elmü fəzli avam öldürür,*
*Vilayət məqamın məqam öldürür.*
*Səlat əhli sidqü səlam öldürür,*
*Deyir "ya Məhəmməd", imam öldürür.*

# İSLAM PEYĞƏMBƏRİ (S) VƏ ƏHLİ-BEYT (Ə) QURANLA EYNİDİRLƏR

*Cövhəri qeyrət tələb etsən əgər Abbasa bax,*
*İstəsən ruhi şücaətdən xəbər Abbasa bax.*

*Şəmsi görmək istəsən mövla Hüseynə qıl nəzər,*
*Keçsə zehnindən əgər taysız qəmər Abbasa bax.*

*Bir qolun İslam edib tərif, iman bir qolun,*
*İstəsən İslamü imandan xəbər Abbasa bax.*

*Hər zaman keçsə xəyalindən nəhayətsiz vəfa,*
*Məktəbi mövla Hüseynə qıl nəzər Abbasa bax.*

*Bilmiyirsən gər bəşər üstün yaranmış ya mələk,*
*Sən də birlikdə mələklən ey bəşər Abbasa bax.*

*Bilmirəm nə halə qalmışdı o qeyrət qaməti,*
*Bir-birə əhli səma söylərdilər Abbasa bax.*

*Seyyida, gər səndə talibsən əzadar olmağa,*
*Meydana qolsuz yıxılmış bahünər Abbasa bax.*

Yuxarıda qeyd etdik ki, İslam Peyğəmbəri (s) ilə Quran eynidir. Yəni, bir sözü istər Həzrət Peyğəmbər (s) desin, istərsə də Quran, hər ikisi eyni məna kəsb edir. Bir sözün yarısını Həzrət Peyğəmbər (s) buyursun, yarısını da Quran, yenə də eyni şeydir. Həmçinin bir sözün əvvəlini (məsələn, namazın vacib olduğu barədə) Quran başlasın, qalanını isə İslam Peyğəmbəri (s) söyləsin, yenə də eyni şeydir. Həzrət Peyğəmbərin (s) həm sözü, həm də rəftar və hərəkətləri Quranla eynidir. Onun həm kəlamı və həm də əməli insanlar üçün höccətdir.

Burada qarşıya bir neçə sual çıxır. Onlardan biri budur ki, biz Peyğəmbərin (s) sözlərinin və hərəkətlərinin höccət olduğunu bildik. Bu barədə müsəlmanlar arasında heç bir

ixtilaf yoxdur. Görəsən, Həzrət Peyğəmbərin (s) vəfatından sonra necə olacaq?

إنك ميت وإنهم ميتونَ

–Şübhəsiz, sən də öləcəksən, onlar da öləcəklər.[1]

Bilirik ki, İslam dini əbədi bir dindir. Həmçinin İslam Peyğəmbəri (s) də qiyamət gününədək gələn bütün insanların peyğəmbəridir. Quran da ümumbəşəri bir kitabdır.

Məlumdur ki, İslam Peyğəmbəri (s) 23 il müddətində Quranı təfsir etdi və 23 ildən sonra dünyadan köçdü. Bəs, görəsən əbədiyyət necə oldu? Yuxarıda qeyd etdik ki, Quran üç qisimdir: sakit (samit) Quran, danışan (natiq) Quran və canlı Quran. Həzrət Peyğəmbər (s) dünyasını dəyişəndən sonra sakit (samit) Quran əlimizdə qaldı, bəs o iki qismi necə oldu? Qurana bir natiq lazım idi və məgər bu natiq yalnız 23 il müddətində olmalıydı? Bəs, qiyamət gününədək dünyaya gələcək insanlara Quranı izah edəcək bir şəxs lazım deyilmi? Quran həmişə insanlara bir nümunə göstərmişdir. İslam Peyğəmbərinin (s) əməlləri insanlar üçün həmişə bir nümunədir. Onun əxlaqı Quranın ayələrinin eynidir. Bu nümunə 23 il müddətində insanları hidayət etdi, bəs ondan sonra görəsən insanlara nümunə lazım deyilmi? Bəs, Həzrət Peyğəmbərin (s) vəfatından sonra bütün bu məsələlər necə olacaqdır?

İkinci sual isə belədir ki, bəs görəsən, İslam Peyğəmbəri (s) bu barədə nə söyləmişdir? Görəsən, bu sual Həzrət Peyğəmbərin (s) vəfatından sonra yaranıb, yoxsa elə o həzrətin dönəmində də var idi və bu sual Həzrət Peyğəmbərə (s) verilmişdirmi? Görəsən, İslam Peyğəmbəri (s) bu sualın cavabında nə söyləmişdir? Əgər Həzrət Peyğəmbər (s) bu haqda bir söz söyləmişdirsə, deməli Quran da elə həmin sözü demişdir. Görəsən, Quran və Həzrət Peyğəmbər (s)

---

[1] Zumər surəsi, 30-cu ayə.

Allahın Rəsulunun (s) vəfatından sonrakı illər barədə nə buyurmuşdur?

Bu kimi suallara cavab olaraq deyirik ki, bizim, yəni Həzrət Peyğəmbərin (s) vəfatından sonra Həzrət Əlini (ə) onun canişini qəbul edənlərin əqidəsinə əsasən, İslam Peyğəmbəri (s) dünyasını dəyişməmişdən əvvəl İmam Əlini (ə) öz yerinə canişin təyin etmişdir. İslam Peyğəmbərinin (s) 23 il çəkdiyi əzab-əziyyətlərdən sonra öz yerinə heç bir kəsi canişin təyin etmədən dünyadan köçdüyünü düşünmək əlbəttə ki, məntiqdənuzaq və ağlasığmaz bir məsələdir.

Aydın məsələdir ki, İslam Peyğəmbərinin (s) öz yerinə canişin təyin etməsinə dair fikir elə Həzrətin (s) öz dili ilə açıq şəkildə bəyan edilmişdir və bu haqda həmçinin hədislər və sənədlər də mövcuddur. Eyni zamanda Quran ayələrində işarə ilə və bəzi ayələrdə isə ad çəkilmədən açıq-aşkar Həzrət Peyğəmbərin (s) canişin təyin etməsi bəyan edilmişdir.

## Nübüvvətdən sonra müsəlmanların təklifi

Həzrət Peyğəmbərin (s) canişini elə bir şəxs olmalıdır ki, onun elmi Peyğəmbərin (s) elmi,[1] isməti də Peyğəmbərin (s) isməti kimi olsun. Eləcə də Həzrət Peyğəmbər (s) məsum olduğu kimi, onun canişini də məsumluğu ilə seçilməlidir. Yəni günahlardan uzaq olmalı və yanlışlıqlara yol verməməlidir.

Bizim əqidəmizə əsasən, Həzrət Peyğəmbərin (s) təyin etdiyi canişini, eləcə də onun vilayətini qəbul etmək bilavasitə iman məsələsilə bağlıdır. İmanın şərtlərindən də biri budur ki, insan gərək Həzrət Peyğəmbərin (s) təyin etdiyi canişinin vilayətini qəbul etsin. Əgər onu qəbul etsə, mömin sayılır, qəbul etməsə isə sadəcə olaraq müsəlman hesab edilir.

Əziz İslam Peyğəmbəri (s) Həzrət Əliyə (ə) buyurur:

---

[1] Yəni təhsil almadan, müəllim yanında dərs almadan hər şeyi bilir.

يا عَلِي حبك إِيمانٌ و بغضك كُفْرٌ لا يحبك إِلاّ مؤمِن و لا يبغضِك إِلاّ منافِق

–Ey Əli! Səni sevmək imandandır, sənə qarşı olan kin-küdurət küfrdəndir. Səni yalnız möminlər sevər, sənə qarşı yalnız münafiqlərin kin-küdurəti olar.

Başqa bir hədisdə belə buyurmuşdur: "Əliyə (ə) "Əmirəl-möminin" nə vaxt deyildiyini bilsəydiniz, heç bir vaxt onun fəzilətlərini danmazdınız."

"Adəm (ə) ruhlar aləmində olanda Allah-taala ondan əhd-peyman alandan sonra buyurdu: "Ey Adəm (ə)! Mən sənin Rəbbinəm, Məhəmməd (s) sənin peyğəmbərindir, Ələ (ə) də sənin əmirindir."

Bəziləri bu məsələyə irad tutaraq deyirlər ki, bu sozun təsdiqi oıaraq bizim üçün filan kitabdan subut gətirin. Cavabında deyirik ki, sizin dediyiniz həmin filan kitab goydən nazil olmayıb. Nə üçün sənin yazdığın kitabdan sənin üçün dəlil gətirməliyəm? Sənə sərf edən məsələləri bir kitaba toplayıb, axırda da hər hansı bir məsələ üçün öz yazdığın kitabdan subut istəyirsən. Bu heç bir ağıla sığan bir şey deyil. Yaxşısı budur sən öz yazdığın kitabdan öncə yazılmış mənbə kitablarına bax. Bax gör onlarda nə yazılmışdır. Bax gör Peyğəbərin (ə) və Həzrət Əlinin (ə) zamanında Peyğəmbər (ə) onun barəsində nə söyləyib? Belə deyil ki, hər yerindən duran özünə sərf elədiyi bir kitab yazsın, sonradan hər bir şeyi qəbul etmək üçün başqalarından həmin kitabdan subut gətirmələrini istəsin. Hətta bəziləri kitab yazmalarına baxmayaraq zaman keçdikcə onu saf-çürük edirlər. Hansı məsələlər yenə də onlara sərf etmirsə, onu da həmin kitabdan çıxarırlar. Buna daha din deməzlər. Din o deyil ki, kimlərsə gəlib ona siyasət təyin etsinlər. İnsanlara siyasəti din təyin etməlidir, nəinki insanlar dinə siyasət təyin etsinlər.

Allah-taala “Bəqərə” surəsinin 189-cu ayəsində belə buyurur:

وليس الْبِر بِأَنْ تأتوا الْبيوت مِن ظُهورِها ولَـكِن الْبِر منِ اتقَى وأْتوا الْبيوت مِن أَبوابِها واتقُوا اللّه لَعلَّكُم تفْلِحونَ

–Həmçinin yaxşılıq (düzgün hərəkət) evlərə onların arxa tərəfindən daxil olmağınız deyil və lakin yaxşılıq (günahdan) çəkinən şəxs(in əməli)dir. Evlərə onların qapısından daxil olun və Allahdan qorxun, bəlkə nicat tapasınız.

Söylədiyimiz ayədən məlum olur ki:

1. Hər bir iş üçün gərək düzgün yoldan istifadə olunsun. Əyri yolla məqsədə çatmaq olmaz. İstər dini məsələ olsun, istər qeyri dini;

2. Yaxşı əməlləri əldə etmək üçün onun əhlinin sorağına getmək lazımdır.

Bu ayədəki “qapı” kəlməsində məqsəd təkcə evin qapısı deyil. Əgər belə olsaydı – “Allahdan qorxun” ifadəsinin sərahətlə işlənməsinə nə ehtiyac var idi?! Bu ayə nazil olandan sonra Həzrət Peyğəmbər (s) buyurdu:

أنا مدِينةُ الْعِلْمِ و عِلي بابها و لا يؤتي الْمدِينةَ إلاّ مِن بابِها

–Mən elmin şəhəriyəm, Əli də onun qapısıdır. Şəhərə yalnız qapısından daxil olarlar.

Yəni əgər elmin şəhərinə qapıdan daxil olmaq istəyirsinizsə, həmin qapı Əlidir (ə). Başqa bir hədisdə isə Həzrət (s) belə buyurur:

أنا مدِينةُ الْعِلْمِ و عِلي بابها فَمن أَراد الْمدِينةَ فَلْيأْتِيهِ مِن بابِهِ

–Mən elmin şəhəriyəm, Əli də onun qapısıdır. Şəhərə daxil olmaq istəyən hər bir kəs qapısından daxil olsun.

Həzrət Əli (ə) “Nəhcül-bəlağə”nin 153-cü xütbəsində buyurur:

قَد خاضوا بِحار الْفِتنِ و أخذُوا بِالْبِدعِ دونَ السننِ و أرز الْمؤمِنونَ و نطَق الضالونَ الْمكَذبونَ. نحن الشعار و الْأصحاب و الْخزنةُ و الْأبواب و لا تؤتي الْبيوت إِلاّ مِن أبوابِها فَمن أتاها مِن غَير أبوابِها سمي سارِقاً.

–İkiüzlü insanlar fitnə dənizlərinin dibinə gömülmüş (azğınlıq yolunu tutaraq başqalarını da azdırmış) və sünnələrə göz yumaraq bidətlərdən yapışmışlar. Möminlər (fitnənin yarandığını görüb) bir kənara çəkilərək sakit dayanmış və azğın yalançılar dil açmışlar. Biz Əhli-beyt (Peyğəmbərə (s) yaxınlığa görə onun bədənində) köynək kimiyik, səhabələriyik. Biz onun xəzinədarı və (elmə, maarifə açılan) qapılarıq. Evlərə onların qapılarından qeyri yerdən daxil olmaq olmaz. Evlərə qapıdan savayı başqa yerlərdən girənlərə oğru deyərlər.

Bu sözləri söyləyən dördüncü xəlifə idi. Əgər o zaman bu hadisələr olmasaydı, bəs niyə o, belə söyləyirdi?!

Bir daha qeyd edirik ki, bizim əqidəmizə əsasən:

1. Yer üzü heç bir vaxt höccətsiz olmayıb və olmayacaq;
2. Yer üzündə Quranın danışan dili və onu təfsir edənin olmaması mümkün deyil;
3. Quranın əməl baxımından nümunəsi mütləq yer üzündə olmalıdır;
4. Həmçinin yer ilə göy aləminin rabitəsi heç bir vaxt qırılmayıb və qırılmayacaqdır.

Allah-taalanın təyin etdiyi höccət yer ilə göy aləminin arasında bir vasitədir. Onlar (Allahın təyin etdiyi höccətlər) İslam Peyğəmbərinin (s) bədəninin hissələri kimidir. Onlar Həzrət Peyğəmbərə (s) və Qurana elə qarışmışlar ki, onları Peyğəmbər (s) və Qurandan ayırmaq mümkün deyil. Yəni necə ki, hər kəs Həzrət Peyğəmbəri (s) Qurandan ayırsa, Quranı Qurandan ayırmış kimi sayılır, eləcə də hər kəs onları Qurandan ayırsa, Quranın bir hissəsini digər bir

hissəsindən ayırmış kimi hesab edilir. Onlar həm Quranın və həm də Peyğəmbərin (s) ayrılmaz tərkib hissəsidir. Onların həm sözləri və həm də rəftarları höccətdir. Onlar Quranın həm danışan dili və həm də mücəssəməsidirlər. Yalnız nübüvvət məqamları yoxdur. Elə bu səbəbdən də İmam Zamana (ə.c) salam verərkən deyirik:

السلام عليك يا صاحب الزمان. السلام عليك يا شريك الْقُران

–Salam olsun sənə, ey zəmanənin sahibi! Salam olsun sənə, ey Quranın şəriki!

## Əhli-beytlə (imamlarla) (ə) Qurani-kərimin şərikliyi

**1. Hər ikisi Həzrət Peyğəmbərin (s) yadigarıdır**

Yəni İslam Peyğəmbəri (s) dünyasını dəyişən zaman hər ikisini müsəlmanlara əmanət olaraq tapşırmışdır.

إني قد تركْتث فيكم الثّقلين ما إنْ تمسكْتم بهما لن تضِلوا بعدِي و أحدهما أكبر مِن الآخر كتاب الله حبلٌ ممدود من السماء إلى الأرض، وعِترتي أهل بيتي، ألَا وإنهما لن يفترقا حتى يردا علي الحوض

–İki şeyi sizin aranızda əmanət qoyaraq sizi tərk edirəm. Əgər onlardan möhkəm yapışsanız, məndən sonra heç bir vaxt yolunuzu azmayacaqsınız. Onlardan biri digərindən böyükdür. Allahın kitabı, (o) göydən yerə uzadılmış bir ipdir və (ikincisi) mənim Əhli-beytimdir. Bilin ki, onlar cənnətdə Kövsər hovuzunda mənə qovuşana qədər heç bir vaxt bir-birilərindən ayrılmayacaqlar.

Bu hədisi bütün müsəlmanlar qəbul edirlər və hədis yüzdən artıq sənədlə nəql olunmuşdur.

**2. Hər ikisi nurdur**

Quranın nur olması haqqında deyilir:

يا أيها الناس قد جاءكم برهانٌ من ربكم وأنزلنا إليكم نورا مبين

–Ey insanlar, həqiqətən, Rəbbinizdən sizə (peyğəmbər, din və onun möcüzələri kimi) bir dəlil-sübut gəlmişdir. Və sizin üçün aşkar və aydınlıq gətirən bir nur (Quran) nazil etdik.[1]

Başqa bir ayədə deyilir:

قد جاءكم من اللّهِ نور وكِتاب مبين

–Həqiqətən, Allah tərəfindən sizə bir nur və (özü) aydın (olan) və aydınlıq gətirən bir kitab gəlib.[2]

Həzrət Əli (ə) Quranı vəsf edərək buyurur:

جعله الله رِياً لِعطش الْعلماءِ و رِبيعاً لِقلُوبِ الْفقهاءِ و محاج لِطرق الصلحاءِ و دواءً ليس بعده داءٌ و نوراً ليس معه ظلْمةٌ...

–Allah onu (Quranı) alimlərin susuzluqlarının yatırıcısı, müctəhidlərin qəlblərinin baharı, yaxşıların yollarının məqsədi və sonu, sonradan ağrısı qalmayan dərman, onunla zülmət olmayan nur qərar verib.[3]

Həmçinin Əhli-beyt (ə) də bir nurdur. İslam Peyğəmbərinin (s) və imamların kəlamlarına əsasən, bütün imamlar nurdur. İmam Baqir (ə) – “Elə isə Allaha, Onun Rəsuluna və nazil etdiyimiz nura (Qurana) iman gətirin!”[4] ayəsi haqda buyurmuşdur:

النور و اللّهِ الْأئمةُ مِن آل محمدٍ صلي الله عليهِ و آلِهِ إلى يومِ الْقِيامةِ و هم و اللّهِ نور اللّهِ الّذِي أنزلَ و هم و اللّهِ نور اللّهِ فِي السماواتِ و فِي الْأرض

---

[1] Nisa surəsi, 174-cü ayə.
[2] Maidə surəsi, 15-ci ayə.
[3] Nəhcül-bəlağə, 189-cu xütbə.
[4] Təğabun surəsi, 8-ci ayə.

–And olsun Allaha! Nurda məqsəd qiyamət gününə qədər Məhəmmədin (s) övladlarından olan imamlardır. And olsun Allaha! Nazil olunmuş nur onlardır. And olsun Allaha! Yerdə və göylərdə olan nur onlardır.

Həzrət Peyğəmbərin (s) əmisi Abbas deyir:

فَكَيف كَانَ بدء خلقكم يا رسول الله؟ فَقالَ: يا عم يا عم لمّا أراد الله أن يخلقنا تكلّم بكلمة خلق منها نوراً، ثمّ تكلّم بكلمة أخرى فخلق منها روحاً، ثمّ مزج النور بالروح، فخلقني وخلق علياً وفاطمة والحسن والحسين، فكنا نسبحه حين لا تسبيح، ونقدسه حين لا تقديس لَما أراد الله تعالى أنْ ينشِئَ خلْقَه فَتق نوري فَخلَق مِنه الْعرش فَالْعرش مِن نوري و نوري مِن نورِ اللهِ و نوري أَفْضلُ مِن الْعرشِ ثُم فَتق نور أَخِي عِلِي فَخلَق مِنه الْملَائِكَةَ فَالْملَائِكَةُ مِن نورِ عِلِي و نور عِلِي مِن نورِ اللهِ و عِلِي أَفْضلُ مِن الْملَائِكَةِ ثُم فَتق نور ابنتي فَخلَق مِنه السماواتِ و الْأَرض فَالسماوات و الْأَرض مِن نورِ ابنِتي فَاطِمةَ و نور ابنِتي فَاطِمةَ مِن نورِ اللهِ و ابنِتي فَاطِمةُ أَفْضلُ مِن السماواتِ و الْأَرضِ ثُم فَتق نور و لَدِي الْحسنِ فَخلَق مِنه الشمس و الْقَمر فَالشمس و الْقَمر مِن نورِ ولَدِي الْحسنِ و نور الْحسنِ مِن نورِ اللهِ و الْحسن أَفْضلُ مِن الشمسِ و الْقَمرِ ثُم فَتق نور و لَدِي الْحسينِ فَخلَق مِنه الْجنةَ و الْحور الْعِين ، فَالْجّنةُ والْحور الْعِينِ مِن نورِ ولَدِي الْحسينِ، ونور ولَدِي الْحسينِ مِن نورِ اللهِ، و ولَدِي الْحسين أَفْضلَ مِن الْجّنةِ والْحورِ الْعِينِ.

–Bir gün o həzrətdən soruşdum: “Yaradılışın başlanğıcı necə olmuşdur?” Həzrət (s) buyurdu: “Allah hər şeydən qabaq bizi xəlq etdi. Əvvəlcə bir nur yaratdı. Sonra ruhu yaratdı. Onları bir-birinə birləşdirərək məni, Əlini (ə), Fatiməni (s) və Həsəneyni (ə) yaratdı. Biz ibadətlə məşğul idik. Sonra

məxluqatı yaratmaq istədikdə mənim nurumu iki yerə bölüb ondan ərşi yaratdı. Ərşin nuru mənim nurumdan, mənim nurum isə Allahın nurundandır. Elə bu səbəbdən mənim nurum ərşdən fəzilətlidir. Sonra Əlinin (ə) nurunu bölüb ondan mələkləri yaratdı. Mələklərin nuru Əlinin (ə) nurundan, Əlinin (ə) nuru isə Allahın nurundandır. Buna görə də Əli (ə) mələklərdən fəzilətlidir. Daha sonra Fatimənin (s.ə) nurunu bölüb yer və göyləri yaratdı. Fatimənin (s.ə) nuru Allahın nurundan, yer və göylərin nuru Fatimənin (s.ə) nurundandır. Buna görə də Fatimə (s.ə) yer və göylərdən fəzilətlidir. Həsənin (ə) nurunu bölüb ondan günəşlə ayı xəlq etdi. Günəşlə ayın nuru Həsənin (ə) nurundan, Həsənin (ə) nuru isə Allahın nurundandır. Ona görə də Həsən (ə) günəş və aydan fəzilətlidir. Daha sonra Hüseynin (ə) nurunu bölüb ondan cənnəti və huriləri yaratdı. Cənnətlə hurilərin nuru Hüseynin (ə) nurundan, Hüseynin nuru isə Allahın nurundandır. Buna görə də Hüseyn (ə) cənnət və hurilərdən fəzilətlidir.

Tasua günü İmam Hüseyn (ə) Əbülfəzl ağaya buyurdu ki, gəl cənnətdəki məqamına bax. Gördülər ki, Əbülfəzl ağa baxmır. O, İmam Hüseynin (ə) mübarək camalına baxırdı. Soruşdu ki, cənnətdəki məqamına niyə baxmaq istəmirsən? Həzrət Əbülfəzl ağa buyurdu: “Mənim cənnətim sənsən.”

**3. Hər ikisi hidayət yoluna və nicat tapmağa vəsilədirlər**

Allah-taala Maidə surəsinin 16-cı ayəsində belə buyurur:

يهدِي بِهِ اللّه منِ اتبع رِضوانه سبلَ السلاَمِ ويخرِجهم منِ الظلُماتِ
إِلَى النورِ بِإِذْنِهِ ويهدِيهم إِلَى صِراطٍ مستقِيمٍ

–Allah (iman gətirib) Onun razılığına tabe olanları o (nur və kitabın) vasitəsilə salamatlıq yollarına hidayət edir. Onları

Öz köməyi ilə qaranlıqlardan (küfr, nifaq və itaətsizlik zülmətlərindən) nura tərəf çıxardır və doğru yola hidayət edir.[1]

İslam Peyğəmbəri (s) Quran haqqında buyurur:

ِانْ أردتم عِيش السعداء و موت الشهداء و النجاة يوم الْحسرةَ ... قَادرسوا الْقُرانَ...

–Əgər (dünyada) xoşbəxt insanlar kimi yaşamaq, öləndə şəhidlər kimi ölmək, həsrət günü nicat tapmaq istəyirsinizsə, Quranı öyrənin.

Əhli-beytin (ə) haqqında da bu kəlam deyilmişdir. İslam Peyğəmbəri (s) buyurmuşdur:

ِإنما مثَلَ أهل بيتي كَمثَلِ سفِينة نوح من ركِبها نجا و من تخلف عنها غَرِق

–Həqiqətən, mənim Əhli-beytimin məsəli Nuhun gəmisinin məsəli kimidir. Hər kim ona minsə, nicat tapar və hər kim onlarla müxalifətçilik etsə, boğular.

Həzrət Peyğəmbər (s) başqa bir hədisdə belə buyurur:

ِإن الْحسين مِصباح الْهدي و سفِينةُ النجاة

–Həqiqətən, Hüseyn hidayət çırağı və qurtuluş gəmisidir.

*Buyurdu xətmi ənbiya səfinətun nəca Hüseyn,*
*Çirağî rahnüma Hüseyn, həqiqətur rəca Hüseyn.*
*Əlində nur pərçəmi qədəm qoyanda məhşərə,*
*Şəfii əhli həqqidür, həbibi Kibriya Hüseyn.*

Quran insanlara nicat verdiyi kimi, Əhli-beyt (ə) də insanlara nicat verir.

[1] Maidə surəsi, 16-cı ayə.

**4. Hər ikisi insanlara şəfa verir**

Yunus surəsinin 57-ci ayəsində belə buyurulur:

يا أيها الناس قَد جاءتكُم موعِظَةٌ من ربكُم وشِفَاء لما فِي الصدورِ وهدى ورحمةٌ للْمؤمِنين

–Ey insanlar, şübhəsiz, Rəbbiniz tərəfindən sizin üçün bir öyüd-nəsihət (başdan-başa öyüd-nəsihət olan bir kitab), sinələrdə olan (xarab əqidələr və rəzil sifətlər) üçün bir şəfa və möminlər üçün bir hidayət və mərhəmət gəlmişdir.[1]

Həzrət Əli (ə) Quran haqqında buyurur:

قَاستشفُوه مِن أدواِئكثم و استِعينوا بِهِ علَي لأواَئكُم قَإن فِيهِ شِفاءً مِن أكْبِرِ الداءِ و هو الْكُفْر و النفاق و الْغي و الضلالُ.

–Buna görə də (zahiri və batini, ruhi və cismani) xəstəlik və dərdlərinizin sağalmasını ondan istəyin və çətinliklərdə, bəlalara məruz qalanda ondan kömək diləyin. Çünki Quranda ən böyük xəstəlik olan küfr, nifaq, fəlakət və azğınlıq üçün şəfa və əlac mövcuddur.[2]

Əhli-beyt (ə) və imamlar da şəfavericidirlər. İnsanların şəfası onların əlindədir. Onlar üç növ şəfa verirlər:

a) İnsanları hidayət etməklə küfr və nifaq kimi xəstəliklərdən şəfa verirlər;

b) İnsanların cismani xəstəliklərinə şəfa verirlər;

Bu hadisə tarix boyu çox baş vermişdir. Həzrət Peyğəmbər (s), Həzrət Əli (ə), İmam Həsən (ə) və İmam Hüseyn (ə) nə vaxt xəstənin yanında əyləşib əllərini onun başına çəksəydilər, həmin xəstə şəfa tapardı.

Bir gün bir qrup insan Həzrət Peyğəmbərin (s) yanına gəlib dedilər: "Həzrət İsa (ə) ölüləri dirildərdi, sən də bunu edə bilərsənmi?" İslam Peyğəmbəri (s) Həzrət Əlini (ə) çağırıb

---

[1] Yunis surəsi, 57-ci ayə.

[2] Nəhcül-bəlağə, 175-ci xütbə.

buyurdu: “Get bunlarla qəbiristanlığa, hansı qəbri göstərsələr, qəbir sahibinə de qalxsın.” Həzrət Əli (ə) onlarla getdi. Köhnə bir qəbrin yanında dayandılar. Onların arasındakı yaşlılar dedilər ki, bu şəxs 40 il bundan qabaq dünyadan köçüb. Biz onu həyatda olarkən görmüşdük, onu dirilt. Həzrət Əli (ə) onun qəbrinin yanında iki rükət namaz qıldı və sonra üzünü qəbrə tutaraq – “Allahın iznilə qalx” –deyə söylədi. Birdən gördülər ki, qəbirdən qoca bir kişi qalxıb “Mənimlə nə işin var, ey Allahın vəlisi”, – deyə soruşdu. Ordakılar bunu görüb çox təəccübləndilər və “Bizim artıq heç bir söz deməyə ixtiyarımız yoxdur”, – deyə söylədilər.

c) İmam Hüseynin (ə) türbəti şəfavericidir

İmam Sadiq (ə) buyurmuşdur:

طِين قَبِر الْحسين علَيهِ السلام شفاءٌ مِن كُل داءٍ

–İmam Hüseynin (ə) türbəti bütün xəstəliklərə şəfavericidir.

Hətta türbətdən istifadə edərkən onun xüsusi bir duası vardır. Hər bir xəstə şəfa tapması üçün onu yediyi zaman belə deməlidir:

بسمِ اللهِ وبِاللهِ اَللّهم اجعلْه رِزقاً واسِعاً وعِلْماً نافِعاً وشِفاءً مِن كُل داءٍ

إنك على كُل شيءٍ قَدير

Əgər həmin türbəti xəstənin bədəninə sürtmək istəsə belə deməlidir:

اللهم بِحق هذِهِ التربِةِ وبِحق من حل فِيها, وثَوى فِيها, وبِحق جدهِ

وأَبِيهِ وأُمِهِ وأَخِيهِ والْأَئمةِ مِن ولْدِهِ وبِحق الْملَائِكَةِ الْحافين إِلا جعلْتها شِفَاءً

مِن كُل داءٍ, وبراءً مِن كُل آفَةٍ وحِرزاً مِما أَخاف وأَحذَر

Onu da qeyd etmək lazımdır ki, şəfanın mənası təkcə biz söylədiklərimiz deyil. Onun çox böyük mənası vardır.

**5. Hər ikisinə baxmaq ibadət sayılır**

İmam Sadiq (ə) Quran haqqında buyurmuşdur:

لَيس شيءٌ أشد علَي الشيطان مِن الْقَرائَةِ فِي الْمصحف نظَراً

–Şeytan üçün insanın Qurana baxıb (üzündən) oxumasından ağır bir şey yoxdur.

Başqa bir hədisdə belə buyurur:

من قَرأَ الْقُرانَ فِي الْمصحف متع بِبصرِه و خفف علَي والِديه و اِنْ كانا كافِرين.

–Hər kəs Quranı üzünə baxaraq oxusa, Allah-taala onun valideynlərinin əzabını azaldar, hətta kafir olsalar da belə.

Əhli-beytin (ə) üzünə baxmaq da ibadət sayılır. Abuzər deyir:

سمِعت رسولَ اللهِ صلَي اللهُ علَيهِ و آلِهِ يقُولُ: اَلنظَر اِلي علِي بن أَبي طالِبٍ عبادةٌ

–Rəsulullahın (s) belə söylədiyini eşitdim: "Əli ibn Əbutalibə baxmaq ibadətdir."

Bir gün Məaz ibn Cəbəl əyləşib diqqətlə Həzrət Əlinin (ə) üzünə baxırdı. Bir nəfər dedi: "Ey Məaz, Həzrət Əliyə (ə) elə baxırsan ki, sanki onu heç görməmisən." Məaz dedi: "And olsun Allaha, özüm Həzrət Peyğəmbərdən (s) eşitmişəm ki, Həzrət Əlinin (ə) üzünə baxmaq ibadətdir. Mən də ona görə Həzrət Əlinin (ə) üzünə baxıram."

**6. Hər ikisi imamdır**

Həzrət Əli (ə) buyurmuşdur:

علَيكُم بِالْقُرانِ فَاتخذُوه إِماماً قَائِداً

–Sizə Quranı tövsiyə edirəm. Ondan möhkəm yapışın, o, sizin imamınızdır.

İslam Peyğəmbəri (s) Həzrət Əlinin (ə) və imamların barəsində buyurmuşdur:

مرحباً بسيدِ الْمسلِمين و إمامِ الْمتقين

–Mərhəba müsəlmanların seyyidinə! Sonra əlini onun çiyninə qoyaraq buyurdu: Və təqvalıların imamına.

İslam Peyğəmbəri (s) buyurmuşdur:

ألا أدلكُم على ما إنْ تسالمتم عليه لم تهلكوا ، إن وليكُم و إمامكُم علي بن أبي طالبٍ عليه السلام ، فناصحوه و صدقُوه ، فإن جبرئيلَ عليه السلام أخبرني بذلك

–Sizə ondan yapışacağınız təqdirdə azmayacağınız və təhlükəyə düşməyəcəyiniz şəxs barəsində xəbər verimmi? Bu, sizin vəliniz və imamınız Əli ibn Əbitalibdir. Belə isə onu təsdiqləyin. Həqiqətən, bunu mənə cənab Cəbrayıl (ə) xəbər verdi.

İmam Əli (ə) imam Həsən (ə) və Hüseynin (ə) barəsində belə buyurmuşdur:

إبناي هذان إمامان قاما أو قعدا

–Mənim bu iki oğlum istər qiyam etsinlər, istər sükut etsinlər, imamdırlar.

**7. Hər ikisi qiyamət günü şəfaət edəcək**

İslam Peyğəmbəri (s) Quran barəsində buyurmuşdur:

تعلموا القُرانَ فإنه شافِع يوم القِيامة

–Quranı öyrənin, həqiqətən, o, qiyamət günü şəfaət edəcək.

Başqa bir hədisdə buyurulur:

فإنه شافِع مشفع و ماحِلٌ مصدق

–Həqiqətən o (Quran) şəfaəti qəbul olunan şəfaətçidir və şikayəti təsdiqlənən şikayətçidir.

Həzrət Peyğəmbər (s) və Əhli-beyt (ə) də qiyamət günü şəfaət edəcəklər. İslam Peyğəmbəri (s) buyurmuşdur:

لِكُل نبي دعوةٌ قَد دعا بِها و قَد سأَلَ سؤلًا و قَد خبأت دعوتي شفَاعةً لِأمتي يوم الْقِيامةِ

–Hər bir peyğəmbər Allah-taaladan bir xahiş (dua) etmişdir. Allah-taala da onun xahişini (duasını) qəbul etmişdir. Mən xahişimi qiyamət günü ümmətimin şəfaəti üçün saxlamışam.

Başqa bir hədisdə belə buyurmuşdur:

إِني أَشفَع يوم الْقِيامة فَأُشفع و يشفَع عَلِي فَيشفع و يشفَع أَهلِ بيتي فَيشفعونَ

–Həqiqətən, qiyamət günü mən şəfaət edəcəyəm və şəfaətim qəbul olunacaq. Əli şəfaət edəcək, onun da şəfaəti qəbul olunacaq. Əhli-beytim də şəfaət edəcək, onların da şəfaətləri qəbul olunacaqdır.

**8. Hər ikisi həmişə təzədir (heç vaxt köhnəlmir)**

Həzrət Əli (ə) Nəhcül-bəlağədə Quran haqda belə deyir.

و لا تخلِقُه كَثْرةُ الرد و ولُوج السمعِ

– (Dillərdə) çox təkrarlanmaqdan və qulaqları döyməkdən köhnəlməz.

Əhli-beytin (ə) mübarək kəlamları da həmişə təzədir. İmam Hüseynin (ə) müsibəti həmişə təzədir. İslam Peyğəmbəri (s) buyurmuşdur:

قَالَ رسولُ اللهِ صلى الله عليهِ و آلِهِ و سلم : اِن لِقَتلِ الْحسينِ حرارةً فِى قُلُوبِ الْمؤمِنِين لَا تبرد أبداً

–Həqiqətən, İmam Hüseynin (ə) şəhadətinə görə möminlərin ürəyində elə bir hərarət və istilik vardır ki, heç bir zaman sönməz və soyumaz.

**9. Hər ikisi möcüzə sahibidir**

Qurani-kərim İslam Peyğəmbərinin (s) əbədi möcüzəsidir. "Bəqərə" surəsinin 23-cü ayəsində deyilir:

وإن كُنتم في ريبٍ مما نزلْنا على عبدِنا فَأْتوا بسورةٍ من مثْلِهِ

–Əgər Bizim Öz bəndəmizə nazil etdiyimizə şəkkiniz varsa, siz də (fəsahət, kəlmələrinin gözəlliyi və bəlağət baxımından) bir surə gətirin.

"İsra" surəsinin 88-ci ayəsində isə buyurulur:

قُل لئِنِ اجتمعتِ الإِنس والْجِن على أن يأْتوا بمِثْلِ هـذَا الْقُرآنِ لاَ يأْتونَ بمِثْلِهِ ولَو كَانَ بعضهم لبعضٍ ظَهِير

–De: "Şübhəsiz, əgər insan və cin tayfası bu Quranın (kəlmə və məna baxımından) bənzərini gətirmək üçün bir yerə toplaşsa, hətta bir-birilərinə kömək və arxa olsalar da belə, onun bənzərini yarada bilməzlər."

**Möcüzə nədir?**

İmam Sadiq (ə) möcüzə haqqında buyurur:

الْمعجزةُ علامةٌ لله لا يعطِيها إلاّ أَنبياءه و رسله و حججه ليعرف بِهِ صِدق الصادق مِن كِذْبِ الْكاذِبِ.

–Möcüzə Allahın bir nişanəsidir. Onu doğru (peyğəmbərin) düz danışdığını və yalançının yalan danışdığını bilmək üçün yalnız peyğəmbərlərinə, göndərdiyi rəsullara və höccətlərinə vermişdir.

Əgər Həzrət İsa (ə) öz möcüzəsi ilə ölünü diriltməsəydi, heç bir kəs ona inanmazdı. Əgər Həzrət Musa (ə) əlindəki əsanı möcüzə sayəsində əjdahaya döndərməsəydi, heç bir kəs onun peyğəmbər olduğuna inanmazdı. İslam Peyğəmbərinin (s) möcüzələrindən biri də Qurani-kərimdir.

Əhli-beyt (ə) də möcüzə sahibidir. İslam Peyğəmbərinin (s) və onun Əhli-beytinin (ə) həyatlarının hər bir anı möcüzə ilə

doludur. "İsbatul hudat" ("Hidayətin sübutu") kitabında təkcə İmam Hüseynin (ə) 250 möcüzəsi qeyd edilmişdir.

Onların nütfələrinin qoyulması, analarının hamiləlik dövrü, dünyaya gəlmələri, imamət dövrü, şəhadətləri və hətta şəhadətlərindən qiyamətə qədər başdan-başa möcüzədir.

İmam Hüseynin (ə) bütün hərəkətləri möcüzə idi. Kərbəla hadisəsindən sonra o həzrətin yaralı başını nizəyə taxdılar. Bir nəfər deyir ki, İmam Hüseynin (ə) kəsilmiş başının nizədə ikən "Kəhf" surəsinin ayəsini oxuduğunu gördüm. Başqa birisi söyləyir ki, İmam Hüseynin (ə) kəsilmiş başı nizədə ikən "Allahu əkbər" deyirdi. Baş bədəndən ayrılsa, Quran ayəsini oxuya bilərmi?!

*Deyəndə səcdəsə Sübhanə Rəbbi,*
*Diriltdi vacibatü müstəhəbbi,*
*Dedi ləbbeyk ona zati mürəbbi,*
*Həbibi, uzkur ismi, təzdud hubbi,*
*Hüseyn canandan aldı bu cəvabi.*

*Edibdür səcdəsin yerdə o sərvər,*
*Dedi sər nizədə Allahu Əkbər.*

Başqa bir şeirdə hədislərə əsaslanaraq belə deyilir:

*Gecə Şamun yolunda düşdü ə'da,*
*Bir əl səmti səmadən oldi peyda,*
*Yazıb divar deyrəvi muhaba,*
*Ətərcu ummətun qətələt Hüseyna,*
*Şəfaətə cəddihi yovməl hesabi.*

Kərbəla əsirlərini Şama aparan sariban deyir ki, gecənin bir yarısı idi. İmam Hüseynin (ə) yaralı başı mənim əlimdə idi. Mən qabaqda gedirdim, karvan da ardımca gəlirdi. Gördüm səmadan bir əl çıxıb bu kəlmələri yazırdı:

أترجوا أمةٌ قتلت حسيناً شفَاعةَ جدهِ يوم الْحِسابِ.

–Bu ümmət Hüseyni öldürüb, hesab günü onun cəddinin şəfaətinə ümid bəsləyirlər?!

Elə bu səbəbdən də bəziləri qiyamət günü şəfaətin olacağını inkar edirlər. Çünki əgər qiyamət günü şəfaət olsa, ona heç bir faydası olmayacağını bilir.

*Deyir məmurilərdən bir siyah dil,*
*Kənari deyri ləşkər etdi mənzil,*
*Biz idik qırx nəfər şəmşir həmayil,*
*Hüseyn başinə müstəhfiz qəravil,*
*Gözətlərdük o rəsi müstətabi.*

*Özüm gördüm ginə heyni təmaşa,*
*Qələm əldə həmən əl oldi peyda,*
*Yazıb divari deyrə bi muhaba,*
*Məazəlləh la nultum yəqina,*
*Şəfaətə Əhmədə və Əbi Turabi.*

Ravi deyir ki, İmam Hüseynin (ə) başını aparmağı bizə həvalə etmişdilər. Biz qırx nəfər idik. Gecələr növbə ilə yatardıq. Gecələrin birində keşik çəkmək növbəsi mənə yetişdi. Gördüm bir əl səmadan çıxıb bu kəlmələri yazdı:

–And olsun Allaha! Peyğəmbrəin (s) və Əbi Turabın (ə) şəfaətinə nail olmağınız mümkün deyil.

Söylədiklərimiz İmam Hüseynin (ə) möcüzələrinin yalnız az bir hissəsidir.

**10. Hər ikisinin məclisində iştirak etmək ibadət sayılır**

İslam Peyğəmbəri (s) Quran məclisində iştirak etməyin savabı haqqında buyurmuşdur:

ما اجتمع قَوم ِفي بيتٍ ِمن بيوتِ اللهِ يتلُونَ ِكتاب اللهِ و يتدارِسونه بينهم ِإلاّ نزلَت علَيهم السكِينةُ و غَشِيتهم الرحمةُ و خفتهم الْملاِئكَةُ و ذَكَرهم اللهُ ِفيمن ِعنده

–Allahın evlərinin hər birində hər kəs toplaşaraq Allahın kitabını oxuyub və bir-birilərinə öyrətsələr, Allah onlara bir aramlıq bəxş edər. Allahın rəhməti onları bürüyər, mələklər onların ətrafına toplaşarlar və Allah-taala onların adını çəkərək tərifləyər.

Əhli-beytin (ə) adına qurulmuş məclisdə də iştirak etmək ibadət sayılır. Ümmi Sələmə İslam Peyğəmbərindən (s) belə nəql edir:

ما مِن قَومٍ اجتمعوا يذْكُرونَ فَضلِ محمدٍ و آلِ محمدٍ إلا هبطَت ملَائِكَةُ مِن السماءِ حتى الْحقُوا بِهم بحديثهم. فَإِذَا تفرقُوا عرجتِ الْملَائِكَةُ إِلَى السماءِ، فَيقُولُ لَهم الْملَائِكَةُ الْأُخرِ إنا نشم مِنكُم رائِحةُ ما شمِمنا رائِحةً أطْيب مِنها! فَيقُولُونَ: إنا كُنا عِند قَومٍ يذْكُرونَ فَضلِ محمدٍ و آلِ محمدٍ، فَعلق فِينا مِن رِيحِهم فَتعطرنا، فَيقُولُونَ: اهبِطُوا بِنا إِلَيهم، فَيقُولُونَ إِنهم قَد تفرقُوا، فَيقُولُونَ: اهبِطُوا بِنا إِلَى الْمكَانِ الذِي كَانوا فِيهِ

Bir dəstə insan əyləşib Peyğəmbər(s) və Əhli-beyti(ə) barədə söhbət edərkən, bir dəstə mələk də gəlib onların ətrafında əyləşər. Söhbət edib qurtarandan sonra hərə öz evinə dağılışır. Mələklər də öz yerlərinə (ərşə) qayıdarlar. Ərşdə olan mələklər onlardan soruşar: "Sizdən necə də gözəl ətir iyi gəlir. Haradan gəlirsiz belə?" Onlar cavab verirlər: Yerdə Peyğəmbərin(s) ümmətindən bir neçə nəfər yığışıb onun və Əhli-beytinin(ə) barəsində söhbət edirdilər. Biz də onların kənarında əyləşdiyimizə görə Allah bizi də belə ətirli etmişdir. Bizdən gələn həmin gözəl iy onların ətirlərinin iyidir. Ərşdə olan mələklər onlara deyərlər, bizi də aparın, gedib həmin şəxsləri ziyarət edək və onların ətirli iyləri ilə özümüzü müəttər edək. Həmin mələklər deyər: Onlar dağılışıb öz evlərinə getdilər. Onlar deyərlər, elə isə bizi də aparın gedib onların əyləşdiyi yerləri ziyarət edək. Həmin mələklər

onları yer üzünə gətirər və oranı ziyarət edib ətirlənəndən sonra yenidən ərşə qayıdarlar.

**Əhli-beytin (ə) Quranla şərikliyinin dəlili**

İslam Peyğəmbəri (s) açıq-aşkar bunu qeyd etmişdir.

عِلِي مع الْحق و الْحق مع عِلِي يدور حيثما دار

–Əli haqq ilə və haqq Əli ilədir, o, harada olsa, haqq onun ətrafına dövrə vurur.

Başqa bir hədisdə buyurulur:

عِلِي مع الْقُران و الْقُرانُ مع عِلِي لَن يفْتِرقا حتي يردا علَي الْحوض.

–Əli Quran ilə və Quran Əli ilədir. Onlar hovuzun (Kövsər hovuzunun) kənarında mənim yanıma gələnə kimi heç vaxt bir-birilərindən ayrılmazlar.

Başqa bir hədisdə isə daha açıq şəkildə buyurmuşdur:

عِلِي مع الْحق و الْقُران و الْحق و الْقُرانُ مع عِلِي و لَن يفْتِرقا حتي يردا علَي الْحوض

–Əli haqq və Quran ilədir. Haqq və Quran Əli ilədir. Onlar hovuzun (Kövsər hovuzunun) kənarında mənim yanıma gələnə kimi heç vaxt bir-birilərindən ayrılmazlar.

**Əhli-beytin (ə) Peyğəmbərlə (s) eyniliyinin dəlili**

İslam Peyğəmbəri (s) buyurmuşdur:

عِلِي مِني و أنا مِنه

–Əli məndəndir, mən də Əlidən.

Başqa bir hədisdə buyurulur:

عِلِي إمام الْبرر

–Əli yaxşı əməl sahiblərinin rəhbəridir.

عِلِي إمام الْمتقِين

–Əli təqvalıların imamıdır.

عِلي إمام الْمسلِمِين

–Əli müsəlmanların imamıdır.

İslam Peyğəmbəri (s) bu hədislərlə Həzrət Əliyə (ə) yalnız məhəbbət bəsləməyi deyil, tabe olmağı da bəyan edir. Digər hədislərdə Həzrət Peyğəmbər (s) bu mövzunu daha geniş şəkildə açıqlamışdır. Həzrət (s) buyurur:

عِلي مِني بِمنزِلَةِ رأسِي مِن بدِني

–Əli mənim üçün bədənimdəki başım kimidir.

Digər bir hədisdə buyurulur:

إِن عِلياً لَحمه مِن لَحمِي و دمه مِن دمِي

–Həqiqətən, Əlinin əti mənim ətimdən və qanı mənim qanımdandır.

Başqa bir hədisdə İslam Peyğəmbəri (s) Həzrət Əlini (ə) başqa bir Əli ilə qarışdırmasınlar deyə açıq-aşkar buyurur:

يا عِلي أنت مِني و أنا مِنك

–Ya Əli, sən məndən, mən də səndənəm.

İmam Hüseyn (ə) haqqında məşhur bir hədisdə İslam Peyğəmbəri (s) belə buyurur:

حسين مِني و أنا مِن حسين

–Hüseyn məndən və mən də Hüseyndənəm.

**Övladlarımızı gərək Əhli-beytin (ə) məhəbbəti ilə tərbiyə edək**

Əziz İslam Peyğəmbəri (s) buyurmuşdur:

أُدبوا أولادكم علي ثَلاثةِ خِصالٍ: حب نبيكم و حب أهل بيتِهِ و علي قَرائَةِ الْقُران

–Övladlarınızı üç əsas prinsip üzrə, yəni Peyğəmbərinizin (s) sevgisi, Peyğəmbərin (s) Əhli-beytinin (ə) sevgisi və Quran oxumaq əsasında tərbiyə edin.

Bu hədisdə İslam Peyğəmbəri (s) özünün, Əhli-beytinin (ə) və Quranın hər üçünün eyni şey olduğunu və heç vaxt bir-birindən ayrılmayacaqlarını bəyan etmişdir. Hər kəs bunları bir-birindən ayırsa, sanki Quranı Qurandan ayırmış sayılır. Həzrət Əlini (ə) Həzrət Peyğəmbərdən (s) ayırmaq Quranı Qurandan ayırmaq deməkdir. İmam Hüseyni (ə) İslam Peyğəmbərindən (s) ayırmaq Peyğəmbəri (s) Peyğəmbərdən (s) ayırmaq deməkdir.

Quran, Həzrət Peyğəmbər (s) və Əhli-beyti (ə) hər üçü eyni şeydir. Onları bir-birindən ayırmaq mümkün deyil. İslam Peyğəmbəri (s) Quranı və Əhli-beytini (ə) müsəlmanlara əmanət olaraq tapşırıb və qiyamət günü müsəlmanlardan onlarla necə rəftar etdiklərini soruşacaq.

## İMAM HÜSEYNİN (Ə) RƏFTARI İLƏ QURANI UYĞUNLAŞDIRMAQ

*Cövhəri din, cani məzhəb, eyni ürfandur Hüseyn,*
*Məzhəri həqqul mubin, dinə nigəhbandur Hüseyn.*

*Sinəsində sancılıbdur gərçi oxlar oxlara,*
*Bağ kimi şadabidür gül misli xəndandur Hüseyn.*

*Yerdə gərçe qərq olub qudal içində qaninə,*
*Göydə bəzmi eşqi Rəbbül- həyyə mehmandur Hüseyn.*

*Həm Əmirulmömininin tək, həm də Peyğəmbər kimi,*
*Ta qiyamət, qəlbilər mülkində sultandur Hüseyn.*

*And ola cani zəkiyyə, ya mütəhhər ruha ki,*
*Həm cana cənnatidur, həm ruha reyhandur Hüseyn.*

*Etina etməz yağış misli səmadən yağsa ox,*
*Böylə ki məşğuli virdu zikri sübhandur Hüseyn.*

*Daimən təkrar edər Seyyid bu taysız misrəni,*
*Cövhəri din, cani məzhəb, eyni ürfandur Hüseyn.*

Ötən bəhsdə tutarlı dəlillərlə Əhli-beytin (ə) (xüsusilə İmam Hüseynin (ə)) Peyğəmbər (s) və Quranla bir olması sübut olundu. Allah-taala Əhli-beytə (ə) elə bir istedad və fəzilət vermişdir ki, onlar Quranla və Həzrət Peyğəmbərlə (s) eyni sayılırlar. Sohbətlərimiz əsasən İmam Hüseynin (ə) barəsində olduğundan biz burdada Əhli-beytdən nümunə üçün onu qeyd edirik. İmam Hüseyn (ə) də Əhli-beytdən (ə) biridir və o da Quranın və Həzrət Peyğəmbərin (s) ayrılmaz hissəsidir.

Burada İmam Hüseynin (ə) rəftarının, xasiyyətinin və sifətlərinin Quranla uyğun gəlməsinə dair fikri Quran əsasında sübut etmək istəyirik.

Onu da qeyd etməliyik ki, fəzilət baxımından İmam Hüseyn (ə) Həzrət Peyğəmbərlə (s) eynidir. Necə ki, Həzrət (s)

buyurmuşdur: "Hüseyn məndən və mən də Hüseyndənəm." Yəni onları kim bir-birindən ayırsa, əsl həqiqətdə nə Həzrət Peyğəmbəri (s) tanımışdır və nə də İmam Hüseyni (ə). Və yaxud Peyğəmbər (s) həzrət Əlinin (ə) barəində belə beyurmuşdur: "Əli Quranladır və Quran da Əli ilədir." Kim onları bir-birindən ayırsa, əsl həqiqətdə həmin şəxs ya nadandır, ya cahildir, ya da nəyinsə müqabilində bu sözü deyir. Belə bir şəxsin nə İslamdan xəbəri var, nə Qurandan və nə də Əlini (ə) yaxşı tanımışdır. Ya da pərdə arxasında nəsə var.

Bütün məsum imamlarımızın (ə) əməlləri Quranla uyğundur. Biz burada İmam Hüseynin (ə) nümunə olaraq adını çəkirik. Hər bir imamın öz zamanında rəftarı və əməlləri Quranla müqayisə edilsə, onların rəftarında Qurana zidd heç bir əməl tapmaq mümkün deyil. Həzrət Peyğəmbərlə (s) Quran arasında ziddiyyət olmadığı kimi, onlarla Quran arasında da heç bir ziddiyyət yoxdur. Məsələn, Quranın "səxavətli ol" dediyi halda İslam Peyğəmbərinin (s) paxıl olması mümkün deyil. Quranın insanları şücaətə dəvət etdiyi halda İslam Peyğəmbərinin (s) qorxaq olması mümkün deyil. Quranın möminlərlə məşvərət etməyə dəvət etdiyi halda İslam Peyğəmbərinin (s) heç bir kəsi saymaması mümkün deyil. Əgər Quranın hər bir ayəsi Həzrət Peyğəmbərin (s) rəftarı ilə müqayisə olunsa, o zaman görərik ki, o həzrətin rəftarı ilə Quranın buyurduqları eynidir. Əgər belə bir şey olsaydı, o zaman İslamın düşmənləri həmin məqamları öz mənfəətləri naminə bir silah kimi istifadə edərdilər.

Eləcə də İmam Hüseynə (ə) ağlamağı bidət hesab edənlər o kəslərdir ki, onların bu faciədə əlləri vardır. Ona görə ağlamağı bidət hesab edirlər ki, əgər camaat ağlayıb İmam Hüseynin (ə) nə üçün və kimlər tərəfindən öldürülməsi müzakirə olunsa, onların cinayətlərindən hamının xəbəri olacaqdır.

Əgər düşmənlər İmam Hüseynin (ə) kəlamında və ya rəftarında Quranın ziddinə olan bir kəlam və ya bir nöqsan tapsaydılar, heç şübhəsiz, onu öz mənfəətləri naminə istifadə edərdilər. Amma onlar belə bir şey tapa bilmirlər və heç bir vaxt tapa bilməyəcəklər. O həzrətin ömrü boyu söylədiyi kəlamlarında bir nöqsan tapa bilmədikləri kimi, rəftar və hərəkətlərində də Qurana zidd olan bir əməl tapa bilmirlər. Əgər bu günün özündə də o həzrətin (ə) hər hansısa bir kəlamında, hərəkət və əməlində hər hansı bir söz və yaxud hərəkət Quranın əksinə olsaydı, düşmənlər hər şeydən əl çəkib bircə o nöqsandan yapışar və səhər axşam müxtəlif informasiya vasitələri ilə onu bütün dünyaya yaymaqla məşğul olardılar.

Odur ki, Peyğəmbər (s) və Əhli beyin (ə) o cümlədən İmam Hüseynin (ə) bütün danışıqları, hərəkət və rəftarı Qurandan ayırı deyildir. Burada çox yaxşı olar ki, İmam Hüseynin (ə) bütün həyatı boyu rəftarını Quranla müqayisə edək. "Həyatı boyu" ifadəsində məqsədimiz budur ki, ola bilsin bir şəxs hər gün deyil, ömrünün yalnız bir gününü səxavətli olsun. Belə bir şəxsə "səxavətli"dir deməzlər. Ömrünün bir ilini səxavətli olan şəxsə də "səxavətli"dir deməzlər. Səxavətli o şəxsə deyilər ki, dünyaya gələn gündən dünyadan köçənə qədər səxavətli olsun. Yəni ömrünün hər bir anında səxavətli olan insana "səxavətli" deyərlər. Şücaət, sadiqlik və s. kimi sifətlər də elə bu cürdür.

**1. Möminlərə qarşı təvazökar**

Allah-taala "Nəhl" surəsinin 23-cü ayəsində buyurur:

لاَ جرم أن اللّه يعلَم ما يسِرونَ وما يعِلنونَ إنه لاَ يحِب الْمستكْبِرين

–Şübhəsiz, Allah onların gizlətdiklərini də, aşkar etdiklərini də bilir və həqiqətən, O, təkəbbürlüləri sevmir.

Yəni Allah-taala ömrünün hər bir anında təvazökar olan insanları sevir. Müəyyən bir müddət və hansısa səbəblərə görə, yaxud özünü reklam etmək üçün tövazökarlıq göstərməklə insan təvazökar ola bilməz. Təvazökarlıq odur ki, ölənə qədər bu xüsusiyyət insanın zatında olsun. İslam Peyğəmbərinin (s) həyatına diqqət yetirdikdə görürük ki, ömrünün hər bir anında təvazökar idi. Bu haqda çoxlu hədislər nəql olunmuşdur. İslam Peyğəmbərinin (s) uşaqlarla, böyüklərlə və kasıblarla necə rəftar etməsi hədislərdə qeyd edilmişdir. O həzrət hər hansı bir kəslə salamlaşıb görüşəndə həmin şəxs elə güman edirdi ki, Həzrət Peyğəmbər (s) onu hamıdan çox istəyir. Yəni Həzrət Peyğəmbər (s) insanlara münasibətdə son dərəcə səmimi və mehriban idi. Eləcə də Həzrət Əli (ə), İmam Həsən (ə) və bütün digər imamlar da məhz bu cür idilər.

**İmam Hüseynin (ə) rəftarında təvazökarlıq nümunəsi**

Məsədət ibn Sədəqə belə nəql edir ki, bir gün İmam Hüseyn (ə) bir küçədən keçirdi. Elə bu zaman bir dəstə kasıb insanın əyləşib yavan və quru çörək yediklərini görür. Onlar İmam Hüseyni (ə) gördükdə ayağa qalxıb Həzrəti (ə) də çörək yeməyə dəvət edirlər. Həzrət (ə) oturub onlarla birlikdə şirin-şirin, iştahla çörək yedi. Bir az sohbət etdikdən sonra bu ayəni oxudu: "Şübhəsiz, Allah onların gizlətdiklərini də, aşkar etdiklərini də bilir və həqiqətən, O, təkəbbürlüləri sevmir."

İmam (ə) bu ayəni oxuyandan sonra buyurdu: "Siz məni dəvət etdiniz, mən də sizin dəvətinizi qəbul etdim, indi siz mənim dəvətimi qəbul edin."

Onlar da İmamın (ə) dəvətini qəbul edirlər. Həzrət (ə) onları öz evinə apardı. İmam Hüseyn (ə) həyat yoldaşı Rübaba buyurdu ki, evdə hər nə varsa gətir. O da evdə olan hər bir şeyi gətirir. Həzrət (ə) onların hamısını həmin adamlara hədiyyə edir.

İmam Hüseyn (ə) bu hadisə zamanı heç baxmadı ki, onlar kimdirlər, hansı vəzifədə işləyirlər. Heç bir şeyi nəzərə almadan əvvəlcə onların dəvətini qəbul etdi, sonra isə onları öz evinə dəvət edərək çoxlu hədiyyələr verdi və onlarla qardaş oldu. Buna deyərlər təvazökarlıq. İmam Hüseyn (ə) Quranın "Həqiqətən, Allah, təkəbbürlüləri sevmir." ayəsini öz əməli ilə göstərir. Yəni Allah təvazökar insanları sevir.

**2. Daha gözəl və ən üstün hədiyyə**

Allah-taala "Nisa" surəsinin 86-cı ayəsində belə buyurur:

وإِذَا حييتم بِتحِيةٍ فَحيواْ بِأَحسن مِنها أَو ردوها

–Sizə salam verildikdə siz ondan daha gözəl və yaxud onun kimi bir salam(la cavab) verin.

**İmam Hüseynin (ə) rəftarında bunun nümunəsi**

Ənəs nəql edir ki, bir gün İmam Hüseynin (ə) hüzurunda əyləşmişdim. Həzrətin (ə) kənizlərindən biri gəlib salam verdi və ağaya bir dəstə gül təqdim etdi. İmam Hüseyn (ə) gülü alıb buyurdu: "Mən səni Allah yolunda azad etdim."

Ənəs deyir: "Mən bu hadisəni gördükdə dedim: "Ey Rəsulullahın övladı! Bir dəstə gülün qiyməti nədir ki, sən onun müqabilində onu azad etdin?!" Həzrət (ə) cavabımda buyurdu:

و كذا أدبنا الله حيثُ يقُول: وإِذَا حييتم بِتحِيةٍ فَحيواْ بِأَحسن مِنها أَو ردوها

–Allah bizi bu ayə ilə belə tərbiyələndirib. "Sizə salam verildikdə siz ondan daha gözəl və yaxud onun kimi bir salam(la cavab) verin."

**3. Pisliyə qarşı yaxşılıqla cavab**

Allah-taala Ali-İmran surəsinin 134-cü ayəsində təqvalıları vəsf edərkən buyurur:

وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ وَاللّهُ يُحِبُّ الْمُحْسِنِينَ

–Təqvalılar həmin o kəslər(dirlər) ki, qəzəblərini udan və camaat(ın xətaların)dan keçənlərdirlər. Allah yaxşılıq edənləri sevir.

**İmam Hüseynin (ə) rəftarında bunun nümunəsi**

Belə nəql olunur ki, İmam Hüseynin (ə) bir nökəri var idi. Günlərin birində həmin nökər boyük bir xətaya yol verdi. Bunu İmam Hüseynə (ə) xəbər verdilər və Həzrət (ə) onu cəzalandırmaq əmrini verdi. Nökər cəzalanacağını başa düşüb dedi: "سيدِي! و الْكَاظِمِينَ الْغَيْظَ" – "Mənim ağam, təqvalılar qəzəblərini udanlardır."

Həzrət (ə) buyurdu: "Onu cəzalandırmayın."

Nökər dedi: "وَالْعَافِينَ عَنِ النَّاسِ" – "Təqvalılar camaatın xətalarından keçənlərdirlər."

Həzrət (ə) buyurdu: "Səni əfv etdim."

Nökər dedi: "وَاللّهُ يُحِبُّ الْمُحْسِنِينَ" – "Allah yaxşılıq edənləri sevir."

Həzrət (ə) buyurdu: "Səni Allaha xatir azad etdim."

Belə əməllərin nəticəsində bu cür möminlər ölən günə qədər İmam Hüseyndən (ə) əl çəkmirdilər. Yəni imamların bu hərəkətlərini gördükdə, onlara qarşı məhəbbətləri daha da çoxalırdı.

Tasua günü İmam Hüseyn (ə) bir-bir xeymələrə baş çəkirdi. Orada olanlardan birinin adı Con idi. Con Abuzərin qulamı idi və onu Həzrət Əliyə (ə) hədiyyə vermişdi. Sonralar İmam Hüseynin (ə) qulamı olmuşdu. İmam Hüseyn (ə)

tasua gecəsi onu bir neçə dəfə yanına çağırıb buyurdu: “Sən Allah yolunda azadsan.” Buna baxmayaraq, Con İmam Hüseyndən (ə) ayrılmaq istəmirdi.

Con dedi: “Ya Hüseyn! Səndən ayrılmağım mümkün deyil. Bir ömür sənə xidmət etdib hüzurunda olmuşam. Mən sənə baxıb Quranı görmüşəm. Mən səndən necə ayrıla bilərəm axı!”

Həmçinin tasua gecəsi Züheyr İmam Hüseynə (ə) dedi: “Əgər məni doğrasalar və yenidən dirildib yenə doğrasalar və bunu min dəfə təkrar etsələr, yenə də mən səndən uzaqlaşmaram.”

**4. Yüksək dərəcədə əfv və güzəşt**

Əraf surəsinin 199-201-ci ayələrində belə oxuyuruq:

خذِ الْعفْو وأْمر ِبالْعرفِ وأَعِرض عنِ الْجاهِلِين. وِإما ينزَغَنك ِمِن الشيطَانِ نزغٌ فَاستعِذْ ِباللّهِ ِإنه سمِيع عِلِيم. ِإن الذِين اتقَواْ ِإذَا مسهم طَاِئف من الشيطَانِ تذَكَرواْ فَِإذَا هم مبصِرونَ.

–Əfv və güzəşt yolunu tut, yaxşı işlər görməyi əmr et və nadanlardan üz döndər (cihad hökmü gəlməyincə döyüşə başlama). Əgər şeytan tərəfindən təhrikedici bir vəsvəsə səni təhrik etsə, Allaha pənah apar, çünki O, eşidən və biləndir. Şübhəsiz, təqvalı olanlara şeytandan bir vəsvəsə yetişsə, (ya qəlblərdə dolanan bir şeytan onların fikirlərinə zərər-ziyan yetirsə), dərhal Allahı yadlarına salaraq özlərinə gələr və onda gözüaçıq olarlar.

**İmam Hüseynin (ə) rəftarında bunun nümunəsi**

İsam ibn Müstələq deyir: “Mədinə şəhərinə daxil oldum. İmam Hüseynin (ə) cah-calalla gəldiyini gördüm. Əvvəldən onlara qarşı qəlbimdə kin olduğu üçün onu belə gördükdə paxıllıq hissi məndə daha da çoxaldı. Yaxınlaşıb dedim:

–Sən Əbi Turabın oğlusan?

Həzrət (ə) buyurdu: “Bəli.”

İmam Hüseyn (ə) bunu deyəndən sonra mən ona nalayiq sözlər deməklə hörmətsizlik etməyə başladım. Çünki atam onun atası ilə düşmən idi. İmam Hüseyn (ə) mənim sözlərimi eşitdikdən sonra çox sakit və aramla bu ayəni oxudu:

Qovulmuş şeytandan Allaha pənah aparıram. “Əfv və güzəşt yolunu tut, yaxşı işlər görməyi əmr et və nadanlardan üz döndər (cihad hökmü gəlməyincə döyüşə başlama). Əgər şeytan tərəfindən təhrikedici bir vəsvəsə səni təhrik etsə, Allaha pənah apar, çünki O, eşidən və biləndir. Şübhəsiz, təqvalı olanlara şeytandan bir vəsvəsə yetişsə, (ya qəlblərdə dolanan bir şeytan onların fikirlərinə zərər-ziyan yetirsə), dərhal Allahı yadlarına salaraq özlərinə gələr və onda gözüaçıq olarlar.”[1]

Mən bunları eşidib çox peşman oldum. Həzrət (ə) mənim peşman olduğumu bildi və bu ayəni oxudu:

لا تثْريب علَيكُم الْيوم يغفِر اللّه لَكُم وهو أَرحم الراحِمِين

–Bu gün sizə qarşı heç bir məzəmmət yoxdur. Allah sizi bağışlayar. O, mehribanların ən mehribanıdır.[2]

Sonra buyurdu: “Bizi təhqir etmək Şam əhlinin adətidir. Müaviyə onları bu cür tərbiyə etmişdir.”

Daha sonra Həzrət (ə) buyurdu: “Mədinə şəhərində qəribsən, sənin nə hacətin var? Bəlkə yeməyə, suya, geyimə və ya pula ehtiyacın vardır?”

İsam deyir: “Xəcalət çəkdim. Dedim kaş yer aralanardı və girərdim yerə. Əgər məndən “yer üzərində ən fəzilətli şəxs kimdir?” – deyə soruşsalar, And içib deyərəm Hüseyn ibn Əlidir (ə). Bu hadisədən sonra mənim üçün dünyada İmam Hüseyndən (s) çox əziz bir insan yox idi.”

---

[1] Əraf surəsi, 199-201-ci ayələr.

[2] Yusif surəsi, 92-ci ayə.

İsam bu hadisədə sanki Quranın ayəsini əyani şəkildə müşahidə etmişdir.

**5. Cavidan moizə**

Allah-taala Ənkəbut surəsinin 8-ci ayəsində buyurur:

ووصينا الْإِنسانَ بِوالِدِيهِ حسنا وإِن جاهداكَ لِتشرِكَ بِي ما لَيس لَكَ بِهِ عِلْم فَلَا تطِعهما

–(Biz) insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik və (dedik:) "Əgər (atan, anan) bilmədiyin bir şeyi Mənə şərik qoşmağa vadar etsələr, onlara itaət etmə."

**İmam Hüseynin (ə) rəftarında bunun nümunəsi**

İbn Şəhraşub belə nəql edir: "Bir gün İmam Hüseyn (ə) Abdullah ibn Əmr Asın yanından keçirdi. Abdullahın ətrafında bir neçə nəfər əyləşmişdi. Abdullah onlara dedi:

–Hər kim yer üzündə səma əhlinə ən sevimli olanını görmək istəyirsə, bu şəxsə (İmam Hüseynə (ə)) baxsın. Lakin mən özüm Siffeyn müharibəsindən sonra onu danışdırmıram."

Əbu Səid Xudri Abdullahın əlindən tutub İmam Hüseynin (ə) yanına gətirdi və dedi:

–Ey Rəsulullahın övladı! Bu adam sənin haqqında "Hər kim yer üzündə səma əhlinə ən sevimli olanını görmək istəyirsə, bu şəxsə baxsın", – deyə söylədi.

Həzrət (ə) buyurdu: "Ey Abdullah, sən bilirsən ki, yer üzündə səma əhlinə ən sevimli olan insan mənəm?"

Abdullah dedi: "Bəli."

Həzrət (ə) buyurdu: "And olsun Allaha! Atam Əli (ə) məndən daha yaxşı idi. Bəs onda sən nə üçün ona qarşı qılınc çəkdin?"

Abdullah dedi: "Üzr istəyirəm, Həzrət Peyğəmbər (s) mənə buyurmuşdu ki, atana itaət et. Mənə Siffeyndə döyüşməyi atam əmr etmişdi və mən gərək atamın əmrinə itaət edərdim."

Həzrət (ə) buyurdu: “Məgər sən Allahın bu kəlamını eşitməmisənmi?”

وإن جاهداك لتشرك بي ما ليس لك به علم فلا تطعهما

“Əgər (atan, anan) bilmədiyin bir şeyi Mənə şərik qoşmağa vadar etsələr, onlara itaət etmə.” Məgər Həzrət Peyğəmbərin (s) buyurduğu “Məxluqa itaət etməklə Allaha qarşı günah edəcəksənsə, gərək məxluqa itaət etməyəsən” – buyurduğunu eşitməmisənmi?”

İmam Hüseyn (ə) burada Qurani-kərimə əsaslanaraq çox gözəl bir dəlil gətirmişdir. Həm də Həzrət (ə) azacıq olsa da belə əsəbiləşmədi. Çünki İmam Hüseyn (ə) özündən heç bir söz demirdi. Onun danışığı, baxışı və rəftarı Qurana əsaslanırdı. Onun fəziləti həqiqətən də Quranın fəzilətidir. Onun əməli Quranın əməlidir. Yəni İmam Hüseyn (ə) Quranın ayrılmaz tərkib hissəsidir.

**6. Allahın düşmənləri ilə sərt rəftar**

Allah-taala Kəhf surəsinin 49-cu ayəsində belə buyurur:

ووضع الْكِتاب فترى الْمجرِمين مشفِقين مِما فِيهِ ويقُولُونَ يا ويلَتنا مال هذَا الْكِتابِ لا يغادِر صغِيرةً ولا كَبِيرةً إِلا أحصاها ووجدوا ما عمِلُوا حاضِرا ولا يظْلِم ربك أحد

–Və o kitab (hər bir fərdin əməllərinin kitabı əlinə, hər bir ümmətin əməl kitabı gözlərinin önünə və bütün bəşəriyyətin əməllərinin böyük kitabı hamının görə biləcəyi bir yerə) qoyular. Beləliklə, günahkarları onda olandan qorxan görərsən. Və onlar deyərlər: “Vay olsun bizə! Bu necə yazıdır ki, heç bir kiçik və böyüyü yerdə qoymadan, istisnasız hamısını saymışdır!” Onlar (dünyada) etdiklərini (əməllərinin hesabını) hazır görəcəklər. Sənin Rəbbin heç kəsə zülm etməyəcəkdir.[1]

[1] Kəhf surəsi, 49-cu ayə.

Qiyamət günü əsas üç kitab olacaqdır. Biri insanın çiynindəki mələklərin yazdığı kitabdır. İkincisi bütün insanların əməli yazılmış lövhədir və hamı orada öz əməllərinə baxacaqlar. Nəhayət, üçüncü kitab insanın özüdür. Əlbəttə bu kitabların hər biri barədə geniş söhbətlər etmək olar.

**İmam Hüseynin (ə) rəftarında bunun nümunəsi**

Mədinə şəhərinin valisi Mərvan ibn Həkəm Müaviyəyə bir məktub yazdı: "İmam Hüseyn (ə) Hicazın böyük şəxsiyyətləri ilə əlaqə yaradır və mümkündür ki, onların bu əməli gələcəkdə sənin üçün təhlükəli olsun."

Müaviyə bu məktubu oxuyandan sonra İmam Hüseynə (ə) bir məktub yazdı: "Eşitmişəm ki, Mədinədə bəzi şəxslərlə görüşürsən. Sizin bu əməliniz müsəlmanların arasında ixtilaf yaradacaq. Mən bu işi sizə məsləhət görmürəm."

İmam Hüseyn (ə) işin nə yerdə olduğunu bildi və Müaviyəyə bir məktub yazdı: "Sənin məktubunu aldım. Yazırsan ki, mənim barəmdə bəzi xoşagəlməz sözlər eşitmisən. Sənin fikrincə, mən pis iş görmüşəm? Fikrincə elə bir iş görmüşəm ki, bu iş yaxşı insanlardan baş verməz, bu işlər barəsində yalnız tək olan Allah mühakimə edər.

... و أمـا ما ذَكَرت أنه رقى إليك عنى فإنما رقّاه الْملاقون، المَشاؤون بالنميمة... ألست قاتلَ حجرٍ، و أصحابِه العابدين المخبتين، الذين كانوا يستفظعون البدع و يأمرون بالمعروف و ينهون عـن المنكر فقتلتهم ظلْما و عدوانا، من بعد ما أعطيتهم المواثيق الغليظة؟... أولست بقاتل عمرو بن الحمق الذى أخلقت و أبلت وجهه العبادة، فقتلته من بعد ما أعطيته من العهود ما لو فهمته العصم نزلت من شعف الجبال؟!.. قلْت فيما

قُلْت: لا ترد هذِهِ الْأمةِ فِى فِتنةٍ و اِنى لا أعلَم لَها فِتنةً أعظَم مِن اَمارِتك علَيها... ما أعرف أفْضلَ مِن جِهادِك.

–Bu xəbərlər barəsində deyirəm ki, onları sözgəzdirənlər və yaltaqlar quraşdırmışlar... Ey Müaviyə! Məgər sən Hücrü nahaq yerə öldürən, onun dostlarını şəhid edən şəxs deyilsənmi?! Onlar namaz qılan, zülmlə mübarizə aparan, bidətləri rəva görməyən, yaxşılıqlara əmr edərək, pisliklərdən çəkindirənlərdən idilər. Amma sən onları zülm ilə öldürdün, halbuki onlara söz vermiş, möhkəm əhd-peyman bağlamış, onların əmin-amanlıqda olacaqlarına əmin etmişdin... Ey Müaviyə, məgər Əmr ibn Nəmiq Xüzaini öldürən sən deyilsənmi? Sən əməlisaleh bir şəxsi öldürmüsən. O, elə bir şəxs idi ki, ibadətin məşəqqəti üzünü saraldıb-soldurmuş, bədənini zəiflətmişdi. Sənin onunla peyman bağlayaraq aman vermişdin. Hətta əgər bu amanı çöl ahularına versəydin bağlardan çox arxayınlıq və xatircəmliklə enib sənə tərəf gələrdilər... Ey Müaviyə, məktubda yazırsan ki, özün, dinin və Peyğəmbər (s) ümməti barəsində fikirləş. İslam ümməti arasında fitnə salmaqdan (zərbə vurmaqdan) çəkin, onları çətinliyə salma. Amma mən sənin İslam cəmiyyətinə hökmranlıq etməyindən daha böyük və təhlükəli bir fitnə görmürəm. Mənim öz dinim və ceddimin ümməti üçün səninlə mübarizə aparmaq kimi ən böyük fəzilət tanımıram.

İmam Hüseyn (ə) bunları yazandan sonra məktubun sonunda yazır: "Amma ey Müaviyə! Bil ki, (öldürdüyün insanlara görə) səndən qisas alınacaq, bir gün gördüyün işlərin haqq-hesabına yetişəcəklər. Bil ki, Allah (bütün əməllərinin) hamısını hesab-kitaba gətirər. Bil ki, böyük Allah sənin işlərini unutmaz."

Daha sonra bu ayələri məktubun sonunda yazır:

ووضِع الْكِتاب فَترى الْمجرِمين مشفِقين مِما فِيهِ ويقُولُونَ يا ويلَتنا مال هذَا الْكِتابِ لَا يغادِر صغِيرةً ولَا كَبِيرةً إِلَّا أَحصاها ووجدوا ما عمِلُوا حاضِرا ولَا يظْلِم ربك أَحد

İmam Hüseynin (ə) məktubunun əvvəli Quran ayəsi ilə başlayır, sonu Quran ayəsi ilə bitir və iki ayənin arasındakı yazdığı sözlər Quran kəlamları ilə eynidir.

**7. Şücaət Allah qarşısında təslim olmaqdan irəli gəlir**

Allah-taala Nisa surəsinin 78-ci ayəsində belə buyurur:

أَينما تكُونواْ يدرِككُّم الْموت ولَو كُنتم فِي بروجٍ مشيدةٍ

–Harada olsanız, hətta ucaldılmış hasarlar və qəsrlərin içində olsanız da belə, ölüm sizi haqlayacaqdır.

**İmam Hüseynin (ə) rəftarında bunun nümunəsi**

İmam Hüseyn (ə) Mədinədən xaric olan zaman bir dəstə mömin cin o həzrətin hüzuruna gəlib salam verdikdən sonra dedilər:

–Ey bizim mövlamız! Biz sənin cəddinə iman gətirmişik və onun ümmətindənik. Sonra atan Əlinin (ə) vilayətini qəbul edib onun davamçılarındanıq. İndi də yer üzünün höccəti sən olduğun üçün sən bizim rəhbərimizsən. Sizin siyasi probleminizin olduğunu və Mədinəni tərk edib Məkkəyə gedəcəyinizi eşitdik. Biz öz vəzifəmizi yerinə yetirmək üçün sizdən icazə istəmək üçün gəlmişik. Siz zəhmət çəkib Mədinədən çıxmayın, biz sizin düşmənlərinizin hamısını məhv etməyə hazırıq.

İmam Hüseyn (ə) onlara dua edib buyurdu:

–Məgər siz bu ayəni oxumamısınızmı? “Harada olsanız, hətta ucaldılmış hasarlar və qəsrlərin içində olsanız da belə, ölüm sizi haqlayacaqdır.”

Sonra İmam Hüseyn (ə) onlar üçün bu ayələri oxudu:

قُل لو كُنتم فِي بيوتكُم لَبرز الذِين كُتِب علَيهم الْقَتلُ إلَى مضاجِعِهم
وليبتلِي اللّه ما فِي صدوركُم وليمحص ما فِي قُلُوبكُم

–De: “Əgər siz hətta öz evlərinizdə belə olsaydınız, şübhəsiz, (Lövhi-məhfuzda) barələrində öldürülmək yazılmış, qərara alınmış kəslər (döyüş meydanındakı) yataqlarına tərəf hərəkət edərdilər (ki, Allahın qəza-qədəri gerçəkləşsin). Və Allah sizin sinələrinizdə olanı (niyyətlərinizi) yoxlasın və qəlblərinizdə olanı (imanınızı) xalisləşdirsin.” [1]

Daha sonra Həzrət (ə) Ühüd müharibəsində bəzi müsəlmanlarla Həzrət Peyğəmbərin (s) etdiyi söhbəti onlara danışdı. Onlar Həzrət Peyğəmbərə (s) demişdilər ki, əgər biz haqq olsaydıq, bu müharibədə mütləq qələbə çalmalı idik. Bizim məğlub olmağımız batil yolda olmağımıza dəlildir. Həzrət Peyğəmbər (s) isə onların cavabında “Ali-İmran” surəsinin 154-cü ayəsini oxudu.

Cinlər dedilər: “Sənə itaət etmək vacib olduğu üçün biz sənin sözlərinə itaət edirik. Əks halda sənin düşmənlərinin hamısını öldürərdik.

İmam Hüseyn (ə) bu ayəni oxudu:

لِيهلك من هلَك عن بينةٍ ويحيى من حي عن بينةٍ

–Həlak olan dəlil-sübut üzündən həlak olsun və (mənəvi) həyat tapan dəlil-sübut üzündən həyat tapsın.[2]

Kərbəlada həm mənimlə birlikdə şəhid olanlara gərək höccət tamamlansın, həm də mənə qarşı döyüşənlərə də gərək höccət tamamlansın. İnsan istər batil yolda olsun, istərsə də haqq yolda, imtahan verməyincə dünyasını dəyişməyəcək.

---

[1] Ali-İmran surəsi, 154-cü ayə.

[2] Ənfal surəsi, 42-ci ayə.

**8. Aşura gününün Firon ailəsindən olan mömini tanıtdırmaq**

Mömin (Ğafir) surəsinin 28-ci ayəsində belə oxuyuruq:

وَقَالَ رَجُلٌ مُؤْمِنٌ مِنْ آلِ فِرْعَوْنَ يَكْتُمُ إِيمَانَهُ أَتَقْتُلُونَ رَجُلًا أَنْ يَقُولَ رَبِّيَ اللَّهُ وَقَدْ جَاءَكُمْ بِالْبَيِّنَاتِ مِنْ رَبِّكُمْ وَإِنْ يَكُ كَاذِبًا فَعَلَيْهِ كَذِبُهُ وَإِنْ يَكُ صَادِقًا يُصِبْكُمْ بَعْضُ الَّذِي يَعِدُكُمْ إِنَّ اللَّهَ لَا يَهْدِي مَنْ هُوَ مُسْرِفٌ كَذَّابٌ

–Fironun ailəsindən olub imanını (onlardan) gizlədən mömin bir kişi dedi: "Məgər siz "mənim Rəbbim Allahdır" deməyə görə bir kişini, sizin üçün Rəbbiniz tərəfindən aydın dəlillər gətirdiyi halda öldürəcəksiniz?! Əgər o yalançı olsa, yalanı öz ziyanınadır. Əgər doğruçu olsa (dünya və axirət əzablarından) vəd etdiyinin (ən azı) bir hissəsi sizə yetişər. Həqiqətən, Allah israfçı və yalançını hidayət etmir."

Deyirlər Firon ailəsindən üç nəfər Həzrət Musaya (ə) iman gətirmişdilər:

1. Fironun ailəsindən olub imanını gizlədən mömin. Həzrət Musanın (ə) ya əmisi oğlu idi, ya da xalası oğlu;

2. Fironun həyat yoldaşı;

3. Həzrət Musanın (ə) peyğəmbərliyindən öncə Musaya fironçuların onu tutub öldürəcəklərini xəbər verən bir kişi.

Fironun ailəsindən olub imanını gizlədən mömin fironçuları danlayaraq, onlara nəsihət etdi və Həzrət Musanın (ə) müdafiəsinə qalxdı.

**İmam Hüseynin (ə) rəftarında bunun nümunəsi**

İmam Hüseyn (ə) aşura günü səhabələrindən hər kim şəhid olurdusa, Əhzab surəsinin 23-cü ayəsini oxuyurdu.

مِنَ الْمُؤْمِنِينَ رِجَالٌ صَدَقُوا مَا عَاهَدُوا اللَّهَ عَلَيْهِ

–Möminlər içərisində elələri də vardır ki, Allahla (döyüşdə ölənə qədər sabitqədəm olmaq barədə) bağlamış olduqları əhdi doğrultdular.

Yəni bu ayə orada şəhid olanlara şamil olurdu. Onlar bu ayədən kənarda deyildilər.

İmam Hüseyn (ə) Kərbəlaya gedərkən məntəqələrin birində Kufə əhlinə bir məktub yazaraq onu Qeys ibn Müsəhhər Seydafi ilə Kufəyə göndərdi.

Qeys Kufəyə daxil olanda yoxlama zamanı onu tutdular. Qeysin üstünü axtaranda o, məktubu parça-parça edib yerə tökdü. Onu İbn Ziyadın yanına apardılar və baş verənləri İbn Ziyada xəbər verdilər. İbn Ziyad dedi:

–Sən kimsən?

Qeys dedi: "Mən bir insanam, Əmirəlmöminin Əli (ə) mənim ağamdır və indiki zamanda Hüseyn ibn Əli (ə) mənim əmirimdir.

İbn Ziyad onun çox cəsarətlə danışdığını görüb dedi:

–Niyə məktubu cırdın?

Qeys dedi: "Sənin onun məzmunundan xəbərin olmaması üçün cırdım."

İbn Ziyad dedi: "Məktub kimdən idi və kimə gətirmişdin?"

Qeys dedi: "Məktub Hüseyn ibn Əlidən (ə) Kufə camaatına yazılmışdı."

İbn Ziyad əsəbiləşib dedi:

–Sən üç əməldən birini seçməlisən. Ya gərək məktubda adı yazılanların adlarını mənə deyəsən, ya minbərdə Hüseynə və atasına lənət oxumalısan, ya da səni öldürəcəyəm.

Qeys dedi:

–Məktubda yazılan adları heç vaxt sənə deməyəm. Lakin minbərə çıxaram.

Camaata elan etdilər və camaat məscidə toplaşdı. Qeys ibn Müsəhhər minbərə qalxıb Allaha həmd etdi, İslam Peyğəmbərinə (s) salam verdi, sonra Həzrət Əlinin (ə), İmam Həsənin (ə) və İmam Hüseynin (ə) adlarını çəkərək Allahdan onlar üçün rəhmət və bərəkət dilədi. Sonra isə İbn Ziyadın

və onun atasının adını çəkərək Allahdan onlar üçün lənət dilədi. Daha sonra dedi:

–Ey Kufə əhli! Mən İmam Hüseynin (ə) göndərdiyi nümayəndəyəm. O, sizə məktub yazmışdı. Sizə onu müdafiə etməyi tövsiyə edirəm. Əgər ona kömək etsəniz, izzətli olacaqsınız, yox, əgər ona kömək etməsəniz, həmişə zillət içərisində olacaqsınız.

Bunu İbn Ziyada xəbər verdilər. İbn Ziyad əmr etdi ki, onu minbərdən aşağı salıb hündür bir binanın damına qaldırıb oradan yerə atsınlar. Qeysi elə bu cür də şəhid etdilər.

Qeys ibn Müsəhhərin şəhadət xəbərini İmam Hüseynə (ə) çatdırdılar. Həzrətin (ə) gözləri yaşla doldu və bu ayəni oxudu:

مِنَ الْمُؤْمِنِينَ رِجَالٌ صَدَقُوا مَا عَاهَدُوا اللَّهَ عَلَيْهِ فَمِنْهُم مَّن قَضَى نَحْبَهُ وَمِنْهُم مَّن يَنتَظِرُ وَمَا بَدَّلُوا تَبْدِيلًا

–Möminlər içərisində elələri də vardır ki, Allahla (döyüşdə ölənə qədər sabitqədəm olmaq barədə) bağlamış olduqları əhdi doğrultdular. Onlardan bəzisi öz nəzirlərinə əməl etdilər (şəhid oldular), bəzisi isə (şəhid olmağı) gözləməkdədirlər. Onlar (öz əhdlərində) heç bir dəyişiklik etmədilər.[1]

İmam Hüseyn (ə) aşura günü bu ayəni bir çox şəhidlərin başı üzərində oxumuşdu. Yəni şəhid olanlar Qurana bağlı olan insanlardır. Onlar Quran ayələrinə əsasən şəhid olmuşdular. İmam Hüseyn (ə) hər bir hadisə ilə üzləşsəydi, Qurandan bir ayə oxuyardı. Çünki İmam Hüseyn (ə) bu hadisəni Qurandan ayırmaq istəmirdi.

[1] Əhzab surəsi, 23-cü ayə.

## AŞURA MƏKTƏBİNİN YAŞAMASININ SƏBƏBLƏRİ

*Mədəne eşqü kərəm məniye xilqətdir Hüseyn,*
*Xamisi ali əba xilqətə illətdir Hüseyn,*
*Ürəfa qibləsidür, aşiqə cənnətdir Hüseyn,*
*Müntəhaye şərəfü izzətü ləzzətdir Hüseyn,*
*Cənnətin əhlini öz fəzlinə heyran eləyir.*

*Lövheyi ərşə o ziba adı zinət yaradıb,*
*Ərşü fərş əhlinə Allah onu izzət yaradıb,*
*Həyyi sübhan o şəhi məzhəri qüdrət yaradıb,*
*Mənbəyi elmü ədəb sahibi dövlət yaradıb,*
*Qibtə bu dövlətə, əlbəttə, Süleyman eləyir.*

*Məhbəti vəhy peyəmbər evi mədrəsdir ona,*
*Bənd-bənde kutubi xilqət özü dərsdir ona,*
*Nəqşe pur qüdrəti insan böyük ətləsdir ona,*
*Rütbeye fəzlü şərəfdə bu qədər bəsdir ona,*
*Adəmi bul bəşəri talibi ehsan eləyir.*

*Əsr aşur tapıb mərkəbi üstündə qərar,*
*Hüccət itmam eləyir hüccəti ba izzü vuqar,*
*Daş dəyib alnına şiddətlə üzə qani axar,*
*Süzülür qani gözündən üzə, ol mah liqar,*
*Lövni sarulləh o ziba güli əlvan eləyir.*

*Yaşıl əmmamə başında açılıb beldə kəmər,*
*Sökülübdür zireh əynində edib oxlar əsər,*
*Qılıncı yoxdu, əlindən yerə düşmüşdü sipər,*
*Gəh baxır xeymələrə, gəh göyə eylərdi nəzər,*
*Zümzümə yarin adın dildə ol sultan eləyir.*

*Qalxızıbdur kəfənin damənin zillullah,*
*İstədi gözlərini silsin Əba Əbdillah,*
*Hərəmullahi ziyarət elədi ox nagah,*
*Dedi: La hövlə və la qüvvətə illah billah,*
*Yarəli qəlbi bir də yarə o peykan eləyir.*

*Üç pər ox dəydi edib qəlbi vilayətdə əsər,*
*Qəlbinə əllərini qoydi o ziba mənzər,*
*Çün müşəbbək bədənə eylədi ehsasi xətər,*
*Qəbri şeş güşəsinə saldı təbəssümlə nəzər,*
*Əcələ düşməyə qodalə o sultan eləyir.*

*Hüccətullahdi Hüseyn xilqətə salmış sayə,*
*Şiyənin məfxəridür əldə böyük sərmayə,*
*Aləmi kövnidə yoxdur o şəhə həmpayə,*
*Seyyida, qoy üzüvi sən də dəri mövlayə,*
*Həyyi sübhan ona xatir sənə ğüfran eləyir.*

Seyid ibn Tavus belə nəql edir ki, bir gün İmam Məhəmməd Baqirdən (ə) soruşdular: "Aşura günü bir-birimizə nə deyək?" Həzrət (ə) onların cavabında buyurdu: "Aşura günü bir-birinizi görəndə belə deyin:

عظم الله أجرنا بمصابنا بالْحسين عليه السلام و جعلنا و إياكُم من الطالبين بثأره مع وليه الْحجة(عج)

–Allah-taala İmam Hüseynin (ə) əzasında əcrimizi (savabımızı) çoxaltsın. Bizi və sizi İmam Mehdinin (ə.c) məhzərində qərar versin. Onunla birlikdə və onun əsgərləri olaraq İmam Hüseynin (ə) qanının intiqamını alanların cərgəsində qərar versin."

İstər İslam dinindən qabaq və istərsə də İslam dini meydana gəldikdən sonra dünyada çox böyük hadisələr baş vermişdir. Lakin Kərbəlada İmam Hüseynin (ə) və tərəfdarlarının başına

gələn hadisə həmişə yaşayır və heç bir vaxt möminlərin qəlbindən silinməyəcəkdir. Kimsə elə fikirləşməsin ki, insanlar həmişə özbaşına və azad şəkildə İmam Hüseynə (ə) əza saxlamışlar. Xeyr, belə deyil. Həmçinin kimsə elə güman etməsin ki, bu hadisə külli miqdarda maliyyə vəsaitinin xərclənməsi nəticəsində təbliğ olunmuşdur. Xeyr, tamamilə əksinə, elə ilk əza məclisi Yezidin öz evində keçirilmişdir. Yezid əsirləri azad edən gün Xanım Zeynəb (s.ə) ona dedi: "Yezid! Biz sənin evində İmam Hüseynə (ə) əza saxlamasaq, heç bir yerə gedən deyilik. Rəsmi olaraq ilk əza məclisi gərək burada təşkil olunsun."

Beləcə, ilk əza məclisi İmam Hüseynin (ə) yerə yıxıldığı çökəklikdə keçirilmişdir. Xanım Zeynəb (s.ə) orada növhə oxumuş və qızlar da orada ağlamışdılar. Xanım Zeynəb (s.ə) İmam Hüseynin (ə) şəhadət qanını orada diriltmişdi və Hüseynin (ə) şəhid olduğu gündən xanım onun əzasını saxlayırdı, lakin rəsmi olaraq ilk məclis Yezidin evində təşkil olundu.

Yezid bir çıxış yolu tapa bilmədiyini görüb məcbur olaraq əza məclisinin keçirilməsinə icazə verdi.

Beləcə Yezidin evi qara bəzədilib İmam Hüseynin (ə) əza məclisi quruldu. Həmin məclisdə zalımlar lənətləndi. Yezid isə bütün bunları görmək istəmirdi.

*Yezid, mən özüm naziridim mərdumun "ey vay" səsinə,*
*Qeyrətin var qulaq as sən də "Hüseyn vay" səsinə.*

Lakin Yezidin bu sözləri eşitməyə cürəti çatmadı. Əmr verildi ki, məclis dağılsın. Bundan sonra əza məclislərinin təşkil olunması qadağan edildi. Uzun illər İmam Huseyn (ə) əzadarları müxtəlif işkəncələrər məruz qaldı. Elə bu səbəbdən də İmam Səccad (ə) 40 il gizlində atası İmam Hüseynə (ə) ağlamışdır. İmam Səccaddan (ə) sonra Həzrət Peyğəmbəri (s) sevənlər, möminlər, Quranı sevənlər, Allahı sevənlər İmam

Hüseynə (ə) əza saxlamışlar. Belə şəxslər İslam Peyğəmbərinin (s) övladlarının qatillərinə lənət oxumuşlar.

Tarix boyu İmam Hüseynin (ə) əzası qadağan olunmuşdur. Həzrət Peyğəmbərin (s) övladlarının qatilləri iqtidarda olan zaman həmişə bu əzadarlıqlara qarşı çıxmışlar. Onlar əzadarlara müşrik, kafir, münafiq və bidətçi deyərək İmam Hüseyn (ə) aşiqlərini həbs edir və öldürürdülər. Digər tərəfdən də qəzetlərdə, jurnallarda və başqa informasiya vasitələrində İmam Hüseynin (ə) əza məclislərinə qarşı əks-təbliğat aparırdılar.

Bu kimi təqiblərə və hədə qorxulara baxmayaraq, İmam Hüseynin (ə) əza məclisləri gizli də olsa belə keçirilmişdir.

Odur ki, Aşura məktəbi yaşayır və yaşayacaqdır. Bu məktəbin yaşamasının da üç səbəbi vardır.

**Birincisi: Allah-taalaya bağlı olmaq**

Allah haqdır və heç bir haqqın həqqaniyyəti Allahın haqq olmasına çata bilməz. Mütləq haqq yalnız Odur. Quranın buyurduğuna əsasən, Allah-taaladan başqa hər nə varsa, müvəqqətidir və aradan gedəcəkdir.

كُلُّ من عليها فانٍ. ويبقى وجه ربك ذُو الْجلَالِ والْإِكْرام

–Bunun (yerin) üzərində (insan və cinlərdən) olan hər bir kəs fənaya məhkumdur. Yalnız əzəmət, böyüklük, üstünlük, kərəm, camal və mərhəmət sahibi olan Rəbbinin zatı qalacaqdır.[1]

Hər bir hərəkət, hər bir insan, hər bir kitab, hər bir qələm, hər bir söz və hər bir danışan dil əgər Allaha qoşulsa, o da əbədi olacaqdır. Yox, əgər qoşulmasa, məhvə məhkumdur. Bir baxın tarixə, görün kimlər dünyaya gəlib-gedibdir. Onların heç birinin ad-sanı belə qalmayıb. Bu gün Müaviyə kimilərin, Yezid kimilərin, eləcə də onlardan böyüklərin və

[1] Rəhman surəsi, 26-27-ci ayələr.

ya kiçiklərin hətta qəbirlərini belə insanlara göstərməyə utanırlar.

Hüseyn ibn Əli (ə) özünü haqqa qoşdu və elə bu səbəbdən də onun qiyamı əbədi olaraq yaşayacaqdır.

**İkincisi: İxlas**

Kərbəla hadisəsinin rəhbəri İmam Hüseyn (ə) idi. Ona tabe olanlar iki qrupa bölünürlər ki, bəziləri Kərbəlada şəhid olaraq “Kərbəla şəhidləri” adını qazandılar. Digər bir qismi isə əsir düşdülər ki, onlar da həmin şəhidlərin varisləri idilər. Yəni Kərbəla qiyamının bütün sonrakı vəzifə və öhdəlikləri məhz onların çiyninə düşdü. Bütövlükdə onların hər üçünün, yəni qiyam rəhbərinin, şəhidlərin və onların varislərinin ixlası Kərbəla qiyamının əbədi olaraq yaşamasına imkan yaratdı.

Allah-taala insanı xəlq etdikdən və ona haqq bir din göndərdikdən sonra ondan xalis ibadət istəyir. Allah-taala insana istər əxlaqi baxımdan, istər siyasi baxımdan və istərsə də ictimai baxımdan heç bir eybi və nöqsanı olmayan xalis bir din göndərib və insandan da bunun müqabilində ixlaslı əməl istəyir.

İslam dinində, Quranda eyib axtarmaq istəyənlər çox yanlış bir yoldadırlar. Elm inkişaf etdikcə şəriətin hökmləri, Həzrət Peyğəmbərin (s) kəlamları və Quranın ayələri daha da aydın şəkildə insanlara bəyan olur.

İbadətin səhih olmasının bir şərti vardır, o da ixlasdır. Yəni yalnız və yalnız Allaha xatir ibadət etmək lazımdır. Allahdan savayı başqa hər hansı bir niyyətlə edilən ibadət isə batil hesab edilir.

İxlaslı insana hətta şeytanın da gücü çata bilmir. Allah-taala Quranda buyurur:

قَالَ فَبِعِزَّتِكَ لَأُغْوِيَنَّهُمْ أَجْمَعِينَ. إِلَّا عِبَادَكَ مِنْهُمُ الْمُخْلَصِينَ

–(İblis) dedi: “İzzətinə and olsun ki, onların hamısını (kökü kəsilənə kimi Adəmin nəslinin hamısını) aldadıb doğru yoldan çıxaracağam. Onların arasından Sənin xalis bəndələrin istisna olmaqla.”[1]

İmam Həsən Əskəri (ə) buyurmuşdur: “Əgər dünyanın hamısını bir tikə edib ixlaslı insana versən, yenə də onun haqqını ödəyə bilməzsən.”

İmam Hüseyn (ə) bu nümunələrdən biridir. Babası İslam Peyğəmbəri (s) isə hamıdan şərəflidir. Atası həzrət Əli (ə) ixlas meydanının qəhrəmanıdır.

Xəndək döyüşündə Həzrət Əli (ə) ərəblərin ən güclü pəhləvanı Əmr ibn Əbdəvidi yıxıb sinəsinə çökmüşdü. O, vəziyyəti belə görüb hörmətsizlik edərək ağzının suyunu Həzrət Əliyə (ə) atdı. Həzrət (ə) əsəbiləşdi və əsəbiləşdiyinə görə də onun başını kəsmədi. Əsəbi sakitləşənə qədər səbir etdi və sonra onun başını kəsdi. Həzrət Peyğəmbər (s) onun bu qədər gecikməsinin səbəbini soruşduqda Həzrət Əli (ə) buyurdu: “Ya Rəsulallah! Onu yerə yıxdıqdan sonra dizimi onun sinəsinə qoyub başını kəsmək istədikdə o, mənə hörmətsizlik etdi və mən əsəbiləşdim. Qorxdum ki, onu Allaha xatir deyil, öz əsəbimə görə öldürərəm. Səbir etdim, əsəbim yatdı və onun başını Allaha xatir kəsdim.”

Buna ixlas meydanının qəhrəmanı deyərlər. İmam Hüseyn (ə) belə bir şəxsin oğlu idi və Allahın yer üzündə höccətiydi. İmam Hüseyn (ə) ixlas meydanının bəşəriyyətə nümunə olan insanlarından biridir.

Aşura günü meydandakı otuz min nəfər bir nəfərə ox atırdı, otuz min nəfər bir nəfərə daş atırdı. Belə bir meydanda İmam Hüseyn (ə) buyurmuşdu:

إِنْ كَانَ دِين محمدٍ لَم يستقِم إِلّا بِقَتِلي، فَيا سيوف خذِيني

[1] Sad surəsi, 82-83-cü ayələr.

–Əgər Məhəmmədin (s) dini mənim qətlimlə yer üzündə qalacaqsa, ey qılınclar, doğrayın məni.

İmam Hüseynin (ə) fikrində Allahın nazil etdiyi dindən savayı başqa heç bir şey yox idi.

إِلهي تركْت الْخلْق طُرا فِي هواكَا     و أيتمت الْعيال لِكَي أراكَا

فَلَو قَطعتِني فِي الْحب إِربا     و ما حن الْفُؤاد إِلّى سِواكَا

–İlahi! Bütün uşaqlarımı və ailəmi Sənin eşqinə tərk etdim. Əgər məni tikə-tikə doğrasalar da, mənim qəlbim Səndən başqasına meyil salmaz.

İmam Hüseyn (ə) Allaha xatir Əliəsğərindən və Əliəkbərindən keçdi. İmam Hüseyn (ə) özü ixlaslı olduğu kimi, Kərbəlaya da ixlaslı insanları özünə cəlb etdi və ixlası olmayanları özündən uzaqlaşdırdı. Xalis (təmiz, pak) olmayan insanları iki yolla tanımaq olar. Ya onların boyunlarında insanların haqqı var, ya da onun boynunda Allahın haqqı vardır. Boynunda insanların haqqı olan insan onların haqqını ödəyəndən sonra xalis (təmiz) olur. Həmçinin insan boynunda olan Allahın haqqını ödəsə, o insan təmizlənər. İmam Hüseyn (ə) Kərbəlada xalis olmayan insanları özündən uzaqlaşdırdı. Çünki onların bəzisinin boynunda insanların haqqı və bəzisinin boynunda isə Allahın haqqı var idi.

Musa ibn Umeyrin oğlu belə nəql edir ki, atam mənə demişdi: "İmam Hüseyn (ə) məni çağırıb buyurdu: "Mənim tərəfdarlarıma elan et ki, kimin boynunda insanların haqqı varsa, mənimlə gəlməsin, qayıtsın."

Həzrət İmam Hüseyn (ə) boynunda insanların haqqı olanları bu yolla ayırdı və yerdə qalanlara (xüsusilə, Allaha və İmam Hüseynə (ə) səmimi qəlblə bağlı olmayanlara) isə belə buyurdu: "Öz ailənizi də götürüb gedin." Bunu eşidən bəzi insanlar o həzrətdən ayrılıb getdilər. Getməyə utanan insanlar üçün işıqları söndürməyi əmr etdi. Kərbəlada mənimlə yalnız pak və ixlaslı insanlar qalmalıdır. Hər kim

Allaha, Hüseynə (ə), imamətə, vilayətə, nübüvvətə ixlasla inanırsa, yalnız onlar qala bilər, yerdə qalanlar getməlidirlər.

İbn Sədin qoşununda da bəzi xalis bəndələr var idilər və İmam Hüseyn (ə) onları da ayırıb öz dəstəsinə qoşdu. Həzrət İmam Hüseyn (ə) həm öz dəstəsindəki naxalis insanları özündən uzaqlaşdırdı və həm də İbn Sədin qoşununda olan xalis bəndələri onlardan ayırıb öz dəstəsinə qoşdu. Yəni İmam Hüseynin (ə) tərəfində olanların hamısı təmiz və pak insanlar idilər. Ömər Sədin tərəfində isə çirkin və naxalis insanlar cəmləşmişdilər.

## Aşura günü İmam Hüseynə (ə) qoşulanlar

**1. Hürr ibn Yezid Riyahi**

Əvvəlcə düşmən sıralarında olmuş sonradan İmam Hüseynə (ə) qoşulan ilk şəxs Hürr olmudur. O, Aşura günü İmamın (ə) yanına gəlib dedi:

–Ey Peyğəmbərin (s) övladı! Mən səni yaxşı tanıyıram. İşin bu yerə gəlib çatacağını bilmirdim. Mən bu gün əgər tövbə etsəm, tövbəm qəbul olunarmı?

İmam Hüseyn (ə) buyurdu:

نعم يتوب الله عليك و يغفِر لك

–Bəli, Allah sənin tövbəni qəbul edər və səni bağışlayar.

Hürr tövbə etdi və əyilib üzünü İmam Hüseynin (ə) mübarək qədəmlərinə qoyub dedi:

–Məni bağışla, səni bura mən çəkib gətirmişəm. Sən məni qəbul etdiyin üçün başım ərşə dəydi və sən məni ucaltdın.

Sonra Hürr İmam Hüseyndən (ə) izn alıb döyüşə getdi və şəhid oldu. Həzrət Hüseyn (ə) Hürr şəhid olandan sonra onun başı üzərində dayandı və onun mübarək üzünün qanını əli ilə silərək buyurdu:

–Anan səni Hürr (azad) adlandırdığı kimi sən həm bu dünyada və həm də axirətdə azad insansan!

**2. Əmr ibn Xalid Seydavi**

Əmr ibn Xalid Seydavi adlı bir şəxs Ömər ibn Sədin qoşununda idi. O, İmam Hüseyn (ə) zöhr namazını qılandan sonra gəlib ona dedi:

–Ey Əba Əbdillah! Mən həqiqi mənada sənin haqlı olduğunu başa düşdüm. Mən sənin düşmənlərinin cərgəsində olmağımı istəmirəm. Sənin öz əhli-əyalının arasında tək qalıb mübarizə apardığını gördükdən sonra sənə qoşulmaq üçün icazə istəyirəm.

İmam Hüseyn (ə) onun gəlişini qəbul etdi. Əmr dedi:

–Sən mənə şərəf verdin, mənə əbədiyyət bəxş etdin. İndi icazə ver, sənin tərəfindən onlarla döyüşə gedim.

İmam Hüseyn (ə) buyurdu:

تقَدم فَإنا لاحِقُونَ بك عن ساعةٍ

–Get, həqiqətən, biz də tezliklə sənə qoşulacağıq.

İmam Hüseyn (ə) döyüşə gedən bəzi səhabələrinə “Həzrət Peyğəmbərə (s) salam verin və deyin ki, tezliklə biz də ona qovuşacağıq”, – deyə söyləyirdi. Bəzi səhabələrinə isə “Həzrət Əliyə (ə) və cənnət əhlinə burada baş verənləri danışın”, – deyirdi.

**3. Yezid ibn Ziyad**

Yezid ibn Ziyad da zöhr namazından sonra İmama (ə) qoşuldu. O, Həzrət Hüseynin (ə) yanına gəlib dedi:

عفْواً عفْواً عفْواً

–Bağışla, bağışla, bağışla! İcazə verirsənmi sənə qoşulum.

O da İmamdan (ə) icazə alıb döyüşə getdi və şəhid oldu. O, döyüşərkən İmam Hüseyn (ə) ona dua edirdi.

İmam Hüseyn (ə) düşmən ordusundan bir-bir xalis insanları tapıb çıxartdı. Onlar da İmam Hüseynin (ə) haqq olduğunu

gec də olsa anladılar və gəlib İmamın (ə) tərəfindən döyüşdə iştirak etdilər.

Müslüm ibn Əqil İmam Hüseynin (ə) məktubunu Kufədə oxuyandan sonra bir nəfər gəlib onun qarşısında dayandı və dedi:

و الله لَأُجِيبنكُم إِذا دعوتم، و لَأُقاتِلن معكُم عدوكُم، و لَأُضرِبن بِسيفِي دونكُم حتى أَلْقى الله

–And olsun Allaha! Mən sizin dəvətinizi qəbul etdim və mən sizinlə, sizin düşmənlərinizlə döyüşməyə hazıram. Allaha qovuşana qədər qılıncımı götürüb döyüşməyə hazıram.

إِنا لا نرِيد بِذلِك إِلاّ ما عِند الله

–Həqiqətən, biz bu əməlin müqabilində Allahın əcrindən savayı başqa heç bir şey istəmirik.

## Həzrət Əbülfəzlin (ə) ixlası

Xalis bəndələrdən biri də Əbülfəzl ağa idi. Həzrət Əbülfəzl ağa aşura gecəsi söhbəti zamanı öz ürək sözlərini çatdırmaqla hamını heyrətə saldı. İki imam Əbülfəzl ağanın qollarından öpmüşdür. Biri atası İmam Əli (ə) idi ki, Abbas dünyaya gələndə onun qollarını üç dəfə öpüb ağladı.

Biri də Kərbəlada Həzrət Abbasın qolları kəsiləndən sonra İmam Hüseyn (ə) onun kəsilmiş qollarını yerdə görəndə atdan enib onun qollarını öpdü.

Həzrət Əbülfəzl (ə) qolları qələm olduqdan sonra duşmənə səslənərək dedi:

–And olsun Allaha, mənim qollarımı kəsməklə sizə elə gəlməsin ki, mən Hüseyndən (ə) əl çəkəcəyəm. Son nəfəsimə qədər onu himayət edəcəyəm.

Kitabların birində belə bir hədis nəql olunmuşdur: “Mübarək ramazan ayının 21-ci gecəsi İmam Əli (ə) dünyasını

dəyişən zaman son dəfə Əbülfəzlə (ə) vidalaşanda onu bağrına basıb buyurdu:

ولَدِي أبا الْفَضل، ِإذَا كَانَ يوم عاشوراء ، و دخلْت الْماءَ و ملَكْت الْمشرعةَ، فَإياك أنْ تشرِب الْماءَ و أنْ تذُوق ِمنه قَطْرةً و أخوك الْحسين علَيهِ السلام عطْشاناً.

–Oğlum Əbülfəzl! Elə ki, aşura günü gəlib çatdı və sən Fərat çayına daxil olduqa məbada qardaşın Hüseyn susuz olduğu bir halda su içəsən.”

Atasının bu vəsiyyəti Əbülfəzl ağanın yadında qalmışdı. Aşura günü gedib Fəratın içinə daxil oldu. Məşki doldurdu və sonra ovcu ilə su götürüb dodaqlarına sarı apardı. İçmək istəyəndə atasının vəsiyyəti yadına düşdü və İmam Hüseynin (ə) susuzluğunu yadına salaraq suyu yerə tökdü. Həzrət Əbülfəzl su gətirə bilmədi, lakin adı “Səqqa” olaraq qaldı.

Kərbəla hadisəsində dörd nəfərə “Səqqa” deyilir:

Birinci “Səqqa” İslam Peyğəmbəridir (s). Həzrət Əliəkbər atdan yıxılan zaman atasına “əgər mümkündürsə, bir içim su istəyirəm”, – deyə söylədi. Lakin İmam Hüseyn (ə) ona su verə bilmədi. Ancaq Həzrət Əliəkbər yerə düşəndən sonra uca səslə “Ata, babam Həzrət Peyğəmbər (s) mənə su verdi”, – dedi.

İkinci “Səqqa” İmam Hüseyndir (ə). Belə nəql olunur ki, məhərrəm ayının yeddinci günü zalımlar suyun yolunu bağladılar. İmam Hüseyn (ə) xeymələrin arxasında yerdən bir ovuc torpaq götürdü. Həmin torpağın yerindən bir bulaq suyu axmağa başladı və hər kəs oradan su içdi. Sonra İmam (ə) götürdüyü torpağı öz yerinə tökdü.

Aşura günü İmam Hüseyn (ə) Bureyrə söylədi: “Get, uşaqlar üçün bir az su istə. Bureyr gəlib düşmən qoşununun qarşısında dayandı və su istədi. Lakin onlar su vermədilər. Sonra Əbülfəzl ağadan su istədi. O həzrət su dalınca getdi və

şəhid oldu. Daha sonra özü əvvəlcə qoşundan su istədi, lakin onlar su vermədilər. Həzrət (ə) "heç olmasa qadınlara su verin", – deyə söylədi. Yenə də su vermədilər. Sonra Əliəsğəri əlinin üstündə tutub söylədi:

ويلكُم اسقُوا هذا الرضِيع أَما ترونه كيف يتلظي عطشاً

–Vay olsun sizə! Heç olmasa bu körpə uşağa su verin. Məgər bu uşağın susuzluqdan necə çapaladığını görmürsünüzmü?

Nəql edirlər ki, Həzrət Əliəsğəri oxlamağa heç bir ehtiyac yox idi. Onsuz da körpə uşaq axır nəfəslərini çəkirdi və susuzluqdan ölüm ayağında idi. Lakin Hərmələ İmam Hüseynin (ə) bu çağırışına ox ilə cavab verdi.

Üçüncü "Səqqa" Əbülfəzl ağadır.

Dördüncüsü Kərbəla hadisəsinə görə əza saxlayan insanların göz yaşlarına görə onlara "Səqqa" deyilir. İmam Hüseynin (ə) əzasında ağlayanlar da "Səqqa" adlandırılır.

Mərhum Şüştəri yazır: "İmam Hüseynin (ə) əzasında gözyaşı tökənlər də "Səqqa"ların cərgəsində yer tuturlar."

**Üçüncü: Şəhidlərin varisləri**

Kərbəla hadisəsində baş verənlərin yaddaşlarda qorunub saxlanılmasında şəhidlərin varislərinin çox böyük rolu olmuşdur. Burada təbiidir ki, ilk olaraq Xanım Zeynəbin (s.ə) adını çəkmək olar.

İmam Hüseyn (ə) son vidasında bacısı Zeynəbə (s.ə) söylədi:

–Bacı, ələmdarım yoxdur, oğlum Səccaq (ə) xəstədir, qızdırma içində yanır. Allahın izni ilə səni övladlarıma başçı təyin etdim. Onlardan muğayat ol. Bu gündən sən ələmdar sayılırsan.

Xanım Zeynəb (s.ə) bir qadın idi. Kərbəla hadisəsində o, iki dəfə huşunu itirmişdir. Birinci dəfə aşura gecəsində İmam Hüseynin (ə) oxuduğu şeiri eşidəndə bu halı yaşamışdır.

*Ey ruzigar, vay olsun sənin dostluğuna! Gecə gündüz neçə-neçə dostlarımızı aparıb aramızda ayrılıq salmısan...*

Bu şeirin mənasından belə başa düşülürdü ki, artıq bu gecə axırıncı gecədir. İmam Səccad (ə) buyurur ki, mən bu şeiri eşidəndə ağlamağımı saxlaya bildim, amma bibim Zeynəb (s.ə) o qədər ağladı ki, bihuş oldu. İmam Hüseyn (ə) onun üzünə su səpib ayıltdı və buyurdu:

–Bacı, Həzrət Peyğəmbər (s) dünyasını dəyişib, anam dünyasını dəyişib, atam dünyasını dəyişib, qardaşım dünyasını dəyişib. Dünyada nə varsa, hamısı dünyadan gedəcəkdir. Mən də gedirəm, heç narahat olma.

İmam Hüseyn (ə) ona ürək-dirək verdi. Daha doğrusu onu təlimatlandırdı.

İkinci dəfə isə İmam Hüseyn (ə) xeymələrdən ayrılanda Xanım Zeynəb (s.ə) dözə bilməyib huşunu itirdi.

İmam Hüseyn (ə) meydana gedəndə bacısı Zeynəb (s.ə) hər nə qədər onu səslədisə, gördü ki, Həzrət (ə) dayanmır. Ardınca qaça-qaça səslədi:

–Dayan, dayan! Ey Zəhranın övladı!

İmam Hüseyn (ə) anası Zəhranın (s.ə) adını eşidəndə dayandı. Sonra bacısına təskinlik verərək buyurdu ki, səbirli ol, uşaqları sənə tapşırıram. Bu gündən belə bu inqilaba sən rəhbərlik edəcəksən.

İmam Hüseyn (ə) meydana gedəndən sonra artıq Zeynəb (s.ə) əvvəlki Zeynəb (s.ə) deyildi. Xeymələr yanandan sonra Xanım Zeynəb (s.ə) başqa bir xeymə qurdu və onun da yarısı yandı. Çöllərə dağılmış qızları bir-bir tapıb həmin xeyməyə toplayırdı. Ağlayan uşaqlara təskinlik verib onları sakitləşdirirdi. O, gördü ki, uşaqlardan ikisi yoxdur. Gedib onları axtarmağa başladı və hər ikisini bir kolun dibində ölmuş halda tapdı.

Xanım Zeynəb (s.ə) Kərbəla hadisəsini öz gözləri ilə görmüşdü. Qardaşının mübarək başının kəsildiyini görmüşdü,

amma buna baxmayaraq, aşuradan sonra onun öhdəsinə düşən bütün vəzifələri lazımınca yerinə yetirdi.

Rəvayətlərdə belə nəql olunub ki, Xanım Zeynəb (s.ə) İmam Hüseyni (ə) meydana yola salandan sonra gəlib bir təpənin üstündə dayandı və meydana baxmağa başladı. Gördü ki, Şimr İmam Hüseynin (ə) sinəsinə çöküb və onun başını kəsmək istəyir. Xanım Zeynəb (s.ə) əllərini qaldırıb Nəcəf tərəfə baxaraq atası İmam Əlini (ə) çağırdı. Sonra isə Mədinəyə tərəf baxaraq anası Xanım Fatimeyi Zəhranı (s.ə) çağırdı.

*Qeyrətü hikmətin boğazından göylərə qalxan haydı aşura,*
*Min müqəddəs aya bərabərdir, min ilə denən taydı aşura,*
*Gecənin fəzli, gündüzün nuri, həm günəş, həm aydı aşura,*
*Aşiqə həm ürəkdi, həm candi.*

*Qonaq idi məhərrəmin onuna yüz min Allah rəsulu meydanda,*
*Süfrə açmışdı bir yaralı günəş boğazından axan qızıl qanda,*
*Göyün ulduzları deyib ləbbeyk, ayələr səslənərdi Quranda,*
*Vəsf edərdi imami ətşani.*

*Gördü qan lazım olmuş imanə, dedi mövla bu baş, bu sinə, bu qan,*
*Baş nədir, can nədir, həyat nədir, hər üçü dini Əhmədə qurban,*
*Mən dirildəm gərəkdir ədli bu gün bidəti, zilləti salam candan,*
*Dolduram izzət ilə dünyani.*

*Mən gərək aləmə əyan eləyəm ki, rəsuli mubindir aşura,*
*Göstərib aləmə Hüseyn eşqin, çün behişti bərindir aşura,*
*Ürəyə, öyrədir insana şərəf dərsin, məktəbe şərü dindir aşura,*
*Mə'ni etmiş məqami sübhani.*

*Kərbəlani dikəldib aşura, Kərbəla asimanə naz eylər,*
*Kərbəlayə təvəssül eyləsə xalq, Kərbəla xalqa kəşfi raz eylər,*
*Kərbəladən nələr yazım Seyyid, vəsfi həqqi necə məcaz eylər,*
*Mən necə yazım o mənani?*

Bəzi Avropa alimləri öz kitablarında, məqalələrində və əsasən də siyasi söhbətlər zamanı müsəlmanlara irad tutaraq deyirlər ki, İslam dini qılınc gücünə inkişaf etmişdir. Müsəlman alimləri isə elmə, məntiqə, tarixi hadisələrə, Qurana və hədislərə əsaslanaraq onlara gərəkli cavabı vermişlər. Dünyada gedən siyasi proseslərə əsasən, 200 ildən çoxdur ki, bu məsələ ətrafında söhbətlər gedir. İslam alimləri qısaca olaraq onların cavabında bu fikrin düz olmadığını və reallıqlara

söykənmədiyini bəyan edirlər. Belə ki, əgər Bəni-Üməyyə, Müaviyə və xüsusilə onun fasiq törəmələri olmasaydılar, həmçinin İslam Peyğəmbərinin (s) buyurduqlarına onun vəfatından sonra da əməl olunsaydı, Allahın Rəsulunun (s) öz yerinə təyin etdiyi canişin ondan sonra müsəlmanların rəhbəri olsaydı, o zaman bu gün dünyada bir milyard deyil, altı milyard müsəlman olardı. Yəni bütün dünya əhli müsəlman olardı. Amma onlar buna imkan vermədilər. Onlar hər bir vəchlə İslam dinini elə bir vəziyyətə qoydular ki, onun dünyaya yayılmasının qarşısını aldılar.

İslam alimləri həmişə Avropa alimlərini əvvəlcə Quranı mütaliə etməyə və yalnız bundan sonra onun barəsində düşünməyə, fikir söyləməyə dəvət edirlər. Kimlərinsə sözlərinə aldanıb İslam haqqında müxtəlif fikirlər söyləmək heç bir məntiqə sığmır və belə hərəkətlərdən çəkinmək lazımdır. Odur ki, hər hansı bir alim kimlərinsə əlində oyuncaq olmamalı, özü məsələləri haqq-ədalətlə araşdırmalı və düşünüb müəyyən bir qərara gəlməlidir. Kimlərinsə şəxsi istəklərinə uyğun hərəkət edən alim deyil və belələrinin hər hansı bir məsələyə dair rəy və fikirlərinin də heç bir əhəmiyyəti yoxdur.

İmanlı şəxslər möhkəm dağ kimidirlər və belə insanlar heç bir selin, tufanın qarşısında təslim olmazlar. İmam Hüseyn (ə) başda olmaqla bütün Kərbəla şəhidləri kimi. Həmçinin Xanım Zeynəb (s.ə) başda olmaqla bütün Kərbəla şəhidlərinin varisləri kimi. "Yezid belə dedi, İbn Ziyad belə etdi, filankəslər bizi hədələdilər, filan yerdən bizə göz ağartdılar" və s. kimi sözlər Xanım Zeynəbin (s.ə) iradəsini qıra bilmədi. O, yalnız Allahın sözünə, Həzrət Peyğəmbərin (s) vəsiyyətlərinə və şəhidlərin onlardan istəklərinə əsasən hərəkət etdi. Kərbəlada 72 nəfərin başını kəsdilər və qan onların boğazlarını tutduğundan sözlərini müsəlmanlara çatdıra bilmədilər. Lakin Xanım Zeynəb (s.ə) onların varisi idi və onların hamısının səsi o xanımın boğazından (dilindən) çıxıb bütün müsəlman-

lara çatdı. Kərbəla hadisəsini, bu inqilabı, Hüseyni (ə), qara köynəkləri və İslam düşmənlərinin hələ də qorxduqları ələmləri bu gün bizlərə çatdıran Xanım Zeynəbdir (s.ə).

Həqiqətən də əgər Bəni-Üməyyə olmasaydı, İslamın necə sürətlə inkişaf edə biləcəyini hamı görərdi. Amma onlar İslam dinini öz məcrasından tamamilə başqa bir  səmtə çevirdilər. Avropa alimlərinin birindən müsahibə alarkən o demişdir: "Biz avropalılar gərək Müaviyənin heykəllərini qızıldan düzəldib Avropanın şəhərlərinin meydanlarında ucaldaq." Bunun səbəbini ondan soruşanda isə o demişdir: "Biz Müaviyənin həyatını tarixi mənbələrdə oxumuşuq. Əgər Müaviyə olmasaydı, bu gün yer kürəsindəki bütün insanlar müsəlman olardı. Bəni-Üməyyə bunun qarşısını aldı."

Müasir dövrdə elmin və texnologiyanın bu qədər inkişaf etməsinə baxmayaraq, bəzi Avropa alimləri yenə də İslama aqressiv münasibət bəsləyirlər. Hətta onlardan bəziləri isə Quranı yandırırlar. Əgər min il bundan qabaq onlar bu işi görsəydilər, yenə də bunu başa düşmək olardı. Deyərdik ki, anlamayıb, başa düşməyib, amma müasir dövrdə belə bir işi görən insanın bu əməlinə nə ad vermək olar. Zahirən bunlar ağıllı insan olduqlarını göstərməyə çalışırlar, lakin onlarla azacıq münasibət yaratdıqdan və gördükləri işlərə diqqət yetirdikdən sonra bunun heç də belə olmadığını görürsən. Ozünü ağıllı hesab edən insan heç İslam Peyğəmbərinin (s) karikaturasını çəkərmi? Yaxud bu işi görəni təsdiqləyərmi? Əgər belə haqdan danışıb demokratiyadan dəm vurursunuzsa, o zaman imkan verin beş nəfər müsəlman da dünya arenasında öz sözünü desin.

**İslam dini üç prinsip əsasında inkişaf etmişdir**

Bizim sözümüz budur ki, İslam dininin inkişafı üç prinsip əsasındadır. Birincisi, İslam dini məntiqə və hikmətə əsas-

landığından, eləcə də hər bir eyib və nöqsandan uzaq olduğu üçün inkişaf etmişdir. Quranda bu haqda buyurulur:

ذَلِكَ مِمَّا أَوْحَى إِلَيْكَ رَبُّكَ مِنَ الْحِكْمَةِ

–Bu, Rəbbinin sənə vəhy etdiyi bəzi hikmətlərdəndir.[1]

“Cümə” surəsinin 2-ci ayəsində buyurulur:

يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ

–Ayələrini onlara oxumaq, onları (əqidədə, əxlaqda və əməldəki çirkinliklərdən) pak etmək, onlara (səmavi) kitab, hikmət öyrətmək üçün...[2]

İkincisi, İslam Peyğəmbərinin (s) əxlaqı və seçdiyi təbliğat üslubu belə bir şəraitin yaranmasına səbəb olmuşdur. Belə ki, İslam Peyğəmbəri (s) söhbət etdiyi hər bir şəxsi özünə valeh edə bilirdi. Hətta o həzrətin düşmənləri Məkkəyə gələn hər bir qonağa İslam Peyğəmbərinin (s) sözlərini eşitməmək üçün qulaqlarına pambıq tıxamağı məsləhət görürdülər. Lakin bəziləri öz-özünə düşünürdü ki, mən nə üçün qulağıma pambəq tıxamalıyam? Məgər mən uşağammı? Gedib onunla söhbət edərəm, əgər sözləri doğrudursa nə üçün qəbul etməyim?

İslam Peyğəmbərinin (s) əxlaqı insanları özünə cəlb edirdi.

ادْعُ إِلَى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ

– (İnsanları) Rəbbinin yoluna hikmətli məntiq, qaneedici dəlillər və gözəl, oyadıcı və ibrətamiz nəsihətlə dəvət et.[3]

Başqa bir ayədə deyilir:

فَبِمَا رَحْمَةٍ مِنَ اللَّهِ لِنْتَ لَهُمْ وَلَوْ كُنْتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لَانْفَضُّوا مِنْ حَوْلِكَ

---

[1] İsra surəsi, 39-cu ayə.
[2] Cümə surəsi, 2-ci ayə.
[3] Nəhl surəsi, 125-ci ayə.

–Beləliklə, Allah tərəfindən olan rəhmətin bərəkəti sayəsində onlarla (öz ümmətinlə) mülayim oldun və əgər qaba və daşürəkli olsaydın, onlar mütləq sənin ətrafından dağılışardılar.[1]

Uşaqlar və böyüklər, habelə xarici qonaqlar, alimlər, yazıçılar və hətta qəlblərində kin-küdurəti olan insanlar belə Həzrət Peyğəmbərlə (s) görüşdükdən sonra dərhal dəyişilir və ona məftun olurdular.

Üçüncüsü, İslamın düşmənləri müqabilində müqavimət göstərilməsi və müqəddəs cihadın davam etdirilməsi bu inkişafa imkan yaradan amillərdəndir.

محمد رسولُ اللهِ والذِين معه أشِداء علَى الْكُفارِ رحماء بينهم

–Məhəmməd Allahın peyğəmbəridir. Onunla birgə olanlar kafirlərin qarşısında güclü və sərt, öz aralarında isə mehribandırlar.[2]

Beləcə, İslamın inkişafına səbəb olan əsas amillərdən bəhs etdik. Bununla yanaşı, həmçinin onu da qeyd etməliyik ki, İslam dininin rəhbərləri hər bir zaman İslamın mənafeyi naminə məsləhət olduğu təqdirdə silaha da əl atacaqlar. Bunun da öz səbəbləri vardır. Birincisi, özünü müdafiə etmə təbii bir hissdir və insanın özünü müdafiə etməsinin şəriətə heç bir zidiyyəti yoxdur. Hətta heyvanlarda da belə özünü müdafiə etmə hissiyyatı vardır. Adicə buğdanın, yaxud arpanın sünbüllərinə bir diqqət yetirsəniz, onların tikanlarının məhz özünü müdafiə etmə qabiliyyətinə malik olduğunu görərsiniz.

Ağlın hökmünə əsasən, insan özünü müdafiə etməlidir. Əgər bir insanı təhqir edirlərsə, onun əleyhinə nələrsə yazırlarsa, insanın özünü müdafiə etməsi vacibdir və belə bir müdafiə üçün nə Allahdan, nə Peyğəmbərdən (s), nə Qurandan

---

[1] Ali-İmran surəsi, 159-cu ayə.

[2] Fəth surəsi, 29-cu ayə.

və nə də imamdan icazə almaq lazım deyil. Ağıl insanın daxili höccətidir və ağlın hökmünə əsasən, əgər insana hücum edirlərsə, o da gərək özünü müdafiə etsin. Müdafiə olunmaq üçün isə gərək insanın müəyyən bir hazırlığı olsun. Elə bu səbəbdən də hər hansı bir müsəlman ölkəsinin inkişafını görən Qərb ölkələri çox narahat olur və bağırları çatlayır. Çünki onlar müsəlmanların inkişaf etməsini qətiyyən istəmirlər.

İkincisi isə Peyğəmbər (s) v yaxud məsum imamın (ə) olduğu zaman İslam hökmlərinin icra olunması üçün lazım gəldikdə silaha əl ata bilər. Bu məsələ yalnız İslam dininə xas olan bir cəhət deyil və hər bir sahədə bu belədir.

Qurani-kərimdə cihad etmək və müdafiə olunmaq üçün bəyan olunan mühüm ayələrdən biri də aşağıdakı mübarək ayələrdir:

وقَاتِلُواْ فِي سَبِيلِ اللّهِ الَّذِينَ يُقَاتِلُونَكُمْ وَلاَ تَعْتَدُواْ إِنَّ اللّهَ لاَ يُحِبِّ الْمُعْتَدِينَ. وَاقْتُلُوهُمْ حَيْثُ ثَقِفْتُمُوهُمْ وَأَخْرِجُوهُم مِّنْ حَيْثُ أَخْرَجُوكُمْ وَالْفِتْنَةُ أَشَدُّ مِنَ الْقَتْلِ وَلاَ تُقَاتِلُوهُمْ عِندَ الْمَسْجِدِ الْحَرَامِ حَتَّى يُقَاتِلُوكُمْ فِيهِ فَإِن قَاتَلُوكُمْ فَاقْتُلُوهُمْ كَذَلِكَ جَزَاء الْكَافِرِينَ. فَإِنِ انتَهَوْاْ فَإِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ. وَقَاتِلُوهُمْ حَتَّى لاَ تَكُونَ فِتْنَةٌ وَيَكُونَ الدِّينُ لِلّهِ فَإِنِ انتَهَواْ فَلاَ عُدْوَانَ إِلاَّ عَلَى الظَّالِمِينَ.

–Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun və həddi aşmayın. Allah həddi aşanları sevmir. Onları (Məkkə müşriklərini) harada ələ keçirsəniz öldürün və sizi qovub çıxardıqları yerdən (Məkkədən) qovub çıxardın. Fitnə (onların Allaha şərik qoşmaları, müsəlmanları incitmələri və Məkkədən çıxarmaları) öldürməkdən daha pisdir. Onlar sizinlə Məscidül-Həramın yanında vuruşmayınca, siz də onlarla orada vuruşmayın. Beləliklə, əgər sizinlə (orada) vuruşsalar, onları öldürün ki, kafirlərin cəzası elə odur. Əgər

(Allaha şərik qoşmaqdan və döyüşdən) əl götürsələr, həqiqətən, Allah çox bağışlayan və mehribandır. Heç bir fitnə qalmayıncaya (şirkin kökü kəsilincəyə), din və itaət yalnız Allaha məxsus oluncaya qədər onlarla vuruşun. Beləliklə, əgər (Allaha şərik qoşmaqdan) əl çəksələr, zalımlardan başqasına qarşı həddi aşmaq rəva deyildir.[1]

Odur ki, heç kəs də elə düşünməsin İslam yalnız qılınc gücünə inkişaf etmişdir. İslam dini qeyd olunduğu kimi ilk növbədə ağıla, məntiq və hikmətə əsaslanda, ikinci növbədə İslam Peyğəmbərinini (s) əxlaq və rəftarını, üçüncüsü isə möhkəm müqavimət əsasında inkişaf edtmişdir. Bəli lazım gəldikdə müdafiə üçün silaha da əl atılmalıdır ki, bu da təbiidir.

---

[1] Bəqərə surəsi, 190-193-cü ayələr.

## İMAM HÜSEYNİN (Ə) QİYAMININ QURAN BAXIMINDAN İZAHI

İmam Hüseynin (ə) qiyamı müxtəlif baxışlardan araşdırılmışdır. Onlardan biri də qiyamın Quran baxımından izahıdır. Yuxarıda qeyd etmişdik ki, İmam Hüseynin (ə) həm sözü və həm də əməli Quranla eynidir. Yəni o həzrətin həm sözü höccətdir və həm də əməli höccətdir. İmam Hüseynin (ə) qiyamını Qurani-kərim belə izah edir:

**1. Allahın dininə kömək etmək və Quranın hökmlərinin icrası vacibdir**

Allahın razılığını qazanmaq, ictimai ədaləti bərqərar etmək və yolunu azmaq ehtimalında olan insanları düz yola qaytarmaq, habelə şirklə küfrə qarşı mübarizə aparmaq hər bir müsəlmana vacibdir. Bu barədə Allah-taala “Bəqərə” surəsinin 193-cü ayəsində buyurur:

وقَاتِلُوهم حتى لاَ تكُونَ فِتنةٌ ويكُونَ الدين لِلّهِ فَإِنِ انتهواْ فَلاَ عدوانَ إِلا علَى الظَالِمِين

– Fitnə (bütpərəstlik və əsarət) aradan qalxana qədər və din yalnız Allaha məxsus olanadək onlarla vuruşun. Əgər onlar (yanlış hərəkətlərə) son qoysalar, (onları sıxışdırmayın, çünki) düşmənçilik yalnız zülm edənlərə qarşı olur.

**İmam Hüseyn (ə) Allahın dininə kömək haqda**

İmam Hüseynin (ə) karvanı ilə Hürrün qoşunu Beyzə adlı bir mənzildə düşərgə saldılar. İmam Hüseyn (ə) Hürrün qoşununa öz qiyamının səbəbini çatdırmaq üçün çox əlverişli bir fürsət yarandığını görüb buyurdu:

أيها الناس إِن رسولَ اللهِ صلي اللهُ علَيهِ و آلِهِ قَالَ: من رأي سلْطاناً جائِراً مستحِل لِحرامِ الله ناكِثاً عهده مخالِفاً لِسنةِ رسولِ اللهِ يعملُ فِي

عِبادِ اللهِ بِالْإثْمِ و الْعدوان فَلَم يغير علَيهِ بِفعلٍ و لا قَولٍ كانَ حقّاً علي اللهِ أنْ يدخِلَه مدخلَه.

–Ey camaat! Həqiqətən, Rəsulullah (s) buyurmuşdur: “Hər kim Allahın halalını haram edən, Onun peymanını pozan, Peyğəmbərin (s) sünnətinin əksinə əməl edən və Allah bəndələrinə qarşı günah və düşmənçilik edən zalım bir padşah görsə və dili, yaxud əməli ilə ona etiraz etməsə, Allah-taala o (zalım padşahı) daxil etdiyi (cəhənnəmə) onu da daxil edəcəkdir.”

İmam Hüseyn (ə) bu hədisi nəql edəndən sonra buyurdu:

و إن هؤلاءِ قَد لَزموا طاعةَ الشيطان و تركُوا طاعةَ الرحمان و أظْهروا الْفَساد و عطلوا الْحدود و استأثَروا بِالْفَيءِ و أحِلوا حرام اللهِ و حرموا حلاله و أنا أحق مِن غَيري بِهذا الْأمرِ لِقَرابَتي مِن رسول اللهِ صلي اللهُ علَيهِ و آلِهِ.

–Həqiqətən, bu tayfa (Yezid və onun tərəfdarları) şeytana itaət edirlər və Allahın itaətindən boyun qaçırırlar. Yer üzündə fəsadı yayırlar və Allahın qoyduğu hüdudlara təcavüz edirlər və beytülmalı öz istədikləri kimi xərcləyirlər. Allahın haramını halal, halalını isə haram edirlər. Mən Həzrət Peyğəmbərə (s) yaxın olduğuma görə bu işə (bunlara etiraz etmək üçün) hamıdan daha haqlıyam.

Bu sözlərdən belə məlum olur ki, burada torpaq, mülk və ya iki ərəbin davasından söhbət getmir. İmam Hüseyn (ə) İslam Peyğəmbərinin (s) sözü ilə Yezidin əməlini qarşı-qarşıya qoyur və onlara bildirir ki, Həzrət Peyğəmbərin (s) sözü ilə Yezidin əməli düz gəlmir. Əgər Həzrət Peyğəmbər (s) bu sözləri deməyibsə, o zaman bu sözlərin səhv olduğunu bildirin və yaxud əgər Yezid və onun ətrafındakılar belə işləri görmürlərsə, mənim sözlərimi təkzib edin. Yezidin nə işlər gördüyünü onlar gözəl bilirdilər. Onun müsəlmanların rəhbəri adı altında şərab içdiyini, heyvanlarla oynadığını və

müsəlmanlara etdiyi zülmü çox yaxşı görürdülər. İmam Hüseynin (ə) belə bir insana etiraz etməsi məgər günah idimi?!

Hürrün qoşununda Hürr özü başda olmaqla bir çox savadlı və Həzrət Peyğəmbərin (s) zamanını dərk etmiş insanlar var idi. Onlar bu sözlərin haqq olduğunu bildikləri üçün İmam Hüseynin (ə) sözlərini təkzib etmədilər.

İmam Hüseyn (ə) Quran ayələrinə və Həzrət Peyğəmbərin (s) mübarək kəlamlarına əsasən bu əməli (qiyamı) yerinə yetirirdi.

**İmam Hüseynin (ə) Bəsrə camaatına yazdığı məktub**

İmam Hüseyn (ə) Məkkə şəhərinə daxil olandan sonra Bəsrə camaatına xüsusilə oranın alimlərinə bir məktub yazdı. Həzrət (ə) bu məktubda ilk olaraq belə buyururdu:

–Allah-taala Həzrət Məhəmmədi (s) xalqın arasından seçdi və ona peyğəmbərlik verməklə kəramət bəxş etdi. O da öz vəzifəsini yaxşı yerinə yetirdi. Ondan sonra biz bu peyğəmbərin varisləriyik. Lakin bir dəstə adam meydana çıxıb bu haqqı bizdən aldılar və indi də İslamdan xəbəri olmayanlar müsəlmanlara rəhbərlik edirlər. Bizim bu haqqa onlardan daha layiq və daha üstün olduğumuzu bildiyimiz halda müsəlmanların arasında fitnə və ixtilafın yaranmaması, habelə ayrılığın düşməməsi üçün bu haqsızlığa qarşı səsimizi yüksəltmədik və müsəlmanların rahatlığını öz haqqımızdan üstün tutduq. Siz bu gün müsəlmanların vəziyyətlərinə bir baxın?!

İmam Hüseyn (ə) məktubun davamında yazırdı:

و قَد بعِثْت رسولي إِليكُم بِهذا الْكِتابِ و أنا أُدعوكُم إِلَي كِتابِ اللهِ و سنةِ نبِيهِ. فَإِن السنةَ قَد أُمِيتت و الْبِدعةَ قَد أُحيِيت فَإِنْ تسمعوا قَولي أَهدكُم إِلي سبيل الرشاد. و السلام علَيكُم و رحمةُ الله و بركاته.

–Mən bu məktubu yazaraq öz elçimi sizə tərəf göndərirəm və sizi Allahın kitabına və Peyğəmbərin (s) sünnəsinə əməl etməyə dəvət edirəm. Həqiqətən, Həzrət Peyğəmbərin (s) sünnəsi öldürülərək aradan götürülmüş və yerinə bidəti dirildib əlavə edilmişdir. (Bu gün yaranmış bidəti öldürüb, sünnənə diriltmək lazımdır. Əgər sözümü qəbul edib məni dinləsəniz, mən də sizi doğru yola hidayət edərəm. Vəssəlamu ələykum və rəhmətullahi və bərəkatuh.

Quran ayələri və Həzrət Peyğəmbərin (s) mübarək kəlamları ilə Kərbəla hadisəsi arasında nə kimi ziddiyyətlər vardır? Heç bir ziddiyyət yoxdur.

**2. "Əmr be məruf" və "nəhy əz münkər"lə İslam ümmətini islah etmək**

İslam təlimlərində fəsada qarşı mübarizə aparılması hər nə qədər əmr olunmuşdursa, bir o qədər də ümmətin islah edilməsi məsləhət görülmüşdür. Yəni əgər bir insan namaz qılırsa, namaz qılmayanlara namaz qılmağı tövsiyə etməlidir. "Mən namaz qılıram, başqalarından mənə nə var?" kimi ifadələr İslam təlimlərinə ziddir və düz fikir deyildir. Yaxud əgər bir müsəlman şərab içmirsə, şərab içənləri də bu əməldən çəkindirməyə cəhd göstərməlidir.

Qurani-kərim yalnız daxili iman və təqva ilə kifayətlənmir, eləcə də insanların hidayəti üçün hərəkət etməyi zəruri hesab edir. Allah-taala "Maidə" surəsinin 35-ci ayəsində buyurur:

يا أيها الذِين آمنواْ اتقُواْ اللّه وابتغواْ إِلَيهِ الْوسِيلَةَ وجاهِدواْ فِي سبِيلِهِ لَعلكُم تفْلِحونَ

–Ey iman gətirənlər, Allahdan qorxun, Ona (yaxınlaşmaq üçün dərgahına yaxın olanlardan və saleh əməllərdən Ona) tərəf vasitə axtarın və Onun yolunda cihad edin, bəlkə nicat tapdınız.

**Ən yaxşı ümmət**

İslam dini "əmr be məruf" nə "nəhy əz münkər"i ən yaxşı ümmət olmağın şərtlərindən hesab edir. Allah-taala buyurur:

كُنتم خير أُمةٍ أُخرِجت لِلناس تأمرونَ بِالْمعروفِ وتنهونَ عنِ الْمنكَرِ وتؤمِنونَ بِاللّهِ

–Siz (müsəlmanlar), (Allah tərəfindən dünyanın) insanlar(ın)a zahir olmuş ən yaxşı ümmətsiniz, bəyənilən işə əmr edir və çirkin işdən çəkindirirsiniz və Allaha (nazil etdiyi şeylərdə) iman gətirirsiniz.[1]

Allah-taala Qurani-kərimdə möminlərin xüsusiyyətlərini sayarkən əvvəlcə "əmr be məruf" və "nəhy əz münkər"i söyləyir, daha sonra namaz, oruc və s. kimi əməlləri sadalayır. Çünki "əmr be məruf"a əməl olunsa, qalan əməllər də öz yerini tutacaqdır. Yox, əgər buna əməl olunmasa, o biri əməllər də yavaş-yavaş unudulacaqdır.

**İmam Hüseyn (ə) "əmr be məruf" haqda**

İmam Hüseyn (ə) Mədinədən hərəkət etdiyi zaman qardaşı Məhəmməd Hənəfiyyəyə bir vəsiyyətnamə yazdı. Həzrət (ə) bu vəsiyyətnamədə öz qiyamının səbəbini açıq-aşkar bəyan etmişdir.

بِسمِ اللهِ الرحمنِ الرحِيمِ: هذا ما أُوصى بِهِ الْحسين بن علِي إِلَى أخِيهِ محمدِ ابنِ الْحنفِية، أن الْحسين يشهد أن لا إِله إِلا اللهُ، وحده لا شرِيك لَه، و أن محمداً عبده و رسولُه جاءَ بِالْحق مِن عِندِهِ، و أن الْجنةَ حق و النار حق، و أن الساعةَ آتِيةٌ لا ريب فِيها، و أن اللهَ يبعثُ من فِي الْقُبور.

و إِني لم أخرج أشراً و لا بطَراً و لا مفْسِداً و لا ظَالِماً، و إِنما خرجت لِطَلَبِ الْإِصلاحِ في أُمةِ جدي صلي اللهُ علَيهِ و آلِهِ أُرِيد أنْ آمر

[1] Maidə surəsi, 110-cu ayə.

بالمعروف و أنهى عن المنكر، و أسير بسيرة جدي و أبى علي بن أبى طالب فمن قبلني بقبول الحق فالله أولى بالحق و من رد على هذا أصبر حتى يقضى الله بينى و بين القوم بالحق و هو خير الحاكمين

–Bağışlayan və mehriban Allahın adı ilə! Bu, Hüseyn ibn Əlidən (ə) qardaşı Məhəmməd ibn Hənəfiyyəyə bir vəsiyyətdir. Həqiqətən, Hüseyn (ə) Allahın yeganəliyinə, Ondan başqa pərəstişə layiq olan bir mövcud olmadığına və Allahın şərikinin olmamasına şəhadət verir. Şəhadət verir ki, Məhəmməd (s) Onun bəndəsi və haqqı haqqın yanından gətirən elçisidir. Cənnət və cəhənnəm haqdır. Haqq-hesab günü çatar və onda heç bir şəkk-şübhə yoxdur və Allah ölüləri diriıldər.

(Bütün insanlar bilsinlər ki,) mən vəzifə istəyən, məqam istəyən bir adam deyiləm və mən fəsad törədən və zalım da deyiləm və mənim belə bir hədəfim də yoxdur. Qiyam etmişəm ki, öz babamın ümməti arasında islahat aparım, yaxşılığa dəvət etmək, pislikdən çəkindirmək istəyirəm. İstəyirəm ki, babam və atam Əli ibn Əbitalibin (ə) yolu ilə gedim. Elə isə hər kim bu həqiqəti məndən qəbul edərsə Allahın yolunu qəbul etmişdir və kim də bunu rədd edərsə, Allah mənlə bu qövmün arasında hökm edincəyədək səbir edərəm (öz yolumu davam etdirəcəyəm). Allah hökm edənlərin ən xeyirlisidir.

Quran insanları “əmr be məruf”a və “nəhy əz münkər”ə dəvət edir və İmam Hüseynin (ə) də müsəlmanları “əmr be məruf”a dəvət etdiyi bir halda görəsən, nədən belə bir şəxsi öldürdülər?! Onu öldürənlərin əlində əsas nəydi?! Görəsən, hansı dəlilə əsasən, fasiq bir insan üçün ondan (Həzrətdən (ə)) zor gücünə beyət alınmalıydı?!

**3. İslam hakimiyyətində fəsad və pozğunluq**

İslam rəhbərinin birinci şərti (vəzifəsi) ilahi qanunlara əməl etməkdir. Allah-taala Qurani-kərimdə bu haqda buyurur:

إِنا أَنزلْنا إِلَيكَ الْكِتابَ بِالْحقِّ لِتحكُم بين الناسِ بِما أَراكَ اللّه ولاَ تكُن لِّلْخآئِنِين خصِيم

–Həqiqətən, Biz bu kitabı sənə haqq olaraq (uca və ağılın təsdiq etdiyi bir məqsədlə) nazil etdik ki, insanlar arasında Allahın sənə göstərdiyi əsasla hökm çıxarasan. Xainlərin müdafiəçisi olma![1]

Hökumət məmurları gərək ilahi əmrlərə itaət etsinlər. Qurani-kərim hər bir inadkar zor işlədənin (tağutun) əmrinə tabe olanları məzəmmət edir. Bu mövzuda xeyli ayə və rəvayətlər mövcuddur.

وتِلْكَ عاد جحدواْ بِآياتِ ربهِم وعصواْ رسلَه واتبعواْ أَمر كُلِّ جبارٍ عنِيدٍ

–Bu Ad (qövmü) idi. Onlar özlərinin Rəbbinin nişanələrini (tövhidin aydın dəlillərini və Hudun peyğəmbərliyinin aşkar əlamətlərini) inkar etdilər. Onun peyğəmbərlərinə itaətsizlik göstərdilər və hər bir inadkar zor işlədənin əmrinə tabe oldular.[2]

Başqa bir ayədə belə buyurulur:

ولاَ تركَنواْ إِلَى الَّذِين ظَلَمواْ فَتمسكُم النار وما لَكُم من دونِ اللّهِ مِن أَولِياء ثُم لاَ تنصرونَ

–Və zülm edən kəslərə ürək bağlamayın, meyil etməyin və arxalanmayın ki, sizin Allahdan savayı başqa heç bir yardımçı və başçınız olmadığı halda od (Allahın qəzəbi) sizə yetişər və Allah tərəfindən sizə kömək də edilməz.[3]

---

[1] Nisa surəsi, 105-ci ayə.
[2] Hud surəsi, 59-cu ayə.
[3] Hud surəsi, 113-cü ayə.

Məgər bu ayələrə əməl olunmamalıdırmı? Müsəlmanlar deyil, bəs kimlər bu ayələrə əməl etməlidirlər? Və əgər bir müsəlman bu ayələrə əməl edirsə, ölümə məhkum edilməlidir?! Özlərini Quranın tərəfdarı hesab edənlər məgər Qurana əməl edənləri öldürərlərmi?! Həqiqətən, bu, müsəlmanlar üçün çox böyük bir rüsvayçılıqdır. İslam Peyğəmbərinin (s) nəvəsinin, Quran ayələrini icra etdiyinə görə elə həmin peyğəmbərin ümməti tərəfindən öldürülməsi həqiqətən də çox utandırıcıdır. Eləcə də bu gün İmam Hüseynin (ə) tərəfdarlarına və əzadarlarına “müşrik” deyilməsi də çox məntiqsiz bir sözdür.

Zehni və düşüncəsi batil fikirlərdən təmiz olan hər bir insan əgər Kərbəla hadisəsi ilə Quranı yan-yana qoyub müqayisə etsə, onları bir-birindən ayırmaz. Çünki onlar bir-birinin ayırılmaz hissəsidir.

**İmam Hüseyn (ə) Yezidin hakimiyyəti haqda**

Yezid Mədinə şəhərinin valisi Vəlid ibn Ütbəyə bir məktub yazaraq İmam Hüseyndən (ə) beyət almasını tələb etdi. Məktubda deyilir:

خذ الْحسين و عبد اللهِ بن عمر و عبد اللهِ بن زبير أخذاً شدِيداً لَيست فِيهِ رخصةٌ حتي يبايِعوا و السلام.

–Hüseynə, Abdullah ibn Ömərə və Abdullah ibn Zübeyrə beyət etmələri üçün təzyiq göstər və beyət etmədikləri müddətdə getmələrinə icazə vermə. Vəssəlam.

Vəlid gecə ikən İmam Hüseyni (ə) öz sarayına dəvət edib Yezidin məktubunun məzmununu o həzrətə danışdı. İmam Hüseyn (ə) onun cavabında buyurdu:

أيها الْأمِير إنا أهلُ بيتِ النبوة و معدِنُ الرسالَةِ و مختلِف الْملائِكَةِ و مهبط الرحمة بِنا فَتح الله و بِنا يختِم. و يزيد رجلٌ شارِب الْخمرِ و قَاتِلُ

النفْسِ الْمحترمةِ معلِن ِبالْفسقِ. و ِمثْلي لا يبايِع ِمثْله. و لكِن نصبح و تصبِحونَ و ننظر و تنظُرونَ أينا أحق ِبالْخِلافةِ و الْبيعة.

–Ey əmir! Bizlər Həzrət Peyğəmbərin (s) əhli-beyti, risalətin mədəni, mələklərin tez-tez gəlib-getdiyi evin sahibləri və Allahın rəhmətinin nazil olduğu insanlarıq. Allah hər şeyi (bütün varlıqları) bizimlə başlatmış və bizimlə bitirəcəkdir. Yezid isə şərab içən, əlini günahsız insanların qanına bulayan və fisqü-fücur əməlləri açaq-aşkar yerinə yetirən bir insandır. (Həm bu gün və həm də qiyamət gününə qədər) mənim kimisi onun kimisinə beyət etməz! Ancaq bu xüsusda biz və siz gələcəyi nəzərə almalıyıq. O zaman xilafət və beyət məqamına hansımızın daha layiq olduğunu görəcəksiniz.

İmam Hüseyn (ə) Kərbəla çölünə gəlib çatandan sonra buyurmuşdur:

ألا ترونَ ِإلي الْحق لا يعملُ ِبهِ و ِإلي الْباطِل لا يتناهي عنه ِليرغب الْمؤمِن ِفي ِلقاءِ الله فَإني لا أري الْموت ِإلّا سعادةً و الْحياةَ مع الظّالِمين ِإلّا برما

–Məgər görmürsünüzmü haqqa əməl olunmur və batildən əl götürülmür. Mömin bəndə haqq yolunda öz Rəbbinin görüşünə tələsməlidir. Həqiqətən, mən özüm üçün ölümü səadət, zalımlarla yaşamağı isə məzəmmət kimi görürəm!

Belə bir şəxsi Qurandan ayırmaq mümkündürmü?! Belə bir şəxsi öldürmək düzgündürmü?! Belə bir şəxsi öldürənlərin tərəfini saxlayıb, ona əza saxlayanlara “bidətçi” demək nə dərəcədə düzgündür?! Bu ona bənzəyir ki, sanki bir nəfər ramazan ayında oruc tutduğuna görə onu öldürürlər və onu (öləni) müdafiə edənləri isə bidətçi adlandırırlar.

Əgər Kərbəla hadisəsinə Quran baxımından nəzər salsan, orada Quran ayələrindən savayı başqa heç bir şey tapa bilməzsən.

Kərbəla hadisəsi tarixdə baş vermiş elə bir hadisədir ki, bu hadisəni törədənlər, yəni Bəni-Üməyyə və onların tərəfdarları bəzi insanların alnına elə bir damğa vurmuşlar ki, həmin damğa onların alnından heç bir vaxt silinməyəcəkdir. Bu gün hər kim Kərbəladan danışırsa, sanki Quran ayələrindən danışır. Kərbəladan danışan şücaətdən, elmdən və fəzilətdən danışır. Odur ki, Kərbəla hadisəsini müdafiə etmək Quranı müdafiə etmək deməkdir. Kərbəla hadisəsini müdafiə etmək İslam Peyğəmbərini (s) müdafiə etmək deməkdir. İmam Hüseynə (ə) ağlamaq onun düşməninə öz nifrətini bildirmək deməkdir. Yəni bu o deməkdir ki, mən də 1400 ildən sonra İmam Hüseynin (ə) cərgəsində dayanmışam.

***Allah-taala İmam Hüseynin (ə) məhəbbətini heç vaxt bizim qəlbimizdən çıxartmasın.***
***Allah-taala bizi İmam Hüseyndən (ə) ayırmasın.***

***Amin, ya Rəbbəl-aləmin!***

# İMAM HÜSEYNİN (Ə) ƏZADARLIĞI ƏHLİ-BEYTƏ (Ə) MƏHƏBBƏTİN TƏZAHÜRÜDÜR

بسم الله الرحمن الرحيم الحمد لله رب العالمين السلام على رسولُ الله أمين الله على وحيه و عزائم أمره الخاتم لماسبق والفاتح لمستقبل والمهيمن على ذلك كُله السلام على وصيه أميرالمؤمنين و على فاطمةَ الزهراء سيدة نساء العالمين السلام على الحسن والحسين والأئمة التسعة المعصومين من أولاد الحسين السلام عليهم و رحمةُ الله والعن الدائم على أعدائهم أعداء الله الى يوم لقاء الله.

*Ey əzizi həzrəti Zəhra, salam olsun sənə!*
*Ey şəhidi yovmi aşura, salam olsun sənə!*

*Ey məkanda, la məkan təxtində şahənşah olan,*
*Mülki əsmayi ilahidə müsəmma cah olan,*
*Ləblərində qum bi iznillah olan,*
*Məzhəro mirrati kərrəmna salam olsun sənə!*

*Ey çuxuri məqtəldə ya hənnano ya mənnan deyən,*
*Cəddi Peyğəmbər o zikrə kəlmə-kəlmə can deyən,*
*Kim deyir iğraq edibdür sinüvə Quran deyən,*
*Sən kəlamullahisən həqqa, salam olsun sənə!*

*Bir tohi dəstəm ki, şeri por bəha ərz eylərəm,*
*Toprağam, amma sözümdə kimya ərz eylərəm,*
*Şahiyəm, mən Yəhyəviynən həmsəda ərz eylərəm,*
*Ey əzizi həzrəti Zəhra, salam olsun sənə!*

**Birinci məsələ:**
**İslam Peyğəmbəri (s) həyatda olan zaman**

Allah-taala "Ali-İmran" surəsinin 31-ci ayəsində buyurur:

قُلْ إِن كُنتُم تُحِبُّونَ اللّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَاللّهُ غَفُورٌ رَّحِيمٌ

–De: "Əgər Allahı sevirsinizsə, onda mənə tabe olun ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah çox bağışlayan və mehribandır."

**Ayənin nazil olma səbəbi**

İslam Peyğəmbərinin (s) bütün insanlara münasibəti son dərəcə səmimi idi. İnsanları dinləyər və onların suallarına doğru-düzgün cavablar verərdi. Bəzi mənfi fikirli adamlar isə yaranmış fürsətlərdən öz mənafeləri naminə istifadə etməyə çalışırdılar. Həzrət (s) isə onların əsl məqsədlərindən agah olurdu. Əgər ağ rəngli daşı narın-narın doğrayıb duza qatsaq, onları bir-birindən ayırmaq mümkün olmaz. Lakin onu suya töküb qarışdırandan sonra duz əriyəcək, daşlar isə əriməyəcək və duzdan ayrılacaqdır. Odur ki, bəzi mənfi fikirli adamlar da müsəlmanların içərisinə daxil olub özlərini onların sıralarına qatmaq istəyirdilər. Lakin su duzu daşdan ayırdığı kimi, İslam Peyğəmbəri (s) də onları həqiqi müsəlmanlardan ayırırdı. Bəzi vaxtlar isə Allah-taala Həzrət Cəbrayıl (ə) vasitəsilə bu məsələdə Həzrət Peyğəmbərə (s) kömək edirdi.

Bir gün İslam Peyğəmbərinin (s) hüzurunda bir qrup müsəlman dedilər ki, biz Allahı sevirik. Bizim qəlbimiz Allah məhəbbəti ilə doludur və s. Lakin onlar əsl həqiqətdə düz danışmırdılar. Çünki Allaha məhəbbətlə əməl üst-üstə düşməlidir. Dildə bir söz deyib, əməldə isə onun əksini etmək o deməkdir ki, bu dil yalandan "məhəbbət"dən bəhs edir. Beləcə, onlar öz məhəbbətlərini Həzrət Peyğəmbərə (s) izhar

edəndə Həzrət Cəbrayıl (ə) nazil oldu və yuxarıda qeyd etdiyimiz ayəni İslam Peyğəmbərinə (s) çatdırdı. Həzrət Peyğəmbər (s) də bu ayəni onlara oxudu.

Allah-taala bu ayə ilə iki mühüm məsələni bizlərə bəyan etmişdir. Birincisi budur ki, müsəlmanlar İslam Peyğəmbərinə (s) tabe olmalıdırlar. İkincisi budur ki, əməlləri Həzrət Peyğəmbərin (s) buyurduğu kimi yerinə yetirməlidirlər. Yəni Allahın nazil etdiyi kəlamlara, Həzrət Peyğəmbərin (s) insanlara çatdırdığı hökmlərə, Allahın nazil etdiyi Quran ayələrinə əməl etməli və bunları özlərinin başa düşdüyü kimi deyil, Həzrət Peyğəmbərin (s) söylədiyi kimi yerinə yetirməlidirlər. "Mən ayədən belə başa düşürəm", "Mən ayəni belə mənalandırıram" və s. kimi fikirlər mənasız fikirlərdir. Əsas məsələ bundan ibarətdir ki, Allahın hökmlərinə əməl edilməlidir və həm də Həzrət Peyğəmbərin (s) buyurduğu kimi əməl olunmalıdır.

Ayədə buyurulur ki, əgər siz bu iki şərtə əməl etsəniz, o zaman Allah-taala da sizi sevəcək və sizin günahlarınızı bağışlayacaqdır. Bu mənanı ifadə edən ayələr (yəni Həzrət Peyğəmbərə (s) itaət etmək həqiqətdə Allaha itaət etmək deməkdir) Quranın bir neçə surəsində zikr olunmuşdur.

Allah insana çox nemətlər vermişdir və insanlar da gərək bu nemətlərin müqabilində Allaha öz təşəkkürlərini bildirsinlər. Əgər təkcə bir gözün görmə səbəblərini araşdırası olsaq, o zaman görərik ki, onun bir çox səbəbləri vardır. Əgər gözdəki çox nazik damarlardan biri qırılsa, insan bütün görmə qabiliyyətini itirə bilər. Odur ki, əgər insan Allah-taalanın verdiyi nemətlərə təşəkkür etmək istəyirsə, bunun üçün hər şeydən əvvəl namazını vaxtlı-vaxtında qılmalıdır. Namaz insanın Allaha verdiyi sonsuz nemətlərə görə təşəkkürünün açıq-aşkar bir ifadə forması və nümunəsidir. Allah-taala Həzrət Peyğəmbərə (s) buyurur:

إِنَّا أَعْطَيْنَاكَ الْكَوْثَرَ. فَصَلِّ لِرَبِّكَ...

–(Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə Kövsər əta etdik. Odur ki, (şükranlıq üçün) Rəbbinə itaət et və namaz qıl...[1]

Yaşadığımız hazırkı dövrdə isə "mən təşəkkür etmək üçün namaz qılmıram, özüm bildiyim kimi təşəkkür edirəm", – deyə söyləyənlər də vardır. Ancaq bu kimi sözlər yalnız özünü aldatmaqdan savayı başqa bir şey deyildir. Hər bir insan Allaha dua edərkən səmimi ola bilər, lakin namaz qılmaq əvəzinə, "mən Allahla səmimi danışıram" – deyib namazı tərk etmək düzgün deyil. Əgər Allahla səmimi danışmaq istəyirsənsə, əvvəlcə namazını qıl, sonra da Allahla hər nə qədər istəyirsən səmimi danış. Bunu Allah da bəyənir. Səmimi dualar qeyri-səmimi dualardan daha tez qəbul olunur.

**Maraqlı bir hekayə**

Böyük İslam alimlərindən biri öz kitabında yazır: "Bir dəfə həcc ziyarətinə gedərkən karvanda olan hacılardan birinin həddən artıq narahat olduğunu gördüm. "Sənə nə olub, niyə belə narahatsan?" – deyə soruşdum. O dedi: "Mən evdən çıxanda həyat yoldaşım ağır xəstə idi. Neçə gündür ki, onunla əlaqə saxlayıram, lakin vəziyyəti getdikcə daha da ağırlaşır. Bu gün onunla danışanda məlum oldu ki, vəziyyəti çox pisləşib. Deyəsən, axır günləridir."

Mən ona ürək-dirək verdim. O dedi: "Düzdür, onun halı məni pərişan edir, lakin bu gün ona görə narahat deyiləm. Mənim altı yaşında Kərim adlı bir oğlum var. Oğlumla danışanda "Kərim, nə istəyirsən, sənə nə alım?" – deyə söylədim. Oğlum ağlaya-ağlaya dedi ki, Allahdan anamı istə, başqa heç nə istəmirəm. Yoldaşımın dərdi bir yana, bilmirəm, qayıdandan sonra uşağa nə deyim. "Ala bilmədim" və ya

---

[1] Kövsər surəsi, 1-2-ci ayələr.

“vermədi” sözlərini ona necə deyim. Onu necə başa salım, bilmirəm.”

Mən ona dedim: “Gəl, sənə bir söz deyim. Get Kəbə evinə, Hicri İsmayılın içində əyləş və Kəbə evinə bax. Əzbərlədiyin dualardan deyil, qəlbindən gələn duaları et və Allahdan dilə. Allahla açıq və səmimi söhbət elə. De ki: “Ey bu evin yiyəsi! Ey adı Kərim olan, Kərim səndən anasını istəyir!” Allahla səmimi danış.”

O getdi və elə bu cür də etdi. Üstündən bir neçə gün keçmişdi ki, çox sevincək halda yanıma gəldi və dedi: “Ağa, möcüzə oldu. Sən necə demişdinsə, mən də gedib onları yerinə yetirdim. Ürəyimin sözlərini Allaha danışdım. Allahla elə söhbət edirdim ki, sanki ən əziz qardaşıma ərkyana ürək sözlərimi danışıram. Ondan öz diləklərimi elə istəyirdim ki, məni əliboş yola salmayacağına inanırdım. Dua edəndən sonra gəlib yatdım. Səhərisi gün evə zəng etdim. Həm ümidvar idim və həm də qorxurdum ki, evdən pis xəbər eşidərəm. Evdən mənə dedilər ki, Allah həyat yoldaşıma şəfa verib.”

Gördüyünüz kimi, problem bizlərdədir. İstədiyinə nail ola bilməyən və arzularını Allahdan ala bilməyən insan gərək özünü müayinə etsin. Ona maneə olan qəlbindəki qara nöqtəni axtarıb tapsın. Həzrət Əli (ə) “Kumeyl” duasında buyurur:

أَللّٰهم اغْفِرلي الذنوب الّتي تحِبس الدعآءَ. أَللّٰهم اغْفِرلي الذنوب الّتي تنزِلُ الْبلاءَ

–İlahi, mənim duaların qəbul olunmasının qarşısını alan günahlarımı bağışla! İlahi, mənim bəlanın nazil olmasına səbəb olan günahlarımı bağışla!

İnsan Allaha dua edərkən səmimi olmalıdır, lakin şəriət hökmlərinə münasibətdə insan özü istədiyi kimi əməl edə bilməz. “Mən namaz əvəzinə gedib Hicri İsmayılda oturub

dua edim" və s. kimi fikirlərə qətiyyən yol vermək olmaz. Şəriət hökmləri Həzrət Peyğəmbərin (s) buyurduğu kimi yerinə yetirilməlidir.

Allah-taala "Nisa" surəsinin 80-ci ayəsində buyurur:

من يطِعِ الرسولَ فَقَد أطَاعَ اللّه

–Allahın peyğəmbərinə itaət edən kəs əslində Allaha itaət edib.

Yəni məhəbbət olan yerdə mütləq əməl olmalıdır. İmam Sadiq (ə) buyurmuşdur:

ما أحب الله من عصا

–Günah edən şəxsin Allahı sevməsi mümkün deyil.

Yəni məhəbbətlə əməl bir-birilərinin ayrılmaz tərkib hissələridir. İnsan hər nə qədər günah etsə, bir o qədər məhəbbətdən uzaqlaşacaqdır və həmçinin günahlardan nə qədər çox uzaq olsa, Allaha məhəbbəti bir o qədər artacaqdır.

**İkinci məsələ:**
**İslam Peyğəmbərinin (s) vəfatından sonra**

İslam Peyğəmbərinin (s) vəfatından sonra onlara bəslənilən məhəbbətlə insanın əməli yenə də üst-üstə düşməlidir. Bir dəstə müsəlman Həzrət Peyğəmbərin (s) yanına gəlib dedilər ki, sən bizi hidayət etdin, azğınlıqdan xilas edib düz yola yönəltdin, pozğunluqdan uzaqlaşdırıb təmiz bir yola istiqamətləndirdin. Bunun üçün sənə minnətdarlığımızı bildirmək istəyir və əvəzində malımızdan, mülkümüzdən nə istəsən sənə verə bilərik. Həzrət Cəbrayıl (ə) nazil olub Həzrət Peyğəmbərə (s) bu ayəni gətirdi: "Onlara de ki, mən sizi hidayət etdim və mənim əcrimi Allah-taala verəcəkdir. Sizdən məndən sonra yaşayacaq Əhli-beytimə (ə) itaət etmək və onlara məhəbbət bəsləməkdən savayı başqa heç bir şey istəmirəm. Onlara itaət etmək mənim muzdumdur."

Yəni Allah Həzrət Peyğəmbəri (s) Özü ilə və Əhli-beyti (ə) isə Həzrət Peyğəmbərlə (s) əlaqələndirmişdir. Allah-taala Qurani-kərimin bir neçə ayəsində bu barədə buyurur:

قُلْ ما سأَلْتكُم من أَجرٍ فَهو لَكُم إنْ أَجرِيَ إلا علَى اللهِ

–De ki: "Sizdən istəmədiyim bütün muzdlar sizin olsun. Sizdən istədiyim muzd (Əhli-beytimə olan məhəbbət) sizin öz xeyrinizədir, mənim mükafatım yalnız Allahın öhdəsindədir."[1]

قُلْ ما أَسأَلُكُم علَيهِ مِن أَجرٍ إلا من شاء أَن يتخِذَ إلَى ربهِ سبِيلً

–De: "Mən bunun (ilahi tapşırıqların çatdırılmasının) müqabilində sizdən kiminsə öz Rəbbinə tərəf yol tutmaq istəməsi istisna olmaqla, bir muzd istəmirəm."[2]

قُل لا أَسأَلُكُم علَيهِ أَجرا إلا الْمودةَ فِي الْقُربى

–De: "Sizdən bunun (ilahi tapşırıqların çatdırılmasının) müqabilində qohumlarım barəsində (qəlb və əməldə olan) məhəbbətdən başqa bir muzd istəmirəm."[3]

Hər üç ayənin mənası belədir ki, sizdən istədiyim bu əcrin mənfəəti mənə deyil, sizin öz xeyrinizədir. Bu muzd hidayət yolunu sizin üçün açacaqdır və sizi məqsədə çatdıracaqdır.

لَما نزلَت "قُل لا أَسأَلُكُم علَيهِ أَجرا إلا الْمودةَ فِي الْقُربى" قَالُوا: يا رسولَ اللهِ من قَرابتِك الذِين وجبت علَينا مودتهم قَالَ: علِي و فَاطِمةَ و ابناهما

–Bu ayə nazil olandan sonra bir dəstə müsəlman Həzrət Peyğəmbərdən (s) soruşdular: "Ya Rəsulallah! Məhəbbəti bizlərə vacib olan qohumların kimlərdir?" Həzrət Peyğəmbər (s) buyurdu: "Əli, Fatimə və onların iki oğlanları."

---

[1] Səba surəsi, 47-ci ayə.
[2] Furqan surəsi, 57-ci ayə.
[3] Şura surəsi, 23-cü ayə.

İslam Peyğəmbəri (s) bu cümləni üç dəfə təkrar etdi.

Əhli-sünnətin məşhur alimlərindən biri olan Fəxri Razi özünün “Təfsiri Kəşşaf” kitabında İslam Peyğəmbərindən (s) bir hədis nəql edir:

من مات علي حب آل محمد مات شهيداً, ألا و من مات علي حب آل محمد مات مغفوراً له, ألا و من مات علي حب آل محمد مات تائباً, ألا و من مات علي حب آل محمد مات مؤمناً مستكمل الإيمان, ألا و من مات علي حب آل محمد بشره ملك الموت بالجنة ثم منكر و نكير, ألا و من مات علي حب آل محمد يزف إلي الجنة كما تزف العروس إلي بيت زوجها, ألا و من مات علي حب آل محمد فتح له في قبره بابان إلي الجنة, ألا و من مات علي حب آل محمد جعل الله قبره مزار ملائكة الرحمة, ألا و من مات علي حب آل محمد مات علي السنة و الجماعة, ألا و من مات علي بغض آل محمد جاء يوم القيامة مكتوب بين عينيه آيس من رحمة الله, ألا و من مات علي بغض آل محمد مات كافراً, ألا و من مات علي بغض آل محمد لم يشم رائحة الجنة.

–Hər kəs (ürəyində) Məhəmməd (s) və Ali-Məhəmməd (s) məhəbbəti ilə ölsə, şəhiddir. Agah olun! Hər kəs (ürəyində) Məhəmməd (s) və Ali-Məhəmməd (s) məhəbbəti ilə ölsə, bağışlanılmış halda dünyadan gedər. Agah olun! Hər kəs Ali-Məhəmmədi (s) sevdiyi halda ölsə, tövbəkar kimi dünyadan gedər. Agah olun! Hər kəs Ali-Məhəmməd (s) məhəbbəti ilə ölsə, kamil imanlı mömin kimi dünyadan gedər. Agah olun! Hər kəs Ali-Məhəmməd (s) məhəbbəti ilə ölsə, ölüm mələyi və nəkir-münkər ona cənnət müjdəsi verər. Agah olun! Ali-Məhəmməd (s) məhəbbəti ilə dünyadan gedən şəxsi gəlini bəyin evinə ötürən kimi cənnətə ötürərlər. Agah olun! Hər

kəs Ali-Məhəmməd (s) məhəbbəti ilə dünyadan getsə, Allah onun qəbrinə behiştdən iki qapı açar. Agah olun! Hər kəs Ali-Məhəmməd (s) məhəbbəti ilə dünyadan getsə, qəbri rəhmət mələklərinin ziyarətgahına çevrilər. Agah olun! Hər kəs Ali-Məhəmməd (s) məhəbbəti ilə dünyadan getsə, İslam Peyğəmbərinin (s) sünnəsinə əməl etmiş halda ölmüşdür.

Sonra buyurdu:

Agah olun! Hər kəs Ali-Məhəmmədlə (s) düşmən olduğu halda ölsə, qiyamət günü iki gözünün arasında (alnında) "Allahın rəhmətdən məyus" yazılmış halda məşhur olar. Agah olun! Hər kəs Ali-Məhəmmədlə (s) düşmən olduğu halda ölsə, kafir olaraq dünyadan gedib. Agah olun! Hər kəs Ali-Məhəmmədlə (s) düşmən olduğu halda ölsə, behiştin iyini belə hiss etməyəcək.

Ey insan! Allah sənin üzünə rəhmət qapısını açır, niyə özün bu qapını öz üzünə bağlayırsan?! Allah-taala İmam Hüseyni (ə) sənə həm bu dünyada və həm də axirətdə rəhmət və bərəkət olaraq vermişdir, sən bu bərəkəti öz üzünə niyə bağlayırsan?!

**İmam Hüseynə (ə) əza saxlamağın səbəbi**

Allah-taala Həzrət Peyğəmbərin (s) məhəbbətini və ona göstərilən itaəti Öz məhəbbəti və itaəti ilə əlaqələndirmişdir. Qurani-kərimdə Həzrət Peyğəmbərə (s) buyurulur ki, Əhli-beytin (ə) məhəbbəti və itaəti Həzrət Peyğəmbərin (ə) məhəbbəti və itaətinə bağlıdır.

Hər kim İmam Hüseynə (ə) öz məhəbbətini izhar etmək istəyirsə, gərək onun şad günlərində şad olsun, onun qəmgin günlərində qəmgin olsun. Eynilə ananın balası ilə bir-birilərinə olan məhəbbəti kimi. Necə ki, balanın vəziyyətindən xəbərdar olmaq istədikdə ananın üzünə baxmaq kifayət edir. Çünki onlar bir-birilərinə bağlıdırlar.

Bu, Allahın qoyduğu qanundur. Bu qanuna əsasən,

من أحبنا فَيعملْ عملِنا

–Bizi sevən hər bir kəs bizim kimi əməl etməlidir.

Həmin əməllərdən biri də İmam Hüseynə (ə) əzadarlıq etməkdir. Həzrətə (ə) əzadarlıq etmək ona olan məhəbbətdən irəli gəlir. Əzadarlıq İmam Hüseynə (ə) məhəbbətin amillərindən (səbəblərindən) yalnız biridir. Başqa sözlə desək, insan əzadarlıq etməklə İmam Hüseynə (ə) məhəbbətini izhar edir.

İmam Sadiqin (ə) dostlarından olan Müsmə İraqi o həzrətin hüzuruna gəlmişdi. Həzrət (ə) ondan soruşdu:

–Siz İraqda Əlini (ə) və İmam Hüseyni (ə) ziyarət edirsinizmi?

Dedi: “Mən nəzarət altında olduğuma görə İmamın (ə) ziyarətinə gedə bilmirəm.” Həzrət (ə) buyurdu: “Heç olmasa öz evində əza saxlayırsanmı?”

Bunu eşidən kimi o, çörək yeyə bilməyib əlindəki tikəni belə yerə saldı. Gözləri yaşla dolub ağlayaraq dedi:

–Bəli, ağa! Həmişə evimdə İmam Hüseynə (ə) əza saxlayıb ağlayıram. Mənim qəlbim həmişə ona əzadardır.

Daha sonra İmam Sadiq (ə) Müsməyə buyurdu:

–Deməli, bizim şad günlərimizdə sən də şad olursan. Bizim qəmli günlərimizə sən müsibət günləri deyib ağlayırsan. Səndə olan bu hal beş çətin anda sənin köməyinə çatacaqdır.

Birincisi, Əzrayıl (ə) sənin canını alan zaman (o çətin anda) bu əməl sənin dərdinə dəyəcəkdir və (həmin anda sən tək qaldığın üçün və heç kəsin sənə kömək edə bilməyəcəyi zaman) mənim babalarımın sənin yanında olduğunu görəcəksən.

İmam Sadiq (ə) buyurur: “Əzrayıl (ə) İmam Hüseynə (ə) gözyaşı tökən insanlara onların öz analarından daha da mehriban olacaqdır.”

İnsan anasını hər nə qədər incitməsinə baxmayaraq, bəlaya düçar olanda ana öz canından keçməyə belə hazır olur.

İkincisi, səni qəbrə qoyan zaman, yəni "hövli müttəlii" zamanı bu əməl sənin köməyinə gələcəkdir.

"هول مطّلع" – "Hövli müttəlii" nədir? İnsan onun haqqında mütaliə edən zaman insanı qorxudan ağlamaq tutur. "Hövli müttəlii" insanın cənazəsinin onu dəfn edənlərin vasitəsilə baş tərəfindən qəbrə qoyulan zamana deyilir. Nə dəfnindən əvvəlki vəziyyətinə və nə də dəfnindən sonrakı vəziyyətinə "hövli müttəlii" deyilməz. Bir çox hədislərdə müqəddəs insanlardan "Yenidən dirilib dünyaya gəlmək istərdinmi?" – deyə soruşduqda, onlar "hövli müttəlii"nin qorxusundan yenidən dünyaya gəlmək istəməzdim", – deyə cavab veriblər.

İnsanı dəfn etdikdən sonra onun qohum-əqrəbası da dağılışıb gedir və insan qəbir evində tək qalır. Həzrət Peyğəmbər (s) buyurur ki, dünyasını dəyişmiş insan onu qəbrə qoyub qayıdan insanların ayaqlarının səsini eşidir.

*Etibar eyləmə az ömrə əcəl verməz aman,*
*Gecə-gündüz dolanır sürətilən çərxi zaman,*
*Körpüdür cənnətə, ya duzəxə bu mülki cahan,*
*Başuva qəbridə onda ki ləhədin daşı dəyər,*
*Dərdüvə qəbridə vallahi bu gözyaşı dəyər.*

Mərhum Şüştəri "Xəsaisul Hüseyn (ə)" adlı kitabdında yazır: "İnsan qəbrə qoyulan zaman görər ki, bir nur yarandı və hər yer işıqlandı. Belə olduqda insandan qorxu gedər. Soruşar ki, sən kimsən? Haradan gəldin? O nur onun cavabında deyər: "Məni sən qorxmayasan deyə, səninlə bir yerdə qalmağa göndəriblər. Qiyamət gününə qədər səninləyəm." Soruşar ki, sən kimsən? O nur deyər: "Etdiyin əməllə bir möminin ürəyini şad etməyin yadındadırmı? Mən həmin əməlin savabıyam."

Sonra mərhum Şüştəri belə yazır: "Bilirsinizmi Xanım Zəhranın (s.ə) oğlu Hüseynə (ə) ağlamaqla onun qəlbi şad

olur?! Hansı ürək Zəhranın (s.ə) ürəyindən yaxşı ola bilər?! Hansı şadlıq Zəhranı (s.ə) şad etməkdən üstündür?! Belə məclislərdə Peyğəmbər (s) və Əli (ə) də şad olurlar."

Üçüncüsü, bərzəx aləmində bu əməl sənin dərdinə dəyəcəkdir.

Bərzəxin çətinliyi orada şəfaətin olmamasıdır. İnsanın qəbrinə (yuxarıdakı hədisdə deyildiyi kimi) daxil olan nur qiyamət gününə qədər bərzəx aləmində onunla qalacaqdır.

Dördüncüsü, məhşər günü bu əməl sənin dərdinə dəyəcəkdir.

Məhşər günü çox çətin və əzəmətli bir gündür. "Cəza (Qiyamət) gününün sahibi və hökmdarı."[1] Həmin gün bütün insanlar torpaq altından qalxacaqlar. O günün çətinliyini insan anlaya bilmir. Quranda belə oxuyuruq: "Günəş sarınacağı zaman (sanki sönüb hərarətsiz olması üçün onun ətrafına bir şey bükülər)".[2] Bir tərəfdən də istinin hərarəti insanların beynini qaynadacaqdır. İnsan ana bətnində olanda bu dünyanı təsəvvür edə bilmədiyi kimi, məhşərin nə olacağını da anlaya bilmir. Əgər ana bətnində olan bir körpəyə "Yayın ən isti vaxtında Savalan dağının başında qar olur. Qarın altındakı odu partlatsalar onu atəşi aləmi yandırar" – desələr, ana bətnində olan körpə bunu necə anlaya bilər?! Lakin insan dünyaya gələndən sonra oxuyub elmini artırır və bütün bunların təbii şeylər olduğunu görür.

Məhşərin xüsusiyyətlərindən söhbət açılanda insan onları anlaya bilmir, lakin həmin gün bu hadisələrin baş verdiyini görüb çox gözəl anlayacaq.

*Məhşər günü bir gündü düşər təngə xəlaiq,*
*Gün isti salar atəşi suzan əvəzində.*
*Yəqub çıxardar balası Yusifi yaddan,*
*Kor oldu o ki, aləmi hicran əvəzində.*

---

[1] Fatihə surəsi, 4-cü ayə.
[2] Təkvir surəsi, 1-ci ayə.

Məhşər günü elə bir gündür ki, Həzrət Yəqub (ə) Həzrət Yusif (ə) kimi bir övladını belə yaddan çıxaracaq, analar öz balalarını atıb qaçacaqlar. Quran bu haqda buyurur:

يوم يفر الْمرءُ مِن أَخِيه. وأُمِهِ وأَبِيه. وصاحِبتِهِ وبنِيه

–O gün insan qaçar öz qardaşından, anasından və atasından, zövcəsindən və oğullarından.[1]

Məhşər gününün xofundan insanların saçları ağaracaq və uşaqlar qocalacaqlar. Belə bir gündə İmam Hüseynin (ə) əzasını namazla yanbayan qoyanda həmin insanın namazı qəbul olunar. Yəni İmam Hüseynin (ə) məhəbbəti olmayan yerdə namazın heç bir faydası yoxdur.

*Təvafe Kəbə, zəm-zəm dəstəmazı,*
*Hüseynsiz mütləqa batildir vallah.*

İslam Peyğəmbəri (s) buyurmuşdur:

و لو أن عبداً عبد الله بين الصفا و الْمروةَ أَلْف عام ثُم أَلْف عام ثُم أَلْف عام ، ثُم لَم يدرك محبتنا ِإلاّ أَكْبه الله علَى منخريه ِفي النارِ ثُم تلا: قُل لا أَسأَلُكُم علَيهِ أَجرا ِإلا الْمودةَ ِفي الْقُربى

–Əgər bir şəxs Allaha Səfa və Mərva arasında min il, sonra min il və daha sonra min il ibadət etsə, amma qəlbində bizim məhəbbətimiz olmasa, Allah onu üzü üstə cəhənnəmə atacaqdır. Sonra: "De: "Sizdən bunun (ilahi tapşırıqların çatdırılmasının) müqabilində qohumlarım barəsində (qəlb və əməldə olan) məhəbbətdən başqa bir muzd istəmirəm" ayəsini oxudu.

Beşincisi, qiyamətdə haqq-hesab zamanı bu əməl sənin dərdinə dəyəcəkdir. Elə ki, insanın əməllərinin haqq-hesab günü gələr, İmam Hüseynin (ə) məhəbbəti və göz yaşları insana nicat verər.

---

[1] Əbəsə surəsi, 34-36-cı ayələr.

## DÜNYADA ALDANILMIŞ İNSANLAR

Allah-taala Qurani-kərimdə "Loğman" surəsinin 33-cü ayəsində buyurur:

يا أَيها الناس اتقُوا ربكُم واخشوا يوما لا يجزِي والِد عن ولَدِهِ ولَا مولُود هو جازٍ عن والِدِهِ شيئًا إِن وعد اللهِ حق فَلَا تغرنكُم الْحياةُ الدنيا ولَا يغرنكُم بِاللهِ الْغرور

–Ey insanlar, öz Rəbbinizdən qorxun. O gündən qorxun ki, heç bir ata (o günün əzabından) heç bir şeyi öz övladından uzaqlaşdıra bilməz, övlad da öz atasından heç bir şeyi kənarlaşdırıb uzaqlaşdıra bilməz. Şübhəsiz, Allahın vədi haqdır. Belə isə dünya həyatı sizi məğrur etməsin və hiyləgər şeytan sizi Allah barəsində aldatmasın!

Bu ayə və bunun kimi digər ayələrdə insanlara maddiyyat nöqteyi-nəzərindən baxılmır. İslam dinində insana əsasən yaradılış aləmində üzüyün üstündəki qaştək yanaşılır. Belə ki, üzüyün hazırlanması zamanı bütün diqqətlər onun üstündəki qaşa yönəldilir və təbii olaraq üzüyün dəyəri də məhz elə onun qaşındadır. İnsan bəllidir ki, məxluqlar arasında üzüyün qaşı misalındadır. Dünyada gördüyümüz, eşitdiyimiz və oxuduqlarımıza görə, həm bu dünya və həm də axirət aləmi insan üçün xəlq olunmuşdur. Lakin axirət yalnız seçilmiş insanlardan ötrü yaradılmışdır. Bunun sübuta yetirilməsi üçün Quranda müxtəlif ayələr və hədis kitablarında müxtəlif hədislər mövcuddur. Allah-taala Həzrət İbrahim (ə) haqda belə buyurur:

وآتيناه فِي الْدنيا حسنةً وإِنه فِي الآخِرةِ لَمِن الصالِحِين

–Və ona (İbrahimə) dünyada gözəl həyat (bütün ümmətlər tərəfindən qəbul olunmaq xüsusiyyəti, uzun ömür, saleh övladlar

və çoxlu sərvət) verdik və əlbəttə, o, axirətdə salehlərdən olacaqdır.[1]

Həzrət İbrahim (ə) ən fəzilətli və ən şərəfli insanlardan biridir. O, bir çox çətin sınaqlardan alnıaçıq çıxmışdır. Allah-taala Həzrət İbrahimi (ə) həm canı, həm malı və həm də övladı ilə imtahan etdi və o, bu imtahanlardan alnıaçıq çıxdı. Elə bu səbəbdən də Həzrət İbrahim (ə) axirətdə seçilmiş insanlardan olacaq. Qurani-kərimdə möminlər, peyğəmbərlər haqda buna bənzər xeyli ayələr qeyd olunmuşdur.

İmam Sadiq (ə) buyurur: "Bu dünyadan bəhrə almayan insan özünə zülm etmişdir. Həmçinin axirətdən bəhrələnməyən kəs özünə zülm etmişdir."

Çünki həm bu dünya və həm də axirət insanlar üçün xəlq olunmuşdur və əgər insan bunlardan bəhrələnə bilmirsə, deməli özünə zülm etmişdir.

İmam Sadiq (ə) başqa bir hədisdə buyurur:

ملْعونٌ ملْعونٌ من ترك دنياهِ للآخِرِته و ملْعونٌ ملْعونٌ من ترك آخِرتهِ لدنياه

–Dünyasını axirəti üçün tərk edən məlundur (lənətlənmişdir) və axirətini dünyası üçün tərk edən məlundur (lənətlənmişdir).

İnsan üçün onların hər ikisi lazımdır və nə dünyasını axirətinə və nə də axirətini dünyasına satmamalıdır. Amma əgər belə bir vəziyyət yaransa ki, ikisindən birini seçməli olsa, o zaman gərək axirəti seçsin. Belə bir halda insan dünyanı gərək axirətə qurban versin. Çünki dünya müvəqqəti və fani, axirət isə əbədidir. Heç bir kəs əbədiyyəti beş-on ilə satmaz. İnsan bu dünya həyatında həm az yaşayır və həm də rahat yaşamır, çox nigaran bir həyat sürür. Bu gecə öz evində olduğu halda, sabah başına nələr gələcəyini bilmir. Bilmir ki, sabah öz evində, xəstəxanada, yoxsa qəbir evində olacaqdır.

[1] Nəhl surəsi, 122-ci ayə.

Quran da insanlara hər iki dünyadan bəhrələnsin deyə tövsiyə edir.

ربنا آتنا في الدنيا حسنةً وفي الآخرة حسنةً

–Ey Rəbbimiz, bizə dünyada da yaxşılıq əta et, axirətdə də yaxşılıq əta et.[1]

Günlərin birində İslam Peyğəmbəri (s) bir xəstənin ziyarətinə getmişdi. Həzrət (s) onun halını soruşdu. O dedi:

–Ey Rəsulallah! Mən özüm Allahdan "İlahi, məni bu dünyada əzaba sal, (günahlarımın cəzasını) axirətə saxlama", – deyə yalvarmışam. Həzrət Peyğəmbər (s) buyurdu:

–Çox səhv iş görmüsən, insan belə dua etməz. Allah necə dua etməyi bizə öyrətmişdir. Sən belə dua elə: "Ey Rəbbimiz, bizə dünyada da yaxşılıq əta et, axirətdə də yaxşılıq əta et." Yəni hər ikisini Allahdan istə. Günahların bağışlanılması məsələsinə gəldikdə isə, sən həqiqi mənada tövbə et.

Bəzi insanlar bu dünyada çaşırlar və onlara göstərilən yolu düzgün gedə bilmirlər. İnsan məqsədə (kamilliyə) yetişmək üçün Allah-taala bu dünyanı onlara təqdim etmişdir və insana bu dünyanın çətinliklərini öyrətmişdir. Allah insana başa salır ki, bu dünyada səni düz yoldan çıxaran amillər mövcuddur. İnsana başa salır ki, bu dünyaya arxalanmaq olmaz. Bir də görərsən ki, çəkilər və səni yerə yıxar. Dünyaya arxalanan insanların sayı həddən artıqdır. Onlar əvvəlcə dünyaya bel bağlayıb, etibar edib və ona arxalanıblar, ancaq sonra görüblər ki, dünya boş bir şeydir. Belə insanlar dünyadan heç bir nəticə əldə etməyərək uğursuzluğa məhkum olaraq ağır zərbə alıblar. Allah-taala Quranda buyurur:

كُلُّ نفْسٍ ذَآئِقَةُ الْموتِ وإِنما توفونَ أُجوركُم يوم الْقِيامةِ فَمن زحزِح عنِ النارِ وأُدخِلَ الْجنةَ فَقَد فَاز وما الْحياةُ الدنيا إِلا متاع الْغرور

[1] Bəqərə surəsi, 201-ci ayə.

–Hər bir canlı (mütləq) ölümü dadacaqdır. Qiyamət günü sizin mükafatlarınız tam şəkildə veriləcəkdir. Odur ki, oddan uzaqlaşdırılan və cənnətə daxil edilən kəs doğrudan da kama çatmışdır. Bu dünya həyatı aldadıcı maldan başqa bir şey deyildir.[1]

Elə ki, şəhvət insanın gözünü tutur, o, öz zehnində (müxtəlif bəhanələr gətirməklə) hər şeyi həll etdiyini hesab edərək cinayət törədir. Cinayət törədəndən sonra fikirləşdiklərinin hamısının puç olduğunu və onların heç birisinin ona kömək etmədiyini görüb rüsvay olur. Yaşadığımız mühitdə belə insanlarla demək olar ki, hər gün rastlaşırıq. Elə bu səbəbdən də Allah-taala Qurani-kərimdə insanlara dünyanı və axirəti tanıtdırır. Dünyada aldanan insanlar iki qrupa bölünür:

Birinci qrup: Bəzi insanlar aldanaraq iman gətirmirlər. Quran onların haqqında heç bir söz demir. Çünki onların heç bir dəyəri olmadığından bu barədə söz açıb danışmağa da dəyməz. Belə insanlar kafirlərdir, cəhənnəm əhlidir və onların bu dünyada işləri yalnız yeyib-içməkdən ibarətdir.

والذِين كفَروا يتمتعونَ ويأكُلُونَ كما تأكُلُ الْأنعام والنار مثْوى لهم

–Küfr edənlər isə (dünya ləzzətlərindən) bəhrələnir və heyvanlar kimi yeyirlər (həyatın əsas məqsədini yemək və bəhrələnmək hesab edirlər) və (nəhayət) onların yeri oddur.[2]

Allah-taala Qurani-kərimdə İslam Peyğəmbərinə (s) xitab edərək buyurur:

وذَر الذِين اتخذُواْ دِينهم لَعِبا ولَهوا وغَرتهم الْحياةُ الدنيا

–Öz dinlərini oyun-oyuncaq və əyləncə sayanları və dünya həyatının aldatdığı şəxsləri boşla.[3]

[1] Ali-İmran surəsi, 185-ci ayə.
[2] Məhəmməd surəsi, 12-ci ayə.
[3] Ənam surəsi, 70-ci ayə.

İkinci qrup: Bəzi insanlar isə iman gətirirlər, lakin onların imanları yalnız zahirdədir. Onlar yalnız sözdə İslamdan, dindən və Qurandan danışırlar, lakin qəlblərində imandan heç bir əlamət yoxdur. “Həcc” surəsinin 11-ci ayəsində buyurulur:

وَمِنَ النَّاسِ مَن يَعْبُدُ اللَّهَ عَلَىٰ حَرْفٍ ۖ فَإِنْ أَصَابَهُ خَيْرٌ اطْمَأَنَّ بِهِ ۖ وَإِنْ أَصَابَتْهُ فِتْنَةٌ انقَلَبَ عَلَىٰ وَجْهِهِ خَسِرَ الدُّنْيَا وَالْآخِرَةَ ۚ ذَٰلِكَ هُوَ الْخُسْرَانُ الْمُبِينُ

–İnsanlardan eləsi var ki, Allaha yalnız sözdə ibadət edir (əqidəsi qeyri-sabit, əməli havadadır). Buna görə də əgər həmin şəxsə bir xeyir (sərvət, cansağlığı və məqam) yetişsə, ona arxayınlaşar və əgər bir sınağa çəkilsə (mal və canına bir zərər-ziyan dəysə) üz döndərərək qayıdar. Belə olan şəxs öz dünya və axirətində ziyana uğramışdır. Budur həmin açıq-aşkar ziyan!

Belələrinin surəti insan surəti, qəlbləri isə insan qəlbi deyildir. Həzrət Əli (ə) “Nəhcül-bəlağə”də[1] iki qrup insan haqqında söhbət edir. Bir qrup Allahın sevimli bəndələri və digəri isə Allahın Özünə düşmən bildiyi insanlardır.

عِبادَ اللهِ، إنّ مِن أحبّ عِبادِ اللهِ إليهِ عبداً أعانَهُ اللهُ علَى نفْسِهِ

–Ey Allahın bəndələri! Allahın yanında ən sevimli bəndə öz nəfsinə hakim kəsilməkdə Allahın kömək və yardım etdiyi bəndədir.

Əllamə Təbatəbaidən soruşurlar: Ariflər öz şagirdlərinə öyrədirlər ki, insanlar pillə-pillə ürfanı ötüb gedirlər. Bəzi ariflər bu mərhələnin sayının 100 olduğunu yazmışlar. Bəs, siz bu haqda nə fikirləşirsiniz?

Əllamə onların cavabında buyurur: “Ayağının birini nəfsinin üstünə qoysan, o biri ayağını cənnətə qoyarsan.

Hər kəs həqiqi mənada Allaha “mən kiməm ki, Sən nə buyursan, odur”, – desə, həmin insanın bir ayağı nəfsinin

---

[1] Nəhcül-bəlağə, 86-cı xütbə.

üstündə, digər ayağı isə cənnətdə olar. Bütün problemlər insanın "mən belə istəyirəm, könlüm bunu istəmir", – deməsindən başlayır.

Sonra Həzrət (ə) belə buyurur:

فَاستشعر الْحزنَ

–Beləliklə, (həmin bəndə) hüzn və kədəri öz şüarına çevirdi.

Belə insanlar ürəkdən şad ola bilmirlər. Çünki qabaqda çətin yollar vardır. İnsan hansı gününə gülür, hansı gününə çalıb-oynayır. Ey insan! Heç bilirsən ki, sən hara gedirsən?! Xeyr, bilmir, əgər bilsəydi, boş-boş deyib gülməzdi.

Həzrət Əli (ə) buyurur: "Öləcəyini bildiyi halda ürəkdən gülən insanlara təəccüb edirəm."

İnsan öləndən sonra onun taleyi artıq yerin altındadır və taleyi də özü ilə apardığı əməllərlə həll olunur.

Həzrət Əli (ə) xütbənin davamında buyurur:

وتجلْبب الْخوف، فَزهر مِصباح الْهدي فِي قَلْبِه، وأَعد الْقِري لِيومِهِ النازِلِ بِهِ، فَقَرب علَي نفْسِهِ الْبعِيد وهونَ الشدِيد...

–Xof və (ilahi əzabdan) qorxunu özünə yol seçdi. Beləliklə, onun ürəyində hidayət çırağı (ilahi elm və maarif) işıqlandı və çatacağı bir gün üçün ziyafət (süfrəsini) hazırlayıb (ibadət və bəndəlik etdi ki, öləndən sonra əliboş olmasın), uzağı özünə yaxın etdi və çətinliyi (ölümü, qəbri və qiyamət gününün qorxu və dəhşətini ibadətin, bəndəliyin azuqəsi ilə) asanlaşdırdı...

Bəzi insanlar ölümün uzaqda olduğunu güman edirlər. Lakin Quran buyurur ki, xeyr, ölüm çox uzaqda deyil. İnsanın aldığı nəfəs bilinmir ki, qayıdacaq, ya qayıtmayacaq. Bəzi vaxtlar görürsən ki, insanın nəfəsi gedir, amma gözüaçıq qalır. Yəni ona gözünü yummağa belə imkan vermirlər.

Həzrət Əli (ə) daha sonra buyurur:

فَهو مِن معادِنِ دِينِهِ، وأوتادِ أرضِهِ... قَد أمكَن الْكِتاب مِن زِمامِهِ، فَهو قائِده وإمامه، يحل حيثُ حل ثَقَلُه، وينزِلُ حيثُ كانَ منزِلُه

–Deməli, (bu sifətlərlə) o, dinin mədənlərindən və yer üzündəki sütunlarındandır... Öz cilovunu kitaba (Qurana) tapşırıb. Deməli, Allahın kitabı onun rəhbəri və imamıdır. Quranın yükünün endiyi hər məqamda aşağı enər, Quranın yeri olduğu hər bir yerdə yerləşər.

Həzrət Əli (ə) öz xütbəsində Allahın Özünə düşmən bildiyi insanlar haqda belə buyurur:

وآخر قَد تسمي عالِماً ولَيس بِهِ، فَاقْتبس جهائِلَ مِن جهالٍ وأضالِيلَ مِن ضلالٍ، ونصب لِلناسِ أشراكاً مِن حبال غُرورٍ، وقَول زورٍ، قَد حملَ الْكِتاب علَي آرائِهِ، وعطَف الْحق علي أهوائِهِ، يؤمِن مِن الْعظائِمِ، ويهونُ كَبِير الْجرائِمِ... فَالصورةُ صورةُ إِنسانٍ، والْقَلْب قَلْب حيوانٍ، لاَ يعرِف باب الْهدي فَيتبِعه، ولاَ باب الْعمي فيصد عنه، وذلِک ميت الْأَحياءَ!

– (Allahın Özünə düşmən bildiyi) bəndə isə (o kəsdir ki,) nadan olduğu halda özünü alim, bilikli adlandırar. Nadanlardan nadanlığı, azğınlardan isə azğınlığı öyrənib, aldadıcı kəndirlərdən və yalan sözlərdən camaata tələ qurar. Kitabı (Qurani-kərimi) öz düşüncələri əsasında daşıyıb və haqqı öz istəklərinə uyğunlaşdırıb, camaatı böyük təhlükələrdən (Qiyamətin çətinliklərindən) arxayın salar, böyük günahları (onların nəzərində) asanlaşdırar... (Onun) surəti insan surəti, qəlbi isə heyvan qəlbidir. Hidayət qapısını və doğru yolu tanımır ki, (ona qədəm qoyub) onun ardınca getsin. Nadanlıq və korluq qapısını tanımır ki, ondan uzaqlaşsın. O, dirilərin arasında bir ölüdür.

Daha sonra Həzrət (ə) buyurur:

فَأين تذْهبونَ؟ و أنى تؤفَكُونَ! والْأعلام قَائمةٌ،والْآيات واضِحةٌ، والْمنار منصوبةٌ، فَأين يتاه ِبكُم ؟ وكَيف تعمهونَ وبينكُم عِترةُ نِبيكُم؟ وهم أَزِمةُ الْحق، و أعلَام الدينِ! وأَلْسِنةُ الصدق!...

–(İndi ki, haqqı və batili tanıdınız, Allahın sevdiyi və düşmən bildiyi bəndələri tanıdınız) hara gedirsiniz və (haqqın) bayraqları asıldığı, (ürəyin) nişanələri aşkar göründüyü, (hidayət və qurtuluş) mayak qurulduğu halda sizləri (hidayət və nicat yolundan) necə döndərirlər?! Bəs, sizi harada heyran və sərgərdan ediblər? Peyğəmbərinizin Əhli-beyti aranızda olduğu halda necə heyran və sərgərdansınız? Onlar (adamın dəvənin cilovunu əlinə alıb onu istədiyi tərəfə apardığı kimi) camaatı haqq yola çəkənlər, rəhbərlər və dinin nişanələri, doğru danışan dilləridir...

Baxın Həzrət Peyğəmbərin (s) Əhli-beytinə (ə), görün onlar hara gedirlər, siz də həmin səmtə tərəf gedin. Niyə sərgərdansınız?! Həzrət Peyğəmbər (s) bəs nə üçün Əhli-beytini (ə) sizə tapşırıb getdi?! Bəs nə üçün Həzrət Peyğəmbər (s) "Məndən sonra mənim Əhli-beytimi, Əlini, Həsəni və Hüseyni (ə) sevin və onlara itaət edin", – deyə söyləmişdir?! Sizin məsəliniz süfrənin kənarında əyləşib acından ölən və çayın kənarında dayanıb susuzluqdan ölən bir insana bənzəyir. Niyə bu nemətin (Əhli-beytin) qədrini bilmirsiniz?!"

Daha sonra İmam Əli (ə) İslam Peyğəmbərindən (s) bir hədis nəql edərək buyurur:

خذُوها عن خاتمِ النِبيين صلي اللهُ علَيهِ وآلِهِ و سلم: "إِنه يموت من مات مِنا ولَيس ِبميت، ويبلَي من بِلي مِنا ولَيس ِببال"، فَلا تقُولُوا ِبما لاتعرِفُونَ... أَلَم أعملْ فِيكُم ِبالثقَلِ الْأَكْبرِ ! وأترك فِيكُم الثقَلَ الْأصغر!

–Ey camaat! Bu rəvayəti Xatəmül-Ənbiyadan (s) öyrənin (öz ailəsinin mədhi və əzəməti barədə buyurmuşdur): "Bizlərdən

biri (zahirən) ölsə belə, diridir. Və (nadanların səhv əqidələrinə görə) bizdən çürüyənlər də çürümüşdür, halbuki çürüməmişlər.” Belə isə tanımadığınız (bilmədiyiniz) şeydən danışmayın... Sizinlə böyük qiymətli yükə (Qurani-kərimə) uyğun rəftar etmədimmi? Qiymətli kiçik yükü (Həzrət Peyğəmbərin (s) ailəsini, Həsən və Hüseyni (ə)) sizlərin arasında qoymadımmı?”

Qədim dövrlərdə yollarda yazılı nişanələr olmadığından yolu tapmaq üçün yolayrıcılarına ələmlər sancırdılar və insanlar onların vasitəsilə yolları tanıyırdılar. İmam Hüseyn (ə) də haqqın yolunu göstərən bir ələmdir.

İmam Hüseyn (ə) Mədinə və Məkkədən çıxandan sonra Kərbəlada haqq yolunu göstərən bir ələm kimi dayandı və dedi ki, Allaha doğru gəlmək istəyən, düz yol axtaran və məqsədə çatmaq istəyən varsa, buyursun gəlsin. İmam Hüseyni (ə) bu məqsəddən ayırmaq istəyən amillər onun qarşısına çıxdı, lakin o, dağ yerindən tərpənmədiyi kimi, bu hədəfdən yayınmadı. Ona bu səfərə getməməyi məsləhət görənlərin bəzilərini dinləyirdi və bəzilərinə əslən qulaq asmırdı. Mədinədən çıxan zaman Mərvan, Vəlid və onlar kimilər gəlib öz fikirlərini İmama (ə) bildirdilər. Həzrət (ə) bunlara bir kəlmə belə deməyi lüzum bilmədi və heç bir cavab vermədən Quranın bu ayəsini oxudu: “Allah tətfindən gəlmişik və Ona tərəf də qayıdacağıq.”

Abdullah ibn Ömər Məkkədə İmamın (ə) yanına gəlib uzun-uzadı onunla söhbət etdi və öz fikirlərini söylədi. Həzrət Hüseyn (ə) ona heç bir cavab verməyib buyurdu: “Gördüyüm bu dünya həmin dünyadır ki, Həzrət Yəhyanın (ə) kəsilmiş başını aparıb pozğun bir qadının oğlunun qarşısına qoydular.”

İmam Hüseyn (ə) insanlara yolu göstərdi və özü də irəlidə gedir. Nə ağalığından azalır və nə də özündə məğlubiyyət hissi keçirir. Möhkəm iradə ilə bu yolu gedir, nəticəsi nə olursa, qoy olsun. Lakin o, haqq sözündən dönmədi. İmam (ə)

buyurur ki, heç bir vaxt mənim kimisi onun kimisinə beyət etməyəcək. Məndən ona beyət etməyi istəməyin, bu mümkün olan bir iş deyil. Hər kim mənim bu dəvətimi qəbul edirsə, buyursun gəlsin. Mənim Peyğəmbərin (s) xəlifəsi adı altında Yezid kimi murdar və fasiq bir insana beyət etməyim mümkün deyil və bunun tarixə düşməsi də mümkün olmayacaqdır. İnsan onun (Yezidin) əməllərinə baxanda lap xəcalət çəkir. Bu işin axırı ölümdürsə, qoy olsun...

Əgər İmam Hüseyn (ə) Yezidə beyət etsəydi, bu gün bizim hər hansı bir insanın törətdiyi cinayətə etiraz etməyə belə ixtiyarımız olmazdı. Əgər İmam Hüseyn (ə) beyət etsəydi, qiyamət gününə qədər fasiqlərin cinayət törətmələrinə yol açılardı. Amma İmam Hüseyn (ə) bütün dünyaya başa saldı ki, belə insana və onun kimilərinə beyət etmək olmaz.

Haqqın yolu bəlli, yol nurani və sözləri çox dəqiqdir, sözü çox uzatmır, sözü açıq-aşkar şəkildə bəyan edir və insanları bir-bir haqq yoluna dəvət edirdi. İmam Hüseyn (ə) onların bir-bir adlarını çəkərək buyururdu: "Filankəs, filankəs, məgər siz məni tanımırsınızmı?! Məgər siz bilmirsiniz ki, mən Həzrət Peyğəmbərin (s) qızı Fatimənin (s.ə) oğluyam?! Məgər Həzrət Peyğəmbərin (s) mənim barəmdə "Cənnət cavanlarının ağasıdır" söylədiyini eşitməmisinizmi?! Sizi bu hala salan nədir?! Niyə belə günə düşmüsünüz?! Yezidin fərmanı niyə sizi zillətə salıb?! Sizin düşüncələrinizi niyə xarab ediblər?! Siz mənimlə birgə müharibələrə gedib mənimlə bir cərgədə qərar tutmamışdınızmı?!"

İmam Hüseyn (ə) bu sözləri çox açıq-aşkar şəkildə söyləyir, onlar isə heç bir cavab vermirdilər. Onların son sözləri bu idi ki, səni öldürəcəyik. İmam Hüseyn (ə) onlara başa salmaq istəyirdi ki, əvvəlcə sözünüzü deyin, sonra məni öldürün. Siz kiminlə söhbət etdiyinizi yaxşı bilin! Siz kimi öldürmək istədiyiniz haqda da yaxşı düşünün.

Lakin onlar İmam Hüseynin (ə) bu kəlamları qarşısında yenə də öz bildiklərindən əl çəkmədilər və öz yollarına davam etdilər. Çünki Bəni-Üməyyə camaatı fikirləşməyə imkan vermədi. Camaatın düşünüb doğru yolu tapmalarına imkan vermədilər. Kim düşünüb bir iş görmək istədisə, ona da "müşrik" deyib hədələdilər.

Bu gün İmam Hüseyn ibn Əliyə (ə) əza məclisləri keçiriləndə yenə də hərə bir tərəfdən etiraz etməyə başlayırlar. Xarici ölkələr bir söz deyir, daxildən başqa bir söz deyirlər, fasiq insanlar, şərab içənlər, haram yeyənlər də hərəsi bir söz deyirlər və yalandan namaz qılanlar isə bunların qabağına düşür və onlara rəhbərlik edirlər. Əza məclisini gah küfr, gah da şirk hesab edirlər. Məgər insan öz ölüsünə ağlasa, o, müşrik ola bilərmı?!

Minlərlə və ya milyonlarla günahsız insanların qanını tökürlər, məgər bu şirk deyilmi?! Haram yeyən insanlarla bir süfrədə əyləşmək məgər şirk deyilmi?! Dünyada baş verən bütün cinayətlərə göz yumurlar, lakin iki nəfər oturub İmam Hüseynə (ə) ağlasa, onlara müşrik deyirlər! Onlar əzadarlığın İslam aləminə faydasını başa düşdükləri üçün belə deyirlər. Onlar əzadarlığın verdiyi faydalara görə belə narahatdırlar.

İmam Hüseyn (ə) haqqın yolu ilə gedərək Bəni-Üməyyənin tutduğu yolu insanlara açıq-aşkar şəkildə bəyan etdi. İmam Hüseyn (ə) öz hərəkatı ilə insanları başa saldı ki, eşq, izzət, şərafət, cəhənnəm odundan azad olmaq, cənnətin ləzzəti, Allaha ibadət və həqiqət haqq yolunda olanlar tərəfdədir. Kim bu yolu getmək istəyirsə, buyursun gəlsin...

*Hüseyn müridinə duzəx*[1] *nədir, əzab nədir,*
*Hüseynə ağlayan məhşəru hesab nədir.*

---

[1] Duzəx, yəni cəhənnəm.

*Silərdi Ruhul-Əmin qan Hüseynin alnından,*
*Deyərdi: İndi düşündüm afitab nədir.*

*Bunun da yoxdur naziri xudayi mənnan tək,*
*Əgər O, leysə kəmislihdir bu cənab nədir.*

*O ki, deyəndə Hüseyn sinəsin söküb yarmaz,*
*Onu mühakimə eşq eyləsə cəvab nədir.*

*Kilasi*[1] *eşq Hüseynin düşdüyü çuxur yerdir,*
*Yazıl o məktəbə gör söz nədir, kitab nədir.*

*Tənabə*[2] *bağla məni dəşti Kərbəlayə sürü,*
*Xeyr, xeyr, sürünnəm özüm eşq ilə, tənab nədir.*
*Çox inqilab*[3] *görübsən, vəli deyəndə Hüseyn,*
*Vücudi Zeynəbə bax, gör inqilab nədir.*

---

[1] Kelas, yəni sinif. Hər elmin bir sinfi var. Eşqin sinfi Kərbəladır.
[2] Tənab – ip.
[3] İnqilab, yəni haldan-hala düşmək.

## İMAM HÜSEYN (Ə) HƏRƏKATININ HƏMİŞƏYAŞAR OLMASININ SƏBƏBLƏRİ

*Hüseyn ki mən tanıram kəşfidi, kəramətdi,*
*Hüseyn ki mən tanıram eşqidi, inayətdi.*
*Hüseyn ki mən tanıram ruhi mənəviyyətdi,*
*Hüseyn ki mən tanıram nayibi nübüvvətdi.*
*Hüseyn ki mən tanıram Cəbrəil əlindən öpər,*
*Deyər: Bu əlləri öpmək şərəfdi, izzətdi.*
*Hüseyn ki mən tanıram ənbiya baxar üzünə,*
*Deyər: Bu surətə baxmaq böyük ibadətdi.*
*Hüseyn ki mən tanıram versə bir tükün hər kim,*
*İki cahana əgər, bi şüurü nadandi.*
*Hüseyn ki mən tanıram nökər olsa kim o şahə,*
*Şühudü ğeybü zəminü zəmanı sultandi.*
*Hüseyndir nüsxeyi duvvum vücudi vahiddən,*
*Hüseynə aşiqi əvvəl xudayi sübhandi.*
*Nəbi, peyəmbəri dünyaye hökmu taətdir,*
*Hüseyn, peyəmbəri dünyaye eşqü ürfandi.*
*Hüseyni gördü ki, Quran söküblər sinəsini,*
*Dedi: Mənəm xətü kağəz, bu sinə Qurandi.*
*Firiştələr də, pərilər də, cinü Adəm də,*
*Görünməyən də, görünən də Hüseynə qurbandi.*

İmam Hüseyn (ə) Allahın bir höccəti olaraq boynunda olan vəzifəni lazımınca yerinə yetirmişdir. Bu vəzifəni yerinə yetirmək üçün çox böyük bir hadisə və inqilab baş verdi. Bu inqilab hicrətin 61-ci ilində Kərbəlada yarandı. Lakin Kərbəlada baş vermiş bu inqilab digər inqilablar kimi illər ötdükcə köhnəlmədi və unudulmadı. Dünyada müxtəlif səbəblərə görə, habelə müxtəlif məkanlarda və zamanlarda çoxsaylı inqilablar baş vermişdir, lakin illər keçdikdən sonra onların böyük bir qismi unudulmuşdur. Bu da fərəhləndirici haldır ki,

zaman keçdikcə və imkanlar daha da artdıqca İmam Hüseyn (ə) inqilabının hədəfləri və Həzrətin (ə) fikirləri daha geniş ictimaiyyətə çatdırılır və insanlar tərəfindən daha yaxşı dərk olunur. Müasir dövrün insanları Kərbəla hadisəsini çox gözəl şəkildə təhlil edə bilirlər. Kərbəla hadisəsinin bu günədək yaddaşlarda yaşamasının və unudulmamasının bir neçə səbəbi vardır ki, onları aşağıda qeyd edirik:

**1. İmam Hüseyn (ə) inqilabı Quran ayələrilə üst-üstə düşürdü**

Quran əbədi bir kitabdır. Allah-taala Quran haqqında buyurur:

إِنا نحن نزلْنا الذكْر وإِنا له لحافِظُونَ

–Həqiqətən bu zikri (Quranı) Biz nazil etdik və şübhəsiz, onu Biz Özümüz qoruyarıq.

Allah-taala Özü və kitabı əbədi olduğu üçün hər bir şey Allahın kitabına qoşulsa, o da əbədiyyətə qovuşacaqdır. “ər-Rəhman” surəsində oxuyuruq:

كُل من علَيها فَان. ويبقَى وجه ربك ذُو الْجلَال والْإِكْرامِ

–Bunun üzərində olan hər bir kəs fənaya məhkumdur. Yalnız əzəmət, böyüklük, üstünlük, kərəm, camal və mərhəmət sahibi olan Rəbbinin zatı qalacaqdır.[1]

**2. İmam Hüseyn (ə) inqilabı haqqı müdafiə edirdi**

Allah-taala mütləq haqq olduğu üçün və hər bir şey haqq olsa, Allaha qoşulub əbədiyyətə qovuşacaqdır. Allah-taala İsra surəsini 81-ci ayəsində belə buyurur:

جاء الْحق وزهق الْباطِلُ إِن الْباطِلَ كَانَ زهوقًا

–Haqq gəldi və batil məhv oldu, həqiqətən, batil həmişə məhvə məhkumdur.

---

[1] ər-Rəhman surəsi, 26-27-ci ayələr.

“Rəd” surəsinin 17-ci ayəsində buyurulur:

كَذَلِك يضرِب اللّه الْحق والْباطِلَ فَأما الزبد فَيذْهب جفَاء وأما ما ينفَع الناس فَيمكُثُ ِفي الأَرضِ

–Allah haqq ilə batilə belə misal çəkir: həqiqətlər su və filizlər, batillər isə onların köpükləridir. Amma o köpüklər bir kənara gedərək məhv olur, sular və ərimiş filizlər kimi insanlara fayda verən şeylər isə yerdə qalır.

Haqqın bir dalğası ilə bütün batillər məhv olur.

Qeyd etdik ki, Kərbəla hadisəsi və Kərbəlada baş verən inqilab Quran ayələri ilə üst-üstə düşürdü. Yəni Quran “əmr be məruf”u tövsiyə edirsə, Kərbəla hadisəsi də “əmr be məruf” məqsədilə baş vermişdi. Quran zalımlarla mübarizə aparmağı əmr edirsə, Kərbəla da zalımlara qarşı mübarizə meydanı idi. Quran fasiqlərə beyət etməməyi tövsiyə edirsə, Kərbəlada da fasiqlərə beyət edilmədi. Əgər İmam Hüseynin (ə) inqilabı Quran ayələrinin ziddinə olsaydı, o zaman onlar heç bir vaxt deməzdilər ki, “niyə qara köynək geyinirsiniz, niyə əza saxlayırsınız? Bu şirkdir.” Həmin zidd əməli bayraq kimi əllərində əsas tutardılar. Onlar Quranda səhv tapa bilmədikləri kimi, Avropanın 1400 ildən sonra kəşf etdiklərinə bir nəzər yetirəndə baxıb görürlər ki, İslam Peyğəmbəri (s) bu kəşfi hələ o vaxtlar, yəni on dörd əsr bundan qabaq daha gözəl şəkildə bəyan etmişdir. Elm inkişaf etdikcə onlar Quranın ayələrini daha da yaxşı anladıqları üçün Qurana qarşı mübarizədə başqa yollara əl atırlar.

İmam Hüseynin (ə) bütün hərəkətlərinin, xütbələrinin və əməllərinin arxasında məntiq, dəlil-sübut və hikmət vardır. Onlarsa (yəni münafiqlər) bu məntiqi, dəlil-sübutları və hikməti həmişə gizlətməyə çalışmışlar. Elə buna görə də onlar İmam Hüseynin (ə) inqilabı ilə bağlı hər hansı bir açıqlama verməkdən belə çəkinirlər.

Allah və Allahın kəlamı əbədi olduğu üçün Ona üz tutan da əbədi olaraq qalacaqdır. Bu, ümumi bir qanunauyğunluqdur və bəzi şairlər də bundan bəhrələnə bilmişlər. Tarixdə çox şairlər olub və yaşayıb-yaradıblar. Amma hansı şair Quran ayələrindən, Həzrət Peyğəmbərin (s) kəlamlarından qidalana bilibsə, onun şeirləri də əbədilik qazanıb və heç bir vaxt köhnəlmir. Çünki onların daxilində ilahi bir həqiqət vardır. Qalan şairlər isə özləri həyatdan köçəndən sonra tədricən, yəni vaxt ötdükcə şeirləri də yaddan çıxır və onlar unudulurlar.

## Allahın bəyəndiyi əməllər

Allah-taala insanlara bir din nazil etmişdir və bu din haqq bir dindir. Allah Quranda da buyurur ki, bu din təmiz, müxlis bir dindir. Odur ki, Allah-taala insanlardan da xalis bir ibadət istəyir. Məsələn, Allah-taala bizdən namaz istəyir, amma istənilən hər hansı bir namazı yox. İnsan ibadət edərkən, yaxud namaz qılarkən onun Allah-taala tərəfindən bəyənilib-bəyənilməyəcəyini bilmir. Hər kəs doğru-düzgün ibadət etdiyini düşünür və elə güman edir ki, onun qüsuru yoxdur. Amma Allah nəyi sevir və nəyi bəyənir, bax bunu insan bilmir. Bununla belə, Allah-taala bəyəndiyi şeylərin əlamətlərini də insanlara bildirmişdir. Həmin əlamətlərdən biri isə ixlasdır.

Hər hansı bir əməldə, o cümlədən namaz, oruc, ehsan və s. kimi əməllərdə ixlas olsa, Allah-taala həmin əməli qəbul edəcəkdir. Allah buyurur ki, ixlasla icra olunan hər bir əməl Mənimdir və əgər əməldə ixlas olmasa, o əməl Mənə lazım deyil.

Qiyamət günü insanlar öz əməllərini, namazlarını, oruclarını, həcclərini gətirib sərgiyə qoyacaqlar. Orada hansı əməllərin ortaya çıxacağından insanın xəbəri yoxdur. İnsan o zaman daha gözəl əməlləri görüb özünün sərgiyə təqdim etdiyi

əməllərdən xəcalət çəkəcək. İnsan bu dünyada əlli il, altmış il yaşayır və yalnız kef çəkməyin yollarını arayır. Lakin elə insanlar da vardır ki, bu dünyada kef axtarmırlar, ömürlərinin hamısını yaxşı əməllər yerinə yetirib axirətə göndərməyə sərf edirlər. Bunu ona görə edirlər ki, qiyamət günü əməllər sərgiyə qoyulan zaman narahatlıq keçirməsinlər. Belə insanlar əməllərini və onun nəticəsini gördükdə dünyada çəkdikləri əzab-əziyyət, aclıq və susuzluq günləri, çətin zamanlarda imanlarını qoruduqları günlər, güclü küləklərin müqabilində şam işığında güclə özünü müdafiə etdiyi zamanlar şirin xatirələrə çevrilir.

Allah-taala insanlara təmiz din və təmiz kitab göndərib və insanlardan da təmiz əməl istəyir. Hər kim ixlasla, imanla bir işi görsə, Allah onu qəbul edəcəkdir. Şeytan da belə xalis əməlin müqabilində acizdir. Allah-taala Quranda şeytanın dilindən buyurur:

قَالَ فَبِعِزَتِك لَأُغْوِينهم أجمعِين. إِلا عِبادك مِنهم الْمخلَصِين

–(İblis) dedi: “İzzətinə and olsun ki, onların hamısını (kökü kəsilənə kimi Adəmin nəslinin hamısını) aldadıb doğru yoldan çıxaracağam. Onların arasından Sənin xalis və seçilmiş bəndələrin istisna olmaqla.”[1]

Şeytan özü də müxlis insanlara gücünün çatmayacağını etiraf etmişdir.

İmam Həsən Əskəri (ə) buyurmuşdur:

لَو جعلْت الدنيا كُلها لُقْمةً واحِدةً و لَقمتها من يعبد اللهَ خالصاً لَرأيت أنى مقَصرِفى حقِهِ

–Bütün dünyanın hamısını bir tikə yemək edib Allaha xalis niyyətlə ibadət edən bir şəxsə versəm, yenə də onun haqqını ödəmədiyim üçün özümü müqəssir hesab edərəm.

---

[1] Sad surəsi, 82-83-cü ayələr.

İnsanın gənc yaşında ikən pak yaşaması və hər bir yerdə Allahı öz yanında hiss etməsi çox əzəmətlidir. Bunun əzəmətini dərk etmək isə çox çətindir. İmam Hüseyn (ə) belə şəxslərdəndir. İmam Hüseynin (ə) ziyarətnaməsində oxuyuruq:

اَلسلام علَيك يا حجةَ الله، اَلسلام علَيك يا خالِصةَ الله

İmam Hüseyn (ə) Allahdan başqa heç bir şeyi nəzərə almadı və yalnız Allahın razılığını düşündü. Qarşısına çıxan hər bir hadisədə Allahın razılığını nəzərə alıb ona uyğun addım atdı. Müaviyənin, Yezidin, Şüreyhin və digərlərinin istəklərinə heç bir əhəmiyyət verməyib onları puç bir şey hesab edirdi. Allahın razılığı onun üçün hər şeydən mühüm idi. Bu yolda ailəsi, canı, qardaşı, oğlu və b. heç bir əhəmiyyət kəsb etmirdi.

Elə buna görə də onun qiyamı əbədi olaraq qalacaqdır. Çünki onun əməlində Allahın istəyindən savayı başqa heç bir şey yox idi. İmam Hüseyn (ə) Kərbəlada düşmən əsgərləri onu atdan salıb mühasirəyə alarkən belə söylədi.

اِنْ كَانَ دِين محمدٍ لَم يستقِم اِلّا بِقَتِلي، فَيا سيوف خذِيني

–Əgər Məhəmmədin (s) dini mənim qətlimlə yer üzündə qalacaqsa, ey qılınclar, doğrayın məni.

İmam Hüseyn (ə) yalnız Həzrət Peyğəmbərin (s) dini haqda düşünürdü.

إلهی رضی بِقَضائِک

–Allahım! Mən Sənin qəza-qədərinə razıyam.

Bütün tarix boyu baş verən böyük hadisələrdə bu günədək hansısa bir rəhbərin məhz bu cür düşünməsinin və belə bir söz deməsinin şahidi olmamışıq. Həmişə belə fikirləşiblər ki, qələbə bizimlədir, hakimiyyət bizim əlimizə keçəcək və ondan sonra filan işləri görəcəyik.

İmam Hüseyn (ə) isə özü xalis bəndə olduğundan müxlis bəndələri öz ətrafında topladı və ixlası olmayanları özündən uzaqlaşdırdı.

Yuxarıda da qeyd etdik ki, insanlar boyunlarında ya Allahın haqqı, ya da digər insanların haqqı olanda xalis (təmiz) hesab olunmurlar. Başqa ifadə ilə desək, ya Allaha qarşı günah etdiklərinə görə, ya da insanların haqlarını ödəmədiklərinə görə ixlaslı ola bilmirlər. Hər bir insanda bu ikisi olsa, həmin insan təmizlikdən çıxar, yox, əgər olmasa, onda Allahın razılığından savayı başqa bir şey qalmaz.

Musa ibn Umeyr atasından belə nəql edir ki, aşura gününə çox az qalmışdı. İmam Hüseyn (ə) şəhid olacaqlarını bilirdi. Həzrət (ə) mənə dedi ki, qalx, mənim səhabələrimin yanında elan et ki, kimin boynunda insanların haqqı varsa (yəni borcludursa), mənimlə gəlməsin. Çünki borcu olanı və onu heç bir vaxt ödəməyəcəyini düşünən insanı Allah-taala cənnətə daxil olmağa qoymayacaq.

İmam Hüseyn (ə) bunu deməklə xalis insanları xalis olmayanlardan, təmizləri natəmizlərdən ayırmaq və yerdə qalan insanlara cənnət müjdəsi vermək istəyirdi.

İkinci qrup xalis olmayanlar günahkarlardır, yəni Kərbəlaya başqa niyyətlə gələnlərdir. Onlar Kərbəlaya qalib gəlmək və oradan qənimət götürmək məqsədi güdürlər. İmam Hüseyn (ə) orada bəyan etdi ki, belə bir niyyətlə Kərbəlaya gələnlər də qayıtsınlar. Onların hamısı çıxıb getdilər. Sonra da bəzi insanların utanmaması üçün işıqları söndürdülər ki, onlar da rahatlıqla gedə bilsinlər. Bununla da İmam (ə) öz dəstəsini xalis olmayan insanlardan təmizlədi.

Bəzi xalis bəndələr də var idi ki, aldanaraq düşmən qoşununun cərgəsində yer tutmuşdular. İmam Hüseyn (ə) onları isə öz cərgəsinə çəkmək istəyirdi. Elə bu səbəbdən aşura günü bir neçə dəfə xütbə oxudu. Xütbə oxumaqla həm höccəti onlara tamamladı və həm də aldanaraq, yaxud şəraitin tələbinə

görə düşmən cərgəsində dayanan xalis bəndələri oradan çıxarıb öz cərgəsinə daxil etdi.

Beləcə, İmam Hüseynin (ə) ətrafında 72 nəfər səhabə qaldı, amma Kərbəla şəhidlərinin sayı isə 120 nəfərdən çoxdur. İmam Zaman (ə.c) ağa şəhidlərin ziyarətnaməsində onların bir-bir adlarını çəkərək hər birinə salam verir. Beləliklə, 72 nəfər İmam Hüseynin (ə) yanında qalanlar, yerdə qalanlar isə düşmən qoşununda olan xalis bəndələr idilər ki, sonradan o həzrətə qoşuldular.

Onlardan biri Hürr idi. O, İmam Hüseynin (ə) yanına gəlib dedi:

–Mən bu gün əgər tövbə etsəm, Allah məni bağışlayarmı?

İmam Hüseyn (ə) buyurdu:

نعم يتوب اللهُ عليك و يغفِر لك

–Bəli, Allah sənin tövbəni qəbul edər və səni bağışlayar.

Hürr tövbə edib Həzrətin (ə) qoşununa qoşulduqdan sonra İmam Hüseyn (ə) bir xütbə oxudu və bu xütbədən sonra Əmr ibn Xalid Seydavi gəlib dedi:

يا أبا عبدِ اللّهِ، جعِلْت فِداك قد هممت أنْ ألحق بأصحابِك و كرِهت أنْ أتخلف

–Sənə fəda olum, mənə də sənin səhabələrindən olmağa icazə verirsənmi? Mən sənin düşmənlərinin cərgəsində olmaq istəmirəm.

İmam Hüseyn (ə) onu da qəbul etdi. Bu minvalla bir neçə nəfər, o cümlədən də Əbu Şəsa ləqəbi ilə tanınmış Yezid ibn Ziyad Həzrətin (ə) yanına gəlib dedi:

–Mən anlamamışam, yolu səhv getmişəm. Bu hadisəni başqa cür başa düşmüşəm. Məni öz cərgənə qəbul edirsənmi?

İmam Hüseyn (ə) onu qəbul etdikdən sonra Yezid ibn Ziyad dedi:

–Sən məni qəbul etməklə mən haqqa qovuşdum. Sənə qoşulmaqla mən paklandım. İndi icazə ver, sənin tərəfindən döyüşə gedim.

O, döyüşərkən İmam Hüseyn (ə) ona belə dua edirdi:

اَللهم سدد رميته، و اجعلْ ثَوابه الْجنةَ

–Allahım! Onu ox atmaqda möhkəm elə və cənnəti ona savab olaraq ver.

**3. Şəhidlərin varisləri**

Kərbəla hadisəsinin həmişəyaşar olmasının üçüncü səbəbi İmam Hüseynin (ə) şəhadətindən sonra karvana rəhbərlik edən Xanım Zeynəb (s.ə) olmuşdur. Elə bu səbəbdən də deyirlər ki, Kərbəlada bir bacı və bir qardaş inqilab etmişdir. Xanım Zeynəbi (s.ə) İmam Hüseynin (ə) inqilabına şərik hesab edirlər, çünki İmam Hüseyn (ə) şəhid olandan sonra Xanım Zeynəb (s.ə) bu inqilabı sönməyə qoymadı və onu öz mübarizliyi ilə davam etdirdi. Şəhidləri öldürməklə onların səslərini boğmağa çalışırlar, lakin varisləri imanlı və güclü olsalar, onların haqq səslərini bütün dünyaya çatdıra bilərlər. Xanım Zeynəb (s.ə) bu işi mətanətlə görə bildi.

*Əl-qissə, Hüseyn məqsədü amalinə çatdı,*
*Fərmandeh olub Zeynəb o sultan əvəzində.*

Aşura günü günortaya qədər İmam Hüseyn (ə) inqilaba rəhbərlik etdi, ondan sonra isə Xanım Zeynəb (s.ə) lazım olan yerlərdə İmam Zeynalabidindən (ə) məsləhətlər alaraq bu inqilaba rəhbərliyi davam etdirdi. Xanım Zeynəb (s.ə) Şamda, Mədinədə və başqa yerlərdə mümkün olduğu qədər Kərbəla hadisəsini öz gözəl xütbələri ilə insanların nəzər-diqqətinə çatdırdı. O, ilk xütbəsini Kufədə, əsas və düşməni sarsıdan xütbəsini isə Yezidin evində keçirilən məclisdə oxudu. Deyirlər ki, Xanım Zeynəbin (s.ə) Yezidin evindəki məclisdə

oxuduğu xütbə İmam Hüseyn (ə) inqilabının əbədiyaşarlıq qazanması üçün yetərli idi.

Xanım Zeynəb (s.ə) Həzrət Əlinin (ə) tərbiyəsi ilə böyümüşdür. O, xütbə oxuyanda elə güman edirdilər ki, Həzrət Əli (ə) dirilib özü xütbə oxuyur. İmam Hüseyn (ə) öz vəzifəsini, Xanım Zeynəb (s.ə) də boynuna düşən vəzifəni şərəflə yerinə yetirdilər.

Bu səbəbdən Kərbəla hadisəsi həmişəyaşardır və daim möminlərin qəlbində yaşayacaqdır. Quran qiyamət gününə qədər qorunub saxlanılacağı kimi, İmam Hüseynin (ə) qiyamı da əbədi olaraq qalacaqdır. Hər kəs bu əzaya qoşulsa və özünü əzadar etsə, İmam Hüseyn (ə) zillət görmədiyi kimi, həmin şəxs də zillət görməyəcəkdir. Düzdür, əziyyət çəkə bilər, amma zillət görməz. İzzət ilə yaşamaq istəyən hər bir kəs əzadarlara qoşulmalıdır. Müsəlmanların izzətini istəməyənlər isə İmam Hüseynin (ə) əza məclislərinin keçirilməsinin əleyhinə çıxırlar.

## “ƏTİULLAH” (ALLAHA İTAƏT EDİN) AYƏSİ VƏ HƏZRƏT ƏBÜLFƏZL (Ə)

Allah-taala “Nisa” surəsinin 59-cu ayəsində möminlərə xitab edərək buyurur:

يا أيها الذِين آمنوا أطِيعوا اللّه وأطِيعوا الرسولَ وأولي الأمرِ مِنكُم

–Ey iman gətirənlər, Allaha itaət edin, Onun peyğəmbərinə və (Peyğəmbərin məsum canişinləri olan) öz əmr sahiblərinizə tabe olun.

İslam Peyğəmbərinin (s) vəfatından sonra bu ayə barəsində müxtəlif fikirlər yaranmış və müxtəlif münasibətlərlə həmin ayə ilə bağlı geniş xütbələr oxunmuşdur. Burada məqsədim həmin ixtilafları araşdırmaq deyil.

Bütün dinlərdə, xüsusilə İslam dinində Allah-taala peyğəmbər göndərməklə və kitab nazil etməklə işi tamamlamır. İslam dini elə bir dindir ki, qiyamət gününə qədər istəsələr də, istəməsələr də bütün insanların taleyi ona bağlıdır. Yəni bəşərin taleyi Allah-taalanın nazil etdiyi bu dinlə əlaqədardır. İnsanlar isə öz aləmlərində guya öz talelərinin müəyyənləşdirilməsi üçün müxtəlif səylər göstərir və hansısa təlimləri yaratmaqla bu sahədə addımlar atmağa çalışırlar. Amma bütün bunlar nadanlıqdan savayı başqa bir şey deyildir. Məlumdur ki, insanı Allah yaradıb, yaratdığı insana peyğəmbər göndərib, göndərdiyi peyğəmbərə (Quran) kitab nazil edib və yaratdığı insanların taleyini də göndərdiyi peyğəmbərə və nazil etdiyi kitaba həvalə edib. Və qiyamət günü insanlar İslam qanunlarına əsasən haqq-hesaba çəkiləcəklər. Allah-taala “Ali-İmran” surəsinin 85-ci ayəsində buyurur:

ومن يبتغِ غَير الإسلامِ دِينا فَلَن يقْبلَ مِنه

–Kim İslamdan başqa bir din axtarışında olsa, əsla ondan qəbul olunmayacaqdır.

## Vilayət və imamətin mənası

İmamət İslamda dinin əsaslarından biridir. Dinin əsasları isə tövhid, ədl, nübüvvət, imamət (nübüvvətin davamçısı) və məaddan ibarətdir.

Yuxarıda qeyd etdik ki, Allah-taala insanlara peyğəmbər (Həzrət Məhəmmədi (s)) göndərdikdən və kitab (Quranı) nazil etdikdən sonra insanların taleyini onlara həvalə etdi. Həmçinin onu da vurğuladıq ki, Quran qiyamətədək var olacaqdır, lakin Allah-taala tərəfindən göndərilmiş peyğəmbərin də bəlli bir ömür payı olduğundan onun da dünyadan getməsi məsələsi həmin müqəddəs kitabda xatırladılmışdır.

إِنك ميت وإِنهم ميتونَ

–Şübhəsiz, sən də öləcəksən, onlar da öləcəklər.[1]

Burada istər-istəməz belə bir sual yaranır ki, bəs, Həzrət Peyğəmbər (s) dünyadan gedəndən sonra insanların taleyi necə olacaqdı?! Məgər Qurani-kərimi hər bir kəs oxuyub anladığı, yaxud istədiyi kimi şərh edə bilərmi?! Həmçinin hər bir kəs istədiyi bir yolu tutub gedə bilərmi?! Təbiidir ki, xeyr, bu mümkün deyildir.

Allah-taala Quranı təfsir etmək üçün mütləq bir nəfəri təyin etməliydi və yalnız onun Quranı təfsir etməyə ixtiyarı çata bilər. Başqa hər bir kəs əgər Quranı təfsir etmək istəsə, mütləq onun fikrini əsas götürüb təfsir etməlidir. Bu baxımdan Əhli-beyt (ə) və Quran heç vaxt bir-birilərindən ayrılmayacaqlar.

İmamət dinin əbədi olaraq qalmasına zamindir. Din nübüvvətlə başlayır və imamətlə də davam edir. İmam dini qiyamət gününə qədər qoruyub saxlayan və onun təminatçısıdır.

Məlumdur ki, hər bir dində bütün peyğəmbərlər özlərinə vəsi təyin etmişlər. Lakin digər dinlərin təyin etdiyi vəsilərin

---

[1] Zumər surəsi, 30-cu ayə.

rəhbərliyi müəyyən bir müddət üçün, yəni növbəti peyğəmbərin gəlişinə qədər qüvvədə idi. İslam dininin özündən əvvəlki dinlərdən fərqi budur ki, İslam Peyğəmbərinin (s) təyin etdiyi vəsi qiyamət gününə qədər insanlara hakimdir.

Həzrət Adəm (ə) dünyasını dəyişəndə Şeys adlı sonuncu övladını Allahın əmri ilə özünə vəsi təyin etmişdir. Bu barədə heç bir fikir müxtəlifliyi yoxdur və hamının qəbul etdiyi bir məsələdir.

Ulul-əzm peyğəmbərlərdən olan Həzrət Nuh (ə) dünyasını dəyişəndə Samı özünə vəsi təyin etmişdir. Həzrət Nuhun (ə) dinini, dediyi sözləri o davam etdirirdi. Həzrət İbrahim (ə) öz yerinə Həzrət İsmayılı (ə) vəsi təyin etmişdir. Həzrət Musa (ə) Yuşə ibn Nun (ə) adlı bir şəxsi öz yerinə təyin etmişdir və Allahın hökmlərini insanlara çatdırmağı onun öhdəsinə qoymuşdur. Həzrət İsa (ə) Şəmun adlı bir şəxsi öz yerinə vəsi təyin etmişdir.

Beləcə, gördüyümüz kimi, bütün peyğəmbərlər öz yerlərinə kimisə vəsi təyin etmişlər. Bəs görəsən, İslam Peyğəmbəri (s) necə, öz yerinə vəsi təyin etmişdimi? Digər peyğəmbərlərin dinləri əbədi olmadığı halda onların qısa bir müddətə olsa da öz yerlərinə vəsi təyin etdikləri məlum bir həqiqətdir. Bəs, İslam dininin əbədi olduğu və qiyamətədək davam edəcəyi, həmçinin əvvəlki dinlərdən daha mühüm və daha mütərəqqi bir din olduğu halda necə ola bilərdi ki, İslam Peyğəmbəri (s) öz yerinə vəsi və canişin təyin etmədən dünyadan köçsün?!

Allah-taala Quranın "Bəqərə" surəsinin 40-cı ayəsində buyurur:

أَوفُواْ بِعَهدِي أُوفِ بِعَهدِكُم وَإِيَّايَ فَارهَبُونِ

–Mənim əhd-peymanıma vəfa edin ki, Mən də sizin əhd-peymanınıza vəfa edim. Və yalnız Məndən qorxun!

İbn Abbas və başqaları deyirlər ki, bu ayə nazil olandan sonra İslam Peyğəmbəri (s) buyurdu: "Hər bir peyğəmbər

özünə vəsi təyin etmişdir. Adəm Şeysi, Nuh Samı, İbrahim İsmayılı, Musa Yuşəni və İsa Şəmunu öz yerlərinə vəsi təyin etmişdilər. Ey camaat!

قَد عهدت اِلیَ أُمِتي فِي عِلي بن أِبي طَاِلب «فَمن نكَثَ فَاِنما ينكُثُ

علَى نفْسِهِ و من أوفَى بِما عاهد علَيه الله فَسيؤتِيهِ اَجراً عظِيماً

–Mən də ümmətimlə Əli ibn Əbitalib barəsində əhd bağlayıram. (İzzətli olmaq istəyən) hər kəs əgər bu peymana sadiq olsa, Allah ona böyük əcr verəcəkdir (və o məqsədə çatacaqdır). Hər kim əməl etməsə, həqiqətdə özünə zülm etmiş olur.

İmam Sadiq (ə) buyurmuşdur:

وِلايِتي لِعِلي بنِ أِبي طَاِلبٍ علَيهِ السلام أحب إِلَي مِن وِلادتي مِنه، لِأن

وِلاَيِتي لِعِلي بنِ أِبي طَاِلب فَرض، و وِلَادِتي مِنه فَضلٌ

–Əli ibn Əbitalibin (ə) vilayətinə iman gətirməyim onun övladı olmaqdan mənim üçün daha əzizdir (daha önəmlidir). (Yəni vilayətin şərafəti nəvəsi olmaqdan daha çoxdur.) Çünki Əli ibn Əbitalibin (ə) vilayətini (qəbul etmək) vacibdir və onun övladı olmaq fəzilətdir.

İmam Sadiq (ə) demək istəyir ki, əgər mən onun nəvəsi olmasaydım da belə yenə də onun vilayətinə iman gətirməli idim. Çünki mənim taleyim ona bağlıdır.

İslam dedikdə Həzrət Məhəmməd (s), iman dedikdə isə Həzrət Əli (ə) nəzərdə tutulur. Hər kim Həzrət Peyğəmbəri (s) qəbul etsə, amma Həzrət Əlinin (ə) vilayətini qəbul etməsə, müsəlman sayılır, lakin mömin sayılmır. İslam ilə imanın fərqi, dünya ilə axirətə aiddir. Müsəlman sayılan hər bir kəs digər müsəlmanın qardaşı hesab edilir. Dünya müsəlmanları hamısı bir-biri ilə qardaşdırlar. Bunun faydası şəriət hökmlərində müşahidə olunur. Yəni əgər bir müsəlman heyvan başını kəssə, onun əti halaldır və yemək olar. Amma həmin heyvanı

kafir kəssə, onu yemək olmaz. Müsəlmanlar arasında həmçinin miras məsələsi mövcuddur və əgər bir atanın üç oğlu varsa, onlardan biri mömin, biri müsəlman, digəri isə kafir olsa, ata dünyasını dəyişəndən sonra onun malı yalnız iki oğluna, yəni mömin və müsəlman oğluna miras olaraq çatacaqdır. Deməli, həm möminə və həm də müsəlmana miras çatır, amma kafirə miras düşmür.

Əgər müsəlman olan bir şəxs bəyəndiyi qızla evlənmək istəyirsə və o qız da mömin və ya müsəlmandırsa, onunla evlənə bilər. Yox, əgər qız kafir olsa, onunla evlənə bilməz.

Qiyamət isə yalnız möminlərə məxsusdur. Başqa ifadə ilə desək, qiyamət günü savab İslama görə yox, imana görə veriləcəkdir. Onu da qeyd etmək lazımdır ki, İslam olmadan imanın da olması mümkün deyil. İmansız müsəlman ola bilər, amma İslam olmadan imanın olması qeyri-mümkündür. Yəni hər bir mömin müsəlman sayılır, amma hər bir müsəlman mömin sayılmır. Cənnət və savab İslamın yox, imanındır.

Allah-taala Qurani-kərimdə buyurur:

وَقِفُوهُمْ إِنَّهُم مَّسْئُولُونَ

–Və onları (o yolda) saxlayın ki, onlar (orada əqidələr və əməllər barəsində) sorğu-sual olunmalıdırlar.[1]

İslam Peyğəmbərindən (s) soruşdular: "Ya Rəsulallah! Nəyi şoruşacaqlar?" Həzrət (s) buyurdu: "Əlinin (ə) vilayətini soruşacaqlar." Əli (ə) ilə mən sirat körpüsünün üzərində dayanacağıq. Hər kəsin Əlinin (ə) vilayətinə imanı olsa, körpüdən keçəcək və imanı olmayana oradan keçmək icazəsi verilməyəcəkdir.

ثُمَّ لَتُسْأَلُنَّ يَوْمَئِذٍ عَنِ النَّعِيمِ

–Sonra isə o gün, şübhəsiz, siz (dünyada Allahın) əta etdiyi nemətlər barəsində sorğu-sual olunacaqsınız.

---

[1] Saffat surəsi, 24-cü ayə.

Əbu Hənifə İmam Sadiqdən (ə) soruşdu:

–Bu ayədə deyilir ki, qiyamət günü nemətlərdən soruşulacaq. Nemətlər kəlməsində məqsəd nədir?

Həzrət (ə) onun bu sualına elə sualla da cavab verdi:

–Ey Əbu Hənifə, səncə, qiyamət günü soruşulacaq nemət nədir?

Əbu Hənifə dedi:

–Mənə elə gəlir ki, insanın ömründən, malından, əməllərindən soruşacaqlar. Həzrət (ə) buyurdu:

–Bu ayənin mənası Həzrət Əlinin (ə) vilayətidir.

Yəni Həzrət Əlini (ə) və Əhli-beyti (ə) soruşacaqlar. Həqiqi və əsas nemət onlardır və digər nemətlər bu nemətlərin kölgəsində qərar tutmuşdur. Əgər o nemətlər olmasaydı, digər nemətlər də olmazdı.

Hədislərdə belə nəql olunub ki, insanı cah-cəlalla qəbrə qoyandan sonra dünyasını dəyişmiş insan görər ki, onun sağında, solunda, arxasında, önündə, baş tərəfində və ayaq tərəfində bir nur dayanıb. İnsan həmin anları ilk dəfə yaşadığı üçün qorxar. Onlardan bir-bir "sən kimsən?" – deyə soruşar. Biri deyər mən onun qıldığı namazlarıyam, biri deyər onun tutduğu orucuyam, biri deyər onun yerinə yetirdiyi həcc ziyarətiyəm. Sonra nuru hamıdan çox olan və baş tərəfdə dayanan nurdan "bəs, sən kimsən?" – deyə soruşanda, o da deyər ki, "mən Əlinin (ə) vilayətiyəm. Əgər mən olmasam, sizin heç birinizi qəbul etməzlər. Sizi mənim hesabıma qəbul edəcəklər."

İmam Məhəmməd Baqir (ə) buyurmuşdur:

بِني الْإِسِلام علَي خمسٍ: علَي الصلاة و الزكات و الصوم و الْحج و ولاية. و لَم ينادِ بشئٍ كَما ندِي بولايةٍ

–İslam beş əsas sütunun üzərində qurulmuşdur: Namaz, zəkat, oruc, həcc və vilayət. Heç bir şeyə vilayətə dəvət edildiyi kimi dəvət olunmamışdır.

Başqa bir hədisdə buyurulur ki, bunların hamısının açarı vilayətdir. Əgər vilayət olsa, bunlar da qəbul olunacaq, yox, əgər vilayət olmasa, bunların heç biri də qəbul edilməyəcəkdir.

Buradan da belə başa düşülür ki, İslam Peyğəmbəri (s) müsəlmanları başlı-başına buraxmamışdır. Deməli, vilayət o deməkdir ki, İslam Peyğəmbəri (s) özündən sonra müsəlmanlara rəhbərliyi alim və adil bir şəxsə tapşırmışdır. Bizləri zalımların əlində əsir qoyub getməmişdir.

Burada onu da qeyd etmək lazımdır ki, Həzrət Peyğəmbər (s) həmin bir nəfəri özündən sonra müsəlmanlara rəhbər təyin edərkən bu məsələni də özbaşına deyil, Allah-taalanın əmri ilə yerinə yetirmişdir. İslam Peyğəmbərindən (s) soruşdular: "Ya Rəsulallah! Sən bunu öz istəyinə əsasən təyin etdin?"

Həzrət Peyğəmbər (s) buyurdu: "And olsun Allaha, mən sizə Allahın sözündən başqa bir söz deməmişəm."

Bəs, "Vilayət" nə deməkdir? "Vilayət" itaət etmək mənasını kəsb edir. Yəni heç bir sorğu-sual aparmadan Həzrət Peyğəmbərə (s) itaət etmək deməkdir. Vilayət, yəni Quranı, Həzrət Peyğəmbəri (s) qəbul etdikdən sonra heç bir sorğu-sual etmədən Allahın Rəsulunun (s) təyin etdiyi vəsini qəbul edib ona itaət etmək deməkdir.

## Tasua gününü məşhurlaşdıran Əbülfəzl (ə) ağadır

Məhərrəm ayının doqquzuncu gününə “tasua” deyilir. “Tasua” sözü doqquz kəlməsindən götürülmüşdür. Aşura, yəni məhərrəm ayının “onuncu günü” deməkdir. Aşura günü İmam Hüseynin (ə) şəhid olduğu gündür və Həzrət (ə) həmin gün şəhid olduğu üçün aşura bütün dünyada məşhur olan bir gündür. Bəs görəsən, tasua günü nədən belə məşhur olmuşdur? Tasua gününü məşhur edən Həzrət Əbülfəzl (ə) ağadır. Həzrət Əbülfəzl (ə) ağanın rəftarı, hərəkətləri, itaəti və ixlası tasua gününə xüsusi bir özünəməxsusluq vermişdir. Həzrət Əbülfəzl (ə) ağa həmin gün vilayətin mənasını tam şəkildə öz əməli ilə bütün dünyaya nümayiş etdirmişdir.

İmam Hüseyn (ə) Mədinədən çıxanda, Məkkədə və Kərbəla istiqamətində hərəkət edərkən yolda, habelə məhərrəm ayının ikinci günü Kərbəlaya daxil olanda və ondan sonra da bir çox xütbələr oxumuşdur. Bu xütbələrdən sonra İmam Hüseynin (ə) səhabələri də öz sözlərini və fikirlərini söyləmişlər.

Aşura gecəsi (Tasua günü) İmam Hüseyn (ə) iki məsələ ilə bağlı öz fikirlərini bəyan etmişdir. Onlardan biri bu idi ki, həmin vaxt aşura gününədək hadisələrin necə davam edəcəyinə münasibət fərqli idi və müxtəlif təhlillər verirdilər. İmam Hüseyn (ə) isə Ömər ibn Sədin qoşunu ilə danışıqlar aparırdı. Digər tərəfdən də Kufə və onun ətrafından dəstə-dəstə insanlar gəlib Ömər ibn Sədin qoşununa qoşulurdular.

*Bir kəs olmadı desin bu sözü o fitnəkərə,*
*Nə qədər göndərirsən zalım o yetmiş nəfərə.*

Həmin təhlillər aşura gecəsinə qədər davam etdi. Aşura gecəsi İmam Hüseyn (ə) söhbətə son qoydu. Həzrət (ə) buyurdu:

وإني أظن يوماً من هؤلاء الأعداء غداً

–Mən bilirəm ki, sabah bizim bunlarla işimiz döyüşlə bitəcək.

İmam Hüseyn (ə) bununla da bütün təhlillərə son qoydu.

İmam Hüseynin (ə) həmin vaxtlar toxunduğu ikinci məsələ bundan ibarət idi ki, Həzrət (ə) öz səhabələrini xeyli tərifləmişdi. Həzrət (ə) buyurmuşdu:

فَإني لا أعلَمُ أصحاباً أوفَى و لا خيراً مِن أصحابِي ولا أهلَ بيتٍ أبرّ و لا أوصلَ مِن أهل بيتي فَجزاكُم اللهُ عني خيراً

–Həqiqətən, mən öz səhabələrim kimi vəfadar və yaxşı səhabə, Əhli-beytim kimi yaxşı və mehriban Əhli-beyt tanımıram. Allah-taala sizə mənim barəmdə yaxşı mükafat versin.

İmam Hüseyn (ə) bu iki mətləbi (sabah şəhid olacaqlarını və onun səhabələrinin bütün səhabələrdən üstün olmasını) qeyd etdikdən sonra bəzi səhabələr də qalxıb öz fikirlərini söylədilər. Həmin səhabələrin içərisində ən üstünü və ən fəzilətlisi Həzrət Əbülfəzl (ə) ağa idi.

Aşura günü İmam Hüseynin (ə) göstərişi ilə Züheyr bayrağı gətirib Əbülfəzlə (ə) verdi. Züheyr bayrağı Həzrət Əbülfəzlə (ə) verəndə dedi:

–Ey Əmirəlmömininin oğlu! Sənə bir xatirə danışmaq istəyirəm.[1] Xanım Fatimeyi Zəhra (s.ə) dünyasını dəyişəndən sonra atan Həzrət Əli (ə) yenidən ailə qurmaq istərkən qardaşı Əqilə[2] “Mənim ailə qurmağım üçün çox nəcib bir ailədən olan bir qadın tap”, – deyə buyurdu. Əqil də sonralar Ümmül-Bənin adı ilə məşhurlaşan bir qadını onun üçün tapdı. Atan da onunla ailə qurdu.

Züheyr xatirənin ardını danışmadı və dedi:

و قَدِ ادخرك أبوكَ لِمِثْلِ هذَا الْيوم

1 Züheyr Həzrət Əlini (ə) görmüşdü və onunla çoxlu xatirələri var idi.
2 Əqil ərəblərin nəsəbini və soyunu çox yaxşı tanıyırdı.

–Atan səni bu gün üçün (seçib) ehtiyatda saxlamışdır.

Yəni atan şücaətli, mömin, pak və nəcib bir qadınla ailə qurmaqla sənin kimi bir övladının dünyaya gəlməsini və həm də səni bu gün üçün seçib saxlamaq istəyirdi. Beləcə, Züheyr bayrağı Əbülfəzl (ə) ağaya verdi. Həzrət Əbülfəzl (ə) bayrağı aldı və həmin gün hünər göstərərək lazım olan hər bir şeyi etdi.

Tasua günü İmam Hüseyn (ə) düşmən qoşununun hay-küyünü eşidəndə Həzrət Əbülfəzl (ə) ağanı çağırıb buyurdu:

ِاركَب ِبنفْسِي اَنت يا أخِي حتي تلْقَاهم

–Canım sənə qurban, atına min və get onlarla danış.

Gör nə qərara gəliblər. Biz bu gecəni ibadət etmək istəyirik. Sabah səhər hər nə istəsələr, qoy etsinlər.

Həzrət Əbülfəzl (ə) ağa gedib onlarla danışdı və onlar da bir gecə ibadət etməyə razılıq verdilər.

Həzrət İmam Hüseyn (ə) Əbülfəzlə (ə) müraciət edərkən "Canım sənə qurban" kəlməsini işlətməklə ona çox böyük fəzilət bəxş etmiş oldu. Bu kəlmədən böyük hədiyyə ola bilməz. Həzrət Əbülfəzl (ə) bu dərəcəyə gəlib çatmışdı.

Aşura günü Əbülfəzl (ə) ağa atdan yıxılan zaman İmam Hüseyn (ə) onun başının üstünə yetişib bu cümləni işlətdi:

جزاك الله خيراً يا اَخِي لَقَد جاهدك ِللهِ حق جِهادِه

–Qardaşım, Allah sənə xeyirli mükafat versin! Sən Allah yolunda lazım olduğu səviyyədə cihad etdin.

Yəni sənin əməlində zərrə qədər də olsa nöqsan yoxdur.

Sonra İmam Hüseyn (ə) buyurdu:

اْلآنَ ِانكَسر ظَهري

–Artıq mənim belim sındı.

İmam Hüseyn (ə) Əliəkbər şəhid olanda "artıq mənim belim sındı" kəlməsini söyləməmişdi, amma Həzrət Əbülfəzl (ə) ağa atdan yıxılanda bu kəlməni işlətdi. Bu kəlmələr Həzrət

Əbülfəzlin (ə) şərafətinin nə qədər yüksək olduğunu və həmçinin o həzrətin İmam Hüseynin (ə) yanında olan böyük məqamını bildirir.

Əbülfəzl (ə) ağa elə bir şəxsdir ki, iki imam onun qolundan öpmüşdür. Biri İmam Əli (ə) Əbülfəzl (ə) dünyaya gələndə onun qollarını öpüb ağlamışdı. Biri də İmam Hüseyn (ə) aşura günü o həzrətin başı üstünə gələndə gördü ki, Əbülfəzlin (ə) qolları bir kənara düşmüşdür. Sonra isə onları götürüb öpdü. İmam Hüseynin (ə) Həzrət Əbülfəzlin (ə) qollarını öpməsinin də səbəbi var idi.

Məsələ bunda idi ki, Əbülfəzlin (ə) anası Ümmül-Bənin Kilab qəbiləsindən idi. Şimr (məlun) də həmin qəbilədən idi. Abdullah ibn Əbi Məhəll Əbülfəzlin (ə) dayısı oğlu idi. Şimr və Abdullah ibn Əbi Məhəll İbn Ziyadın ən yaxın adamları sayılırdılar. İbn Ziyad bir məktub yazıb Ömər ibn Sədə göndərdi və Şimrə də bildirdi ki, əgər Ömər ibn Səd bu işi bacarmırsa, çəkilsin bir kənara, ordunun rəhbərliyini sənə tapşıraram. Şimr və Abdullah ibn Əbi Məhəll İbn Ziyada təklif etdilər ki, bizim bibioğlanlarımız Hüseynin (ə) yanındadırlar. Onlara aman verməyin barədə bir məktub yazsan, çox gözəl olar.

Bu təklif İbn Ziyadın çox xoşuna gəldi. Çünki o, İmam Hüseynin (ə) ətrafında olanların dağılışıb getmələrini istəyirdi. Elə buna görə də bir məktub yazıb onlara verdi. Abdullah ibn Əbi Məhəll tasua günü həmin məktubu öz nökəri vasitəsilə Həzrət Əbülfəzlə (ə) çatdırdı. Həzrət Əbülfəzl (ə) məktubu alıb oxudu və İbn Ziyadın ona aman verməsinə görə çox narahat oldu. Bu o demək idi ki, əgər Hüseyndən (ə) ayrılıb getsən, səninlə heç bir işimiz olmayacaq.

Həzrət Əbülfəzl (ə) həmin nökərə dedi: “Bu məktubu dayıoğlum mənim üçün göndərib. Get ona belə de:

أمانُ الله خيرٌ مِن أمان ابن سميه

–Allahın verdiyi aman İbn Süməyyənin (İbn Ziyadın) verdiyi amandan daha yaxşıdır.

Daha başqa heç bir söz demədi.

Onlar bununla da sakitləşmədilər. Onların məqsədi Əbülfəzli (ə) və onun qardaşlarını İmam Hüseyndən (ə) ayırmaq idi. Elə bu səbəbdən də günortadan sonra Şimr özü gəldi. O, Ümmül-Bəninlə bir qəbilədən olduğuna və guya onu özünə bacı bildiyinə görə Əbülfəzlə (ə) və qardaşlarına “bacıoğlu”, – deyə müraciət edərək səslədi.

أين بنو أُختِنا؟ أين عباس وِاخوته؟

–Bizim bacımızın oğlanları haradadırlar? Abbas və onun qardaşları haradadırlar?

Onlar Şimrin səsini eşitdilər, amma cavab vermədilər. İmam Hüseyn (ə) onlara buyurdu ki, düzdür o fasiqdir, amma sizi çağırdığı üçün ona cavab verin.

Həzrət Əbülfəzl (ə) onun yanına gəlib buyurdu:

–Bizimlə nə işin var, nə istəyirsən?

Şimr dedi:

يا بِني أُختِي أنتم آمِنون لا تقْتلوا أنفُسكُم مع أخِيكُم الْحسينِ و الْزِموا طاعةَ أمِيرِ الْمؤمِين يزِيد

–Ey bacımın uşaqları, siz amandasınız. Özünüzü Hüseynə (ə) görə ölümün caynağına atmayın. Əmirəlmömininin Yezidə itaət edin. Mən bunu demək istəyirəm.

Həzrət Əbülfəzl (ə) onun cavabında buyurdu:

لَعنك الله و لَعن أمانك أتؤمِننا و ابن رسول اللهِ لَا أمانَ له أتأمرنا أنْ نترك أخانا و سيدنا الْحسين بن فَاطِمةَ و ندخلُ فِي طَاعةَ اللَعناء و أولَادِ اللَعناء

–Allah sənə də lənət etsin və sənin (gətirdiyin) amana da. Rəsulullahın (s) oğlunun təhlükəsizliyi təmin olunmadığı bir halda sən bizə aman vəd edirsən? (Peyğəmbərin (ə) oğlunun yolunu bağlayıb, mənə “bacıoğlu” deyərək aman verirsən?)

Bizə qardaşımızı, ağamızı və Fatimənin oğlu Hüseyni (ə) tərk edib lənətlənmişin oğlunun itaətinə keçməyimizi əmr edirsən? Bu, mümkün olan bir şey deyil.

*Üməvilər ola bilməz hədifə aliyədə,*
*Sənə də lənət, aman yazan valiyə də.*

Bəzi rəvayətlərdə belə nəql edirlər ki, hətta aşura günü günortadan qabaq həmin aman verilməsi barədə məlumat bir daha Əbülfəzlə (ə) təklif ediləndə Həzrət (ə) belə cavab verdi:

تبت يداك و لُعن ما جِئْتنا بِهِ مِن أمانك يا عدو الله

–Əllərin şil olsun, ey Allahın düşməni! Gətirdiyin amana da lənət olsun. Mənə nə pis bir şey gətirmisən!

Həzrət Əbülfəzl (ə) bu əməli ilə vilayətin nə demək olduğunu çox gözəl bir şəkildə bəyan etdi. Doğrudur, o, İmam Hüseynin (ə) qardaşı idi, amma bir İmam (ə) kimi ona itaət etməyi vacib bilirdi.

## Nəfsi istəklərə qalib gəlmək

İnsanın başına hər nə gəlirsə, nəfsi istəklərinin ucbatından gəlir. İnsanın fasiq, xain, oğru olmasının, adam öldürməsinin, baş kəsməsinin və başkəsənləri dəstəkləməsinin kökündə məhz nəfsi istəklər dayanır.

Həzrət Əbülfəzl (ə) Fərat çayına girib su tuluğunu doldurdu. Sonra isə özü də su içmək qəsdilə ovcunu su ilə doldurdu. Su dolu ovcunu neçə gündür ki, su dəyməyən dodaqlarına yaxınlaşdırdı və İmam Hüseynin (ə) susuzluğunu yadına salıb nəfsini sındıraraq suyu çaya tökdü.

Nəfsini sındıran insan hər bir xeyirxah işi görə bilər. Belə bir insan vilayətə olan imanını, öz izzətini qoruyub saxlaya bilər. Belə bir insan yalnız vilayət qarşısında itaətkarlıq edər və daim vilayətə vəfadar olar.

*Ey Əbülfəzl, ey rəisi zümreyi əhli vəfa,*
*Əbdi saleh mənsəbin Allah sənə etmiş əta.*
*Nəhri aldın içmədin su, nəfsinə aləm fəda,*
*Su kənarında susuz səqqa, salam olsun sənə!*

Bu səbəbdən tasua günü Həzrət Əbülfəzl (ə) ağaya məxsusdur. Tasua günü elə vilayətin özü deməkdir. Tasua günü məhz rəhbəri tanımaq deməkdir. Tasua günü rəhbərə itaət etmək deməkdir. Tasua günü nəfsi istəkləri ayaqlar altına atmaq deməkdir. Tasua günü Allaha bəndə və qul olmaq deməkdir. Tasua günü hər bir insan necə saleh bəndə olmağı məhz Həzrət Əbülfəzl (ə) ağadan gərək öyrənsin.

Hədislərdə belə nəql olunub ki, Həzrət Əbülfəzl (ə) ağa bütün şəhidlərdən üstündür. İmam Səccad (ə) buyurmuşdur: “Cənnətdə bütün şəhidlər Əbülfəzlin (ə) məqamına baxıb qibtə edəcəklər.”

Xanım Fatimeyi Zəhra (s.ə) buyurmuşdur: “Qiyamət günü Həzrət Peyğəmbər (s) Həzrət Əliyə (ə) deyər: “Ya Əli! Fatimədən soruş ki, ümməti şəfaət etmək üçün özü ilə nə gətirib? Bu ümməti şəfaət etmək üçün əlində nə sərmayə var?”

Xanım Fatimeyi Zəhra (s.ə) Həzrət Əliyə (ə) cavabında buyurar:

يا أَمِير الْمؤمِنين، كَفَانا لِأجلِ هذَا الْمقَام اَلْيدانِ الْمقْطُوعتان مِن اِبني الْعباس

–Ey Əmirəlmöminin! Bu günün çətinliyinə oğlum Abbasın iki kəsilmiş qolları bəs edər.”

Bu iki qol mənim sərmayəmdir və şəfaət etmək üçün bəs edər. Allah-taalanın Həzrət Əbülfəzlə (ə) bəxş etdiyi bu məqam və “Babül-həvaic” qapısı çox şərəfli bir qapıdır. Bu qapı çox mübarək bir qapıdır. Bu qapını Allah-taala Özü bizim üzümüzə açmışdır və Allahdan diləyirəm ki, bu qapını heç bir vaxt bizim üzümüzə bağlamasın! Amin!

# NAMAZ VƏ AŞURA

*Hüseyndir ayəti rəhmət, Hüseydir ğayəti rəhmət,*
*Hüseyndir qibleyi qeyrət, Hüseyndir məniye heyrət,*
*Hüseyndir ruhi hurriyyət, Hüseyndir fəxri heysiyyət,*
*Hüseynsiz neylirəm fəzli, Hüseynsiz fəzlə min lənət,*
*Hüseynsiz bir görər aşiq tikanlıqla gülüstani.*

*Hüseyn övla, Hüseyn mövla, Hüseyn dövlət,*
*Hüseyn solət, Hüseyn dəsti rübubiyyət,*
*Hüseyn məsti rübibiyyət, Hüseyn cənnət,*
*Hüseyn minnət, Hüseyn ləzzət, Hüseyn izzət,*
*Hüseyn dəstani ruhani, Hüseyn bostani ruhani.*

*Hüseyn izharə gəlsə aşiqi İslam edər gəbri,*[1]
*Hüseynin hüsnü görsənsə, nəbilər yandırar səbri,*
*Hüseynsiz neylirəm yağdırsa mərcan göylərin əbri,*
*Hüseynin döndərər lütfi şəbi qədrə, şəbi qəbri,*
*Hüseyn həst eylər insani, Hüseyn məst eylər insani.*

Allah-taala "Ənkəbut" surəsinin 45-ci ayəsində namazın əhəmiyyətini İslam Peyğəmbərinə (ə) bəyan edərək buyurur: اتلُ ما أُوحِي ِإِلَيك ِمِن الْكِتابِ وأَقِمِ الصلَاةَ ِإِن الصلَاةَ تنهى عنِ الْفَحشاء والْمنكَرِ ولَذِكْر اللهِ أَكْبر والله يعلَم ما تصنعونَ

– Kitabdan sənə vəhy olunanı oxu və namaz qıl. Çünki namaz (insanı) çirkinliklərdən və günahdan çəkindirir. Allahı xatırlamaq daha böyükdür. Allah nə etdiyinizi bilir.

Namazla aşura gecəsinin və aşura gününün bir-birinə bağlılığı və uyğunluğu vardır. Namaz barəsində üç məsələni son dərəcə əhəmiyyətli olduğu üçün müqəddimə olaraq qeyd etmək istəyirəm.

---

[1] Gəbr bütpərəstə deyilir.

**a) Namaz çox mühüm və vacib bir əməldir**

Namaz qılmayan insanın əməllərini təsəvvürə gətirmək mümkün deyildir. Hər hansı bir müsəlman, islamçı, şiə və sünni Allahdan və Həzrət Peyğəmbərdən (s) danışmaq istərsə, ancaq namaz qılmazsa, onların barəsində danışmağa ixtiyarı yoxdur.

Həzrət İbrahim (ə) Allaha dualar edərək Ondan bir övlad istəmişdir. Allah-taala da ona 80 yaşında İsmayıl (ə) kimi bir oğulu bəxş edəndə Həzrət İbrahim (ə) Allaha şükür edərək demişdir:

الْحمد لِلّهِ الذِي وهب لِي علَى الْكِبرِ إِسماعِيلَ وإِسحق إِن ربي لَسمِيع الدعاء. رب اجعلْنِي مقِيم الصلاَةِ ومِن ذُرِيتي ربنا وتقَبلْ دعاء

–Həmd və şükürlər olsun qocalıq çağımda mənə İsmayılı və İshaqı əta edən Allaha! Həqiqətən, mənim Rəbbim duanı eşidən və qəbul edəndir. Ey Rəbbim, məni namaz qılanlardan et, həmçinin övladlarımı (da namaz qılanlardan et)! Ey Rəbbimiz, duamızı qəbul et![1]

Allah-taala Həzrət İbrahimə (ə) bir nemət verdi və İbrahim (ə) də ona verilən bu nemətin müqabilində Allaha dua edərək deyir ki, əgər bu nemətin şükrünü etmək lazımdırsa, onda məni ədəbsiz və namaz qılmayan insanlardan etmə. Məni ədəbli insanlardan qərar ver.

Yəni insana əgər bir yaxşılıq edilirsə, o da gərək ona yaxşılıq edənə öz təşəkkürünü bildirsin. Bəzi hədislərdə belə nəql olunur ki, insanlar bir sıra heyvanlardan müəyyən xüsusiyyətləri öyrənsələr, çox yaxşı olar. Məsələn, onlardan biri olan it murdar[2] heyvan hesab edilir. Bununla belə, onda olan bir xüsusiyyəti insanın öyrənməsi yaxşı olardı. İtə bir

---

[1] İbrahim surəsi, 39-40-cı ayələr.

[2] Donuz və it murdar heyvanlar hasab olunur. Yəni onları yuyub paklamaqla təmiz olmazlar. Əgər əlin yaş halda ona dəysə, murdar olar.

tikə çörək verəndə dərhal quyruğunu tərpədərək təşəkkür edir, sonra isə çörəyi yeyir.

Həzrət İbrahim (ə) yuxarıdakı duasında Allahdan istəyir ki, İlahi, məni şükür edən insanlardan qərar ver. Əgər mən Sənin mənə verdiyin bu nemətlərin müqabilində təşəkkür etməsəm, düzgün olmaz.

Allah-taala İslam Peyğəmbərinə (s) Kövsəri əta edəndən sonra buyurur: "Kövsərin müqabilində təşəkkür etmək istəyirsənsə, "Namaz qıl". Namaz Allaha edilən təşəkkürdür."

Allah-taala Həzrət İbrahimin (ə) duasından sonra Həzrət İsmayıldan (ə) da gözəl bir xüsusiyyəti misal çəkir. Allah-taala buyurur:

واذْكُرْ فِي الْكِتابِ إِسماعِيلَ إِنه كانَ صادِقَ الْوعْدِ وكانَ رسولًا نبِيًا.
وكانَ يأْمر أَهلَه بِالصلَاةِ والزكَاةِ وكانَ عِند ربهِ مرضِيًا

–Və bu kitabda İsmayılı xatırla. O, vədlərində doğruçu və (Allahın) elçi(si və xalqa) xəbər gətirən idi. O, öz ailəsinə həmişə namaz (qılmağı) və zəkatı (zəkat verməyi) buyurardı və Rəbbinin yanında bəyənilən idi.[1]

Qurani-kərimdə Allah-taala insanları 67 dəfə namaza dəvət edir. Həmçinin İslam Peyğəmbəri (s) dəfələrlə namaz haqqında söhbət etmişdir. Həzrət Peyğəmbər (s) Məaz ibn Cəbəli Yəmənə təbliğat məqsədilə göndərəndə ona belə vəsiyyət etdi:

لَما بعثَه إِلَى الْيمنِ قَالَ يا معاذ!... و أَظْهِر أَمر الْإِسلامِ كُلَه صغِيره و
كَبِيره، ولْيكُن أَكْثَر همك الصلاة فَإِنها رأْس الْإِسلام بعد الْإِقْرار بِالدين

–Ey Məaz!... İslamın istər kiçik olsun, istər böyük, bütün hökmlərinə əməl et. Amma namaza daha çox əhəmiyyət ver. (İslam) dinini (qəbul edərək) iqrar edəndən sonra namaz İslamın başıdır.

---

[1] Məryəm surəsi, 54-55-ci ayələr.

İnsanı kafirdən ayıran ilk əməl namazdır.

İmam Sadiqin (ə) bu barədə bir fikri vardır. Yaxşı olar ki, bütün müsəlmanlar bu cümləni yazıb yanlarında saxlasınlar. Həzrət (ə) buyurur:

ِلكُل شيءٌ وجه و وجه دِنكُم الصلاة

–Hər şeyin bir üzü (görünən tərəfi) vardır. Sizin (müsəlmanların) üzü namazdır.

Elə bu səbəbdən də deyirlər ki, namaz qılmayan şəxsin İslamdan danışması mənasız bir şeydir.

Hər bir ölkənin görünən tərəfi həmin ölkənin bayrağıdır. Odur ki, bütün ölkə başçılarının görüşlərində həmin ölkənin bayrağı ya masanın üstünə qoyulur, ya da həmin ölkənin başçısının yanında saxlanılır. Çünki bayraq ölkənin görünən tərəfidir. Ola bilər ki, bəzi ölkələrin daxilində müəyyən bir fikir ayrılıqları olmuş olsun, lakin bayraq haqqında belə bir şeyi təsəvvür etmək mümkün deyil. Dünyanın bütün ölkələrinin vətəndaşları öz bayraqlarına saygı ilə yanaşırlar. Ölkənin bayrağını qəbul etməyən hər bir kəsin həmin ölkə haqqında danışmağa ixtiyarı yoxdur.

Namaz da eynilə bayraq kimidir. Namaza şəkk-şübhə ilə yanaşıb namaz qılmayan bir şəxsin İslamdan danışmağa haqqı yoxdur. Belə bir şəxsin, ümumiyyətlə, İslamda payı yoxdur. Namaz qılmaqla müsəlman olduğunu öz əməli ilə göstərən şəxsin İslamdan danışmağa, İslamdan mənfəət götürməyə belə haqqı çatır. Bu, namazın çox əhəmiyyətli olduğunu sübut edir.

İslam Peyğəmbəri (s) buyurmuşdur:

حاِفظُوا علَي الصلواتِ الْخمس فَاِن اللَه تعالي إِذا كاَنَ يوم الْقِيامة ياِْتي الْعبد فَأول شيءٌ يسأُلُ عنه الصلاةَ فَإِنْ جاءِبها تاماً و إِلا زخ ِفي النار

–Gündəlik olaraq beş kərə namaz qılmağı qoruyub saxlayın. Həqiqətən, qiyamət günü Allah-taalanın insandan soruşacağı ilk şey namaz olacaqdır. Əgər insan namazlarını

vaxtında qıla bilibsə, rahat olacaq, əks halda üzü üstə cəhənnəmə atılacaq.

**b) Namazı vaxtında qılmaq**

Gündəlik namazların qılınma vaxtı vardır. Namazı vaxtında qılmaq çox mühüm şərtdir. Azan deyilən zaman qılınan namazın qiyməti heç nə ilə ölçülə bilməz. Onun dəyərini insanlar anlaya bilmir. Hədislərdə belə nəql olunur ki, insan bir neçə şeyin dəyərini yaxşı dərk edə bilmir. Onlardan biri də namazı vaxtında qılmaqdır.

İki dəstə mələk insanların gündəlik əməllərini yazırlar. Bir dəstə sübh gəlib axşama qədər yazır, digər dəstə isə axşam gəlir və sübhə qədər yazır. Sübh vaxtı mələklər növbəni dəyişərkən hər iki dəstəyə mənsub olan mələklər sübh namazını vaxtında qılan şəxsin əməlini yazırlar. Gecə növbəsində olanlar onu axırıncı əməl kimi yazırlar, sübh növbəsində olanlar isə ilk əməllərini onunla başlayırlar. Bu, çox əzəmətli bir əməldir. Bunu Quran ayəsi və hədislər də təsdiqləyir.

“Maun” surəsinin 4 və 5-ci ayələrində oxuyuruq:

فَويلٌ للْمصلين. الذِين هم عن صلَاتِهم ساهونَ

–Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər və ona etinasızdırlar.

Həzrət Əli (ə) bu ayəni belə təfsir etmişdir:

لَيس عملٌ أحب إلى الله عز و جل مِن الصلاةِ، فَلا يشغلنكُم عن أوقاتها شيءٌ مِن أُمور الدنيا، فَإن اللهَ عزّ و جل ذَم أقْواماً فَقَالَ: الذِين هم عن صلَاتِهم ساهونَ. يعنِي أنهم غَافِلُونَ استهانوا بأوقَاتِها

–Namaz qədər Allah yanında sevimli bir əməl yoxdur. Dünya işləri namaz vaxtı sizin başınızı qatmamalıdır. Allah-taala namazın vaxtını keçirən insanları Quranda məzəmmət edir. Çünki onlar (namazı) vaxtında qılmaqdan qəflətdədirlər.

İnsan gərək namaz vaxtı bütün işlərini bir kənara qoysun. Özünə desin ki, “namaz vaxtıdır”, daha “işim var” deməsin. İslam Peyğəmbəri (s) göstəriş verir ki, azanı eşidən kimi bütün işlərini bir kənara qoy, ayağa qalx və dəstəmaz alaraq namazını qıl, sonra isə işinin qalanını yerinə yetir.

Həzrət Peyğəmbərimiz (s) və imamlarımız müharibələrdə də namazı vaxtında qılırdılar. Ravi belə nəql edir: “Müharibələrin birində gördüm ki, Həzrət Əli (ə) düşmənlə döyüşə-döyüşə göyə baxır. Soruşdum: “Ey Əli (ə)! Nəyə görə tez-tez göyə baxırsan?” Həzrət (ə) buyurdu: “Baxıram ki, namaz vaxti yetişib ya yox.” Soruşdum: “Ya Əmirəlmöminin, indi döyüşün bu gərgin vaxtında sən döyüşdən əl çəkib namaz qılacaqsan?” Həzrət (ə) buyurdu: “And olsun Allaha! Mən elə namaza görə bunlarla döyüşürəm. Mən namaz yolunda müharibə edirəm. Əgər namaz olmayacaqsa, bəs nə üçün döyüşürük?”

Mərhum İmam Xomeyni (rəhmətullah) İran-İraq müharibəsi dövründə bir gün bütün dövlət xadimlərinin iştirakı ilə yığıncaq keçirirdi. Həmin iclasda prezident, müdafiə naziri və bir çox generallar müharibənin gedişatından ona məlumat verirdilər. Söhbətin yarısında İmam (r) ayağa qalxıb gedir. Məclisdə iştirak edənlər onun bu hərəkətinə çox təəccüblənirlər və bunun səbəbini də soruşa bilmirlər. Sonra oradakılar ölkə prezidentindən bunun səbəbini soruşmağı xahiş edirlər. O da İmam Xomeynidən (r) “nə mühüm hadisə baş verdi ki, siz qalxıb getdiniz?” – deyə soruşur. İmam Xomeyni (r) buyurur:

–Bəli, namaz vaxtıdır.

Beləcə, İmam Xomeyni (r) namaza başladı və biz də ona iqtida edib namazımızı qıldıq, sonra isə iclasımızı davam etdirdik.

Əgər birisi “müharibənin taleyi həll olunur, bundan vacib nə ola bilər”, – deyə söyləyərsə, ona da deyə bilərik ki, “Namaz hər bir şeydən vacibdir!” Əgər sən Allahın vacib buyurduğunu

dəqiq və vaxtında yerinə yetirsən, Allah da sənin qalan işlərini sahmana salar.

İmam Xomeyni (r) İraqla sülhü qəbul edən zaman buyurdu: “Mən İraqla sülh müqaviləsi bağlamağa razıyam və bunun üçün dünyanın heç bir ölkəsinə təşəkkür etmirəm.”

Çünki heç bir ölkə bizə kömək etmədi. Əksinə bütün ölkələr İraqa kömək edirdilər. İki hegemon ölkə – SSRİ və ABŞ-ın İraqı dəstəkləməsinə baxmayaraq, İran qələbə çaldı. Bu müharibədən alnıaçıq çıxdıq. Onlar bir qarış torpağı belə işğal edə bilmədilər. O dövrdə İran İslam İnqilabı yenicə qələbə çalmışdı. Hələ ordu mükəmməl şəkildə hazır deyildi.

Bax, namaz bu qədər əhəmiyyətlidir. Həzrət Əli (ə) müharibənin gərgin vaxtlarında namazın vaxtını müəyyənləşdirmək üçün tez-tez göyə baxırdı. Özünü Həzrət Əliyə (ə) oxşadan insanlar da müharibənin ən çətin anlarında namazın vaxtını hətta beş dəqiqə olsa da belə keçirmirdilər.

İmam Xomeyni (rəhmətullah) 15 il sürgündən sonra Fransadan təyyarə ilə İrana qayıdan zaman bir çox politoloqlar bu hadisəni müxtəlif cür təhlil edirdilər. Bəziləri deyirdi ki, təyyarəni göydə partladacaqlar, bəziləri deyirdi ki, təyyarə yerə enəndən bir saat sonra partladılacaqdır. Bir qismi deyirdi ki, o, İrana qayıdandan bir neçə gün sonra öldürüləcəkdir. Onlar mövcud vəziyyəti öz istədikləri kimi təhlil edir və hadisələri həyəcanla izləyirdilər. Təyyarə göyə qalxandan sonra İmam Xomeyni (r) çox rahat bir şəkildə yuxulamışdı və sübh namazının vaxtına bir saat qalmış yuxudan oyandı, dəstəmaz alıb bir nəfərə dedi ki, Məkkənin istiqamətini pilotdan soruşsun. O da Məkkənin istiqamətini göstərd və İmam (r) gecə namazını qılmağa başladı.

Bütün bunlar namazın son dərəcə əhəmiyyətli olduğunu göstərir. Namaza bu qədər əhəmiyyət verən hər bir şəxsə Allah-taala da kömək edər, rəhmətini və bərəkətini ona nazil edər. Qorxan insanlar isə gündə yüz dəfə ölüb-dirilirlər.

Allahdan başqa heç nədən qorxmayanlar isə ömürlərinin sonunda yalnız bir dəfə öləcəklər.

**c) Namazı camaatla birgə qılmaq**

Hər bir insan imkan daxilində namazı gərək camaatla birgə qılsın. Çünki camaatla qılınan namazın əhəmiyyəti daha çoxdur.

قَالَ رسولُ اللهِ (ص): صلاةُ الرجلُ فِي جماعة خير مِن صلاتِهِ فِي بيتِهِ أربعين سنة

Həzrət Peyğəmbər (s) buyurur: "Bir insanın camaatla qıldığı bir namazının savabı qırx il evində tək qıldığı namazın savabından çoxdur."

Bir nəfər qalxıb soruşdu: "Ya Rəsulallah! Bir günün namazı?" Həzrət (s) buyurdu: "Xeyr, bir namazı."

Allah-taala camaatla birgə qılınan namazı sevir. Hədislərdə belə nəql olunub ki, bir neçə şeyin savabını Allahdan savayı başqa heç bir kəs bilməz. Onlardan biri də camaat namazının savabıdır. Xüsusilə əgər camaat namazında on nəfərdən çox adam iştirak etsə.

Hədislərdə deyilir: "Camaat namazında bir dəfə "Allahu əkbər" deməyin savabı 70 həccin savabından üstündür."

İslam Peyğəmbəri (s) buyurmuşdur:

إِن الله وملَائِكته يصلونَ علَى الذِين يصِلُونَ الصفُوف الْأَول

–Namazda birinci cərgəni dolduran insanlara Allah və Onun mələkləri salavat göndərirlər.

Elə bu səbəbdən də namazda birinci cərgədə dayanmağın fəziləti təkidlə irəli sürülmüşdür. Birinci cərgədə dayanmağın savabı cihadda iştirak etməyin savabından daha çoxdur.

Deməli, bir insanın namaz qılması, özü də namazı vaxtında və camaatla birgə qılması çox mühüm və təkid olunmuş bir məsələdir.

**Namazla aşuranın bağlılığı**

Yuxarıda da qeyd etdik ki, İmam Hüseynin (ə) bütün rəftarı və əməlləri Quran ayələri ilə üst-üstə düşürdü. Kərbəlada İmam Hüseyn (ə) tərəfindən baş verən bütün hadisələr də bu baxımdan Quranla ziddiyyət təşkil etmir.

Əbu Sumamə Saidi Kərbəla şəhidlərindən biridir. Belə nəql edirlər ki, aşura günü zöhr namazına lap az qalmışdı. O, İmam Hüseynin (ə) yanına gəlib dedi:

يا ابا عبدِ الله! نفْسِي لَك الِفداء! اِني أري هؤلاء قَد اقْتربوا مِنك و لا والله لا تقْتل حتي أُقْتلْ دونك انْ شاء الله. لكِن أُحِب اَنْ اَلْقي ربي و قَد صليت هذِه الصلاة اِلتي دنا وقْتها

–Ey Əba Əbdillah! Canım sənə fəda olsun, mən görürəm ki, düşmən sənə yaxınlaşıb. Amma Allah eləməsin ki, sən məndən qabaq şəhid olasan. İnşallah, mən səndən qabaq şəhid olacağam. Lakin mən günorta namazının vaxtı çatdığı üçün çox istərdim ki, bu namazı səninlə birlikdə qılım, sonra şəhid olum.

İmam Hüseyn (ə) başını qaldırıb göyə baxdı və buyurdu:

ذَكَرت الصلاةَ جعلَك اللهُ مِن الْمصلين و الذّاكِرين نعم هذا أول وقْتها

–Namazı xatırladın, Allah səni namaz qılanlardan və Allahı yad edənlərdən qərar versin. Bəli, indi namazın vaxtıdır.

Sonra İmam Hüseyn (ə) namaz qılmaq üçün döyüşün dayandırılması məqsədilə bir neçə nəfəri düşmən qoşunu ilə danışıqlar aparmağa göndərdi. Onlar Ömər ibn Sədlə danışıqlar apardıqdan sonra ümumi bir razılığa gələ bildilər.

Ömər ibn Sədin qoşununda Hüseyn ibn Təmim adlı bir şəxs də var idi. O, İmam Hüseynin (ə) qoşununda olanlara baxıb dedi:

–Sizin qıldığınız namaz qəbul deyil.

Həbib ibn Məzahir ona baxıb dedi:

زعمت أنها لم تقْبلْ مِن آل رسول صلى اللهُ علَيهِ وآلِهِ و تقْبلْ مِنك يا حِمار.

–Ay uzunqulaq! Sən elə güman edirsən ki, Rəsulullahın övladının (Allahın höccətinin) namazı qəbul olunmayacaq və sənin namazın qəbul olunacaq!

Bu sözdən sonra Həbib ibn Məzahirin başını kəsib şəhid etdilər. İmam Hüseyn (ə) zöhr namazını qıldı və bir neçə nəfər onun qarşısında dayanıb onu düşmən oxlarından qorudular və onlardan bir neçəsi də şəhid oldu.

Bu hadisə Kərbəlada baş vermiş hadisələrdən biridir. Lakin burada çox mühüm bir məsələ (mətləb) vardır. O məsələ isə bundan ibarətdir ki, İmam Hüseyn (ə) Sumaməyə – "Allah səni namaz qılanlardan qərar versin", – deyə söyləmişdir. Məgər Sumamə namaz qılanlardan deyildimi? Görəsən, bu sözün mənası nə idi? Əvvəla, o, namaz qılan idi. İkincisi, Əbu Sumamənin ömrünün son anları idi və bundan sonra namaz qılmağa elə bir vaxtı da qalmamışdı.

İmam Hüseynin (ə) "Allah səni namaz qılanlardan qərar versin" – deyə söyləməsinin mənası vardır. Allah-taala Qurani-kərimin bir neçə yerində möminləri vəsf etmişdir. O cümlədən də "Möminun" surəsinin ilk doqquz ayəsində Allah-taala möminləri vəsf etmişdir. Onun 2-ci və 9-cu ayələri namazdan bəhs edir. Həmin surədə Allah-taala ilk olaraq buyurur:

قَد أَفْلَح الْمؤْمِنونَ

–Həqiqətən, möminlər nicat tapdılar.

Möminlər (iman gətirənlər) kimlərdir? Sonra Allah-taala onların sifətlərini (xasiyyətlərini) sayır:

الذِين هم فِي صلَاتِهِم خاشِعونَ

–O kəslər ki, namazlarında (həm ürəkləri, həm də bədənləri ilə) itaətkardırlar.[1]

Diqqət etmək lazımdır ki, Allah-taala burada "namaz qılan" yox, "namazlarında itaətkardırlar", – deyə söyləyir. Çünki əgər namaz qılmasa, mömin hesab olunmaz. Burada "خشوع" – "təvazökar", "ədəbli" və "itaətkar" deməkdir. Möminin həm ruhu və həm də cismi itaətkar olmalıdır. Yəni namaz əsnasında Allahla danışdığı üçün Allahdan qeyri hər bir şeydən uzaqdır. O, Allahı öz başı üzərində görür və özünü isə Onun qarşısında çox kiçik bir zərrə kimi hesab edir.

İslam Peyğəmbərinin (s) dövründə bir nəfər namaz qılan zaman əli ilə saqqalını oynadırmış. Həzrət Peyğəmbər (s) ona baxıb buyurdu:

أما أنه لو خشع قلْبه لَخشعت جوارحه

–Əgər onun ürəyi itaətkar olsaydı, bədən üzvləri də itaətkar olardı.

Elə bu səbəbdən də bu ayə nazil olmamışdan əvvəl İslam Peyğəmbəri (s) namaz qılarkən göyə baxırdı, göstərilən ayə nazil olandan sonra isə namaz qılarkən yerə baxmağa başladı.

Möminlərin sifətlərindən biri "namazda itaətkar" olmaqdır. Yəni namazı ədəb-ərkanla qılır, qəlbi və əlləri, habelə bütün bədən üzvləri yalnız Allahı görür. Həzrət Əli (ə) də, İmam Səccad (ə) da namazı belə yerinə yetirmişlər.

Həmin surənin 9-cu ayəsində deyilir:

والذِين هم علَى صلَواتِهم يحافِظُونَ

–Və o kəslər ki, namazlarını (tam və kamil olması baxımından) qoruyurlar.

Yəni namazın bütün şərtlərinə və qayda-qanunlarına riayət edirlər. Başqa ifadə ilə desək, dəstəmaz alarkən, namazı vaxtında qılmaqda, qiraətində, rükətlərin sayında və s. kimi

[1] Möminun surəsi, 2-ci ayə.

məsələrdə diqqətli olarlar. Bu “يحافظون” (qoruyurlar.) sözünün zahiri mənasıdır.

“Məaric” surəsində Allah-taala ilk olaraq günahkarların bəzi pis əməllərini sadalayır. Sonra namaz qılanları istisna edərək buyurur:

إِلا الْمصلين. الذِين هم علَى صلَاتِهِم دائِمونَ

–Namaz qılanlardan savayı. O kəslər ki, namazlarında davamlı və möhkəmdirlər.[1]

Yəni namazdan əldə etdiyi zikri həmişə qoruyub saxlayır. Yuxarıdakı və burada qeyd olunan ayələrdə Allah-taala namaz qılanlarla bağlı olaraq üç haldan bəhs edir. Əvvəlcə namaz qılanın itaətkar olduğunu deyir, sonra buyurur ki, o, namazını qoruyur və üçüncüsü isə buyurur ki, davamlı namaz qılır.

Namazı davamlı qılmaq və ya onu həmişə qoruyub saxlamaq çox çətin bir əməldir. Eyni zamanda çox əhəmiyyətli bir əməldir. Yəni mömin heç bir vaxt Allahdan qəflət etmir, həmişə Allahla əlaqədə olur. Allahı yad edərək şəhvətlərdən qurtulur və təhlükələrdən nicat tapır.

Allah-taala “Taha” surəsinin 14-cü ayəsində Həzrət Musaya (ə) müraciət edərək buyurur:

إِنَنِي أَنا الله لَا إِلَه إِلَا أَنا فَاعبدنِي وأَقِمِ الصلَاةَ لِذِكْرِي

–Şübhəsiz, bu Mənəm – tək Allah ki, Məndən başqa bir məbud yoxdur. Buna görə də Mənə ibadət et və namazı Məni anmaq üçün qıl!

Namazın əsas faydalarından biri də “zikr”dir. Yəni namaz qılmaqla insan Allahı unutmur.

Əgər namazda qeyd olunan bu dörd şərt, yəni itaətkarlıq, namazı qorumaq, davamlı namaz qılmaq və namaz qılmaqla

---

[1] Məaric surəsi, 23-24-cü ayələr.

Allahı xatırlamaq olsa, o zaman namaz hər bir an insanı pisliklərdən çəkindirər və qoruyar.

Deməli, namaz həm də insanın Allahı unutmamasına gətirib çıxarır. Zikrin faydası budur ki, insanın qəlbi sakit olur.

أَلاَ بِذِكْرِ اللّهِ تَطْمَئِنُّ الْقُلُوبُ

–Bilin! Qəlblər yalnız Allahı yada salmaqla rahatlıq tapar![1]

Aşura gecəsi də onlar heç bir şey olmamış kimi qüsl alırlar ki, sabah şəhid olacaqlar. Həmçinin sübh namazında Əliəkbərin (ə) azan verməsindən sonra İmam Hüseynin (ə) 72 nəfərlə birgə eşqlə camaat namazı qılmalarının səbəbi onların qəlblərinin rahat olduğunu bildirir.

Bəzi zalım insanların zahiri görünüşünə baxanda adama elə gəlir ki, onlar çox rahat yaşayırlar. Xeyr, əslində heç də belə deyil və onlar çox iztirab içərisində yaşayırlar, üstəlik gecələr dəva-dərmandan istifadə edərək yatırlar. Onlar xaindirlər, cinayətkardırlar, qatildirlər və qan töküb başlar kəsiblər. Ona görə də rahatlıqları yoxdur. Aydın məsələdir ki, baş kəsib adam öldürənlər heç bir vaxt rahat yata bilməzlər. Yezid də gecələr dərman içib yatırdı. Tahiri Şami deyir ki, məni gecələr Yezidin yanına aparırdılar ki, o, yuxuya gedənədək onun üçün hekayələr danışım. O, insan qatili idi və cinayətkar olduğundan gecələr yata bilmirdi. Yezid müsəlmanların rəhbəri olmaq istəyirdi, ancaq möminlər də əsla onu qəbul etmədilər. Elə buna görə də Yezid minlərlə günahsız insanları öldürtdü və bəzi insanları isə kafir elan etdi. Lakin o, bununla heç bir şeyə nail ola bilmədi.

Elə buna görə də Allahın dostları Allahla ünsiyyət qurduqlarına görə onların qəlbləri rahat və nurani olar. Onlar bu dünyadan getmələrinə də nigaran deyillər. Hər nə vaxt ömürləri bitsə və mələklər onların dalınca gəlsələr, getməyə

---

[1] Rəd surəsi, 28-ci ayə.

həmişə hazırdırlar. Çünki onlar hara getdiklərini və getdikləri yerin buradan yaxşı olduğunu bilirlər. Buna da "qəlbin rahatlığı" deyilir.

يا أيتها النفْس الْمطْمئنةُ. ارجِعي إِلى ربكِ راضِيةً مرضِيةً. فَادخلِي فِي عِبادِي. وادخلِي جنتِي.

–Ey arxayın olmuş nəfs. Dön Rəbbinə, sən Ondan, O da səndən razı olaraq. Mənim bəndələrimin zümrəsinə daxil ol. Və Mənim cənnətimə daxil ol.[1]

Deməli, İmam Hüseyn (ə) belə demək istəyirdi: "Ey Əbu Sumamə! Allah xüsusi bəndələrinə hansı cərgədə yer verəcəksə, səni də orada qərar versin."

Cənnətdə cənnət əhli yeyib-içməkdən ləzzət alanda Allahın övliyaları mənəvi qidalardan ləzzət alacaqlar. Cənnətdəki mənəvi qidanın nə olduğunu dərk etmək çox çətindir. Ariflərdən biri deyir: "Cənnətdə avamlar meyvələri yeməklə hər nə qədər ləzzət alırlarsa, ariflər bu dünyada namaz qılmaqla onlardan daha çox ləzzət alırlar."

Mərhum Ayətullah Behcəti demişdir: "Dünyanın şahlarının bizim namaz qılarkən aldığımız ləzzətlərdən xəbərləri yoxdur. Onlar bunu anlaya bilmirlər."

Allah-taalanın cənnətdə bir ümumi yeri vardır ki, oraya bütün möminlər daxil olacaqlar. Bir də cənnətdə xüsusi bir yer vardır ki, ora xüsusi möminlər daxil ola biləcəklər. İmam Hüseyn (ə) də Əbu Sumamənin həmin xüsusi bir yerə getməsi üçün dua etmişdir.

İmam Hüseyn (ə) özü də Kərbəlada böyük bir eşqlə namaz qıldı.

---

[1] Fəcr surəsi, 27-30-cu ayələr.

*Fədayəm ol həqiqi eşqbazə,*
*Kifayət qıldı qanin dəstəmazə,*
*Yıxılmış halda qəsd etdi nəmazə,*
*Qoyub alnın sücudi biniyazə,*
*Təlapuş eylədi qanla turabi.*

*Deyəndə səcdədə Subhanə Rəbbi,*
*Diriltdi vacibatü müstəhəbbi,*
*Dedi: Ləbbeyk ona zati mürəbbi,*
*Həbibi uzkur ismi, təzdud hubbi,*
*Hüseyn canandan aldı bu cavabi.*

*Edibdir səcdəsin yerdə o sərvər,*
*Dedi sərnizədə Allahu əkbər,*
*O qan ki səcdə üstə tökdü xəncər,*
*Apardı ərşi əlayə mələklər,*
*Edə məbud o qanə ərziyabi.*

*O qan məxsusidür pərvərdigarə,*
*Qarışmaz xakzarə, rigzarə,*
*O qan getdi hüzuri kirdiqarə,*
*Asıldı ərşidən çün quşvarə,*
*O qan məhşərdə eylər inqilabi.*

أعوذُ بِاالله مِن الشيطان الرجِيم. بِسمِ اللهِ الرحمنِ الرحِيمِ. فَأما من طَغى. وآثَر الْحياةَ الدني. فَإن الْجحِيم هِي الْمأوى. وأما من خاف مقَام ربِهِ ونهى النفْس عنِ الْهوى. فَإن الْجنةَ هِي الْمأوى.

–Amma kim (dünyada) tüğyan etmişsə və dünya həyatını (axirətdən) üstün tutmuşsa, şübhəsiz, onun yeri cəhənnəmdir. Amma kim öz Rəbbinin məqamından, Onun hüzurunda durmaqdan qorxub və nəfsini həvayi-həvəsdən saxlamışsa, şübhəsiz, onun yeri cənnətdir.[1]

**Qətl ilə ölümün fərqi**

"قتل" (qətl) ilə "موت" (movt) (ölüm) kəlmələrinin fərqi vardır. "موت" (movt) kəlməsi insanın hər hansı bir zamanda və məkanda ölməsi mənasını ifadə edir. Belə ölümün zahirdə təbii səbəbləri də olur. Sözün qısası, hər bir insanın bu dünyada müəyyən bir müddətdə yaşamaq payı var və onu yaşadıqdan sonra müxtəlif səbəblərlə dünyadan gedəcəkdir. "موت" (movt), yəni ömür bitdi və insan dünyadan getməlidir.

Lakin "قتل" (qətl) – "qətl" kəlməsi belə deyil. "Qətl", yəni birisinin kimsə tərəfindən vurulub öldürülməsidir. Bu da hər hansı bir zamanda və ya məkanda baş verir. Lakin qətlin baş verməsi üçün bir neçə şey də lazımdır. Onlardan biri budur ki, qətl hadisəsində mütləq "qatil" olmalıdır. Qatil olmasa, qətl də baş verməz. Başqa ifadə ilə desək, öldürən olmasa, öldürülən də olmaz.

İkincisi, qətl hadisəsində həm də "məqtul", yəni öldürülən şəxs olmalıdır.

---

[1] Naziat surəsi, 37-41-ci ayələr.

Üçüncüsü, qətlə səbəb olan alət olmalıdır. Yəni öldürülənin hansı əşya ilə öldürüldüyü məlum olmalıdır. Məsələn, soyuq və ya odlu silahla öldürmək, iplə boğmaq, suda boğmaq və s.

Dördüncüsü, qətlin səbəbi olmalıdır, yəni öldürülən şəxs nə üçün öldürülmüşdür?

Hər hansı bir yerdə əgər bir qətl hadisəsi baş versə, bu şəksiz suala cavab axtarılır. “Filan yerdə qətl hadisəsi baş verib” ifadəsi eşidilən kimi dərhal soruşulur: “Nə vaxt baş verib? Harada baş verib? Öldürən kimdir? Ölən kimdir? Nə ilə öldürüb və nə üçün öldürüb?”

Amma “موت” (movt), yəni “ölüm” hadisəsində bütün bunlar soruşulmur.

Kərbəla bir məkandır və bu məkanda qətl hadisəsi baş vermişdir. Bu qətl aşura günü baş vermişdir. Aşura, yəni məhərrəm ayının onuncu günü. Bu hadisədə İmam Hüseyn (ə) başda olmaqla 72 nəfər[1] şəhid ediliblər. Bu qətli törədənin, yəni öldürənin hekayəsi uzundur. Nə üçün öldürüblər? Bunun da hekayəsi uzundur.

Bu hadisədə öldürülənlərin hamısının adları məlumdur. Məşhur ziyarətnamədə İmam Zaman (ə.c) onların hamısının adlarını bir-bir çəkərək onlara salam verir.

Nə ilə öldürüblər? Bu da məlumdur. Qılıncla onların başlarını bədənlərindən ayırıblar. Bu hadisə tarix kitablarında qeyd olunub, onu heç kim inkar edə bilməz. Kəsilmiş başları nizələrə taxıb Şama aparıblar. İmam Hüseynin (ə) kəsilmiş yaralı başını bir qutunun içərisində Xulinin evinə aparıblar. Bunları necə inkar etmək olar?! İmam Hüseynin (ə) kəsilmiş yaralı başı nizədə Quran oxuyub. Bunu necə gizlətmək olar?! Bu hadisədə qətlin alətləri qılınc, ox və nizədən ibarətdir. Bu alətlərin vasitəsilə onları öldürüblər.

---

[1] Bəzi tarixi mənbələrə görə, 120 nəfər.

**Kərbəlada qətlin səbəbi**

Kərbəlada məsum insanları öldürənlərin kimliyi, habelə onların nə üçün bu qətl hadisəsini törətmələri məsələsi də dəfələrlə tarixi mənbələrdə qeyd olunmuş və bu barədə çoxsaylı kitablar da yazılmışdır. Həmçinin məhərrəm ayında dünyanın müxtəlif yerlərində bu barədə moizələr oxunmuşdur.

Amma öldürənlərin kimliyi və nə üçün həmin məsum insanları öldürmələri məsələsini bir cümlə ilə qeyd etmək istəsək, deməliyik ki, Müaviyə cəhənnəmə vasil olan ərəfələrdə bütün valilərə məktub yazaraq oğlu Yezidi hakimiyyət başına gətirtmək və Həzrət Peyğəmbərin (s) yerində oturtmaq istəyirdi. Həzrət Peyğəmbərə (s) heç bir imanı olmayan fasiq bir insan Allahın Rəsulunun (s) yerində oturmaq fikrində idi. O, müsəlmanlardan beyət almaq üçün bütün valilərə, o cümlədən Mədinə şəhərinin valisinə də bir məktub yazaraq Hüseyn ibn Əlidən (ə) beyət almasını əmr etdi.

O dönəmdə kimlər Yezidə beyət etdilər, kimlər beyət etmədilər və s. kimi məsələlər də tarix kitablarında qeyd olunub. İmam Hüseyn (ə) isə qeyd etdiyimiz kimi, onlara cavabında buyurdu: "Mənim kimisi onun kimisinə heç bir vaxt beyət etməz!" Çünki onun bu vəzifəyə səlahiyyəti yoxdur.

İmam Həsən (ə) Müaviyə ilə sülh müqaviləsi bağlayanda müqavilənin şərtlərindən (maddələrindən) biri belə idi: "Müaviyə özündən sonra heç bir kəsi öz yerinə xəlifə təyin etməməlidir." Lakin Müaviyə sülh müqaviləsi imzalanandan sonra minbərə çıxıb İmam Həsənlə (ə) imzaladığı həmin sənədi ayaqlarının altına ataraq dedi: "Ey camaat, siz də şahid olun ki, mən Həsən ibn Əli (ə) ilə imzaladığım müqaviləni ayaqlarımın altına atıram."

Beləcə, o, Yezidi özündən sonra xəlifə təyin etdi.

Kərbəla hadisəsində qətlin səbəbi bu idi. Aşura günü İmam Hüseynin (ə) özü, övladları, qardaşları, qardaşlarının balaları, Həzrət Peyğəmbərin (s) bir neçə səhabəsi, o cümlədən Həbib

ibn Məzahir şəhid oldular. Bununla belə, İmam Hüseyn (ə) ömrünün son anlarında belə bir təklif irəli sürdü: “Əgər məndən beyət istəməsəniz, sizinlə söhbət etməyə hazıram.” Yəni Əliəkbərin, Abbasın şəhid edilməsinə və mənim altıaylıq balamı oxlamağınıza baxmayaraq, mənim və Həzrət Peyğəmbərin (s) dediklərinə baxsanız, sizinlə söhbət etməyə hazıram.

Lakin onlar razı olmadılar. Çünki Yezid “ya beyət, ya da baş”, – demişdi.

**Kərbəla şəhidlərinin qatili kimdir?**

**1. Yezid ibn Müaviyə**

Kərbəla hadisəsində İmam Hüseynin (ə) və onun səhabələrinin qatili o dövrün qondarma hökmdarı olan Yezid idi. Həmin dönəmdə Vəlid Mədinə şəhərinin valisi idi. Yezid ona belə bir məktub yazdı:

خذ الْحسين و عبد اللهِ بن عمر و عبد اللهِ بن زبير أخذاً شدِيداً لَيست فِيه رخصةٌ حتي يبايِعوا و السلام.

–Hüseynə, Abdullah ibn Ömərə və Abdullah ibn Zübeyrə beyət etmələri üçün təzyiq göstər və beyət etmədikləri müddətdə onları getməyə qoyma. Vəssəlam.

Yezid məktubu yazaraq bildirmişdi ki, ya onlardan beyət al, ya da onların başlarını mənə göndər. Deməli, İmam Hüseyni (ə) bu məktubu yazan şəxs öldürmüşdür.

Übeydullah ibn Ziyad Kufə şəhərinin valisi idi. Çox nanəcib bir insan idi. O, İmam Hüseynə (ə) bir məktub yazıb göndərdi. Məktubda deyilirdi:

قَد بلَغنِي نزولُك كَربلاَء، و قَد كَتب إلَي أَمِير الْمؤمِنين يزيد: أَنْ لَا أَتوسد الْوثِير، و لَا أَشبع مِن الْخبز، أو أُلْحِقُك بِاللَّطِيفِ الْخبِير، أو ترجِع علَى حكْمِي، و حكْمِ يزيد بن معاوِية، و السلام

–Sənin Kərbəlaya gəlib çatdığın mənə məlumdur. Yezid mənə yazaraq bildirib ki, yatmağa və çörək yeməyə ixtiyarın yoxdur, ya Hüseyni öldür, ya da ki, mənim əmrimi qəbul etsin. Vəssəlam.

O, bunu demək istəyirdi ki, Yezid fasiq olsa da belə, yenə ona beyət etməlisən, ya da ölməlisən. Yuxarıda söylədiklərimizə əsasən, əsas qatil Yezid ibn Müaviyə sayılır. Onun əmrinə əsasən Hüseyn ibn Əlinin (ə) başı bədənindən ayrılmalı idi. Onu himayə edənlər də bu qətl hadisəsinə şərikdirlər.

**2. Şüreyh qazı**

Yeziddə İslam Peyğəmbərinin (s) qucağında böyümüş və Həzrət Peyğəmbərin (s) boğazını öpdüyü bir insanı öldürmək cəsarəti yox idi. Görəsən, Yezidə bu cürəti kim verdi? Ona bu cürəti verən Şüreyh qazı idi. Şüreyh dini libas geyinmiş, başına əmmamə qoymuş, saqqallı, xalq arasında qazıların qazısı, dindar alim kimi və hakim kimi tanınmış biri idi. Yezid onun əmmaməsindən, murdar saqqalından istifadə edərək Həzrət Peyğəmbərin (s) oğlunu öldürtdü. Yezid ayağını Şüreyhin boynuna qoyub istədiyi yerə gedə bildi. Çünki Şüreyh özü boynunu Yezidin ayağı altına qoymasaydı, Yezid bunu edə bilməzdi və istədiyinə nail ola bilməzdi.

*Müftiyi Kufə, Şüreyhin qələmi etdi fəsad,*
*Əbi Əbdillahə qoydi o dəni xarici ad,*
*Pəxş edib yazdığı fitvasın onun İbn Ziyad,*
*Xanə be xanə verib mərduma cəngi xitabi,*
*Yıxdi Zəhranin evin Kufənin ustandari.*

Əgər Şüreyh qazı o fətvanı verməsəydi, İbn Ziyad kim idi, Yezid kim idi! Onlar dini libas geymiş şəxsdən istifadə edərək camaatı aldatdılar.

Bir nəfər gəlib Ömər Sədə dedi:

–Öldürdüyünüz bu insan kimdir? Mən də sizə köməyə gəlmişəm. Gələndə anam mənə demişdi ki, kufəlilərin öldürmək istədiyi adamın adını öyrən. Çünki kufəlilərə etibar etmək olmaz.

Ömər ibn Səd İmamın (ə) adını demədi. Əvəzində belə dedi:

–Şüreyhi tanıyırsanmı?

O dedi: "Bəli, tanıyıram."

Ömər ibn Səd dedi:

–Al, onun fitvasını oxu. Onun kimliyi nəyinə lazımdır.

Bax, insanları belə aldatdılar. Elə bu səbəbdən bəziləri deyirlər ki, əgər Şüreyh qazı olmasaydı, Yezid bu qətli törədə bilməzdi. Yəni həqiqətdə pərdə arxasında əsas qatil Şüreyhdir.

### 3. Übeydullah ibn Ziyad

Düzdür, Yezid İmam Hüseynin (ə) qətlinə fərman vermişdir və Şüreyh qazı da fitva vermişdir. Amma Übeydullah ibn Ziyad istəsəydi, bu qətl baş verməzdi. Çünki o, Yezidə bir məktub yazaraq ona bildirə bilərdi ki, bu məntəqədə belə bir qətlin törədilməsi sənin hakimiyyətinin xeyrinə deyil. Amma İbn Ziyad belə bir məktubu yazmamağı bir yana, hələ üstəlik hadisələri bir az da alovlandırdı.

İbn Ziyad birbaşa Yezidin əmrini icra edirdi. Ömər ibn Səd isə İbn Ziyadın tabeliyində idi.

Kərbəlada, gecələrin birində İmam Hüseyn (ə) 20 nəfər səhabəsi ilə birlikdə, eləcə də Ömər ibn Səd 20 nəfər öz ətrafındakılarla birgə əyləşib söhbət etdilər. Sonra hamı dağılışıb xeymələrə getdilər. Orada İmam Hüseyn (ə) qardaşı Əbülfəzl (ə) və oğlu Əliəkbərlə, digər tərəfdən isə Ömər ibn Səd oğlu və qulamı ilə birlikdə qaldılar. Onlar bu tərkibdə bir neçə kəlmə söhbət etdilər. İmam Hüseyn (ə) Ömər ibn Sədə buyurdu:

–Heç bilirsən, kimi öldürmək istəyirsən?

O dedi: "Bəli, bilirəm."

Həzrət (ə) buyurdu: "Kimi öldürmək istəyirsən?"

O dedi: "Əlinin oğlunu, Zəhranın oğlunu. Səni öldürmək istəyirəm və bilirəm ki, atan Əlidir, anan Zəhradır, nənən Xədiceyi Kubradır."

Həzrət (ə) soruşdu: "Bəs, nə üçün belə bir işi görmək istəyirsən?"

O dedi: "Yeziddən mükafat almaq üçün."

Həzrət (ə) buyurdu: "Yezid sənə nə verəcək?"

O dedi: "Yezid mənə Rey şəhərinin mülkünü söz verib."

Həzrət (ə) buyurdu:

–Mən sənə deyirəm, o dediyin sənə qismət olmayacaq. Onu sənə verməyəcəklər. Sənin başını küçələrdə gəzdirəcəklər. Buğda unundan hazırlanmış çörək sənin dilinə dəyməyəcək.

Ömər ibn Səd dedi:

–Arpa çörəyi mənə kifayət edər.

Bu söhbətdən sonra Ömər ibn Səd bir məktub yazıb Kərbəladan İbn Ziyada göndərdi. Məktubun məzmunu belə idi: "Mən Hüseyn ibn Əli (ə) ilə danışmışam, əgər ona icazə versəniz, gəldiyi yolla qayıtmağa razıdır."

İbn Ziyad bunu eşidib çox əsəbiləşdi. "Əgər Hüseyn ibn Əliyə (ə) icazə versən, hər şeyi korlayacaqsınız. Sonra onun qarşısını almaq heç cür mümkün olmayacaq", – deyə Şimr söylədi. İbn Ziyad "mən də belə düşünürəm" – dedi. Sonra o, Ömər ibn Sədə belə bir məktub yazdı: "Əgər mənim əmrimi icra edirsənsə, məsələni yubatma, yox, əgər bu işə cürətin çatmırsa, çəkil bir qırağa, Şimri sənin yerinə təyin etmişəm."

Şimr özü həmin məktubu gətirib Ömər Sədə verdi. Ömər ibn Səd məktubu oxuyub dedi: "Sən çox pis bir məktub gətirmisən. Bu işi özüm yerinə yetirəcəyəm.

Söylədiklərimizdən belə məlum olur ki, əgər İbn Ziyad istəsəydi, bu məsələni bir az yüngülləşdirə bilərdi, amma istəmədi. Əksinə, hadisələri bir az da alovlandırdı. Çünki o özü

də çox nanəcib bir adam idi. Onun da nütfəsində şeytanın payı var idi.

**4. Şimr ibn Zilcoşən**

Bəziləri deyirlər ki, qılınc kimin əlindədirsə, əsl qatil də odur. Çünki başı bədəndən ayıran odur.

Aşura günü cavanlar, oğullar və səhabələr şəhid olmuşdu. İmam Hüseyn (ə) tək qalmışdı. Şimr döyüşçülərə əmr etdi ki, kimin əlində nəyi varsa, onunla Hüseyni (ə) vursunlar. Daş atanlara dedi ki, daşla vurun, ox atanlara dedi ki, oxla vurun, əlində qılıncı olanlara dedi ki, qılıncla vurun. Axırda Xuli gedib İmam Hüseynin (ə) başı üzərində dayandı və Həzrətə (ə) baxdı-baxdı, amma əlləri titrədiyindən geri qayıtdı. Daha bir neçə nəfər gəldilər və onlar da əlləri titrədiyindən geri qayıtdılar. Nəhayət, Şimr özü gəldi və o həzrətin sinəsi üstünə çıxdı. İmam (ə) gözlərini açıb ona baxdı. Şimr "mən əli titrəyənlərdən deyiləm" – dedi. Həzrət (ə) buyurdu:

–Sən kimsən? Məni tanıyırsan?

Şimr dedi: "Səni lap yaxşı tanıyıram. Atanı, ananı, babanı və nənəni də tanıyıram və sənin kim olduğunu da yaxşı bilirəm."

Həzrət (ə) ona da buyurdu: "Nə üçün məni öldürürsən?"

Şimr dedi: "Mükafat almaq üçün."

Həzrət (ə) daha ona heç bir cavab vermədi. Lakin onun daşürəkliliyini zahirə çıxarmaq və bu xəyanətin tarixdə qalması üçün buyurdu:

–Onda mənə bir içim su ver.

Şimr dedi: "Sən susuz dünyadan gedəcəksən."

Söylədiklərimizə əsasən, qatil kimdir? Qatil Şimrdir.

**Quran baxımından İmam Hüseynin (ə) qatili**

Tarixə bir nəzər saldıqda Yezidin, Şüreyhin, İbn Ziyadın, Ömər ibn Sədin və Şimrin baş kəsib xeymələri yandırdıqlarını

və qatil olduqlarını görürük. Amma Quran "Naziat" surəsində başqa bir söz deyir. Qurani-kərim buyurur:

فَإِذَا جاءتِ الطامةُ الْكُبرى. يوم يتذَكر الْإنسانُ ما سعى. وبرزتِ الْجحِيم لِمن يرى.

–O çox böyük bəla (qiyamət) yetişdikdə. O gün insan səy ilə etdiyi işləri yadına salacaqdır. Cəhənnəm hər bir görənə aşkar olacaqdır.[1]

Bu ayələrin davamında Qurani-kərim iki dəstəni insanlara təqdim edir. Birinci dəstə bunlardır:

فَأَما من طَغى. وآثَر الْحياةَ الدني. فَإِن الْجحِيم هِي الْمأْوى.

–Amma kim (dünyada) tüğyan etmişsə. Və dünya həyatını (axirətdən) üstün tutmuşsa. Şübhəsiz, onun yeri cəhənnəmdir![2]

Tüğyan etmək, yəni həddini aşmaq deməkdir. Hər şeyin bir həddi vardır. Həddini aşanlar, kiməsə görə cinayət etməyə hazır olanlar, xəyanət edənlər, əllərindən yalnız baş kəsmək, qan tökmək gələn insanlar dünya həyatını axirətdən üstün tutdular. Belə insanlar Yezidin mükafatını qiyamət günü Həzrət Peyğəmbərin (s) şəfaətindən üstün saydılar. Onların yeri cəhənnəmdir.

Quranda ikinci dəstə barəsində belə buyurulur:

وأَما من خاف مقَام ربِهِ ونهى النفْس عنِ الْهوى.

–Amma kim öz Rəbbinin məqamından, Onun hüzurunda durmaqdan qorxarsa və özünü nəfsani hisslərdən saxlamışsa.[3]

"Rəbbin məqamı", yəni qiyamət günü insanların qalxacağı və Allah qarşısında dayanacaqları gün. Yaxud onlar Allahın hər bir kəsə nəzarət etdiyini bildikləri üçün Allah-taaladan qorxurlar. İmam Sadiq (ə) buyurmuşdur:

---

[1] Naziat surəsi, 34-36-cı ayələr.
[2] Naziat surəsi, 37-39-cu ayələr.
[3] Naziat surəsi, 40-cı ayə.

من عِلِم أن اللهَ يراه و يسمع ما يقُولُ و يعلَم ما يعملُه ِمن خيرٍ أو شر فَيحجزه ذِلك عنِ القَبِيح ِمن الْأعمالِ فَذِلك الذِي خاف مقَام ربِهِ و نهى النفْس عنِ الْهوى

–Hər kəs Allahın onu gördüyünü, onun dediklərini eşitdiyini, hər yaxşı və pis əməllərindən xəbərdar olduğunu bilsə və bu, insanın günahlardan çəkinməsinə səbəb olsa, “Rəbbinin məqamından qorxarsa və özünü nəfsani hisslərdən saxlamışsa” (ayəsi) bu insanlara aiddir.

İnsan Allahdan qorxduqda nəfsinin qarşısını alır. Çünki əmr yalnız Allahındır. Sonrakı ayədə buyurur:

فَإِن الْجنةَ هِي الْمأْوى

–Şübhəsiz, onun yeri cənnətdir.[1]

Həzrət Əli (ə) buyurmuşdur:

فَإِن الهَوي يدعوا ِالي العمي

–Nəfsi istəklər insanı kor edər və həqiqəti görməz.

İslam Peyğəmbəri (s) bir dəstə müsəlmanı müharibəyə göndərdi və onlar qələbə ilə qayıtdılar. Şəhərə daxil olanda Həzrət Peyğəmbərə (s) xəbər verdilər ki, müharibəyə gedənlər qələbə ilə qayıdıblar. Həzrət (s) onları qarşılayarkən buyurdu:

مرحباً ِبقَومٍ قَضوا الْجِهاد الاَصغر و سيأْتِي أَقْوام يقْضونَ الْجِهاد الاَكْبر

–Əhsən sizə! Siz kiçik cihadı yerinə yetirdiniz. Ümidvaram ki, bir qövm gələr və böyük cihadı yerinə yetirərlər.

Dedilər: “Ey Rəsulallah! Biz gedib qan tökmüşük, öldürmüşük, yaralanmışıq və bəzilərimiz şəhid olub, bütün bunlar kiçik cihad sayılır? Məgər bu cihaddan da böyük cihad varmı?”

---

[1] Naziat surəsi, 41-ci ayə.

Həzrət Peyğəmbər (s) buyurdu: “Hər kim öz nəfsinə qələbə çalsa, onun cihadı daha böyükdür.”

Kərbəla çölündə iki tərəf qarşı-qarşıya dayanmışdı. Həmin tərəflərdən biri öz nəfslərinin qulu idilər. Digər tərəf isə Allahın qulu idilər. Birinci dəstə nəfsi istəklərinin əsiri olmuşdular, ikinci dəstə isə Allahın əmrlərinə itaət edirdilər.

Nəfsi istəklərinin əsiri olanlar kimlər idi? Əlbəttə ki, fasiqlər.

*Bu bi insafü bi miqdarilər zahirdə insandi,*
*Nəmazü ruzə əhli peyrovi İslamü Qurandi.*
*Vəli batində bəd bavərdi, həylətgərdi şeytandi,*
*Bunlar tarixə ləkə, ruzigarə nəngü xizlandi.*

*Bunlar mənayi lənətdi, bunlar dəryayi qəfətdi,*
*Bunlar came cəhalətdi, bunlar ruhi şəqavətdi,*
*Bunlar dəste cinayətdi, bunlar məsti riyasətdi,*
*Bunlar ziddi vilayətdi, bunlar qərqi cinayətdi,*
*Bunlar mövla hüzurində ucaldıb ərşə qovğani.*

Onların gözləri tutulub, heç nəyi görmürlər. Onlar nə Hüseyni (ə) görürlər, nə Peyğəmbəri (s) görürlər və nə də Quranı görürlər. Onlar öz hakimiyyətlərindən savayı başqa heç nəyi düşünmürlər. Axı onlarda şərəf olmalıdır, çünki onların namazları var, orucları var, Quranı var, peyğəmbəri var. Lakin onlar bunların heç birini düşünmürdülər. Öz hakimiyyətlərini qorumaq üçün bütün insanları kafir etməyə hazır idilər.

Bunların qarşısında dayanan insanlar da var idi. Bəs, onlar necə insanlardır? Onlara rəhbərlik edən nurani bir şəxsdir. O, başqa cür düşünür. Bəli, Hüseyn ibn Əli (ə) belə bir şəxs idi:

*Bunun əbruləri Beytül-Həram came cövhərdi,*
*Bunun hulqumunu öpsən əlli min həccə bərabərdi.*
*Buna hər bir nəfəsdə can deyən yüz min peyəmbərdi,*
*Bunu gül dəstələrdə səsləyən Allahu əkbərdi,*
*Bunu məscid tanır, tərif edər minbər bu mövlani.*

Onlar yalnız Allahın insanlara etdiyi əmrlər barəsində düşünürlər. Bunlar üçün qılıncların oynaması, başlarının kəsilməsi, bacılarının əsir düşməsi, xeymələrin yandırılması heç bir rol oynamır. Yalnız və yalnız Allahın əmri haqda düşünürlər.

Nəfsi istəklərinə əsir olanlar Həzrət Peyğəmbərin (s) qızlarının olduğu çadırlara hücum əmri verdilər. Ömər ibn Səd İmam Hüseynin (ə) son dəqiqələrində atına mindi və öz qoşununa üz tutaraq dedi:

*Mən öldürdüm Hüseyni, siz edin qarət bu səhradə.*

Sonra onun döyüşçüləri od vurub çadırları yandırdılar. İmam Hüseynin (ə) kiçikyaşlı qızları od-alovun içərisində o yana bu yana qaçır və tüstüdən gözlərini yumaraq atların ayaqlarını qucaqlayırdılar. Onlar Kərbəlada bu cinayəti törətdilər. İmam Hüseyn (ə) öz qılıncına söykənərək buyururdu:

ويحكُم يا شِيعةَ آلِ أَبي سفْيانَ! إِنْ لَم يكُن لَكُم دِين، و كُنتم لَا تخافُونَ الْمعاد، فَكُونوا أَحراراً في دنياكُم هذِه

–Vay olsun sizə, ey Əbu Süfyanın tərəfdarları! Əgər dininiz yoxdursa və qiyamət günündən qorxmursunuzsa, heç olmasa bu dünyada azad olun!..

Uşaqlar çadırların içərisində olanda onlar çadırlara od vurub yandırdılar. Hələ heç bir kəs çadırlardan çıxmamışdı. Xanım Zeynəb (s.ə) İmam Səccadın (ə) yanına gəlib dedi: “Sən mənim imamımsan, düşmən döyüşçüləri çadırları yandırdılar. Bizə nə məsləhət görürsən? Əgər məsləhət bilirsənsə, qızlara deyim çadırlardan çıxsınlar, yox, əgər bizim atəşdə

yanmağımız məsləhətdirsə, biz çadırdan çıxmayaq və od-alov içərisində yanaq.

Bax, Kərbəladakı həmin iki dəstə bununla fərqlənirdilər. Onlar öz nəfsi istəklərinə itaət edirdilər, bunlar isə Allahın höccətinin məsləhətlərinə əsasən hərəkət edirdilər.

*Ələykunnəl-firar hökmü yetişdi ismətullahə,*
*Özün vurdu oda qızlar dağıldı rahu birahə.*
*Biyabandi yeldi tufan, qızdı, övrətdi,*
*Həvadə qırmızı torpaq yağır, ruzi qiyamətdi.*

Onlar "Öldürün!" hökmünü verirdilər. Deyirdilər ki, baxmayın bu Əliəkbərdi, Quran qarisidi, Quran hafizidi, Həzrət Peyğəmbərin (s) oğludu, Bəni-Haşimin fəqihidi, alimdi. Heç birinə fikir vermədən hey "Öldürün!" – deyirdilər.

Amma bunlardan fərqli olaraq İmam Hüseyn (ə) əlini saqqalına toxunduraraq deyirdi:

اللهم اشهد فَقَد برزِ إِلَيهم غُلام أشبه الناسِ بِرسولِ الله خلْقاً و خلُقاً و منطِقاً و كُنا إِذا اشتقنا إِلَي نِبيك نظَرنا إِلَيهِ.

–Allahım, Sən Özün şahid ol! Düşmən qoşununa tərəf elə bir cavan gedir ki, əxlaqı, qəddi-qaməti və danışığı ilə hamıdan çox sənin Peyğəmbərinə (s) oxşayır. Biz hər vaxt Həzrət Peyğəmbəri (s) görmək istəyəndə bu cavana baxırdıq. Sənin razılığın üçün onu da döyüşə göndərirəm.

Düşmənlər suyun yolunu da bağlamışdılar. Qızların, qadınların və uşaqların susuz qalması onların vecinə deyildi. Amma İmam Hüseyn (ə) Kərbəlaya gələndə ehtiyat üçün götürdüyü su ilə həm onların (düşmənin) özlərini və həm də heyvanlarını sirab etdi.

Alimlərdən biri belə nəql edir: "Rübabın əlindəki altıaylıq uşaq havanın istisindən və susuzluqdan çapalayırdı. Uşağa verməyə nə süd var idi, nə də su. Dodaqları qurumuşdu və ana artıq öz uşağına baxa bilmirdi. O, çadırın içərisindəki döşəməni

bir kənara çəkərək uşağın bələyini açdı və onu qumun üstünə qoydu ki, bəlkə bir az uşağa sərinlik gələr. Sonra da paltarının ətəyi ilə onu yelləməyə başladı. Belə edirdi ki, bəlkə uşaq bir az sakit olar. İmam Hüseyn (ə) bu halı görüb uşağı qucağına götürdü və gəlib qoşunun qarşısında dayanaraq buyurdu:

–Mənə su vermirsiniz verməyin, axı bu uşağın günahı nədir?!

*İmam düz dayanıb, Hərmələ əyibdi dizin,*
*O istəyir su, bu əldə tutub kaman, tələsir.*

Onlar İmam Hüseynin (ə) bu çağırışına üç oxla cavab verdilər.

İmam Hüseyn (ə) aşura axşamı hamıya getməyə icazə verdi. Buyurdu: "Bunların davası mənimlədir. Getmək istəyən getsin. Qızlarınızın və ana-bacılarınızın əlindən yapışıb gedin. Mən beyətimi sizdən götürürəm. Siz hamınız azadsınız. Əgər onlar məni tutsalar, başqaları ilə işləri olmayacaq."

Bu, İmam Hüseynin (ə) məntiqi idi. Amma düşmən necə etdi. Onlar öz ətrafdakı insanları aldadırdılar. Yanlarından bir nəfərin getməsinə razı deyildilər. Hətta İmam Hüseynin (ə) adını soruşanlara o həzrətin adını belə demirdilər. Onlardan hətta bəziləri kimi öldürdüklərini sonradan bildilər.

Mən özüm bəzi vaxtlar belə şeyləri eşidəndə inanmazdım. Yəni necə ola bilər ki, bir nəfər Kərbəlada gedib Ömər ibn Sədə qoşulur və İmam Hüseyni (ə) öldürür, amma kimi öldürdüyünü bilmir. Aydın məsələdir ki, o dövrdə nə qəzet və nə də jurnal, nə radio və nə televiziya, nə internet və nə də saytlar var idi. Odur ki, insanlarda baş vermiş hadisələrlə bağlı lazımi informasiyalar olmurdu. Amma bu gün istənilən hər bir xəbər bir dəqiqənin içərisində bütün dünyaya yayıldığı bir halda görün bir nə qədər insanların gözlərini bağlayırlar. Əgər bu gün belə hallar baş verirsə, görün o dövrdə nələr olmuşdur?!

Kufənin ətraf kəndlərinin birində Yaqub adlı bir şəxs yaşayırdı. O deyir: "Nə vaxt evə gəlirdimsə, görürdüm ki, anam oturub ağlayır. Soruşurdum ki, ana, niyə ağlayırsan? Anam deyirdi:

*Ağamın eşqi vurub başimə göz yaşım axır,*
*Oğlum, əlac eylə mənə amandır, qəlbim darıxır.*

Belə könlümə Hüseyn (ə) düşüb, ağamı ziyarət etmək istəyirəm. Hüseyn (ə) Mədinədə yaşayır, məni onun ziyarətinə apar. Dedim: "Ana, səni Mədinəyə aparmaq üçün vəsaitim yoxdur."

Günlərin birində o, yenə də gəlib anasına dedi: "Ana, eşitmişəm ki, bir xarici qiyam edib və hamı onu öldürməyə gedir. İcazə ver, mən də o xarici ilə döyüşməyə gedim. Əlimə düşən qəniməti satıb səni ağamızın ziyarətinə apararam."

*Səhmi taracimi bazaridə elan edərəm,*
*Ana nigaran olma, Hüseynə səni zəvvar edərəm.*

Beləcə, oğul anasından icazə alıb Kərbəlaya döyüşə gedir. O, aşura günü Kərbəlaya çatır. Görür ki, bir nəfər atdan yıxılıb və kimin əlində nə varsa, onunla da həmin şəxsi vururlar. Başa düşür ki, artıq gecikib. Deyir: "İlahi, deyəsən, anamın bəxti mənə yar olmadı. Deyəsən, qənimət əlimdən çıxdı."

Sonra Ömər ibn Sədin yanına gəib deyir:

–Ey Ömər ibn Səd! Mən gecikmişəm.

Ömər ibn Səd deyir: "Yox, gecikməmisən. Al bu qılıncı, orada bir nəfər yaralı yıxılıb qalıb, get onun başını kəs gəl, hər nə istəsən sənə verərəm."

Yaqub xəncəri alıb həmin yaralının başını kəsdikdən sonra mükafat alaraq anasını Hüseynin (ə) ziyarətinə aparmaq məqsədilə qətlgahə getdi.

*Əldə xəncər ləbi qodalə yetişdi nigaran,*
*Gördü bir yarəlidür sinəsi peykan dolusi,*
*İki ziba gözünün kasələri qan dolusi,*
*Tiri xəncər əlinə vermiş əcəl naməsini.*
*Dağıdıb nizələr əynində olan caməsini,*
*Sağ əlində qılıncı yoxdi, sol əlində sipəri,*
*Açılıb parələnib beldəki bəndi kəfəni,*
*Bir-birindən aralanmış geyimin həlqələri.*
*Hər yerinən yaralı sinədə var çox yarasi,*
*Qəlbinin cəbəsini parçalayıb ox yarasi.*

Yaqub İmam Hüseynə (ə) baxa-baxa düşünürdü:

*Etdi Yəqubə əsər hali ğəməfzayi imam,*
*Qətlinə olsa bunun məndə dedi ruhi qiyam,*
*Əmmişəm mən o südiki nənədən, olsun haram!*

*Mənə isbat degül bu yarali mücrümdür,*
*Allah gözün açseydi, danışsaydi bilərdim kimdür,*
*Zati həqqin əcəba bəndeyi ziba təri var,*
*Bu gözəl qamətə səd heyf ola qan bəstəri var,*
*Surətindən ki, Hicaz əhlinə çox bənzəri var.*

Həzrət (ə) gördü ki, Yaqub qərara gəlməkdə çətinlik çəkir və onu tanımır. Bu səbəbdən söylədi:

*Gördü mehmanini avarə rəisus-Səqəleyn,*
*Cəddi Peyğəmbər öpən gözlərini açdı Hüseyn,*
*Gül kimi ləbləri güldü özü ba razi suxən,*
*Dedi: Yaqub, gəlibsən başımı kəsməyə sən.*
*Eybi yoxdi, zibh elə fikr eləmə mane olam felüvə mən,*
*Gəl başımı kəs, müntəzirun var, edür əssaə dua,*
*İbn Sədə başımı vermə, apar ver anova.*

Yaqub dedi: “Sən kimsən, məni haradan tanıyırsan və hardan bildin anam məni gözləyir?” Həzrət (ə) buyurdu: “Get anana de:

*Day getməyin Yəsribə, təğyiri məkan etdi Hüseyn,*
*İtrətin çöllərə saldı, nigaran etdi Hüseyn,*
*Anası Fatimənin qəlbini dağ etdi Hüseyn,*
*Yaqub, o Hüseyn ki zülm ilə tökülür qani, mənəm,*
*Adı olmuş anovun virdi zəbani, o mənəm.*

Yaqub əyilib üzünü qoydu İmam Hüseynin (ə) mübarək qədəmlərinə və dedi: “Ağa, məni bağışla! Səni tanımamışam. İcazə ver, əlindən tutum, qalx əyləş yaralarını bağlayım.” İmam Hüseyn (ə) buyurdu: “Yaralarımı bağlamaq istəyirsən ki, mən ölməyəm?!”

*Öldürür fikr eləmə tək məni xəncər yarası,*
*Öldürübdür məni çoxdan Əliəkbər yarası.*

## ZİYARƏTİN MƏNASI VƏ FƏZİLƏTİ

*Ya Hüseyn, ləblərüvə saqiye kövsər yaraşar,*
*Kəsilən əllərüvə pərçəmi məhşər yaraşar.*

*Demirəm qoy ayağun güzlərimin üstə ağa,*
*Ayağun altına baş qoymağa Əkbər yaraşar.*

*Nə rəvadi sinövün üstə qoya Şimr ayağın,*
*O gözəl sinəyə vallah Əliəsğər yaraşar.*

*Mən kiməm, mən nəçiyəm, adimə nökər deyələr,*
*Sən kimi şahə, Əbəlfəzl kimi nökər yaraşar.*

Burada həm ziyarətin mənasını və həm də Kərbəlada şəhid olanların, xüsusilə İmam Hüseynin (ə) ziyarətinin həm dünya və həm də axirətdəki faydalarını qeyd etmək istərdim. Həmçinin İmam Hüseyni (ə) layiqincə ziyarət etməyin keyfiyyətindən bəs etmək yerinə düşərdi.

İslam təlimlərində həm Həzrət Peyğəmbərin (s) və onun Əhli-beytinin (ə) buyurduqlarına, həm də Allahın Rəsulunun (s) və Əhli-beytinin (ə) rəftarına əsasən, bizə məlum olur ki, mömin insanların qəbrini ziyarət etmək, onlara salam-salavat göndərmək və onlara dua etmək insanlar üçün çox faydalıdır. İslamda bu əməl bəyənilən əməllərdən sayılır və Həzrət Peyğəmbər (s) sözügedən əməlin yerinə yetirilməsinin zəruriliyini təkidlə irəli sürmüşdür. Bu əməlin insanlar üçün iki mühüm faydası vardır.

**Birinci faydası: İbrət almaq**

İlk növbədə insan dünyadan köçmüş insanların qəbrini ziyarət etməklə öz acizliyini hiss edir və dünyada vaxtilə yaşamış hegemon qüdrətlərin acizliyini və aqibətini görüb ibrət alır. Böyük İslam Peyğəmbəri (s), Həzrət Əli (ə) və digər imamlar qəbiristanlığa gedər, qəbiristanlıq əhlinə salam verər

və onlarla danışardılar. Bunun bir faydası da odur ki, bu kimi ziyarətlər zamanı hər bir insan öz axırının qəbiristanlıq (qəbir evi) olduğunu dərk edir və əlbəttə ki, bundan lazımi nəticələr də çıxara bilər.

Yaxşı olar ki, belə ziyarətlər zamanı insan qəbirlərə baxsın və orada dəfn olunmuş insanlara bir nəzər salsın. Bir nəfər var idi – o, artıq Allahın rəhmətinə gedib – mənə öyrətmişdi və özü də həmin əmələ riayət edirdi. O, mənə öyrətmişdi ki, hər vaxt ziyarətdə, məsələn Məscidül-Həramda, Mədinədə, Kərbəlada və digər ziyarətgahlarda olsan, öz qəbir qonşuların üçün iki rükət namaz qıl. Bəzi insanlar indidən qəbir qonşuları haqda düşünürlər. Bunun faydası odur ki, həmişə insanın yadında olur ki, o da axırda həmin yerə gedəcəkdir.

**İkinci faydası: Savab əldə etmək**

Möminlərin qəbrini ziyarət etmək İslam təlimlərində təkidlə irəli sürülmüşdür və bu əmələ görə müxtəlif savablar, fəzilətlər vəd olunmuşdur. Qəbirləri ziyarət etmək səadətdir və insanın qəflətdən oyanmasına səbəb olar.

Əhli-sünnənin ən məşhur hədis kitablarından biri olan "Sünəni İbn Macə" əsərində bu mövzu haqda İslam Peyğəmbərindən (s) belə bir hədis nəql olunmuşdur:

و زُوروا الْقبور فَإنها تذَكرِكُم الْآخِرةَ

–Qəbirləri ziyarət edin. Çünki o, axirəti sizin yadınıza salar.

Başqa bir hədisdə belə deyilir:

زُوروا الْقبور فَإن لَكُم فِيها عِبرةٌ

–Qəbirləri ziyarət edin. Çünki onlarda sizin üçün bir ibrət vardır.

İnsan hər nə qədər zəif olsa da, qəbirlərə baxanda bir az ürəyi sakitləşir. Həmçinin hər nə qədər güclü olsa da, qəbirlərə baxanda qəlbi bir az yumşalır. Kasıb qəbirlərə baxanda bir az da olsa təsəlli tapır. Dünyanın ən varlı insanının da belə

qəbirlərə baxmasının faydası vardır. Sözün qısası, insan hər hansı vəziyyətdə olursa-olsun, qəbirlərə baxmaqla vəziyyətini tarazlaşdırır və halını tənzimləyir. İnsan qəbirlərə baxandan sonra özündəki fərqi hiss edir.

Bəziləri Quranın buyurduğu "أَلْهاكُم التكاثُر. حتى زرتم الْمقَابِر" – "Mal-dövlət, rütbə və övlad çoxluğ(u) ilə öyünmək və (onları) çoxaltmaqda bir-birinizlə yarışa girmək sizi (Allahın zikrindən) yayındırdı. O vaxta qədər ki, qəbiristanlıqları ziyarət etdiniz."[1] ayəsindən sui-istifadə edərək hətta İslam Peyğəmbərinin (s) qəbrini belə ziyarət etməyə qoymurlar. Deyirlər ki, Quran bizə "أَلْهاكُم التكاثُر" – deyə söyləmişdir. Belə insanlar nə "أَلْهاكُم التكاثُر" ayəsinin mənasını bilirlər, nə də onun işlənmə yerini bilirlər. Onlar bu ayənin mənasını bilə bilməzlər. Çünki onlar cahil insanlar idilər və İslam Peyğəmbərinə (s) iman gətirməmişdilər. Elə ki, gördülər Həzrət Peyğəmbərin (s) ətrafında insanlar çoxalır, "gəl biz də ona iman gətirək" –deyib Həzrət Peyğəmbərə (s) qoşuldular. Onlar Quranın təfsirini bilə bilməzlər.

Onların törəmələri də belədir. Onların Quranı özlərindən təfsir etməyə ixtiyarları çatmır. Çünki Quranın həqiqi müfəssiri Həzrət Əlidir (ə) və Əhli-beytdir (ə).

Quran qanundur (əgər belə deyə bilsək), Əhli-beyt (ə) isə həmin qanunu izah edənlərdir. Hər bir müsəlman Quranda başa düşmədiyi məsələləri gərək onlardan öyrənsin. Elə bu səbəbdən də İslam Peyğəmbəri (s) dünyadan köçəndə bunların hər ikisini müsəlmanlara əmanət olaraq tapşırdı. Tapşırdı ki, əgər bunları bir-birindən ayırsanız, yolunuzu itirəcəksiniz. Cənnətdə, Kövsər hovuzunun yanında bu iki əmanəti sizdən alacağam.

Yuxarıdakı ayəni Həzrət Əli (ə) bu cür şərh edir:

---

[1] Təkasur surəsi, 1-2-ci ayələr.

أَفَبِمصارِعِ آبائِهِم يفْخرونَ! أَم بِعدِيدِ الْهلْكَي يتكاثَرونَ! يرتجِعونَ مِنهم أجساداً خوت، وحركاتٍ سكنت، ولأَنْ يكُونوا عِبراً، أحق مِن أنْ يكُونوا مفْتخراً

–Onlar atalarının torpağa gömüldükləri yerlərlə fəxr edirlər, yoxsa bir-biriləri qarşısında məhv olanların sayı ilə öyünürlər?! (Ölülərlə öyünənlər pis və qanmaz adamlardırlar ki,) cansız düşmüş cəsədlərdən və onların ətalətdə olan hərəkətlərindən (dünyaya) qayıtmalarını istəyirlər. Hər halda ölülər öyünməyə səbəb olmaqdansa, ibrət alınmağa daha layiqdirlər. [1]

Yəni siz öz qəbilə üzvlərinizin sayı ilə fəxr edirsiniz?! Ölmüş ata-babalarınızın qəbirlərini saymaqla öz qəbilə üzvlərinizin sayını çoxaldırsınız?! Çürümüş sümüklərin sizin sayınızın çoxluğuna nə faydası var?! Qəbilə üzvlərinin sayının çoxluğu üçün cansız ölüləri yenidən dünyaya qayıtmağa çağırırsınız?! O qəbirlərdən ibrət almağınız onlarla fəxr etməyinizdən daha yaxşıdır.

Elə buna görə də hər bir insanın hərdən gedib qəbiristanlıqda möminləri ziyarət etməsi, onlar üçün Quran oxuması və onlar üçün ehsan verməsi təkid olunub. Çünki bunun insan mənəviyyatına çox böyük faydası vardır.

Əgər insan gedib şəhidləri, İslama xidmət edən insanları ziyarət etsə, bu əməldə həm ibrət var və həm də insan onlarla peyman bağlayır. İnsan belə şəxsləri ziyarət etməklə imanını çoxaldır. Şəhidlər qanlarını verməklə ölkənin, dinin və millətin izzətini qoruyublar və qoruyurlar. Onların qəbrini ziyarət etməklə insanlar əsl həqiqətdə onlarla əhd-peyman bağlayırlar.

Kəbə evində insanların Həcərül-əsvədə əllərini toxundurmasının mənası nədir? Məqami İbrahimin (ə) arxasında namaz qılmağın müstəhəb olmasının mənası nədir? Mənası budur

[1] Nəhcül-bəlağə, 212-ci xütbə.

ki, insanların Həzrət İbrahimə (ə) əlləri çatmadığından onun hansısa bir nişanələrinə əllərini vurmaq istəyirlər. Həcərül-əsvəd (Kəbədəki qara daş) Allahın yer üzərindəki əlidir. Hər kim Həcərül-əsvədə əl vurursa, əsl həqiqətdə Allahla görüşmüş sayılır və Allah ilə əhd-peyman bağlayır.

Hədislərdə deyilir:

الْحجر الْأسود يمِين اللهِ فِي الْأرض

–Həcərül-əsvəd Allahın yer üzündəki əlidir.

Həcərül-əsvədə əl vurmağın mənası belədir:

أماتى أديتها و ميثاقى تعاهدته لتشهد لى بالْموافاة

–Məndə olan əmanəti əda etdim. Allah ilə bağladığım əhdi (yəni tövhidi qəbul etmək əhdimə) vəfa etdiyimə (şahid ol).

**Nəticə**

Mən Bədr şəhidlərini, Ühüd şəhidlərini, Kərbəla şəhidlərini görməmişəm, lakin onların izləri, yəni qəbirləri vardır. Gedib onların qəbirlərinin kənarında dayanıb onlarla peyman bağlayıram. Onlarla əhd-peyman bağlayaraq deyirəm: “Siz Allahın dini uğrunda şəhid oldunuz. Lakin mən sizdən təşəkkür etmək üçün sizi görməmişəm. Bu gün isə sizin qəbrinizin kənarına həm sizə təşəkkür etməyə və həm də sizin yolunuzu davam etdirəcəyimə söz verməyə gəlmişəm.”

Şəhidləri ziyarət etməyin mənası bax budur. Bunun nəyi pis əməldir?! Bunun nəyi qəbahətdir?!

İndi hər hansı bir insan məsum imamlar haqda belə düşünür ki, imamların hamısı Allah yolunda şəhid olublar. Bir nəfər gedib hər hansı bir imamın qəbrinin yanında dayanaraq öz təşəkkürünü bildirir. Çünki əgər Hüseyn ibn Əli (ə) şəhid olmasaydı, din bu gün belə qalmazdı. Dinimiz xristianların dini kimi olardı, bəlkə də onlardan daha da pis olardı. Əgər İmam Hüseyn (ə) Yezidin qarşısında dayanmasaydı, bu gün həqiqi İslamdan xəbər-ətər olmazdı.

İmam Hüseyn (ə) canını, malını, övladlarını və bacılarını çox istəyirdi. O, bacısı Zeynəbi (s.ə) elə çox istəyirdi ki, atası Əli (ə) Abdulla ibn Cəfərlə Xanım Zeynəbin (s.ə) əqdini oxuyanda ona buyurdu: "Hüseynlə (ə) bacısı Zeynəbi (s.ə) bir-birindən ayırmaq mümkün deyil. Bu bacı-qardaşın bir-birinə olan məhəbbəti yer üzündə örnək olmaq üçün ən gözəl nümunədir. Abdullah, mən qızımı sənə verirəm, amma Hüseyn (ə) hər nə vaxt Zeynəblə (s.ə) görüşmək istəsə, onlara mane olmayacaqsan. Həmçinin Zeynəb (s.ə) hər nə vaxt Hüseyni (ə) görmək istəsə, onlara mane olmayacaqsan."

İmam Hüseyn (ə) Xanım Zeynəbi (s.ə), balalarını hamıdan çox istəyirdi, amma onların hamısını din yolunda fəda etdi. Yezidə beyət etmək Quranı para-para edib ayaqlar altına atmaq deməkdir. İmam Hüseyn (ə) tərəfindən belə bir işin baş verməsi heç bir vaxt mümkün olmayacaq. Kəbənin salamat qalması və bu gün milyonlarla müsəlmanın oranı ziyarət etməsi İmam Hüseynin (ə) qanının bərəkətindəndir.

Bu gün Kəbənin mövcudluğu, Həzrət Peyğəmbərin (s) adının yaşaması, Quranın qalması hamısı İmam Hüseynin (ə) qanının bərəkətindəndir. Hətta başqa firqələr (məzhəblər) də namaz qılırlarsa, bu namazlarına görə yenə də İmam Hüseynə (ə) borcludurlar.

Bir dəfə Avropanın məşhur alimlərindən biri Ayətullah Şirazi ilə görüşdən sonra jurnalistlərə müsahibə verərkən deyir: "Biz Avropa alimləri gərək camaatımıza başa salaq ki, küçələrimizdə Müaviyənin qızıldan hazırlanmış heykəlini ucaltmaq lazımdır. Çünki əgər Müaviyə olmasaydı, bu gün bütün yer üzündəki insanlar müsəlman olardılar."

Müaviyə öz əməli ilə İslama nifrət qazandırdı. İslama nəzər yetirənin İslamdan acığı gəldi. "İslamın rəhbəri belə olmalıdırsa, onda mən belə bir dini qəbul etmirəm" –dedilər. Əgər İmam Hüseyn (ə) olmasaydı, Müaviyənin bütün mənfur planları

dünyanı bürüyəcəkdi. Bu gün yer üzündə isə bir müsəlman belə olmazdı.

Elə bu səbəbdən də İmam Hüseynin (ə) qəbrinin kənarında dayanıb ona təşəkkür etmək və "Əgər sən o gün beyət etsəydin, bu gün mən Allahu əkbər deməzdim", – deyə söyləmək lazımdır. Söyləmək lazımdır ki, sənin altıaylıq balanı əllərinin üzərində oxladılar, amma sən bir "uff" belə demədin. Buna görə də sənə təşəkkür edirəm.

*Ey kaş, yüz on dörd ola oğlum mənim Allah,*
*Qurban verəm hər sureyi Quran əvəzində.*

İnsanın təşəkkür və beyət etməsinin nəyi pisdir?! Bu yola, bu fikrə və ideyaya beyət etmək gərəkdir. Şərafətli insanların, ağıllı insanların və xoşbəxtlik axtaran insanların belə bir şəxsiyyətə beyət etmələri vacibdir.

İmam Rza (ə) buyurmuşdur:

إن لكُل إمامٍ عهداً في عنقِ أوليائِهِ وشيعتِهِ، وإنّ من تمام الْوفاءِ بالْعهدِ زيارةَ قُبورِهِم

–Hər bir imamın onun dostlarının və davamçılarının boynunda haqları vardır. Həqiqətən, həmin haqlardan biri onların qəbrini ziyarət etməkdir.

İnsan Həzrət Peyğəmbərin (s) qəbrinin kənarında dayanıb onun qəbrinə baxaraq ürək sözlərini demək istəyir: "Ya Rəsulallah! Hüdeybiyyədə mühacir və ənsar sənə beyət etdilər və sənin peyğəmbərliyini müdafiə etdilər.[1] Amma o gün sənə beyət edənlər arasında mən yox idim. Məkkədə bəzi qadınlar gəlib sənə beyət edərək söz verdilər ki, bu gündən

---

[1] لَقَد رضِي الله عنِ الْمؤمِنين إذْ يبايِعونك تحت الشجرةِ – "Şübhəsiz, Allah möminlərdən onlar (Hüdeybiyyədə) ağacın altında sənə beyət edən zaman razı qaldı." Fəth surəsi, 18-ci ayə.

belə şirkdən və günahdan uzaq olacaqlar.[1] Lakin həmin gün mən yenə də onlarla birlikdə sənə beyət etmək üçün orada deyildim. Günahkar möminlər sənin yanına gəlib Allahdan onların bağışlanmalarını diləməyini istədilər. Allah sənin onların barəsində diləyini qəbul etdi.[2] Amma həmin gün mən yox idim. Mən o günlər olmadığım üçün bu gün gəlib əvvəla, sənə beyət edirəm və söz verirəm ki, sən deyən yolla gedəcəyəm. İkincisi, günahdan və şirkdən uzaq olacağam. Üçüncüsü, mən də səndən Allahdan mənim bağışlanmağımı diləməyini istəyirəm.”

**İmam Hüseynin (ə) ziyarətinin savabı**

İmam Hüseynin (ə) ziyarətinin faydası bundadır. İmam Sadiq (ə) buyurmuşdur: “Hər kim İmam Hüseyni (ə) ziyarət etsə, onun adı illiyyində yazılır.”

Həzrət (ə) başqa bir hədisdə buyurur: “Hər kim İmam Hüseynin (ə) haqqını tanıyaraq (yəni mərifətlə) ziyarət etsə, Allah onun insanların boynunda olan haqqından savayı başqa bütün günahlarını bağışlayar.”

Səfvan Cəmmal İmam Sadiqdən (ə) belə nəql edir:

قَالَ لِي أبو عبدِ اللهِ علَيهِ السلام: هلْ لَك فِي قِبرِ الْحسين؟ قُلْت و تزوره جعلْت فِداك؟ قَالَ و كَيف لَا أزوره و اللهُ يزوره فِي كُل لَيلَةِ جمعةٍ يهبِطُ مع الْملاَئِكَةِ إلَيهِ و الْأنِبياء و الْأوصِياء...

---

[1] يا أيها النِبي إِذَا جاءك الْمؤمِنات يبايِعنك علَى أن لا يشرِكْن بِاللهِ – “Ey peyğəmbər, möminə qadınlar Allaha heç bir şərik qoşmayacaqları barədə beyət etmək üçün yanına gəldikləri zaman...” Mumtəhənə surəsi, 12-ci ayə.

[2] ولَو أنهم إِذ ظلَموا أنفُسهم جآؤوك فَاستغفَروا اللّه واستغفَر لَهم الرسولُ لَوجدوا اللّه توابا رحِيم – “Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlsəydilər, sonra Allahdan bağışlanmaq istəsəydilər və Allahın Peyğəmbəri də (Allahdan) onlar üçün bağışlanmaq diləsəydi, şübhəsiz, Allahın çox tövbə qəbul edən və mehriban olduğunu görərdilər”, “Nisa” surəsi, 64-cü ayə.

–Əba Əbdillah (ə) məndən soruşdu: "Hüseynin (ə) qəbrindən bəhrələnə bilirsənmi?" Səfvan deyir: "Sizə fəda olum, siz də ziyarət edirsinizmi?" – deyə soruşdum. Həzrət (ə) buyurdu: "Mən onu necə ziyarət etməyim, halbuki Allah-taala hər cümə axşamı onu ziyarət edir. Mələklər onu ziyarət etmək üçün yerə enirlər və bütün peyğəmbərlər və vəsilər onu ziyarət edirlər."

Bu məzmunlu hədis Həzrət Əli (ə) haqqında da nəql olunmuşdur.

Zikr elədiyimiz salavatın mənası nədir? Salavatın mənası odur ki, yəni "İlahi, Sən Peyğəmbər və Ali-Peyğəmbərə salam və salavat nazil et!" Salavatın biz tərəfdən bir mənası vardır. Allah tərəfindən isə başqa bir mənası var. Necə ki, Quran buyurur:

إِن الله وملَائِكته يصلونَ علَى النِبي يا أَيها الذِين آمنوا صلوا علَيهِ وسلموا تسلِيما

–Həqiqətən, Allah və Onun mələkləri daim Peyğəmbərə salam (salavat) göndərirlər. Ey iman gətirənlər, ona salam (salavat) göndərin və tamamilə (onun əmrinə) təslim olun.[1]

Bu ayəyə əsasən, bizim "Allahın İmam Hüseyni (ə) ziyarət etməsi" söyləməyimiz gərək bəzi insanları təəccübləndirməsin. Allah Peyğəmbərə (s) salavat göndərdiyi kimi, İmam Hüseyni (ə) də ziyarət edir.

Həzrət Musanın (ə) dastanında Quran deyir:

فَلَما تجلى ربه لِلْجبلِ

–Beləliklə, onun Rəbbi(nin nuru) dağa saçdıqda...[2]

Musanın (ə) dastanında təcəlla etdiyi kimi, İmam Hüseynin (ə) ziyarətində də Öz rəhmətini nazil edə bilər. Salavat

---

[1] Əhzab surəsi, 56-cı ayə.
[2] Əraf surəsi, 143-cü ayə.

və salamda olan məna (yəni Öz rəhmətini nazil etməsi) ziyarətdə də o məna ola bilər.

Bu, İmam Hüseynin (ə) əzəmətli olmasının sübutudur. Bütün mələklər, peyğəmbərlər Allahdan Hüseyni (ə) ziyarət etmək istəyirlər.

*Səs xəlq olundu canibi pərvərdigaridən,*
*Əl çəkmərəm Hüseyn, Mən Özüm yarüvəm sənin.*
*Bu qəmsərayi eşqidə qəmxarüvəm sənin,*
*Qoymulla gər ziyarətüvə Əhli-beytüvi.*
*Ərvahi ənbiya ilə züvvarüvəm sənin,*
*Eşqin bir olsun, at nəzərindən Rüqəyyəni,*
*Mən saxlaram o tifli nigəhdarüvəm sənin.*

Uzun illər Kərbəla ziyarətini qadağan edənlərin axırı necə oldu?! Onlar bu əməlləri ilə özləri üçün cəhənnəmi qazandılar. Bu gün də dünyada beş nəfərin bir yerdə yığışıb namaz qılmalarından qorxurlar. Sovet dönəmində yetmiş il İmam Hüseyn (ə) əzasına qadağa qoydular. Onların axırı nə oldu?! Bütün bunlara yaxşı nəzər salsalar, o zaman ibrət alarlar. Çox təəssüflər olsun ki, baxıb başa düşmürlər.

Uzun illər insanlara İmam Hüseynin (ə) ziyarətgahının yanından keçməyə belə imkan vermirdilər.

Hədisdə belə nəql olunur: “Hüseyni (ə) ziyarət edən hər bir kəsə Həzrət Peyğəmbər (s), Xanım Fatimeyi Zəhra (s.ə) və mələklər dua edərlər.

عن أِبي عبدِ اللهِ الصادِق علَيهِ السلام قَالَ: إِن قَاطِمةَ ِبنت محمدٍ صلَى اللهُ علَيهِ و آلِهِ وسلم تحضر زوار قَبرِ اِبنها الْحسينِ علَيهِ السلام فَتستغفِر لَهم ذُنوبهم

–İmam Sadiq (ə) buyurmuşdur: “Həqiqətən, Həzrət Məhəmmədin (s) qızı Fatimə (s.ə) oğlu Hüseynin (ə) qəbrinin

kənarında dayanır və onun zəvvarlarının günahlarının bağışlanılmasını (Allahdan) diləyir.”

Bu hədislər İmam Hüseynin (ə) qəbrini ziyarət etmək üçün bizə kifayət edər. Bizə Əbu Hüreyrə kimi insanların hədislərini araşdırmaq lazım deyil. Əbu Hüreyrənin sözü bizə gərək deyil. Bizə İmam Əlinin (ə) və İmam Sadiqin (ə) sözləri kifayət edər. Çünki Quran onları Əhli-beyt (ə) hesab edir və Quran onların pak olduqlarını söyləmişdir.

عن أَبِي عبدِ الله علَيهِ السلام قَالَ : لَا تدع زِيارةَ الْحسين علَيهِ السلام، أَما تحِب أَنْ تكُونَ فِيمن تدعو له الْملاَئِكة

–İmam Sadiq (ə) buyurmuşdur: “Hüseyni (ə) ziyarət etməyi unutma! Məgər mələklərin dua etdiyi insanlardan olmaq istəmirsənmi?!”

## İmam Hüseynin (ə) ziyarətinin faydası

İmam Hüseynin (ə) ziyarətinin həm dünyada və həm axirətdə faydası olmaqla yanaşı, həm də ürfani faydaya malikdir.

### İmam Hüseynin (ə) ziyarətin dünyadakı faydası

Hədislərdə belə nəql olunub ki, süfrə kənarında yemək yeyən zaman tələsmə. Bəzi hədislərdə isə belə deyilir ki, bir tikəni yetmiş dəfə çeynəmək müstəhəbdir. Tələsməməyin səbəbi isə budur ki, insan süfrə kənarında əyləşəndən sonra ta yeməyini bitirənədək ötən vaxt onun ömründən hesab olunmur. Məsələn, əgər bir insana yetmiş il ömür verilibsə, hər nə qədər süfrə kənarında əyləşsə, ötən zaman müddəti həmin yetmiş ildən sayılmır.

1. İmam Hüseynin (ə) ziyarəti də belədir. İmam Rza (ə) buyurmuşdur:

اِن اَيام زائِري الْحسين علَيهِ السلام لا تحسب مِن اَعمارِهِم

–Həqiqətən, İmam Hüseynin (ə) ziyarətinə sərf edilən günlər insanların ömürlərindən hesab olunmur.

Yəni insanın Kərbəlada olan günləri onun ömründən hesab edilmir. Bu bəxşişdir, bu kəramətdir.

2. İmam Hüseyni (ə) ziyarət edən insanın hacətləri qəbul olunur. O həzrətin zəvvarı istədiklərini ala bilir.

3. Allah-taala İmam Hüseynin (ə) zəvvarının ruzisini bol edir. Ziyarət yolunda xərclədiyi bütün pulları Allah-taala başqa bir yerdən ona qaytarır.

4. Allah-taala İmam Hüseyni (ə) ziyarət edən şəxsin əlliillik günahını bağışlayır. Ziyarət yolunda atdığı hər bir addıma görə onun günahlarından pozulur.

5. Əgər insan ziyarətdə olarkən dünyasını dəyişsə, mələklər ona qüsl verilməsində iştirak edərlər.

6. Allah-taala İmam Hüseyni (ə) ziyarət edən şəxs üçün cənnətin qapılarını açar.

**İmam Hüseynin (ə) ziyarətin axirətdəki faydası**

1. Həzrət Peyğəmbərin (s) həccinin savabı İmam Hüseynin (ə) zəvvarına verilər.

İmam Sadiq (ə) buyurmuşdur: “İmam Hüseyn (ə) hələ uşaq ikən İslam Peyğəmbəri (s) onu qucağına alıb öpür və bağrına basırdı. Ayişə xanım bunu gördükdə dedi:

–Ya Rəsulallah! Bu uşaqdan çox xoşun gəlir? Həzrət Peyğəmbər (s) buyurdu:

ويلَكِ! و كَيف لَا أُحِبه و لَا أُعجب بِه ، و هو ثَمرةُ فُؤادِي و قُرةَ عيِني ؟ اَما اِن أُمتِي ستقْتلُه فَمِن زاره بعد وفاتِهِ كَتب اللهُ لَه حجةٍ مِن حِججِي قَالَت : يا رسولَ اللهِ حجةً مِن حِججِك ؟. قَالَ (ص) :نِعم ، و حجتين مِن حِججِي ، قَالَت : يا رسولَ اللهِ (ص) حجتين مِن حِججِك ؟. قَالَ (ص) :نِعم و أربعةَ...

–Vay olsun sənə! Bunu necə istəməyə bilərəm? Bu mənim ürəyimin meyvəsidir və gözümün işığıdır. Mənim ümmətimin bir dəstəsi onu öldürəcəkdir. Hər kəs o, şəhid olandan sonra onu ziyarət etsə, Allah-taala mənim həcc ziyarətlərimdən birinin savabını ona verəcəkdir.

Ayişə xanım soruşdu: "Sənin həcclərindən birinin savabını?" Həzrət Peyğəmbər (s) buyurdu: "İkisinin." Soruşdu: "İkisinin?" Buyurdu: "Üçünün." Soruşdu: "Üçünün?" Buyurdu: "Dördünün."

Beləcə, İslam Peyğəmbəri (s) 90-dək saydı.

Bunun mənası odur ki, İmam Hüseynin (ə) ziyarət olunması İslam Peyğəmbərinin (s) qəlbini şad edir. İmam Hüseynin (ə) ziyarəti insanların axirətini abad edər.

2. İmam Hüseyni (ə) ziyarət etməyin digər faydası da vardır.

Hər kim İmam Hüseyni (ə) ziyarət etmək məqsədilə evindən çıxsa, atdığı ilk addımda Allah-taala onun bütün günahlarını bağışlayar. Yola düşüb gedən zaman Allah-taala onun qəlbinə paklıq və nuraniyyət əta edər. Ziyarətə yaxınlaşan zaman Allah-taala onunla münacat edər.

3. Başqa bir hədisdə belə deyilir: "Qiyamət günü möminlər üçün süfrələr açılar və istədikləri bütün yeməklər orada hazır olar.[1] Lakin orada bir süfrə də vardır ki, həmin süfrədə yemək yoxdur. Orada nuraniyyət vardır. İmam Hüseynin (ə) zəvvarlarını ikinci süfrəyə dəvət edəcəklər. Çünki ora onların yeridir. Peyğəmbərlər, seçilmiş insanlar hamısı orada olacaqlar."

İmam Əli (ə) "Kumeyl" duasında dua edərkən buyurur:

يا رب, يا رب, يا رب قَو عَلَي خِدمَتِك جوارِحِي... و اجتمِع ِفي جوارِك مع الْمؤمِنِين.

[1] لَهم ِفيها فَاكِهةٌ ولَهم ما يدعون – "Orada onlar üçün (hər cür) meyvələr, istədikləri və arzu etdikləri hər şey vardır." "Yasin" surəsi, 57-ci ayə.

–Ey Rəbbim, ey Rəbbim, ey Rəbbim! Əzalarımı Sənə xidmət üçün qüvvətli et ki, Sənin qonşuluğunda möminlərlə birgə olum.

Yəni İlahi, mənə icazə ver, sənin süfrənin kənarında möminlərlə bir yerdə əyləşim. Həzrət Əlinin (ə) "Kumeyl" duasında Allah-taaladan istədiyi həmin süfrədə Kərbəla zəvvarları da əyləşəcəklər.

Müfəzzəl deyir: "İmam Sadiq (ə) mənə buyurdu: "Ey Müfəzzəl, Hüseynin (ə) ziyarətinə gedirsənmi?" Dedim: "Bəli, ağa, biz Hüseyni (ə) ziyarət etməyi çox sevirik."

Həzrət (ə) mənə gözləmədiyim bir söz söylədi.

لا تزورونَ خير مِن أنْ تزوروا

–Ziyarət etməməyiniz ondan daha yaxşıdır.

Dedim: "Ağa, nəyə görə? Biz necə ziyarət edirik ki?"

İmam Sadiq (ə) buyurdu: "Siz gedəndə yaxşı dostlar seçirsiniz, yeyib-içirsiniz, deyib-gülürsünüz. Belə ziyarət etməzlər."

Başqa bir hədisdə İmam Sadiq (ə) ziyarət etməyin qaydalarını sadalayır.

يلْزمك حسن الصحابةَ لِمن يصحبك و يلْزمك قِلةِ الْكلامِ إلا بِخير و يلْزمك كِثْرةُ ذِكْرِ اللهَ و يلْزمك نظاقَةَ الثياب و يلْزمك الْغسل قَبلَ أنْ تأْتِي الْحير و يلْزمك الْخشوع و كِثْرة الصلاة و الصلاةَ علَى محمدٍ و آلِ محمدٍ و يلْزمك التوقير لِأخذِ ما لَيس لَك و يلْزمك أنْ تغض بصرِك و يلْزمك أنْ تعود علَى أهلِ الْحاجة مِن إخواِنك إذا رأيت منقَطِعاً و الْمواساة

–Sizinlə ziyarətə gedən dostlarınızla elə rəftar edin ki, sizdən inciməsinlər. Az danışmaq, Allahı çoxlu zikr etmək və libası təmiz saxlamaq lazımdır. Hərəmə daxil olmazdan qabaq ziyarət qüslü etmək,[1] itaətkarcasına daxil olmaq,

[1] Bəzi hədislərdə qeyd olunur ki, Fərat çayında qüsl almaq müstəhəbdir.

Məhəmməd və Ali-Məhəmməd üçün çoxlu namaz qılmaq, salavat göndərmək, pis niyyətlərdən uzaq olmaq, lazımsız baxışlardan çəkinmək, karvanda köməyə ehtiyacı olanlara kömək etmək və (yol yoldaşlarınla maddi cəhətdən pulun) eyni olması lazımdır. Bir də daxilindəki möminliyini unutma və onu gücləndir.

Əgər bir insan bunları edə bilsə, o zaman o, həqiqi zəvvar sayılar. Allah belə ziyarəti bizlərə nəsib etsin!

İmam Hüseyn (ə) şəhid olandan sonra onu ilk ziyarət edən anası Xanım Fatimeyi Zəhra (s.ə) oldu. Xanım Zəhra (s.ə) Xulinin evində onun ziyarətinə gəldi. Xuli o həzrətin yaralı başını bir qutuya qoyub mükafat almaq üçün onu Kufəyə apardı. Kufəyə gecə çatdığından öz evinə getdi. Yaralı başı isə həyat yoldaşının xəbəri olmasın deyə mətbəxdə, təndirin içərisində gizlətdi. Gecənin bir aləmi Xulinin həyat yoldaşı gördü ki, mətbəxdəki hal-əhval tamamilə dəyişib. Hədislərdə qeyd olunur ki, Xanım Zəhra (s.ə) mübarək başı orada ziyarət etdi. Lakin o həzrətin mübarək bədəni Kərbəlada idi. Onun mübarək bədənini ilk ziyarət edən şəxs bacısı Xanım Zeynəb (s.ə) olmuşdur.

Aşuranın sabahısı, yəni məhərrəm ayının 11-ci günü əsirləri Kufəyə aparan zaman qətlgahdan keçəndə Xanım Zeynəb (s.ə) qardaşını ziyarət etdi. Əvvəlcə onun mübarək bədənini oxların və daşların altında qaldığı üçün tapa bilmirdi. Bəzi hədislərə əsasən, Xanım Zeynəb (s.ə) İmam Hüseynin (ə) bədəninin ətrindən onun mübarək bədənini tapdı. Daşları bir kənara çəkib qardaşı İmam Hüseynin (ə) mübarək cənazəsinə baxıb dedi:

–İlahi, görəsən bu mənim qardaşım Hüseyndir?!

*Keçən gecə anam oğlu, sinə dağlamışam,*
*Yanan çadırda Rübab ağlayıb, mən ağlamışam.*
*Müsafirəm, səfər üstə şivənə gəlləm,*
*Hüseyn, əcalətən gedirəm, ölməsəm yenə gəlləm.*

**ƏMANƏT**

*Hüseyn, məcalisuvə qəlbidə yara gedərəm,*
*Mühəqqər aşiqüvəm məhfili yara gedərəm.*

*Xuda nəkərdə əgər qovsan asitanundən,*
*Üzüm-gözüm qapuva öyrəşib, hara gedərəm?*

*Hüseynin aşiqiyəm, eşq izzətimdir mənim,*
*Şüai tələti şəmi hidayətimdir mənim.*

*Hüseynə ağlamasam neylirəm bu gözləri mən,*
*Bu şur göz yaşı şirindir, şərbətimdir mənim.*

*Bu qarani anam, altı yaşımda tikdi mənə,*
*Çıxartmaram əgər ölsəm də xələtimdi mənim.*

Əziz İslam Peyğəmbəri (s) buyurmuşdur: "Hüseynin (ə) məhəbbəti qiyamət gününə qədər möminlərin qəlbində bir hərarət yaradar və heç bir vaxt sönməz."

Məzhəbindən asılı olmayaraq dünyanın hər yerində hər bir müsəlman, xüsusilə Əhli-beytin (ə) vilayətini qəbul edən insanlar İmam Hüseynin (ə) adı ilə bağlı matəm və əzadarlıq məclisləri təşkil edirlər. Qara ələmlərdən, qara bayraqlardan və qara köynəklərdən əza əlaməti olaraq istifadə edərək Qurani-kərimin ayələrindən, Əhli-beytin (ə) kəlamlarından, xüsusilə İmam Hüseynin (ə) xütbələrindən, hədislərindən bəhrələnirlər. Həmçinin mərsiyə və rövzə oxuyaraq məclislər təşkil edib əzadarlıq edirlər. Bunların hamısını Əhli-beytin (ə) tövsiyəsinə əsasən yerinə yetirirlər.

Əhli-sünnə alimlərindən biri öz kitabında belə yazır: "Əgər onların (Əhli-beytin (ə)) özlərindən bizə göstəriş olmasaydı və İmam Hüseynin (ə) əza məclislərini matəm şəklində qeyd etməyi bizə tapşırmasaydılar, mən aşura günü bütün müsəlmanları təbrik edərdim. Çünki aşura günü İslam tarixində müsəlmanların böyük bir nailiyyət əldə etdikləri gündür."

Həzrət Peyğəmbər (s), onun Əhli-beyti (ə) və həmçinin İmam Hüseynin (ə) nəslindən olan doqquz imam özləri də həm bir məsum olaraq, həm də Əhli-beyt (ə) kimi İmam Hüseynə (ə) əza saxlamış və müsəlmanlara da belə əza məclisləri keçirməyi tövsiyə etmişlər.

Allah-taala "Şura" surəsinin 22-23-cü ayələrində buyurur:

ترى الظالمين مشفقين مما كسبوا وهو واقع بهم والذين آمنوا وعملوا الصالحات في روضات الجنات لهم ما يشاؤون عند ربهم ذلك هو الفضل الكبير.

ذلك الذي يبشر الله عباده الذين آمنوا وعملوا الصالحات قل لا أسألكم عليه أجرا إلا المودة في القربى ومن يقترف حسنة نزد له فيها حسنا إن الله غفور شكور.

(Cəza günü) Zalımların etdikləri əməllərdən çox qorxduğunu görəcəksən. Lakin əməlləri onları yaxalayacaq. İman gətirib yaxşı işlər görənlər isə Cənnət bağlarında olacaqlar. Rəblərinin yanında onlar üçün istədikləri hər şey hazırlanmışdır. Böyük lütfkarlıq da elə budur..

İman gətirib yaxşı işlər görən qullarına Allahın verdiyi müjdə budur. De: "Mən sizdən peyğəmbərliyimin əvəzində qohumlarıma (Əhli-beytimə) sevgidən başqa bir mükafat istəmirəm". Kim yaxşı bir iş görsə, onun yaxşılığını artırarıq. Çünki Allah bağışlayandır, qədirbiləndir.

**Bu iki ayədə bizə bunlar deyilir:**

1. İman gətirib və imana əsasən əməl edənlər mütləq mükafat alacaqlar. Allahın varlığını, Həzrət Peyğəmbərin (s) haqq olmasını, ölümü və ölümdən sonrakı həyatı qəbul edib, amma əməli olmayan insanlara heç bir mükafat verilməyəcək. Əməlsiz əməlsiz əqidənin heç bir faydası yoxdur.

2. Allah-taala belə insanlara cənnətin bağlarını müjdə verir.

3. İnsanların əməlləri yalnız Əhli-beytin (ə) xəttilə getdikdə və onlara məhəbbət bəslənildikdə məqbuldur.

Namaz qılmaq əməl və Allahı qəbul etmək isə əqidə hesab olunur. Azan verilən zaman insanın Quranın hökmünə əsasən namaz qılması İslam qanunlarına riayət etmək deməkdir. Əgər hər hansı bir insan mübarək ramazan ayında Quranın buyurduğuna əməl edərək oruc tutursa, bu əmələ "əməli saleh" deyilir. Quranda insanın ömründə bir dəfə həccə getməsi vacib buyurulduğuna görə, əgər bir nəfərin həccə getmək üçün lazım olan şəraiti varsa və o da Quran ayələrinə əməl etmək məqsədilə həccə gedirsə, bu əmələ "əməli saleh" deyilər.

Əgər bu əqidəni və insanın əməllərini Həzrət Peyğəmbər (s) və Əhli-beyti (ə) təsdiq etsələr, o zaman insanın əməli məqbul sayılır. Başqa ifadə ilə desək, əgər insanın əməli onların məhəbbəti ilə birlikdə olsa, o zaman onun əməli qəbul olunmuş sayılır. Onlara məhəbbət olmasa, əməllərin heç bir faydası yoxdur.

Hər bir insanın əqidəsi var və öz əqidəsinə əsasən əməl edir. İmam Hüseynin (ə) adından belə bir məşhur söz vardır:

اِنما الْحيوة عِقيدةٌ و جِهاد

–Həqiqətən, həyat əqidə və (əqidə yolunda) çalışmaqdan ibarətdir.

Əgər bu söz İmamın (ə) dinindən deyilməsə də belə bir həqiqətdir. Hər bir insanın öz əqidəsi var və ona görə də öz əqidəsinə uyğun olaraq həyatda çalışıb fəaliyyət göstərir. Bu, hünər sayılmır. Hünər odur ki, insan Quranın buyurduğu əqidəni qəbul etsin və Əhli-beytin (ə) xəttilə yaşayıb fəaliyyət göstərsin. Vəd olunan "Cənnət bağları" da məhz bu cür insanlara veriləcəkdir.

4. Belə olmadığı təqdirdə o insanlar zalım hesab olunurlar ki, qeyd olunan ayədə onların barəsində belə buyurulur:

ترى الظالمين مشفقين مما كسبوا وهو واقع بهم

(Cəza günü) Zalımların (dunyada) etdikləri əməllərdən çox qorxduğunu görəcəksən. Lakin əməlləri onları yaxalayacaq.

"Hud" surəsində onların barəsində belə deyilir:

ألا لعنة اللّه على الظالمين

–Allahın lənəti olsun zalımlara!

Quran bu cür insanlara belə cavab verir:

يوم لا ينفع الظالمين معذرتهم ولهم اللعنة ولهم سوء الدار

–(Həmin) o gün(də) ki, zalımlara üzrxahlıqları fayda verməyəcəkdir. Onlar üçündür (Allahın) lənət(i) və onlar üçündür xoşagəlməz ev![1]

Onlar hər nə qədər ki, dünyada idilər, üzrxahlığın yeri var idi, amma öləndən sonra artıq bu mümkün olmayacaqdır. Allah-taala başqa bir ayədə zalımı belə təsvir edir:

والذين ينقضون عهد اللّه من بعد ميثاقه ويقطعون ما أمر اللّه به أن يوصل ويفسدون في الأرض أولئك لهم اللعنة ولهم سوء الدار

–Allahın (tövhid və dinin qəbul edilməsi barəsindəki) əhd-peymanını (möcüzələr və dəlillərlə) möhkəmləndirdikdən sonra pozan, Allahın birləşilməsinə əmr etdiyi şeyi qıran və yer üzündə fəsad törədən kəslər üçün lənət və bu dünyanın pis sonu vardır.[2]

[1] Ğafir surəsi, 52-ci ayə.
[2] Rəd surəsi, 25-ci ayə.

**Nəticə**

Yuxarıda qeyd olunan mətləbin nəticəsi belədir ki, bütün İslam məzhəblərinin qəbul etdiyi “Səqəleyn” hədisində İslam Peyğəmbəri (s) buyurur:

إني قد تركت فيكم الثقلين ما إن تمسكتم بهما لن تضلوا بعدي كتاب الله حبل ممدود من السماء إلى الأرض، وعترتي أهل بيتي، ألا وإنهما لن يفترقا حتى يردا علي الحوض.

–İki şeyi aranızda əmanət qoyaraq sizi tərk edirəm. Əgər onlardan möhkəm yapışsanız, məndən sonra heç vaxt yolunuzu azmayacaqsınız. (Birincisi) Allahın kitabı, (o) göydən yerə uzadılmış bir ipdir və (ikincisi) mənim Əhli-beytimdir. Bilin, onlar cənnətdə Kövsər hovuzunda mənə qovuşana qədər heç vaxt bir-birilərindən ayrılmayacaqlar.

Bu hədisdə belə deyilir:

1. Sizə iki şeyi əmanət tapşırıb gedirəm və bu ikisi bir-birinin ayrılmaz tərkib hissəsidir;

2. Siz onlardan yapışdığınız zaman heç bir vaxt yolunuzu azmayacaqsınız;

3. Onlardan ayrı düşsəniz, yolunuzu azacaqsınız. Çünki onlardan biri digərinin şərh (izah) edənidir. Hər zaman onları bir-birindən ayrı hesab etsəniz, bilin ki, yolunuzu azmısınız;

4. Bu iki şeydən biri Kitabdır (Qurandır), digəri isə Əhli-beytimdir (ə).

**Əmanət nədir?**

Bu hədisi dəfələrlə oxumuşuq və eşitmişik. Həzrət Peyğəmbərin (s) Qurani-kərimi və Əhli-beyti (ə) bizlərə əmanət olaraq tapşırması nə deməkdir? Qurani-kərimi bizə əmanət tapşırıb ifadəsinin mənası o demək deyildir ki, Quranı qiymətli vərəqlərdə çap edək və ona gözəl cild çəkərək sandığa qoyaq. Həmçinin Əhli-beyti (ə) bizə əmanət tapşırıb

ifadəsinin mənası o demək deyildir ki, bir dəstə insan toplaşıb onları öldürsün və sonra da başqa bir qrup insanlar ildə on gün onlara ağlayıb yaslarını tutsunlar. Bunların heç biri Həzrət Peyğəmbərin (s) tapşırdığı əmanətin mənası deyildir.

Bu hədisdə əmanətin mənası odur ki, qiyamət günü onlar haqda insanlardan sorğu-sual aparılacaq.

Əbu Həfz Muiniddin Ömər ibn Məhəmməd ibn Xizr adlı bir ravi deyir: “İslam Peyğəmbəri (s) buyurmuşdur:

إِن الله جعلَ أجرِي عليكُم الْمودةَ فِي أهل بيتي وإني سائِلُكُم غَداً عنهم

–Həqiqətən, Allah-taala mənim 23 illik zəhmətimin muzdunu Əhli-beytimə məhəbbət qərar vermişdir. Sabah (qiyamət günü) onu(nla necə rəftar etdiyinizi) sizdən soruşacağam.

.

**Quran və Əhli-beyt (ə) əmanətdir**

Quranın əmanət olması o deməkdir ki:

1. Quranı üzündən oxumağı öyrənmək;

2. Onun mənasını başa düşmək. Yəni Quranın insanlardan nəyi tələb etdiyini bilmək;

3. Quranın əmrlərinə lazımınca əməl etmək və qadağalarından çəkinmək.

Buna kim riayət etsə, o zaman Quran onunla birlikdə olar və belə bir insan Qurandan ayrılmış şəxs sayılmaz. Quranı tağçada, yaxud qızıl sandıqda saxlamaq Quranla birgə olmaq demək deyildir. Yuxarıda qeyd olunan üç şərtə əməl olunduğu halda Quran səninlədir. Yəni toyda və ya yasda da olsan, yenə də Quran səninlədir. Səfərdə, tətil və iş günlərində də Quran səninlədir. Yəni Quran hər bir zaman səninlə olacaqdır. Yemək yeyəndə, baxanda, eşidəndə, geyinəndə, miniklərində və həyatının hər bir anında Quran sənin yanında olacaq. Bunlar əmanətin mənasıdır.

İslam Peyğəmbəri (s) buyurmuşdur:

من تعلم الْقُرآنَ و علمه و عمِلَ بِما فِيهِ فَأَنا سائِق إِلَي الْجنة و دلِيلٌ إِلَي الْجنة

–Həqiqətən, mən Quranı öyrənən, başqalarına öyrədən və onda olanlara əməl edən şəxsi cənnətə tərəf çəkib aparacağam və cənnətə (getməsi üçün) ona bələdçilik edəcəyəm.

Həzrət Peyğəmbər (s) buyurmuşdur:

رب تال الْقُرآن و الْقُرآنُ يلْعنه

–Bir çox Quran oxuyanlar vardır ki, (onlar Quran oxuduqca) Quran onlara lənət oxuyur.

Məsələn, biri Qurandan “Oruc, sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də vacib edildi” – ayəsini oxuyur, amma özü oruc tutmur. Onlar orucluqdan danışırlar, amma özləri oruc tutmurlar. Qurani-kərimdə namaz haqda 67 ayə vardır. Bəziləri həmin ayələri bir-bir oxuyurlar, amma özləri namaz qılmırlar. Quranı əməl etmək üçün yox, yalnız oxumaq üçün öyrənənləri Quran lənətləyir.

Elminə əməl etməyən alimlər də belədir. İslam Peyğəmbəri (s) buyurmuşdur:

إِن فِي جهنم رحاءً مِن حدِيد تطْحن بِها رؤوس الْقُراءَ و الْعلَماءَ الْمجرِمِين.

–Həqiqətən, cəhənnəmdə dəmirdən bir dəyirman vardır. (Oxuduqları ayələrə əməl etməyən) qarilərin və günahkar alimlərin başlarını orada üyüdəcəklər.

Birisi İslam haqda kitablardan oxuduqlarını danışır, amma heç bir əməli yoxdur. Hədislərdə deyilir ki, bəziləri Sirat körpüsünün üstünə çıxıb cəhənnəmdə yanan (tanıdığı və elmindən bəhrələndiyi) alimləri görəcəklər. Onların alimin yanmasına tamaşa etmələri alim üçün cəhənnəm odundan daha ağrılı olacaqdır.

Azan deyən bir şəxsin səsini lentə yazaraq hər gün səhər-axşam minarələrdən onun səsini yayırlar, amma maraqlansan, görərsən ki, namaz vaxtı həmin şəxsin özü hələ də yatıb. Sizcə, belə insanların axırı necə olacaqdır?!

Lakin o insanlar ki, Quranı oxuyur və oxuduqca həccin ayəsinə "Ləbbeyk! Allahummə ləbbeyk!" – dediyi kimi, namazın, orucun, hicabın və bütün vacib əməllərlə bağlı ayələri oxuyanda da "Ləbbeyk" (Baş üstə) deyir.

İslam Peyğəmbəri (s) Hira mağarasından qayıdandan sonra Allah-taala bəzi mələklərə Allahın Rəsulunun (s) ayaqlarını yumaq əmrini vermişdir və həmin mələklər də bunu etdiklərinə görə fəxr edirdilər. Onlar elə-belə şeylərə görə fəxr etmirdilər. Əgər mömin həqiqi mənada iman gətirsə, şərafəti mələklərdən üstün olar.

Əhli-beytin (ə) əmanət olması o deməkdir ki:

1. İlk növbədə onları həqiqi mənada tanımaq lazımdır.

İmam Hüseynin (ə) ziyarət edilməsinin fəziləti barəsində qalın cildli bir kitab yazılmışdır. İnsan həmin kitabı oxuyarkən təəccüblənməyə bilmir. Görəsən, orada yazılanların hamısı düzdürmü? Bəli, onların hamısı düzdür, amma onların hamısının bir şərti vardır. Ziyarətnamələri oxuyanda orada "عارفاً بحقه" (haqqını tanıdığı halda) – ifadəsi qeyd olunmuşdur. Həmin fəzilətləri əldə etməyin şərti məhz "عارفاً بحقه" ifadəsidir.

İmam Cəfər Sadiq (ə) buyurmuşdur: "Mənim Rza (ə) adlı bir nəvəm olacaq. O, Tus şəhərində dəfn ediləcəkdir. Mən onu ziyarət edən hər bir kəsi cənnətə aparmağa zaminəm."

Sonra Həzrət (ə) belə buyurmuşdur: "Haqqını tanıdığı halda"

Yəni onu tanıyaraq ziyarət etsə. Ziyarət edən onun Allahın höccəti olduğunu bilsin və bilsin ki, vilayət onun haqqıdır. Bilsin ki, vilayət onun əlindən alınıb və Haruna verilib.

2. Onları nümunə (örnək) qərar vermək lazımdır.

Allah-taala Quranda buyurur:

لَقَد كَانَ لَكُم فِي رسول اللهِ أُسوةٌ حسنةٌ

–Şübhəsiz, Allahın Rəsulunun (s) rəftarında həyat örnəyi və nümunəsi vardır.

İslam Peyğəmbəri (s) buyurmuşdur ki, məndən sonra mənim Əhli-beytim (ə) sizlər üçün həyat örnəyidirlər.

İmam Hüseyn (ə) aşura günü öz səhabələri üçün xütbə oxuyarkən buyurdu:

و لَكُم فِي أُسوةٌ

–Mən sizin üçün bir örnəyəm.

Yəni insan onların əməllərinin höccət olmasını, onların sözünün höccət olmasını və onların rəftarlarının höccət olmasını bilməlidir. Hər kəs bilməlidir ki, onlar Allahın yer üzündəki höccətləridir.

3. Qəlbdə onlara qarşı məhəbbət olmalıdır.

Yəni dildə deyil, əməldə onlara olan məhəbbəti izhar etmək lazımdır. Necə deyərlər, "طابق النعلُ بِالنعل" – "Onlar ayaqlarını hara qoyubsa, sən də ayağını ora qoy." Şiə o deməkdir ki, Həzrət Əli (ə) bir imam olaraq qabaqda gedir və tərəfdarları da onun arxasınca ayaqlarını onun ayağının izinə qoyaraq gedirlər. Əgər bu gün kənar bir insan gəlib bizlərə baxsa və Həzrət Əlini (ə) bizim kimi təsəvvür etsə, Allah-taala bu günahı bizə bağışlarmı?!

Əmanət o deyil ki, insan dildə "Mən Əlinin (ə) şiəsiyəm" – desin. Əmanət odur ki, insan addımlarını onun ayaq izlərinə qoyaraq yol yerisin.

İmam Məhəmməd Baqir (ə) buyurmuşdur:

فَواللهِ ما شِيعتنا إِلا من أطاع الله عز و جل

–And olsun Allaha! Bizim şiələrimiz yalnız Allah-taalaya itaət edən kimsələrdir.

“Üsuli-kafi” kitabında belə nəql olunmuşdur: “Cabir deyir: İmam Baqir (ə) mənə buyurdu:

يا جابِر! أيكْتفِي من انتحلَ التشيع أنْ يقُولَ ِبحبنا أهلَ الْبيت؟ فَواللهِ ما شِيعتنا ِإلا منِ اتقي اللهَ و أطاعه. و ما كَانوا يعرِفُونَ يا جابِر ِإلا ِباتواضع و التخشع و الْأمانة و كِثْرةُ ذِكْر الله و الصلاة و الْبِر ِبالْوالِدينِ و التعاهد ِللْجيرانِ مِن الْفُقَراءِ و أهلِ الْمِسكِنة و الغارِمين و صدق الْحدِيث و ِتلاوةِ الْقُرآن و كَف الْألْسن عنِ الناس ِإلا ِمن خيرٍ و كَانوا أُمناءَ عشاِئرهم ِفي الْاَشساءِ

–Ey Cabir! Məgər bir şəxsin “Mən Əhli-beyti sevirəm” deyərək iddia etməsi kifayət edərmi? And olsun Allaha! Bizim şiələrimiz yalnız təqvası olanlar və Allaha itaət edənlərdir. Ey Cabir! Bizim şiələrimiz yalnız təvazökar, (qəlbləri Allah qorxusundan) itaətkar olan, əmanətdar, Allahı çoxlu zikr edən, namaz qılan, valideyninə yaxşılıq edən[1], fəqir, miskin və borclu olan qonşusunun haqqına riayət edən, doğru danışan,[2] Quran oxuyan, dili ilə heç bir kəsi incitməyən və yalnız xeyirxahlıq (eşididilən) və öz qəbiləsində əmin və etibarlı insan kimi tanınarlar.

Cabir deyir: “Mən bunları eşidəndə dedim: Ey Rəsulullahın oğlu! Mən bu sifətlərə sahib olan bir kimsə tanımıram.” Həzrət (ə) buyurdu:

يا جابِر! لا تذْهبن ِبك الْمذاهِب حسب الرجل أنْ يقُول: أُحِب عِلياً و أتولاه ثُم لا يكُونَ مع ذِلك فَعالاً؟ ثُم لا يتِبع سِيرته و لا يعملُ ِبسنِتهِ ما نفْعةَ حبه ِاياه شيئاً. فَاتقُوا اللهَ و اعلَموا لَما عِند الله لَيس بين الله و بين

[1] Üç şey vardır ki, onlara qarşı münasibətdə qarşı tərəfin müsəlman və qeyri-müsəlman olmasının fərqi yoxdur: Biri əmanətdir. Kafir sənə əmanət versə gərək qaytarasan. İkincisi, vədə verməkdir. Əgər kafirə söz versən, gərək əməl edəsən. Üçüncüsü, ata-anadır. Kafir də olsalar, onlara ehtiram etmək vacibdir.

[2] Mömin heç bir vaxt yalan danışmaz və yalan danışan insanda iman olmaz.

أحد قَرابةٌ. أحب الْعِباد إلي اللهِ عز و جل أتقَاهم و أعملُهم بِطاعِته. و ما معنا براءَةٌ مِن النار. من كَانَ لِلّهِ مطِيعاً فَهو لَنا ولي و من كَانَ لِلّهِ عاصِياً فَهو لَنا عدو. ما تنالُ ولَايتنا إلّا بِالْعمل و الْورعِ.

–Ey Cabir! Heç vaxt başqa sözlərə aldanma (insanların məzhəbi qəbul etməsi səni aldatmasın). Heç ola bilərmi bir şəxs “Mən Əlini sevirəm” desin, amma sonra heç bir fəaliyyəti olmasın?! Sonra (Peyğəmbəri (s) sevirəm deyib), amma onun sirəsinə itaət etməsə və onun sünnəsinə əməl etməsə, bu məhəbbət ona heç bir fayda verməz. Allahdan qorxun! Bilin ki, Allahın heç bir kəslə qohumluğu yoxdur. Allah-taala yanında ən sevilən bəndə ən taqvalılar və Ona itaət edənlərdir. Ey Cabir! And olsun Allaha, Allaha yalnız itaətlə yaxın olmaq mümkündür. Bizimlə olmaq (insanı) cəhənnəm odundan qurtarmaz. Hər kim Allaha itaət etsə, o, bizim dostumuzdur və hər kim Allaha asi olsa, o, bizim düşmənimizdir. Bizim məhəbbətimiz yalnız əməl və möminlik olan zaman insana fayda verər.

Əgər insanda təqva olsa, Əhli-beyt (ə) həyatın hər bir anında onunla birlikdə olar. Əhli-beyti (ə) yalnız 10 gün məhərrəm ayında yada salmaq kifayət etməz, hər zaman onlarla birlikdə olmaq lazımdır. Çünki onların adı bizim üzərimizdədir.

**Əzadarlığın və ağlamağın faydası**

İmam Hüseynə (ə) əzadar olmaq və ağlamaq yuxarıda sadalanan şərtlərlə insana fayda verər. Belə olduqda İmam Hüseynə (ə) əzadarlıq edıb ağlamağın insana bir çox fardası vardır ki, bir neçəsininə diqqət yetirək:

**1. Allah-taala ona cənnətdə ev inşa edər**

Əhli-beyt (ə) haqqında hər kim şeir söyləsə, Allah-taala onun üçün cənnətdə ev yaradan.

İmam Sadiq (ə) buyurmuşdur:

من قَالَ فِينا بيت شعرٍ بني اللهُ له بيتا فِي الْجنةِ.

–Hər kim bizim haqqımızda bir beyt şeir desə, Allah-taala onun üçün cənnətdə ev inşa edər.

Füzuli çox gözəl demişdir:

*Əhli-beytin sənovü mərsiyəsi, əhsənü əfzəlul fəzaildur,*
*Kim ki bir beyt ol xüsusda deyər, o, həman Əhli-beytə daxildur.*

Lakin imanlı olmaq, imana əməl etmək və təqvalı olmaq onun şərtidir.

**2. Böyük günahlar bağışlanar**

Hər kim İmam Hüseynə (ə) ağlasa, Allah-taala onun böyük günahlarını bağışlayar.

İmam Rza (ə) buyurmuşdur:

فَعلى مِثْل الْحسين فَلْيبكِ الْباكُون. فَإِن الْبكاءَ عليه نحط الذُّنوب الْعِظام.

–Ağlayan insan (gərək) Hüseynə ağlasın. Həqiqətən, ona ağlamaq böyük günahları məhv edər (silər).

Lakin bunun da şərti imanlı olmaq, əməl etmək və təqvalı olmaqdır.

**3. Cənnətdə Kövsər suyundan bəhrələnər**

Hər kim Əhli-beytin (ə) çəkdiyi müsibətlərə ağlasa, cənnətdəki Kövsər suyundan içəcəkdir.

İmam Sadiq (ə) buyurmuşdur:

ما مِن عينٍ بكت لَنا إِلا نعمت بِالنظَرِ إِلَي الْكَوثَرِ و سقِيت مِنه

–Bizə (müsibətlərimizə) ağlayan hər bir göz (ün sahibinə) Kövsərə baxmaq və ondan içmək icazəsi veriləcəkdir.

Çünki İmam Hüseynin (ə) özü Kövsərdir.

*Özüm ətşani vəsli davərəm mən,*
*Nəinki təşnəyəm, su istərəm mən,*

*Mənim təşnəmdi aləm, Kövsərəm mən,*
*Mudiri səlsəbili ətharəm mən,*
*Mənə şirin şəhadət şərtdi nabi.*

*Özüm dərvazeyi baği Cinanəm,*
*Nə dərvazə, behişte cavidanəm,*
*Bu vəsfilən ki, ğərqi imtəhanəm,*
*Ğəriqi iftixarəm, imtinanəm,*
*Çox olduqca yaranın iltihabi.*

**4. Cəhənnəm odu ona haram olar**

İmam Sadiq (ə) buyurmuşdur:

من ذُكِرنا عِنده فَفاضت عيناه حرم اللهُ وجهه علَي النار

–Hər kimin yanında bizim adımız çəkilsə və onun gözündən bir damla yaş axsa, Allah-taala cəhənnəmi onun üzünə (çöhrəsinə) haram edər.

Çünki İmam Hüseynə (ə) xatır gözyaşı üzə tökülsə, cəhənnəm odunun həmin üzə dəyməyə haqqı yoxdur. Gör Allah-taala Əhli-beytə (ə) nə qədər şərafət vermişdir. Lakin onun da şərti vardır. Yəni imanlı olmaq, əməl etmək və təqvalı olmaq lazımdır. Gərək Hüseynə (ə) qoşulasan və onunla birgə yaşayasan.

*Denən "Hüseyn" özüvi at yanar oda şahi,*
*O ad yanar odu bağ etməsə, yəhudəm mən.*
*Mənim gözüm qala xakə*[1] *Hüseyn qoya qədəmin,*
*Bu gözü xak edərəm aqibət həsudəm mən.*

---

[1] Torpaq.

# İMAM HÜSEYNİN (Ə) BAXIŞINDA İBADƏTİN MƏNASI

*Hüseynçiyəm, bu qara köynəyim cəvazimdir,*
*Hüseyn məhəbbəti eşqimdi, imtiyazimdir.*

*Hüseynin adın əgər qəbrim üstünə yazalar,*
*Gülabü şəm nədir? gül mənə nə lazimdir.*

*Gələr qəbridə o mövla mənim başım üstə,*
*Müridiyəm, o muradimdi piştazimdir.*

*O altı güşəli qəbri hənuz görməmişəm,*
*(Yenə o altı guşəli qəbri görmək istəyirəm)*
*Hüseyn ziyarəti aləmdə ümdə razimdir.*

*Hüseynin aşiqiyəm and ola Hüseyn canına,*
*Məhərrəmu səfər əyyami eşqibazimdir.*

*Əlimdən almasın Allah bu ağlayan gözümü,*
*Bu göz yaşim dərəcatimdi, etizazimdir.*

*Gəzəndə Fatimə şüşə əlində məclisdə,*
*Deyər: Hüseynə axan göz yaşı niyazimdir.*

Həzrət İmam Hüseyn (ə) haqqında danışmaq istərkən onun müxtəlif cəhətlərinə diqqət yetirmək lazımdır. Yəni İmam Hüseyn (ə) barəsində söz açmaq istərkən tarix, fəlsəfə elmləri nöqteyi-nəzərindən, habelə dünyanın görkəmli şəxslərinin fikirləri baxımından Həzrətin (ə) qiyamının səbəbləri məsələsini şərh etmək gərəkdir. Bu mövzulardan biri də insanın dünyagörüşü, düşüncəsi və fikri ilə bağlıdır.

Qeyd etmək gərəkdir ki, İmam Hüseynin (ə) müxtəlif mövzular haqqında müqəddəs kəlamları vardır. Həzrət İmam Hüseyn (ə) 57 il ömür sürmüş və bu illər ərzində müxtəlif xütbələr oxumuşdur. Hətta İslam Peyğəmbərinin (s) dönəmində, yəni hələ 7 yaşında olarkən onun bəzi söhbətləri hədis kimi

qeyd olunmuşdur. Sonra 25 il müddətində atası İmam Əlinin (ə) yaşadığı dövrdə onun xidmətində olmuş, müharibələrdə iştirak etmiş və müxtəlif məsələlər barədə söhbətləri və ya xütbələri hədis kimi qeyd edilmişdir. Daha sonra 10 il qardaşı İmam Həsənin (ə) imamətliyi dövründə onun köməkçisi kimi xidmətində olmuş və o dönəmdə Həzrətin (ə) müxtəlif münasibətlərlə söhbətləri hədis kimi tarix və hədis kitablarında yazılmışdır. Nəhayət, qardaşı İmam Həsəndən (ə) sonra, yəni özünün 10 illik imamətliyi dövründə müxtəlif yerlərdə xütbələr oxumuşdur. Həmin xütbələr toplanılmış və bir neçə cilddən ibarət kitab tərtib olunmuşdur ki, o kitab bu gün bizim əlimizdədir.

Xüsusilə hicrətin 60-cı ilinin rəcəb ayının ortalarında Müaviyə (Allah ona lənət etsin!) dünyasını dəyişəndən sonra və oğlu Yezidin cinayətlərinin başlandığı dövrdən Kərbəla hadisəsinə qədər İmam Hüseynin (ə) hər gün etdiyi söhbətlər müxtəlif kitablarda qeyd olunmuşdur. Mərhum Ayətullah Nəcmi İmam Hüseynin (ə) Mədinədən Kərbəlaya qədər etdiyi bütün söhbətləri ardıcıl və gözəl şəkildə bir kitabda toplayıb nəşr etdirmişdir.

Həzrətin (ə) bəhs etdiyi mövzulardan biri də ibadət mövzusudur. İmamın (ə) bu barədə həm kəlamları var, həm hədisləri və həm də onun özünün əməlləri vardır.

**Müqəddimə**

**Sual:** İnsanı maraqlandıran mühüm suallardan biri budur: “İnsanı xəlq olunmasında məqsəd nədir? Nəyə görə Allah insanı xəlq etmişdir?”

**Cavab:** Bu sualın cavabını Allah Özü bəyan etmişdir. Zariyat surəsinin 56-58-ci ayələrində belə buyurur:

وما خلَقْت الْجِن والْإِنس إِلا لِيعبدون. ما أُرِيد مِنهم من رزقٍ وما أُرِيد أَن يطْعِمون. إِن الله هو الرزاق ذُو الْقُوةِ الْمتِين.

–Cin və insanları yalnız Mənə ibadət etmələri üçün yaratmışam. Mən onlardan nə Mənim üçün ruzi qazanmalarını istəyirəm, nə də Mənə yemək vermələrini istəyirəm. Şübhəsiz, Allah Özü (bütün ruzi yeyənlərə) ruzi verən, güc sahibi və qüvvətlidir.

Bu ayələrdə deyilir:

1. İnsanın yaradılışında hədəf vardır.

2. Nəzərdə tutulan hədəf Allahın zatına aid deyil. Çünki Allahın zatının heç nəyə ehtiyacı yoxdur. Allahın insanların etdiyi ibadətə də heç bir ehtiyacı yoxdur.

3. Nəticə olaraq bu hədəfi Allahın zatında deyil, Ondan kənar bir şeydə axtarmaq lazımdır. Yəni hədəfi məxluqatda axtarmaq gərəkdir. İbadətin insana xeyri vardır. İnsanı kamala çatdıran ibadətdir. İbadət insana tərbiyə verir və insan ibadətlə inkişaf edir. İnsan ibadət vasitəsilə mütləq kamala yaxınlaşır və yaxınlaşmaqla da izzət əldə edir.

Deməli, insanın özünün ibadət etməyə ehtiyacı vardır. Hər nə qədər insan mütləq kamala yaxınlaşsa, bir o qədər izzətli və qüdrətli olacaqdır. Həmçinin insan hər nə qədər ondan uzaqlaşsa, bir o qədər izzəti və qüdrəti əlindən gedəcəkdir.

**İbadətin həqiqəti**

Görəsən, həqiqi ibadət nə deməkdir? İbadət deyərkən o saat insanların zehninə möhür, canamaz, təsbeh, rüku, səcdə, təşəhhüd və salamlar düşür. İbadət təkcə bunlardan ibarətdirmi, yoxsa bunlardan başqa bir həqiqətdir?!

“İbadət” sözü “عبد” (əbd) kəlməsindən götürülmüş (qul mənasını ifadə edir) və bir insanın özünün, eləcə də hər nəyi varsa mövlasının (ağasının) ixtiyarında olması deməkdir. Yəni onun iradəsi sahibinin iradəsinə tabedir. Məsələn, bir nəfərdən “su içirsənmi?” – deyə soruşduqda, o da ağasının üzünə baxır ki, içib-içməyəcəyini icazə verir ya yox.

“Əbd” kəlməsinin mənasını bildikdən sonra übudiyyətin mənası məlum olur. “Əbd” qul, “übudiyyət” isə qulluq deməkdir. Übudiyyət mövla və məbudun müqabilində son dərəcə itaətkar olmaq deməkdir. Söylədiklərimizdən belə bir nəticəyə gəlirik:

1. Übudiyyət təkamülün axırıncı, son dərəcəsidir. Yəni übudiyyət insanın Allaha yaxın olmasının son dərəcəsidir. Hər kimin məqamı Allaha yaxındırsa, onun übudiyyəti daha çoxdur.

2. Übudiyyət Allah-taalanın müqəddəs və pak zatının müqabilində təslim olmağın son dərəcəsidir.

3. Übudiyyət Allahın əmrlərini və qadağalarını qeyd-şərtsiz qəbul etmək deməkdir.

Deməli kamil übudiyyət odur ki, insan öz məbudundan başqa heç nə barədə düşünmür və yalnız Onun yolunda qədəm götürüb addım atır və Ona xatır hər bir şeyi unudur, hətta özünü də.

İmam Hüseyn (ə) buyurmuşdur:

ِان اللَه عز و جل ما خلَق الْعِباد ِإلا ِليعِرفُوه فَإِذا عرفُوه عبدوه فَإِذا عبدوه استغنوا ِبِعبادِتِهِ عن عِبادة من سِواه

–Allah-taala insanları yalnız Onu tanımaq üçün xəlq etmişdir. Əgər Onu tanısalar, mütləq ibadət edəcəklər.[1] Əgər Ona ibadət etsələr, artıq Ondan başqasına ibadət etməyə ehtiyac duymayacaqlar.

İnsanlar Allahı tanımayanda digərlərinin qarşısında əyilirlər. Amma Allahı tanıyandan sonra Ondan başqa heç bir

---

[1] Bu mövzuda İmam Sadiqdən (ə) də hədis nəql olunub ki, o həzrət “Allaha ibadət etməyən insanlar Allah-təalanı tanımadıqları üçün ibadət etmirlər.” Həmçinin hədislərdə nəql olunub ki, bəzi peyğəmbərlər öz səhabələrinə deyərdilər ki, gedin insanları Allah-təalaya ibadət etməyə məcbur edin. “Bunu necə edək”, – deyə soruşduqda isə deyirdilər ki, Allah-təalanı onlara tanıtdırmaqla. Allahı tanıyan insanın ibadət etməməsi mümkün deyil.

kəsin qarşısında əyilməzlər. Züleyxa xanım ikinci dəfə (Yusif (ə) hakimiyyətdə olanda) Həzrət Yusiflə (ə) görüşəndə Allah-taalanı tanıdığı üçün artıq Yusifə (ə) bir o qədər meyil göstərmirdi. Həzrət Yusif (ə) hər dəfə onun otağına daxil olanda onun ibadətlə məşğul olduğunu görürdü və o, Həzrət Yusifə (ə) baxmırdı. Bunun səbəbini ondan soruşanda Züleyxa xanım dedi: “Mən o vaxt sənə baxanda səni Yaradanı tanımırdım, indi isə Onu tanıyandan sonradaha sənə yox, Ona aşiq olmuşam. Bir vaxt sənə izzət gözü ilə baxırdım, indi isə həmin izzətin mənbəyini tapmışam.

Hədislərdə nəql olunur ki, insan ana bətnində, yaxud körpə vaxtlarında dünyasını dəyişdikə, cənnətə gedir. Bir gün həzrət Əlidən (ə) “Sən uşaq ikən dünyadan köçüb cənnətə getmək istərdinmi?” – deyə soruşduqda Həzrət (ə) buyurdu:

ما يسرني لَو مِت طِفْلاً و أُدخِلْت الْجنةَ و لَم أُكْبر فَأعِرف
ربي عز و جل

–Mən uşaq ikən ölüb cənnətə daxil olmaq istəməzdim. Mən (dünyada) böyüyüb Allahı tanıyandan sonra ölmək istərdim.

İnsan dünyaya Allah-taalanı tanımaq üçün gəlmişdir.

**İbadətin növləri**

İbadət ilə übudiyyətin həqiqəti aydın olandan sonra bizə məlum olur ki, rüku, səcdə[1] ibadət etmək üçün bir vasitədir. (Rüku, səcdə və s. əməllər) übudiyyətin çoxalması üçündür. Həmçinin übudiyyət çoxaldıqca insanın namaz qılması fərqlənəcək. Çünki Allahı tanıyaraq namaz qılan ilə namaz təmizlikdir, ata-babam qılıb deyərək namaz qılanın fərq vardır. Bunlar hesabagəlməz qədər bir-birindən fərqlənirlər. Hər nə qədər insanın Allaha mərifəti çoxalsa, namazı bir o qədər

[1] Hədislərdə nəql olunub ki, insanın Allaha ən yaxın vaxtı səcdə halında olan zamandır.

gözəl şəkildə yerinə yetirəcək və hər nə qədər namazı gözəl şəkildə yerinə yetirsə, übudiyyət bir o qədər çoxalacaq. Bunlar bir-birinə bağlıdır.

Eynilə elmlə iman kimi. Elmin çoxalması imanın çoxalmasına təsir edir və həmçinin imanın çoxalması elmin artmasına müsbət təsir göstərir.

Mərifətlə ibadət edən insan həmişə çalışır ki, dəstəmazı düzgün olsun. O, həmçinin libaslarına diqqət yetirir, namaz qıldığı yerə xüsusi fikir verir, namaz vaxtında son dərəcə diqqətlidir və namazda tələsmir.[1] Bəzi böyük şəxsiyyətlərin namazlarına diqqət yetirdikdə görürük ki, o, namaz qılan zaman hər şeyi unudur. Bunun əsas səbəbi Allaha olan mərifətindəndir. Hədislərdə də qeyd olunur ki, əgər namaz qılan namaz vaxtı ona nələr verildiyini başa düşsə, heç bir vaxt namazın bitməsini istəməz.

İmam Sadiqdən (ə) nəql olunan hədisdə o həzrət ibadəti üç qismə bölür. Həzrət İmam Sadiq (ə) buyurur:

إِن الْعِبادةً ثَلاثَةٌ: قَوم عبدوا الله خوفاً فَتِلْكَ عِبادةُ الْعِبِيد. و قَوم عبدوا اللهَ لِطَلَبِ الثواب فَتِلْكَ عِبادةُ الْأجراء. و قَوم عبدوا الله حباً له فَتِلْكَ عِبادةُ الْأحرار.

–Həqiqətən, ibadət edənlər üç qisimdirlər: Bir dəstə qorxularından Allaha ibadət edirlər. Bu ibadət qulların ibadətidir. Bir dəstə insanlar savab əldə emək üçün Allaha ibadət edirlər. Bu ibadət tacirlərin ibadətidir. Bir dəstə insanlar Allahı sevdikləri üçün ibadət edirlər. Bu ibadət azad insanların ibadətidir.

Yuxarıdakı hədisə əsasən ibadət edənlər üç qisimdir:

---

[1] İnsan elə bilir ki, namazı tez qılmaqla başqa işləri tez yerinə yetirəcək və böyük işlərə nail olacaqdır. Xeyr, namazı tez qılmaqla insan çox şeyləri əldən verir, lakin bunun fərqində deyil. Axı insan namazı tez bitirib Allahdan daha yaxşı kiminlə söhbət edə bilər ki?!

**1. Qulların ibadəti**

Bu cür ibadət edənlər mərifətlə deyil, əzabdan qorxduqları üçün səcdə edirlər. Onlar ölümdən, qəbir əzabından və cəhənnəmin odundan qorxduqları üçün ibadət edirlər. Bu növ ibadət çox gözəl ibadət sayılır və həmin dərəcəyə çatmaq çox böyük nailiyyət hesab edilir.

Mərhum Ayətullah Meşkini deyirdi: “Mən və mərhum Ayətullah Mədəni hər ikimiz tələbəlik zamanı bir mənzildə yaşayırdıq. Hər gün səhər tezdən günortaya qədər iki-üç dərs tədris etdikdən sonra yorğun halda evə qayıdırdıq. Dərs proqramı elə idi ki, mən ondan tez evə gəlirdim. Mərhum Mədəni yaşda məndən böyük idi və o, həm də seyid idi. Elə buna görə də mən dərsdən gələndə onun üçün çay hazırlayırdım. Günlərin birində o, dərsdən çox yorğun halda gəlmişdi. Odur ki, mən tez-tələsik ona çay süzdüm və onun qarşısına qoydum. O da çox susuz olduğundan çay içmək istəyəndə ağzını yandırdı və çayı yerə qoydu. Elə bu zaman gördüm ki, o, elə ağlayır ki, gözünün yaşı saqqalını isladıb. Çox təəccübləndim və mən bir söz soruşmamış özü dedi: “Meşkini ağa, bu çay çox isti idi, odur ki, cəhənnəmi mənim yadıma saldı.”

Çayın istiliyi cəhənnəmi onun yadına saldı və cəhənnəm yadına düşəndə gözünün yaşı saqqalını islatdı. Əsl qorxu bax buna deyərlər. Amma elə insanlar da vardır ki, əgər cəhənnəmin özünü onlara göstərsən də heç bir xeyri olmaz.

**2. Tacirlərin ibadəti**

Bəzi insanlar da savab əldə edib cənnətə getmək üçün səcdə edirlər. Belə insanlar məbudun əzəmətinə deyil, yalnız ibadətin zahirinə və cənnətin nemətlərinin əzəmətinə diqqət yetirirlər. İbadətin bu növü də çox bəyənilmişdir. Çünki Qurani-kərimdə də Allah-taala ibadət edənlərə cənnəti vəd

etmişdir və cənnətdəki huriləri, çayları və oranın nemətlərini sadalamaqla insanları ibadət etməyə təşviq edir. Həzrət (ə) belə ibadət edənləri tacirlərə bənzədir. Tacirlər pul qazanmaq üçün alver etdikləri kimi, bəzi insanlar da cənnəti əldə etmək üçün ibadət edirlər.

İbadətin bu iki növündə mərifət zəifdir. Yəni adi şəraitdə bu ibadət çox gözəldir. Lakin insan hər hansı bir böhranlı vəziyyətlə qarşılaşsa və ibadətin kökündə mərifət olmasa, mütləq yolunu azacaqdır. Məsələn, möminlərə fikir verdikdə adi şəraitdə çox gözəl görünürlər, lakin Həzrət Yusif (ə) kimi xəlvət otaqda Züleyxa kimi bir xanımın təklifi və hədələri ilə üzləşəndə, təbiidir ki, o zaman Yusifin (ə) imanıtək bir iman lazımdır. Hər bir imanlı insan belə bir vəziyyətdə özünü qoruyub saxlaya bilmir.

Hurqus ibn Züheyr İslam Peyğəmbərinin (s) zamanında yaşamış bir insan idi. Çox zikr etdiyindən dodaqları qurumuşdu. İnsanlar onun ibadətinə baxıb məftun olurdular. Lakin onun mərifəti çox zəif idi. Abuzər və Salmanda olan mərifət bu şəxsdə yox idi. Hüneyn döyüşündə İslam Peyğəmbəri (s) əldə edilən qənimətləri bölüşdürəndə o, ayağa qalxaraq “Ya Məhəmməd (s), ədalətlə böl!” – deyə söylədi. İslam Peyğəmbəri (s) dinmədi. O, bunu düz üç dəfə təkrar etdi. Onun sözləri Həzrət Peyğəmbəri (s) narahat etdiyindən Həzrət (s) buyurdu: “Əgər mən ədalətlə bölgünü aparmasam, bəs dünyada kim ədalətlə bölgünü apara bilər?!”

Bəs, Hurqus ibn Züheyrin axırı necə oldu? O, Nəhrəvan döyüşündə Nəhrəvan şeyxlərinə qoşuldu və Həzrət Əliyə (ə) qarşı döyüşdü və həlak oldu. Döyüşdən sonra Həzrət Əli (ə) öz səhabələri ilə meyitlərin yanından keçəndə Hurqus ibn Züheyrin meyitini tanıdı. Bir müddət ona baxdı və sonra öz səhabələrinə buyurdu: “Dünyada ən pis insanlar sizin qılınclarınızla cəhənnəmə gediblər.”

**3. Ariflərin ibadəti**

İbadətin bu növündə insanın bədəninin və dilinin hərəkəti onu Allaha yaxınlaşdırmaq üçün bir vasitə olur. Daxili diqqəti hər nə qədər çox olsa, Allaha yaxınlaşması bir o qədər çox olacaq. Allahı tanıdığı üçün və Allaha olan mərifəti çox olduğu üçün eşq və məhəbbətlə ibadət edəcəkdir.

Hər bir insanda ibadətlərin kökündə mərifət olmasa, həyatın çətin anlarında o insanın sonu Hurqus ibn Züheyrin sonu kimi olacaqdır. Yox, əgər ibadətin kökündə mərifət olsa, o zaman həmin insanın sonu Səid ibn Cübeyrin sonunu xatırladacaqdır. Həccac ibn Yusifi Səqəfi onu öldürəndə Həccacın hər bir sözünə Quran ayəsi ilə cavab verirdi. Həccac ona "səni üzü üstə uzadıb başını kəsəcəyəm" deyəndə, o, aşağıdakı ayəni oxudu:

مِنها خَلَقْناكُم وفِيها نُعِيدكُم ومِنها نخرِجكُم تارةً أُخرى

–Sizi ondan (torpaqdan) yaratdıq, (öləndən sonra) ona qaytaracaq və bir daha (qiyamətdə) ondan çıxaracağıq.[1]

Çünki onda elə bir nuraniyyət var idi ki, pərdənin arxasını daha yaxşı görürdü. Özünün qəfəsin içində quş kimi olduğunu yaxşı bilirdi. Hansı quş qəfəsdən azad olmaq istəməz?!

Yuxarıda söylədiklərimizdən belə məlum oldu ki, insanı yaranmasında bir hədəf vardır. Bu hədəf isə Allah-taalanın açıq-aşkar buyurduğu kimi ibadətdən ibarətdir. İbadətin həqiqəti isə insanın ixtiyarının tam şəkildə mövlasının ixtiyarında olmasıdır. Başqa ifadə ilə desək, insanın iradəsinin Allahın iradəsinə bağlı olmasıdır.

**Sual:** Burada bir sual meydana gəlir. O da bundan ibarətdir ki, əgər Allah-taala insanı ibadət etmək üçün xəlq etmişdirsə, bəs nə üçün bir dəstə insan kafirdir? Allahın iradəsinin hədəfdən yayınması mümkündürmü? Qurani-kərimin buyurduğuna əsasən, Allah-taala hər nəyi iradə etsə, həmin şey mütləq

---

[1] Taha surəsi, 55-ci ayə.

yerinə yetməlidir. Bəs, burada nə üçün Allahın iradəsi icra olunmur?

**Cavab:** Bu sualın cavabında bir neçə mətləbi qeyd etmək mümkündür. Lakin biz burada bir məsələni əziz oxucuların nəzərinə çatdırmaqla kifayətlənirik. Məlum olduğu kimi, Allahın iradəsi iki qisimdir.

1. Allah-taalanın iradəsinin birinə "təkvini" iradə deyilir. Yəni Allah-taala hər hər nəyə iradə etsə və "Ol!" desə, o da dərhal olar. Bu, Allah ilə həmin şey arasında heç bir vasitə olmayan zaman baş verir. Məsələn, günəşə şərqdən çıxmağı əmr edir, günəş də şərqdən çıxır. Həmçinin günəşə qərb tərəfdə batmağı əmr edir, günəş də qərb tərəfdə batır. Həmçinin insanın var olmasını istədiyi zaman ona ancaq – "Ol!" deməklə o da dərhal olur. Çünki burada Allahın iradə və istəyi ilə insanın yaranması arasında heç bir vasitə yoxdur.

2. Allahın digər iradəsinə "təşrii" iradə deyilir. Yəni Allahın iradəsi ilə Onun iradə edərək həyata keçməsini istədiyi şey arasında bir vasitə də vardır. Arada olan vasitə "insanın iradəsi"dir. Çünki Allah-taala insanları (əməldə) ixtiyar sahibi olaraq yaratmışdır. İnsana ixtiyar vermişdir və insanlara əməldə heç bir məcburiyyət qoyulmamışdır. Allah-taala insanlara düzgün yolu göstərmək üçün və insanları hidayət etməkdən ötrü peyğəmbərlər göndərmişdir. "İnsan" surəsinin 3-cü ayəsində buyurulur:

إِنا هديناه السبيلَ إِما شاكِرا وإِما كفُور

–Həqiqətən, onu düz yola yönəltdik – istər şükür edən olsun, istərsə də nankor.

Allah-taala yolu seçmək üçün insana iradə vermişdir. Odur ki, insan hər hansı bir yolu istəsə, onu da seçib gedə bilər. Əgər insanın iradəsi ilə Allahın iradəsi üst-üstə düşsə, o zaman həmin əməl həyata keçəcəkdir. Məsələn, Allah-taala insanın namaz qılmasını istəyir və insanda da namaz qılmaq

istəyi vardır. Təbiidir ki, bu zaman insan namaz qılacaqdır. Yox, əgər onların istəkləri üst-üstə düşməsə, o zaman həmin iş həyata keçməyəcəkdir.

Allah-taala insanı yaradıb və ona ibadət etmək qabiliyyəti verib, lakin onu məcbur etməyib. Məsələn, bir nəfər insanların namaz qılması üçün bir məscid tikir və istənilən hər bir kəsin gəlib orada namaz qılmasına şərait yaradır. Lakin o, insanları məhz həmin məsciddə namaz qılmağa məcbur etmir. Yəni birisi gəlib namaz qılır, başqa birisi isə namaz qılmır. Eləcə də məktəb, xəstəxana, kitabxana və s. təsisatlar da elə bu cürdür.

Söylədiklərimizdən belə bir nəticəyə gəlirik ki, hər vaxt Allah-taala bir şeyi iradə etsə və Onunla iradə etdiyi şeyin arasında vasitə olmasa, həmin şey mütləq olmalıdır. Amma o yerdə ki, Allahın iradəsi ilə istədiyi şeyin arasında başqasının iradəsi bir vasitə olsa, həmin şey baş verə də bilər, baş verməyə də.

Allah-taala insana ibadət etməsi üçün həm ağıl və hissiyyat kimi daxili imkanlar vermiş, həm də xarici imkanlar bəxş etmişdir. Məsələn, peyğəmbərlər göndərmiş, kitab nazil etmişdir və s. Bu imkanlardan istifadə etməkdə həm mömin, həm də kafir bərabərdirlər. Mömin onun üçün hazırlanmış bu imkanlardan bəhrələnir, amma kafir isə bəhrələnmir.

İmam Sadiqdən (ə) "Cin və insanları yalnız Mənə ibadət etmələri üçün yaratmışam." – ayəsinin təfsiri haqda soruşduqda, Həzrət (ə) buyurdu: – "Onlar ibadət etmək üçün xəlq olunmuşlar." Yenə soruşdular: "Xüsusi insanlar (ibadət etməlidirlər), yoxsa bütün insanlar?" Həzrət (ə) buyurdu: – "Bütün insanlar (ibadət etmələri üçün xəlq olunmuşdur)."

**Nəticə**

Yuxarıda söylədiklərimizdə məqsəd budur ki, əgər insan "əbd" (bəndə) olsa, o zaman onun iradəsi Allahın iradəsinə bağlanacaq və onun iradəsi ilə Allahın iradəsi üst-üstə düşəcəkdir. Yəni belə bir halda insanın özünün heç bir iradəsi olmayacaq, öz mövlasının (Allahın) iradəsinə tabe olacaqdır.

"İslam" təslim olmaq deməkdir. Təslim olmaq isə aşağıdakı ayədəki kimi Allahın bütün əmrlərinə itaət etmək mənasını verir.

يا أيها الذِين آمنواْ إِنما الْخمر والْميسِر والأنصاب والأزلاَم رِجس من عملِ الشيطاَنِ فَاجتِنبوه

–Ey iman gətirənlər, həqiqətən, şərab, qumar və asılmış bütlər, habelə qumardakı püşk oxları murdar və haramdır, onlar eyni zamanda şeytanın ixtiralarındandır. Buna görə də onlardan çəkinin![1]

Yəni insan hər bir zaman günahla qarşılaşsa, gərək mövlasının əmrinə əsasən əməl etsin. Məsələn, söylədiyimiz ayədə deyildiyi kimi, əgər insana şərab içməyi təklif etsələr, onu içib-içməməyi gərək mövlasından soruşsun. Əgər O, icazə versə, içsin, yox, əgər icazə verməsə, onu bir kənara atsın. Əgər çox qiymətli bir səccadəni (canamazı) namaz qılmaq üçün bir nəfərə versələr, o da onun xümsünün verilib-verilmədiyini soruşduqda, onun xümsü verilməyib desələr, gərək mövlasından soruşsun ki, onun üstündə namaz qılmaq olar, ya olmaz. Əgər mövlası desə ki, olmaz, onda gərək onun üstündə namaz qılmaqdan çəkinsin.

Keçmiş zamanlarda döşəmə üçün ən ucuz şey həsir hesab olunurdu. Əgər birisi ipəkdən, yaxud başqa çox qiymətli bir ipdən toxunmuş, amma xümsü verilməmiş bir xalçanın üstündə namaz qılmağı mövlasından soruşsa və ona "Həsir

---

[1] Maidə surəsi, 90-cı ayə.

bundan qiymətlidir" – deyilsə, gərək onun əmrinə tabe olsun. Əgər belə bir həsir də olmasa, o zaman torpağın üstündə namaz qılmaq xümsü verilməmiş döşəmənin üstündə namaz qılmaqdan daha yaxşıdır.

Dünyasını dəyişmiş bir insana qüsl veriləndən sonra onu kəfənə bükmək üçün kəfən də xümsü verilmiş puldan olmalıdır. Əgər dünyasını dəyişən bir insanın bütün var-dövləti haram olsa, onu dəfn etmək üçün gələn insanlar onu halal pulla alınmış bir kəfənə bükdükdən sonra dəfn edə bilərlər. Bu zaman insanlara öz zəkatlarından ona kəfən pulu vermək üçün müraciət olunacaq. Əgər belə bir insan tapılmasa, ona ehsan edilməsi üçün yenə də insanlara müraciət olunacaq. Bu dəfə də kömək edən olmasa, o zaman onu kəfənsiz dəfn etməlidirlər.

Yetmiş il yaşayıb, amma özünə halal pulla bir kəfən almaq şərəfinə nail olmayıb!

Əgər birisini bir məclisə dəvət etsələr, yenə də öz mövlasından "getmək olarmı?" – deyə soruşur. Mövla "məgər ora getmək olarmı?" – deyə söyləsə, gərək getməsin, yox, əgər desə ki, get, atdığın hər bir addıma görə yetmiş ilin savabı sənə veriləcəkdir, o zaman gərək həmin məclisdə iştirak etsin.

"Əbd" ona deyərlər ki, hər bir işi görmək istəsə, gərək öz mövlasının fikrini soruşsun və yalnız bundan sonra onun istəyinə əsasən əməl etsin.

Bəs, mövlanın istəyi haradadır? Quranda. Mövlanın nəzəri haradadır? Həzrət Peyğəmbərin (s) kəlamlarında. Bu gün də o nəzərləri (istəkləri) bizə çatdıran xüsusi mütəxəssislər vardır. Onlar fitvalar verərək nə etmək lazım olduğunu bizə başa salırlar. Elə məclis var ki, ora getmək haramdır, elə məclis də var ki, ora getmək halaldır.

Hədislərdə belə nəql olunub ki, bəzi vaxtlar qadın evdən çıxıb gedəndə atdığı hər bir addıma görə yerin və göyün mələkləri ona lənət oxuyurlar. Bəzi vaxtlar isə qadın evdən

çıxıb gedəndə 70 şəhidin savabını ona yazırlar. Baxanda hər ikisi insandır.

“Əbd”in (qulun) iradəsi mövlasının iradəsinə tabedir. Harada mövla icazə versə, onu yerinə yetirir və harada mövla icazə verməsə, onu tərk edir. İslam Peyğəmbərindən (s) bəzi mövzular haqda sual edən zaman Həzrət (s) “bu haqda hələ hökm nazil olmayıb”, – deyə cavab verərdi. Sonra cənab Cəbrayıl (ə) nazil olub həmin əməl barəsində ayə gətirirdi və Həzrət Peyğəmbər də (s) həmin hökmü insanlara çatdırırdı.

İmam Sadiqin (ə) söylədiyi hədisə oxşar bir hədisi vaxtilə Həzrət Əli (ə) də söyləmişdir. Həzrət (ə) buyurmuşdur:

إن قوماً عبدوا الله رغبةً فتلك عبادةُ التجار. وإن قوماً عبدوا الله رهبةً فتلك عبادةُ العبيد. وإن قوماً عبدوا الله شكراً فتلك عبادةُ الأحرار.

–Bir dəstə insan Allaha (savab və mükafata) rəğbət üçün ibadət edirlər. Bu, tacirlərin ibadətidir. Bir dəstə insan Allaha (cəhənnəmin) qorxusundan ibadət edirlər. Bu, qulların ibadətidir. Bir dəstə insan isə Allaha şükür etmək üçün ibadət edirlər. Bu, azad insanların ibadətidir.[1]

Bu hədisdə qeyd olunan ibadətlərin hər üçü gözəldir, lakin üçüncü növ ibadət daha şərəfli və fəzilətlidir. Çünki üçüncü dəstə insanlar Allahı tanıyaraq və Ona təşəkkür etmək məqsədilə ibadət edirlər. Belə insanlar Allaha mərifətləri olduğu üçün heç bir vaxt Allahın sevmədiyi bir işi görməzlər. Ən üstün ibadət mərifətlə edilən ibadətdir.

İmam Əli (ə) Allah-taala ilə etdiyi münacatda buyurur:

إلهي ما عبدتك خوفاً من نارك و لا طمعاً في جنتك بلْ وجدتك أهلاً للعبادة فعبدتك.

–Allahım! Mən Sənə (cəhənnəm atəşinin) əzabından qorxduğum və cənnətinin (savabına) tamahlandığım üçün

[1] Nəhcül-bəlağə, 227-ci hikmət.

ibadət etmirəm. Səni ibadətə layiq bildiyim üçün Sənə ibadət edirəm.

Hədislərdə belə nəql olunub ki, – "Allah məhəbbəti bir atəşdir, hər kəsin qəlbində olsa, o qəlbi yandırıb kül edər." Elə bu səbəbdən ariflərə "fəna fillah", yəni "yanıb kül olanlar" deyirlər. Bu, yalnız insanın özünün iradəsi olmayan zaman baş verər. Yəni insanın hər şeyi Allahın ixtiyarında olan zaman. İnsan Allahdan icazəsiz bir addım belə atmır və yalnız Allahın razılığına əsasən hərəkət edir.

**İslam Peyğəmbərinin (s) ibadəti**

Ənəs ibn Malik deyir: "İslam Peyğəmbəri (s) o qədər ibadət etmişdi ki, bədəni qurumuşdu. Bəzi vaxtlar (gecənin yarısından sonra) sübhədək zikr edir və ağlayırdı. Bəzi səhabələr Həzrət Peyğəmbərə (s) deyirdilər: "Allah-taala Quranda sənin keçmiş və gələcək günahlarını bağışladığını vəd etmişdir. Niyə özünüzə bu qədər əziyyət verirsiniz? Əgər sən beləsənsə, onda bəs biz nə edək?"

Həzrət (s) buyurdu:

أَفَلا أَكُون عبداً شكُوراً

–Mən şükür edən bəndə olmayımmı?!

Yəni bu ibadət nə cənnətə getmək üçündür və nə də cəhənnəmin qorxusundandır. Bu ibadət birbaşa Allaha xatirdir və İslam Peyğəmbərinin (s) mərifətini bildirir.

Xanım Fatimeyi Zəhra (s.ə) haqqında nəql olunur ki, o xanım namaz qılarkən bədəninin bütün sümükləri titrəyərdi.

**İmam Səccadın (ə) aşiqanə ibadəti**

İmam Səccad (ə) namaz qılmaq üçün dəstəmaz alarkən halı dəyişirdi. Namaza başlayarkən rəngi dəyişirdi. Namaz əsnasında "Maliki yovmiddin" cümləsinə yetişəndə o qədər təkrar edirdi ki, az qala ruhu bədənindən ayrılsın. Bunların

hamısı mərifətdən irəli gəlir və heç bir vaxt insanda cəhənnəm qorxusundan və behiştə getmək üçün belə bir hal yarana bilməz. İmam (ə) səcdədə o qədər ağlayırdı ki, səcdədən qalxanda o həzrətin üzü tamamilə islanırdı. Bunun kökündə mərifət dayanır.

Ramazan ayında dua, təsbeh və Allahın zikrindən başqa heç bir söz danışmazdı. Cabir o həzrətə dedi: "Qorxuram çox ibadət etməkdən sizin sağlamlığınız əldən gedər." Həzrət (ə) buyurdu: "Mən ata-babalarımın yolu ilə gedirəm və Allah da məni bu yolda və bu əqidədə dünyadan aparsın."

Mərhum Ayətullah Mirzə Xəlil böyük alim və ariflərdən biri idi. O, 90 yaşında dünyadan köçüb. O, belə deyərdi: "Yemək yemək mənim nəzərimdə kisəni doldurmaq kimi bir şeydir. Mən yemək yeməkdən ləzzət almıram, insanların yeməkdən aldığı ləzzəti mən namaz qılmaqla alıram. Elə bu səbəbdən namazdan doymuram."

Onun haqqında yazırlar ki, sübh namazını Həzrət Əlinin (ə) hərəmində, ağanın qəbrinin baş tərəfində qılardı və sonra gün çıxana qədər orada namaz qılaraq ibadət edərdi.

Mərhum Ayətullah Behcəti barəsində də yazırlar ki, gedib şəhərdənkənar bir yerdə, yəni çöldə namaz qılardı və deyərdi ki, şahlar nə bilirlər ki, biz nə kef çəkirik. Onlar elə bilirlər ki, kef yalnız onlardadır. Onlar kefin nə olduğunu bilmirlər.

## Allaha eşqlə ibadət etməyin əlamətləri

**Birinci əlamət:** İnsanın özünün heç bir iradəsi olmaması və onun Allahın əmrinə tabe olması. Nəfsi istəklərə qalib gəlmək.

Buna nümunə olaraq Üveys Qərənini misal çəkmək olar. Üveys ibn Amir Muradi Qərəni Allah aşiqi və ibadət aşiqi idi.

Onun barəsində belə yazırlar ki, gecələr ona "bəhcət" hissi, yəni ürəyində bir şadlıq hissi yaranırdı. O, bunu dərk etdiyində "bu gecə rüku gecəsidir" – deyə söyləyirdi. Sonra səhərə kimi bir rüku halında qalardı. Bəzi gecələr isə "bu gecə səcdə gecəsidir" –deyib səhərə kimi səcdə halında qalardı. Ona dedilər: "Sən özünü çox zəhmətə salırsan." O, belə cavab vermişdi: "Dünya kaş əzəldən axıra qədər yalnız bir gecə olardı, mən həmin gecəni yalnız bir səcdə ilə başa vurardım."

Bax buna deyərlər aşiq, çünki o, bunun ləzzətini bilirdi. Aşiq ona deyərlər ki, yuxusuz qalar, amma inciməz, ona nalayiq sözlər deyərlər, amma inciməz, əziyyət çəkər, amma inciməz. Aşiqin fikri-zikri və istəyi yalnız məşuqəsinin ona baxmasıdır. Əgər məşuqənin ona baxıb ondan razı olduğunu bilsə, artıq bıçağın əlini nə vaxt kəsdiyini hiss etməz.

**Üveys və ananın itaəti**

Üveys Yəməndə olarkən anasına xidmət göstərir və dəvə otarırdı. Onun anasından savayı başqa heç bir kəsi yox idi. İslam Peyğəmbərinə (s) çox böyük məhəbbət bəsləyirdi. Odur ki, o, Həzrətin (s) ziyarətinə gəlmək üçün anasından icazə istədi. Anası icazə verdi və dedi: "Hicaza get, amma yarım gündən artıq qalmağa icazə vermirəm."

Üveys səhərə yaxın gəlib Mədinəyə çatdı. Həzrət Peyğəmbərin (s) evinə gəldi və Allahın Rəsulunu (s) soruşdu. Dedilər ki, Həzrət Peyğəmbər (s) Mədinədə deyil. O, günortaya qədər gözlədi və günorta namazını qıldıqdan sonra "anam bundan artıq qalmağıma icazə verməmişdir. Həzrət Peyğəmbərə (s) məndən salam deyərsiniz", – deyib anasının sözünə itaət edərək geri qayıtdı. O, gedəndən sonra Həzrət Peyğəmbər (s) evə gəldi və heç kim bir söz deməmiş Həzrət (s) buyurdu:

اِني لَأجد روح الرحمان مِن قِبلِ اليمن

–Həqiqətən, mən Yəmən tərəfindən Allahın iyini hiss edirəm.

Dedilər: “Üveys adlı bir nəfər səni görməyə gəlmişdi və sənə salam göndərdi.” Həzrət (s) buyurdu: “O getdi, amma onun nuru bizim evimizdə hədiyyə qalıb.”

Əsbəə ibn Nəbatə deyir: “Siffeyn müharibəsində Həzrət Əli (ə) buyurdu: “Mənə ölməyə görə beyət edən kimsə varmı?” Möminlər bir-bir gəlib beyət etdilər. 99 nəfər beyət etdi. Sonra Həzrət (ə) buyurdu: “Bu sayı kamilləşdirən kimsə varmı?” Gördülər ki, uzaqdan bir nəfər gəlir. O, gəlib çatanda Həzrətin (ə) sözünə uyğun olaraq dedi: “Ya Əmirəlmöminin, mən hazıram.”

O günə qədər onlar bir-birini görməmişdilər. Üveys Həzrət Əlinin (ə) Şama, Müaviyə ilə döyüşə getdiyini eşidib o həzrətə kömək etmək üçün gəlmişdi. O, gecələr etdiyi (müstəhəb) rükunu və səcdəni bir kənara qoyub, öz vəzifəsinə əməl etmək üçün Həzrət Əliyə (ə) kömək etmək məqsədilə gəlmişdi.

İmam Əli (ə) onu tanıyandan sonra onun üzündən öpdü və bağrına basdı. Sonra Üveys həmin müharibədə şəhid oldu.

Onun eşqi, onun ibadəti, onun düşüncəsi, onun ixlası, vəzifəsini və imaməti tanıması axırda şəhid olmasına səbəb oldu.

**İkinci əlamət:** Allaha eşqlə ibadət edən insanda “istiğna” haləti yaranar.

“İstiğna” sözü, “güclü, heç nəyə ehtiyacı olamamaq və sərvəti olan” anlamını verən “ğəni” kəlməsindən götürülmüşdür. Bu kəlmə sərvəti olmadığı halda özündə hər şeyin olduğunu hiss etmək, keçinmək, möhtac olmamaq anlamını verir.

Məşhur yazıçı Tului yazır: “Bir gün bir neçə dostumla Rza şahın qəbuluna getdik. Şah “istiğna” sözünün mənası

nədir?” – deyə soruşdu. Mən onun mənasını izah etdim. Şah dedi: “Bu barədə mənim bir xatirəm vardır:

–Mən cavan və kasıb bir oğlan idim. Hərbi xitmətə getdim və məni Ərak şəhərinə göndərdilər. Hava çox soyuq idi. Mənim qalın libasım və yemək üçün pulum yox idi. Mən artıq öləcəyimi güman edirdim. “Bu şəhərdə məşhur ruhani vardırmı?” – deyə soruşduqda, mənə dedilər ki, “Şeyx Abdullah Mazandarani adlı bir ruhani var.” Mən onun evinə getdim, çox sadə bir evdə yaşayırdı. İnsanlar onun yanına gəlib öz hacətlərini söyləyir, istəklərini diləyir və o da onları təmin edirdi. Sadə bir evdə çox böyük işlər görürdü və görkəmli insanlar onun ziyarətinə gəlirdilər. Camaat azalan-dan sonra mən ona yaxınlaşdım. O, mənə diqqətlə baxıb dedi: “Sən axırda şah olacaqsan.” Mən dedim: “Mən acından ölürəm və az qalıb soyuqdan da öləm. Məndən şah olar?!”

O, bir dəqər də mənə baxdı və ciddi şəkildə “sən axırda şah olacaqsan!” – deyə bir daha təkrar etdi. Onun bu sözü məni bir az inandırdı. Dedim: “Əgər mən şah olsam onda siz məndən nə istəyərsiniz?” Dedi: “Xalqa qarşı xeyirxah ol!”

Sonra lazım olan şeyləri mənə verdi və mən bu sözləri yadımda saxlayıb qalxıb getdim. Az bir müddətdən sonra, yəni 1920-ci ildə (hicri şəmsi tarixi ilə 1299-cu il) mən ordu komandiri kimi Tehran şəhərinə daxil oldum və işlərin gedişatından (şah olmağa) ümidlərim artırdı. Tehranda qaldığım müddətdə məclislərin birində həmin şeyxi gördüm və yenə də ondan soruşdum ki, əgər mən şah olsam, onda siz məndən nə istəyərsiniz?” O buyurdu: “Xalqa və millətə qarşı mehriban ol!”

Miladi tarixi ilə 1925-ci ildə (h.ş. 1304-cü il) mən şah seçildim.[1] Baş nazirimə həmin şeyxi tapmasını tapşırdım.

---

[1] Rza şah 16 il şahlıq etdi və 1941-ci ildə (1320-ci il hicri şəmsi ili) vəfat etdi. Ondan sonra oğlu 38 il şahlıq etdi və nəhayət, İslam İnqilabı qələbə çaldı.

Dedilər ki, həmin şeyx hazırda Rey şəhərində, Şah Əbdüləzim ziyarətgahının yanında yaşayır. Ondan vaxt almaq istədikdə dedi ki, vaxtım yoxdur. Mən israr etdim və dedim ki, gedin ondan xahiş edin və görüşmək üçün vaxt alın. Nəhayət, Şah Əbdüləzim hərəmində görüşməyə icazə verdi.

Onun təyin etdiyi vaxt mən öz şəxsi libasımda onun görüşünə getdim və bir kənarda əyləşib söhbət etdik. Mən dedim: "O zaman siz bir söz demişdiniz və mən də həmin ümidlə yaşayırdım. Lakin bu gün məsələ fərqlidir və mən artıq şaham. İndi məndən xətrin nə istəyirsə, istə. O dedi: "Mən o gün nə demişdimsə, elə həmin sözü deyirəm: Xalqa qarşı mehriban ol!"

Dedim: "Özünüz üçün bir şey istəyin." O, mənə bir qədər baxdıqdan sonra dedi: "Mən dövlətli deyiləm, lakin heç nəyə də ehtiyacım yoxdur."

Yəni sənin təsəvvür etdiyin maşın, pul, ev və başqa sərvətlər məndə olmasa da, mən yenə də onlarsız keçinirəm.

Onda istiğnanın (ehtiyacsızlığın) yaranmasının əsas səbəbi eşqlə ibadət etməsiydi. Eşqlə ibadət etməyin kökündə mərifət dayanır.

Həzrət İbrahimi (ə) mancanaqla atəşə atan zaman cənab Cəbrayıl (ə) ondan "sənə nə kömək edim" – deyə soruşduqda "mənim sənin köməyinə ehtiyacım yoxdur. Allahın məni görməsi mənə kifayət edər", – deyə cavab verdi.

İmam Hüseynin (ə) münacatında oxuyuruq:

*Ya Rəbb, tamam aləmi imkan Səninkidir,*
*Zərrati kainat kəma kan Səninkidir.*

*Əvvəldən afərineşə vabəstə hər nə var,*
*Ayəndəvü güzəştəvü əlan Səninkidir.*

*İlahi, mən də Səninkiyəm! nəyim var mənim?*
*Bu xeymələr ki, onda daldalanır Əhli-beyti şam,*
*Od vursa düşmən, eyləsə talan Səninkidir.*

Zeynəb (s.ə) də Sənindir, Əsğər (ə) də Sənindir, qızlar da Sənindir və mən də Səninəm.

**Həzrət Rüqəyyənin (s.ə) əhvalatı**

İmam Hüseyn (ə) meydana gedəndə üç yaşlı qızı Rüqəyyə (s.ə) onun dalınca çıxdı. Həzrət (ə) onu qucağına aldı və onunla bir qədər söhbət etdi. Rüqəyyə (s.ə) dedi ki, bizi babamızın evinə, Mədinəyə qaytar. Həzrət (ə) buyurdu ki, artıq mümkün deyil. Sonra İmam (ə) ona bir söz söylədi və uşağı yerə qoydu. Həzrətin (ə) ona nə söylədiyini heç kəs bilmədi. Şama gedəndə Xanım Rüqəyyə (s.ə) bəzi sözlər söyləyəndə o həzrətin ona nə söylədiyi məlum oldu. Xanım Zeynəb (s.ə) belə nəql edir ki, mən uşağı qucağıma almışdım və yerə qoymurdum. Yolda hərdən “Bibi, Şama nə qədər yolumuz qalıb?” –deyə soruşurdu. Mən dedim: “Qızım, sən Şamı neyləyirsən?” Bir az gedəndən sonra yenə də “Bibi, Şama nə qədər yolumuz qalıb?” – deyə soruşurdu. Orda başa düşdük ki, bəlkə Həzrət İmam Hüseyn (ə) buna “Şamda görüşərik” – deyə söyləmişdir.

Şama çatandan sonra Yezid böyük bir məclis qurdu. Məclis bitdikdən sonra Kərbəla əsirlərinə xərabatda yer verdilər. Hamı yatmışdı, Xanım Zeynəb (s.ə) Rüqəyyəni (s.ə) öz yanında yatırtmışdı. Uşaq birdən yuxudan oyandı və ağlamağa başladı. Hər nə qədər etdilərsə sakitləşmədi. Soruşduqda dedi: “Atamı yuxuda gördüm, mən atamı istəyirəm.” Onun bu sözlərinə bütün xanımlar və qızlar da ağlamağa başladılar.

Şamın xərabatı Yezidin sarayına yaxın idi. Ona görə də onların ağlamaq səsi Yezidin evinə qədər gedib çıxırdı. Yezid orada nə baş verdiyini öyrənməyi əmr etdi. Ona dedilər ki, Hüseynin (ə) qızlarından biri yuxuda atasını görüb və indi atasını istəyir. Onu sakitləşdirə bilmirlər. Yezid o həzrətin yaralı başını onlara göstərməyə icazə verdi. Onlar da İmam

Hüseynin (ə) kəsilmiş yaralı başını teştin içərisindən çıxarıb bir xonçanın üstünə qoydular və üstünə də bir örtük çəkib gecəyarısı xərabata gətirdilər.

Rüqəyyə (s.ə) gördü ki, xonça gətirirlər. Dedi: “Mən atamı istəmişəm, siz isə xonça gətirmisiniz?!”

Örtüyü mübarək başın üstündən götürdülər. Belə nəql olunur ki, o həzrətin yaralı başında bir hilal qədər ağ yer qalmışdı. Qalan yerlər qanın içində idi. Xanım Rüqəyyə (s.ə) atasının başını gördükdə dodaqlarını həmin hilal qədər qalmış ağ yerə qoydu və söylədi:

*Dedi: Gəldin baba, tez durdu yerindən ayağa,*
*İstədi ərzi ədəb eyləyə məzlum qonağa.*
*Gücü çatmadı, Rüqəyyə başı alsın qucağa,*
*İki ziba gözü aludə edib göz yaşına,*
*Yerə qoydu yaralı başı, dolandı başına.*

**İmam Məhəmməd Baqirin (ə) Cabir ibn Abdullaha sözü**

Günlərin birində Cabir ibn Abdullah Ənsari İmam Məhəmməd Baqirin (ə) yanına gəlmişdi. Həzrət (ə) onun halını soruşduqda Cabir dedi:

–Mən indi elə bir haldayam ki, qocalığı cavanlıqdan, xəstəliyi sağlamlıqdan və ölümü yaşamaqdan daha çox istəyirəm.

Yəni mən artıq qocalmışam və cavan olmağım mümkün deyil, həm də xəstələnmişəm və axır nəfəslərimdir, ölümə tərəf gedirəm.

Həzrət (ə) buyurdu:

–Amma mən Allah mənim qocalmağımı istəyirsə, mən qocalığı, cavan olmağımı istəyirsə, mən cavanlığı istərəm. Əgər mənim xəstələnməyimi istəyirsə, xəstəliyi, sağlam görmək istəyirsə, sağlamlığı istərəm. Əgər mənim yaşamağımı istəyirsə, mən yaşamağı, mənim üçün ölümü istəyirsə, mən də

ölümü istəyirəm. Mən Allahdan özüm haqda heç nə istəmirəm, Allah mənim haqqımda nəyi sevirsə, mən də onu sevirəm.

Cabir bunu eşitcək İmamın (ə) üzündən öpdü və dedi: “Allahın Rəsulu (s) doğru demişdir ki, Baqir (ə) elmin dərinliklərini (incəliklərini) biləndir.”

# İMAM HÜSEYNİN (Ə) ÜRFANİ HALI VƏ KƏLAMLARI

Həzrət Peyğəmbərdən (s) və Əhli-beytdən (ə) bizə gəlib çatan onların əməlləri və bir də mübarək kəlamlarıdır. Onların əməlləri və danışdıqları tarix kitablarında qeyd olunmuş və bu gün bizim əlimizə gəlib çatmışdır. O cümlədən İmam Hüseynin (ə) əməlləri və kəlamları da bu gün tarix kitablarında qeyd edilmişdir. Onlardan bir neçəsinə diqqət yetirməyimiz yaxşı olardı.

1. İmam Hüseyn (ə) ürfan aləminin parlaq ulduzudur.

2. Onun ürfanı xalis ürfan idi və belə bir ürfan o həzrəti susmağa deyil, hərəkət etməyə sövq etmişdir. Ürfan Allahı layiqincə kimi tanımaqdır. Tanıdıqdan sonra Onun məhəbbəti daxil olan qəlbi yandırıb kül edər. Yəni belə bir insanın istək və iradəsi yalnız Allahın istəyidir. Eşq, hərəkət və hər bir şey bunun içindədir.

3. İmam Hüseynin (ə) ürfanı "Ələvi", yəni atası Əlinin (ə) ürfanı kimiydi. Yazırlar ki, İmam Hüseyn (ə) bir gün ərzində 1000 rükət namaz qılardı. O, döyüş meydanına girəndə onun qılıncının qarşısında heç bir kəs dayana bilməzdi. Hər kimə bir zərbə vursaydı, ikinci zərbəyə ehtiyac qalmırdı. Həm ibadətdə, həm də şücaətdə atası kimiydi.

İslam Peyğəmbəri (s) Həzrət Əli (ə) barəsində buyurmuşdur: "Onun İslam yolunda vurduğu bir qılınc zərbəsi bütün insanların və cinlərin ibadətindən fəzilətlidir. Bu şücaətə sahib olan insan yetim bir uşağı görəndə dizlərini yerə vurub əlini onun başına çəkərdi və göz yaşlarını axıdardı. Qıraqdan baxan elə bilərdi ki, bu həmin Allahın aslanı deyil. Qoca qadın və ya kişinin ağır yük apardığını görəndə onlara kömək edərdi. Axşamlar yatanda çox nazik bir parçanı üstünə örtüb səhərə kimi soyuqdan əsə-əsə yatardı. Ona "Ağa, bunu dəyişmək mümkündür axı" – deyəndə, "Sənin

üçün mümkündür, amma mənim üçün yox! Mən bu ümmətin rəhbəriyəm, gərək müsəlmanların hamısında bundan yaxşısı olduğunu biləm, ondan sonra bunu dəyişə bilərəm!” – deyə cavab verərdi. O həzrət döyüşdən qayıdandan və yaralarını bağlayandan sonra su ilə quru çörək yeyərdi.

İmam Hüseynin (ə) ürfanı da İmam Əlinin (ə) ürfanından idi. Onun ürfanı həm “Ələvi” və həm də “Məhəmmədi” ürfan idi.

4. İmam Hüseynin (ə) mübarək vücudu “ilahi”, “lillahi” və “iləllahi” vücud idi. Yəni onda həm ilahi mərifət vardı, həm də onun bütün işləri Allaha xatir idi. Bir çoxları “Allah tərəfindən gəlmişik və Ona tərəf də qayıdacağıq” ayəsini dildə deyirsə, İmam Hüseyn (ə) isə onu yaşayırdı.

5. İmam Hüseyn (ə) hər şeydən ayırılıb Allah-taalaya tərəf getmə mərhələsinə gəlib çatmışdı.

إِلـهي هب لِي كَمالَ الْإِنقِطاعِ إِلَيك و أَنِر أَبصار قُلُوبنا بِضِياءِ نظَرِها إِلَيك حتي تخرِق أبصار الْقُلُوبِ حجب النورِ فَتصِلَ إِلَي معدِنِ الْعظَمةِ ...

–Allahım! Mənə Özünə doğru kamil azadlıq əta et və qəlbimin gözlərini Sənə baxış nuru ilə işıqlandır ki, qəlbimin gözləri nurani pərdələri yararaq əzəmət mədəninə yetişsin...[1]

Yəni Allahım, hər şeydən qırılıb Sənə tərəf gəlməyi mənə qismət et!

*Güldən də gözəl güllərimin rəngi saralsın,*
*Olsun güli İslam şüküfan əvəzində.*

*Bülbüllərimin yansa da kaşanəsi yansın,*
*Yatsınla tikanlıqda gülüstan əvəzində.*

*Əkbər başı münşəqq olur olsun nə sözüm var,*
*Dilsiz balam əmsin oxu püstan əvəzində.*

---

[1] Şəbaniyyə münacatı.

*Ey kaş yüz on dörd ola oğlum mənim Allah,*
*Qurban verəm hər sureyi Quran əvəzində.*

Onlardan ayrılmaq İmam Hüseyn (ə) üçün çox asandır, çünki bu hadisələrin hamısı Allahın gözləri qarşısında baş verir.

6. İmam Hüseyn (ə) "arxayın olmuş nəfs" məqamına gəlib çatmışdı. Allah-taala Qurani-kərimdə nida edərək buyurur:

يا أيتها النفْس الْمطْمئنة. ارجِعي إِلى ربكِ راضِية مرضِيةً

–Ey arxayın olmuş nəfs! Dön Rəbbinə, sən Ondan, O da səndən razı olaraq![1]

İmam Sadiq (ə) buyurmuşdur: "Bu ayədə məqsəd arxayın olmuş nəfsə sahib Hüseyn ibn Əlidir (ə). O Allahdan, Allah da ondan razı idi."

7. Qalibin oğlanları Bəşir və Bəşər deyirlər: "Biz həcc ziyarətinə getmişdik. Zilhiccə ayının 9-cu, yəni Ərəfə günü Cəbəlun-Nur dağında İmam Hüseyn (ə)[2] Ərəfə duasını oxuyur və biz də "amin" deyirdik." Allahın eşqindən o qədər ağlamışdı ki, gözləri qanla dolmuşdu.

8. Həcc ziyarətlərinin birində İmam Hüseyn (ə) Minadan qayıdandan sonra təvaf namazını qıldı və üzünü Məqami İbrahimin (ə) daşının üstünə qoyub ağlayaraq deyirdi:

إِلهي عبيدك بِبابك. خويدك بِبابك. سائِلك بِبابك. مِسكِينك بِبابك...

–Allahım, Sənin qapına kiçik bir qulun gəlib!.. Sənin qapına dilənçin gəlib! Sənin qapına miskinin gəlib!..

İmam Hüseynin (ə) nuraniyyəti və mənəviyyatı bütün bəşəriyyət üçün bir nümunədir.

9. İmam Hüseynin (ə) ilahi mərifəti və ürfanı elə bir həddə idi ki, dəstəmaz alan zaman rəngi dəyişər və bədəni

---

[1] Fəcr surəsi, 27-28-ci ayələr.
[2] İmam Hüseynlə (ə) bir saat Ərəfatda olmaq yüz il ömür sürməkdən fəzilətli və şərafətlidir.

titrəyərdi. Soruşdular: “Niyə bu hala düşmüsünüz?” Həzrət (ə) buyurdu:

حق لمن وقف بين يدي اللهِ الْمِلكِ الْجبار أنْ يصفَر لَونه و ترتِعِد مفاصِلُه

–Əzəmətli və Cabbar Allahın qarşısında dayanan zaman (Onu tanıyan) hər bir kəsin rəngi mütləq saralmalı və bədəninin sümükləri titrəməlidir.

10. İmam Baqir (ə) atasından belə nəql edir: “Bir dəfə İmam Hüseyn (ə) namaz qılarkən bir nəfər onun qarşısından keçmək istədi.[1] Möminlərdən biri ona mane oldu və onu bu işdən çəkindirdi. Həzrət (ə) namazını qurtarandan sonra “Onunla nə işin var? Niyə ona mane olursan?” – deyə soruşdu.

O dedi: “Ey Rəsulallahın oğlu! Sən ibadətlə məşğul idin və o, səninlə mehrab arasında fasilə yaratdı.”

Həzrət (ə) buyurdu: “Allah-taala mənə Onunla mənim aramda fasilə yaradandan daha yaxındır. Allah-taala mənə boynumun (şah) damarından da yaxındır.”

İnsan Allahla əsl əlaqəni qəlbində və fani olmaqla yaratmalıdır.

11. İbadət üçün möhlət istəmək.

İmam Hüseyn (ə) Mədinədən çıxandan sonra yolda müxtəlif hadisələrlə və çətinliklərlə rastlaşdı. Şəraf adlı bir məntəqədə o həzrətin səhabələrindən bir qismi uzaqdan xurma bağlarının olduğunu təsəvvür etdiklərini bildirdilər. Digərləri isə “Biz buranı yaxşı tanıyırıq, burada xurma bağları yoxdur” – deyə onlara söylədilər. Ancaq onlar da irəliyə baxanda əvvəlcə elə güman etdilər ki, orada xurma bağları var. Lakin sonra diqqətlə baxdıqda gördülər ki, Hürr İbn Ziyad min

[1] Bəzi İslam məzhəblərinin fitvalarına əsasən, insan namaz qılarkən onun qarşısından keçmək olmaz və buna çox böyük əhəmiyyət verirlər. Onlar namaz qılan zaman insanın qarşısından keçən şəxsə qarşı son dərəcə aqressiv olurlar.

nəfərdən ibarət bir qoşun onlara sarı gəlirlər. Bunların xurma bağlarına bənzətdikləri isə döyüşçülərin çiyinlərində olan nizələr idi.

İmam Hüseyn (ə) onlarla çox söhbətlər etdi və heç bir vaxt onlardan hər hansı bir qərara gəlmək üçün möhlət istəmədi. Yalnız bir halda və tasua axşamı onlardan namaz qılıb ibadət etmək üçün möhlət istədi.

Tasua günü əsr namazından sonra İmam Hüseyn (ə) öz qılıncına söykənib mürgüləyirdi. İbn Ziyaddan döyüşə başlamaq əmri gəldi. Ömər ibn Səd öz ordusuna xitab edərək dedi:

–Ey Allahın qoşunu! Atlanın və cənnət sizə müjdə olsun!

Onun ordusu xeymələrə tərəf hərəkət etməyə başladı. Xanım Zeynəb (s.ə) düşmən atlarının səsini eşitdi və çox narahat halda özünü İmama (ə) çatdırıb dedi:

–Qardaş, məgər düşmənin səsini eşitmirsənmi?

Həzrət (ə) başını qaldırıb buyurdu:

إِني رأيت رسولَ اللهِ فِي الْمنام قَالَ لِي: إِنك سائِر إِلَينا عن قَرِيبٍ.

–Mən yuxuda Rəsulullahı (s) gördüm və o, mənə buyurdu: “Həqiqətən, sən tezliklə bizə qovuşacaqsan.”

Bunu eşidən Xanım Zeynəb (s.ə) çox narahat oldu. İmam (ə) onu sakitləşdirdi. Elə bu zaman həzrət Əbülfəzl (ə) özünü İmama yetirib düşmənin hərəkətə keçməsi xəbərini verdi. İmam Hüseyn (ə) Həzrət Abbasa (ə) buyurdu:

–Canım sənə qurban, atına min get onlarla danış, bax gör nə istəyirlər.

Həzrət Əbülfəzl Abbas (ə) özü ilə 20 nəfər götürüb onların yanına getdi və hərəkət etmələrinin səbəbini soruşdu.

Dedilər: “Bizə İbn Ziyadın əmir gəlmişdir. Hüseynə de, ya beyət edərək onun dediyini qəbul edib təslim olsun, ya da bu dəqiqə döyüşə başlayacağıq.”

Həzrət Abbas (ə) dedi:

–Səbir edin, sizin sözünüzü Əba Əbdillaha (ə) çatdırım.

Sonra gəlib onların dediklərini İmama (ə) söylədi. Həzrət (ə) buyurdu:

إرجِع إلَيهم و استمهلْهم هذِه الْعشِية إلَي غَد لعلنا نصلِي لربنا الْلَيلَةَ و ندعوه و نستغفِره. فَهو يعلَم أني أُحِب الصلوةَ لَه و تلاوةَ كِتابه و كِثْرةَ الدعاء و الْإستِغفار.

–Onların yanına qayıt, bu gecəni səhərə qədər onlardan möhlət al. Bu gecəni öz Rəbbimizə namaz qılıb, dua edib və Ondan bağışlanmağımızı diləmək istəyirik. Həqiqətən, Allah Ona namaz qılmağı, Quran oxumağı, çoxlu dua etməyi və bağışlanmaq istəməyi nə qədər sevdiyimi bilir.

Bir qədər söhbət etdikdən sonra onlar ertəsi günü sübhədək möhlət verdilər. İmam Hüseyn (ə) başqa bir şey üçün deyil, yalnız namaz üçün onlardan möhlət istədi.

**Döyüş meydanında zöhr namazı**

İmam Hüseyn (ə) bir tasua günü namaz qılmaq üçün, bir də aşura günü zöhr namazı vaxtı möhlət istədi. Həzrət (ə) sübh namazını camaatla qıldıqdan sonra döyüş meydanına tərəf hərəkət etdilər. Ömər ibn Səd ilk oxu İmamın (ə) dəstəsinə tərəf ataraq döyüşü başlatdı.

İmam Hüseynin (ə) dostlarından biri olan Əbu Sumamə zöhr namazının vaxtına az qaldığını görəndə o həzrətin yanına gəlib dedi:

–Canım sənə fəda olsun ey Rəsulallahın oğlu! Düzdür, düşmən hücuma davam edir, lakin mən günorta namazının vaxtı çatdığı üçün çox istərdim ki, bu namazı səninlə birlikdə qılım, sonra şəhid olum.

Həzrət (ə) buyurdu:

ذَكَرت الصلاةَ جعلَك اللهُ مِن الْمصلين و الذّاكِرين نعم هذا أول وقْتها سلُوهم أنْ يكُفوا عنا حتي نصلي.

–Namazı yad etdin, Allah səni namaz qılanlardan və Allahı yad edənlərdən qərar versin. Bəli, indi namazın əvvəl vaxtıdır. Gedin onlara deyin ki, biz namazımızı qılana qədər əl saxlasınlar.

Atəşkəs xəbəri Ömər ibn Sədin qoşununda yayılanda Kufə qoşununun komandirlərindən biri olan Həsin dedi:

–Sizin qıldığınız namaz qəbul deyil.

Həbib ibn Məzahir onun cavabında dedi:

زعمت أنها لَم تقْبَلْ مِن آل رسول صلى اللهُ عليهِ وآلِهِ و تقْبَلْ مِنك يا حِمار.

–Ay uzunqulaq! Sən elə güman edirsən ki, Rəsulallahın övladının (Allahın höccətinin) namazı qəbul olunmayacaq və sənin namazın qəbul olunacaq!

Həsin bu sözləri eşitcək bir neçə nəfərlə birgə hücum etdi və Həbib ibn Məzahiri şəhid edib başını kəsdilər. Həbib ibn Məzahirin başı məhz namaz qılmaq üçün müzakirə aparılan zaman kəsildi. İmam Hüseyn (ə) Həbib ibn Məzahirin cənazəsinin yanına gəlib buyurdu:

عِند الله أحتسب نفْسي و حماةَ أصحابِي

–Özümün və səhabələrimin belə ölmələrini Allahın hesabına həvalə edirəm.

Sonra İmam Hüseyn (ə) Züheyr ibn Qeynə, Səid ibn Abdullaha və daha bir neçə nəfərə qabaqda dayanmaları barədə göstəriş verdi və özü isə səhabələrlə birlikdə zöhr namazını qılmağa başladılar. Onlar namaz qılarkən düşmən onları oxlamağa başladı və bunun nəticəsində də bir neçə nəfər şəhid oldular.

**İmam Hüseynin (ə) kəlamında bir neçə məqam**

1. İmam Hüseyn (ə) Əbu Sumaməyə "İndi namaz vaxtıdır?! Məgər görmürsən ki, döyüş gedir?" – deyə söyləmədi. İmam

Hüseyn (ə) "Bəli, namazın əvvəl vaxtıdır", –deyib ona dua etdi. Çünki İmam Hüseyn (ə) Siffeyn müharibəsində atası İmam Əlinin (ə) namaz vaxtı olan kimi döyüşdən əl çəkib namaz qıldığını görmüşdü.

Siffeyn müharibəsində İbn Abbas gördü ki, Həzrət Əli (ə) düşmənlə döyüşə-döyüşə göyə baxır. Soruşdu:

–Nəyə görə belə narahatsan?! Həzrət (ə) buyurdu:

–Namazın əvvəl vaxtının keçməsindən qorxuram. İbn Abbas dedi:

–Müharibənin bu həssas vaxtında döyüşdən əl çəkib namaz qılacaqsanmı?! Həzrət (ə) buyurdu:

إنما قاتلناهم علي الصلوة.

–Həqiqətən, biz elə namaza görə bunlarla döyüşürük.

Mənim bunlarla davam ona görədir ki, bunlar Həzrət Peyğəmbərin (s) gətirdiyi hökmləri yer üzündən silmək və yalnız İslam dininin quru adının qalmasını istəyirlər. Bunlara Həzrət Peyğəmbərin (s) gətirdiyi Quran, eləcə də namazın və orucun vacib olması, o həzrətin qadağan və əmr etdiyi şeylər lazım deyil. Bunlar istəyirlər ki, Həzrət Peyğəmbərin (s) yalnız adı qalsın və onun adından istifadə edib xilafət taxtında əyləşsinlər. Lakin mən Həzrət Peyğəmbərin (s) gətirdiyi hökmləri diriltmək istəyirəm. Elə buna görə də namazı əvvəl vaxtında qılmalıyam. Həzrət (ə) bunları söylədi və namazı vaxtında da qıldı.

### "Leylətül-hərir"də gecə namazı

"Leylətül-hərir"də[1] Həzrət Əli (ə) gecə namazını tərk etmədi. Müharibələrdə belə bir adət vardır ki, gündüzlər

---

[1] Leylətul-hərir, yəni "hərir gecəsi" deməkdir. "Hərir" havanın soyuqluğundan itin hürməsinə deyilir. Müaviyənin qoşunu qılıncların zərbələrinin ağrısından ah çəkib zarıldadıqlarına görə həmin gecə "Leylətül-hərir" adlandırıldı. Bu gecə hicrətin 37-ci ili, səfər ayının 12-si, cümə gününə təsadüf edirdi.

döyüşərlər, gecələr isə istirahət edərlər. İslam tarixində Siffeyn müharibəsində “Leylətül-hərir” gecəsi yeganə döyüş idi ki, onlar gecəni sübhədək döyüşdülər. Bu döyüşdə çoxlu nizələr və qılınclar sındı, oxlat atılıb qurtardı. Malik Əştər sağ cinahda, İbn Abbas sol cinahda və Həzrət Əli (ə) isə ordunun önündə yer tutmuşdular. Elə şiddətli bir döyüş gedirdi ki, göz yummağa macal olmurdu. Döyüşün son anları idi, hər kim taqət gətirib dözə bilsəydi, qalibiyyət də onunla olacaqdı. Malik Əştər cümə axşamı gün batandan sonra döyüşə başladı və cümə günü axşama qədər döyüş davam etdi. Onlar dincəlmədən yenə gecəni sübhə qədər mübarizə apardılar və şənbə günü günortaya qədər döyüş davam etdi. Yemək yemədən, dincəlmədən və yatmadan mübarizə aparırdılar. Və yalnız namaz vaxtı növbə ilə namaz qılırdılar. İş o yerə gəlib çatdı ki, düşmən ordusu məğlubiyyət qorxusunda Əmr Asın və Müaviyənin təklifi ilə Quranları nizələrə taxıb Həzrət Əlinin (ə) ordusunun qarşısına çıxdılar.

Bu döyüşdə həm Malik Əştər və həm də İbn Abbas bala anasına sığındığı kimi Həzrət Əliyə (ə) arxalanıb döyüşürdülər. Buna baxmayaraq Həzrət Əli (ə) gecənin bir yarısı qılınc yerə qoyub gecə namazını qıldı.

Həzrət Əlinin (ə) oğlu İmam Hüseyn (ə) də Siffeyn müharibəsində iştirak edirdi və o da “Leylətül-hərir”də gecə namazını tərk etmədi. Qızı Zeynəb (s.ə) də Kərbəlada 18 nəfər ən yaxın əzizləri şəhid olmasına baxmayaraq, gecə namazını tərk etmədi.

Həzrət Əli (ə) buyurur ki, göyün ulduzları yerə işıq saçdıqları kimi, Xanım Zəhra (s.ə) mehrabda namaz qılan zaman onun mehrabından göyə nur saçırdı.

*Yeri var ərz ola Zəhra evin abad olsun,*
*Baği rizvanidə qəmdən ürəyün şad olsun.*
*Səndən ilham alan hər qız gərək ustad olsun,*

*Nənə söz bilsə müsəlləm qızı sər məktəb olar,*
*Hər ana sən kimi olsa, qızı da Zeynəb olar.*

2. İmam Hüseyn (ə) namazın vaxtının yetişdiyini bilirdi. Elə bu səbəbdən Əbu Sumaməyə “namazı yadıma saldın” yox, “ذَكَرت الصلاةَ” – “namazı yad etdin” – deyə söylədi. Bunu – “Allah səni namaz qılanlardan və Allahı yad edənlərdən qərar versin” dua edərək söylədi və həmin duanın mənası vardır.

İmam Hüseyn (ə) Kəbənin kənarında necə namaz qılırdısa, oxların qarşısında da elə o cür namaz qılırdı. Öz evində rahat və asudə namaz qıldığı kimi, aşura gecəsi də düşmənin mühasirəsində olmasına baxmayaraq, tam rahat və asudə bir şəkildə namaz qılırdı. Çünki o, mərifət sahibi idi və haradan gəlib haraya gedəcəyini çox gözəl bilirdi.

## İMAM HÜSEYNİN (Ə) BAXIŞINDA İMAMƏT

İmam Hüseyn (ə) öz xütbələrində və mübarək kəlamlarında ən çox toxunduğu məsələlərdən biri də imamət məsələsidir. “İmamət” mövzusu İslam aləmində ən mühüm mövzulardan biridir. Biz burada imamət mövzusunu bütövlükdə araşdırmaq niyyətində deyilik. Yalnız imamət mövzusunda İmam Hüseynin (ə) mübarək kəlamlarını qısa şəkildə şərh edərək əziz oxucuların xidmətinə təqdim etmək istəyirik.

İmamət mövzusu həm Qurani-kərimdə və həm də Həzrət Peyğəmbərin (s) müqəddəs hədislərində təkidlə irəli sürülmüşdür. “Bəqərə” surəsinin 124-cü ayəsində Həzrət İbrahim (ə) barəsində buyurulur:

وَإِذِ ابتلَى إِبراهِيم ربه بِكَلِماتٍ فَأَتمهن قَالَ إِني جاعِلُك لِلناسِ إِماما
قَالَ ومِن ذُرِيتِي قَالَ لاَ ينالُ عهدِي الظَالِمِين

–Və (yadına sal) o zaman(ı) ki, Rəbbi İbrahimi bəzi işlərlə imtahana çəkdi. Beləliklə, o (İbrahim), hər şeyi kamil surətdə yerinə yetirdi. Rəbbi dedi: “Həqiqətən, Mən səni insanlara imam və rəhbər təyin etdim.” (İbrahim) dedi: “Övladlarımdan necə?” Dedi: “Mənim əhd-peymanım zalımlara nəsib olmaz.”

Həzrət İbrahim (ə) həm nübüvvət, həm də imamət sahibi idi. Allah-taala onu əvvəlcə nübüvvət məqamına çatdırdı, bir neçə sınaqdan keçdikdən sonra isə ona imamət məqamını da verdi. İbrahim (ə) iki mühüm vəzifəyə malik olan peyğəmbərlərdən biridir. Həmin vəzifələrdən biri nübüvvət, digəri isə imamətdir. İslam Peyğəmbərinin də (s) iki mühüm vəzifəsi var idi.

İslam təlimlərində imamət mövzusu çox mühüm mövzulardan sayılır. Bu mövzunun mühüm olmasının dəlili “Yəvməlinzar” hədisidir. Çünki İslam Peyğəmbəri (s) həmin gün öz nübüvvətini elan etdiyi məclisdə özündən sonrakı imamət

mövzusunu da elə oradaca bəyan etmişdi. Onların bir-birindən ayrılmasına razı olmadı.

Allah-taala İslam Peyğəmbərinə (s) Hira dağında ayələr nazil edərək onu peyğəmbərliyə seçdi və o da həyat yoldaşı Xədicəyə (s.ə) bunu xəbər verdikdə Xədicə (s.ə) də ona iman gətirdi. Qadınlar arasında İslam Peyğəmbərinə (s) ilk iman gətirən Xanım Xədicədir (s.ə), kişilər arasında isə Həzrət Əmirəlmöminin Əlidir (ə). İslam Peyğəmbəri (s) 3 il gizli şəkildə dəvət edərək, yalnız öz mənəviyyatı ilə məşğul idi. Bu müddətdə az bir dəstə insan ona iman gətirmişdi və Həzrət (s) namaz qılan zaman ona yalnız Xanım Xədicə (s.ə) və Həzrət Əli (ə) iqtida edərdilər.

"Şüəra" surəsinin 214-cü ayəsi ("وأنذِر عشِيرتك الْأَقْرين" – "Və (əvvəlcə) yaxın qohumlarını qorxut və xəbərdarlıq et") nazil olana qədər 3 il belə davam etdi. Ayə nazil olandan sonra Həzrət Peyğəmbərə (s) öz ailəsini, əmilərini, əmisi uşaqlarını və Məkkədə olan bütün qohumlarını İslama dəvət etməsinə dair bir göstəriş verildi. Sonra Həzrət Peyğəmbər (s) Həzrət Əliyə (ə) yemək tədarükü görməsi barədə göstəriş verdi və Qureyşin (Bəni-Haşim) adlı-sanlı adamlarından 45 nəfəri öz evinə dəvət etdi. Yemək hazırlandı, qonaqların hamısı gəlidilər və süfrə kənarında əyləşib yedikdən sonra Həzrət Peyğəmbərin (s) əmisi Əbu Ləhəb yersiz sözlər danışaraq Həzrət Peyğəmbərin (s) söhbət etmək üçün yaratdığı əlverişli şəraiti pozdu. Beləcə, məclis dağıldı, Həzrət Peyğəmbər (s) ertəsi gün axşama yenidən yemək hazırlatdı və həmin qonaqları dəvət etdi.

Növbəti gün yemək yeyiləndən dərhal sonra Həzrət Peyğəmbər (s) üzünü qohumlarının böyüklərinə tutdu və Allaha həmd-səna edərək buyurdu:

–Mən bir olan Allah tərəfindən bütün bəşəriyyətə və xüsusilə sizə göndərilmiş bir peyğəmbərəm. Ey mənim qohumlarım, bilin, siz bir gün öləcəksiniz, sonra yenidən

diriləcəksiniz və sizdən (bu dünyada etdiyiniz əməllərə görə) hesab istəniləcək. Hesabdan sonra bir dəstə cənnətə, digər bir dəstə isə cəhənnəmə gedəcəklər.

Daha sonra Həzrət (s) buyurdu:

–Bilin, heç bir kəs öz qövmünə mənim sizin üçün gətirdiyimdən gözəl bir şey gətirməmişdir. Mən sizə İslamı gətirmişəm, mən sizə dünya və axirət xeyrini gətirmişəm. Allah mənə sizi Ona tərəf dəvət etməyi əmr etmişdir.

Sonra Allahın Rəsulu (s) buyurdu:

قَايكُم يوازِرني علَي هذَا الْأمر علَي أنْ يكُونَ أخِي و وصِيي و خِلفَتِي فِيكُم.

–Sizlərdən hər biriniz məni bu işdə dəstəkləsə (iman gətirsə), məndən sonra sizin aranızda mənim qardaşım, vəsim və xəlifəm olacaqdır.

Bu sözdən sonra məclisə bir sükut hakim oldu. Həzrət Əlinin (ə) o dövrdə 15 yaşı var idi. Həzrət Əli (ə) Həzrət Peyğəmbərin (s) sözünə cavab verdi. Həzrət Peyğəmbər (s) ona əyləşməsini söylədi. İslam Peyğəmbəri (s) bu cümləni üç dəfə təkrar etdi və hər üç dəfə də Həzrət Əli (ə) Həzrət Peyğəmbərə (s) kömək etməyə hazır olduğunu bildirdi. Nəhayət, Həzrət Peyğəmbər (s) üzünü öz qohumlarına tutaraq buyurdu:

إِن هذَا أخِي و وصِيي و خِلِيفَتِي علَيكُم قَاسمعوا لَه و اطِيعوه.

–Həqiqətən, bu, mənim qardaşım, vəsim və məndən sonra xəlifəmdir. Elə isə onu eşidin və ona itaət edin.

Qonaqlar qalxıb gedəndə gülümsəyərək rişxəndlə Əbitalibə “gözlərin aydın olsun! Məhəmməd oğluna itaət etməyi sənə əmr etdi və onu sənin böyüyün təyin etdi” – deyib istehza edirdilər.

Bu hadisə tarix kitablarında qeyd olunmuşdur, lakin bəzi tarixçilər, o cümlədən Təbəri həmin hadisə ilə bağlı iki fikri gizlətmişlər.

Birinci fikir budur ki, onlar Həzrət Peyğəmbərin (s) buyurduğu "Sizlərdən hər biriniz məni bu işdə dəstəkləsə (iman gətirsə), məndən sonra sizin aranızda mənim qardaşım, vəsim və xəlifəm olacaqdır" cümləni nəql etməyiblər. Bu cümlənin yerinə "كذا و كذا" (yəni və sair) sözlərindən istifadə ediblər.

İkincisi isə "إن هذا أخي و وصيي و خليفتي من بعدي" – "Həqiqətən bu, mənim qardaşım, vəsim və məndən sonra xəlifəmdir" cümləsidir.

Bütün bunlara baxmayaraq, o, çox böyük bir səhvə yol verərək axırıncı cümləni qeyd etməklə öz mənfur niyyətini də faş etmişdir. Həmin cümlə də belədir:

فَقام الْقَوم يضحكُونَ و يقُولُونَ لِأبي طالب قَد أمرك أنْ تسمع لِإبنك و تطِيع

–Onlar qalxıb gedəndə gülüb Əbitalibə dedilər: "Məhəmməd oğlunun sözünə qulaq asmağı və ona itaət etməyi sənə əmr etdi."

Bu cümlənin nəql edilməsilə aydın olur ki, "كذا و كذا" – "yəni və sair" ifadəsində məqsəd məhz elə yuxarıdakı qeyd etdiyimiz fikirdir.

Bu hədisdən belə bir nəticəyə gəlirik ki, İslam Peyğəmbəri (s) öz nübüvvətini elan etdiyi gecə özündən sonrakı imamı da insanlara təqdim etmiş və onları bir-birindən ayırmamışdır. Çünki həmin gecənin söhbəti bütün İslam aləminin taleyini və müsəlmanların aqibətini həll edirdi. Həmin gecə müsəlmanların əqidələrinin müəyyən edildiyi bir gecə idi. Bu da imamət mövzusunun İslam aləmində çox mühüm bir məsələ olduğunu əyani şəkildə göstərir.

## İmam Hüseynin (ə) imamət haqda kəlamları

Həzrət İmam Hüseynin (ə) "imamət" (rəhbərlik) barəsində buyurduğu kəlamları üç qismə bölmək olar:

1. Cəmiyyətdə iki növ rəhbərin mövcud olması;
2. Haqq və batil rəhbərlərin nümunələrinin xatırladılması;
3. Səlahiyyətli rəhbərin şərtləri.

**Birinci bölüm:**
**Hidayət edən rəhbər və zəlalətə aparan rəhbər**

İmam Hüseyn (ə) Məkkədən çıxıb İraqa tərəf hərəkət edirdi. Artıq İmam Hüseyn (ə) Müslüm ibn Əqilin şəhid olduğunu və Kufə əhlinin də vəfasızlığını bilirdi. Bəşir ibn Ğalib[1] adlı bir şəxs Sələbiyyə məntəqəsində İmamın (ə) yanına gəlib soruşdu: "يوم ندعو كُلّ أناسٍ بِإمامِهِم" – "(Yada sal) o gün(ü) ki, (əməl kitabını almaq üçün) insanların hər bir dəstəsini (tabe olduqları) öz imamı ilə çağıracağıq"[2] ayəsinin mənası nədir? Bu ayənin mənasını bizim üçün izah edin.

İmam Hüseyn (ə) Qurani-kərimdən iki ayəyə işarə edərək ona belə cavab verir:

إمام دعا إلي اللهِ فَأجابوه إلَيهِ و إمام دعا إلي الضلالَةِ فَأجابوه إلَيها هؤلاءِ فِي الْجنةِ و هؤلاءِ فِي النارِ. و هو قَول اللهُ عز و جل: وكَذَٰلِكَ أَوحينا إلَيكَ قُرآنا عربِيا لِتنذِر أُم الْقُرى ومن حولَها وتنذِر يوم الْجمعِ لَا ريب فِيهِ فَرِيق فِي الْجنةِ وفَرِيق فِي السعِيرِ.

–(Bəzi elə) rəhbərlər vardır ki, (insanları) Allaha tərəf dəvət edir və (insanlar da) onun dəvətini qəbul edirlər. (Bəzi elə) rəhbərlər də vardır ki, (insanları) zəlalətə (azğınlığa)

---

[1] Bəşir ibn Ğalib, ərəfə günü Ərəfatda İmam Hüseyn (ə) dua oxuyan zaman orada iştirak etmişdir.
[2] İsra surəsi, 71-ci ayə.

dəvət edir və (insanlar da) onun dəvətini qəbul edirlər. Bunlar (birinci dəstə) cənnətdədirlər, onlar isə (ikinci dəstə) cəhənnəmdədirlər. Bu, Allah-taalanın “Və beləcə biz sənə ərəbcə bir Quran vəhy etdik ki, Məkkə və onun ətrafındakılara xəbərdarlıq edəsən və barəsində şübhə olmayan toplantı (qiyamət) günündən qorxudasan. Bir dəstə cənnətdədir, bir dəstə alovlu odda” –ayəsində buyurduğu mənanı verir.

Bu hədisdən belə bir nəticəyə gəlirik ki, hər bir cəmiyyətdə rəhbərin biri insanları hidayət yoluna dəvət edir, digəri isə insanları azğınlıq yoluna çəkib aparır. İnsanlar da rəhbəri seçməkdə azaddırlar. Hər kim Allah yoluna dəvət edənə itaət etsə, onun aqibəti (sonu) cənnət olacaqdır və hər kim zəlalət yoluna dəvət edənə itaət etsə, onun da aqibəti cəhənnəm olacaqdır.

İmam Məhəmməd Baqir (ə) buyurmuşdur:

من أصغي إلي ناطق فقد عبده فإنْ كانَ الناطِق يؤدي عن اللهِ عز و جل فقد عبد الله وإنْ كانَ الناطِق يؤدي عن الشيطان فقد عبد الشيطانَ.

– Hər bir şəxs danışan birisinə qulaq assa, ona ibadət etmiş sayılır. Əgər danışan Allah-taaladan danışırsa, qulaq asan Allaha ibadət etmiş olacaqdır. Yox, əgər danışan şeytandan danışırsa, qulaq asan şeytana ibadət edəcəkdir.

Bu hədisdən də belə məlum olur ki, hər bir insanın hər gün həm haqq olan rəhbərlə və həm də batil olan rəhbərlə üzləşməsi (rastlaşması) mümkündür. Həmçinin hər bir insan mümkündür ki, hər gün bir neçə haqq olan rəhbər görsün və həm də mümkündür ki, bir neçə batil olan rəhbər görsün.

Daha sonra İmam Hüseyn (ə) öz fikrini təkidlə irəli sürərək Bəşir ibn Ğalibin oxuduğu ayənin davamını oxudu:

فَمن أُوتي كِتابه بِيمِينِهِ فَأُولَـئِك يقْرؤونَ كِتابهم ولاَ يظْلَمونَ فَتِيل.
ومن كَانَ فِي هـذِهِ أعمى فَهو فِي الآخِرةِ أعمى وأضل سبِيل.

–Beləliklə, (əməl) kitabları sağ əllərinə verilən kəslər öz kitablarını oxuyarlar və onlara xurma çərdəyinin arxasındakı tel qədər zülm edilməz. (Qəlbi) bu dünyada kor olan kəs axirətdə də kordur və o, (səadət) yolu(nu) çox azmışdır.[1]

İmam Hüseynin (ə) kəlamına əsasən, haqqı tapa bilməyən kəs "dünyada kor olan kəs"dir. Yəni dünyada nur ilə zülməti, yaxşılıqla pisliyi, xeyirlə şəri, qaranlıqla gündüzü ayıra bilməyən bir şəxsdir. Dünyada kor olan insan Allahın, Həzrət Peyğəmbərin (s) və imamların göstərdikləri yolu, Quranın açıq-aşkar ayələrini görə bilməyən bir kəsdir. Dünyada haqq ilə batili ayıra bilməyən və başını yalnız batilin içində qatan insan qiyamət günü məhşərə kor gedəcəkdir. Əgər nəyə görə kor getdiyini soruşsa, ona deyərlər ki, sən dünyada bizi yaddan çıxartdın və biz də səni bu dünyada unutduq.

Deməli, belə məlum olur ki, qiyamət günü insanlar iki dəstəyə bölünəcəklər:

Birinci dəstə: Haqq rəhbərə itaət edənlər;

İkinci dəstə: Batil (azğın) rəhbərə itaət edənlər. İkinci dəstə insanlar qiyamət günü məhşərə kor gələcəklər.

İmam Rza (ə) İslam Peyğəmbərindən (s) nəql etdiyi bir hədisdə buyurur:

يدعي كُل أُناسٍ بِإمامِ زمانِهم و كِتابِ ربهم و سنةِ نبيهم.

–(Qiyamət günü) hər bir insan öz əsrinin imamı, Rəbbinin kitabı və peyğəmbərinin sünnəsi ilə gələcəkdir.

İmam Sadiq (ə) buyurmuşdur:

ألا تحمدونَ اللهَ إذا كانَ يوم الْقِيامة فَدعا كُل قَومٍ إلَي من يتولونه و دعانا إلَي رسول اللهِ و فَزعتهم إلَينا فَإلَي أين ترونَ يذْهب بِكُم؟ إلَي الْجنةِ و رب الْكَعبةِ –قَالَها ثَلاثاً-

[1] İsra surəsi, 71-72-ci ayələr.

–Məgər Allaha həmd etmək istəmirsiniz?! Elə ki, qiyamət günü olar, Allah-taala hər bir qövmü kimin ardınca getmişdirsə, onunla birgə çağırar. Bizi Peyğəmbərlə (s) gətirəcək və sizi də bizimlə (birlikdə) gətirəcəkdir. Sizin fikrinizcə, biz sizi hara aparacağıq? And olsun Kəbənin Rəbbinə, sizi cənnətə aparacağıq.

Həzrət (ə) bu cümləni üç dəfə təkrar etdi.

**İkinci bölüm:**
**Haqq və batil rəhbərlərin nümunələri**

Həzrət İmam Hüseyn (ə) mübarək kəlamlarında haqq və batil rəhbərlərin adlarını çəkərək onları bəyan etmişdir.

Hicrətin 8-ci ili İslam ordusu Məkkə şəhərini mühasirəyə aldı. Qureyşlilərin rəhbəri Əbu Süfyan gecəyarısı bir nəfərlə Məkkədən çıxıb İslam ordusunun əzəmətini gözləri ilə müşahidə etdi və iki məsələ onun üçün aydın oldu.

Əvvəla, İslam Peyğəmbərini (s) öz canları ilə qorumağa hazır olan on minlərlə möminin və müsəlmanların yüksək hərbi potensiala malik olduqlarını müşahidə etdi.

İkincisi, İslam Peyğəmbərinin (s) mənəvi qüdrətini müşahidə etdi. Dünya xalqları öz rəhbərlərini pula, var-dövlətə, vəzifəyə və bahalı evlərə görə müdafiə etdiyi halda, Əbu Süfyan müsəlmanların İslam Peyğəmbərinə (s) mənəvi bağlılıqlarını müşahidə etdi. Həzrət Peyğəmbər (s) dəstəmaz alarkən onun dəstəmazının suyunun bir damlasının belə yerə tökülməsinə imkan vermirdilər. Onu təbərrük olaraq götürərək üzlərinə və libaslarına çəkirdilər.

Əbu Süfyan bu mənzərəni görüb heyrətə gəldi və İslam Peyğəmbərinin (s) qarşısında təslim oldu. Ancaq onun İslama iman gətirməsi etiqad üzündən deyildi. O, vəziyyəti nəzərə alıb iman gətirdi. O, iman gətirməyəcəyi təqdirdə həyatının təhlükədə olduğunu bildiyi üçün təslim oldu.

Elə bu səbəbdən də İslam Peyğəmbəri (s) öz səhabələrinə buyurdu: “Məndən sonra Bəni-Üməyyənin vəzifəyə və ictimai mövqeyə sahib olmalarına imkan verməyin. Bunlar İslama iman gətirmədikləri üçün cahillik dövrünün ənənələrini yenidən dirçəltməyə çalışarlar.”

Amma təəssüflər olsun ki, Həzrət Peyğəmbərin (s) vəfatından sonra Şam müsəlmanlar tərəfindən fəth olunduqdan sonra ikinci xəlifə Əbu Süfyanın oğlu Yezidi[1] (Müaviyənin qardaşı) Şam şəhərinə vali (başçı) təyin etdi. O, 4 il Şamda vali oldu və öləndən sonra ikinci xəlifə Əbu Süfyanın digər oğlu Müaviyəni Şama başçı təyin etdi. O, 42 il Şamda vali oldu və Həzrət Əli (ə) ilə müharibə etdi. Müaviyə ömrünün axırında isə İmam Həsənlə (ə) bağladığı müqaviləyə zidd olaraq oğlu Yezidi müsəlmanlara başçı təyin etdi.

O dönəmdə Şam çox böyük və strateji baxımdan son dərəcə əhəmiyyətli olan ölkələrdən biri idi. Şam əhli İslam təlimlərindən məlumatlı deyildilər. Onlar İslamın yalnız adını eşitmişdilər. Əbu Süfyanın övladları Şam əhlinə Quranı təlim etmək, İslam əxlaqı və Həzrət Peyğəmbərin (s) sünnəsini təbliğ etmək, habelə camaatı maarifləndirmək yerinə Allahın Rəsulunun (s) həqiqi canişininə lənət oxumağı öyrətdilər. İslamdan xəbəri olmayan, yeni iman gətirmiş savadsız müsəlman haradan bilsin ki, kimsə ona lənət oxutdurur?!

### İmam Hüseynin (ə) dövrünün fasid hökmdarını ifşa etməsi

İmam Hüseyn (ə) əlverişli fürsətlərdən istifadə edərək düşmənin cinayətlərini ifşa edərək onların iç üzünü xalqa bəyan edirdi. Onlardan bir neçəsini nümunə olaraq əziz oxucuların nəzərinə çatdırmaq istəyirik.

---

[1] İmam Hüseyni (ə) şəhid edən Müaviyənin oğlu Yeziddir. Şam şəhərinə hakim kimi təyin olunan Yezid isə Müaviyənin qardaşı və Əbu Süfyanın oğludur.

**Birinci nümunə**

Müaviyənin ölməsi və Yezidin xilafətdə hakimiyyətə gəlməsi xəbəri Mədinə şəhərinə gəlib çatdı. İmam Hüseyn (ə) Mədinənin keçmiş hakimi Mərvan ibn Həkəmlə rastlaşdı və Mərvan Həzrətə (ə) Yezidə beyət etməyi məsləhət görərək dedi: “Bu beyət sizin din və dünyanız üçün faydalıdır.” Həzrət (ə) onun cavabında buyurdu:

إنا لِلّهِ وإِنـا إِلَيهِ راجِعونَ. و علَى الإِسلامِ، السلام إِذْ قَد بِليتِ الأمه بِراعٍ مِثْلَ يزيد، و لَقَد سمِعت جدى رسولَ اللهِ (صلى اللهُ علَيهِ وآلِهِ) يقُولُ: اَلْخِلافَه محرمه على آلِ اَبى سفْيانَ. فَإِذا رأَيتم معاوِيةَ علَي منبري فَابقَروا بطْنه. و قَد رآه أَهلُ الْمدِنةِ علَي الْمنبر فَلَم يبقَروا فَابتلاهم اللهُ بِيزِيد الْفاسِق.

–Həqiqətən, biz Allahdanıq və həqiqətən Ona tərəf qayıdacağıq.[1] Əgər Yezid kimi fasid bir adam ümmətin rəhbərliyini ələ alarsa, onda İslamın fatihəsini oxumaq lazımdır. Həqiqətən, mən özüm cəddim Rəsulallahdan (s) eşitmişəm ki, Həzrət (s) buyurmuşdur: “Xilafət Əbu Süfyanın övladlarına haramdır. Əgər Müaviyəni mənim minbərimin üstündə görsəniz, dayanmadan onun qarnını yırtıb aşağı düşürün. Həqiqətən, Mədinə xalqı onu cəddim Peyğəmbərin (s) minbərinin üstündə müşahidə etdilər, ancaq onun qarnını parçalamadılar (vəzifələrinə əməl etmədilər). Elə bu səbəbdən də Allah-taala onları Yezid kimi bir fasiqə giriftar etdi.

**Hədisdəki mühüm məqamlar**

1. İslam Peyğəmbərinin (s) buyurduğuna əsasən, İslam xilafəti Əbu Süfyan övladlarına haramdır;
2. Bəni-Üməyyədən olan şəxslər xəlifəlik edərlərsə, İslam dini təhlükələrlə qarşılaşar və aradan gedər;

---

[1] Bu ayəni ölümdən söhbət olunan yerlərdə oxuyarlar.

3. Bəni-Üməyyədən olan bir şəxsin xəlifəlik etməsinə razılaşmaq və susmaq dünyada zillətə və axirət əzabına səbəb olar.

Yezid üç il hakimiyyətdə oldu və hakimiyyət dövründə üç böyük cinayət törətdi. Hakimiyyətinin birinci ili İmam Hüseyni (ə) qətlə yetirməklə Kərbəla hadisəsini törətdi. Hakimiyyətinin ikinci ili Hirrə hadisəsini törətməklə Mədinədə kütləvi qırğın törətdi. Onun əmri ilə Mədinədə on beş min Quran qarisini öldürdülər. Nəhayət, üçüncü il Məkkə şəhərinə od vurdu. Elə Məkkə şəhərində gedən döyüşlər zamanı özü də cəhənnəmə vasil oldu.

Yezid belə cinayətlər törətdiyindən aydın məsələdir ki, onun ətrafındakılar da altıaylıq körpəyə, habelə yetim qızlara belə rəhm etməyəcəkdilər.

**İkinci nümunə**

Əllamə Əmini "əl-Ğədir" kitabında yazır:

–Müaviyə hakimiyyəti ələ aldıqdan sonra özündən sonrakı xəlifə haqqında düşünməyə başladı. Lakin İmam Həsənlə (ə) bağladığı müqavilə onun bu istəyinin qarşısını alırdı. Müqavilənin maddələrindən biri belə idi ki, "Müaviyə özündən sonra heç bir kəsi xəlifə olaraq təyin edə bilməz." Elə bu səbəbdən də düz yeddi il oğlu Yezidi hakimiyyətə gətirmək üçün insanları hazırlaşdırmağa başladı. Bəzilərini qorxutmaqla, bəzilərinə hədiyyələr verməklə, bir başqalarını isə pulla ələ almağa çalışırdı. Gecələri oturub bu haqda düşünür və planlar cızırdı.

Onu da qeyd etmək lazımdır ki, Yezidin müsəlmanlara başçı olmağa heç bir ləyaqəti yox idi. Başçıda olan xüsusiyyətlərin heç biri onda yox idi. Əksinə, o, müsəlmanların rəhbərinə layiq olmayan bütün oyunlardan çıxırdı. Onu yalnız qılınc gücünə hakimiyyətə gətirmək mümkün idi. Müaviyə bu hiylələrlə hətta avam insanları belə aldada bilmirdi.

Müaviyə İmam Həsənin (ə) şəhadətindən sonra öz mənfur niyyətini açıq-aşkar bəyan etdi və Mədinənin valisi Mərvan ibn Həkəmə məktub yazaraq bildirdi:

إني قَد كَبرت سِني ودق عِظِمِي و خشيت الْإِختِلاف علَي الْأُمةِ بعدِي و قَد أنْ أتخير لَهم من يقُوم بعدِي

–Həqiqətən, mən yaşa dolmuşam, sümüklərim yumşalıb və məndən sonra ümmətin arasında ixtilaf düşməsindən qorxuram. (Ümmət parçalanmasın deyə) özümdən sonra bir nəfəri canişin (vəliəhd) təyin etməyi məsləhət görürəm.

Müaviyə bu haqda Mədinə camaatı ilə məşvərət edib nəticəni ona yazmağı Mərvana tapşırdı. Mərvan Mədinənin ağsaqqallarını, qəbilə başçılarını dəvət etdi və onlar bu məsələ ətrafında məşvərət etdilər. Onlar Müaviyənin bu məsləhətini bəyəndilər və Mərvan onların fikirlərini yazıb ona göndərdi.

Müaviyə bu məktubu oxuyub rahatlaşdı və ikinci məktubu yazanda artıq Yezidin adını da hallandırdı. Həmçinin Mərvandan bu barədə Mədinə camaatı ilə məşvərət etməyi istədi. Mərvan yenə də adlı-sanlı insanları toplayıb Müaviyənin yazdığı məktubla bağlı onlarla məsləhətləşdi.

Bunu eşidən Mədinə camaatının bir hissəsi öz etirazını bildirərək qəti şəkildə buna müxalif olduqlarını bəyan etdilər. Etiraz edənlərin arasında Əbdürrəhman ibn Əbu Bəkr və İmam Hüseyn (ə) də var idi. Mərvan hadisələri olduğu kimi Müaviyəyə yazıb əsas müxalifətçilik edənlərin adlarını da ona bildirdi.

Müaviyə ilk olaraq Mərvanı vəzifəsindən kənarlaşdırdı. Çünki Mərvanın da onun bu fikri ilə razı olmadığını başa düşmüşdü və onun yerinə Səd ibn Ası Mədinəyə vali təyin etdi. Sonra ona bir məktub yazıb Mədinə camaatını bu məsələdən

xəbərdar etməsini tapşırdı.[1] Səd ibn As Müaviyənin yazdığı məktubu Mədinənin adlı-sanlı şəxslərinə oxudu. Yenə də onlardan bir hissəsi, o cümlədən Hüseyn ibn Əli (ə), Abdullah ibn Zübeyr, Abdullah ibn Abbas və Bəni-Haşim övladlarının hamısı ciddi şəkildə buna müxalif olduqlarını bildirdilər.

Səd onların etiraz etmələrini Müaviyəyə yazdı. Müaviyə bu dəfə Hüseyn ibn Əliyə (ə), Abdullah ibn Zübeyrə və Abdullah ibn Abbasa ayrı-ayrılıqda məktub yazdı və Sədə həmin məktubları onlara çatdırmasını tapşırdı.

Müaviyənin İmam Hüseynə (ə) yazdığı məktubun məzmunu belədir:

–Sənin barəndə xoşagəlməz sözlər mənə gəlib çatıb. Beyət olunmuş insan barəsində müxalifətçilik etməyinə inana bilmirəm.

و اتقِ اللهِ و لا تردنَ هذِهِ الْأمة فِي الْفِتنةَ و انظُر لِنفْسِك و دِينك و أُمةِ محمدٍ (ص) و لا يستخِفَنك الذِين لا يوقِنونَ.

–Allahdan qorx! Ümməti fitnəyə doğru aparma. Özünü, dinini və Məhəmmədin (s) ümmətini nəzərə al. Yəqinləri olmayanlar səni yüngüllüyə (səbirsizliyə) və iztiraba vadar etməsinlər.

**İmam Hüseynin (ə) Müaviyəyə cavab məktubu**

Səd ibn As Müaviyənin məktubunu İmam Hüseynə (ə) təqdim etdi. Həzrət (ə) onun məktubunu oxudu və ona cavab olaraq bir məktub yazdı. Məktubun məzmunu belədir:

---

[1] Bəni-Üməyyə (başda Müaviyə olmaqla) öz dostlarını, hətta öz ailəsini belə yalnız onlara fayda verdiyi zamana qədər müdafiə edirdilər. Elə ki, onların heç bir faydası olmadığını bilirdilər, onlara qarşı çox amansız olurlar və onların keçmiş xidmətlərini nəzərə almazlar. Allah-təala şeytan kimi bir məxluqun 6000 il etdiyi ibadətini əvəzsiz qoymadı. Şeytan etdiyi ibadətin müqabilində qiyamət gününə qədər möhlət və insanların qəlbinə hakim olmağı Allahdan istədi və Allah-təala da ona bu icazəni verdi.

–İmam Hüseyn (ə) Allaha həmd-səna edərək salamdan sonra yazdı:

أما بعد, فَقَد جاءَني كِتابك تذْكُر فِيهِ أنه إنتهت إلَيك عني أُمور لَم تكُن تظُنني بِها رغْبةً بِي عنها...

–Salamdan sonra bildirmək istəyirəm ki, sənin məktubun gəlib mənə çatdı. Sən o məktubda xəbərdarlıq edirsən ki, səndən mənə xoşagəlməz sözlər çatmışdır və məni tanıdığın üçün o sözlərə inanmadığını bildirirsən...

Müaviyə, heç bir vaxt sənə doğru xəbər gəlib çatmaz. Çünki sənin ətrafında olanların hamısı yaltaqlardır. Ətrafında yaltaqlar olan bir insana heç bir vaxt doğru xəbər gedib çatmaz. Sən kim olduğunu unutmusanmı? Məgər sən Hücr ibn Ədinin qatili deyilsənmi?! O, abid, təvazökar, bidətə müxalif, əmr be məruf və nəhy əz münkər edən bir şəxs idi.

Məgər sən Əmr ibn Həməqin qatili deyilsənmi?! O, ibadət etməkdən bədəni süstləşmişdi. Sən ona aman verdin, əgər səhranın heyvanları bu amanı eşitsəydilər, şəhərə axışıb gələrdilər... Məgər bütün bu cinayətləri törədən sən deyilsənmi?!

سبحانَ الله يا معاوِيةُ لَكأنك لَست مِن هذِهِ الْأُمةِ و لَيسوا مِنك. و قُلْت فِيما قُلْت: لا ترد هذِهِ الْأُمةَ فِي فِتنةٍ. و إني لا أعلَم لَها فِتنةً أعظَم مِن إمارتك علَيها.

–Subhanallah! Ey Müaviyə! Elə bil ki, sən bu ümmətdən deyilsən və bu ümmət də səndən deyildir. [1] Sən məktubunda deyirsən ki, ümməti fitnəyə doğru aparma. Bunu bil, həqiqətən də mən sənin onlara (ümmətə) rəhbərlik etməyindən böyük fitnə tanımıram!

و قُلْت فِيما قُلْت: أُنظُر لِنفْسِك و دِينِك و أُمةِ محمدٍ (ص). و إني و الله ما أعرف أفْضلَ مِن جِهادِك فَإِنْ أفْعلُ فَإِنه قُربةٌ إلَي ربي...

---

[1] Sən ümmətə qarşı elə rəftar edirsən ki, sanki özün bu ümmətdən deyilsən.

–Sən məktubunda deyirsən ki, özünü, dinini və Məhəmmədin (s) ümmətini nəzərə al. Həqiqətən, and olsun Allaha ki, mən sənə qarşı cihad etməkdən böyük fəzilət tanımıram! Əgər bunu edə bilsəm, həqiqətən, bu Allaha yaxın olmağın ən yaxşı yoludur.

Ey Müaviyə! Nə bilirsən elə. And olsun dinimə, keçmiş zamanlarda da möminlərə qarşı hiylə işlətmişlər. Ümidvaram ki, sənin hiylən sənin özündən savayı başqa heç bir kəsə ziyan vurmayacaq.

إتق اللّه يا معاوية و اعلم أن لله كِتاباً لا يغادِر صغيرةً ولا كبيرةً إلا أحصاها

–Ey Müaviyə, Allahdan qorx! Bil və agah ol, Allahın elə bir kitabı vardır ki, (orada) heç bir kiçiyi və böyüyü (bizim zehnimizdən keçirtdiklərimizin, qəlbi inanclarımızın və bədənimizin hərəkətlərinin heç birini) yerdə qoymadan və istisnasız olaraq hamısını daxil etmişdir.

–Bil və agah ol! Allah sənin bədbinlik üzündən öldürdüklərini, böhtan ataraq tutduqlarını və açıq-aşkar şərab içən və itlərlə oynayan törəməni insanlara başçı etmək istəyini unutmayacaqdır. Mən özünü cəhənnəmlik etməyindən, dinini məhv etməyindən və ümmətini zəlil etməyindən savayı başqa bir şey görmürəm. Şərab içənə bir dirhəm belə etibar olunmadığı[1] bir halda ümməti ona necə tapşırırsan?! Tezliklə bu çirkin əməlinin nəticəsini görəcəksən.

*Yetməz başa əmri gər o əmirin içə badə,*
*Peymanəni möhkəm tuta peyman əvəzində.*

*Haşa yetişə məqsədi imanə o millət,*
*Qurda qoyunu tapşıra çupan əvəzində.*

---

[1] Hədislərdə nəql olunub ki, içki içənə heç bir əmanət tapşırmayın, hətta bir dirhəm belə olsa.

**Saleh və səlahiyyətli (layiqli) rəhbərin xüsusiyyətləri**

İmam Hüseyn (ə) münasib vaxtlarda ləyaqətli rəhbərin (özü başda olmaqla) xüsusiyyətlərini insanlara xatırladırdı.

Həzrət (ə) ilk olaraq iki növ haqq və batil rəhbərin olduğunu vurğuladı. Onlardan biri insanları nuraniyyətə, digəri isə zülmətə aparır. Sonra fəsada, azğınlığa və zülmətə aparan rəhbərlərin adlarını çəkir. Bu bölmədə isə insanları nuraniyyətə dəvət edən rəhbərin xüsusiyyətlərini qeyd edir. Nəhayət, sonda isə imamın şərtlərini qeyd edir.

**İmam Hüseynin (ə) Mərvanla Vəlidə cavabı**

Hicrətin 60-cı ilində Müaviyə öldü və oğlu Yezid xilafət taxtında oturdu. Ölkənin bütün valilərinə atasının ölüm xəbərini yazdı və camaatdan yenidən beyət almalarını istədi. Mədinə şəhərinin valisi Vəlid ibn Ütbəyə bir məktub yazaraq Müaviyənin dövründə beyət etməyə razı olmayan üç nəfərdən, yəni Hüseyn ibn Əlidən (ə), Abdullah ibn Ömərdən və Abdullah ibn Zübeyrdən beyət almasını təkidlə tələb edir.

Vəlid məsələ ilə bağlı keçmiş vali Mərvanla məşvərət edir. O, belə məsləhət görür ki, onları gecə ikən dəvət etsin və məsələni onlara bildirsin.

İmam Hüseyn (ə) şam namazını Mədinə məscidində qılıb Abdullah ibn Zübeyrlə söhbət edirdi. Bu zaman Vəlidin göndərdiyi nümayəndə gəlib onları Darül-imarəyə dəvət etdi. Abdullah ibn Zübeyr bu dəvətdən çəkindi və nəyə görə dəvət olunduqlarını soruşdu. Həzrət (ə) buyurdu:

–Mənə elə gəlir ki, bunların (həddini aşmış) zülmkarı (yəni Müaviyə) ölüb.

Sonra Həzrət (ə) buyurdu: “Yuxuda gördüm ki, Müaviyənin evindən alovun şöləleri göyə ucalır və minbəri alt-üst olmuşdur. Ona görə də mən belə düşünürəm ki, Müaviyə ölüb, oğlu hakimiyyəti ələ keçirib və bizdən də beyət istəyəcəklər.

İmam Hüseyn (ə) öz qohumlarından 30 nəfər əli silahlı götürüb Vəlidin yanına getdi. Həzrəti İmam Hüseyni (ə) izzətlə qarşıladılar və İmam (ə) gördü ki, Vəlid keçmiş vali Mərvanla birgə əyləşib məsləhətləşirlər. Onlar Həzrəti (ə) məsələdən xəbərdar etdilər. İmam (ə) buyurdu:

–Mənim kimi bir insanın gizlində beyət etməsi düzgün deyil. Sən də bu cür beyətlə gərək razılaşmayasan. Çünki sənin məndən istədiyin beyət Allah rizası üçün deyil, camaatın diqqətini cəlb etmək üçündür. Elə isə camaatı dəvət edin və biz də məsləhət olsa gəlib sözümüzü deyərik. Gərək bu beyət açıq şəkildə olsun.

Vəlid Həzrətin (ə) bu təklifini qəbul etdi. İmam (ə) çıxıb getmək istədikdə Mərvan işarə ilə bildirdi ki, əgər bu gecə beyət almasan, heç bir vaxt beyət ala bilməyəcəksən. Bu gecə ya beyət al, ya da boynunu vur.

İmam Hüseyn (ə) Mərvana xitab edərək buyurdu:

يابن الزرقاءِ أنت تقْتُلِني أم هو كَذِبت و أِثمت؟

–Ey Zərqanın[1] oğlu, sən məni öldürməyə məmursan, yoxsu bu?! Sən yalançı və günahkarsan (bu işə qarışmağa ixtiyarın yoxdur).

Daha sonra İmam Hüseyn (ə) üzünü Vəlidə tutaraq buyurdu:

أيها الْأمِير ِإنا أهلُ بيتِ النبوة و معدنُ الرسالَةِ و مختِلف الْملاِئكَةِ و مهبط الرحمة ِبنا فَتح الله و ِبنا يختِم. و يزِيد رجلٌ شارِب الْخمِرِ و قَاِتلُ النفْسِ الْمحترمِةِ معِلن ِبالْفِسقِ[٢]. و مِثْلِي لا يباِيع ِمثْلَه و لكِن نصِيح و تصِيحونَ و ننظُر و تنظُرونَ اَينا اَحق ِبالْخِلافَةِ و الْبيعة.

---

[1] Zərqa – Mərvanın nənəsinin adı idi. Hamı onun əxlaqsız bir qadın olduğunu bilirdi.

[2] Müsəlmanın qeybətini etmək böyük günahlardandır. Əgər bir nəfər heç bir kəsin bilməməsi üçün gizlində şərab içirsə və özünü şərab içməyən kimi

–Ey əmir! Bizlər Peyğəmbərin (s) əhli-beyti, risalətin mədəni, mələklərin tez-tez gəlib-getdiyi evin sahibləri və Allahın rəhməti nazil olduğu insanlarıq. Allah hər şeyi (bütün varlıqları) bizimlə başlatmış və bizimlə bitirəcəkdir. Yezid isə şərab içən, əlini günahsız insanların qanına bulayan və fisqü-fücur əməlləri açıq-aşkar yerinə yetirən bir insandır. (Həm bu gün və həm də qiyamət gününə qədər) mənim kimisi onun kimisinə beyət etməz! Ancaq bu xüsusda biz və siz gələcəyi nəzərə almalıyıq. O zaman kimin xilafət və beyət məqamına hansımızın daha səlahiyyətli olduğunu görəcəksiniz.

İmam Hüseyn (ə) "Mənim kimisi onun kimisinə beyət etməz" cümləsi ilə demək istəyir ki, əgər birisi ona beyət etsə, mənim kimi insan deyil, yəni İslamdan çıxmış sayılır, Peyğəmbərin (s) Əhli-beytindən (s) sayılmır. Bir insanın həm Həzrət Peyğəmbərin (s) tərəfdarı olması və həm də Yezid kimi birisinə beyət etməsi mümkün olan bir şey deyildir. Bu bir qanundur və qiyamət gününə qədər də bu qanun qüvvədədir.

İmam Hüseyn (ə) Şəraf və Beyzə məntəqələrində xütbələr oxuyaraq saleh rəhbərin xüsusiyyətlərini sadalamışdır.

Yezid və onun tərəfdarları belə bir insanı qətlə yetirdilər və İslama ən ağır zərbəni vurdular. Bu gün də müsəlmanlar həmin zərbənin acı nəticəsini çəkirlər. Əgər İmam Hüseyn (ə) onların qarşısını almasaydı, bu gün yer üzündə bir müsəlman belə olmazdı. Əgər bu gün Əhli-sünnə "La ilahə illəllah" – deyirsə, buna görə İmam Hüseynə (ə) borcludurlar. Çünki

---

göstərirsə, onun qeybətini etmək haramdır. Bir neçə yerdə isə qeybət hesab olunmur.. Məsələn, həkimə gedəndə, evlənmək üçün elçi gedən insandan məsləhət alanda və s. Onlardan biri də açıq-aşkar fisq (azğın və pozğun) işlərlə məşğul olan insandır. Yəni məsələn şərabı hamının gözü önündə içir. Öz günahını gizlədənin qeybəti haramdır, amma birisi əgər açıq-aşkar günah edirsə, onun qeybəti caizdir. Həzrət (ə) "معلِن ِبالْفِسق" kəlməsi ilə demək istəyr ki, Yezid açıq-aşkar pozğunluq edir.

onlar (Bəni Üməyyə) İslamın kökünü kəsmək istəyirdilər. İslam Peyğəmbəri (s) də vaxtilə, yəni hələ sağ ikən buyurmuşdu ki, əgər onlar hakimiyyətə gəlsələr, İslamın kökünü kəsəcəklər.

Onlar İmam Hüseyni (ə) tanıya-tanıya onu öldürdülər. Onların hamısı bilirdi ki, İmam Hüseyn (ə) Həzrət Peyğəmbərin (s) qucağında böyümüş bir şəxsiyyətdir.

İmam Hüseyn (ə) dünyaya gələndə Əsma onu gətirib Həzrət Peyğəmbərə (s) verdi və onun adını qoymasını istədi. Həzrət (s) onun sağ qulağına azanı, sol qulağına isə iqaməni oxudu. Amma heç bir ad çəkmədi. Cənab Cəbrayıl (ə) nazil olub buyurdu ki, Allah-taala bu uşağın adını Hüseyn qoymağını buyurub.

Bu hədislər o dövrdə məşhur hədislər idi və hamı bunları bir-birinə danışırdı.

İslam Peyğəmbəri (s) buyurmuşdur: "Bir dəfə cənab Cəbrayıl (ə) nazil olmuşdu. Görür ki, Xanım Zəhranı (s.ə) yuxu aparıb və Hüseyn (ə) də beşikdə ağlayır. Odur ki, uşaq sakit olunca və anası yuxudan oyanana qədər yavaş-yavaş xoş sözlər deyərək beşiyi tərpətməyə başlayır."

İmam Həsən (ə) və İmam Hüseyn (ə) bir-birilə güləşirdilər. Həzrət Peyğəmbər (s) və anaları kənardan onlara tamaşa edirdilər. İslam Peyğəmbəri (s) İmam Həsəni (ə) təşviq edərək ruhlandırmağa başladı. Xanım Fatimeyi Zəhra (s.ə) ərz etdi: "Ya Rəsuləllah, Hüseyni (ə) də təşviq elə." Həzrət (s) buyurdu: "Həsəni (ə) mən ruhlandırıram, Hüseyni (ə) isə cənab Cəbrayıl (ə) həvəsləndirir."

İmam Hüseynin (ə) həyatı əvvəldən sonadək nurani bir həyatdır. Həzrət (ə) ana bətnində olandan dünyaya gəldiyi günədək, habelə şəhid olanadək və hətta şəhadətindən sonra da başdan-başa kəramətə, izzətə, möcuzəyə və nuraniyyətə malik bir şəxsiyyət olmuşdur.

## Üçüncü bölüm

## Rəhbərlik etməyin şərtləri

İmam Hüseyn (ə) öz xütbələrində, moizələrində və xüsusilə də kufəlilərə yazdığı məktubda rəhbər olmağın şərtlərini qeyd etmiş və dörd ən mühüm şərti xüsusilə vurğulamışdır.

### Kufəlilərin Həzrət Hüseynə (ə) məktubu

Kufə əhlindən olan Məhəmməd ibn Bəşr Həmdani deyir:

–Müaviyənin ölüm xəbəri Kufəyə yetişəndə Kufənin adlı-sanlı şəxsləri Süleyman ibn Surəd Xəzainin evinə toplaşdılar. Süleyman dedi:

–Müaviyə ölüb, Hüseyn ibn Əlidən (ə) beyət istəyiblər və o da beyətdən imtina edərək Məkkəyə getmişdir. Siz onun və atasının şiələrisiniz. Sizə bir təklifim var, əgər ona kömək etməyə və onun düşməni ilə döyüşməyə hazır olduğunuza əminsinizsə, ona məktub yazıb öz hazırlığınızı elan edin. Yox, əgər əmin deyilsinizsə, süstlük və tənbəllik sizə üstün gələcəksə, düşmənin sizə qələbə çalmasından qorxursunuzsa, o zaman İmamı (ə) Kufəyə dəvət edib aldatmayın.

Məclisdə iştirak edənlər dedilər:

–Biz, Hüseynə (ə) fəda olmağa hazırıq, malımızı da, canımızı da ona qurban etməyə hazırıq. Həqiqətən də onun gəlişi ilə biz bu ixtilaflardan nicat tapa bilərik.

Süleyman dedi: “Elə isə məktub yazıb onu dəvət edin.”

Onlar Süleymanın çıxışından sonra aşağıdakı məzmunda məktub yazdılar:

بِسمِ اللهِ الرحمنِ الرحِيمِ لِحسينِ بنِ عِلي علَيهِ السلام مِن سلَيمانِ بنِ صرد و الْمسيبِ بنِ نجبةَ و رفاعةَ بن شداد و حِبيب بنِ مظاهِر و شِيعتِهِ مِن الْمؤمِنين و الْمسلِمين مِن اَهلِ الْكُوفَة: اَلسلام علَيك فَإِنا نحمد إِلَيك اللهَ الذِي لا إِله إِلا هو. فَالْحمد لِلّهِ الذِي قَصم عدوك الْجبار الْعنِيد الذِي

أنتزي على هذِهِ الْأمة فَابتزها أمرها و غَصبها فِيئَها و تأمر علَيها بِغير رِضي مِنها...

–Bismillahir-Rəhmanir-Rəhim. Süleyman ibn Surəd Xəzai, Müsəyyəb ibn Nəcbə, Rüfaət ibn Şəddad, Həbib ibn Məzahir, Kufə camaatının mömin və müsəlman şiələrinin bir qrupu tərəfindən Hüseyn ibn Əliyə (ə).

Salam olsun sənə! Həqiqətən, biz həmd edirik o Allaha ki, Ondan başqa məbud yoxdur! Allaha şükür olsun ki, sənin düşmənini həlak etdi. Həmin zalım, qaniçən düşmən ümmətin haqqını əlindən alıb, zülm və aldatmaqla hakimiyyəti qəsb etdi. Müsəlmanların beytülmalını öz əlinə keçirib xalqın razılığı olmadan onlara hökmranlıq etdi.

Sonra Müaviyə ilə bağlı onun pak insanları öldürüb, çirkin və napak şəxsləri saxladığını, Allahın bütün nemətlərini zülmkar başçıların ixtiyarına verdiyini qeyd edərək yazırlar:

إِنه لَيس علَينا إِمام. فَأقْبِلْ لَعل الله أنْ يجمعنا بِك علَي الْحق.

و النعمانْ بن بشِير فِي قَصرِ الْإِمارةِ لَسنا نجمع معه فِي جمعةٍ و لا نخرج معه إِلَي عِيدٍ و لَو قَد بلَغنا إِنك قَد أقْبلْت إِلَينا أخرجناه حتي نلْحِقَه بِالشام إِنْ شاءَ الله و السلام.

–Həqiqətən, bu gün biz rəhbərsizik. Bizim (şəhərimizə) gəlin, ümidvarıq Allah-taala sizin vasitənizlə bizi sizin ətrafınızda birləşdirsin (vəhdət yaratsın) və haqq yoluna hidayət etsin.

Nöman ibn Bəşir hökumət sarayındadır. Lakin biz onunla cümə namazında və camaat namazında iştirak etmirik. Bayram günləri onunla birlikdə məscidə getmirik. Əgər bizim yanımıza gəlməyinizi eşitsək, hətta onu Kufədən çıxardıb Şama göndərərik. Vəssəlamu ələykə və rəhmətullahi və bərəkatuhu.

Bu məktub mübarək ramazan ayının onuncu günü İmam Hüseynə (ə) yetişdi. Həzrət (ə) məktubu oxudu və iki gün sonra daha 150 məktub İmama (ə) yetişdi. Bu məktublar da bir, iki, üç, yaxud dörd tanınmış şəxs tərəfindən imzalanmışdı. Yenə də iki gün sonra Kufə camaatından bir qrupu toplaşıb bir məktub yazdılar və onu Hani ibn Hani Səbii, eləcə də Səid ibn Abdullah vasitəsilə İmam Hüseynə (ə) göndərdilər. Məktubun qısa məzmunu belədir:

بسم الله الرحمن الرحيم لحسين بن علي عليه السلام من شيعته من المؤمنين و المسلمين أما بعد: فحي هلاّ فإن الناس ينتظرونك و لا رأي لهم في غيرك فالعجل العجل و السلام عليك.

–Tələsin, xalq sizin yolunuzu gözləyir və sizdən başqa heç bir kəsi istəmir. Tez gəlin, tez gəlin. Allahın salamı olsun sizə!

Daha sonra Şəbəs ibn Rəbi, Həccar ibn Əbcər, Yəzid ibn Haris, Ürvə ibn Qeys, Əmr ibn Həccac Zübeydi və Məhəmməd ibn Əmr ibn Təmimi bir yerə yığışıb Həzrət Hüseynə (ə) daha bir məktub yazdılar. Həmin məktubda deyilirdi:

أما بعد: فقد أخضر الجناب و أينعت الثّمار و طمت الجمام فإذا شئت فأقدم علي جند لك مجند و السلام عليك.

–Tez bir zamanda bizim yanımıza gəlin. Çünki bostanlar yaşıllaşıb, meyvələr yetişib, quyular su ilə dolubdur.[1] Bizim yanımıza gəl ki, öz hazır və silahlanmış qoşunun sənin intizarını çəkir. Vəssəlamu ələykə.

**İmam Hüseynin (ə) Kufə camaatına məktubu**

İmam Hüseyn (ə) məktubları oxudu və həmin məktubları gətirənlərdən Kufədəki vəziyyəti öyrəndi. Sonra isə həmin məktubların cavabını yazdı:

---

[1] Yəni hər şey qaydasındadır.

بسم الله الرحمن الرحيم من حسين بن علي عليه السلام إلي الملاء من المؤمنين و المؤسلمين. أما بعد: فإن هانئاً و سعيداً قدما علي بكتبكم (و كانا أخر من قدم علي من رسلكم). و قد فهمت كل الذي اقتصصتم و ذكرتم و مقالة جلكم: إنه ليس علينا إمام. فأقبل لعل الله أن يجمعنا بك علي الهدي و الحق.

و قد بعثت إليكم أخي و ابن عمي و ثقتي من أهل بيتي (مسلم بن عقيل) و أمرته أن يكتب إلي بحالكم و أمركم و رأيكم.

فإن كتب إلي أنه قد أجمع رأي ملئكم و ذوي الفضل و الحجي منكم علي مثل ما قدمت علي به رسلكم و قرأت في كتبكم أقدم عليكم و شيكاً إن شاء الله.

–Bismillahir-Rəhmanir-Rəhim. Hüseyn ibn Əlidən (ə) bir qrup mömin və müsəlmanlara. Həqiqətən, Hani və Səid sizin məktublarınızı mənə çatdırdılar. (Mənə çatan axırıncı məktublarınızı da oxudum.) Mən sizin danışığınızdan və yazdığınız məktublardan belə başa düşdüm ki, sizin əksəriyyətiniz "həqiqətən, bu gün biz rəhbərsizik. Bizim (şəhərimizə) gəlin, ümidvarıq Allah-taala sizin vasitənizlə bizi sizin ətrafınızda birləşdirsin (vəhdət yaratsın), hidayət etsin və haqq yoluna yönəltsin", – deyə söyləyirsiniz.

Mən öz qardaşımı, əmimoğlu və ailəmdən inandığım (etibar etdiyim) adamı (yəni Müslüm ibn Əqili) sizin yanınıza nümayəndə olaraq göndərdim və ona sizin vəziyyətinizi, məqsədinizi, rəyinizi öyrənib mənə yazması barədə göstəriş verdim.

Əgər həqiqətən, o, sizin böyüklərinizin rəylərini təsdiqləsə və Kufədəki vəziyyəti sizin yazdığınız kimi yazsa, tezliklə sizin yanınıza gələcəyəm. İnşallah!

Həzrət məktubun davamında yazır:

فَلْعمرِي ما الْإمام إلا الْعامِلُ بِالْكِتابِ و الْآخِذُ بِالْقِسطِ و الدائِن بِالْحق و الْحابِس نفْسه علَي ذاتِ اللهِ و السلام.

–And olsun öz canıma! Rəhbər (imam) yalnız kitaba (Qurana) əməl edən, ədaləti (lazımınca) icra edən, haqqa dəvət edən və özünü Allahın zatına bağlayan (yalnız Allahın rizası üçün əməl edən) şəxsdir. Vəssəlam.

## Qeyd olunmuş dörd şərtin izahı

**Birinci şərt: Qurana əməl edən olmalıdır**

Rəhbər olmağın birinci şərti budur ki, rəhbər olmaq istəyən Quranı tanımalı və ona əməl etməlidir. Qurani-kərim üç mövzu ətrafında bəhs edir:

1. Əqidələr (ideologiya);
2. Şəriət hökmləri;
3. Əxlaq.

Müsəlmanlara rəhbərlik etmək istəyən bir şəxs dini qanunlara əməl etməkdə başqalarına nümunə olmalıdır. Onun əxlaqı və əqidəsi Quran əxlaqı və əqidəsi ilə uyğun olmalı, şəriət hökmlərinə də əməl etməlidir. Dini qanunları düzgün bilməyən bir şəxs bunları yerinə yetirə bilməz.

**İslamın meydana gəldiyi ilk dövrün faciəsi**

Müəyyən səbəblərə görə İslamı qəbul edən, amma onun qanunlarından xəbəri olmayan kəslər İslamın ilk dövrlərində bəzi ölkələrdə hökmdar oldular. Camaat onları İslamın nümayəndəsi kimi qəbul etdi və onlar da İslamı öz istədikləri kimi təbliğ etməyə başladılar. Məsələn, Müaviyənin Şama başçı təyin olunmasını və ya bunun kimi bir çox başqa misalları qeyd etmək olar.

Onlar Həzrət Peyğəmbərin (s) əvəzindən özlərinin hakim olduqlarını elan edir və Həzrət Peyğəmbərin (s) yerində əyləşirdilər, halbuki bu adamların İslamdan heç bir xəbərləri yox idi. Onların təyin etdiyi qazılar və valilər səhv hökmlər verirdilər və yalnız öz qarınlarını və tutduqları vəzifəni düşünürdülər. Bundan başqa onlar heç nəyə fikir vermirdilər.

İslam ölkələrinin mərkəzi olan Mədinə şəhərində Həzrət Əli (ə) hərdən onların bu əməllərinin qarşısını ala bilirdi. Amma mərkəzdən uzaq məntəqələrdə onlar İslam adından öz bildiklərini camaata deyirdilər. Elə bu səbəbdən də müsəlmanlar arasında tamamilə fərqli bir qrup formalaşdı ki, sonralar bu da müsəlmanların bir-birinə qarşı müxalifətçilik etmələrinə gətirib çıxardı. Çünki onlar Həzrət Peyğəmbərin (s) hökmləri əsasında tərbiyə olunmamışdılar.

**Altıaylıq uşağı dünyaya gətirən qadın**

İkinci xəlifənin dönəmində altıaylıq hamilə olan qadın dünyaya bir uşaq gətirdi. Onu xəlifənin yanına gətirdilər. Xəlifə onu cəzalandırmaq (daşqalaq etmək) əmrini verdi. Çünki həmin xəlifə elə bilirdi ki, hamiləlik dövrü yalnız doqquz ay müddətində olur.

Bu xəbər Həzrət Əliyə (ə) gəlib çatdı. Həzrət (ə) buyurdu: "O, müttəhim deyil."

Xəlifə həmin qadını cəzalandırmadı və bir nəfəri göndərdi ki, onun səbəbini Həzrət Əlidən (ə) soruşsun. Həzrət (ə) buyurdu: "Qurani-kərim buyurur:

وَالْوَالِدَاتُ يُرْضِعْنَ أَوْلَادَهُنَّ حَوْلَيْنِ كَامِلَيْنِ

–Analar öz övladlarına iki il tamam süd verməlidirlər.[1]

Başqa ayədə isə buyurulur:

وَحَمْلُهُ وَفِصَالُهُ ثَلَاثُونَ شَهْرًا

---

[1] Bəqərə surəsi, 233-cü ayə.

–Onun (ana bətnində) daşınması və süddən ayrılması (ana bətnində qalması ilə süd əmmə müddəti üst-üstə) otuz aydır.[1]

Buradan da belə bir nəticəyə gəlirik ki, otuz aydan iki ili, yəni 24 ayı çıxsaq, altı ay qalar. Quranın məntiqinə əsasən, qadın altı ayda da uşağı dünyaya gətirə bilər.

Müasir dövrün alimləri də təsdiq edirlər ki, uşaq ana bətnində ən azı altı ay, ən çoxu isə on üç ay qala bilər. Deməli, əgər bir qadın altıncı ayda uşağı dünyaya gətirsə, ona şər atmaq olmaz. Həmçinin əgər bir qadın evlənəndən sonra əri səfərə getsə və qadın 12 və ya 13 aydan sonra dünyaya uşaq gətirsə, ona da heç bir irad tutmaq olmaz.

Təəssüflər olsun ki, İslam tarixində belə nümunələrin sayı olduqca çoxdur. Onların cəhaləti nəticəsində müsəlmanlar İslam təlimlərindən xəbərsiz şəkildə formalaşırdılar. İslam təlimlərinə əsasən müsəlmanların rəhbəri gərək alim, islamşünas olsun və Quranı gözəl bilsin. Elə bu səbəbdən İslam Peyğəmbəri (s) dünyadan gedəndə Quranla Əhli-beyti (ə) əmanət olaraq müsəlmanlar arasında qoyub getdi. Yəni Həzrət Peyğəmbər (s) bununla demək istəyirdi ki, məndən sonra da Quranı düzgün təfsir edən şəxslərə ehtiyac vardır. Quran bir elmdir, onun yanında onu düzgün bilən və düzgün şərh edə bilən insan olmalıdır. Onun yanında belə bir insan olsa, onda Quran insanlara fayda verəcəkdir.

Çox təəssüflər olsun ki, bu gün hər yerindən duran da "mən özüm Quranı oxuyub başa düşəcəyəm" – deyir. Belə ki, Quranın tərcümə variantını oxuyaraq özü üçün hökmlər qəbul edir və bunun nəticəsində də hər kəs özü üçün bir yol təyin edir.

Quranı düzgün izah etmək üçün gərək onun yanında Həzrət Əli (ə), İmam Həsən (ə), İmam Sadiq (ə) və digər imamlar olsun.

---

[1] Əhqaf surəsi, 15-ci ayə.

Mərhum İmam Xomeyni (r) vaxtilə M. Qorbaçova elmi və fəlsəfi bir məktub yazmışdı. Adətən, hər bir ölkə digər ölkəyə məktub yazanda əvvəlcə onu xarici işlər nazirliyinə verərlər. Xarici işlər nazirliyi isə o məktubu həmin ölkədəki səfirliyinə göndərər və səfirlik də məktubu aidiyyəti orqana çatdırar. İmam Xomeyninin (r) məktubunu isə səfirliyə verməmədilər və məktubu görkəmli alim və fəlsəfə ustadı Ayətullah Cavadi Amuli ilə göndərdilər. Onu fəlsəfə ustadı olan bir qadın da müşayiət edirdi. Görəsən, bu məktub nəyə görə onlarla göndərildi. Çünki bu məktub siyasi bir məktub deyildi, elmi bir məktub idi. Əgər Qorbaçov o məktubun hər hansı bir hissəsini başa düşməsəydi, məktubun canlısı onun yanında hazır dayanmışdı. Yəni Ayətullah Cavadi Amuli həmin məktubun canlısı idi və hər bir hissəsini də izah etməyə hazır idi.

**“Səqəleyn” hədisinin mənası**

Elə bu səbəbdən də İslam Peyğəmbəri (s) hələ dünyadan köçmə ərəfəsində Quranı insanlara başa salmaq üçün Həzrət Əlini (ə) təyin etmişdir. Çünki İmam Əli (ə) hər şeyi çox gözəl bilirdi və Əhli-beyt (ə) həmişə Quranın yanında olmalıdır. Əgər onları bir-birindən ayırsalar, insanlar yollarını azarlar.

Əmmar Yasər[1] deyir: “Günlərin birində Həzrət Əli (ə) ilə səfərə çıxmışdıq. Yolda dincəlmək üçün atlardan endik. Gördük ki, səhrada çoxlu qarışqalar vardır. Qarışqaların çoxluğuna təəccüblənib dedim:

ألله أكبر جل محصيه

–Allahu əkbər, bunların sayını bilən Allah necə də əzəmətlidir!

---

[1] İslam aləmində Əmmar Yasər çox pak və böyük bir şəxsiyyət hesab olunur. Onun qanı və canı imanla qarışmışdı. İslam Peyğəmbəri (s) Əmmarı dəfələrlə tərifləmişdir.

Həzrət Əli (ə) buyurdu: “Elə demə, bu cür de:

أَللهُ أَكْبر جل بارِيِهِ

–Allahu əkbər, bunları yaradan Allah necə əzəmətlidir!”

Dedim: “Ya Əmirəlmöminin, məgər Allahdan başqa onların sayını bilən varmı?” Həzrət (ə) buyurdu:

قَو الّذي صورك إِني أحصى عددها و أعلَم الذّكَر و الْأُنثي بِاذنِ اللهِ عز و جل

–And olsun Allaha! Allahın izni ilə həm onların sayını bilirəm, həm də (hansının) erkək və (hansının) dişi olduğundan da xəbərdaram.

Sonra Həzrət Əli (ə) soruşdu:

أما قَرأت فِي سورة يسِ: كُل شيءٍ أحصيناه فِي إِمامٍ مبِينٍ

–Məgər “Yasin” surəsində “Biz hər bir şeyi açıq-aşkar nüsxələrdə (“Lövhi-məhfuz”da) ətraflı şəkildə imamın (sinəsində) sayıb hesablamışıq” ayəsini oxumamısan?

Əmmar dedi: “Bəli, oxumuşam.”

Həzrət Əli (ə) buyurdu:

أنا ذِلك الإِمام الْمبِين الذِي أحصى اللهُ فِيهِ عِلْم كُل شيءٍ

–Allahın bər bir şeyi sayıb hesabladığı və sinəsində yerləşdirdiyi açıq-aşkar imam mənəm.

Sonra buyurdu: “Səhraların və çayların qumunun, uçan quşların, yağış damcılarının, insanların aldığı nəfəslərin sayını və ana bətnində olan uşaqlardan hansının tələf olacağını, hansının uşaq olaraq dünyaya gələcəyini, hansının mömin və ya hansının kafir olacağının elmini Allah-taala mənim sinəmdə qərar vermişdir.”

Elə bu səbəbdən də Həzrət Əli (ə) müharibələrdə bəzi vaxtlar qarşısına çıxan insanları öldürmürdü. Bir dəfə o həzrətdən bunun səbəbini soruşdular: “Ey Əli, sənin döyüş taktikan başqalarının taktikasından tamamilə fərqlidir. Bəzi

vaxtlar sənin qarşına zəif bir insan çıxır və səninlə döyüşür, amma sən onu öldürmürsən. Lakin hansısa bir pəhləvanı öldürürsən.” Həzrət Əli (ə) onların cavabında buyurdu: “Öldürmədiyim insanın belində (nütfəsində) mömin uşaq var, gələcəkdə dünyaya gələcəkdir. Bu səbəbdən də onu öldürmürəm.”

Elə buna görə də İslam Peyğəmbəri (s) buyurmuşdur:

عِلي مع الْقُرآن و الْقُرأنُ مع عِلي

–Əli Quran ilə, Quran da Əli ilədir.

İmam müsəlmanların başçısı və Quranı təfsir edən insana deyilər. Əgər Quranı ondan ayırsan, insanlar azğınlıq yoluna düşərlər. Bu gün Quranı öpməklə onu çox əzizləyirlər, amma Quranın ayələrinə əməl olunmur. Bəzi insanlar Quranı yerə qoyanda etiraz edirlər, amma onun ayələrinə əməl olunma baxımından vəziyyət heç də yaxşı deyil, lakin onlar buna narahat olmurlar.

Həzrət Əli (ə) buyurmuşdur: “Bir gün gələr, Quranın həqiqi mənası ən ucuz qiymətə olar.”

Bunun səbəbi isə Quranın imamdan ayrılmasıdır. Halbuki onları bir-birindən ayırmaq olmaz.

**Həzrət Əbülfəzl Abbas (ə) barədə bir hekayə**

Həzrət Əbülfəzl Abbas (ə) İslam tarixinin görkəmli, qəhrəman və müqəddəs şəxslərindən biridir. Çox təəssüflər olsun ki, bu həzrət barəsində yalnız rövzə məclislərində söz açılır. Onun uşaqlıq illəri, gənclik dövrü, müharibələrdə iştirak etməsi, elmi, əxlaqı və ibadəti barədə müxtəlif kitablarda məlumatlar qeyd olunmuşdur. Onun həyatı çox uzun olmasa da, amma eyni zamanda bərəkətli bir ömür sürmüşdür.

Bir nəfər deyir: “Bir dəfə öz-özümə düşündüm ki, görəsən, həkim, alim və Həzrət Peyğəmbərin (s) ən yaxın səhabəsi olan

Salman Farsi fəzilətlidir, yoxsa Həzrət Əbülfəzl Abbas (ə)? Yatdım və yuxuda gördüm ki, Salman gəldi və "Bu nə müqayisədir ki, edirsən?" – deyə mənə söylədi.

Həzrət Əli (ə) ömrünün son günlərində Həzrət Əbülfəzl (ə) haqqında buyurdu: "Sənin sayəndə qiyamət günü mənim gözlərim nurlanacaq (aydın olacaq)."

Həzrət Əli (ə) bu fikri söyləyəndə Əbülfəzl (ə) ağanın cəmi 14 yaşı var idi.

İmam Səccad (ə) buyurmuşdur: "Cənnətdə bütün şəhidlər əmim Abbasın məqamına qibtə edəcəklər."

Mərhum Mərəşi Nəcəfi deyir: "Bir hacətim var idi. Cəmkəran məscidinə gedib oraya məxsus olan namazı qıldım və gecəni səhərə qədər orada qaldım. Buna baxmayaraq, hacətimi ala bilmədim. Bir müddət Cəmkəran məscidinə gedib yenə də hacətimi istədim, amma ala bilmirdim. Günlərin birində Cəmkəran məscidində namazlarımı qurtarandan sonra ürəyimdə İmam Zamana (ə.c) müraciət edərək dedim: "Ağa, sənin mübarək vücudun olan yerdə mən başqasına təvəssül edim?" Sonra özümdən asılı olmayaraq dedim: "Sən ola-ola mən Əbülfəzlə təvəssül edim?"

Bunu deyəndən sonra bir az kövrəldim və ağlamağım gəldi. Sonra məni yuxu apardı. Yuxuda gördüm ki, Həzrət (ə) gəlib buyurdu: "Mən olan yerdə başqasına, əlbəttə ki, təvəssül edə bilərsən. Hətta mən sənə təkidlə deyirəm ki, get Əbülfəzlə təvəssül elə!"

Yuxudan ayıldım, halım tamamilə fərqli idi. Həzrətin (ə.c) əmrinə əsasən, Həzrət Əbülfəzl (ə) ağaya təvəssül etdim və istəyimi də ala bildim.

Bəzi insanlar "təvəssül etmək bidətdir" – deməklə müəyyən nurani qapıları öz üzlərinə bağlayırlar. Onların əqidəsinə görə, təvəssül etmək düzgün deyil. Onların belə deməsinə baxmayaraq, minlərlə insan məhz məsumlara təvəssül etməklə öz istəklərinə nail ola bilmişlər.

Bir nəfər deyir: "Uşağım ağır xəstə idi. Həkimlər də onun barəsində heç bir söz deyə bilmirdilər. Həyat yoldaşım ələvi (yəni seyid) idi. Onunla birlikdə uşağı da götürüb Kərbəlaya apardıq. Orada dostların evində qalmalı olduq. Yoldaşım çox narahat idi və gecə evdə qala bilmədi. Uşağı evdə yatızdırıb gecə ikən Həzrət Əbülfəzlin (ə) hərəminə getdi və sübhədək Allaha yalvarıb münacat etdi.

Mən isə evdə, yəni uşağın yanında oturmuşdum. Sübh namazından bir az sonra gördüm ki, qapı döyülür. Qapıya çıxdım, gördüm ki, bizi tanıyanlardan biridir.

Məndən soruşdu: "Nə xəbərdir, nə olub?"

Mən dedim: "Nəyə görə soruşursan?"

Dedi: "İndi sizi yuxuda gördüm."

Mən dedim: "Nə gördün?"

O, evə daxil oldu və yuxusunu danışmağa başladı. Dedi:

–Yuxuda gördüm ki, Həzrət Əbülfəzlin (ə) hərəmində əyləşmişik. Elə bu vaxt İslam Peyğəmbərinin (s) moizə etmək üçün gəldiyini bizə xəbər verdilər. Həzrət Əbülfəzlin (ə) dəfn olunduğu yerin baş tərəfinə bir minbər qoydular və dedilər ki, Həzrət Peyğəmbər (s) burada moizə edəcək. Gördüm ki, Həzrət Peyğəmbər (s) minbərdə əyləşib, amma moizə yox, dua edir. Bu vaxtı iki mələk gəlib "Ya Rəsulallah, bizi Əbülfəzl (ə) göndərib və deyir ki, xahiş edirəm, o ələvi qadının oğluna da dua etsin", – deyə söylədilər. Həzrət Peyğəmbər (s) həmin iki mələyə buyurdu ki, gedin deyin, onun ömrü qurtarmışdır. Allahın istəyi ilə o, dünyadan getməlidir.

O iki mələk getdilər və yenidən qayıdıb gəldilər və dedilər: "Həzrət Əbülfəzl (ə) o ələvi qadının oğluna da dua etməyinizi xahiş edir."

İslam Peyğəmbəri (s) yenə həmin cavabı verdi. Həmin iki mələk üçüncü dəfə də gəlib qayıdandan sonra çox qəribə bir mənzərə yarandı və qəlbimizi vəhşət bürüdü. Dördüm ki,

mələklər yol açırlar və Həzrət Əbülfəzl (ə) Kərbəlada olduğu surətdə (iki qolu qələm olunmuş vəziyyətdə) gəlir. Gəlib Həzrət Peyğəmbərin (s) qarşısında dayanaraq belə ərz etdi: "Ya Rəsulallah, mən xahiş etməyə gəlmişəm. O ələvi qadın gecəni səhərə kimi mənim yaxamdan yapışıb və "Babül-həvaic" deyərək oğlunun şəfaətini məndən istəyir. Ya denən ki, Allah bu adı mənim üzərimdən götürsün, ya da onun oğluna şəfa versin."

Həzrət Peyğəmbər (s) dua edəndə mən yuxudan ayıldım.

Sonra həyat yoldaşımı çağırmaq üçün bir nəfəri onun dalınca göndərdik. Xanım evə gələndən sonra uşaq da şəfa tapdı.

Elə bu səbəbdən Həzrət Əbülfəzlə (ə) "Babül-həvaic", yəni "Hacətlər qapısı" deyilir.

*Yapışıb daməni mövlayi vəfadarindən,*
*Elə bil haci tutub Kəbənin astarindən,*
*Şəbnəmi xiclət axır, laleyi ruxsarindən,*
*Yusif heyrətdə qalıb gərmiye bazarindən,*
*Harda Yusif bu qədər gərmiye bazar eləyir.*

Həzrət Əbülfəzl (ə) üç imamın öpdüyü qollarla İmam Hüseynin damənindən (ə) yapışıb döyüşmək üçün izin istədi. Buyurdu: "Əkbərin nəşini əbada görmək mənim üçün çox çətindir. Xeymələrdən gələn "əl-Ətəş" səslərinə dözə bilmirəm."

Əbülfəzl (ə) ağa izin aldıqdan sonra düşmənin qoşununu yarıb keçdi və Fərat çayına daxil oldu. Tuluğu su ilə doldurduqdan sonra özü də çox susuz olduğundan su içmək istədi. Ovcunu su ilə doldurdu və dodaqlarına yaxınlaşdırdı, amma İmam Hüseynin (ə), Əliəsğərin (ə) susuzluğunu yadına salıb suyu içmədi. Əgər suyu içsəydi də belə heç bir kəs onu qınamazdı.

Beləcə, su tuluğunu götürüb xeymələrə sarı irəlilədi. Yolda onun həm məşkini oxla vurub deşdilər, həm də qollarını kəsib atdan yerə saldılar.

Həzrət Əbülfəzl (ə) ağa ömrü boyu İmam Hüseynə (ə) “qardaş” yox həmişə ona “Ağa” deyərək müraciət edərdi. Amma atdan yerə yıxılanda dedi: “Qardaş, Hüseyn (ə), gəl başımın üstünə. Əgər mənə görə gəlmirsənsə, anan Xanım Zəhra (s.ə) buradadır, ona xatir gəl.”

İmam Hüseyn (ə) əksər şəhidləri xeymələrə aparırdı. Əbülfəzlin (ə) cənazəsinin üstünə yetişəndə hələ Əbülfəzl (ə) şəhid olmamışdı. İmam Hüseyn (ə) əlini belinə qoyub buyurdu:

–İndi mənim belim qırıldı.

Yəni Əkbər öləndə belim sınmamışdı, amma indi belim qırıldı.

*Oğul ölümü təqərrübdə çox ucaltdı məni,*
*Amma sənin ölümün heyf ola qocaltdı məni.*

**İkinci şərt: Haqqı icra edən olmalıdır**

Rəhbər olmağın ikinci şərti “الدائن بالحق” (əd-dainu bil-həqq), yəni rəhbər gərək haqqı icra edən olsun. “الدائن بالحق” ifadəsi çox dəqiq bir ifadədir və imamətin, rəhbərliyin ən əsas şərtlərindən biridir. Rəhbər gərək haqqı icra etsin, heç bir vaxt haqdan uzaqlaşmasın, özünü haqqa borclu hesab etsin (özünü haqqın qarşısında məsuliyyətli bilsin) və borclu olduğunu heç vaxt unutmasın. Haqqı icra edərkən özünü ağa, lütfkar kimi yox, borclu olan bir şəxs kimi bilməlidir. İlk gündən ömrünün son gününə qədər haqqa borclu olduğunu unutmamalıdır.

## Haqq əbədi, batil isə müvəqqətidir

Bu şərt rəhbərlik etməyin ən əsas şərtlərindən biridir. Çünki haqq hər şeydən fərqlidir. Haqq əbədidir. Allah-taala Qurani-kərimin “Rəd” surəsinin 17-ci ayəsində haqq barəsində bir misal çəkir və bu misalla hər şey aydınlaşır.

أنزلَ مِن السماء ماء فَسالَت أودِيةٌ بِقَدرِها فَاحتملَ السيلُ زبدا رابِيا ومِما يوقِدون عليه في النارِ ابتغاء حِلْيةٍ أو متاعٍ زبد مثْله كَذَلك يضرب اللّه الْحق والْباطِلَ فَأما الزبد فَيذْهب جفَاء وأما ما ينفَع الناس فَيمكُثُ في الأرضِ كَذَلك يضرِب اللّه الأمثَالَ

–(Allah) göydən (yağış, qar və dolu şəklində) su nazil etdi. Beləliklə, çaylar(ın hər biri) öz tutumu miqdarında (su götürərək) axdı və sel öz üzərində köpük apardı. Həmçinin (ocaqlarda) zinət və bəzək əşyaları və ya yaşayış vasitələri əldə etmək məqsədilə üzərində od yandırılan şeydə də (mədənlərin qarışıq torpağında da) selin köpüyü kimi köpük vardır. Allah haqq ilə batili belə misal çəkir (həqiqətlər su və filizlər, batillər isə onların köpükləridir). Amma o köpük bir kənara gedərək məhv olur, (sular və ərimiş filizlər kimi) insanlara fayda verən şey isə yerdə qalır. Allah misalları belə çəkir.

Allah-taala bu ayədə iki misal çəkir. Suyun və filizin köpüklərinə dair misalı. Belə ki, su ilə filizləri həqiqət, onların köpüklərini isə batil olaraq qeyd edir. Məsələn, suyun köpüyü 5 və ya 10 dəqiqədən sonra, filizlərin köpüyü isə 2 və ya 5 saatdan sonra aradan gedir. Batil yolda olan hər bir insan ən çoxu 10 və ya 15 ildən sonra məhvə məhkum olur. Fironlar hətta 400 il müddətində belə hakimiyyətdə oldular. Ancaq bu müddət Allah-taalanın dərgahında çox az bir müddətdir.

**Ayədəki incə məqamlar**

1. Haqq həmişə faydalıdır. Suyun və xalis filizlərin çox böyük faydası vardır. Amma suyun və ya filizin köpüyünün insana heç bir faydası yoxdur.

2. Haqq da su kimi həyat mənbəyidir.

3. Batilin insana heç bir faydası yoxdur. Suyun köpüyü insanı sirab edə bilmir və həmçinin filizin köpüklərindən də zinət əşyaları düzəltmək mümkün deyildir. Amma su insanı sirab edir. Su olan yerdə yaşıllıq da vardır. Hər şey sudan bəhrələnir. Quranda belə deyilir: “Biz hər bir şeyi sudan yaratmışıq.”

4. Batil həmişə hay-küylu və təkəbbürlü, habelə həmişə içiboş və mənasız olur.

5. Haqqın isə səs-küyü az, faydası isə çox olur. Yəni əməl əhli olurlar.

6. Haqq həmişə özünə güvənir (özünə inamlı olur) və öz şərafətindən istifadə edir. Şərafət onun zatındadır.

7. Batil isə həmişə haqqın abrından bəhrələnir. Özünə haqqın donunu geyindirir.

Əgər aləmdə haqq söz olmasaydı, heç bir kəs yalana inanmazdı. İnsanların yalana inanmaları onun doğru olduğuna ehtimal verdiklərinə görədir. Yəni yalan doğrunun hesabına irəliləyir. Yalanın heç bir müstəqilliyi yoxdur. O, doğru sözün kölgəsinə sığınaraq öz istəyini həyata keçirir.

Həzrət Əli (ə) bu məsələni “Nəhcül-bəlağə”nin 9-cu xütbəsində çox gözəl şəkildə bəyan etmişdir. Cəməl müharibəsində Təlhə ilə Zübeyri qınayaraq buyurur:

و قَد أَرعَدوا و أَبرقُوا و مع هذَينِ الْأَمرينِ الْفَشَلُ[1]. و لَسنا نرعِدُ حتي نوقِع و لا نسِيلُ حتي نمطِر.

–İldırım kimi guruldayaraq qorxutdular və şimşəktək çaxaraq yerlərindən qopdular. (Boş sözlərlə, səs-küylə fitnə-fəsad yaratdılar və müharibəyə şəriat yaratdılar.) Bu coşqu və gurultuya baxmayaraq, döyüş vaxtı aciz və qorxaq idilər.

---

[1] “الْفَشَلُ” sözü bütün işlərində heç bir müvəffəqiyyət əldə edə bilməyən insana deyilir.

Biz isə görünənə qədər səs salıb qorxutmuruq. (Sözlərimizi əməllərimizlə əlaqələndiririk), yağmayana qədər sel axıtmırıq.

Bu xütbənin söylənməsindən təxminən 1400 ilə yaxın bir müddətin ötməsinə baxmayaraq, sanki Həzrət Əli (ə) bu günü görür və ona uyğun xütbə oxuyurdu. Ardınca da buyurur ki, lakin biz belə deyilik. Biz nə səs-küy salarıq və nə də insanları qorxudarıq. Biz dünyanın hər bir yerində olan müharibələrə müxalifik. Yox, əgər bizə qarşı kim müharibə etmək istəsə, onu öz yerində oturdarıq. Biz sel kimiyik, onlar isə köpük kimidirlər.

**Haqq qalacaq, batil isə məhvə məhkumdur**

Allah-taala Qurani-kərimin "İsra" surəsinin 81-ci ayəsində haqqın xüsusiyyətlərindən birini belə bəyan edir:

وَقُلْ جاء الْحق وزهق الْباطِلُ إِن الْباطِلَ كانَ زهوق

–Və de: "Haqq gəldi və batil məhv oldu, həqiqətən, batil həmişə məhvə məhkumdur."

Beş gün, on gün, bir il əvvəl axır ki, batil aradan gedəcəkdir. İnsanların mərifəti, ağlı və millətlərin imanı çoxaldıqca batilin davamiyyəti bir o qədər azalacaq. Əksinə, onların şəhvətləri çoxaldıqca batilin davamiyyəti də artacaqdır. Çünki onun zatında əbədiyyət yoxdur. Eynilə uşaqların oynatdığı bir şar kimidir. Ya uşaqlar onu partladar, ya da bir müddətdən sonra öz-özünə partlayar.

**Qələbə haqq ilədir**

Allah-taala "Mücadilə" surəsinin 20-21-ci ayələrində buyurur:

إِن الَذِين يحادونَ الله و رسولَه أُولَئِك فِي الأَذَلين. كَتب الله لَأَغْلِبن أَنا و رسلِي إِن الله قَوِي عزِيز

–Şübhəsiz, Allah və Onun Rəsulu ilə düşmənçilik edənlər ən zəlil kəslər zümrəsindəndirlər. Allah (Öz əzəli elmi ilə

Lövhi-məhfuzda) yazmış və qərara almışdır: “Mən və peyğəmbərlərim qalib gələcəyik.” Şübhəsiz, Allah qüvvətli, qüdrətli və məğlubedilməzdir.

Tarix boyu Allah və Onun peyğəmbərləri həmişə qalib olmuşlar. Göyün buludları, ildırımlar müvəqqəti olaraq hay-küy yaradırlar. Amma az bir müddətdən sonra onlar göy üzündən çəkilir və günəşin öz yerində olduğunu hamı görür.

Allah-taala Quranda buyurur ki, təkcə peyğəmbərlər qalib deyil, onlara tabe olan ümmətlər də qələbə qazanacaqlar. “Ğafir” (Möminun) surəsinin 51-ci ayəsində Allah-taala buyurur:

إِنا لَننصر رسلَنا والذِين آمنوا فِي الْحياةِ الدنيا ويوم يقُوم الْأَشهاد

–Həqiqətən, Biz Öz peyğəmbərlərimizə və (onlara) iman gətirənlərə dünya həyatında və şahidlərin(in) ayağa qalxdıqları gündə kömək edərik.

Bu qalibiyyətin şərti “iman”dır. “Ali-İmran” surəsinin 139-cu ayəsində buyurulur:

ولاَ تهِنوا ولاَ تحزنوا وأَنتم الأَعلَونَ إِن كُنتم مؤمِنِين

–Heç vaxt (düşmən qarşısında) süstləşməyin və (düçar olduğunuz bəlalara görə) kədərlənməyin, əgər (həqiqi) mömin olsanız, siz üstünsünüz.

**İmanın şərt olmasının izahı**

Bəziləri “Mən möminəm, mən Həzrət Peyğəmbəri (s) qəbul edirəm, mən Quranı qəbul edirəm” və s. kimi ifadələri dilinə gətirir, amma əməldə onun kafirlə heç bir fərqi yoxdur. Azan səsi minarələrdən ucalanda o da kafir kimi əyləşir və heç bir reaksiya vermir. Orucluq ayında kafir yemək yeyir, o da yeyir. Naməhrəm görəndə kafir baxır, o da baxır. Haram səslər gəlir, kafir də eşidir və ondan ləzzət alır, o da. Buna iman deməzlər. Çünki halva-halva deməklə ağız şirin olmaz.

“İmanlı olmaq”da məqsəd budur ki, yəni öz halını (vəziyyətini) dəyişsin. İmanlı olmaq, yəni:

1. Bir (müttəhid) olmaqdır. Pərakəndə olan ümmət ya daxilən imansızdır, ya da imansızların əlində əsirdir (giriftardır). Çünki xalqların bir olması onlara sərf etmir;

2. İmanda xalis niyyət olmalıdır. Niyyət xalis olmasa, iman da olmaz. İman olmasa, nəticə əldə etmək də mümkün olmaz. Niyyət xalis olmasa, insan məqsədə çata bilməz;

3. Möminlərin öz aralarında mehribanlıq və səmimiyyət olmalıdır. Elə bu səbəbdən də Quranda deyilir:

إِنما الْمؤمِنونَ إِخوةٌ

–Həqiqətən, bütün möminlər bir-biriləri ilə qardaşdırlar.[1]

Əgər bir atadan və bir anadan dünyaya gələn iki övladın biri müsəlman, digəri isə qeyri müsəlman olsalar, onlar həqiqətdə qardaş sayılmır. Amma bir müsəlman dünyanın bir başında, başqa bir müsəlman isə dünyanın o biri başında olsalar, namaz üstündə bir-birilərini görmədikləri halda da belə bir-birinə dua edirlər “السلام علينا و علي عِبادِ اللهِ الصالِحين” (Əssəlamu əleyna və əla ibadillahis-salihin) və bunlar həqiqi qardaş sayılırlar. Yanındakı qardaşı isə saleh bəndə olmadığından ona aid edilmir.

Qurani-kərimin “Ənfal” surəsinin 53-cü ayəsində deyilir:

ذَلِك بِأَن اللّه لَم يك مغيرا نعمةً أَنعمها علَى قَومٍ حتى يغيروا ما بِأَنفُسِهِم

–(Müşriklər üçün olan) bu (əzablar), ona görədir ki, Allah (Öz ənənəvi qanunlarına əsasən) bir qövmə verdiyi neməti onlar özlərində olanı (saleh halları) dəyişməyincə dəyişdirmir (onlardan almır).

---

[1] Hucurat surəsi, 10-cu ayə.

Allah-taala Nuh Peyğəmbərə (ə) gəmi güzəltmək əmri verir. Həzrət Nuh (ə) gəmini hazır edir. Sonra Allah ona əmr edir ki, öz ailənlə birlikdə gəmiyə min. Həzrət Nuh (ə) möminlərlə birlikdə gəmiyə minirlər. Nuhun (ə) oğlu isə bu zaman suda boğulurdu. O, atasına deyir: “Allah sənə ailənlə birlikdə gəmiyə minmək əmri vermişdir. Məgər mən sənin ailəndən deyiləm?” Həzrət Nuh (ə) deyir:

رب إن ابني مِن أَهلِي وإِن وعدك الْحق. قَالَ يا نوح إنه لَيس مِن أَهلِك إنه عملٌ غَير صالِح

–Ey Rəbbim, oğlum mənim ailəmdəndir. Və həqiqətən, Sənin (mənim ailəmin nicatı barədəki) vədin haqdır. (Allah) buyurdu: “Ey Nuh, o sənin ailəndən deyil (küfr və itaətsizlik nəticəsində qohumluq tellərini qırıb, çünki) o (başdan-başa) nalayiq bir əməldir!”[1]

İslam təlimlərinə əsasən, ailə üzvlərini bir-birinə bağlayan imandır.

**Haqq cəbhəsində mehriban olun!**

Məhəbbət və sevgi yalnız Allaha xatir olmalıdır. Əgər niyyətində qarışıq bir şey olsa, həmin əməlin insana heç bir faydası olmayacaqdır.

Allah-taala Həzrət Musaya (ə) buyurdu: “Bu günə kimi Mənə xatir hər hansı bir əməli yerinə yetirmisənmi?”

Həzrət Musa (ə) deyir: “Bəli. Namaz qılmışam, oruc tutmuşam, infaq (ehsan) etmişəm.”

Allah-taala buyurur: “Onların heç biri Mənə xatir deyil. Namaz haqqın nişanəsidir[2] və o da sənin özün üçündür. Oruc

---

[1] Hud surəsi, 45-46-cı ayələr.

[2] Namaz qılan şəxs haqqın tərəfində olduğunu bildirir və qiyamət günü haqqın tərəfində olanların cərgəsində dayanacaq. Eynilə hər bir ölkənin bayrağı kimi. Hər bir ölkənin bayrağı həmin ölkənin vətandaşları üçün müqəddəsdir. İstər iqtidar olsun, istər müxalifət. Ölkənin bayrağına hörmətsizlik edən şəxs

(cəhənnəm) atəşinin qarşısında qalxandır.[1] O da sənin özün üçündür. İnfaq (ehsan) isə məhşər günündə ərşin kölgəsinə sığınmaq üçündür. O da sənin özün üçündür. Bəs, Mənim üçün hansı əməli yerinə yetirmisən?” [2]

Həzrət Musa (ə) deyir: “İlahi, nə edəcəyimi Sən Özün buyur.”

Allah-taala buyurur:

هلْ واليت لي ولياً؟ و هلْ عاديت لي عدواً قط؟ فعلم موسي (ع) أن افْضلَ الْأعمالُ ألْحب في اللهِ و الْبغض في اللهِ.

–(Bu vaxta qədər yalnız) Mənə xatir kiminləsə dost olmusanmı? Yaxud kiminləsə yalnız Mənə xatir düşmən olmusanmı? Musa (ə) başa düşdü ki, ən üstün əməl Allaha xatir sevmək və Allaha xatir ədavətli olmaqdır.

İmam Baqir (ə) buyurmuşdur:

إذا أردت انْ تعلَم أن فيك خيراً فانظُر إلي قلْبك. فإنْ كانَ يحِب أهلَ طاعةِ الله عز و جل و يبغِض أهلَ معصِيتِهِ فَفيك خير و اللهُ يحِبك. و إذا كانَ يبغِض أهلَ طاعةِ الله و يحِب أهلَ معصِيتِهِ لَيس فيك خير و اللهُ يبغِضك و الْمرء مع من أحب.

–Əgər özündə xeyirin olub-olmadığını bilmək istəyirsənsə, qəlbinə nəzər sal. Əgər Allah-taalaya itaət edənləri sevirsənsə və Ona asi olanlara qarşı ədavətin varsa, deməli səndə xeyir

---

həmin ölkənin torpağı haqqında danışmağa ixtiyarı yoxdur. İmam Səccad (ə) buyurur: “Namaz İslamın bayrağıdır.” Namaz qılmayan şəxsin İslamdan danışmağa ixtiyarı yoxdur. Namaz qılmayan şəxsin “Biz müsəlmanlar” ifadəsini işlətməyə ixtiyarı yoxdur.

[1] Cəhənnəm atəşilə insan arasında maneə yaradan oruc tutmaqdır.

[2] Məhşərin istisi insanları yandıracaq. İnsanlar məhşər günü ayaqlarının altı yandığından çox çətinliklə ayaqlarını qoymağa yer tapacaqlar. Allah-təala dünya həyatında halal-harama riayət edənlərə, öz yeməklərini yetim-yesirə yedirdənlərə Öz ərşinin gölgəsində sığınacaq verəcək.

vardır və Allah da səni sevir. Yox, əgər Allah-taalaya itaət edənlərə qarşı ədavətin və Ona asi olanlara qarşı sevgin varsa, deməli səndə heç bir xeyir yoxdur və Allah da sənə qarşı ədavətlidir. İnsan öz sevdiyi ilə birlikdədir.

İslam Peyğəmbəri (s) buyurmuşdur:

ود الْمؤمِن لِلْمؤمِن فِي اللهِ مِن أعظَم شعب الْإيمان

–Möminin möminə qarşı Allaha xatir olan dostluğu imanın ən böyük qisimlərindəndir.

Mütləq həqiqət Allaha məxsusdur və xalis məhəbbət də Allahındır. İmam Cəfər Sadiq (ə) bu barədə buyurmuşdur:

لا يمحض رجلٌ الإيمانَ بِاللهِ حتي يكُونَ اللهُ أحب إِلَيهِ مِن نفْسِهِ و أَبِيهِ و أُمِهِ و ولْدِهِ و أهلِهِ و مالِهِ و مِن الناسِ كُلهم.

–Hər bir kəsin nəzərində Allah onun canından, atasından, anasından, övladından, ailəsindən, malından və bütün insanlardan sevimli olmayınca Allaha olan imanı xalıs olmaz.

**Haqqa səbir etmək**

Haqqa səbir etmək heç də asan məsələ deyil. İmam Hüseyn (ə) aşura günü oğlu İmam Səccaddan (ə) ayrılanda ona bir neçə şeyi tapşırdı. Onlardan biri də bu idi:

–Haqqa səbir et, hətta sənin ziyanına olsa da belə.

**Hakimiyyət haqqı bərqərar etmək üçündür**

Abdullah ibn Abbas deyir: "Cəməl döyüşünə (Bəsrə camaatı ilə) gedəndə Bəsrə yaxınlığında yerləşən Ziqar adlı bir məntəqədə Həzrət Əliyə (ə) qoşulduq. Artıq ordu döyüşə hazır idi. Hamı o həzrətin əmrini gözləyirdi. Lakin o, öz çadırından hələ çıxmamışdı.

–Mən onun çadırına daxil olanda Əmirəlmöminin (ə) ayaqqabısını tikirdi. Mənə buyurdu ki, bu ayaqqabının qiyməti nə qədərdir? Ərz etdim ki, dəyəri yoxdur. Buyurdu:

“Allaha and olsun, bu ayaqqabı mənim üçün sizlərə rəhbərlik və əmirlik etməkdən daha qiymətlidir. Lakin (mən hakimiyyəti ona görə qəbul edirəm ki,) haqqı sübut etməli və batili aradan götürməliyəm.”[1]

Həzrət Əli (ə) Malik Əştərə yazdığı məktubda buyurur:

فَإني سمِعت رسولَ اللهِ صلي اللهُ علَيهِ و آلِهِ يقُولُ فِي غَيرِ موطِنٍ: لَن تقَدس أُمةٌ لا يؤخذُ لِضعِيفِ فِيها حقه مِن الْقَوِي غَير متتعِتعٍ.

–Mən Həzrət Peyğəmbərin (s) dəfələrlə belə buyurduğunu eşitmişəm ki, zəifin haqqı güclüdən kəkələmədən, qorxub çəkinmədən alınmayınca heç bir ümmət paklaşmaz, ülviləşməz.[2]

Tarixə nəzər yetirəndə görürük ki, hakimiyyəti ələ keçirmək üçün nə qədər qanlar tökmüşlər. Lakin Həzrət Əli (ə) bu xütbədə buyurur ki, məni buraya gətirən (sizə rəhbərlik etməyə vadar edən) haqqı sübut etmək və batili aradan qaldırmaq niyyətidir.

Böyük İslam Peyğəmbəri (s) bu barədə buyurmuşdur:

من مشى مع مظْلُوم حتى يثَبِت لَه حقه ثَبت الله تعالى قَدميه يوم تزِل الْأقْدام

– Əgər insan məzlumun haqqını alıb qaytarmaq niyyətilə bir addım atsa, qədəmlərin titrədiyi gün (qiyamət günü) Allah-taala onun qədəmini sabitqədəm edər.

Burada haqqın kiçik və ya böyük olmasının isə heç bir fərqi yoxdur. Əsas odur ki, insan haqqın qalibiyyəti üçün çalışsın və bir addım atsın.

---

[1] Nəhcül-bəlağə, 33-cü xütbə.
[2] Nəhcül-bəlağə, 53-cü məktub.

**Maraqlı dastan**

Zürarə deyir: "İmam Məhəmməd Baqirlə (ə) birlikdə Qureyşdən olan bir nəfərin dəfnində iştirak edirdik. Məkkənin müftisi Şeyx Əta da orada iştirak edirdi. Cənazəni yerdən götürəndə bir qadının nalə səsləri ucaldı. Şeyx Əta o qadına dedi: "Ağlama, sakit ol, yoxsa mən çıxıb gedəcəyəm." (Onlar cənazəyə ağlamağı haram hesab edirlər.)

Bu qadın sakitləşmədi və şeyx də çıxıb getdi. Mən İmam Baqirə (ə) dedim ki, Əta getdi. Həzrət "Nə üçün getdi?" – deyə soruşdu. Mən baş verənləri Həzrətə (ə) nəql etdim. Həzrət (ə) mənə buyurdu:

–Sən mənimlə gəl. Batil bizə sübut olunmayınca və haqqın yanında batili görməsək, heç bir vaxt haqqı tərk etmərik. Biz bir müsəlmanı dəfn etməklə onun bizim boynumuzda olan haqqını yerinə yetirmiş oluruq. Bir qadının ağlamasına görə bizim bu haqqı tərk etməyə haqqımız yoxdur.

Bu hədisdə Həzrət (ə) demək istəyir ki, haqq ilə batili gərək ayırd edəsən və haqqı dərk etdikdən sonra onu öz sahibinə çatdırmaq lazımdır. Bu hər bir insana vacibdir və insanın vəzifəsi hər nə qədər böyük olarsa, onun məsuliyyəti də bir o qədər böyük olar.

II Müaviyə (Yezidin oğlu) xilafəti qəbul etmədi və açıq-aşkar şəkildə dedi ki, bu, İmam Səccadın (ə) haqqıdır.

**İmam Hüseynin (ə) hərəkatının nəticələri**

1. Zalım hakimiyyətin batil olduğunu sübut etdi. İnsanları başa saldı ki, haqqın haqq olması və batilin batil olması üçün ölməyə, balalarının şəhid olmasına və başlarının nizələrə vurulmasına dəyər.

2. İmamətin haqq olduğunu sübut etdi. İmam Hüseyn (ə) hakimiyyəti öz əlinə almağa tələsmədi, amma mərufun məruf olduğunu və münkərin münkər olduğunu sübuta yetirdi. Başqa ifadə ilə desək, yaxşı ilə pisi bir-birindən ayırdı.

Bu, Kərbəla hadisəsinin nəticəsiydi. Əgər belə olmasaydı, o gündən bəri haqq batilin yerini tutacaqdı, batil də haqqın yerini. Bu haqda İmam Cəfər Sadiq (ə) buyurur: "Bəni- Üməyyə Quran oxuyan hər bir kəsi azad buraxdı. Amma şirkin mənasını öyrənməyə imkan vermədilər. Onu özləri üçün bəhanə saxlamışdılar. Hər bir yerdə xətirləri istəyəndə "bu şirkdir" deyirdilər, xətirləri istəməyəndə isə "bu, şirk deyil" deyirdilər. Şirkin həqiqi mənası isə onları maraqlandırmırdı.

İmam Hüseyn (ə) münkəri insanlara tanıtdırdı və Yezid kimi birisinin İslam adı ilə müsəlmanlara rəhbərlik etməsinin qeyri-mümkün olduğunu sübut etdi. İmam (ə) sübut etdi ki, Həzrət Peyğəmbərin (s) yerində belə bir şəxsin oturması yolverilməzdir.

3. İmam Hüseyn (ə) öz qiyamında heç bir səhvə yol vermədi və hədəfinə çatmaq üçün batildən istifadə etmədi.

4. İmam Hüseyn (ə) batil olanları və boynunda insanların haqqı olanları öz dəstəsindən uzaqlaşdırdı.

Musa ibn Umeyr atasından belə nəql edir: "Atam deyirdi ki, mən Kərbəlada İmam Hüseynin (ə) dəstəsində idim. Həzrət (ə) məni çağırıb buyurdu: "Camaata de ki, hər kimin boynunda istər Alahın, istərsə də insanların haqqı varsa, qayıtsın. Onun mənimlə gəlməyə icazəsi yoxdur. Hətta kiminsə boynunda başqasının bir dinar belə haqqı varsa, mənimlə gəlməsin." Sonra Həzrət (ə) çıraqları söndürtdü və buyurdu ki, gördüyünüz bu dağlar boşdur və heç bir kəsin sizinlə işi olmayacaq. Onların davası mənimlədir, sizinlə heç bir işləri yoxdur."

Boyunlarında başqalarının haqqı olanların hamısı çıxıb getdilər. Həzrət (ə) bunu etməklə öz dəstəsini təmizlədi. Onun dəstəsində cəmi 72 nəfər xalis insanlar qaldılar.

5. Həmçinin İmam (ə) aldadılaraq İbn Ziyadın başçılıq etdiyi düşmən ordusuna qoşulmuş bəzi xalis insanları da öz tərəfinə çəkə bildi. Buna misal olaraq Hürr ibn Yezid, Abbas

Şakir, Züheyr, Əmr ibn Seydavi və Yezid ibn Ziyadı qeyd etmək olar. Aşura axşamı İmam Hüseynin (ə) yanında 72 nəfər qalmışdı, amma aşura şəhidlərinin sayı 136-dan çoxdur.

İmam Hüseyn (ə) Kərbəlada öz dəstəsindəki bütün batil olanları çıxartdı və düşmən tərəfində olan bütün xalis insanları da onlardan ayırıb öz dəstəsinə qoşdu. Nəhayətdə onun dəstəsində bir nəfər də olsa batil olan şəxs yox idi və həmçinin düşmən ordusunda da bir nəfər də olsa haqq olan insan qalmamışdı. Bunu edənə "Adil imam", "Haqq imam" deyərlər.

Qiyamət günü tərəzinin daşlarından biri Hüseyn ibn Əli (ə), biri isə Həsən ibn Əlidir (ə). O mizana əsasən bizlərdən hesab alınacaqdır. Əgər bu iki şəxs olmasaydı, Bəni-Üməyyə bütün dünyanı kor edərdi. Onlar insanları aldatmaq üçün bütün hiylələrə əl atdılar. Onlar Həzrət Əli (ə) kimi bir şəxsiyyəti uşaqlara namaz qılmayan bir şəxs kimi tanıtdırmağa çalışırdılar. Təbliğat vasitələri də onların əllərində olduğundan istədiklərini deyirdilər.

Bugünkü dövrdə də belədir. Uşaqları, qadınları və qocaları öldürürlər, eləcə də evləri, məscidləri və xəstəxanaları dağıdırlar, amma heç nədən çəkinmirlər. Amma danışanda da ədalətdən dəm vururlar. Diqqətlə fikir verəndə görürsən ki, bugünkü günün şeytanı elə bunların özləridir.

*Müftiyi Kufə, Şüreyhin qələmi etdi fəsad,*
*Əbi Əbdillahə qoydi o dəni xarici ad,*
*Pəxş edib yazdığı fitvasın onun İbn Ziyad,*
*Xanə be xanə verib mərduma cəngi xitabi,*
*Yıxdı Zəhranin evin Kufənin ustandari.*

Sanki Kufədə qiyamət qopmuşdu. Silah hazırlayanlara gecə-gündüz işləmək əmri verilmişdi.

*Əsləhəsazilərə verdi o zalım peyğam,*
*Gərm olun sənətiniz üstə edun səyi təmam,*
*Nizə, şəmşir düzəldün biz üçün sübhlə şam,*
*Mərkəzi sənətini bağlasa hər əsləhəsaz,*
*Eləsin güşeyi zindanda gərək suzü gudaz.*

*Hərə bir aləti zülmü xətər aldı özünə,*
*Biri nizə, biri əmma sipər aldı özünə,*
*Uç ədəd Hərmələ də üçpər ox aldı özünə,*
*Oxlara saldı nəzər gəldi o zalım süxənə,*
*Hədəfə dəysə bu oxlar dedi kafidi mənə.*

*Xətəri çoxdi nişanə eləsəm mən hayanı,*
*Dağdidə edəcək hər bir oxum bir ananı,*
*Hər qəvi mərdə toxunsa çıxacaq fori canı,*
*Pərlərindən oxu fikir edirəm qan süzülər,*
*Şirxarə uşağa dəysə boğazı üzülər.*

Bütün Kufə camaatına xəbər vermişdilər ki, bir xarici qiyam etdiyinə görə onunla müharibəyə hazırlaşın...

## ÖLÜM İMAM HÜSEYNİN (Ə) BAXIŞINDA

Aşura günü bəşəriyyət tarixində misilsiz bir gündür. Aşura şərəf mənbəyidir. Aşura izzət mənbəyidir. Aşura nur mənbəyidir. Aşura hidayət mənbəyidir. Aşura nurdur, feyzdir. Aşura izzətdir, səadətdir.

Əhli-sünnə alimlərindən biri öz kitabında aşura haqda xoş sözlər yazaraq deyir: "Həzrət Peyğəmbərin (s) Əhli-beyti (ə) əgər aşura günü əza saxlamağı tövsiyə etməsəydilər, mən onlara deyərdim ki, belə imamları olduğu üçün aşura gününü bayram edin və bir-birinizi təbrik edin. Amma onlar özləri aşuranı tarixdə yaşatmaq üçün əza saxlamağı tövsiyə etmişlər. Elə bu səbəbdən də biz həmin günü matəm günü kimi qeyd edirik."

Aşura insanların qəlbində elə bir hərarətdir ki, qiyamət gününə qədər sönməyəcəkdir.

Aşura qiyamət gününə qədər yaşayacaqdır. Hər kim özünü aşura ilə əlaqələndirsə, o da qiyamət gününə qədər yaşayacaqdır. Bu cərgədən ayrılan hər bir kəs isə zəlil olacaqdır. Bunu dərk etmək üçün dönüb tarixə baxmaq lazımdır. Tarixə baxsanız görərsiniz ki, aşura ilə bağlantısı olan hər bir kəs yaşayır.

Xanım Zeynəb (s.ə) üçyaşlı qız haqda Yezidə müraciət edərək söylədi:

*Yezid, Şamidən mən gedərəm, burda Rüqəyyəm qalacaq,*
*Balaca pəncələrilən səni taxtdan salacaq.*

Aşura İslam deməkdir. Aşura peyğəmbərlərin hədəfi deməkdir. Aşura tərəqqi deməkdir. Aşura müqavimət, səbir və dözüm deməkdir. Aşura iman və übudiyyət deməkdir. Aşura şərəf deməkdir. Aşura səcdə, rüku, namaz və münacat deməkdir. Aşura mərifət və ürfan deməkdir.

Aşura nədir? Aşura müsəlmanların başlarının ucalığı deməkdir. Əgər aşura olmasaydı, bu gün bütün dünya

müsəlmanları başıaşağı olardılar. Əgər aşura olmasaydı, bu gün müsəlmanlar zalım və fasiq xəlifələrin törətdikləri cinayətlərə görə xəcalət çəkəcəkdilər. Aşura bütün bunların qarşısını aldı, aşura müsəlmanlara ürək verdi, aşura müsəlmanlara tərəqqi bəxş etdi, aşura Həzrət Peyğəmbəri (s) qorudu və Quranı bizlərə çatdırdı.

Aşuranı Hüseyn ibn Əli (ə) və onun ətrafına toplaşan müxlis insanlar yaratdılar. Aşuranı öz əsrində yaradan Həsən ibn Əlidir (ə), aşuranı öz əsrində yaradan Əli ibn Əbitalibdir (ə). Aşuranı yaradan (xüsusilə qeyd edirəm) Xanım Zəhradır (s.ə) və Həzrət Zəhranın (s.ə) pak ətəyidir.

Müsəlmanlar bütün tarix boyu aşura ilə fəxr etmişlər. İmam Hüseyn (ə) aşura günü o zalımlara xütbə oxuyarkən anası Xanım Zəhranın (s.ə) pak ətəyi ilə fəxr etdiyini bildirdi. Həzrət (ə) dedi ki, mən pak ətəkdə böyümüşəm. O pak ətək mənə icazə verməz ki, beyət etmək üçün sizə zillət əlimi uzadım.

Bütün bunların hamısı bizə aşuranı bəyan və şərh edir.

## İnsan daim son mənzilə doğru hərəkətdədir

Dünyaya gələn bütün insanlar ölüb gedirlər. Evə gələn qonaq haçansa getməlidir. İnsanlar da bir karvana bənzəyirlər ki, müxtəlif aləmlərdən keçərək yol gedirlər. Bu yolun ibtidası "Zər aləmi"dir.[1] İnsan oradan hərəkətə başlayır və gəlib güllərin içərisində yaşayır. Sonra bir nütfə kimi bir müddət atanın belində yaşayır. Orada müddət tamam olandan sonra ananın bətninə keçir və bir müddət də ananın bətnində yaşayır. Ananın bətnində yaşayandan sonra bu dünyaya gəlir. Bu dünyada da bir müddət yaşayıb gedir.

Uşaq ana bətnində olanda ona "dünyaya get" – deyə söyləyəndə, bu dünyaya gəlmək istəmir. Deyir ki, mənim

[1] Ruhların hamısı zər aləmindədir.

üçün bura yaxşıdır. Ona "O dünya buradan daha yaxşıdır" – deyirlər. İnanmır, deyir ki, "yox, bura yaxşıdır." Ona deyirlər ki, oranın yeməkləri, bağları, bostanları və hər bir şeyi buradan yaxşıdır. İnanmır, deyir ki, "buradan yaxşı bir yer tapa bilmərəm." Ananın qanı ilə qidalanır və deyir ki, bundan yaxşısını tapa bilmərəm.

Lakin onun sözünə heç bir kəs qulaq asmır. Deyirlər ki, "getməlisən." Elə buna görə də dünyaya gələndə ağlaya-ağlaya gəlir. Hətta həkimlərin dediyinə görə, əgər uşaq dünyaya gələndə ağlamasa, nigaran olurlar və elə bilirlər ki, uşaq ölüb. Uşağın sağlam olmasının əlaməti onun ağlamasıdır. Uşaq dünyaya gəlmək istəmədiyi üçün ağlayır.

İnsan dünyaya gələndən sonra müəyyən bir vaxta qədər bu dünyada yaşayır. Amma bu vaxtın nə qədər olduğunu ona söyləmirlər. Bundan əvvəlki aləmlərdə də ona verilən vaxtı bildirmirlər. İnsan bu dünyada təxmini nə qədər yaşayacağını bilir, məsələn, bilir ki, 200 il yaşamayacaq, hardasa 60-70 il, yaxud 80-90 il yaşayacaqdır. Amma dəqiq nə qədər yaşayacağını heç bir kəs bilmir. İnsan sabah harada olacağını belə bilmir. Mümkündür ki, sabah evində olsun, iş yerində olsun və ya qəbirdə olsun.

İndi də insan bu dünyadan möhkəm yapışıb və o biri dünyaya getmək istəmir. Peyğəmbər, imamlar, Quran, din alimləri deyirlər ki, o biri dünya buradan yaxşıdır. Amma o inanmır və deyir ki, buradan yaxşı yer ola bilməz. Quran ayələri də deyir ki, bu dünya ilə cənnət ölçüyəgəlməz dərəcədə fərqlidir.

Uşaq ana bətnində olanda bu dünyanın nə qədər böyük olduğuna inanmadığı kimi, bəzi insanlar da o biri dünyanın nə qədər böyük olduğuna inanmırlar. Ana bətni bu dünyaya nisbətdə bu dünyanın axirət aləminə nisbəti kimidir.

İnsan bu dünyaya gələndən sonra ilk dövrlərdə dünyadan gedəcəyinə inanmır. Amma yaşa dolduqca görür ki, onu

yavaş-yavaş aparmağa hazırlayırlar. Gözlər zəifləyir, qulaqlar ağırlaşır, rahat oturub-dura bilmir, istədiyini yeyə bilmir, istədiyi vaxt yata bilmir və bütün ixtiyarını əldən verir. Bir gün də hamı yuxudan oyanır və baxıb görürlər ki, o oyanmadı.

Görəsən, həmin insan hara getdi?! Onun getdiyi yer bərzəx aləmidir və o, bir müddət də orada qalmalıdır. Daha sonra isə növbə qiyamət gününə gəlir. Qurani-kərimə görə, qiyamət gününün bir günü bu dünyanın 50000 ilinə bərabərdir.[1] Nəhayət, sonra da ya cənnətə gedəcək, ya da cəhənnəmə.

Beləcə, insanlar son mənzilədək gedib çatmaq üçün qeyd olunan bu mənzilləri bir-bir arxada qoyurlar.

İnsan həyatı boyu dayanmadan hərəkət edir. Həm də insan özbaşına deyil ki, dayansın. Bu, mümkün olan bir şey deyil. Dünyadakı bu həyatdan savayı başqa bütün digər aləmlərdə, yəni mənzillərin heç birində insana ixtiyar verilməmişdir. Bu dünyada isə insana müəyyən işləri görmək, yəni əməllərini həyata keçirmək üçün ixtiyar verilmişdir. Odur ki, insan bu dünyadan başlayaraq gələcək taleyini məhz özü və öz əməlləri ilə müəyyən edir.

Həmçinin necə ölməyi də insan özü seçir. Ölümü insan seçmir, amma necə ölməyi insan özü seçir. Quranda ölüm məmuruna "Məlkul-movt", yəni "Ölüm mələyi" deyilir. Yəni cənab Əzrayıl (ə) vaxtı çatanda insanı aparmağa gəlir. İnsanlar da iki qismə bölünürlər:

1. Zalımlar;
2. Pak insanlar.

Qurani-kərim birinci qisim insanlar haqda buyurur:

الذِين تتوفاهم الْملاِئكَةُ ظَاِلمِي أنفُسِهم فَأَلْقَواْ السلَم ما كُنا نعملُ ِمن سوءٍ بلَى ِإن اللّه عِلِيم ِبما كُنتم تعملُونَ

[1] Məaric surəsi, 4-cü ayə.

–Mələklər özlərinə zülm etmiş kəslərin canlarını alan zaman onlar təslim və itaətkar olar (və) “biz heç bir pis iş görmürdük” (deyərlər). “Xeyr, (pis iş görürdünüz)! (Çünki) şübhəsiz, Allah etdiklərinizi biləndir.”[1]

Həmin surənin 32-ci ayəsində isə ikinci qisim insanlar haqda buyurulur:

الذِين تتوفاهم الْملآئِكةُ طيِبين يقُولُون سلام عليْكُم ادخلُواْ الْجنة بِما كُنتم تعملُون

–O kəslər ki, mələklər onlar (küfr və itaətsizlik çirkinliyindən) pak olan halda canlarını alarkən (onlara) “salam olsun sizə, etdiklərinizin mükafatı olaraq cənnətə (hələlik bərzəx aləmindəki cənnətə, qiyamətdən sonra isə əbədi cənnətə) daxil olun” deyərlər.

İmam Hüseyn (ə) həm aşura günü və ondan qabaq öz xütbələrində və həm də əməli ilə sübut etdi ki, ən şərafətli ölüm şəhadətdir.

## Dünya həyatının mənası

İnsanlar dünyaya münasibətdə də iki qisimdirlər. Bir qisim insanların ürəkləri dünyaya bağlıdır və ondan ayrıla bilmirlər. Amma başqa bir qisim insanlar da vardır ki, onlar dünyaya bağlı deyillər, yəni azaddırlar. İnsanın dünyaya bağlılığı hər nə qədər çox olsa, ölüm onun üçün bir o qədər çətin olacaqdır. Həmçinin insanın dünyaya bağlılığı hər nə qədər az olsa, ölüm onun üçün bir o qədər asan olacaqdır. Bu bir həqiqətdir və tarix də bunu sübut edir.

Bir qisim insanlar vardır ki, dinin ölçüləri ilə və ilahi mizanla özlərini tərbiyə edirlər. Bu dünyadan bir vasitə kimi istifadə edirlər. Həqiqətən də dünya axirətə gedib çatmaq

[1] Nəhl surəsi, 28-ci ayə.

üçün bir vasitədir. Dünya daimi olaraq qalmaq üçün nəzərdə tutulmayıb. Burada daimi olaraq qalmaq mümkün də deyil. Dünya elə bir yerdir ki, insan onun vasitəsilə cənnəti əldə etməyə çalışmalıdır. Bu dünya səcdə etmək, savab qazanmaq, təkamülə və kamala yetişmək, nuraniyyət kəsb etmək, ürfan əldə etmək, mərifətli olmaq və s. kimi dəyərlərə nail olmaq üçün bir yerdir. İnsan bu dünyada istədiyi dəyəri qazana bilər. Bunları əldə edən insanlar isə ölümdən qorxmurlar, əksinə ölümü də eşqlə qarşılayırlar. Gecəni sübhə kimi ölümün eşqilə yaşayırlar. Çünki onlar ölümü həyatın sonu hesab etmirlər.

Ölümü həyatın sonu bilənlər üçün isə ölüm həqiqətən də qorxulu və çətindir.

Amma dünyanı bir vasitə kimi qəbul edənlər belə düşünürlər ki, onları sanki bir bağa gətiriblər və deyiblər ki, hər nə qədər meyvə istəyirsinizsə, dərin və aparın. Odur ki, onlar özləri ilə oraya aparmaq üçün meyvə toplamaqla məşğuldurlar. Qazanırlar ki, özləri ilə o biri dünyaya bir şey aparsınlar.

Tarix kitablarında belə qeyd edirlər ki, aşura gecəsi şəhidlərin heç biri yatmadı. İmam Hüseynin (ə) ətrafına toplaşan həmin aşiqlərin ibadətlərinin səsi sanki arıların vızıltısı kimi ətrafa yayılmışdı. Onlar ibadət etməkdən doymurdular.

Belə nəql olunur ki, Xanım Fatimeyi Zəhra (s.ə) rükunun zikrini bəzi vaxtlar yüz dəfə təkrar edərdi. Əgər o, bundan ləzzət almasaydı, heç onu bu qədər zikr edərdimi?! O, bu zikri yüz dəfə edəndə Allah-taala göyün pərdələrini bir kənara çəkər və mələklərə “siz isə Mənə deyirdiniz ki, insanı yaratma”, – deyə buyurardı. Baxın, Mən buna xatir insanı yaratmışam. Allah-taala orada Həzrət Xanım Zəhranın (s.ə) vücudu və ibadəti ilə fəxr etdiyini bildirdi.

Aşura gecəsi də bunun bir timsalıdır. Məhz həmin gecə İmam Hüseyn (ə) bütün şəhidlərə cənnətdəki məqamlarını göstərmişdir.

Belə nəql edirlər ki, Həzrətin (ə) səhabələrindən olan Bureyr adlı bir nəfər aşura gecəsi zarafat etməyə başladı. Ona "bura zarafatın yeri deyil" – dedilər. Bureyr onlara belə cavab verdi: "Siz məni yaxşı tanıyırsınız. Mən ömrü boyu heç vaxt zarafat etməmişəm. Amma əgər mənə "bir gecə zarafat elə" – desələr, mən həmin bu gecəni zarafat edərəm. Çünki sabah gecə harada olacağımı mənə artıq göstərdilər."

Onlar səbirsizliklə səhərin açılmasını gözləyirdilər. Sanki gecənin qaranlığı çox yavaş-yavaş ötüb keçirdi.

İmam Hüseynin (ə) "Əgər cəddim Muhəmmədin (s) dini mənim ölümümlə diri qalacaqsa, ey qılınclar doğrayın məni!" – deyə söylədiyi mübarək kəlam bütün tarix kitablarında qeyd edilmişdir. Elə bu kəlama görə zalımların aşura günündən acıqları gəlir, aşura gününün qeyd olunmasını istəmirlər və "ağlamaq olmaz, qara geyinmək olmaz" – deyirlər. Çünki aşura və İmam Hüseyn (ə) tərəfdarlarına zorla bir şeyi qəbul etdirmək mümkün deyil və bu da zalımlara sərf eləmir. Elə buna görə də onlar çalışırlar ki, İmam Hüseyni (ə) bizim əlimizdən alsınlar.

## Ən üstün ölüm

İslam Peyğəmbərinin (s) dönəmində müsəlmanlar şəhid olmaq üçün sanki bir-biriləri ilə yarışırdılar. Bədr müharibəsi başlayanda bir müsəlman ailəsindən ya ata, ya da onun oğlu döyüşə getməliydi. Yəni İslam Peyğəmbərinin (s) göstərişi ilə ikisindən biri bu müharibədə iştirak etməliydi. Odur ki, ata oğluna dedi: "İndi ki, iş belə oldu, oğul, sən qal, qoy mən döyüşə gedim." Oğlu da deyirdi ki, yox ata, sən qal, qoy mən gedim. Ata deyirdi: "Mənim ürəyim şəhid olmaq istəyir, qoy mən gedim." Oğul da belə deyirdi: "Mənim də ürəyim şəhid

olmaq istəyir, xahiş edirəm, icazə ver, mən gedim.” O dedi, bu dedi, o, xahiş etdi, bu xahiş etdi, axırda da heç bir qərara gələ bilmədilər. Nəhayət, öz aralarında püşk atmağa razılaşdılar. Püşk atdılar və müharibəyə getmək növbəsi oğula düşdü. Beləcə, ata Mədinədə qaldı, oğlu isə gedib döyüşdü və sonda da şəhid oldu.

Az bir müddət keçəndən sonra ata oğlunu yuxuda gördü. Oğlu yuxusunda atasına dedi: – “Rəbbimin bizə verdiyi vədi haqq olaraq gördüm.” Peyğəmbərlərin, övliyaların, vəsilərin cənnət, bağlar və hurilər haqda bütün dediklərinin haqq olduğunu gördüm.

Ata yuxudan oyandı və yerində qala bilmədi. Odur ki, Həzrət Peyğəmbərin (s) yanına gedib yuxusunu o həzrətə danışıb dedi: “Sizin yanınıza bir xahiş üçün gəlmişəm.”

Həzrət Peyğəmbər (s) buyurdu: “Xahişin nədir?”

O dedi: “Xahişim budur ki, Allaha dua elə, şəhadət mənə də qismət olsun.”

İslam Peyğəmbəri (s) ona dua etdi və bir neçə aydan sonra Ühüd müharibəsində o da şəhid olub öz məqsədinə çatdı.

İmam Hüseyn (ə) öz xütbələrində ölümü insanlar üçün asanlaşdırırdı. Öz səhabələrinə müraciət edərək buyurdu: – “Mən sizdən beyətimi götürdüm, siz azadsınız, çıxın gedin.” Həzrətlə (ə) gələnlərin bir qismi ondan ayrılıb getdilər. Sonra o, öz Əhli-beytinə (ə) də bunları söylədi.

Tarixdə hələ belə bir şey görünməyib ki, sabah müharibə olacağını bildiyin halda və ətrafında cəmi beş-on nəfər adam ola-ola onlara da “çıxın gedin, onların məndən başqa heç bir kəslə işləri yoxdur.” – deyəsən. Onların sizinlə heç bir işləri yoxdur. Onlar istəyirlər ki, siz məndən ayrılasınız. Sonra isə buyurdu:

فَإِنْ كُنتم قَد وطنتم أنفُسكُم علَى ما وطنت نفْسِي علَيهِ فَاعلَموا أن اللَّهَ ـإنما يهب الْمنازلَ الشرِيفَةَ ـلِعبادِهِ ـباحتِمال الْمكَارِه... واعلَموا أن الدنيا حلْوها و مرها حلْم ، و الْاِنتِباه ـفي الْآخِرة

–Bilin ki, Allah o məqam və fəzilətləri insanlara asanlıqla verməz. Bunun üçün insanda müqavimət və dözüm olmalıdır. Bilin ki, dünyanın şirini də, acısı da sanki bir yuxu kimidir. Axirətdə hamı yuxudan oyanacaq.

Mübarək ramazan ayında və yayın istisində orucunu yeyənlər və orucunu tutanlar hanı?! Ramazan ayı bitəndən sonra hər ikisi yuxudan oyanacaqdır. Biri orucunu yeyib, digəri isə orucunu tutubdur. Dünyanın şəhvəti də, hakimiyyəti də eynilə belədir. Hər şey sanki bir yuxu kimidir. Bu dünyada qalacağınızı əsla düşünməyin. Özünüzü getməyə hazırlayın.

İmam Hüseyn (ə) Ömər ibn Sədlə söhbət edəndən sonra döyüşün qaçılmaz olduğu məlum oldu. Aşura günü Ömər ibn Səd ilk oxu İmamın (ə) çadırlarına tərəf ataraq dedi: "Ey camaat! İbn Ziyadın yanında şahid olun ki, Hüseynin (ə) çadırına tərəf ilk oxu mən atdım."

Həzrətin (ə) səhabələrindən bir qismi düşmənin atdığı oxlardan yaralandı. İmam Hüseyn (ə) üzünü Həbib ibn Məzahirə, Abbasa və digər səhabələrə tutaraq buyurdu:

قُوموا أيها الْكِرام ـإلَي الْموتِ اَلَّذِي لابد ـمِنه

–Ey əziz insanlar, qalxın və ölümə doğru irəliləyin! Bundan başqa çarə yoxdur. Düşmən oxlarını atmağa başladı. And olsun Allaha, sizinlə cənnət arasında yalnız bir ölüm (qədər fasilə) vardır.

Bir gün İslam Peyğəmbəri (s) küçə ilə yol gedirdi. Küçədə isə uşaqlar oynayırdılar. Həzrət Peyğəmbər (s) həmin uşaqlardan birini yanına çağırıb qucaqladı və onu bağrına basdı.

Oradakılar Həzrətdən (s) soruşdular: “Ya Rəsulallah! Deyəsən, bu uşağı tanıyırsınız? Ona öz məhəbbətinizi izhar etdiniz.” Həzrət (s) buyurdu: “Bəli, bir dəfə bu uşağı görmüşəm. Bir gün bu uşaqlar küçədə oynayırdılar. Hüseyn (ə) də balaca uşaq idi və bunlarla birgə oynayırdı. Bu uşaq isə düşmüşdü Hüseynin (ə) dalınca. Hüseyn (ə) ayağını hara qoyurdusa, bu uşaq da əlini həmin yerə çəkib gözünün üstünə qoyurdu. Ona görə də bu uşağa məhəbbətim var.”

Sonra Həzrət Peyğəmbər (s) buyurdu: “Cəbrayıl (ə) mənə xəbər verdi ki, bu uşaq da Kərbəlada Hüseynlə (ə) birlikdə şəhid olacaq.”

İmam Hüseynin (ə) tərəfdarları dünya var olduqca yaşayacaqlar və onlar cənnətdə öz yerlərini əbədiləşdiriblər. Axirət aləmində onların heç bir problemi olmayacaqdır.

İmam Hüseyn (ə) Hürrlə görüşəndə Hürr dedi ki, çalış iş döyüşə gedib çıxmasın. Həzrət (ə) buyurdu ki, əgər döyüş istəyirsənsə, buyur başla. Hürr dedi: “Yox, mən sizinlə döyüşməyə gəlməmişəm. İbn Ziyad səni sağ görmək istəyir və səni onun hüzuruna sağ-salamat aparmağmı əmr edib.”

*Elə mayil deyiləm doğrana, qanə boyana,*
*Mayiləm qolları bağlı qabağımda dayana.*

İmam Hüseyn (ə) buyurdu ki, bu, mümkün olan bir şey deyil. Mən İbn Ziyadın yanına getməyəcəyəm.

*Nuşidarudi nizəvü xəncərdə öləm,*
*Düşmərəm zində ələ, mən gərək əllərdə öləm.*

Hürr dedi: “Xahiş edirəm, belə etmə. Əgər belə etsən, mən bilirəm ki, bunlar axırda səni öldürəcəklər.” Həzrət (ə) buyurdu:

لَيس مِن شأني من يخاف الْموت، ما أهونَ الْموت علَى سبِيل نِيل الْعِز... و هلْ تقْدِرونَ علَى أكْثَر مِن قَتِلي، مرهباً بالْقَتل فِي سبِيل الله

–Mən ölümdən qorxan deyiləm. Ölüm mənim üçün izzətdən başqa bir şey deyil. Sizin məni öldürməkdən savayı başqa nəyə gücünüz çatır ki?! Allah yolunda (gələn) ölüm xoş gəlir.

İmam Hüseyn (ə) Allah yolunda gələn ölümə xoş gəldin deyir. Həzrət (ə) ona qılınc vurulan zaman ləzzət alırdı.

*Bəh-bəh nə gözəl səslənuri oxlar həvadə,*
*Heç nəğmeyi Davud olammaz bu sədadə,*
*Bir zərrə əziyyət eləmür yarəli sinəm,*
*Heç bilmirəm harda qalıb nazlı Səkinəm.*

Bax gör ölümü özü üçün necə asanlaşdırmışdı?! Bax gör ölümdən necə ləzzət alırdı?!

İmam Hüseynin (ə) səhabələrinin hamısı şəhid olmağı sevə-sevə qarşıladılar. Həzrət Əbülfəzl (ə) dedi:

–Nə üçün gedək? Səndən sonra sağ qalmaq üçün gedək? Allah heç bir vaxt o günü bizə göstərməsin.

Sonra başqaları da həmin məzmunda öz fikirlərini bəyan etdilər. İmam Hüseyn (ə) Müslüm ibn Əqilin övladlarını yanına çağırıb buyurdu:

–Sizin üçün Müslümün şəhadəti kifayət edər. Sizin Kərbəladan çıxıb getməyiniz məsləhətdir.

Onlar dedilər: "Ağa, əgər biz getsək, tarix bizə nə deyər?! Dostlar, camaat bizə nə deyər?!"

لا و الله ما نفْعلُ ذِلك و لكِن نفديك ِبأَنفُسِنا و أَموالِنا و أَهلِنا و نقاِتلُ معك حتي نرِد مورِدك

–Yox, and olsun Allaha, biz heç bir vaxt belə iş görmərik! Canımızla, malımızla və ailəmizlə səni müdafiə edəcəyik. Səninlə birlikdə döyüşüb (sən hara getsən biz də ora gedəcəyik) səninlə birlikdə şəhid olacağıq.

Sonra Müslüm ibn Ovsəcə ayağa qalxıb dedi: "Ey Peyğəmbərin (s) övladı, biz səni tək qoyub gedək? Allah

bizim üzrümüzü qəbul etməz. And olsun Allaha, əgər bilsəm ki, məni yetmiş dəfə öldürüb dirildəcəklər, sonra yenə də öldürüb dirildəcəklər, yenə də mən səndən əl çəkmərəm. Allah səndən sonra yaşamağı mənə nəsib etməsin!"

Züheyr ibn Qeyn ayağa qalxıb dedi: "And olsun Allaha, məni min dəfə öldürəcəklərini, yandıracaqlarını və külümü küləyə verəcəklərini bilsəm də, yenə sənin yanında olacağam."

İmam Hüseyn (ə) qaradərili qulamını (Conu) çağırıb buyurdu: Sən xoşbəxtlik əldə etmək və ailəni dolandırmaq üçün bizə pənah gətirmisən. İndi isə bizim başımıza bu hadisələr gəlib, özünü ölümün caynağına atma, qayıt get.

Con dedi: "Ey Peyğəmbərin (s) övladı, xoş gündə sizin süfrənin başında oturum, çətin gündə isə sizi yalqız qoyum gedim? Mümkün deyil. Sizdən bir xahişim var. Mənim rəngim qaradır və bədənimdən pis qoxu gəlir. İcazə ver, sizə qoşulum. Qoy mənim qara qanım sizin pak qanınıza qarışsın, mən də paklanım və üzüağ olum, şərəfə nail olum."

İmam Hüseyn (ə) bu qaradərili qul şəhid olandan sonra onun mübarək cənazəsinin üstünə gəldi və belə dua etdi:

اللّهم بيض وجهه و طيّب رِيحه و احشره مع الْأبرار

–İlahi, bunun üzünü ağappaq elə, ətrini gözəlləşdir və onu yaxşılarla məşhur et!

İmam Hüseynin (ə) ölümə baxışı necə idisə, o cür də yolunu gedirdi və tərbiyə etdikləri də hamısı o cür yaşadılar.

**Həzrət Əliəkbərin (ə) şəhadəti**

Döyüş növbəsi İmamın (ə) oğlu Əliəkbərə (ə) yetişdi. Əliəkbər (ə) gəlib döyüşmək üçün izin istədi. O, Həzrət Peyğəmbərə (s) çox bənzəyirdi, gözəl camala və əxlaqa malik olmaqla yanaşı, həm də yüksək elm sahibi idi. İmam Hüseyn (ə) oğluna baxdı və buyurdu:

اَللهم اشهد فَقَد برز إليهم غُلام أشبه الناس خلْقاً و خلُقاً و منطِقاً بِرسولك

–İlahi, Sən Özün şahid ol ki, bu cavan düşmən qoşununa tərəf yola düşdü. O, əxlaq, qədd-qamət və danışığı ilə sənin Peyğəmbərinə (s) daha çox bənzəyir.

İmam Hüseyn (ə) Əliəkbərin (ə) atdan yıxıldığını görəndə Ömər ibn Sədə tərəf baxıb buyurdu:

قَطَع الله رحِمك كَما قَطَعت رحِمي

–Allah sənin nəslini kəssin, necə ki, mənim nəslimi kəsdin!

Sonra yerə yıxılmış Əliəkbər (ə) atasını bu cür səslədi:

يا أبتاه عليك السلام هذا جدي يقْرؤك السلام و يقُولُ لَك عجل الْقُدوم إلَينا

–Ata, salam olsun sənə, cəddim gəlib sənə salam göndərir və deyir ki, Hüseyn, tez bizim yanımıza gəl!

İmam Hüseyn (ə) bir-bir bütün şəhidlərin başının üstünə getdiyi kimi, oğlunun da mübarək cənazəsinin başı üstünə gəldi. Yazırlar ki, cənazəyə bir qədər baxandan sonra yerə əyləşdi və üzünü oğlunun üzünə qoyub dedi:

علَي الدنيا بعدك اَلْعفي

–Səndən sonra kül olsun bu vəfasız dünyanın başına.

Sonra İmam Hüseyn (ə) əbasını yerə sərib oğlunun tikə-tikə olmuş bədənini əbasına yığdı.

Həzrətin (ə) səhabələrinin hamısı bir-bir gedib şəhid oldular.

*Xeymələr boşdi fəqət itrəti əthar qalıb,*
*Nə mübarizdən əsər vardi, nə ənsar qalıb.*

Artıq kömək etməyə heç kəs qalmamışdı. Həzrət Əbülfəzl (ə) gəlib döyüşmək üçün izin istədi. İzin aldıqdan

sonra döyüş meydanına getdi və o da şəhid oldu. İmam Hüseyn (ə) qardaşının mübarək cənazəsinin üstünə gəlib əllərini belinə qoyub dedi: “İndi hiss elədim ki, belim sındı.”

Sonra üzünü Ömər ibn Sədin qoşununa tutub buyurdu:

هلْ مِنءِ ذاب يذُب عن حرمِ رسول اللهِ

–Allahın düşmənini Həzrət Rəsulallahın (s) Əhli-beytinin (ə) kənarından qovan bir şəxs vardırmı?

Elə bu zaman gördülər ki, Xanım Zeynəb (s.ə) südəmər uşağı, yəni Əliəsğəri (ə) götürüb meydana gətirir və “Hüseyn, sənin altıaylıq bir Əliəsğərin var”, – deyə söyləyir. İmam Hüseyn (ə) uşağı qucağına alıb üzünü düşmənin qoşununa tutub buyurdu:

إِنْ لَم ترحموني و ارحموا هذا الْصغِير

–Əgər mənə rəhminiz gəlmirsə, ən azından bu uşağa rəhm edin.

Bu uşaq su içsə, sizə nə ziyan vuracaq?! Hərmələ ibn Kahil oxu ilə İmama (ə) cavab verdi. İmam Hüseyn (ə) ovcunu Əliəsğərin (ə) qanı ilə doldurub, bir miqdarını göyə səpdi, bir miqdarını öz əlinə yaxdı və qalanını da Əliəsğərin (ə) üzünə çəkdi. Sonra buyurdu:

إِلهي هونٌ علَي لِأنه بِعينِ الله

–İlahi, bu müsibətlərə dözmək mənim üçün çox asandır. Çünki Allahın gözü qarşısındadır.

Sonra Həzrət (ə) xanım Zeynəbə (s.ə) buyurdu ki, mənə köhnə libas verin. Qoy köhnə libas geyim ki, mən şəhid olandan sonra köynəyimi əynimdən çıxartmasınlar. İmam (ə) həmin köhnə libasları geyinəndə isə hətta onları cırırdı ki, kimsə onun əynindən çıxartmasın.

Xanım Zeynəb (s.ə) bir köynək də gətirdi və dedi ki, indi anam Zəhranın (s.ə) toxuduğu köynəyi də geyinmək vaxtıdır. Tarixi mənbələrdə yazırlar ki, bu hala göydə elə bir mələk

qalmadı ki, ağlamasın. Göyün bütün mələkləri bu hala ağladılar.

Beləcə, İmam Hüseyn (ə) döyüş meydanına getdi. Həzrət döyüşərkən onun alnından bir daş vurdular. Qan Həzrətin (ə) mübarək üzünə axdı. İmam Hüseyn (ə) köynəyinin ətəyi ilə alnını silmək istəyəndə onu oxla vurdular.

*Qalxızıbdur kəfənin damənin zilullah,*
*İstədi gözlərini silsin Əba Əbdillah,*
*Hərəmullahi ziyarət elədi ox nagah,*
*Dedi: La hövlə və la qüvvətə illah billah.*

**Üçüncü şərt: Ədalətə riayət etməlidir**

Beləcə, İmam Hüseynin (ə) kufəlilərə göndərdiyi məktubun sonunda qeyd etdiyi İslam rəhbərinin dörd şərtindən üçüncüsü budur ki, "و الآخِذُ بالقِسط" – "Ədaləti lazımınca icra etsin."

Ədalət elə bir məsələdir ki, bütün aləm onun üzərində bərqərar olmuşdur. Əgər yer üzündə ədalət olmasa, o zaman bütün insanların həyatı məhvə düçar olar, insanlarda həyat sevgisi sönər. Hər bir şeyin təməlində ədalət olmalıdır. Həzrət Əli (ə) buyurmuşdur:

الْعدلُ أساسٌ بِهِ قِوام الْعالَم

–Ədalət əsas məsələdir və hər şey onun üzərində qurulmuşdur.

Əgər ədalət olmasa, heç bir şey nəticə verməyəcəkdir. Hər yerdə və bütün insanlar ədalətə riayət etməlidirlər, amma rəhbərlər bu məsələdə xüsusi rol oynayırlar. Ona görə ki, ədalət rəhbər olmağın əsas şərtlərindən biridir. Onların fəziləti başqalarının fəzilətindən fərqlidir. İmamın, rəhbərin və hakimin nə qədər fəzilətli olması onun ədalətli olmasından asılıdır. Həzrət Əli (ə) buyurmuşdur:

اَلْعدلُ فَضِيلَةُ السلْطان

–Sultanın fəziləti ədalətli olmasındadır.

İslam Peyğəmbəri (s) buyurmuşdur:

عدلُ ساعةٍ خير مِن عِبادة سِتين سِنةٌ قِيام لَيلَها و صِيام نهارها و جور ساعةٍ فِي حكْمٍ أشد و أعظَم عِند الله مِن معاصِي سِتين سِنةً.

–(Bir hakimin) bir saat (yəni bir müddət) ədalətli olması altmış il gecələr namaz qılıb, gündüzlər oruc tutaraq ibadət etməsindən daha üstündür. Həmçinin əgər (bir hakim) hər hansı bir hökmdə zülm etsə, (bunun günahı) Allah yanında altmış ilin günahından daha böyük və daha şiddətlidir.

İslam Peyğəmbəri (s) həm özü adil idi, həm bütün başçılara ədalətli olmağı tapşırırdı və həm də insanları ədalətə riayət etməyə çağırırdı. Əgər Həzrət Peyğəmbərin (s) məktublarına, xütbələrinə, 23 il ərzindəki davranışlarına və bütün hərəkətlərinə fikir versək, bu məsələnin onun əməllərində xüsusi önəm kəsb etdiyini görə bilərik. Məsələn, əgər uzaq bir yerdən beş nəfər onun yanına görüşməyə və ya hər hansı məsələ ilə bağlı məsləhət almağa gələrdisə, Allahın Rəsulu (s) onların cavablarını verərkən hər birinin üzünə eyni dərəcədə baxırdı. Birinə digərindən daha çox baxmazdı. Onun yanından çıxandan sonra heç bir kəs deyə bilməzdi ki, Həzrət Peyğəmbərin (s) mənə məhəbbəti daha çoxdur. Çünki mənə çox baxırdı.

İslam Peyğəmbəri (s) ədalətin mücəssəməsi və nümunəsi idi. Elə bu səbəbdən də Quran onun haqqında “أسوةٌ حسنة” (gözəl nümunə) –deyə buyurur. Həzrət Peyğəmbər (s) ədalətə riayət etməkdə çox dəqiq idi.

Həzrətin (s) oturub-durması, yeməyi, ailəsi ilə rəftarı və insanlarla münasibətləri də bu cür idi.

Hüneyn müharibəsindən sonra İslam Peyğəmbəri (s) qənimətləri bölüşdürürdü. Həmin döyüşdə iştirak edən bəzi

müsəlmanlar hələ yenicə İslama iman gətirmişdilər və əqidələri hələ kamilləşməmişdi. Onlar Həzrət Peyğəmbəri (s) hələ yaxşı tanımırdılar və ona qarşı olan mərifətləri çox zəif idi. Onlar Həzrətin (s) yanına gəlib basırıqlıq yaradırdılar. Hətta bəziləri nigaran idilər ki, birdən döyüşdə əldə edilən qənimətdən onlara az çatar. Odur ki, qənimətləri əldə etmək üçün çox tələsirdilər. Həzrət (s) onların qəlbindən keçənləri hiss edib buyurdu:

–And olsun Allaha, əgər mənim ixtiyarımda yer üzündə olan ağacların sayı qədər inək, qoyun və dəvə olsa, mən onların hamısını yenə də sizin aranızda ədalətlə bölərəm.

Sonra Həzrət (s) dəvənin belindən bir tük qopardıb buyurdu:

–And olsun Allaha, bu qənimətlərdən sizin payınızdan və mənə düşən haqdan dəvənin bu tükü qədər artıq götürməyəcəyəm.

Həzrət (s) sonra belə vəsiyyət etdi:

–Əgər sizin də əlinizə bir qənimət düşsə, heç bir vaxt xəyanət etməyin. Hətta bir iynə və ya sap qədər olsa da belə. Çünki qənimətdən artıq götürmək alçaqlığa və cəhənnəm oduna səbəb olar.

Ənsardan bunu eşidən bir nəfər ayağa qalxıb əlində bir sap gətirdi və dedi:

–Mən bu sapı dəvəmin palanını tikmək üçün götürmüşdüm.

Həzrət (s) buyurdu: “Mənim bu sapda olan haqqımı sənə bağışlayıram.”

Ənsardan olan bu şəxs dedi: “Əgər məsələ bu qədər dəqiqdirsə, onda mən bu sapı istəmirəm.”

O, bunu deyib sapı təhvil verdi.

## Həzrət Əlinin (ə) Siffeyndəki xütbəsi

Həzrət Əli (ə) hakim və valilərə rəiyyət arasında olan haqlar barədə buyurmuşdur:

فَقَد جعلَ اللهُ سبحانه لِي علَيكُم حقّاً بِولايةِ أمرِكُم و لَكُم علَي مِن الْحق مِثْلُ الذِي لِ علَيكُم...

ثُم جعلَ سبحانه مِن حقُوقِهِ حقُوقاً افْترضها لِبعضِ الناسِ علَي بعضٍ...

–Allah-taala məni sizlərə başçı təyin etməklə sizin boynunuzda mənim üçün bəzi haqlar müəyyən edib. Mənim sizin boynunuzda haqqım olduğu kimi, sizin də mənim boynumda haqqınız vardır...

Sonra eyib və nöqsan sifətlərdən pak və uzaq olan Allah Öz haqlarının bəzilərini insanların bəzilərinin müqabilində digərlərinə vacib edib...

Məsələn, arvadın kişinin boynunda, kişinin isə arvadın boynunda haqları vardır. Kişinin haqqı odur ki, arvad daim onun itaətində olmalıdır. Məsələn, arvad evdən çıxanda mütləq ərindən icazə almalıdır. Hətta atasının ziyarətinə getsə də belə. Əgər əri icazə verməsə, getməyə ixtiyarı yoxdur. Arvadın kişinin boynunda olan haqqı isə budur ki, onun bütün xərclərini ödəsin.

Bu haqq (kişinin haqqı) o haqqın (arvadın haqqı) müqabilindədir. Əgər onlardan biri boynunda olan haqqı ödəməsə, digəri də boynunda olan haqqı ödəmək məcburiyyətində qalmayacaqdır.

Həzrət (ə) xütbənin davamında buyurur:

و أعظَم ما افْترض سبحانه مِن تِلْك الْحقُوقِ حق الْوالِي علَي الرعِيةِ و حق الرعِيةِ علَي الْوالِي فَرِيضةٌ فَرضها اللهُ سبحانه لِكُل علَي كُل فَجعلَها نِظاماً لِأُلْفَتِهِم و عِز لِدِينِهِم فَلَيست تصلُح الرعِيةُ إِلّا بِصلاحِ الْولاةِ و لا تصلُح الْولاةُ إِلّا بِاستِقامةِ الرعِيةِ

–Eyib və nöqsan sifətlərdən pak və uzaq olan Allahın vacib etdiyi haqların ən böyüyü valinin rəiyyətin[1] boynunda və rəiyyətin də valinin boynunda olan haqqıdır. Eyib və nöqsan sifətlərdən pak və uzaq olan Allah bu hökmü vali ilə rəiyyətin hər birinə vacib edib və onu onların bir-birilərini sevmələri üçün nizam-intizam və rahatlıq vasitəsi və dinlərinin izzəti edib. Buna görə də rəiyyətin halı hökmdarların gözəl rəftarlarından savayı başqa heç bir şeylə yaxşılaşmır. Həmçinin hökmdarların halları rəiyyətin onların göstərişlərini yerinə yetirməkdə sabitqədəm olmalarından savayı başqa heç bir şeylə yaxşılaşmır.

Əgər vali boynunda olan haqqa riayət etsə, o zaman rəiyyət ondan bir nəticə hasil edəcəkdir. Həmçinin əgər rəiyyət boynunda olan haqqa riayət etsə, o zaman vali də bir nəticə hasil edəcəkdir. Bunların bir-birilərinin boynunda olan haqları qarşılıqlıdır. Başqa ifadə ilə desək, əgər millət hökmdarın boynunda olan haqqa riayət etmədiyini görsə, belə bir başçının millətin boynunda heç bir haqqı ola bilməz. Çünki onların haqları bir-birinə bağlıdır. Həmçinin əgər vali həmin haqqa riayət etsə, o zaman onun haqqını yerinə yetirmək də bütün millətin vəzifəsidir. Əgər hər iki tərəf haqqa riayət etsə, onda cəmiyyətdə bütövlükdə haqq bərqərar olacaqdır.

Həzrət (ə) xütbənin davamında buyurur ki, əgər onlardan hər biri boyunlarında olan haqqa riayət etsələr:

فَإِذا أدتِ الرعِيةُ إِلي الْوالِي حقه و أدي الْوالِي لَيها حقها عز الْحق بينهم و قامت مناهِج الدينِ و اعتدلَت معالِم الْعدلِ و جرت علَي أذلالِها السنن فَصلَح بِذلِك الزمانُ و طُمِع فِي بقاءِ الدولَةِ و يئِست مطامِع الْأعداءِ...

---

[1] Vali – sultan; rəiyyət, yəni xalq deməkdir.

–Rəiyyət valinin və vali də rəiyyətin haqqını yerinə yetirsə, o zaman aralarındakı haqqa ehtiram göstərilər, dinlərinin qayda-qanunları bərqərar olar, ədalət və düzlüyün nişanələri bərpa edilər və sünnələr öz yerində icra olunar və bütün bunların nəticəsində dövran düzələr, dövlətin və hökumətin daimiliyinə ümid artar və düşmənlərin tamahları yoxa çıxar...

Sonra Həzrət (s) buyurur ki, yox, əgər bu haqlara riayət olunmasa, o zaman:

و إذا غَلَبتِ الرعِيةُ وليها أو أجحف الْوالِي بِرعِيتِهِ اختلَفَت هنالِك الْكَلِمةُ و ظَهرت معالِم الْجورِ...فَهنالِك تَذِل الْأبرار و تعِز الْأشرار...

–Əgər rəiyyət valiyə qalib gəlsə (onun haqqına riayət etməsə), yaxud vali rəiyyətə qarşı həddi aşaraq onlara zülm etsə, onda onların aralarında narazılıq baş verər, zülm nişanələri üzə çıxar... Nəticədə cəmiyyətdə yaxşı əməl sahibləri xar-zəlil olarlar, pis əməl sahibləri isə ehtiram sahiblərinə çevrilərlər.[1]

Odur ki, nə valinin rəiyyətə zülm etməyə haqqı vardır, nə də rəiyyətin valiyə zülm etməyə haqqı vardır. Əgər onlar bir-birinin haqqına riayət etsələr, bu zaman onların yaşadıqları cəmiyyət və ölkə gülüstana çevrilər. Yox, əgər riayət etməsələr, tamamilə bunun əksi baş verər və bütövlükdə cəmiyyət bu halın çox ağır nəticələri ilə üzləşə bilər.

Həzrət Əli (ə) başqa bir hədisdə buyurur:

اَلْعدلُ قَوام الرعِية و جمالُ الْولاة.

–Ədalət rəiyyətin yaşayışının və valilərin gözəlliyidir.

[1] Nəhcül-bəlağə, 207-ci xütbə.

**Dördüncü şərt: Canını Allaha vəqf və həsr etməlidir**

İmam Hüseyn (ə) rəhbər olmağın şərtlərini qeyd edərkən dördüncü şərt olaraq buyurur ki, rəhbər "و الْحابِس نفْسه علي ذاتِ الله" – "Özünü Allaha həsr edən (yalnız Allah rizası üçün əməl edən) şəxs olmalıdır." Bu da çox mühüm şərtlərdən biridir və rəhbər bütün vücudu ilə özünü Allah yolunda vəqf etməlidir. Vəqf etməyin hökmü isə şəriətdə məlumdur. Məscidə vəqf olunmuş hər hansı bir əşyanı oradan çıxartmaq haram olduğu kimi, rəhbərin də özünü Allah yolunda vəqf etməsi o deməkdir ki, başqa bir yolda addım atması haramdır.

Rəhbər bütün ömrünü Allah yolunda sərf etməlidir. Yəni rəhbər gecə və gündüz bütün ömrünü dinə və millətə həsr etməlidir. Hər bir işdə Allahın nəzərini əsas götürməlidir.

Elə bir şərait yaratmalıdır ki, insanlar dinə sarı axışıb gəlsinlər. Həmçinin elə bir şərait yaratmalıdır ki, mənəviyyat sahibi olmaq istəyən hər bir şəxs bu məqsədə çatmaq üçün əziyyət çəkməsin. Yəni onların bu hədəfə nail olmaları üçün heç bir maneçilik törədilməməlidir. Habelə hər hansı bir insanın kamala gəlib çatması üçün müvafiq şərait yaradılmalıdır. Çünki hər bir insan kamala çatmaq üçün xəlq olunmuşdur.

Rəhbərin hökmranlıq etdiyi bir cəmiyyətdə Allahın halal buyurduqları dəyərlər əsas götürülməli və məhz onlara istinad olunmalıdır.

Yox, əgər belə olmasa, yəni hər hansı bir cəmiyyətdə Allahın halal buyurduqları bir dəyər kimi qiymətləndirilməsə, belə bir cəmiyyət yavaş-yavaş tənəzzülə doğru gedəcək və nəticədə İbn Mülcəm kimi insanlar meydana çıxıb Həzrət Əli (ə) kimi böyük şəxsiyyətləri elə mehrabda ibadət zamanı şəhid edəcəklər. Həmçinin müəyyən bir zaman müddəti keçdikdən sonra isə elə bir şərait yaranacaqdır ki, İmam Hüseynin (ə) başını ümmətin gözləri qarşısında nizəyə taxacaqlar. Belə hadisələr isə birdən-birə olmur, zaman keçdikcə

və həm də Allahın qoyduğu yoldan çıxanda, Allahın buyurduğu dəyərlərə məhəl qoymadıqda baş verir.

İslam Peyğəmbəri (s) buyurmuşdur:

إن الْحسن و الْحسين سيدا شبابِ أهل الْجنة

–Həqiqətən, Həsən və Hüseyn cənnət cavanlarının[1] ağasıdırlar.

İslam firqələrinin hamısı bu hədisi öz kitablarında nəql etmişlər. Yəni onlar da nəql ediblər ki, İmam Həsən (ə) və İmam Hüseyn (ə) cənnətin ağalarıdır.

Yaxşı, əgər bunlar cənnətin ağalarıdırsa, bəs nəyə görə onları öldürürsünüz?! Bəs nə üçün onları öldürənləri müdafiə edirsiniz?! Ataları Əli ibn Əbitalib (ə) Müaviyə ilə üç böyük müharibə etmişdir. Onlar Həzrət Peyğəmbərin (s) abrından və şərafətindən istifadə edərək İmam Əli (ə) ilə döyüşdülər.

Müaviyə İmam Həsənlə (ə) müqavilə bağlayandan sonra minbərə çıxdı və onunla bağladığı müqaviləni ayaqları altına atıb dedi ki, bu müqavilə mənə lazım deyil. Bunu da biləbilə bəs nədən bu gün yenə də Müaviyəni müdafiə edirlər?! Onu müdafiə edənlər hətta bəzi yerlərdə “Yezid axırda tövbə etdi”, – deyə söyləyərək Yezidi də müdafiə etməyə çalışırlar.

Deməli, bu sözləri dilə gətirmək və onları müdafiə etmək üçün uzun müddət xüsusi bir şərait yaradılmışdır. Əgər ilahi ədalət icra olunmasa, halal halal kimi və haram da haram kimi qəbul olunmasa, o zaman bir də baxıb görərsən ki, cənnət cavanlarının ağasının başını kəsib nizəyə taxıblar.

---

[1] Cənnətdə qoca adam olmayacaq. Bütün cənnət əhli cavan olacaq. Deməli, İmam Həsən (ə) və İmam Hüseyn (ə) bütün cənnət əhlinin ağasıdırlar.
Qoca bir qadın İslam Peyğəmbərinin (s) yanına gəlmişdi. Həzrət Peyğəmbər (s) ona buyurdu ki, səni bu vəziyyətdə behiştə buraxmayacaqlar. Həmin qadın bu sözü İslam Peyğəmbərinin (s) dilindən eşitdiyinə görə çox narahat oldu. Ağladı və səbəbini soruşdu. Həzrət (s) buyurdu: “Səni 14 yaşlı bir insan kimi behiştə buraxacaqlar.”

Odur ki, rəhbərin hər bir işi, əməli, qayğı və problemləri, eləcə də qəm-qüssəsi və hər bir dərdi Allaha xatir olmalıdır. Qarşısına çıxan hər bir işdə fikirləşməlidir ki, görəsən, bu işdə Allahın razılığı var, ya yox. Fikirləşməlidir ki, bu iş Allahın istəklərinə şərait yarada bilər, ya yox. Əgər Allahın razılığı varsa və Allahın istəklərinə şərait yarada bilirsə, o zaman həmin işi yerinə yetirmək olar.

**Sələbiyyə məntəqəsi**

Sələbiyyə adlı məntəqədə İmam Hüseyn (ə) başını dizinin üstünə qoyub bir qədər dincəlmək istədi. Yuxu onu apardı və ayılandan sonra bu ayəni oxudu: "İnna lillah və inna ileyhi raciun". Həzrət Əliəkbər (ə) sorushdu: "Atacan nə oldu?" İmam Hüseyn (ə) buyurdu: "Qulağıma bir nida gəldi. Mənə dedilər ki:

أنتم تسرعونَ و الْمنايا تسرع ِبكُم ِإلي الْجنةِ

–Siz getdikcə ölümə yaxınlaşırsınız və nəhayət, siz cənnətə yaxınlaşırsınız.

Həzrət Əliəkbər (ə) atasından soruşdu:

–Atacan! Məgər biz haqq deyilikmi?

Həzrət (ə) buyurdu:

–Bəli oğlum! And olsun Allaha, biz zərrə qədər belə haqdan kənarlaşmamışıq.

Həzrət Əliəkbər (ə) vaxtilə Həzrət Əlinin (ə) İslam Peyğəmbərinə (s) söylədiyi fikri burada dilə gətirir.

–Əgər haqq bizimlədirsə, onda ölümdən qorxumuz yoxdur.

Əgər yolumuz haqq yoldursa, məqsəd Allaha qovuşmaqdırsa və biz haqq yoldan çıxmamışıqsa, o zaman nədən qüssələnməliyik.

Buna – özünü Allahın zatına təhkim edib və heç bir vaxt ondan ayrılmamaq – deyilir. Bütün tarix boyu belə olub. Başda İslam Peyğəmbəri (s) olmaqla bütün Əhli-beyt (ə) belə

olublar və bu cür yaşayıblar. Onların özlərini ədalətə, Allahın eşqinə əsir etmələrinin nümunələri tarixdə kifayət qədərdir. Düşmən də bunları çox gözəl bilir.

**Düşmənin Həzrət Əlinin (ə) haqq olması barədə sözü**

Siffeyn döyüşündə, "Leylətül-hərir"də Həzrət Əlinin (ə) qoşunu qələbə qazanmağa yaxın idi. Malik Əştər bu döyüşdə düşmən qoşununun cərgələrini yara-yara irəliləyirdi. Müaviyə onun qarşısını almağın mümkünsüz olduğunu anlamışdı. Odur ki, o, atına minib döyüş meydanından qaçdı. Arxa cəbhəyə, yəni çadırlara yaxınlaşıb atından endi. Onun hiyləgər dostu Əmr As orada idi. O, Müaviyədən bir az öncə döyüş meydanından qaçmışdı. Müaviyə ona dedi:

–Mənə elə gəlir ki, Əlinin (ə) hakimiyyəti yalnız bu gecəlikdir.[1]

Əmr As dedi: "Ey Müaviyə! Sənin Əli (ə) ilə bir neçə fərqin var:

1. Sənin əsgərlərin Əlinin (ə) əsgərləri qarşısında müqavimət göstərə bilmirlər və heç bir vaxt da müqavimət göstərə bilməyəcəklər.

2. Sən özün də onun qarşısında müqavimət göstərə bilmirsən və heç bir vaxt da bunu edə bilməyəcəksən. Sən onun qarşısında tab gətirə biləcək bir adam deyilsən.

3. Sən bir şey üçün müharibə edirsən, o isə başqa bir şey üçün müharibə edir.

4. Sən bəqa (yaşamaq) haqda düşünürsən, o isə fəna haqda düşünür.

5. İraqlılar (yəni Əlinin (ə) qoşunu) sənin onlara qalib gəlməyindən və hakimiyyəti ələ almağından qorxurlar. Çünki sən hakimiyyəti ələ alandan sonra onların başına nə

---

[1] Döyüş meydanından qaçmasına baxmayaraq, özünü hələ də hökmdar hesab edir. Belə insanlar çox utanmaz olurlar. Hətta onlar bir-birilərindən də belə utanmırlar.

oyunlar açacağını bilirlər. Amma şamlılar (yəni Müaviyənin qoşunu) Əlinin (ə) qələbə qazanmağından və onlara rəhbər olmasından qorxmurlar.

Əmr Asın Müaviyəyə söylədiyi bu sözlər kimin haqq və kimin batil olduğunu bilmək üçün kifayət edir. O, özünün bu fikirlərilə bir növ haqq ilə batil arasındakı mübarizənin qısa xülasəsini açıqlamışdı. Əmr As bununla demək istəyirdi ki, İmam Əlidə (ə) olan mənəviyyat səndə (yəni Müaviyədə) yoxdur. Çünki o, özünü Allah yolunda vəqf etmişdir. Həzrət Əli (ə) sağ qalsa da qalibdir, şəhid olsa da qalibdir. Həzrət Əli (ə) bir gecə də hakimiyyətdə olsa qalibdir, min gecə də hakimiyyətdə olsa, yenə də qalibdir. Çünki onun yolu haqq yoludur və bu yolda hədəf yalnız Allah-taaladır.

Onlar bunu bilə-bilə haqq-ədalətin bərpa olunmasını istəmirdilər. Aydın məsələdir ki, haqq-ədalətin bərpa olunmasını həmişə məzlumlar istəyərlər. Zalımlar isə heç bir vaxt ədalətin bərpa olunmasını istəməzlər. Çünki bu, onlara sərf etmir.

Haqqın tərəfdarları, pak insanlar və təqvalılar Həzrət Əlidən (ə) qorxmurlar (çəkinmirlər). Xain, dünyapərəst və şəhvətpərəst insanlar isə İmam Əlidən (ə) qorxurlar. Bu, İslam rəhbərinin xüsusiyyətlərindən hesab edilir. Haqq insanlar İmam Əli (ə) tərəfindən əmin-amanlıqdadırlar, fasiqlər isə yox.

Corc Corcdaq adlı ərəb mənşəli xristian alim Həzrət Əli (ə) haqqında "Bəşəriyyətin haqq səsi" adlı bir neçə cildlik kitab yazmışdır. O, həmin kitabda yazır:

قُتِلَ عِلي ِفي ِمحرابِ الْعِبادِة ِلشِدِة الْعدلِ

–Əli ədalətinin çoxluğundan (şiddətindən) ibadət mehrabında öldürüldü.

Əgər bir şəxs həyata bu nöqteyi-nəzərdən baxmasa, heç bir vaxt Kərbəlanı başa düşə bilməz. Ona görə də bəziləri "min il bundan qabaq ölənlər üçün niyə ağlayırsınız?" – deyə

söyləyirlər. Və yaxud "iki ərəb hakimiyyət üstündə bir-biri ilə müharibə ediblər. Siz niyə onlara ağlayırsınız?" – deyirlər. Onlar təbliğatlarını bu mövzuların üzərində qururlar.

Amma Quranın təqdim etdiyi dini, Allahın Xaliq olduğunu, habelə sənə göstəriş verilmiş və yerinə yetirilməsi tələb edilən vəzifələri dərk edə bilsən, o zaman görərsən ki, Kərbəla həmişə gündəmdədir. Kərbəla hadisəsindən min ildən çox keçsə də, həmin hadisə bu günün işi və bu günün məsələsidir. Baş verdiyi tarixdən uzun bir müddətin keçməsinə baxmayaraq, hələ də mövcuddur və bəşəriyyət durduqca bu hadisə də əbədi olaraq insanların qəlbində və fikirlərində yaşayacaqdır.

Kərbəla əvəzsiz bir örnək mənbəyidir. İmam Hüseynin (ə) Kərbəlada şəhid olması onun ədalətinin, qeyrətinin, ibadətinin çoxluğuna görə idi. İmam Hüseyn (ə) Kərbəlada heç nədən çəkinmədən sinəsini qabağa verdi və "Ey qılınclar, doğrayın məni!", – deyə söylədi. Əgər bu həyatda haqq-ədalət varsa, onda bu həyat yaxşıdır. Yox, əgər bu həyatda haqq-ədalət yoxdursa, onda şəhadət yaxşıdır.

Həzrət İmam Hüseyni (ə) qətlə yetirənlər heç bir dəyərin üzərində dayanmadılar. Heç bir qadın və uşağa rəhm etmədilər. İmam Hüseyn (ə) isə haqqın, ədalətin mücəssəməsi idi. Onların İmam Hüseynə (ə) olan kin-küdurətləri əsl həqiqətdə haqq-ədalətə qarşı yönəlmiş kin-küdurət idi. Hətta onlar İmam Hüseynin (ə) mübarək cənazəsinin üstündə at çapmaqdan belə çəkinmədilər. Bu əməl isə onların törətdiyi ən ağır cinayətlərdən idi və tarix bunu heç bir zaman onlara bağışlamayacaqdır.

İmam Hüseyn (ə) atından yerə yıxılmışdı və Allahla münacat edirdi. Heç bir kəs qorxusundan ona yaxın gedə bilmirdi. Təxminən günorta namazından bir az keçmişdi. Yay fəsli idi və günlər də uzun idi. Axşama qədər o həzrət elə bu vəziyyətdə qaldı. Bu vəziyyəti görən Ömər ibn Səd əsəbiləşib qışqırdı: "Niyə belə məəttəl qalmısınız?" Ömər

ibn Sədin qoşununda bir neçə nəfər seçilmiş dəstə başçısı var idi, o cümlədən də Hərmələ, Xuli, Şimr, Sənan və başqaları. Xuli irəli keçib işi bitirmək istədi, lakin əlləri titrədi və geri qayıtdı. Ondan "Nə oldu?" – deyə soruşduqda, "Halım pisləşdi" – deyə cavab verdi. Daha sonra bir neçə nəfər də o həzrətin başını bədənindən ayırmaq istədi, lakin onların da əlləri titrədi və bu işi bacarmadılar. Bu məqamda İmam Hüseyn (ə) münacat etməklə məşğul idi.

Nəhayət, Şimr əlinə qılınc alıb qətlgaha girdi. Həzrət (ə) onun üzünə baxıb buyurdu: "Peyğəmbərin (s) buyurduğu əlamətlərin hamısı səndə var.". O məlun isə həzrətin başını bədənindən ayırdı.

Ömər ibn Səd İmam Hüseynin (ə) başı bədənindən ayrılandan sonra onun mübarək cənazəsinin üstünə gəlib nərə çəkdi: "Kim Hüseynin cənazəsi üstündə at çapmağa hazırdır? Onun sinəsinin əti gərək torpağa qarışsın."

Əsid ibn Malik deyir ki, biz on nəfər bu işi görməyə hazır olduq. O, İbn Ziyadın qarşısında dedi:

–Biz həmin adamlarıq ki, Hüseynin (ə) bədəni üstündə at çapıb onun sinəsinin sümüklərini sındırdıq.

İmam Baqir (ə) buyurur: "Onlar atları çapdırmaqla haqqa və ədalətə olan kin-küdurətlərini bildirdilər."

O zalımlar bax bu qədər nanəcib, mənfur və cinayətkar adamlar idilər. Hətta onlar hələ İmam Hüseyn (ə) şəhid olmazdan qabaq, yəni o həzrətin gözləri önündə çadırlara hücum etmək istəyirdilər. Bununla da bu qatı canilər o həzrətə mənəvi və ruhi zərbə vurmaq istəyirdilər. Çünki çadırları müdafiə edən bir kişi belə qalmamışdı. Orada 80-dən artıq qadın və qızlar, habelə xəstə yatan İmam Səccad (ə) və bir də o zaman hələ cəmi 4 yaşı olan İmam Baqir (ə) qalmışdı.

İmam Hüseyn (ə) onların belə bir çirkin əmələ əl atacaqlarını gördükdə qılıncına söykənib bir qədər qalxdı və buyurdu:

ويلكُم يا شِيعةَ آلِ أَبي سفْيانَ إنْ لم يكُن لَكُم دِين و كُنتم لا تخافُونَ المعاد فَكُونوا أحراراً في دنياكُم هذه.

–Vay olsun sizin halınıza, ey Əbu Süfyanın övladlarının tərəfdarları! Əgər dininiz yoxdursa və qiyamət günündən qorxmursunuzsa, heç olmasa bu dünyada azad insan olun.

Şimr irəli gəlib dedi: "Nə istəyirsən?" Həzrət (ə) buyurdu:

أنا الذِي أُقاتِلُكُم و تقاتِلُونني و النساءُ لَيس علَيهن جناح

–Sizinlə döyüşən mənəm və siz də mənimlə döyüşürsünüz, qadınların burada günahı yoxdur.

Lakin onlar İmamın (ə) bu sözlərinə də məhəl qoymadılar və çadırlara sarı hücum etdilər. Çadırlara yaxınlaşanda Xanım Zeynəb (s.ə) irəli çıxdı.

*Xanım Zeynəb zəru zeyvi qabaq bükmüşdü dəsmalə,*
*Dayandı rubərudə atdı bir-bir qovmi cühhalə,*
*Buyurdu əyyühəl ərabi vəhşi mərdumi nadan,*
*Xiyaluz mali dünyadur, mənə möhlət verun əlan,*
*Hərimi Haşimi saxlayım bir güşədə nalan.*

Xanım Zeynəbə (s.ə) dedilər ki, çadırdan çıx. Dedi: "Xeyr, çıxmayacağam. Mən öz çadırımdan və evimdən niyə çıxmalıyam." Dedilər: "Sizə əmr edirik, çıxın." Dedi: "Çıxmıram."

Sonra çadırlara od vurmaq əmri verdilər. Uşaqlar da çadırda idilər və İmam Səccad (ə) da həmin çadırın içərisində xəstə halda uzanmışdı.

Xanım Zeynəb (s.ə) burada böyük bir hünər göstərdi. O, İmam Səccadın (ə) yanına gəlib dedi: "Ey qardaşım oğlu. Hüseyndən (ə) sonra imamım sənsən. İndi mənim vəzifəm nədir? Əgər çadırlarda yanmağımız məsləhətdirsə, qızlara deyim çadırlardan çıxmasınlar, hamımız yanaq. Yox, əgər çadırlardan çıxmağımız məsləhətdirsə, de, mən də qızlara deyim ki, çadırlardan çıxsınlar." İmam Səccad (ə) buyurdu:

–Bibi, deyin qızlar çöllərə dağılışsınlar.

*Ələykunnəl-firar hökmü yetişdi ismətullahə,*
*Özün vurdu oda qızlar dağıldı rahu birahə,*
*Biyabandi, alovdi, yeldi tufan, qızdı, övrətdi,*
*Həvadə qırmızı torpaq yağır, ruzi qiyamətdi.*

Allah bilir orada nələr baş verdi. Ravi deyir: "Gördüm ki, bir xanım əllərini başına qoyub çadırdan çıxdı və o tərəfə bu tərəfə qaça-qaça Nəcəf tərəfə baxıb "Ata, ya Əli, qızların odun içində yanır", – deyə səsləyirdi. Əllərini başına qoyub qaça-qaça Mədinə səmtinə baxıb səslənir: "Ana, ya Zəhra, gəl, balaların odun içində yanır!"

Sonra o xanım özünü odun içinə vurdu. Mənə elə gəldi ki, bu çadırda nəsə qiymətli bir şey qalıb və xanım onu götürmək istəyir. Baxıb gördüm ki, xəstə bir nəfərin qolundan yapışıb odun içindən kənara çıxardır.

Sonra gördüm ki, balaca bir qız paltarının ətəyi od tutub yandığı halda çadırdan çıxıb qaçmağa başladı. "Allah yandım, Allah yandım" – deyə-deyə o tərəfə bu tərəfə qaçırdı. Dörd-beş yaşında bir qız idi. Ona baxdım və ürəyim onun halına yandı. Mən onun paltarının ətəyini söndürmək üçün yaxınlaşdım. Məni görüb qorxusundan əlləri titrədi. Dedim: "Qorxma, mən sənin paltarının ətəyini söndürmək üçün gəlmişəm." Mənə baxıb dedi: "Zalım, mən qoymaram naməhrəmlər mənim paltarımın ətəyinə əllərin vursunlar. Mən Hüseynin (ə) qızıyam, mən Əliəkbərin (ə) bacısıyam. Özüm söndürərəm."

***Allah zalımlara lənət eləsin!***

## İSLAM TƏLİMLƏRİNDƏ ƏZADARLIĞIN ƏSASI VARMI?

Bəzən müxtəlif insanlar əzadarlıq məsələsi ilə bağlı müəyyən suallar verirlər. Həmin suallardan biri budur ki, "biz İmam Hüseynə (ə) əza saxlayırıq və İslamda bunun bir əsası vardırmı? Yoxsa zaman keçdikcə öz-özünə yaranmışdır?" Başqa ifadə ilə desək, "İslam təlimlərində əzadarlıq varmı, yoxsa zaman keçdikcə şiələr özləri yavaş-yavaş bunu formalaşdırmışlar?" Yəni bu, İslam dininə aid olan bir məsələ deyil. Həqiqətən də, bəziləri elə düşünürlər ki, əzadarlığın İslam dininə heç bir aidiyyəti yoxdur.

Qeyd etmək lazımdır ki, bu suala cavab vermək üçün kimlərinsə yazdığı kitablara istinad etmək məcburiyyətində deyilik. Çünki onların kitabları səmavi kitab deyil ki, orada səhvlər olmasın. Onlar istədikləri hədisləri həmin kitablarda yaza bilərlər.

Həmçinin biz ulul-əzm peyğəmbərlər olan Həzrət Adəmin (ə), Həzrət Nuhun (ə), Həzrət İbrahimin (ə), Həzrət Musanın (ə) və Həzrət İsanın (ə) dünyalarını dəyişərkən özlərindən sonra vəsi təyin etdikləri kimi, İslam Peyğəmbərinin (s) də özündən sonra vəsi təyin etməsinə inanırıq. Bizim əqidəmizə görə, İslam Peyğəmbərinin (s) özündən sonra rəhbər seçimi məsələsini ümmətin ixtiyarına buraxması fikri qətiyyən düzgün deyildir. Həmçinin bizim əqidəmizə əsasən, Həzrət Peyğəmbərin (s) təyin etdiyi vəsisi və canişini eyni zamanda məsum olmalıdır. Habelə bizim əqidəmizə əsasən, Həzrət Peyğəmbər (s) bu vəsini Allahın əmri ilə təyin etmişdir. Biz öz məsumlarımızı höccət hesab edirik.

Bu gün yer üzündəki müsəlmanların hər birinin özünəməxsus əqidəsi olmasına baxmayaraq, onlar hamısı bir-birinin qardaşlarıdır. Biri Hənəfidir, biri Hənbəlidir, biri Şafeidir, biri Malikidir, biri İslamdan 200 il sonra yaşayıb fəaliyyət göstərən bir insanı özünə xəlifə bilir, biri isə 800 il sonra

həyatda olan bir şəxsi özünə xəlifə hesab edir. Amma bizim qəbul etdiyimiz xəlifə İslam Peyğəmbərinin (s) qucağında böyümüşdür. “Şiə haradan yaranıb?” – sualı və ya ifadəsi qətiyyən düzgün bir fikir deyil, əksinə, gərək biz soruşaq ki, “siz haradan yaranmısınız?!”

Şiələr Həzrət Əlini (ə) İslam Peyğəmbərinin (ə) həqiqi vəsisi hesab edirlər və Qurani-kərimdə onun barəsində 300-dən çox ayə nazil olmuşdur. Həzrət Əli (ə) Kəbə evində dünyaya gələndən sonra anası Fatimə bint Əsəd onu ilk dəfə Həzrət Peyğəmbərin (s) qucağına vermişdir. Bu məsələdə bəhs etməyə ehtiyac yoxdur və hər kəs bu barədə bir qədər düşünsə, kifayət edər.

Quran buyurur: “والسابقون السابقون”[1] – “İlk iman gətirən hamıdan üstündür.” İslama birinci olaraq iman gətirən Həzrət Əlidir (ə). İslam Peyğəmbəri (s) öz nübüvvətini elan edərkən “Kim mənə iman gətirir?” soruşduqda, Həzrət Əli (ə) “Mən iman gətirirəm”, – deyə cavab vermişdi.

Elə bu səbəbdən də biz nəql etdiyimiz hədislərin hansısa bir təriqətin kitablarında olmasını zəruri hesab etmirik. İmam Baqir (ə) Allahın höccətidir və bizim əqidəmizə əsasən məsumdur, insanların arasında seçilmiş bir insandır. Həmçinin İmam Sadiqin (ə), Həzrət Əlinin (ə), İmam Həsənin (ə) və Həzrət Peyğəmbərin (s) söylədikləri hədislər bizim üçün höccətdir. Və biz bu hədislərin nurlu qapılarını öz üzümüzə bağlamamışıq, eləcə də həmişə bu hədislərdən bəhrələnmişik. Hər kim bu hədislərdən istifadə etmirsə, biz onlara nə kafir deyirik, nə də onların qanını halal hesab edirik.

Uzun sözün qısası, biz sözlərimizi sübut etmək üçün kimlərinsə kitablarından hədis nəql etmək məcburiyyətində də deyilik. İmam Baqirin (ə) bir və ya min hədisi bizim üçün höccətdir və onun höccət olması bizə kifayət edər.

---

[1] Vaqiə surəsi, 10-cu ayə.

**Birinci hədis**

Əbu Həmzə Sumali İmam Baqirin (ə) ən yaxın dostlarından biriydi. O deyir: “Bir gün İmam Məhəmməd Baqirin (ə) hüzurunda idim. Həzrət (ə) Quran oxuyurdu.

إنا لَننصر رسلَنا والذِين آمنوا فِي الْحياةِ الدنيا ويوم يقُوم الْأَشهاد

–Həqiqətən, Biz Öz peyğəmbərlərimizə və (onlara) iman gətirənlərə dünya həyatında və (peyğəmbərlər, məsumlar və mələklərdən ibarət əməl) şahidlərin(in) ayağa qalxdıqları gündə kömək edərik.[1]

Həzrət (ə) bu ayəni oxuyub buyurdu:

اَلْحسين بن عِلي علَيهِ السلام مِنهم و والله إن بكائكُم علَيهِ و حدِيثَكُم بِما جري علَيهِ و زِيارتكُم قَبره نصرةٌ لَكُم فِي الدنيا فَأَبشِروا فَإنك معه فِي جوارِ رسول الله.

–Şahidlərin ayağa qalxdıqları gün onlardan biri də Hüseyn ibn Əlidir (ə). And olsun Allaha, sizin ona ağlamağınız, onun başına gələnləri danışmağınız və onun qəbrini ziyarət etməyiniz (Allahın) sizə dünyada etdiyi köməkdir. Bəşarət olsun sizə, siz (qiyamət günü) onunla birlikdə Rəsulullahın yanında olacaqsınız.

İmam Baqir (ə) elə bir şəxs idi ki, Quranı da təfsir etməyə tam ixtiyarı vardı. Çünki İslam Peyğəmbəri (s) dünyasını dəyişəndə buyurdu ki, Quranı və Əhli-beytimi (ə) sizə tapşırıb gedirəm. Bu sözün mənası odur ki, hər zaman Quranı başa düşməsəniz, onda Quranın yanında olan “Natiqi Qurana”, yəni Əhli-beytə (ə) müraciət edin. Quranı özbaşına təfsir etmək olmaz.

Bu hədisdən belə məlum olur ki, İmam Hüseynin (ə) müsibətinə ağlamaq, onun haqqında danışmaq və onun qəbrini ziyarət etmək Allahın insanlara bəxş etdiyi bir yardımdır.

[1] Ğafir surəsi, 51-ci ayə.

Hər kim bu işləri görsə, qiyamət günü Həzrət Peyğəmbərin (s) yanında olacaqdır.

Əgər bir nəfər İmam Hüseynin (ə) məclisində əyləşib Kərbəla hadisəsindən söz açırsa və yaxud Həzrət Hüseynin (ə) müsibətinə ağlayırsa, habelə İmam Hüseynin (ə) mübarək qəbrini ziyarət edirsə, bu əməlin İslamda hansısa bir əsası vardırmı, yoxsa zaman ötdükcə sonradan yaradılan bir məsələdir?

İmam Baqirin (ə) Quranı oxuduqdan sonra onu təfsir edərkən söylədiyi bu hədis bir daha bizə bildirir ki, sözügedən əməlin İslam dinində sənədi və əsası vardır.

**İkinci hədis**

Müaviyə ibn Vəhəb deyir ki, günlərin birində icazə alıb İmam Sadiqin (ə) mənzilinə daxil oldum. Dedilər ki, Həzrət (ə) namaz qılmaqla məşğuldur. Dedim ki, eybi yoxdur, mən gözləyərəm. Əyləşdim və o həzrətin namazını qılıb qurtarmasını gözlədim. Həzrət (ə) namazı qılıb qurtarandan sonra münacat etməyə başladı və mən onun münacatını eşidirdim. Həzrət (ə) uzun bir münacat etdi. Axırda belə dedi:

–İlahi, Əba Əbdillah Hüseynin (ə) qəbrini ziyarət edəni bağışla! Çünki onlar bu yolda bizə yaxşılıq etmək, bizi yad etmək, Həzrət Peyğəmbəri (s) sevindirmək, bizim düşmənlərimizi narahat etmək və nəhayət, Sənin razılığını əldə etmək üçün mallarını xərcləmişlər və uzaq yol getməklə bədənlərinə əziyyət vermişlər.

İlahi, bizim adımızdan onlara rizvanı[1] əta elə və onları qoru!

İlahi, bizim düşmənlərimiz onları qorxudur və bu əməli onlara eyib hesab edirlər. Lakin bu hədə-qorxular ziyarət edənlərin ziyarətə gəlməsinə mane olmur.

---

[1] Rizvan – cənnətin adlarından biridir və cənnətdə xüsusi bir yerdir.

اَللهم فَارحم تِلْك الْأعين الِتي جرت دموعها رحمةً لَنا وارحم تِلْك الْقُلُوب الِتي جزِعت واحترقَت لَنا وارحم القرخةَ الِتي كانت لَنا. اَللهم إِني أُستودعك تِلْك الْأنفُس و تِلْك الْأبدان حتي نوافِيهم علَي الْحوضِ يوم الْعطَش.

–Allahım, Hüseynə (ə) ağlayaraq gözlərindən yaş tökülən gözlərə rəhm elə! İlahi, Hüseyninə (ə) yanan və bizim halımıza yanan qəlblərə rəhm elə! Allahım, bu ruhları və bu bədənləri sənə tapşırıram. Onların hamısını qiyamət gününün susuzluğuna və Kövsər hovuzunun kənarına gələnə qədər (bəlalardan) qoru!

İmam Sadiq (ə) Həzrət Hüseynin (ə) əzadarlarına, zəvvarlarına, onun müsibətinə ürəyi yananlara və ona ağlayanlara belə dua etmişdir. İmam Cəfər Sadiq (ə) bizim altıncı imamımız, Həzrət Peyğəmbərin (s) Əhli-beyti (ə) və məsum imamımızdır. İmam Cəfər Sadiq (ə) həm öz müasirlərinə və həm də qiyamət gününə qədər gələn möminlərə dua etmişdir.

## Məhərrəm ayının ilk on gününün əzadarlığı

Yuxarıda söylədiyimiz məsələ il ərzində baş verə bilən bir məsələdir. Yəni insan istədiyi an İmam Hüseynə (ə) əza saxlaya, istədiyi vaxt o həzrətin ziyarətinə gedə və istədiyi vaxt ona ağlaya bilər.

Amma məhərrəm ayının ilk on günü Həzrət Hüseynə (ə) əza saxlamağın xüsusi bir savabı vardır. Görəsən, İslam dininə aid kitablarda bunun təsdiqi, sübutu vardırmı? On gün İmam Hüseynə (ə) əza saxlanılması barəsində hədis nəql olunubmu?

Bu barədə İmam Rza (ə) buyurmuşdur:

–Məhərrəm elə bir aydır ki, cahillik dövründə insanlar bu ay müharibə etməyi haram bilirdilər. Amma bəzi müsəlmanlar

bu ayda bizim qanımızı tökməyi özlərinə rəva gördülər, hörmətimizi sındırdılar, oğullarımızı və övladlarımızı əsir etdilər, çadırlarımızı yandırdılar, malımızı qarət etdilər və bizə Həzrət Peyğəmbərə (s) olan münasibətimizə görə hörmət etmədilər.

فَعلي مِثْل الْحسين عليه السلام فَلْيبكِ الْباكُون فَإن الْبكاءَ عليه يحط الذنوب الْعِظام. ثُم قَالَ: كَانَ أَبي صلوات اللهِ عليه اِذا دخلَ شهر الْمحرم لا يري ضاحِكاً و كَانتِ الْكِئابةِ تغلِب عليه حتي يمضي مِنه عشرةُ أيامٍ فَإذا كَانَ الْيوم الْعاشِر كَانَ ذِلك الْيوم يوم مصِيبتِه و حزنِه و بكائِه و يقُول: هو الْيوم الذِي قُتِلَ فِيه الْحسين عليه السلام

–Ağlamaq istəyən hər bir kəs Hüseynə (ə) ağlasın. Həqiqətən, ona ağlamaq (ağaclardan yarpaqlar) töküldüyü kimi, insanın hətta böyük günahları da tökülər. Sonra buyurdu: “Məhərrəm ayı daxil olan zaman heç kim atamı gülən halda görməzdi. Məhərrəm ayından on gün keçənə qədər həmişə kədər və qəm-qüssə ona qalib gələrdi. Aşura günü yetişən zaman isə onun müsibət, qəm-qüssə və ağladığı gün olardı. Sonra ağlaya-ağlaya deyərdi: “Bu gün Hüseynin (ə) öldürülən günüdür.”

Bu hədisdən belə məlum olur ki, bizim məsum imamlarımız məhərrəm ayının ilk on gününü əza saxlamışlar. Məhərrəm ayının ilk günündən aşura gününün axırına qədər məsumların həmişə əza saxlamaları və əzadarlıq etmələri haqda çoxlu hədislər nəql olunmuşdur. Elə bu səbəbdən də bu gün onları sevənlər, Əhli-beyti (ə) sevənlər, Quranı sevənlər və Quranla onların arasında ayrılıq salmayan insanlar Əhli-beytin (ə) yolunu getməklə əza saxlayırlar. Şəriət baxımından bunun heç bir eybi yoxdur. Bu yol Əhli-beytin (ə) yolu, onların əməlləri və onların göstərişləridir.

**İmam Hüseynin (ə) müsibətinə ağlamaq və insanları ağlatmaq**

İmam Hüseynə (ə) əza saxlamağın ibadət olduğunu biləndən sonra bir məsələnə də diqqət yetirməyimiz yaxşı olardı. O da bundan ibarətdir ki, bəs görəsən, İslam təlimlərində əza məclislərində ağlamağa icazə verilmişdir, ya yox? Yəni belə məclislərdə mütləq ağlamaq lazımdırmı? Görəsən, ağlamağı kim tövsiyə etmişdir?

Bu barədə İmam Sadiq (ə) buyurmuşdur:

–Günlərin birində İmam Hüseyn (ə) Həzrət Peyğəmbərin (s) hüzuruna daxil oldu. Həzrət (s) onu dizinin üstündə əyləşdirdi və ona baxıb buyurdu:

إن لقتل الحسين حرارة في قلوب المؤمنين لا تبرد أبداً

–Həqiqətən, İmam Hüseynin (ə) şəhadətinə görə möminlərin qəlbində elə bir hərarət və istilik yaranar ki, heç bir zaman sönməz.

Sonra İmam Sadiq (ə) buyurdu:

بأبي قتيلُ كُلِّ عبرةٍ. قيل: و ما قتيلُ كُلِّ عبرةٍ يا بن رسول الله؟ قال: لا يذكره مؤمن إلّا بكي.

–Atam fəda olsun göz yaşının şəhidinə. Soruşdular: “Göz yaşının şəhidi nədir, ey Rəsulallahın övladı?” Buyurdu: “Mömin bir insanın İmam Hüseyni (ə) yad edərkən gözündən axan yaş.”

Mömininin qəlbinin hərarətli olması onun gözünün yaşından məlum olar. Ürək yanmasa, heç bir vaxt gözdən yaş axmaz.

**İmam Hüseynə (ə) ağlamaq ibadətdir**

İmam Sadiq (ə) buyurmuşdur:

نفس المهموم لنا المغتم لظلمنا تسبيح و همه لأمرنا عبادة...

–Bizim halımıza görə çəkilən qəmli nəfəslər, bizə olunan zülmə görə kədərlənmək təsbih sayılır, bu yolda çalışmaq ibadətdir.

İslam Peyğəmbərinin (s) "ذِكْر عِلي عِبادةٌ" – "Əlinin adını çəkmək ibadətdir" söylədiyi kimi, İmam Sadiq (ə) də buyurur ki, İmam Hüseynin (ə) adını çəkmək və onun müsibətinə kədərlənmək ibadətdir.

Bu hədisdən məlum olur ki, İmam Hüseynə (ə) əza saxlamağın yollarından biri də ağlamaqdır.

İmam Rza (ə) buyurmuşdur:

من تذَكر مصابنا فَبكي و أبكي لَم تبكِ عينه يوم تبكي الْعيونَ

–Kim bizim müsibətlərimizi yad edib ağlasa və ya ağlatsa, gözlərin ağladığı gün (qiyamət günü) onun gözü ağlamaz.

Bunu söyləyən məsum imamdır. O, əza saxlamağın qaydasını bizlərə öyrədir. Bu ağlamaq qiyamət günü insanın dərdinə dəyəcək.

*Etibar eyləmə az ömrə əcəl verməz aman,*
*Gecə-gündüz dolanır sürətilən çərxi zaman,*
*Körpüdür cənnətə, ya duzəxə bu mülki cahan,*
*Başuva onda ki qəhrən-ləhədin daşı dəyər,*
*Dərdüvə qəbridə vallahi bu gözyaşı dəyər.*

**Evdə əzadarlıq etmək**

Adətən, məhərrəm ayında insanlar məscidlərdə, evlərdə toplaşıb İmam Hüseynə (ə) əza saxlayırlar. Bu əməlin İslam təlimlərində hansısa bir əsası varmı?

Malik Cuhəni İmam Baqirdən (ə) belə nəql edir:

من زار الْحسين علَيه السلام يوم عاشورا حتي يظِل عِنده باكِياً لَقي الله عز و جل يوم الْقِيامةِ بثواب الْفَي الْفِ حجةٍ و الْفَي الْفِ غزوةٍ.

–Hər kim aşura günü İmam Hüseyni (ə) ziyarət etsə və onun (qəbrinin) kənarında ağlasa, qiyamət günü Allah-taalanın hüzuruna Peyğəmbərlə (s) birlikdə min həccin, min ümrənin və min icra olunmuş cihadın savabını əldə etmiş halda daxil olar.

Malik deyir: "Həzrətdən (ə) soruşdum: "Canım sənə fəda olsun! Bəs, uzaq məntəqə və şəhərlərdə yaşayan, aşura günü o həzrətin ziyarətinə gedə bilməyən biz və bizim kimilər nə etsinlər?"

Həzrət (ə) buyurdu: "Aşura günü gəlib çatanda əgər mümkündürsə, səhraya çıxıb əza saxlayın. Ya da evlərinizdə əza saxlayın və çox ciddi şəkildə onun qatillərinə lənət oxuyun. Sonra gün batmamışdan əvvəl iki rükət namaz qılın."

Malik deyir: "Həzrətdən (ə) soruşdum: "Əgər biz öz ölkəmizdə və evimizdə toplaşıb İmam Hüseynə (ə) əza saxlasaq, həmin savab bizə veriləcəkmi?"

Həzrət (ə) buyurdu:

فَأنا ضامِن لَهم إذا فَعلُوا ذلِك عَلَي الله جمِيع هذا الثواب.

–Əgər bu əməlləri öz evlərinizdə və ya məscidlərdə Allaha xatir yerinə yetirsəniz, mən sizə söylədiyim bu savablara zaminəm.

**Qara köynək geyinmək**

Qara köynək geyinmək əzadarlığın ədəb qaydalarından hesab edilir. Əza məclislərində qara köynək geyinməyin və əza məclisini qara parçalarla bəzəməyin İslam dinində əsası vardır.

*Yenə quruldu cəddüvün əzası Yəbnə Əskəri,*
*Çəkildi ərşi fərşidə qərasi Yəbnə Əskəri.*

Əza niyyətilə ilk olaraq qara köynək geyinən şəxs Həzrət Peyğəmbərin (s) həyat yoldaşı Ümmi Sələmə olmuşdur. Ümmi Sələmə elə bir şəxs idi ki, Həzrət Əlinin (ə) imamət

sirrini ona tapşırmışdılar. O, Həzrət Peyğəmbərin (s) fəzilətli xanımlarından biri idi. Hətta İslam Peyğəmbəri (s) tapşırmışdı ki, kimin əmanəti varsa, Ümmi Sələmənin yanında saxlasın. O, elə bir şəxs idi ki, İmam Hüseyn (ə) Mədinədən çıxanda imamət sirrini yazdı və həmin məktubu Ümmi Sələməyə tapşırıb buyurdu: "Mənim şəhadət xəbərimi eşitdiyin zaman oğlum Əli ibn Hüseyn (ə), yəni İmam Səccad (ə) gəlib bu məktubu səndən istəsə, məktubu ona verərsən. İmam Səccad (ə) Kərbəla hadisəsindən sonra Kufə, Şam və ərbəin ziyarətindən qayıdanda Mədinə şəhərinə gələrək "atam sənə verdiyi məktubu səndən almağı mənə tapşırmışdır", – deyərək həmin məktubu Ümmi Sələmədən almışdı. Ümmi Sələmə həmin əmanəti gətirib o həzrətə vermişdir.

Ümmi Sələmə İmam Hüseynin (ə) şəhadət xəbərini eşiəndə Peyğəmbərin (s) məscidində qara bir çadır qurdu və özü də qara libaslarını geyinib İmam Hüseynə (ə) əza saxladı.

Qara köynək geyinməyi insanlar özlərindən uydurmayıblar. Ola bilsin ki, tarixdə kimsə qara köynək geyinərək Həzrət İmam Hüseynə (ə) əza saxlamışdır, amma İslam dinində bu əməlin əsasları vardır.

لَما قُتلَ الْحسين بن عِلي علَيهِ السلام لَبِس ِنساءُ بِني هاشِمِ السواد و كُن لا يستكِين ِمِن حر و لا بردٍ و كانَ عِلي بن الْحسين بعمل لَهن الطعام ِللمأتم

–Ömər ibn Əli ibn Hüseyn deyir: "Hüseyn ibn Əli (ə) şəhid olandan sonra Bəni-Haşim qadınları qara libaslarını geyindilər. Havanın isti və ya soyuq olması da onları narahat etmirdi. İmam Səccad (ə) onlar üçün yemək hazırlayırdı.

Qara köynək geyinməyin əsası İmam Səccaddan (ə), Xanım Zeynəbdən (s.ə) və Əhli-beytdən (ə) başlayıb və bu günə kimi gəlib çatmışdır. Bu gün hər kim əzadarlıqda qara köynək geyinsə, deməli onlara əsaslanır.

**Əzadarlıqda başsağlığı verməyin qaydası**

Malik Cuhəni deyir: “İmam Baqirə (ə) ərz etdim ki, aşura günü və Həzrət İmam Hüseynin (ə) matəmində bir-birimizə necə başsağlığı verək?” Həzrət (ə) buyurdu: “Aşura günü bir-birinizə belə başsağlığı verin:

عظم اللهُ أجورنا بمصابنا بالْحسين علَيهِ السلام و جعلْنا وإياكُم مِن الطالِبين بثارِهِ مع وليِهِ الْامام الْمهدِي مِن آلِ محمد

–Hüseynin (ə) əzasında Allah bizim əcrimizi uca etsin! (Allah) bizi və sizi Məhəmmədin (s) övladlarından və İmam Hüseynin (ə) intiqamını alan İmam Mehdi (ə.c) ilə birlikdə onun qanını alanlardan etsin!”

**Aşura müsibətinin qeyd olunmasının səbəbi**

Nəyə görə biz yalnız aşura günü matəm saxlayırıq və başqa günləri, məsələn, Həzrət Peyğəmbərin (s), Həzrət Əlinin (ə), Xanım Fatimənin (s.ə) və İmam Həsənin (ə) şəhadət günlərini aşura günü kimi qeyd etmirik? Bu sualın cavabı belədir:

–Abdullah ibn Fəzl Haşimi deyir: “İmam Sadiqdən (ə) soruşdum: “Nəyə görə aşura günü matəm və əzadarlıq günüdür, amma Həzrət Peyğəmbərin (s), Həzrət Əlinin (ə), Xanım Fatimənin (s.ə) və Həsənin (ə) şəhadəti günləri bu cür matəm günü kimi keçrilmir? Bunun səbəbi nədir?”

Həzrət İmam Sadiq (ə) buyurdu:

–Bunlar Allahın yanında ən əziz insanlar olan “Əshabi-kisa” adlanırlar və beş nəfərdən ibarətdirlər. Həzrət Peyğəmbər (s) dünyasını dəyişəndən sonra onlardan dördü hələ yaşayırdı. Xanım Fatimə (s) dünyadan köçəndə üçü hələ yaşayırdı. Həzrət Əli (ə) şəhid olanda ikisi hələ həyatda idi. İmam Həsən (ə) dünyasını dəyişəndə onlardan biri hələ sağ qalmışdı. Kimin nə sözü var idisə, ona danışırdı. Amma Hüseyn ibn Əli (ə) şəhid olandan sonra insanların təskinlik tapması üçün “Əshabi-kisa”dan heç bir kəs qalmadı. Elə bu

səbəbdən də İmam Hüseynin (ə) şəhid olması onların hamısının dünyadan getməsinə bərabərdir.

Abdullah ibn Fəzl Haşimi deyir: “Mən bir daha Həzrətdən (ə) soruşdum: “Bəs, nə üçün Əli ibn Hüseyn (ə) atası kimi insanların təskinlik mənbəyi deyildi?”

Həzrət İmam Sadiq (ə) buyurdu:

كانَ عِلي بن الْحسين سيد الْعابِدين و كانَ إماماً و حجةً علَي الْخلْق بعد آبائِهِ الْماضِين و لكِنه لَم يلق رسولَ اللهِ و لَم يسمع مِنه و كانَ عِلْمه وراثَةً عِن أَبيهِ عن جدهِ عنِ النبي صل اللهُ علَيهِ و آلِهِ و سلم و كانَ أمِير الْمؤمِنين و فاطِمة و الْحسنِ و الْحسين علَيهم السلام قَد شاهدهم الناس مع رسول الله صل اللهُ علَيهِ و آلِهِ و سلم فِي أحوالٍ تتوالي. فَكانوا متي نظَروا إلي أحدٍ مِنهم تذَكروا حالَه مع رسول الله صل اللهُ علَيهِ و آلِهِ و سلم و قَولَ رسول الله لَه و فِيه...

–Əli ibn Hüseyn (ə) ibadət edənlərin ağası idi, keçmiş atalarından sonra insanların imamı və höccəti idi. Lakin bununla belə o, Rəsulallahı (s) görməmişdi və ondan bir söz eşitməmişdi. Onun elmi atasından, (onun da elmi) babasından və (onun da elmi) Həzrət Peyğəmbərdən (s) irsən keçmişdi. İnsanlar Əmirəlmömininі (ə), Fatiməni (s.ə), Həsəni (ə) və Hüseyni (ə) müxtəlif yerlərdə Həzrət Peyğəmbərlə (s) birlikdə görmüşdülər. Hər zaman onlardan birinə baxsaydılar, onların Həzrət Peyğəmbərlə (s) birlikdə olduqları anları və o həzrətin sözlərini xatırlayırdılar.

Onların hamısı dünyadan köçəndən sonra yalnız İmam Hüseyn (ə) sağ qalmışdı və o, beş kimsənənin sonuncusu idi. Elə bu səbəbdən onun dünyadan getdiyi gün ən böyük matəm günü sayılır.

Buna görə də həmişə onu yad etmək lazımdır. Onu yad edəndə isə İmam Sadiq (ə) kimi yad etmək lazımdır. İmam Hüseynin (ə) adı İmam Sadiqin (ə) yanında zikr olunanda həmin gün axşama qədər onun üzü gülmürdü və Həzrət (ə) bu kimi məqamlarda belə deyərdi: "Hüseyn (ə) hər bir möminin gözyaşıdır."

Elə bu səbəbdən də İmam Hüseyn (ə) şəhid olandan və düşmənlər çadırlara od vurandan sonra Xanım Zeynəb (s.ə) bir təpənin üstünə çıxdı və əlini başına qoyaraq Mədinəyə sarı baxıb uca səslə belə söylədi: "Ey cəddim Rəsulallah! Ata, ya Əmirəlmöminin! Ana, ya Zəhra! Bu gün Peyğəmbərin (s) öldüyünü hiss etdim. Bu gün Əlinin (ə) öldüyünü hiss etdim. Bu gün Zəhranın (s.ə) dünyadan getdiyini hiss etdim. Bu gün İmam Həsənin (ə) öldüyünü başa düşdüm. Bu gün Həzrət Peyğəmbəri (s) ziyarət edənlərin axırıncısı dünyasını dəyişdi."

İmam Hüseyn (ə) beş kimsənənin sonuncusu olduğundan aşura günü o həzrət şəhid olanda sanki onların hamısı dünyasını dəyişdi.

Onu da qeyd etmək lazımdır ki, beş kimsənənin dördü öz evlərində şəhid olmuşdur. Hətta mehrab qarşısında qılınc zərbəsi ilə şəhid edilsə də yenə də öz evində şəhid olmuşdur. Amma İmam Hüseyn (ə) şəhid olduğu gün çox müsibətli bir gün idi. Onun altıaylıq körpəsi, oğulları, qardaşları şəhid oldular və qızları isə əsir düşdülər. Elə bu səbəbdən də İmam Hüseynin (ə) əzasını həmişə qeyd etmək bizlərə tövsiyə olunmuşdur. Hətta hədislərdə su içəndə də Həzrət İmam Hüseyni (ə) yad etmək tövsiyə edilmişdir.

Davud ibn Kəsir Rəqqi deyir: "Günlərin birində İmam Sadiqin (ə) məhzərinə getdim. Həzrət (ə) su istədi. Suyu içəndən sonra gözləri yaşla doldu və buyurdu:

يا داود! لَعن اللهُ قاتلَ الْحسين علَيهِ السلام...إني ما شرِبت ماءً بارِداً إلّا و ذَكَرت الْحسين علَيهِ السلام و ما مِن عِبدٍ شرِب الْماءَ فَذَكَر الْحسين

عليهِ السلام و لَعن قَاتِله إلّا كُتِب اللهُ له مِئَةَ اَلْفِ حسنةٍ و محا عنه مِئَةَ اَلْفِ سيئَةٍ و رفِع له مِئَةَ اَلْفِ درجةٍ و كانَ كَأَنما أعتق مِئَةَ اَلْفِ نسمةٍ و حشره اللهُ يوم الْقِيامةِ أبلَج الْوجه.

–Ey Davud, Allah Hüseynin (ə) qatilinə lənət eləsin! Mən hər zaman sərin su içəndə Hüseyni (ə) xatırlayıram. Hər kim su içəndə Hüseyni (ə) xatırlasa və onun qatilinə lənət oxusa, Allah-taala ona min savab yazar, min günahını bağışlayar, onun dərəcəsini min dəfə artırar, sanki min nəfəri azad etmiş (insanın) savabını verər və qiyamət günü Allah-taala onu üzüağ edər.

*Sərin su dəyəndə susuzləblərə,*
*Salam eyləyin təşnələb Əsğərə.*
*İçəndə sərin su deyin lənəti,*
*Fəratın yolun bağlayan ləşkərə.*

## İMAM HÜSEYNƏ (Ə) ƏZA SAXLAYANLAR

Allah-taala "Maidə" surəsinin 35-ci ayəsində buyurur:

يا أَيها الذِين آمنواْ اتقُواْ اللّه وابتغواْ إِلَيهِ الْوسِيلَةَ وجاهِدواْ فِي سبِيلِهِ لَعلكُم تفْلِحونَ

–Ey iman gətirənlər, Allahdan qorxun, Ona tərəf vasitə axtarın və Onun yolunda cihad edin, bəlkə nicat tapdınız.

Bu ayə insanların taleyini həll edən ayələrdəndir. Bəzi bəhslər vardır ki, insanın taleyinə aiddir və insanın onları bilməsi labüddür. Bəzi bəhslər vardır ki, insan onları bilsə yaxşıdır. Bu məsələ sırf İslam təlimlərinə aid deyil, fizika və kimya elmlərində də var, tibbdə, habelə fəlsəfə və məntiq elmlərində də vardır. Yəni bəzi məsələlər vardır ki, insanın taleyinə aiddir və bəzi məslələlər vardır ki, insan onları bilsə yaxşıdır, amma bilməsə də bunun qiyamət günü onun taleyinə heç bir təsiri olmayacaqdır.

Məsələn, bir alim belə bir araşdırma aparır ki, görəsən, Adəmin övladları necə çoxaldılar? Görəsən, onlar bacı və qardaş evləndilər, yoxsa başqa variantlar da var idi? Bu sualın İslam dinində cavabı vardır. Əgər bir nəfər bu haqda araşdırma aparsa, çox gözəl olar. Amma əgər birdən biri bu məsələni bilməsə, qiyamət günü onun taleyinə heç bir təsiri olmayacaqdır.

Başqa bir misal, görəsən, İmam Hüseyn (ə) aşura günü meydana gedəndə onun mindiyi atın adı Zülcənah idi, yoxsa Uqab? Bu barədə bir-iki gün bəhs edəndən sonra, məsələn, məlum oldu ki, o həzrətin mindiyi atın adı Zülcənah olub. Əgər birisi bunu bilsə, çox gözəl olar, amma bunun da insanın taleyinə heç bir təsiri yoxdur.

Lakin elə bəhslər vardır ki, onların insan taleyinə çox böyük təsiri vardır. Məsələn, birisi maşınla Astara şəhərinə getmək istəyir. Yolun yarısında səhv getdiyini başa düşür və

bu zaman onun gördüyü ilk iş təbiidir ki, əyləci basıb maşını saxlamasıdır. Sonra isə maşını döndərib sürətlə lazım olan istiqamətə doğru sürəcəkdir.

İnsanın taleyinə heç bir təsiri olmayan elmləri bilmək fəzilətdir, üstünlükdür. İnsanın taleyinə təsiri olan bəhslərdən biri əzadar olmaqdır. Yuxarıda qeyd olunan ayədə Allah-taala möminlərə müraciət edərək buyurur ki, ey möminlər, getdiyiniz yolda ehtiyatlı olun. Hara getdiyinizi və necə getdiyinizi dəqiqləşdirin. Baxın görün, getdikcə məqsədə yaxınlaşırsınız, yoxsa uzaqlaşırsınız?

İnsan başqa canlı varlıqlardan tamamilə fərqli bir məxluqdur. Toyuq yerdən dəni götürüb yeyəndə başını salır aşağı və qabağına keçən dənləri yeməyə bazşlayır. Heç fikirləşmir ki, bu dən kimindir, yaxşıdır və yaxud pisdir. Bütün heyvanlar bu cürdürlər. Amma Allah-taala insana "اتقُواْ اللّٰه" (Allahdan qorxun) – deməklə onlardan ayırır. Yemək yeyəndə deyir ki, bax gör kimin malını yeyirsən, baxanda bax gör kimə baxırsan, eşidəndə bax gör nə eşidirsən. İnsanın atacağı bütün addımları və hərəkətləri ilə bağlı olaraq qanun və qaydalar müəyyən olunmuşdur və bu normalar insanın hərəkətlərini məhdudlaşdırmaq üçün yox, əksinə, insana dəyər vermək və onu qiymətləndirmək üçündür. Qanunlar insana şərəf verir və qanunsuzluq heyvaniyyət deməkdir. İnsanla heyvanın yerlə göy qədər fərqi vardır.

Allah-taala insana təqvalı olmağa dəvət etdikdən sonra buyurur ki, "وابتغواْ إِلَيهِ الْوسِيلَةَ" – "Allah ilə öz aranızda vasitələr qərar verin." Sonra isə "وجاهِدواْ فِي سبِيلِهِ" –"Allah yolunda çalışın." Hədislərdə beyurulur ki, "أخروا نومكم إِلي الْقبْر" – "Yuxularınızı qəbir evinə saxlayın." Dəqiqələr, saatlar, günlər və həftələr keçib gedir və bu vaxtlarda bir şey qazanmağa çalışın. Zaman keçdikcə dünyaya gəldiyiniz gündən uzaqlaşır və öləcəyiniz günə yaxınlaşırsınız.

Çox çalışın, bəlkə Allah sizə mərhəmət edər və nicat taparsınız.

Biz bu ayədəki "وابتغوا إليه الوسيلة" – "Ona tərəf vasitə axtarın" fikri ilə bağlı söz açmaq niyyətindəyik.

Görəsən ayədə göstəriş verilən "vasitə" nədir? Bütün məzhəblərin qəbul etdiyi və hədislərdə də nəql olunan vasitələr aşağıdakılardan ibarətdir:

1. Allaha iman gətirmək; 2. Rəsulallaha (s) iman gətirmək; 3. Cihad; 4. İxlas; 5. Namaz; 6. Zəkat; 7. Oruc; 8. Həcc; 9. Qohumluq əlaqələrini möhkəmləndirmək; 10. Saleh əməllər; 11. Sədəqə.

Həmçinin peyğəmbərlərin, imamların, şəhidlərin və saleh insanların şəfaəti insanın Allaha yaxınlaşmasına səbəb olar. Habelə peyğəmbərlərə və imamlara tabe olmaq da insanın Allaha yaxınlaşmasına səbəb olar. Hətta Allahı onların məqamlarına and verdirmək də insanın Allah-taalaya yaxınlaşmasına səbəb olar. Çünki Allahın onlara məhəbbəti vardır və insan da bu məqama əhəmiyyət verdiyindən Allaha yaxın ola bilər.

İslam mənbələrində söylədiklərimizin hər birinin sənədləri vardır.

Ola bilsin bir nəfər gəlib desin ki, vasitədə məqsəd yalnız onlardan biri, məsələn, "təqva", "iman" və ya "şəfaət"dən ibarətdir, qalanları isə vasitə deyil. Ancaq bu, onların dairəsini məhdudlaşdırmaqdır və çox səhv bir fikirdir. Bunu söyləyən insan öz imkanlarını azaldır və açıq qapıları üzünə bağlamış olur.

Allah-taala Bəni-İsrailə buyurmuşdur ki, siz səhvə yol vermisiniz. Bunun üçün bir inək kəsməlisiniz. Əgər onlar bir inək kəssəydilər, iş bununla da bitəcəkdi. Lakin onlar soruşdular ki, necə inək olmalıdır? Allah buyurdu ki, dişi inək olsun, amma çox işdən düşmüş, yaxud heç işləməmiş cavan inək olmasın. Sonra onlar soruşdular ki, rəngi nə cür

olsun? Allah-taala buyurdu ki, insanların xoşuna gələn xalis tünd sarı rəngli bir inək olsun. Soruşdular ki, neçə yaşlı olsun, boyu nə qədər olsun? Onlar bu sualları verməklə mövcud imkanları məhdudlaşdırdılar. Axırda da belə bir inəyi tapmağa çətinlik çəkdilər. Ancaq Allah-taala onlardan sadəcə olaraq bir inək kəsmələrini istəmişdi. Əgər onlar hər hansı bir inəyi kəssəydilər, o zaman öz vəzifələrini yerinə yetirmiş olacaqdılar və bununla da iş bitmiş sayılacaqdı.

**Quranda vasitə (təvəssül)**

Saleh insanları[1] Allaha vasitə qərar vermək qadağan olunmamışdır və bu, tövhidlə heç bir ziddiyyət təşkil etmir. Allah-taala Özü buyurur ki, siz vasitə tapın və onların vasitəsilə Mənə yaxınlaşın. “Nisa” surəsinin 64-cü ayəsində deyilir:

ولَو أَنهم إِذ ظلَموا أَنفُسهم جآؤوك فَاستغفَروا اللّه واستغفَر لَهم الرسولُ لَوجدوا اللّه توابا رحِيم

–Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlsəydilər, sonra Allahdan bağışlanmaq istəsəydilər və Allahın Peyğəmbəri də (Allahdan) onlar üçün bağışlanmaq diləsəydi, şübhəsiz, Allahın çox tövbə qəbul edən və mehriban olduğunu görərdilər.

Allah-taala bu ayədə buyurur ki, əgər Həzrət Peyğəmbəri (s) vasitə qərar versəniz, Mən sizi bağışlayaram. Hər hansı bir şəxs Həzrət Peyğəmbəri (s) və ya imamları vasitə qərar vermək olmaz deməklə təbiidir ki, mövcud imkanları özü üçün məhdudlaşdırmış olur.

Həzrət Yusifin (ə) qardaşları ona münasibətdə əllərini cinayətə bulaşdırdılar və ona xəyanət etdilər. Axırda da peşman olanda öz atalarından xahiş etdilər ki, Allah-taaladan

---

[1] Məsələn, peyğəmbərlər, imamlar, şəhidlər və təqvalı insanlar.

onların bağışlanılmasını istəsin. Həzrət Yaqub (ə) onların istəyini qəbul etdi. "Yusif" surəsinin 97-98-ci ayələrində bu hadisə belə nəql olunmuşdur:

قَالُواْ يا أَبانا استغفِر لَنا ذُنوبنا إِنا كُنا خاطِئِين. قَالَ سوف أَستغفِر لَكُم ربي إِنه هو الْغفُور الرحِيم

–(Yaqubun oğlanları) dedilər: "Ey ata, Allahdan bizim günahlarımızın bağışlanılmasını istə ki, həqiqətən, biz səhv etmişik." Dedi: "Tezliklə sizin üçün öz Rəbbimdən bağışlanmaq istəyərəm (qoyun cümə axşamı olsun və ya Yusifə qovuşmaq günü gəlib çatsın). Şübhəsiz, O, çox bağışlayan və mehribandır."

Həzrətdən (s) soruşdular ki, nəyə görə Yaqub (ə) həmin an dua etmədi? Həzrət (s) onların cavabında buyurdu: "Yaqub (ə) duasının qəbul olunmasını istəyirdi və cümə axşamına bir-iki gün qalmışdı. Yaqub (ə) cümə axşamı gecə namazında onlar üçün dualar etdi və Allah-taala da onları bağışladı."

Bu ayələrdən belə məlum olur ki, Allah-taala insanlara mövcud vasitələrdən istifadə edərək Ona yaxınlaşmaq imkanı vermişdir. İnsanların vasitə qərar verməyə tam ixtiyarları vardır.

**Hədislərdə vasitə (təvəssül)**

İstər Əhli-şiə və istərsə də Əhli-sünnət hədislərində təvəssül etməyin heç bir eybi yoxdur, əksinə, bu, çox gözəl bir əməl hesab olunur. Əhli-sünnətin məşhur alimlərindən olan Səmhudi "Vəfaül-vəfa" kitabında yazır: "İslam Peyğəmbərinə (s) xəlq olunmamışdan öncə, habelə dünyaya gələndən və eləcə də Həzrətin (s) vəfatından sonra, yəni hər üç halda o həzrətə təvəssül etmək, yaxud ondan şəfa istəmək caizdir."

**Hədislərdən nümunə**

a) Dünyaya gələndən öncə

Ömər ibn Xəttab deyir: “Həzrət Adəm (ə) başına gələn hadisələrdən sonra İslam Peyğəmbərinə (s) təvəssül etmişdir. Adəm (ə) ərz etmişdir:

يا رب أسَأَلُك ِبحق محمدٍ لَما غَفَرت ِلي

–Ey Allahım! Məhəmmədin hörmətinə xatir məni bağışlamağını diləyirəm.

b) Dünyaya gələndən sonra

Tirmizi yazır: “Gözləri görməyən bir şəxs Həzrət Peyğəmbərin (s) yanına gəlib dedi: “Ey Allahın Rəsulu! Mənim gözlərim görmür, səndən gözlərimin şəfasını istəyirəm.” Həzrət (s) buyurdu: “Gözlərinin şəfasını istəyirsənsə, get dəstəmaz al və bu duanı oxu. Allah-taala sənə şəfa versin.” Dua belədir:

اَللّهم ِاني اَسئَلُك و اَتوجه ِالَيك ِبنِبيك محمدٍ نِبي الرحمِة

Həmin görməyən şəxs də dəstəmaz aldı və duanı oxuyandan sonra üzünü Həzrət Peyğəmbərə (s) tutub dedi:

يا محمد ِإني توجهت ِبك ِإلَي ربي ِفي حاجِتي ِلتقْضِي ِلي اَللهم

شفعه ِفي

–Ey Məhəmməd (s)! Mən sənin vasitənlə üzümü Rəbbimə tutub hacətimi istəyirəm. Sən mənim hacətimi istə. Allahım, Peyğəmbərin (s) mənim barəmdəki şəfaətini qəbul elə.

Səmhudi yazır: “Həmin görməyən kişi yuxarıda qeyd olunan duanı oxuyub səcdədən qalxanda artıq gözləri görürdü.”

c) Həzrət Peyğəmbərin (s) vəfatından sonra

Təbərani belə nəql edir: “Üçüncü xəlifə Osman ibn Əffanın dönəmində hacəti olan bir kişi Həzrət Peyğəmbərin (s)

mübarək məzarının kənarında dəstəmaz alıb iki rükət namaz qıldı və Həzrət Peyğəmbərin (s) görməyən kişiyə öyrətdiyi bu duanı oxudu:

اَللّهم اِني اَسئَلُك و اَتوجه اِلَيك بِنبِينا محمدٍ نبِي الرحمةِ يا محمد إني اَتوجه بِك إلَي ربك أنْ تقْضي حاجتِي

Bu hadisəni xəlifəyə xəbər verdilər və dedilər ki, həmin kişiyə yol göstərən Osman ibn Hənif olmuşdur. Sözügedən məsələni Osman ibn Hənifdən soruşanda dedi ki, bu əməli Həzrət Peyğəmbərdən (s) öyrənmişdim və onun əsasında həmin kişiyə yol göstərdim. Xəlifə bu əməli alqışladı."[1]

İbn Həcər Məkki "Səvaiq" kitabında İmam Şafeidən belə nəql edir ki, o, Əhli-beytə təvəssül edirdi və təvəssül edəndə də bu şeiri oxuyardı:

آل النبِي ذُريعتي　　　و هم إلَيه وسِيلَتِي
أُرجو بِهم أُعطي غَداً　　　بِيد الْيمِين صحيفَتي

Beyhəqi yazır: "İkinci xəlifənin dönəmində bir il quraqlıq oldu. Bilal bir dəstə səhabə ilə birlikdə Həzrət Peyğəmbərin (s) qəbrinin üstünə gəlib belə dua etdilər:

يا رسولَ الله إستسقِ لأُمتك... فَإنهم قَد هلَكُوا...

–Ya Rəsulallah, Allahdan ümmətin üçün yağış istə. Həqiqətən, onlar həlak olurlar."

**İmam Hüseyn (ə) vəsilə sahibidir**

Allaha yaxın olmağın ən gözəl vasitələrindən biri Hüseyn ibn Əlidir (ə). İmam Hüseyn (ə) həm özü vəsilədir və həm də onda bir neçə vəsilə vardır ki, insan onların vasitəsilə Allaha yaxın ola bilər.

---

[1] Vəfaül-vəfa, 3-cü cild, səh. 1373.

صاحِب الْوسائِل هو الْحسين بن عِلي

–Vasitələrə sahib olan Hüseyn ibn Əlidir (ə).

Uzun sözün qısası, İmam Hüseyndə (ə) üç növ vasitə vardır və bu vasitələrlə insan nicat tapa bilər.

Beyət etmək insanla Allah arasında bir vasitədir. Hər kim İmam Hüseynə (ə) beyət etsə, bu beyət insanla Allah arasında vasitə (vəsilə) olar. Beyət etmək üç qisimdir:

**Birinci vəsilə: Beyət və şəhadət**

İnsan həm İmam Hüseynə (ə) beyət edir və həm də onunla birlikdə şəhid olur. Nicat tapmaq üçün ən gözəl vasitə o həzrətlə birlikdə şəhid olmaqdır. Məsələn, Həbib ibn Məzahir, Əbülfəzl Abbas (ə) və bütün Kərbəla şəhidləri kimi. Onlar İmam Hüseynə (ə) beyət etdilər, sözlərində sadiq qaldılar və o həzrətlə birlikdə şəhid oldular. Beyətin bu qismi ən üstün beyətdir. Çünki heç bir peyğəmbər və heç bir imam döyüş meydanında şəhid olmamışdır. Həzrət Yəhya Peyğəmbərin (ə) başını kəsdilər, Həzrət Əlini (ə) mehrabda şəhid etdilər və s.

Döyüş meydanında şəhid olmaq isə İmam Hüseynə (ə) məxsusdur və beyətin bu qisminə nail olmaq onunla birlikdə şəhid olan 155 nəfərə də qismət olmuşdur. Onların adları "Səhifeyi Hüseyniyyə"də qeyd edilmişdir. Onlardan 72 nəfər Həzrətin (ə) öz dəstəsində idi, qalanları isə Ömər ibn Sədin qoşunundan o həzrətə qoşulmuş adamlar idilər.

Beyətin bu qisminin bundan sonra kiməsə qismət olması mümkün deyil.

**İkinci vəsilə: Beyət və özünü ona oxşatmaq**

Bu qismə daxil olanlar İmam Hüseynə (ə) beyət etmiş-dilər və o həzrətə kamil dərəcədə mərifətləri var idi. Onlar İmamın (ə) yolunda çalışdılar, amma onunla birgə şəhid

olmaq bu adamlara qismət olmadı. Onlar İmam Hüseynin (ə) şəhadətindən sonra öz beyətlərində qaldılar və axırda da şəhid oldular. Yəni onlar həm beyət etdilər və həm də onlar kimi oldular (özlərini onlara oxşatdılar).

Bəzən İslam Peyğəmbəri (s) İmam Hüseyni (ə) hələ kiçik yaşlarında minbərdə öz yanında əyləşdirib buyurardı:

أيها الناس هذا حسين بن عِلِي فَاعرِفُوه

–Ay camaat! Bu, Hüseyn ibn Əlidir, onu yaxşı tanıyın![1]

Bütün imamları tanımaq lazımdır, amma bu hədisdən belə məlum olur ki, İmam Hüseyni (ə) tanımağın xüsusi bir özəlliyi vardır.

İbn Yəfur deyir: "Kufədən İmam Sadiqi (ə) ziyarət etmək üçün Mədinə şəhərinə getmişdim. Həzrətə (ə) ərz elədim ki, bura gəlmək üçün yolda çox zəhmət çəkmişəm. Həzrət (ə) mənə baxıb buyurdu:

–Allaha xatir çəkdiyin zəhmətləri dilinə gətirmə! (Əgər dilinə gətirsən, savabı azalacaq.)

Sonra Həzrət (ə) buyurdu: "Nəyə görə haqqı mənim haqqımdan böyük olanı ziyarət etmədin?" Mən dedim: "Siz Allahın höccətisiniz, sizə itaət etmək vacibdir. Sizdən əzəmətli kim ola bilər?!" Həzrət (ə) buyurdu:

–Haqqı hamıdan böyük olan Hüseyn ibn Əlidir (ə).

Deməli, İmam Hüseynə (ə) beyət edərək Kərbəla hadisəsindən sonra öz beyətlərində vəfadar olan, Yezid kimisinə tabe olmayan və sonda da şəhid olan insanlar ikinci dərəcəli beyətin sahibləridir.

Məsələn, Həzrət Peyğəmbərin (s) səhabəsi olan Abdullah ibn Əfif.

Məhərrəm ayının 12-ci günü Kərbəla əsirlərini Kufə şəhərinə gətirdilər. İbn Ziyad minbərə çıxıb dedi:

---

[1] Müsnədi-Əhməd ibn Hənbəl, 6-cı cild, səh. 486, hədis-22486.

أَلْحمدِ لِلّهِ الذِي أَظْهر الْحق و أَهلَه و نصر أَمِير الْمؤمِنين يزيد و حِزبه و قَتلَ الْكَذّاب و شِيعته.

–Şükür olsun O Allaha ki, haqqı və əhlini aşkar etdi, əmirəlmöminin Yezidə və onun dəstəsinə kömək oldu, yalançını və onun ardıcıllarını öldürdü!

Abdullah ibn Əfif həmin dövrdə gözləri kor idi. Ayağa qalxıb İbn Ziyadı anasının adı ilə səsləyib dedi:

–Ey Mərcanənin oğlu! Sən "yalançının oğlu yalançı" deyirsən, heç bilirsən nə danışırsan? Yalançı sənsən, sənin atan Ziyaddır və səni bu mənsəbə təyin edəndir.

يا عدو الله أتقْتلُ الذرية الطّاهِرةَ الِتي قَد أذْهب اللهُ عنها الرجس و تزعم أنك علَي دِينِ الْاسلام؟

–Ey Allahın düşməni! Pak zürriyyəti öldürmüsən və elə güman edirsən ki, sən müsəlmansan?!

O, bu sözləri birbaşa olaraq İbn Ziyadın üzünə söylədi və nə lazım idisə hamısını dedi. İbn Ziyad "Bu kimdir?" – deyə soruşdu. Dedilər ki, Abdullah ibn Əfifdir. Sonra İbn Ziyad onu həbs etməyi əmr etdi. Həmin məclisdə Abdullah ibn Əfifin qohumları çox olduğundan onun həbs edilməsinə mane oldular.

İbn Ziyad minbərdən düşüb öz sarayına getdi. Gecəyarısı Abdullah ibn Əfifin ardınca adam göndərib onu həbs etdirtdi və sonra da öldürdü.

Abdullah ibn Əfif İmam Hüseynə (ə) həm beyət etdi və həm də özünü ona oxşatdı. O, İmam Hüseynlə (ə) birgə şəhid olmadı, lakin o həzrətin şəhadətindən sonra özü də şəhid olanadək beyətində sadiq qaldı.

**Üçüncü vəsilə: Beyət və şəhidlərin hədəflərinə şərik olmaq**

Bu qisim insanlar İmam Hüseyni (ə) tanıyır, onun haqq olduğunu bilir, o həzrətə beyət edir və onun hədəfinə şərik olurlar. Ömürlərinin sonuna qədər bu hədəf uğrunda çalışırlar, lakin şəhid olmurlar. Onlar İmam Hüseynin (ə) hədəfini yerinə yetirdilər və o həzrətin – "Mənim kimisi onun kimisinə beyət etməz", – buyurduğu sözün üstündə dayandılar. Və son nəfəslərinə qədər bir addım belə geri qayıtmadılar. Onlar öz məhəbbətlərini ağlamaqla, əzadarlıq saxlamaqla, İmam Hüseynin (ə) qəbrini ziyarət etməklə, bu yolda mallarını xərcləməklə izhar etdilər. Lakin şəhid olmaq onlara nəsib olmadı.

Məsələn, Cabir ibn Abdullah Ənsari kimi. O, İmam Hüseynin (ə) qəbrini ziyarət edən ilk şəxs olmuşdur. O, İmam Hüseynə (ə) beyət etmişdir, lakin nə o həzrətlə birgə və nə də ondan sonra şəhid olmaq ona nəsib olmadı.

Hər kim İmam Hüseynə (ə) beyət etsə və beyətində sadiq qalsa, Kərbəla qiyamında və şəhidlərin hədəfində şərikdir.

Yalnız İmam Hüseynin (ə) ziyarətnaməsində "Ləbbeyk" kəlməsi işlədilmişdir. Bu da beyətin hələ də davam etməsini bildirir.

لَبيك داعِي اللهِ، إنْ كانَ لَم يجِبك بدِني عِند استِغاثَتِك ولسانِي عِند استِنصارِك فَقَد أجابك قَلبي وسمعِي وبصرِي

–Ləbbeyk, sən məni çağıran zaman əgər bədənim (vücudum) cavab vermək üçün yox idisə, lakin indi gözüm, qulağım, qəlbim və ruhum da sənə "ləbbeyk" deyir.

Görəsən, İmam Hüseyni (ə) vəsilə qərar verməklə əldə olunan əməl "حبط" "puç" olurmu? Ümumiyyətlə, insanın əməlləri iki qisimdir. Bəzi əməllər vardır ki, onların puç (batil) olma ehtimalı vardır. Bəzi əməllər də vardır ki, heç vaxt puç olma (batil olma) ehtimalı yoxdur. Bu söz Qurana əsaslanır.

Puç olma ehtimalı olan əməllərlə bağlı olaraq deyə bilərik ki, məsələn, əgər bir şəxsin başqa bir insana borcu varsa, qiyamət günü pul sahibi öz pulunu istəyəcəkdir. Qiyamət gününün hakimi Allah-taaladır. İnsan orada həmin pulu ödəyə bilmədiyindən onun əməllərindən alınıb pul sahibinə veriləcəkdir. Borcu olan insanın müstəhəb namazlarından, orucundan, həccindən, verdiyi sədəqədən alıb pul sahibinə verəcəklər. Qiyamət günü insanın əlindən alına biləcək əməllərə puç (batil) olma ehtimalı olan əməllər deyilir.

Lakin yuxarıda qeyd etdiyimiz kimi, bəzi əməllər də vardır ki, onların puç (batil) olma ehtimalı yoxdur. İnsanın hər nə qədər borcu olsa da belə bəzi əməllər vardır ki, onlara toxunulmayacaq və onun əlindən alıb heç bir kəsə verməyəcəklər. Puç olmayan əmələ, məsələn, imanı misal çəkmək olar. İnsanın hər nə qədər borcu olsa da belə qiyamət günü onun imanını əlindən almayacaqlar.

Əgər insan özü imandan inkar etsə və imanını dansa, o zaman iman puç olar. Məsələn, şirk etsə, imanı məhv olar. Bu barədə Allah-taala Qurani-kərimdə buyurur:

وَلَقَدْ أُوحِيَ إِلَيْكَ وَإِلَى الَّذِينَ مِن قَبْلِكَ لَئِنْ أَشْرَكْتَ لَيَحْبَطَنَّ عَمَلُكَ وَلَتَكُونَنَّ مِنَ الْخَاسِرِينَ

–(Ya Peyğəmbər!) Həqiqətən, sənə və səndən əvvəlki (peyğəmbər)lərə vəhy edilib ki, əgər (Allaha) şərik qoşsan, xeyir əməllərin batil, puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan.[1]

Görəsən, İmam Hüseynin (ə) vəsilələri hansı qisimdəndir?

İmam Hüseynin (ə) əzasında əza saxlayanların, malını xərcləyənlərin, ağlayanların heç birisinin əməlləri puç olmayacaq (həbt olmayacaq).

Əzadarlıq və ağlamaq iki qisimdir:

---

[1] Zumər surəsi, 65-ci ayə.

1. Bir insan fikirləşərək və ixtiyari halda İmam Hüseynin (ə) müsibətlərinə ağlayır. Bu qisim insanların əməllərinin puç olma ehtimalı vardır.

2. Bir insan fikirləşərək, qürbət qəsdi ilə ixtiyarsız olaraq eşqlə və yana-yana gözyaşı tökərək ağlayır. Bu qisim insanların əməllərinin puç olma ehtimalı yoxdur.

Yəni hər hansı bir əməldə niyyət varsa, orada əməlin puç olma ehtimalı vardır. Amma birbaşa və sidq ürəklə bağlı olan əməllərdə puç olma ehtimalı yoxdur.

İmam Sadiq (ə) buyurmuşdur:

من ذُكِرنا عِنده فَفاضت عِيناه حرم الله وجهه علي النار

–Hər kimin yanında bizim müsibətlərimizi zikr etsələr və onun gözünün yaşı tökülsə, Allah-taala onun üzünü (cəhənnəm) oda haram edər.

İmam Cəfər Sadiq (ə) bu hədisdə "بكى" (ağlamaq) felindən istifadə etməmişdir, "فاضت" felindən, yəni gözünün yaşını tökmək felindən istifadə etmişdir. Çünki gözyaşı birbaşa qəlblə bağlı olan bir əməldir.

Bu, İmam Hüseynin (ə) əzasının xüsusiyyətlərindən biridir.

**İmam Hüseynin (ə) əzadarlarının əcri iki qisimdir**

Təvəssül etmək başqa ibadətlər kimi bir növ müamilədir, yəni alverdir. Hər bir alverdə bir satıcı olur və bir də müştəri olur. Bir alınıb satılan şey olur və bir də hər bir malın öz qiyməti olur. İmam Hüseynin (ə) əzasında satıcı əzadardır, alıcı (müştəri) İmam Hüseyn (ə) və Allah-taaladır, satılıb alınan mal ağlamaq və əzadarlıq etməkdir, qiymət isə verilən əcrdir.

Qiymət (əcr) nədir? Hədislərdə bu barədə belə nəql olunub:

فَيدفَعونها إِلَي خزنةِ الْجِنان فَيمزجونها بِماءِ الْحيوان

–Allah-taala bir mələk xəlq etmişdir ki, (əzadarların) göz yaşlarını toplayır və behiştdə büllurların arasında behişt suyuna qatır.

Yəni əzadarlıqda ağlayaraq tökülən gözyaşı ucuz deyil, çox qiymətlidir.

**Verilən əcr isə iki qisimdir:**

**1. Nağd verilən əcr**

İmam Sadiq (ə) buyurmuşdur:

ألا وصلي الله علَ الْباكِين علي الْحسين عليهِ السلام رأْفَةً و شفَقَةً

–Bilin və agah olun, İmam Hüseynə (ə) ağlayanlara Allahın salamı olsun!

Kim İmam Hüseynin (ə) əzasında ağlasa, Allahın salamı və salavatı o insanın halına şamil olur.

**2. Nisyə verilən əcr**

Bəzi vaxtlar isə qiymət nisyə olur. Məsələn, dualar kimi. Bəzən insanın duası qəbul olunur, bəzən isə qəbul olunmur. İslam Peyğəmbəri (s) buyurmuşdur:

حبي و حب أهل بيتي نافِع فِي سبعةِ مواطِن أهوالُهن عظِيمةٌ: عِند الْوفات و فِي الْقَبر و عِند النشور و عِند الْكِتاب و عِند الْحِساب و عِند الْمِيزان و عِند الصراط.

–Mənə və mənim Əhli-beytimə məhəbbət bəsləmək yeddi çətin anda insana xeyir verəcəkdir. Vəfat edən zaman, qəbirdə, qəbirdən qalxan zaman, (əməl) kitabı verilən zaman, hesab zamanı, (əməllər) ölçülən zaman və sirat körpüsünü keçən zaman.

İnsan İmam Hüseynə (ə) olan məhəbbətinin və ona əza saxlamasının əvəzini bu yeddi yerdə görəcəkdir. Bu əcr nisyədir, çünki indi verilmir. Həmin yeddi məqama çatdıqca onlar bir-birinin ardınca insana veriləcəkdir.

# İMAM HÜSEYNİN (Ə) RƏFTARINDA ƏXLAQİ DƏYƏRLƏR

Kərbəla hadisəsi bəşəriyyət tarixində ən mühüm hadisələrdən biridir. Bu barədə çox kibatlar yazılmış, saysız-hesabsız insanlar bu məktəbdən dərs almışlar. Qələm sahibləri, ədəbiyyatçılar, şairlər, yazıçılar, alimlər, tarixçilər, ariflər, müctəhidlər, habelə azadlıqdan və şərəfdən zərrə qədər xəbəri olan hər bir kəs bu yolda əlindən gələni əsirgəməmişdir. Hadisə hər nə qədər böyük olsa, aydın məsələdir ki, onun əhatə etdiyi sahələr də bir o qədər genişlənir. Təsadüfi deyildir ki, Kərbəla hadisəsi və İmam Hüseynin (ə) sayəsində baş vermiş bu hadisə tarixdə müxtəlif cəhətlərdən araşdırılmışdır.

İmam Hüseyn (ə) öz qiyamı zamanı əxlaqi dəyərlərə riayət etmişdir. Allah-taala “Əhzab” surəsinin 21-ci ayəsində İslam Peyğəmbərini (s) bizlər üçün bir nümunə olaraq təqdim etmişdir. Ayədə deyilir:

لَقَدَ كَانَ لَكُم ِفي رسولِ اللهِ أُسوةٌ حسنةٌ لمن كَانَ يرجو الله والْيوم الْآخِر وذَكَر الله كَثِير

–Şübhəsiz, Allaha və axirət gününə (qəlbdə və əməldə) ümid bəsləyən və Allahı çox zikr edənlər üçün Allahın Rəsulunun rəftarında həyat örnəyi və nümunəsi vardır.

Qurani-kərim cənab Cəbrayılın (ə) vasitəsilə İslam Peyğəmbərinə (s) nazil olmuş, sonradan Həzrət Əlinin (ə) nəzarəti ilə xəlifələrin dönəmində kitab şəklində toplanılmış və bu günümüzədək gəlib çatmışdır. Bu kitab yazılı şəkildədir və Allah-taala onun canlısını yuxarıdakı ayədə nümunə olaraq bizlərə göstərir. Allah-taala bizlərə göstəriş verir ki, bu kitabı oxuyun və onun tərbiyə etdiyi insanın necə olduğunu bilmək istəyirsənsə, o zaman nümunə olaraq İslam

Peyğəmbərinə (s) baxın. Bu barədə kifayət qədər hədislər nəql olunmuşdur.

Əgər İslam dinini qısa şəkildə bəyan etmək (tanıtdırmaq) istəsək, o zaman deyə bilərik ki, İslam üç ünsürdən təşkil olunmuş bir dindir.

1. Əqidə

İnsanın inanclarına əqidə deyilir. Hər bir müsəlmanın əqidəsi olmalıdır. Əqidə dinin əsaslarından və köklərindən hesab edilir və beş hissədən ibarətdir: tövhid, ədl, nübüvvət, imamət və məad.

2. Şəriətin hökmləri

Şəriət hökmləri hər bir müsəlmanın ibadətdə və ticarətdə riayət etməsi vacib olan bir sıra qanunlar toplusudur. (Bu sahəni fiqh elmi əhatə edir.)

3. Əxlaq

Əxlaq elmi insanın fəzilətinin artmasına və pis xasiyyətlərdən uzaqlaşmasına səbəb olan bir sıra qanunlar toplusudur. Bu qanunlar insanın gözəl sifətlərinin daha da gücləndirilməsinə gətirib çıxarır.

Quran ayələri yuxarıda qeyd olunan bu üç ünsürə əsasən qruplaşdırılmışdır. Onlardan bir qismi isə əqidə məsələlərini (tövhid, ədl, nübüvvət, imamət və məad) bəyan edir. Məsələn,

قُلْ إِنما أنا بشر مثْلُكُم يوحى إِلَي أَنما إِلَهكُم إِلَه واحِد فَمن كَانَ يرجو لِقَاء ربهِ فَلْيعملْ عملًا صالِحا ولَا يشرِك بِعِبادةِ ربهِ أَحد

–De: "Mən də sizin kimi yalnız bir bəşərəm, (lakin) mənə vəhy olunur ki, şübhəsiz, sizin məbudunuz tək olan məbuddur. Buna görə də kimin öz Rəbbi ilə görüşə ümidi varsa, gərək yaxşı iş görsün və ibadətdə heç kəsi öz Rəbbinə şərik qoşmasın."[1]

[1] Kəhf surəsi, 110-cu ayə.

Bu ayədəki “يوحى إِلَيَّ” ifadəsi “nübüvvət”i, “إِلَٰهُكُم إِلَٰه واحِد” cümləsi “tövhid”i və “فَمن كَانَ يرجو لِقَاء ربهِ” cümləsi isə “məad”ı bildirir. “فَلْيعملْ عملًا صالِحا” cümləsi həm əxlaqı və həm də şəriət hökmlərini özündə cəmləşdirir.

Fiqh alimlərinin dediyinə əsasən, Quranın təxminən 500 ayəsi şəriət hökmlərinə, qalan ayələr isə əqidə məsələlərinə və əxlaqa aiddir.

Şəriət hökmlərinə aid olan ayələrdən birində belə deyilir:

يا أَيها الذِين آمنواْ كُتِب علَيكُم الصيام كَما كُتِب علَى الذِين مِن قَبلِكُم لَعلكُم تتقُونَ. أَياما معدوداتٍ فَمن كَانَ مِنكُم مرِيضا أَو علَى سفَرٍ فَعِدةٌ من أَيامٍ أُخر وعلَى الذِين يطِيقُونه فِديةٌ طَعام مِسكِينٍ فَمن تطَوع خيرا فَهو خير له وأَن تصوموا خير لكُم إِن كُنتم تعلَمونَ

–Ey iman gətirənlər, sizdən əvvəlkilərə yazıldığı kimi sizə (də) oruc yazıldı və qərara alındı, (ki,) bəlkə (ruhunuz qüvvətlənsin və nəfsi istəklərdən) çəkinəsiniz. Bir neçə gün! Odur ki, sizdən kim xəstə, yaxud səfərdə olsa, bir neçə gün (tutmadığı günlərin sayı qədər) digər günlərdə (oruc tutsun). Və oruc tutmağın taqətsizləşdirdiyi kəslər (qocalar, azyaşlılar və ağır xəstələr oruc tutmaya bilərlər və onlar) üçün (oruc tutmadığı hər bir günün müqabilində) bir yoxsula (bir “müdd”, yəni yeddi yüz əlli qram) yemək vermək onun kəffarəsi və əvəzidir. Kim xeyirə artırsa (və iki “müdd” versə), onun üçün daha yaxşıdır. Oruc tutmaq (çətin və məşəqqətli olsa da), sizin üçün daha yaxşıdır, əgər bilsəniz![1]

Həmçinin qisas barəsində belə buyurulur:

ولَكُم فِي الْقِصاصِ حياةٌ يا أُولِي الأَلْبابِ لَعلكُم تتقُونَ

[1] Bəqərə surəsi, 183-184-cü ayələr.

–Ey ağıl sahibləri, qisasda sizin üçün həyat vardır (cəmiyyətin həyatı qisas hökmünün həyata keçirilməsindədir), (ki) bəlkə (nahaq qanlar axıtmaqdan) çəkinəsiniz.[1]

Namazın, həccin və başqa məsələlərin hökmləri də eynilə belədir.

Əxlaqa aid olan ayələr də olduqca çoxdur. Bu ayələrdə insanın ruhunun xəstəlikləri və onun dərmanı kimi məsələlər bəyan olunmuşdur. Məsələn,

وَعِبَادُ الرَّحْمَٰنِ الَّذِينَ يَمْشُونَ عَلَى الْأَرْضِ هَوْنًا وَإِذَا خَاطَبَهُمُ الْجَاهِلُونَ قَالُوا سَلَامًا

–Rəhman (olan Allah)ın (həqiqi) bəndələri yer (üzün)də sakit və təvazökarlıqla yol gedəndə və nadanlar (xoşagəlməz sözlərlə) onlara xitab edən zaman “salam” (xoş və yumşaq söz) deyən kəslərdir.[2]

Qurani-kərim bir çox ayələrdə əxlaqi dəyərləri nəzəri şəkildə bizə bəyan etmiş və İslam Peyğəmbərini (s) bütün sahələrdə örnək olaraq bizlərə təqdim etmişdir. Quranda və hədislərdə İslam Peyğəmbəri (s) və başqa peyğəmbərlərdən savayı, İslam Peyğəmbərinin (s) canişinləri də örnək olaraq təqdim olunmuşdur. Məsələn, Həzrət Əlinin (ə) əməlləri, sözləri və imzası bizim üçün örnək və höccətdir. Eləcə də İmam Həsənin (ə), İmam Hüseynin (ə) və eləcə də digər imamların hamısının əməlləri, sözləri və imzaları bizim üçün örnək və höccətdir.

**İmam Hüseyn (ə) və əxlaqi dəyərlər**

Kərbəla inqilabı zahirən[3] cəmi 160 gün, yəni 5 ay 10 gün çəkmişdir. Belə ki, Həzrət İmam Hüseyn (ə) hicrətin 60-cı ilinin rəcəb ayının 28-də Mədinədən çıxmış və hicrətin 61-ci

---

[1] Bəqərə surəsi, 179-cu ayə.
[2] Furqan surəsi, 63-cü ayə.
[3] İnqilabın əsası İslam Peyğəmbəri (s) dünyasını dəyişən gündən qoyulmuşdur.

ilinin məhərrəm ayının 10-da şəhid olmuşdur. Bununla belə, Həzrət (ə) bəşəriyyətə qiyamət gününədək lazım olan dərsləri öyrətmişdir. Həzrət İmam Hüseynin (ə) bu inqilabı həm əxlaqi, həm elmi, həm ictimai və həm də siyasi cəhətdən həyatımızın bütün sahələrini əhatə edir.

İmam Hüseynin (ə) inqilabının ən mühüm cəhətlərindən biri bu inqilabın əxlaqi tərəfidir. O həzrətin hədəfi müqəddəs bir hədəf idi. Həm o həzrətin özü və həm də onun ata-babası bu müqəddəs hədəfə çatmaq üçün heç bir çirkin vasitələrdən (müqəddəs olmayan vasitələrdən) istifadə etməmişdilər.

Aşura qiyamının ən böyük dərslərindən də biri məhz bu idi ki, müqəddəs hədəfə çatmaq üçün insan gərək müqəddəs vasitələrdən istifadə etsin.

**Vasitələrdən istifadə etmək qaydası**

İslam Peyğəmbərinin (s) davranışı bizim üçün höccətdir. Qurani-kərim bu haqda "أُسوةٌ حسنةٌ" – deyə söyləmişdir. İslam Peyğəmbərindən (s) öyrənəcəyimiz məsələlərdən biri də vasitələrdən istifadə etmək qaydasıdır.

Yəni hər bir insan həm hədəf seçməkdə müsəlman, mömin və təqvalı olmalıdır, həm də bu hədəfə çatmaq üçün istifadə etdiyi vasitələri seçməkdə müsəlman, mömin və təqvalı olmalıdır.

Bəzi vaxtlar isə insan hədəfi seçməkdə mömin və təqvalı olmur. Dünyada yaxşı yeyib-içməkdən savayı başqa heç bir hədəfi olmur. Yəni bu kimi adamların məqsədi digər canlı varlıqların məqsədindən heç nə ilə fərqlənmir. Qurani-kərim bu haqda belə buyurur:

ولَقَد ذَرأْنا لِجهنم كَثِيرا من الْجِن والإِنسِ لَهم قُلُوب لا يفْقَهونَ بِها ولَهم أَعين لا يبصِرونَ بِها ولَهم آذَانٌ لا يسمعونَ بِها أُولَـئِك كَالأَنعامِ بلْ هم أَضل أُولَـئِك هم الْغافِلُون

–Doğrudan da Biz cin və insanların çoxunu (sanki) cəhənnəm üçün yaratmışıq. Çünki onların qəlbləri var, amma onunla (həqiqətləri) dərk etmirlər, onların gözləri var, lakin onunla (ibrət üçün) baxmırlar və onların qulaqları var, amma onunla (haqqı) eşitmirlər. Onlar heyvanlar kimidirlər, bəlkə (onlardan) daha azğındırlar və onlar həmin qafillərdirlər.[1]

Belələrinə insan demək olmaz. Çünki insanın şəhvətdən savayı başqa bir niyyəti (məqsədi) vardır.

**Görəsən, yalnız ilahi hədəf kifayət edirmi?**

Fərz edək ki, bir insanın hədəfi müqəddəsdir, bəs görəsən, bu hədəfə çatmaq üçün o, istədiyi vasitələrdən istifadə edə bilərmi? Yoxsa müqəddəs hədəfə çatmaq üçün yalnız müqəddəs (düzgün) vasitələrdən bəhrələnməlidir? Məsələn, tutaq ki, bir insanın hədəfi dini təbliğ etməkdir. O, dini təbliğ etməklə insanları hidayət etmək istəyir. Belə bir şəxs hədəfə çatmaq üçün istədiyi vasitələrdən istifadə edə bilərmi? (Əlbəttə, bir insan əgər öz şəxsi işlərinin həll olunması üçün yalan danışsa, başqalarına böhtan atsa, qeybət etsə və ya sözgəzdirənlik etsə, təbiidir ki, cəmiyyətdə onu qınayar və öz müşkülünü həll etmək üçün çirkin əməllərə əl atdığına görə məzəmmət edərlər.)

Yaxud tutaq ki, bir nəfər camaat namazının qılınması və insanların Quranı öyrənməsi üçün bir məscid tikdirmək istəyir. Bu zaman o, lazım olan miqdarda maliyyə vəsaitinə malik olmadığı üçün pul toplamaq niyyətilə yalan danışır, yaxud yaltaqlıq edir. Və bu yolla da həmin nəzərdə tutduğu məscidi tikdirmək üçün lazım olan məbləği əldə edir. Bu insanın hədəfi (məscid tikdirmək) aydın məsələdir ki, müqəddəsdir, lakin o, hədəfə çatmaq üçün qeyd olunan çirkin əməllərdən istifadə edir.

---

[1] Əraf surəsi, 179-cu ayə.

Bəziləri isə bu işi fədakarlıq hesab edirlər. Çünki həmin insan öz müqəddəs hədəfinə çatmaq üçün kifayət qədər zəhmət çəkmişdir.

Bəs görəsən, bu kimi yollarla hədəfə çatmaq həm siyasi, həm ictimai və həm də əxlaqi baxımdan düzgündürmü? Başqa bir ifadə ilə desək, insanlar müqəddəs bir hədəfə çatmaq üçün istədikləri vasitələrdən istifadə edə bilərlərmi, ya yox?

Cavab: Xeyr, insanın buna ixtiyarı çatmır. Bu, səhv bir yanaşmadır və İslam dini bu kimi halları qəbul etmir.

Amma Qərb dünyası bunu qəbul edir. Hətta avropalıların bir ifadəsi vardır ki, bu ifadə bəzi ərəblər (xüsusilə, Misirdə) arasında sanki bir atalar misalına çevrilmişdir.

اَلْغايات تبرر الْمبادي

–Hədəfə çatmaq üçün istənilən vasitədən istifadə etmək olar.

Keçmiş dövrlərdə bir dəstə ağılsız müsəlman da onların bu fikrini başqa ifadə ilə təkrar etmişdilər. Yəni onlar səhih bir hədisi nəql etmiş, lakin onu şərh edərkən yanlışlığa yol vermişlər.

Hədis belədir: “Hər zaman bidət əhlini görsəniz,” – “قَباهِتوهم”

Bu hədisi iki cür mənalandırmaq olar:

1. “قَباهِتوهم” felinin kökü “بهت” kəlməsidir. Yəni onları güclü məntiqlə elə başa salın ki, ağızları açıq qalsın və məftun olsunlar. Quran bu haqda buyurur:

أَلم تر إِلى الذِي حآج[1] إِبراهِيم فِي ربِهِ أَنْ آتاه اللّه الْملْك إِذْ قَالَ إِبراهِيم ربي الذِي يحيِـي ويمِيت قَالَ أَنا أُحيِـي وأُمِيت قَالَ إِبراهِيم فَإِن اللّه يأْتِي بِالشمسِ مِن الْمشرِقِ فَأْتِ بِها مِن الْمغرِبِ فَبهت الذِي كَفَر

[1] Mühaccə: Bir şəxs həqiqəti dərk etmək üçün deyil, öz sözünü başqasına yeritmək üçün bəhs edir.

–Allahın verdiyi hökmdarlıq üzündən öyünərək İbrahimlə Rəbbi barəsində höcətləşən kəsi görmədinmi? İbrahim “mənim Rəbbim diriləndən və öldürəndir” – deyən zaman o dedi: “Mən (də) dirildirəm və öldürürəm (iki məhkumdan birini azad edir, digərini isə öldürürəm).” İbrahim dedi: “Həqiqətən (mənim) Allah(ım) günəşi şərqdən çıxarır, sən onu qərbdən çıxar!” Belə olan halda kafir olmuş kəs, mat-məəttəl qaldı.[1]

“قَباهِتوهم” – hay-küylə və zorla deyil, dəlil, sənəd-sübut və məntiq əsasında mat qalmaq deməkdir.

2. İkincisi, “böhtan” kökündən olan mənadadır. “قَباهِتوهم”, yəni əgər hər bir yerdə büdət əhlini görsəniz, ona böhtan atın. Belə bir insana yalan da demək olar.

Söylədiyimiz bu iki mənadan birincisi ağlabatan və doğrudur. Cünki cümlənin quruluşu da bunu sübut edir.

Lakin çox təəssüflər olsun ki, bir dəstə (düşüncəsiz) müsəlman ikinci mənanı qəbul etmişlər və bunun nəticəsində də yalan danışmağı özləri üçün caiz hesab edirlər.

İş hətta o yerə gəlib çıxır ki, hər kimə qarşı ədavətləri varsa onu bidət əhli hesab edir, ona böhtan atır, yalan danışır və ona qarşı xoşagəlməz sözlər işlədirlər.

Belə olan halda dinin başına gör nələr gələ bilər?!

Bidətin həqiqi mənası belədir:

اِدخالُ ما لَيس مِن الدينِ فِي الدينِ

–Dində olmayan bir şeyi dinə aid etmək (daxil etmək).

İmam Cəfər Sadiq (ə) buyurmuşdur: “Bəni-Üməyyə hər bir şeyi sərbəstləşdirdi. Dedilər ki, icazə verin, camaat Quranı öyrənsin. Müaviyə dedi ki, camaat nə istəyirsə etsin, qoy öyrənsin, amma şirkin mənasını öyrənmələrinə icazə verməyin. Şirkin nə olduğunu bilməsinlər. Bu zaman hər kimə istəsək “bu şəxs şirkə yol vermişdir, müşrikdir”, – deyə bilərik.”

---

[1] Bəqərə surəsi, 258-ci ayə.

Yadellilərin idarə etdikləri bəzi müsəlmanlar tarix boyu İslam aləmində müxtəlif ixtilaflara səbəb olmuşlar. Onlar namaz qılana, ibadət edənə və ziyarət edənə müşrik deyirlər. Çünki onlara şirkin həqiqi mənasını öyrənməyə imkan verməmişlər. Özü də indi elə bir vəziyyət yaranıb ki, deyir "قَباهِتوهم", yəni bidət varsa, ürəyin istədiyi sözü deyə bilərsən. Hətta söyüş belə söyə bilərsən.

Xeyr, bu düz deyil, əgər bidət pisdirsə, deməli, söyüş söymək də pis əməldir. Əgər bidət pisdirsə, böhtan atmaq da pis əməldir. Bidəti aradan qaldırmaq müqəddəs bir hədəfdir, lakin çirkin əməllərlə bu hədəfə çatmaq düzgün deyil. Müqəddəs hədəfə yalnız müqəddəs əməllərlə çatmaq lazımdır.

Qərb alimləri "الْغايات تبرر الْمبادي" ifadəsini işlətdilər, şüursuz müsəlmanlar isə "قَباهِتوهم" ifadəsini işlətdilər. Onlar əl-ələ verib İslam dinini belə bir vəziyyətə gətirib çıxardılar.

Avropa alimlərindən biri yazır: "Mən İslam dini barəsində araşdırma apardıqdan sonra bu dinin həqiqi din olduğunu anladım."

Ondan soruşurlar ki, nəyə əsasən bunu deyirsiniz? O deyir: "Əgər bu din həqiqi din olmasaydı, daxildən və xaricdən ona vurulan zərbələrin qarşısında dayana bilməzdi. Əgər yıxılmayıbsa və hələ də ayaq üstə dura bilirsə, deməli İslam həqiqi dindir."

Həzrət Əliyə (ə) deyirlər ki, Müaviyənin fikirləri daha dolğun və tökdüyü tədbirlər də daha yaxşıdır. Həzrət (ə) onların cavabında buyurur:

و اللهِ ما معاوِيةُ بِأدهي مِني و لكِنه يغدِر و يفْجر و لَو لا كَراهِيةُ الْغدرِ لَكُنت مِن أدهي الناسِ و لكِن كُل غَدرةٍ فَجرةٌ و كُل فَجرةٍ كَفُرةٌ و

لِكُلِ غَادِرٍ لِواءٌ يعرف بِهِ يوم الْقِيامةِ و اللهِ ما أُستغفَلُ بِالْمكِيدةِ و لا أُستغمزُ بِالشدِيدةِ

–Allaha and olsun ki, Müaviyə məndən zirək deyil, əksinə, o, vəfasızlıq və xəyanət edib, günah və itaətsizliklə məşğuldur. Əgər hiyləgərlik və vəfasızlıq xoşagəlməz əməl olmasaydı, mən insanlar arasında ən zirək adam olardım. Amma (bilin ki,) bütün hiylə və vəfasızlıqlar günahdır və hər bir günah itaətsizlikdir. Qiyamət günü əhd-peymanını pozmuş hər bir kəs üçün bir bayraq və nişanə olar və o, onunla tanınar. Allaha and olsun, mən qəflətə düşmərəm ki, barəmdə kələk və hiylə işlətsinlər. Çətinliklər, giriftarlıqlar qarşısında aciz qalmaz və zəif düşmərəm.[1]

Mənim qollarımı Allahın əmri bağlamışdır, lakin onun qolları bağlı deyil. O, Allahın əmrinə məhəl qoymur. Halal və haramı vecinə almır. O, hər nə düşünürsə, onu da həyata keçirir.

İmam Hüseyni (ə) şəhid edənlərin hədəfi çirkin, hərəkətləri çirkin, yazdıqları məktublar çirkin və döyüşə göndərdikləri adamların hamısı murdar adamlar idilər. Onlar İmam Hüseyni (ə) öldürməklə öz məqsədlərinə çatdılar. Bəs görəsən, kəsilmiş başları nizələrə vurub şəhər-şəhər gəzdirməyin mənası nə idi?! Onlar bunu etməklə, görəsən, kimi qorxutmaq istəyirdilər. Bədbəxtçilik də burasındadır ki, bütün bunları İslam adı ilə edirdilər.

Aşura günü İmam Hüseynin (ə) başını bədənindən ayırandan sonra Xuli bir nəfərlə birlikdə mübarək başı Kufəyə gətirdi. Kufəyə gecə çatdıqları üçün İmamın (ə) mübarək başını da öz evində saxladı. Səhərisi onu götürüb İbn Ziyadın yanına apardılar. İbn Ziyad o həzrətin kəsilmiş mübarək başını qarşısına qoyub dedi:

---

[1] Nəhcül-bəlağə, 191-ci xütbə.

قَتلْت خير الناس أُماً و أبا و خيرهم ِإذْ ينصِبن نصبا

–Mən elə bir insanı öldürmüşəm ki, onun anası və atası insanların ən yaxşısı idi və onun nəsli ən fəzilətli nəsillərdən idi.

Sonra əmr etdi ki, kəsilmiş mübarək başı nizəyə taxıb şəhərdə gəzdirsinlər. Zeyd ibn Ərqəm deyir ki, mən evimdə əyləşmişdim. Gördüm ki, küçədə hay-küy düşdü. Pəncərəni açıb eşiyə baxdıqda bir dəstə adamın kəsilmiş bir başı nizəyə taxıb hay-küylə gəldiklərini gördüm. And olsun Allaha, gördüm ki, kəsilmiş başın dodaqları bir-birinə dəyərək Quran ayəsini oxuyur.

أَم حسِبت أن أَصحاب الْكهفِ والرقِيمِ كَانوا ِمن آياتِنا عجب

–Yoxsa (yüz illərlə yatıb sonra ayılan) o böyük mağara yoldaşlarının və o yazılı lövhə sahiblərinin (əhvalatlarının) Bizim ayə və nişanələrimizdən (daha) heyrətləndirici olduğunu güman etmisən?[1]

Zeyd ibn Ərqəm deyir: “Mən ağlaya-ağlaya dedim:

رأسك و اللهِ يا بن رسول اللهِ عجب و عجب

–And olsun Allaha! Ey Peyğəmbərin övladı, sənin başını kəsib gəzdirmək ondan daha təəccüblü və daha heyrətləndiricidir!”

Xanım Zeynəb (s.ə) də kəsilmiş mübarək başın ardınca gedə-gedə deyirdi:

*Nə eşq ilə atamoğlu oxursan ayeyi Kəhfi,*
*Oxu, mürididi dildən o ləhni behtərə Zeynəb.*

*Ucadır şənin, uca minbərə çıxıbsan Hüseynim,*
*Həmişə dil xoş olar sən çıxanda minbərə Zeynəb.*

[1] Kəhf surəsi, 9-cu ayə.

## Çirkin (müqəddəs olmayan) vəsilədən istifadənin nümunələri

İmam Cəfər Sadiq (ə) buyurmuşdur: "Birinin evinə qonaq gedərkən əliboş getməyin, hədiyyə aparın. Bizim kəlamlarımızı əlinizdə aparın. Məclislərdə bizim kəlamlarımızdan danışın. Çünki insanların fitrəti ilə bizim və İslamın kəlamları uyğun olduğu üçün (bizim sözlərimizi) qəbul edəcəklər. Bizim sözlərimizi qəbul etməyənlər İslamın gözəlliklərindən xəbəri olmayanlardır.

Hədislərdə belə nəql olunur ki, Allah-taala Davud Peyğəmbərə (ə) buyurmuşdur: "Ey Davud, Məni sevirsənmi? Məni sev və həm də insanlara sevdir." Davud (ə) dedi: "İlahi, mən özüm Səni sevirəm. Başqalarının Səni sevməsini nə cür edim?" Allah-taala buyurdu: "Əgər insanlar Mənim mərhəmətimdən, rəhmətimdən və kəramətimdən xəbərdar olsalar, mütləq onlar da Məni sevəcəklər."

İslamın kəlamı Qurani-kərimdir. Quran və İslam Peyğəmbərinin (s) davranışı, onun mübarək kəlamları yuxarıda söylənilən bidətin mənasının əleyhinədir. Onlar bu sözləri söyləməklə İslamı dünyaya başqa cür tanıtdırdılar.

Bəzi insanlar isə onların bəzədilmiş bu yalanlarına aldandılar və İslam dinində olduqca çoxlu fəsadlar törətdilər. Onların yalanlarına aldanmış insanların ömürləri bitdikdən sonra bunların yalan olduğunu biləndə isə artıq çox gec olur və qayıtmaq da mümkün olmur. Çünki Quran da bu haqda belə buyurur: "İnsan ölüm mələyini görəndə deyər:

قَالَ رب ارجِعون. لَعلي أعملُ صالِحا ِفيما تركْت.

–Ey Rəbbim, məni (dünyaya) geri qaytar! Bəlkə qoyub gəldiyim o yerdə yaxşı bir iş gördüm.

Allah-taala onlara çox ağır bir cavab verir. Allah-taala buyurur: “قالَ اخسؤوا”[1] – “Orada zəlil vəziyyətdə qalın!”

Ey insan! Yüz iyirmi dörd min peyğəmbər göndərdim, sən indi deyirsən ki, mən başa düşmədim?!

Bir tərəfdən düşmənlərin apardıqları təbliğat, digər tərəfdən düşüncəsiz müsəlmanların nadanlığı və başqa bir tərəfdən də tarix boyu zalım və qəddar diktatorların İslama qarşı apardıqları amansız siyasət İslamı çox çətin bir vəziyyətə salmışdır. Onlar müsəlmanların öz əlləri ilə film çəkərək elə müsəlmanların özlərini məsxərəyə qoymuşlar. Müsəlmanların əlləri ilə teatrlarda Qurana, Həzrət Peyğəmbərə (s), imamlara və dini alimlərə məsxərə edirdilər. Onlar özlərinin hazırladıqları fasiq mollaları insanlara təqdim edir və onların əli ilə həqiqi dindarları (ruhaniləri) təhqir edirdilər.

**Tarixdən nümunə**

Əbu Hüreyrə[2] bir müddət Məkkə şəhərinin başçısı olmuşdu. Onun dönəmində bir nəfər Əkkə şəhərindən satmaq üçün xeyli soğan gətirmişdi. Amma malını sata bilmirdi və buna görə də soğan da tədricən xarab olurdu. Vəziyyəti belə gördükdə Əbu Hüreyrənin yanına gəlib dedi:

–Sənin yanına bir xahiş üçün gəlmişəm. Sən savab bir iş gör və elə et ki, mənim buraya gətirdiyim soğan xarab olmasın. Nəyim varsa satıb soğan alaraq buraya gətirmişəm. Burada da müştəri yoxdur. Sən mənim dərdimə əlac elə və bir mömini bu çətinlikdən qurtar.

Əbu Hüreyrə dedi:

–Yaxşı, cümə günü aldığın soğanı məscidin qarşısına gətir.

---

[1] “اخسؤوا” feli iti qovmaq üçün işlədilir.

[2] Əbu Hüreyrə İslam Peyğəmbərinin (s) adından minlərlə hədis uydurmuşdur. Əgər dünyada yalançıları bir yerə toplasalar, on nəfər yalançıdan biri o sayılar.

Əbu Hüreyrə cümə namazının xütbəsində dedi:

أيها الناس سمِعت مِن حِبيبي رسولِ اللهِ صل اللهُ عليه و آلِه و سلم

قَالَ: من أكَلَ بصلَ عكةَ فِي مكة وجبت له الْجنة.

–Ey camaat! Həbibim Rəsulallahın (s) belə buyurduğunu eşitdim: “Hər kim Əkkənin soğanını Məkkədə yesə, cənnət ona vacibdir.”

Namazdan sonra insanlar bir saatın içərisində bütün soğanları aldılar.

Ola bilər ki, Əbu Hüreyrə bir möminə kömək etdiyi üçün bu əməlindən razı qalsın. Hədəf müqəddəsdir, amma bu hədəfə çirkin vasitə ilə çatmışdır. Bu da haram iş hesab edilir. Həzrət Peyğəmbər (s) də bunu qəbul etmir və bunların hamısı İslam dininə bir zərbədir.

## Çirkin vasitələrdən istifadə etməməyin nümunələri

### 1. İslam Peyğəmbərinin (s) davranışından nümunələr

**Birinci nümunə**

Səqif qəbiləsindən olan bir dəstə insan İslam Peyğəmbərinin (s) yanına gəlib dedilər:

–Ey Allahın Rəsulu! Biz müsəlman olmaq istəyirik, amma üç şərtimiz var:

1. Biz bütpərəst olmuşuq. İcazə ver, bir il də bütlərə ibadət edək, sonra İslamı qəbul edərik;

2. Namaz qılmaq çox çətindir. (Ərəblərin təkəbbürlülüyü rüku və səcdə etməyə icazə vermirdi.) Gənclərin və cavanların arasında bizim kimi ağsaqqalların əyilib namaz qılması bizim üçün çox çətindir;

3. Bütlərə bir il ibadətdən sonra böyük bütü sındırmağı bizə həvalə etmə.

Əgər siyasi nöqteyi-nəzərdən onların bu təkliflərinə nəzər salsaq, o zaman İslam Peyğəmbəri (s) onlara deməliydi ki, 40 il bütpərəstlik edəndən sonra bir il bütlərə ibadət etməyin nə eybi vardır?! Əvəzində bir neçə böyük qəbilənin başçıları İslamı qəbul etməyə hazır idilər. Onlar müsəlman olandan sonra onların qəbilə üzvləri də İslamı qəbul edəcəkdilər və müsəlmanların gücü bir qədər də artacaqdı. Onların bir il bütlərə ibadət etmələrinin mənası isə bu idi ki, bir il namaz qılmayacaqlar.

Lakin Həzrət Peyğəmbər (s) onların cavabında buyurdu: "Sizin üçüncü şərtinizi qəbul edirəm. Mən bir nəfər göndərərəm və gəlib ən böyük bütü sındırar. Amma ilk iki şərtinizi qəbul etməyim mümkün deyil."

Bir il nədir ki? İslam Peyğəmbəri (s) kimlərinsə heç bir dəqiqə belə bütlərə ibadət etməsinə razı olmaz. Heç bir vaxt Həzrət Peyğəmbər (s) razı olmaz ki, kimsə Allaha səcdə etməsin.

Bu hədisdən belə bir nəticəyə gəlirik ki, İslam Peyğəmbəri (s) müqəddəs olmayan bu vasitə ilə böyük məqsədə nail ola bilərdi. Amma həmin vasitədən istifadə etmədi. Çünki İslam Peyğəmbəri (s) bütün dəyərlərin hamısının, yəni insani və əxlaqi dəyərlərin qorunub saxlanılmasını istəyirdi.

**İkinci nümunə**

İslam Peyğəmbərinin (s) həyat yoldaşı Mariya Qibtiyyədən olan İbrahim adlı oğlu 18 aylığında dünyadan köçdü. Hər ikisinin qəbri Mədinə şəhərindəki Bəqi qəbiristanlığındadır.

İslam Peyğəmbəri (s) uşağın vəfatına görə bir az qəmgin oldu və gözlərindən yaş axdı. Uşağı dəfn edəndə isə Həzrət (s) belə buyurdu: "Ürək yanır, gözdən də gözyaşı axır. Ey İbrahim, sənin dünyadan getməyin məni kədərləndirdi, amma Allahın rizasına razıyam."

Təsadüfən həmin gün günəş tutuldu. Camaat elə başa düşdü ki, günəşin tutulması Həzrət Peyğəmbərin (s) övladının ölməsinə görədir. Bu xəbər camaat arasında yayıldı. Həmin xəbər İslam Peyğəmbərinə (s) də gəlib çatdı.

İslam Peyğəmbəri (s) insanların bu kimi zəif cəhətlərindən istifadə edərək bu hadisə ilə onun risalətinə şübhə edənlərə peyğəmbərliyinin həqiqi olduğunu sübut edə bilərdi. Amma Həzrət Peyğəmbər (s) insanların hidayəti və imanlarının artması üçün onların cəhalətindən istifadə etməyi istəmirdi. Əksinə, Həzrət (s) istəyirdi ki, insanlar elm və mərifət vasitəsilə hidayət olunsunlar. Çünki Quran bu haqda belə göstəriş verir:

أُدع إِلى سبِيلِ ربك بِالْحِكْمةِ والْموعِظَةِ الْحسنةِ وجادِلْهم بِالَّتِي هِي أَحسن

– (İnsanları) Rəbbinin yoluna hikmətli məntiq, qaneedici dəlillər və gözəl, oyadıcı və ibrətamiz nəsihətlə dəvət et və onlarla (müxaliflərlə) ən gözəl tərzdə mübahisə et.[1]

İslam Peyğəmbəri (s) "خذُ الْغايات و اترك الْمبادِي" – "Hədəfdən möhkəm yapışın, vasitələrlə işiniz olmasın", – deyə söyləmədi. Əksinə, bu xəbəri eşidəndə camaatı məscidə topladı və minbərə çıxıb buyurdu:

–Ey camaat! Günəşin tutulması mənim övladımın dünyadan getməsinə xatir deyil. Onlar başqa-başqa şeylərdir və bir-birilə heç bir bağlılığı yoxdur.

Bu sözləri eşidənlər təəccübləndilər. Görəsən, Həzrət Peyğəmbər (s) bunları nəyə görə söylədi?!

İslam Peyğəmbəri (s) bunları ona görə insanlara çatdırdı ki, o, hətta onun sakit qalmasından belə insanların sui-istifadə etmələrini istəmirdi.

---

[1] Nəhl surəsi, 125-ci ayə.

Birincisi, İslam dininin bu kimi şeylərə heç bir ehtiyacı yoxdur. Yalandan yuxu görmək, yalandan hədis uydurmaq o kəslərə lazımdır ki, onların dininin məntiqinin gücü yoxdur. İslam dininin yalana ehtiyacı yoxdur. İslam dininin gözəl elmi, məntiqi və deyiləsi sözü vardır. Hər kim məntiq əsasında İslam dini barəsində mübahisə etmək istəyirsə, buyursun gəlsin. Elə bu səbəbdən də hər zaman məntiq əsasında müzakirəyə, yaxud mübahisəyə dəvət edirsə, kimsə bu dəvəti qəbul etmir.

İkincisi, İslam Peyğəmbəri (s) bilirdi ki, onun gətirdiyi din əbədi bir dindir və ona görə də dininin əbədi olaraq qalmasını istəyirdi. O həzrət yaxşı bilirdi ki, əgər bu gün Mədinədə bir neçə nəfəri aldadıb imana gətirsə, yüz ildən, min ildən sonra dünyaya böyük insanlar gələcəklər və onlar anlayacaqlar ki, uşağın dünyadan getməsinin günəşin tutulması ilə heç bir bağlılığı ola bilməz.

Məşhur bir məsəl var: "Hamını həmişə aldatmaq və həmişə cəhalətdə saxlamaq mümkün deyil." Yəni bir qrup insanı həmişə cəhalətdə saxlayıb aldatmaq mümkündür. Həmçinin bütün insanları müəyyən bir zaman çərçivəsində cəhalətdə saxlayıb aldatmaq mümkündür. Amma hamını həmişə cəhalətdə saxlayıb aldatmaq mümkün deyildir.

Elə bu səbəbdən də İslam Peyğəmbəri (s) İslamın daha da inkişaf etməsi naminə insanların cəhalətindən istifadə etmək fikrinə düşmədi. Çünki İslam dininin inkişaf etməsi üçün belə şeylərə heç bir lüzum yoxdur.

İslam Peyğəmbərinin (s) və Həzrət Əlinin (ə) dönəmlərində ən çətin anlarda da belə onlara mövcud durumdan çıxmaq üçün müxtəlif çirkin təkliflər edilsə də, onlar bu kimi təkliflərlə əsla razılaşmayıblar.

İmam Hüseynin (ə) Mədinədən çıxıb Kərbəlada şəhid olmasınadək, habelə ondan qabaqkı yaşadığı dövrlərdə, həmçinin İmam Həsənin (ə), İmam Əlinin (ə) və İslam

Peyğəmbərinin (s) hərəkətlərində onların hər hansi bir mənfi vasitədən istifadə edərək müqəddəs hədəflərə nail olmalarına dair bir dənə də olsa nümunə tapmaq mümkün deyil.

**Fəratın yolunun bağlanması**

Məhərrəm ayının yeddinci günü daha çox Fərat çayının yolunun bağlanması ilə məşhurdur. Həmin gün İbn Ziyad bir məktub yazıb göndərdi və əmr etdi ki, Fəratın yolunu bağlasınlar. Ömər Səd də suyun yolunu bağladı.

Su ilə bağlı şəriətdə xüsusi hökmlər vardır, yəni su libas, ev və s. kimi deyildir. Birincisi, su Allahın yaratdığı ilk nemətdir ki, Quran bu haqda buyurur:

وهو الذي خلق السماوات والأرض في ستة أيام وكان عرشه على الماء

–Göyləri və yeri (səltənət) taxtı suyun üzərində olan halda, altı gündə yaradan Odur.[1]

İkincisi, Allah-taala suyu İslam Peyğəmbərinə (s) görə yaratmışdır. Bütün müsəlmanların qəbul etdiyi hədisdə belə deyilir:

لو لاك لما خلقت الأفلاك

–Əgər sən olmasaydın heç nəyi yaratmazdım.

İslam Peyğəmbəri (s) buyurmuşdur:

حسين مني و أنا من حسين

–Hüseyn məndəndən və mən də Hüseyndənəm.

Yəni Allah-taala suyu Həzrət Peyğəmbərə (s) və Hüseynə (ə) xatir yaratmışdır. Onları bir-birindən ayıranlar İslama xəyanət etmişlər.

Hədislərdə deyilir ki, qiyamət günü insana verilən ilk savab suya xatir olacaqdır. Yəni bu dünyada bir nəfər digərinə

---

[1] Hud surəsi, 7-ci ayə.

verdiyi suya görə ona verilən savab qiyamət günü ilk olaraq təqdim ediləcək. Hətta cənnət əhli cəhənnəm əhlini görəndə deyərlər ki, ilahi, bu insan dünyada mənə su vermişdi. İndi mən ona şəfaət etmək istəyirəm. Allah-taala onun şəfaətini qəbul edər.

Axar sularda bütün susuz insanların su içmək haqqı vardır. Hətta axar suyun sahibi olsa və su içməyə icazə verməsə də belə, susuz insanın ondan icazəsiz su içməyə haqqı çatır. Çörək, libas və başqa şeylər isə belə deyil. Çünki Allah-taala axar suyu bütün canlılar üçün xəlq etmişdir. Hətta dünyasını dəyişmiş bir insanın evində körpə uşaq varsa,[1] yenə də susuz bir insan onun həyətindəki axar sudan içə bilər.

Susuz adama su verməyin əcri və savabı çoxdur. Hətta susuz adam kafir olsa da belə. Kafir adamın da axar sudan içməsinin qarşısını almağa heç bir kəsin ixtiyarı yoxdur. Əgər bir kafir bir müsəlmandan su istəsə, müsəlmanın ona su verməməyə ixtiyarı yoxdur. Hədislərdə belə qeyd olunur ki, əgər bir kafir başqa bir kafirə su versə, qiyamət günü onun cəzasından azaldarlar.

Heç bir kəsin heyvanların da su içməsinin qarşısını almağa ixtiyarı yoxdur.

Bir dəfə İslam Peyğəmbəri (s) dəstəmaz alırdı. Gördü ki, bir pişik susuzluqdan dilini çıxarıb. Həzrət (s) dəstəmazı saxladı və həmin suyu pişiyə verdi. Pişik istədiyi qədər su içdi və o həzrət qalan su ilə dəstəmazını aldı.

Yəni Həzrət Peyğəmbər (s) pişiyin su içməsini öz dəstəmazından üstün hesab etdi.

Əgər səfərə çıxan bir insanın yanında hansısa bir heyvan vardırsa və onun boynunda qüsl varsa, yanındakı heyvan

---

[1] Əgər dünyasını dəyişən insanın evində körpə uşağı varsa, onun malından yemək olmaz.

susuz olduğu təqdirdə suyu heyvana verməli və özü isə təyəmmümlə namaz qılmalıdır. Dəstəmazda da eynilə bu cürdür. Hətta heyvan həmin şəxsin getdiyi karvanda yox, başqa bir karvanda olsa da belə yenə də hökm eynidir.

Amma Kərbəlada heyvan və ya kafir yox, Həzrət Peyğəmbərin (s) balaları düz üç gün "əl-Ətəş, əl-Ətəş, əl-Ətəş" dedilər və susuzluqdan ciyərləri yandı, amma zalımlar onlara bir içim su vermədilər. Üç məsum imam – İmam Hüseyn (ə), İmam Zeynalabidin (ə) və İmam Baqir (ə) çadırlarda susuz qaldılar, amma zalımlar onlara su vermədilər. Çadırlarda olanlardan üçü birbaşa Xanım Fatimeyi Zəhranın (s.ə) doğma övladları idi, biri İmam Hüseyn (ə), biri Xanım Zeynəb (s.ə) və biri isə Xanım Ümmi Külsüm idi. Onlar susuz idilər, amma zalımlar onlara su vermədilər. Çadırlarda olan uşaqların bir qismi hələ həddi-büluğ yaşına çatmamışdı. Sükeynə, Atikə, Rüqəyyə və Ümmi Külsüm o zalımların gözləri qarşısında İmam Hüseynin (ə) əbasının ətəyindən yapışıb "əl-Ətəş" deyərək su istəyirdilər, amma zalımlar yenə də onlara su vermədilər.

Hədislərdə Əliəkbər ağanın dilindən belə nəql olunur: "Kərbəlada bir çadır qurulmuşdu ki, ona "Xeymətül-miyah" ("Sular çadırı") deyirdilər. Bütün dolu tuluqları həmin çadıra yığmışdılar. Tuluqlardan damcılanan su isə yeri islatmışdı. Məhərrəm ayının 7-si suyun yolunu bağlayandan sonra su qurtardı, amma yerdə hələ də nəmişlik qalmışdı. Mən həmin çadıra girəndə gördüm ki, Rübab Əliəsğərin sinəsini açaraq üzü üstə torpağın üstünə qoyub ki, uşağın ürəyi bir az da olsa sərinləsin."

*Rübabın əldə vəli xoş bəhanəsi var idi,*
*Elə ki xəlvət olurdu, deyirdi vay ağa, vay,*
*Birin görəndə deyərdi dilaçmayan bala vay.*

*Oğul hardasan, altı aydır məni rağib eləmişdin özüvə,*
*Qəlbdə qüssə olan vəqtə baxırdım üzüvə,*
*Bu gecə harda qalıbsan ana qurban gözüvə.*

*Oğul, nə görmüşdüm iməkləməyini, nə şirin dilin,*
*Bala, qurban demişdim ildə kəsəm çıxmadı ilin.*

*Ərəbdə kim oğul doğsa, çox ellərdə budur qayda,*
*Nəzir-niyaz edər bəlkə əməyindən görə fayda.*

*İl olunca qorur gözdən, ona qurban kəsər ayda.*
*Mən ollam gündə qurbanın balam laylay, gülüm laylay.*

**2. Həzrət Əlinin (ə) davranışından nümunələr**

Yuxarıda qeyd etdik ki, İslam Peyğəmbəri (s) müqəddəs hədəfə çatmaq üçün müqəddəs olmayan vasitələrdən istifadə etməmişdir.

Əgər yuxarıdakı mövzu ilə bağlı İslam dini ilə bağlı sənədlərə müraciət etsək, o zaman görərik ki, İslam Peyğəmbərinin (s) hədəfi çox müqəddəs bir hədəf idi. Allah-taala Qurani-kərimin üç ayəsində Həzrət Peyğəmbərin (s) bu müqəddəs hədəfi haqda belə buyurur:

يزكيهم ويعلمهم الْكِتاب والْحِكْمةَ

–Onları (əqidədə, əxlaqda və əməldəki çirkinliklərdən) pak etmək, onlara (səmavi) kitab, dini və əqli mərifətlər öyrətmək üçün...

Həzrət Peyğəmbər (s) bu müqəddəs hədəfə çatmaq üçün yalnız müqəddəs vasitələrdən istifadə edirdi. Həzrət (s) hədəfə çatmaq üçün bir dəfə də olsun müqəddəs olmayan (çirkin) vasitələrdən istifadə etməmişdir.

Həmçinin qeyd etdik ki, İslam Peyğəmbərindən (s) sonra onun Əhli-beyti (ə) bizim üçün höccətdir. Eləcə də on iki imam və qızı Xanım Fatimeyi Zəhra (s.ə) bizə höccətdir. Bu

barədə İmam Həsən Əskəri (ə) buyurmuşdur: “Anam Fatimeyi Zəhra (s.ə) bizə höccətdir, biz də sizə höccətik.”

Başda Həzrət Əli (ə) olmaqla Əhli-beytin (ə) hamısının rəftarı, sözü və imzası bizim üçün höccətdir. Həzrət Əli (ə) müqəddəs hədəfinə çatmaq üçün heç bir vaxt müqəddəs olmayan vasitələrdən istifadə etməmişdir. Əksinə, əgər etsəydi, siyasi baxımdan bir qədər qabağa da düşə bilərdi. Amma o, bunu etmədi. Çünki hidayət insanı pozğunluqdan, azğınlıqdan çıxarıb nuraniyyətə, münkərdən çıxarıb mərufa, zülmətdən çıxarıb nura daxil etmək deməkdir. Nəhayət, hidayət insanı cəhənnəmdən çıxarıb cənnətə daxil etmək deməkdir.

İndi insan nəyin vasitəsi ilə bunları edir. Əgər hər kim bunu anlaya bilsə, o zaman başa düşər ki, nəyə görə müqəddəs hədəfə çatmaq üçün müqəddəs olmayan (çirkin) vasitələrdən istifadə etmək olmaz.

Əgər malından keçməklə, yuxusuz qalmaqla, hətta canından keçməklə bir qrup insan hidayət olunacaqsa, deməli bu, çox gözəl bir xüsusiyyətdir. Bütün peyğəmbərlərin həyatı bu cür olmuşdur. İnsanların hidayət olunması üçün onlar zindanlara düşmüşlər, döyülmüşlər və cürbəcür əziyyətlər çəkmişlər.

Amma insanın özünün cəhənnəmə getməsi bahasına bir nəfəri cəhənnəmdən çıxarıb cənnətə aparmaq istəyi məqbul deyildir. Bunu bizdən nə Allah istəmişdir, nə mələklər istəmişdir və nə də Həzrət Peyğəmbər (s) istəmişdir.

Həzrət Peyğəmbər (s) və onun Əhli-beyti (ə) insanları cəhənnəmdən çıxarıb cənnətə aparmaq üçün gəlmişlər. Elə bu səbəbdən də onların müqəddəs hədəfə çatmaları üçün haram yollardan istifadə etmələri qeyri-mümkündür.

Əgər biri hakimiyyəti ələ almaq istəyirsə, onun haram vasitələrdən istifadə etməsi mümkündür, amma yox, əgər bir nəfər insanları hidayət etmək üçün gəlmişdirsə, onun haram

vasitələrdən istifadə etməsi mümkün deyil. Həzrət Peyğəmbərlə (s) hakimiyyət rəhbərlərinin və məsum imamlarla xəlifələrin fərqi də elə məhz bundadır. Xilafəti ələ keçirmək istəyən bir kəs haram vasitələrdən istifadə edir. Məsələn, Müaviyə kimi. O, İmam Həsənlə (ə) sülh müqaviləsi bağladıqdan və Kufə şəhərinə daxil olduqdan sonra həmin sənədi ayaqlarının altına atıb dedi ki, mən hakimiyyəti ələ almaq üçün sizinlə müharibə edirdim. İndi isə buna nail olmuşam və kim nə istəyir, etsin.

Allahın höccətinə, insanlara imamlıq edənə və insanları cənnətə aparmaq istəyənə, nəinki haram, heç məkruh əmələ belə əl atmaq olmaz.

Yuxarıdakı mövzu ilə bağlı Həzrət Əlinin (ə) davranışından bir neçə nümunəyə diqqət yetirək.

**Birinci nümunə**

Müğeyrə ibn Şöbə (sonralar Müaviyənin xüsusi dostlarından olmuşdur) Həzrət Əlinin (ə) hakimiyyətinin ilk illərində o həzrətə təklif etdi ki, hələlik Müaviyə ilə işiniz olmasın. Hələlik onun valiliyini qəbul edin və camaat da elə başa düşsün ki, o, Şamda sizin nümayəndənizdir. Elə ki, vəziyyət düzəldi, sonra onu işdən kənarlaşdırarsınız. Əgər indi Müaviyəni işdən kənarlaşdırmaq istəsəniz, o, camaatı sizin əleyhinizə qaldıracaq.

Həzrət Əli (ə) onun cavabında buyurdu: "Mən heç vaxt bu işi etmərəm. Çünki əgər mən onun azacıq bir müddətdə, məsələn, bircə gün belə vali olmasına razı olsam, deməli, onun saleh insan olduğunu qəbul etmiş oluram. Halbuki mən onu saleh insan hesab etmirəm. Mən insanları aldada bilmərəm."

Həzrət Əli (ə) bunu ona görə etdi ki, min ildən sonra dünyaya gələn insanlar bəhanə məqsədilə "Nə üçün Həzrət Əli (ə) azacıq müddətdə olsa da belə saleh olmayan bir insanın hakimiyyətini qəbul etdi", – deyə söyləməsinlər.

Əgər Əli (ə) bir işi bir saatlıq qəbul etsə, adi insanlar həmin əməli özləri üçün höccət bilib yüz il yerinə yetirərlər.

Müğeyrə təklifinin qəbul olunmadığını gördükdə dedi: “Elə mən də sizin kimi fikirləşirəm.”

İbn Abbas deyir: “Müğeyrə elə ilk söylədiyi kimi düşünürdü. Sonradan söylədiyini yalandan deyirdi və sonda da gedib Müaviyəyə qoşuldu.”

Onlar imamətə imamın gözü ilə baxmırdılar. Onlar xilafətə siyasət gözü ilə baxırdılar. Tarix boyu belə olmuşdur. Onlar heç bir vaxt imamətə imamın gözü ilə baxmamışdılar. Onlar elə Həzrət Peyğəmbərin (s) nübüvvətinə də siyasət gözü ilə baxırdılar və Həzrət Peyğəmbərə (s) siyasi iman gətirmişdilər. Bunu onların əməllərində də açıq-aydın görmək olar.

**İkinci nümunə**

Siffeyn müharibəsi Fərat çayının qollarının birinin sahilində baş vermişdi. Həzrət Əlinin (ə) qoşunu Siffeynə çatan zaman gördülər ki, Müaviyənin qoşunu Şəriəni[1] artıq zəbt etmişdir. Həzrət Əli (ə) bir nəfəri Müaviyənin yanına göndərdi və ona dedi ki, mənim adımdan Müaviyəyə belə de: “Biz sizinlə müzakirə aparmaq üçün buraya gəlmişik. Hələ müharibə başlamayıb. Ola bilər ki, bu məsələ elə müzakirə yolu ilə də həll olunsun. Nəyə görə suyun yolunu bağlamısınız?! Suyu müsəlmanların üzünə bağlamağınızın mənası nədir?! Suyun yolunu açın!”

Müaviyə bu sözə qulaq asmadı. Həzrət Əli (ə) əmr etdi və qoşun hücum edib Şəriəni ələ keçirdilər. Həzrət Əlinin (ə) səhabələrindən bir neçəsi Şəriəni Müaviyənin qoşununun üzünə bağlamağı məsləhət gördülər. Həzrət (ə) onların cavabında buyurdu:

---

[1] Su götürmək üçün düzəldilmiş yol.

–Mən heç bir vaxt bu işi görmərəm. Allah suyu həm möminlər, həm müsəlmanlar və həm də kafirlər üçün xəlq etmişdir. Onun yolunu bağlamaq insaniyyətdən, mürüvvətdən, kişilikdən və İslamiyyətdən uzaqdır. Bu haqqı onların əlindən almağa mənim ixtiyarım yoxdur.

Həzrət Əli (ə) suyun yolunu bağlamaqla onları məğlub edə bilərdi. Amma Həzrət (ə) haram bir vasitə ilə qələbə əldə etmək istəmirdi. Hətta Həzrət Əli (ə) müqəddəs hədəfinə çatmaq üçün heç bir pis əməldən belə istifadə etməyi qəbul etmirdi. Həzrət (ə) tarix kitablarında "Əli bir dəqiqə olsa da belə suyun yolunu bağladı" cümləsinin yazılmasını istəmirdi.

Həzrət Əli (ə) bununla demək istəyirdi ki, onlar nuraniyyətin yolunu bağlayıb, mən isə deyirəm ki, açın! Onlar cənnətin yolunu bağlayıb, mən isə deyirəm ki, açın! Onlar camaatı cəhənnəmə aparmaq istəyirlər, mən isə deyirəm ki, qoy insanlar cənnətə getsinlər. Mənim bu insanları cənnətə haram yollarla aparmağım mümkün deyil.

**Üçüncü nümunə**

Yenə də Siffeyn müharibəsində Həzrət Əli (ə) Müaviyəyə dedi: "Nəyə görə bu qədər müsəlmanı qırğına verirsən. Gəl, ikimiz döyüşək, bununla da iş bitsin."

Müaviyə razı olmadı. Əmr As dedi:

–Əli (ə) düz deyir, pis təklif deyil. Sən də çox şücaətlisən.

Müaviyə Əmr Asdan şübhələndi. Elə başa düşdü ki, Əmr As onun ölməyini istəyir. Döyüş qızışandan sonra Müaviyə Əmr Ası döyüş meydanına göndərdi. Əmr As Həzrət Əli (ə) ilə üzbəüz gəlməmək şərtilə döyüş meydanına getməyi qəbul etdi. Əmr As əlinə silah alıb döyüş meydanına gələrək döyüşmək üçün döyüşçü tələb etdi. O, rəcəz oxuyaraq deyirdi:

يا قَادةَ الْكُوفَةِ مِن اَهلِ الْفِتن    يا قَاِتلي عثْمانَ خير الْمؤتمن

يا اَيها الْأشراف مِن اَهلِ الْيمن    اَضرِبكُم و لا أُرائ أَبا الْحسن

–Ey Kufənin fitnə törədən adamları. Ey Osmanın qatilləri. Ey Yəmənin böyükləri. Əbülhəsəndən başqa hamınızla döyüşməyə hazıram.

Əmr As bu rəcəzi oxuya-oxuya meydana daxil oldu. Ətrafına baxırdı ki, kaş, Əli (ə) gəlməsin. Həzrət Əli (ə) uzaqdan bu hadisəni müşahidə edirdi. Yavaş-yavaş irəli gəldi. Əmr As gələn şəxsin Həzrət Əli (ə) olduğunu bilmirdi. Həzrət (ə) də ona yaxınlaşan kimi buyurdu:

–Qureyşin imamı Əli ibn Əbitalib mənəm.

Əmr As vəziyyəti belə görüb özünü itirdi. Dönüb qaçmaq istəyəndə Həzrət Əli (ə) qılıncla onu vurub atdan yerə saldı. Əmr As öləcəyini başa düşüb tez libaslarını soyundu və eyib yerlərini açıb göstərdi. Həzrət Əli (ə) bu səhnəni gördükdən sonra tez üzünü çevirib geri qayıtdı.

Əmr As haram bir iş tutmuşdu. Həzrət Əli (ə) onu öldürə də bilərdi, amma onu öldürmədi. Müaviyə isə ölənə qədər Əmr Asla zarafat edərək həmişə ona deyərdi ki, ayıb yerlərin sənin canını qurtardı. Səndən başqa dünyada heç kim öz ayıb yerlərindən kömək istəməmişdir.

Bu günləri dünya siyasətçilərinin 99%-i öz məqsədlərinə çatmaq üçün yalanlardan, böhtanlardan, kimlərinsə cibinə nələrsə atmaqdan və s. kimi haram vasitələrdən istifadə edirlər. Dövlətlərin qüdrətləri artdıqca onların yalanları da bir o qədər böyüyür. Bu gün dünyanın hər bir yerində hədəfə çatmaq üçün hər bir vasitədən istifadə edənlər Əmr Asın ardıcıllarıdır.

Həzrət Əlinin (ə) yerinə hər kim olsaydı, bir qılınc zərbəsiylə Əmr Ası vurub öldürərdi. Amma o həzrət bunu etmədi və hətta Əmr As kimi bir insanı öldürmək üçün haqq yoldan dönmədi. Həzrət Əli (ə) düşmənlə üzbəüz gələrkən əxlaqi dəyərlərdən kənar əməllərə də yol verməzdi. Çünki əgər bunu etsəydi, cəmiyyətdə insanlar arasındakı bir-birinə olan inam və etibar da itərdi. İslam dini isə cəmiyyətdə

insanlar arasındakı münasibətlərdə bir-birinə qarşı inamı və etibarı yaratmaq üçün gəlmişdir. İnsanlar arasında inam gərək heç bir vaxt itməsin. Odur ki, hər kim bu inamın itməsi üçün hər hansı bir addım atırsa, deməli, o, yaşadığı cəmiyyətə xəyanət etmişdir.

Bu da Kərbəlanın, nübüvvətin, imamətin və dinin mənası deməkdir.

**Dördüncü nümunə: Həzrət Əli (ə) və beytülmal**

İbn Əbil Hədid yazır: "Osmanın qətlindən sonra camaat Həzrət Əliyə (ə) beyət etmək istəyəndə Həzrət (ə) buyurdu:

–Mənlə işiniz olmasın... Mən əqidəmdən dönən insan deyiləm. Mənim hökmdar olmağım sizə sərf etməz.

Həzrət Əli (ə) bunları deməklə höccəti tamamladı. Qəbilə başçıları isə qəbul etmədilər. İkinci gün o həzrəti məscidə apardılar. Həzrət Əli (ə) minbərə çıxıb açıq-aşkar şəkildə buyurdu: "And olsun Allaha! Allah bilir ki, mən bu hakimiyyətə qüdrət əldə etmək məqsədilə gəlməmişəm. Mən sizin təkidinizlə xilafəti qəbul etdim, amma qəlbimdə zərrə qədər belə bu hakimiyyətə məhəbbətim yoxdur. İslam Peyğəmbərinin (s) belə dediyini eşitmişəm: "Məndən sonra hakimiyyəti əldə edən hər bir şəxsi qiyamət günü sirat körpüsünün üstündə saxlayacaqlar. Mələklər onun əməl dəftərinə baxacaqlar. Əgər camaatla ədalətlə rəftar etmişdirsə, nicat tapacaqdır. Əks halda sirat körpüsü silkələnəcək və onu cəhənnəmin dibinə atacaqlar."

Sonra sağ və sol tərəfə baxıb ətrafındakıları nəzərdən keçirtdi və buyurdu: "Dünya malında qərq olanlar ən yaxşı mülkləri, arxları, atları və kənizləri özləri üçün götürüblər. Əgər sabah onların hamısını əllərindən alıb beytülmala qatsam və onlara öz haqları çatdığı qədər versəm, o zaman deməyin ki, Əli bizi aldatdı. Dünən bir söz deyirdi, bu gün isə başqa bir söz deyir və başqa cür əməl edir."

Burada bir məqamı xatırlatmağı zəruri hesab edirəm. Mərhum İmam Xomeyni parlament seçkilərində iştirak edən namizədlərə deyərdi ki, imkanınız çatdığı qədər söz verin. İmkanınız çatmadığı şeylər barəsində isə söz verməyin.

Beləcə, Həzrət Əli (ə) söhbəti qurtarandan sonra məclisdə iştirak edən və özlərini seçilmiş hesab edənlər dedilər: "Biz Həzrət Peyğəmbərə (s) yaxın olmuşuq (dostluq etmişik) və İslam yolunda çoxlu zəhmətlər çəkmişik. Elə bu səbəbdən də biz başqalarından fərqlənməliyik və beytülmaldan bizə çox çatmalıdır."

Həzrət Əli (ə) onların cavabında buyurdu: "Mən sizin çəkdiyiniz zəhmətləri inkar etmirəm. Onların əcrini Allah-taala verəcəkdir. Amma bu faktlar sizlə başqaları arasında fərq qoymağa səbəb ola bilməz.

Sabahısı gün onlar toplaşıb məsləhətləşdilər və sonda bir nəfəri (Vəlid ibn Ütbəni) nümayəndə olaraq Həzrət Əlinin (ə) yanına göndərdilər. O, İmam Əlinin (ə) yanına gələrək minnət qoymaq məqsədilə dedi:

–Sən yaxşı bilirsən ki, bizim səndən xoşumuz gəlmir. Çünki döyüşlərdə sənin əlinlə bizim əzizlərimiz öldürülmüşdür. Amma biz buna göz yumuruq və sənə iki şərtlə beyət edirik.

Birinci şərtimiz budur ki, keçmişlə işin olmasın, bundan sonra hər nə istəyirsənsə elə. (Yəni bizim beytülmaldan artıq götürdüyümüz malları əlimizdən alma.)

İkinci şərtimiz budur ki, Osmanın qatillərini tutub bizə təhvil ver və biz onları cəzalandıraq. Əgər bu şərtləri qəbul etməsən, Şama gedib Müaviyəyə qoşulacağıq.

Həzrət Əli (ə) onun cavabında buyurdu:

–Əvvəla, sizin əzizlərinizi öldürdüyüm üçün buna göz yumub mənə beyət etməklə mənə minnət qoymayın. Bu qanlar şəxsi kin-küdurətə görə tökülməmişdir. Bu döyüş əqidə uğrunda olan bir döyüş idi. Biz haqq naminə döyüşürdük, siz

isə batil uğrunda döyüşürdünüz. Siz Həzrət Peyğəmbəri (s) öldürmək üçün gəlmişdiniz, biz isə onu müdafiə edirdik. Haqq batilə qalib gəldi. Siz öz ölənlərinizin qan bahasını gedin haqdan (Allahdan) tələb edin.

Amma birinci şərtinizə cavab olaraq deməliyəm ki, siz keçmişlə işimin olmamasını istəyirsiniz. Bu, mənim ixtiyarımda deyil və həmin vəzifəni Allah-taala mənim öhdəmə qoymuşdur.

İkinci şərtinizin cavabı budur ki, əgər Osmanın qatillərinin kim olduğunu bilsəydim, elə dünən özüm onlardan qisas alardım. Sizə niyə təhvil verməliyəm?! Bu, mənim vəzifəmdir.

Vəlid dostlarının yanına qayıdıb İmamın (ə) sözlərini onlara çatdırdı. Onlar da öz müxalifətçiliklərini açıq-aşkar elan etdilər.

**Həzrət Əlinin (ə) dostlarının ondan istəkləri**

Həzrət Əlinin (ə) səhabələrindən bəziləri bir qrup insanın toplaşaraq camaatı onun əleyhinə qaldırmaq istəklərindən xəbərdar olduqda o həzrətin yanına gəlib dedilər:

–Bunların toplaşaraq camaatı sənin əleyhinə təhrik etmələrinin əsas səbəbi sənin haqq-ədaləti və insanlar arasında bərabərliyi bərqərar etmək istəyindir. Onların hətta Osmanın qatillərini tələb etmələri də bəhanədən savayı başqa bir şey deyil. Bu bəhanə ilə avam camaatı sənin əleyhinə qiyam etməyə təhrik edirlər. Onların əsas istəyi isə yalnız beytülmaldan başqaları ilə müqayisədə bir qədər çox var-dövlət götürmək istəyidir. Təklif edirik ki, beytülmalı bölüşdürmək məsələsində bərabərliyə riayət etmək fikrindən əl çək. Əgər onlar beytülmaldan bir qədər çox var-dövlət götürsələr, o zaman nə Osmanın qatillərini tələb edəcəklər və nə də səninlə bir işləri olacaqdır.

Həzrət Əli (ə) həm səhabələrini və həm də müxalifətçilik edənləri Mədinə məscidinə dəvət etdi və orada gözəl bir

xütbə oxudu. Həzrət Əlini (ə) tanımaq istəyən hər bir şəxs gərək bu xütbəni oxusun. Həzrət Əli (ə) həmd-sənadan sonra buyurdu:

–Allah yanında camaatın ən fəzilətlisi o şəxsdir ki:

1. Allaha ən yaxşı ibadət etsin;

2. Həzrət Peyğəmbərin (s) sünnəsinə hamıdan çox itaət etsin;

3. Allahın kitabına (Qurana) hamıdan çox əməl etsin.

Biz hamımız bilirik ki, İslam Peyğəmbərinin (s) sünnəsindən biri də beytülmalın bölüşdürülməsində haqq-ədalətə və bərabərliyə riayət etmək idi. Sonra Həzrət (ə) bu ayəni oxudu:

إِنا خلَقْناكُم من ذَكَرٍ وأُنثَى وجعلْناكُم شعوبا وقَبائِلَ لِتعارفُوا إِن أَكْرمكُم عِند اللهِ أَتقَاكُم

–Biz sizin hamınızı bir kişi və qadından (Adəm ilə Həvvadan) yaratdıq (və ya sizin hər birinizi bir ata və anadan yaratdıq) və sizi bir-birinizi tanıyasınız deyə böyük və kiçik qəbilələr etdik. (Odur ki, sizin aranızda irqi üstünlük yoxdur.) Həqiqətən, sizin Allah yanında ən hörmətliniz ən pəhrizkar olanınızdır.[1]

Həzrət (ə) bu ayəni oxumaqla insanlardan birinin-digərindən üstün olması fikrində olanların düşüncəsinin batil olduğunu bəyan etdi.

Daha sonra Həzrət Əli (ə) onlardan soruşdu: “İslam Peyğəmbəri (s) beytülmalı bölüşdürəndə bərabər bölərdi, yoxsa birinə başqasından daha artıq verərdi?!”

Hamı susdu və bu suala cavab verən olmadı.

Həzrət Əli (ə) buyurdu: “İslamda başqaları ilə müqayisədə xüsusi zəhməti olan şəxslərə beytülmaldan daha çox mal-dövlət vermək lazımdır”, – fikri Həzrət Peyğəmbərin (s)

---

[1] Hucurat surəsi, 13-cü ayə.

vəfatından sonra meydana çıxdı. Allah yanında ən üstün Həzrət Peyğəmbərin (s) sünnəsinə əməl edən deyilmi?”

Dedilər: “Bəli.”

Həzrət (ə) buyurdu: “Mən də Həzrət Peyğəmbərin (s) sünnəsinə əməl edirəm.”

**Beşinci nümunə: Həzrət Əlinin (ə) beytülmal haqda başqa bir kəlamı**

Əbu Müxnəf Əzdi deyir: “Həzrətin (ə) dostlarından bir qrupu onun yanına gələrək dedilər:

–Yaxşı olar ki, beytülmalı qəbilə başçılarının arasında böləsən və onları bizlərdən üstün hesab edəsən. İşlər sahmana düşəndə isə beytülmalı bölmək məsələsində haqq-ədalət və bərabərçilik prinsipinə riayət etmək istəyini həyata keçirərsən.

Həzrət Əli (ə) onların cavabında buyurdu:

أ تأمروني أنْ أطْلُب النصر بِالْجور فِيمن وليت عليهِ؟ و اللهِ لا أطُور بِهِ سمر سمِير و ما أم نجم فِي السماءِ نجماً. و لو كانَ الْمالُ لِي لَسويت بينهم فَكيف و إِنما الْمالُ مالُ اللهِ!

–Rəhbər olduğum kimsəyə zülm, sitəm edilməsində yardımçı olmağımı əmr edirsiniz? Allaha and olsun, nə qədər ki, müxtəlif zəmanələrdə gecə gündüzə, səmadakı bir ulduz (cazibə qüvvəsinin nəticəsində) başqa bir ulduza doğru gedir, heç vaxt belə bir iş görmərəm.

Beytülmal mənim şəxsi malım olsaydı da belə yenə də onu müsəlmanlar arasında bərabər bölərdim. O, Allahın malı olduğu halda bunu necə etməyə bilərəm?[1]

Həzrət (ə) bununla da demək istəyirdi ki, siz mənim zülmkar hökmdar olmağımı istəyirsiniz? Məgər Həzrət Peyğəmbər (s) ədalətli deyildimi?! Məgər siz demirsinizmi

[1] Nəhcül-bəlağə, 126-cı xütbə.

ki, Həzrət Peyğəmbərin (s) sünnəsi icra olunmalıdır?! Amma məqsədə çatmaq üçün mənə zülmdən istifadə etməyi təklif edirsiniz?! And olsun Allaha, mən bunu heç bir vaxt etmərəm!

Yaşadığımız çağdaş zəmanəmizdə heç görmüsünüzmü ki, dünyanın hansısa bir rəhbəri "ədalətin pis və zülmün yaxşı" olduğunu söyləmiş olsun? Əksinə, hər bir kəs deyir ki, "zülm pis, ədalət isə yaxşıdır." Heç kəs özünü zalım, zülmkar hesab etmir. Hamı özünü ədalətli hesab edir.

Həzrət Əlinin (ə) "أَ تأمروني أنْ أطْلُب النصر بِالْجورِ فيمن وليت علَيهِ؟" – "Rəhbəri olduğum kimsəyə zülm, sitəm edilməsində yardımçı olmağımı əmr edirsiniz?" – deyə söylədiyi bu kəlam qızıl suyu ilə yazılmalı kəlamlardandır.

Həzrət Əlinin (ə) davranışı və rəftarı belə idi. Odur ki, Həzrət Əlini (ə) öldürə bilərsiniz, amma Əlini (ə) öldürməklə ədaləti öldürə bilməzsiniz.

*Bəşər ki eşqilə tapdı şərafət ölməyəcək,*
*Ölən bədəndi, şərəf ta qiyamət ölməyəcək.*

*Bütün cəhanə əgər adəm oğlu od vursa,*
*Xiyali xam eləyib, adəmiyyət ölməyəcək.*

*Hezar hiylə edəmməz çirağı həqqi xamuş,*
*Hezar darə çəkilsə ədalət ölməyəcək.*

*Deyirdi bir kişi boynun vuran zaman cəllad,*
*Mən ölləm ay oğul, amma həqiqət ölməyəcək.*

*Əgərçi on bir imami rəyasət öldürdü,*
*Hənuz zindədi, amma imamət ölməyəcək.*

*Bu nöqtələr ki, sənə hatif öyrədir Şahi,*
*Hüseynə and ola hikmətdi, hikmət ölməyəcək.*

*Hüseynə ağlamağın bilsə ləzzətin hər kim,*
*Bəşarət əhlidir, əhli-bəşarət ölməyəcək.*

## İMAM HÜSEYN (Ə) VƏ VASİTƏDƏN İSTİFADƏ ETMƏ ÜSLUBU

Bəni-Üməyyə xəlifələri, xüsusilə Müaviyə hakimiyyəti əldə etmək (təki mənə müsəlmanların xəlifəsi desinlər) üçün hər hansı bir vasitədən olsa da belə istifadə etməyə hazır idilər. Onlar halal və haramı, müsbət və ya mənfi əməlləri, eləcə də bu əməllərin İslam əxlaqına zidd olub-olmamasını boş sözlər kimi qəbul edirdilər.

Onların qarşısında dayanan İslam Peyğəmbəri (s) və onun pak Əhli-beyti (ə) isə bu düşüncənin tamamilə səhv və yanlış olduğunu buyurmuşlar. Onlar müqəddəs hədəfə çatmaq üçün çirkin və müqəddəs olmayan vasitələrdən istifadə edilməsini qəbul etmirlər.

Yuxarıda bu mövzu ilə bağlı İslam Peyğəmbərinin (s) və Həzrət Əlinin (ə) davranışlarından bir neçə nümunəni əziz oxucuların diqqətinə çatdırdıq. İndi isə bu mövzuya dair İmam Hüseynin (ə) davranışından bir neçə nümunəni diqqətinizə çatdırmaq istəyərdik.

İmam Hüseyn (ə) Allahın höccəti, Onun Əhli-beytindən (ə) biri və məsum imamdır. O, İslam Peyğəmbərindən (s) dərs almışdır və Allahın Rəsulunun (s) sünnəsinə əməl edirdi. Həzrət Hüseynin (ə) əqidəsi eynilə Həzrət Peyğəmbərin (s) və İmam Əlinin (ə) əqidəsiydi.

Onların hamısı bir nurdan təşəkkül tapmışdılar. Yəni İslam Peyğəmbəri (s) peyğəmbərliyə seçilən gündən İmam Həsən Əskəri (ə) dünyasını dəyişənədək[1] bütün məsumlar (Həzrət Peyğəmbər (s) və 11 imam sanki bu dövrdə (250 ildə) sanki bir nəfər kimi yaşamışlar. Yəni əgər İmam Həsən (ə) İmam Hüseynin (ə) dövründə yaşasaydı, o da şəhid olacaqdı və yaxud əgər İmam Sadiq (ə) İmam Əlinin (ə) yaşadığı dövrdə yaşasaydı, Həzrət Əlinin (ə) gördüyü işləri görərdi.

[1] Təxminən 250 illik bir dövrü əhatə edir.

Əlbəttə, hər bir insanın özünəməxsus fərdi xüsusiyyətlərə malik olduğunu da burada unutmaq olmaz.

İmam Hüseyn (ə) üçün ölmək və ya sağ qalmaq mühüm deyildi, əsas o idi ki, İslam dini bərqərar olsun, əbədi olaraq mövcud olsun. Və İslam dininin bütün dəyərləri, habelə onunla sıx bağlı olan əxlaqi dəyərlər həmişə qorunub saxlanılsın. O həzrət üçün Mədinədə və Məkkədə olmaq, yaxud Mədinə ilə Məkkə arasında olmaq və ya Məkkə ilə Kərbəla arasında olmaq mühüm əhəmiyyət kəsb etmirdi. Fərqi yox idi ki, qardaşı İmam Həsənin (ə) dönəmində, yaxud atası Həzrət Əlinin (ə) dönəmində yaşasın. Onun harada olması, hansı dövrdə yaşaması mühüm deyildi, əsas o idi ki, İslam dini və İslam dininin dəyərləri əbədiyyət qazansın. İslam dininin yaşamasında məqsəd isə bundan ibarət idi ki, həm İslamın əqidəsi, həm İslamın hökmləri və həm də İslam əxlaqı cəmiyyətdə mövcud olsun. Yəni İslamın hətta hər hansı bir kiçik müstəhəb və ya məkruh əməlinin belə təhlükəyə düşməsini istəmirdi. İmam Hüseyn (ə) belə bir yolda onun və övladlarının başına nələr gələ biləcəyi onu narahat etmirdi.

*Əkbər başı münşəqq olur olsun nə işim var,*
*Dilsiz balam əmsin oxu püstan əvəzində.*

*Ey kaş yüz on dörd ola oğlum mənim Allah,*
*Qurban verəm hər sureyi Quran əvəzində.*

*Güldən də gözəl güllərimin rəngi saralsın,*
*Olsun güli İslam şükufan əvəzində.*

İslam dini yaşamalıdırsa, deməli onun hökmləri də yaşamalıdır. İslam dinini şəriət hökmləri olmadan təsəvvür etmək mümkün deyil. Şəriət hökmləri olmadan İslam yalnız onun düşmənlərinə sərf edən bir din ola bilər. Yəni İslamın namazı, orucu, hicabı ilə işin olmasın, sadəcə olaraq "mən

müsəlmanam” de və vəssalam. İslam Peyğəmbəri (s) buyurmuşdur:[1]

سيأتي على الناس زمانٌ لا يبقى من الإسلام إلا اسمه، و من القرآن إلا درسه، مساجدهم يومئذٍ عامرةٌ من البناء و خراب من الهدي سكّانها و عمارها شر أهل الأرض

–Camaat elə bir dövrə gəlib çıxar ki, İslamdan yalnız quru bir ad qalar. Qurandan yalnız dərslik kimi istifadə edərlər. Həmin dövrdə gözəl məscidlər inşa edərlər, amma onlar hidayət baxımından bərbad olar. Orada əyləşənlər və onu tikənlər isə yer üzünün ən pis insanları olarlar.

İslam, yəni İslamın hökmləri, əxlaqı və müqəddəs hədəfə müqəddəs yollarla getmək deməkdir.

İmam Hüseyn (ə) zilhiccə ayının 8-i Kəbədən çıxıb öz qurbanlarını kəsmək üçün Kərbəlaya getdi. Hacılar Minada qurban kəsməyə getdikləri zaman İmam Hüseyn (ə) Əliəkbərin, Əbülfəzlin, Ovnun, Cəfərin, Qasımın, südəmər körpəsinin və Həzrət Peyğəmbərin (s) səhabələrinin əllərindən tutub qanlı Minaya aparırdı.

Burada bir məqama xüsusilə toxunmaq gərəkdir ki, “min dörd yüz il bundan qabaq iki ərəb bir-biri ilə müharibə edib. Bu, mənim nəyimə lazımdır”, – deyənlərin İslamdan, ümumiyyətlə, xəbərləri yoxdur və bu cür insanların müsəlmançılıqda heç bir haqları yoxdur. Çünki İslamı bizlərə çatdıranlar da məhz ərəblər olublar. Onu da qeyd etməliyik ki, bu müharibə iki ərəbin müharibəsi deyil, bu, imanla küfrün müharibəsidir. Bu müharibədə qarşı-qarşıya dayanan iki qrupdan biri İslamın yalnız adının qalmasını istəyirdisə, digər tərəf isə İslamın həqiqətlərinin mövcudluğunu istəyirdi.

---

[1] Bu hədis Həzrət Əlidən (ə) də nəql olunmuşdur.

# Nümunələr

**Birinci nümunə:**

**Döyüşə ilk başlamamaq (Kufə yolunda)**

Hürr ibn Yezid Riyahinin ordusu və İmam Hüseynin (ə) başçılıq etdiyi karvan Kufə şəhərinə tərəf hərəkət edirdilər. Übeydullah ibn Ziyadın məktubu yetişəndən sonra hər iki dəstə artıq Neynəvaya gəlib çatmışdılar. Übeydullah məktubda yazmışdı:

جعجع بالحسين حين تقرأ كتابي و لا تنزله الّا بالعراء علي غير ماءٍ و غير حصن

–Mənim məktubumu Hüseynə oxu. Onu su və ot olmayan, qalasız dar bir yerdə[1] saxla.

Hürr məktubu İmam Hüseynə (ə) oxudu. İmam Hüseyn (ə) buyurdu:

–Elə isə icazə ver biz Neynəvada atlarımızdan enək.

Hürr dedi: "Mənim buna ixtiyarım çatmır. Burada qərarı mən vermirəm. Məktubu gətirən casusdur, burada gördüklərini gedib İbn Ziyada çatdıracaq."

Züheyr ibn Qeyn[2] İmam Hüseynin (ə) yanına gəlib belə bir təklif etdi ki, burada bu azsaylı dəstə ilə döyüşmək çox

---

[1] Yəni daldalanmaq üçün heç bir şəraitləri olmasın.

[2] Züheyr ibn Qeyn Məkkədən çıxdıqdan sonra İmam Hüseynin (ə) karvanından bir az geridə hərəkət edirdi. Züheyr o həzrətlə görüşmək istəmirdi. Nəhayət, məntəqələrin birində məcbur qalıb İmam Hüseynin (ə) dayandığı yerdə dayandı və çadırını da İmam Hüseynin (ə) çadırından bir qədər aralıda qurdu. İmam Hüseyn (ə) Züheyrin yanına bir nəfəri göndərib onunla görüşmək istədiyini çatdırdı. İmamın (ə) elçisi Züheyrin yanına gəlib dedi: "Ey Züheyr ibn Qeyn, İmam Hüseyn (ə) səni öz yanına dəvət etmək üçün məni bura göndərdi."

Bu sözü eşidəndə Züheyrin əlindəki tikə yerə düşdü və fikrə qərq oldu. Sonra Züheyr qalxıb İmam Hüseynin (ə) yanına getdi və salam verib o həzrətin yanında əyləşdi. İmam Hüseyn (ə) onun qulağına bir söz söylədi, ancaq ona nə söylədiyini heç bir kəs bilmədi. Sonra Züheyr sevinc dolu hisslərlə İmam Hüseynin (ə) yanından çıxıb geri qayıtdı. Züheyr öz əyalına

asan olacaq. Siz əgər icazə versəniz, bunların sayı çoxalmamış işlərini bitirək. Bununla da hər şey bitər.

İmam Hüseyn (ə) onun cavabında buyurdu:

ما كُنت ِلأبدَءهم ِبالْقِتال

–Mən ilk olaraq döyüşə başlamayacağam.

İmam Hüseyn (ə) demək istəyirdi ki, bunları öldürməkdə məqsədimiz nədir? Əgər məqsədimiz İslam dininin qorunub saxlanılmasıdırsa, elə həmin İslam dininin təlimləri bizə deyir ki, döyüşü ilk olaraq başlama. İslam dininin dirçəlməsini istəyirsənsə, onda gərək ilk olaraq döyüşə başlamayasan. Biz İslamın qanunlarına riayət etdiyimiz üçün qalibik. İslamın qanunlarına riayət etdiyim üçün məni öldürürlərsə, bu artıq məni maraqlandırmır.

Daha sonra İmam (ə) üzünü Hürrə tutub buyurdu :

–Yaxşı olar ki, bir az hərəkət edək və münasib bir yerdə düşərgə salarıq.

Hürr razılıq verdi. Onlar Kərbəla torpağına çatanda Hürr bu yerin Fərat çayına yaxın olduğunu bildiyindən İmam Hüseynin (ə) irəli getməsinin qarşısını aldı.

İmam Hüseyn (ə) həmin diyarın adını soruşduqda “Buraya Təff deyirlər”, – deyə cavab verdilər. İmam (ə) bir daha soruşdu: “Buranın başqa bir adı varmı?” Ona “Bu yerə Kərbəla da deyirlər”, – deyə cavab verdilər. Həzrət (ə) “Kərbəla” sözünü eşidən kimi buyurdu:

أللهم أعوذُ ِبك ِمن الْكَربِ و الْبلا هيهنا محط ِرجالنا و هيهنا و اللهِ محلُ قُبورنا و هيهنا و اللهِ محشرنا و منشرنا و ِبهذا و عدني جدي رسولَ الله (ص) و لا خِلاف ِلوعده.

---

dedi: “Mən sənin təlağını verirəm, çünki sənə zəhmət vermək istəmirəm”. Ondan sonra Züheyr öz dostlarına dedi: “Mənim taleyim dəyişdi. Hər kəs mənimlə getmək istəyirsə, gəlsin, əgər getmək istəmirsə bilsin ki, bu, bizim axırıncı görüşümüzdür.” Züheyr bütün bunları deyib İmam Hüseynə (ə) qoşuldu.

–İlahi, Sənə bəlalardan və qəmlərdən pənah aparıram. Bu yer "kərb" və "bəla" diyarıdır. Atlardan düşün, and olsun Allaha, bura qanlarımızın axan yeri və məzarlarımızın məkanıdır. And olsun Allaha, bura bizim məhşərə qalxıb gedən yerimizdir. Cəddim Rəsulallah (s) bu xəbəri mənə vermişdi. Onun vədəsində heç bir vaxt xilaf (yalan) ola bilməz.

**İkinci nümunə: Döyüşə ilk başlamamaq (Aşura günü)**

İmam Hüseyn (ə) aşura günü sübh namazını camaatla birgə qıldı. Yer üzünün ən şərafətli camaatı ona iqtida edib camaat namazını qıldılar. Hər bir möminin arzusudur ki, yüz dəfə ölüb dirilsin, amma aşura günü İmam Hüseynlə (ə) birgə iki rükət sübh namazı qılsın. Bu iki rükət namazın eşqi hər bir şeydən fəzilətlidir.

"Mən müsəlmanam", – deyən, amma namaz qılmayan bir müsəlmanı anlamaq mümkün deyildir. Bu sözü deyən bir adam, görəsən, dediklərini dərk edirmi?! Necə ola bilər ki, insan Allahın, Peyğəmbərin (s) haqq olduğunu qəbul edir, amma namaz qılmır. Bütün nemətlərin – göz, qulaq, bədən və s.-in Allah-taala tərəfindən verildiyini bilir, amma təşəkkür, minnətdarlıq olaraq namaz qılmır.

Bəziləri "Allaha qurban olum" və s. kimi fikirləri dilə gətirməklə təşəkkür etdiklərini sanırlar. Lakin hər bir şeyin özünə uyğun təşəkkür forması və özünəməxsus ehtiram forması vardır. Məsələn, əsgər generalı görəndə ona özünəməxsus qaydada ehtiram göstərir. Amma bir müctəhidi görəndə isə ona tamamilə başqa cür ehtiram bəsləyirlər. Allah-taala buyurur ki, mənə ehtiramın namazdır. Quranda bu haqda buyurulur:

إِنا أعطيناك الْكوثَر. فَصل لربك...

–(Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə Kövsər əta etdik. Odur ki, şükranlıq üçün Rəbbinə namaz qıl...[1]

Qiyamət günü ən çətin anları namaz qılmayanlar yaşayacaqlar. Namaz qılmayanlar haqda Allah-taala “Muddəssir” surəsində belə buyurur:

فِي جناتٍ يتساءلُونَ. عنِ الْمجرِمين. ما سلَكَكُم فِي سقَر. قَالُوا لَم نك مِن الْمصلين. ولَم نك نطْعِم الْمِسكِين. وكُنا نخوض مع الْخائِضِين. وكُنا نكَذب بِيومِ الدينِ. حتى أتانا الْيقِين. فَما تنفَعهم شفَاعةُ الشافِعِين.

–Onlar cənnətlərdə və bağlar içində olarlar; bir-birilərindən soruşarlar. Günahkarların halını. “Sizi cəhənnəmə daxil edən nədir?” Deyərlər: “Biz namaz qılanlardan deyildik. Fəqirə və yoxsula təam verməzdik. Batil əhli ilə birlikdə (bihudə işlərə və söhbətlərə) dalardıq. Cəza gününü təkzib və inkar edərdik. Ölüm bizi yaxalayana qədər.” Şəfaət edənlərin şəfaəti onlara heç bir fayda verməyəcəkdir.[2]

Deyərlər: “Hər gün üç dəfə azan verilərək Allah tərəfindən mənə xəbərdarlıq edilirdi. Sübh olanda namaz qılmadan qalxıb iş dalınca gedirdim. Günorta olanda azanı eşidirdim, amma yerimdə əyləşirdim. Axşam da azanı eşidirdim, lakin ona cavab vermirdim. Belə bir hal ölüm anı gəlib çatana qədər davam etdi. Cənab Əzrayılı (ə) görən kimi anladım ki, bunların hamısı haqq imiş.

İmam Hüseyn (ə) sübh namazını camaatla birgə qıldı. Gördülər ki, Şimr ibn Zilcövşən vəziyyəti öyrənmək və casusluq niyyəti ilə çadırların arxasına keçdi. İmam Hüseyn (ə) əvvəlcədən düşmənin rahat hücum etməməsi üçün göstəriş vermişdi ki, çadırları yarımdairə şəklində və bir-birinə yaxın vəziyyətdə qursunlar, həmçinin çadırların arxalarında isə

[1] Kövsər surəsi, 1-2-ci ayələr.
[2] Muddəssir surəsi, 40-48-ci ayələr.

xəndək qazıb çör-çöplə doldursunlar. Lazım gəldiyi təqdirdə onların yandırılmasını nəzərdə tuturdular.

Şimr bu vəziyyəti görüb çox narahat oldu və nalayiq sözlər deməyə başladı. Həzrətin (ə) səhabələri Şimrin bu sözlərini eşidirdilər. Odur ki, səhabələrdən biri nalayiq sözlər işlətmədən onun cavabını verdi. Sonra isə İmamın (ə) yanına gəlib dedi:

–Ey Əba Əbdillah, icazə ver, bir oxla onun işini bitirim.

Həzrət (ə) icazə vermədi. O, elə bildi ki, Həzrət İmam Hüseyn (ə) Şimri tanımır. Elə bu səbəbdən dedi:

–Mən bunu yaxşı tanıyıram. Çox rəhmsiz və zalım adamdır.

Həzrət (ə) onun cavabında buyurdu:

–Biliram. Mən də onu yaxşı tanıyıram. Amma mən ilk olaraq müharibəni başlamaq istəmirəm. Onlar döyüşə başlamayınca mən döyüşə başlamayacağam. Onlar döyüşə başlayandan sonra biz özümüzü müdafiə edəcəyik.

Sonra Həzrət İmam Hüseyn (ə) aşağıdakı ayəni oxudu:

الشهر الْحرام ِبالشهر الْحرامِ والْحرمات ِقصاص فَمن اعتدى علَيكُم
فَاعتدواْ عليهِ بِمثْل ما اعتدى علَيكُم

–Haram ay[1] haram ay müqabilindədir. (Hərəm, Məscidül-Həram və möminin canı, namus və şərəfi kimi) bütün möhtərəmlərin (qarşılıqlı) qisası vardır. Buna görə də kim sizə qarşı həddini aşsa (və ehtiramı pozsa), siz də onun kimi ona qarşı həddi aşın.[2]

Quranın bu ayəsinə əməl etmək İmam Hüseyn (ə) üçün çox böyük əhəmiyyət kəsb edirdi. Amma Həzrətin (ə)

---

[1] Rəcəb, zilqədə, zilhiccə və məhərrəm ayları haram aylardır və bu aylarda müharibə etmək və vuruşmaq olmaz. Amma əgər kimsə bu ayların ehtiramını pozub müharibəyə başlasa, onunla elə həmin haram ayda vuruşmaq lazımdır.

[2] Bəqərə surəsi, 194-cü ayə.

düşmənləri üçün bu ayə heç bir əhəmiyyət daşımırdı. Ömər ibn Səd üçün döyüşdə nə dinin və nə də dini qaydaların heç bir əhəmiyyəti yox idi. Dünya malı və Rey şəhərində hökmranlıq etmək istəyi onun gözlərini tamamilə kor etmişdi. İndi onun üçün Übeydullah ibn Ziyadın razılığı hər bir şeydən üstün idi. Elə bu səbəbdən də oxu kamana qoyub İmam Hüseynin (ə) çadırlarına tərəf atdı və dedi:

–Ey camaat, İbn Ziyadın yanında şahid olun ki, ilk oxu mən özüm atdım.

Ömər Sədlə birlikdə dörd min nəfər İmam Hüseynin (ə) dəstəsinin yerləşdikləri çadırlara tərəf ox atdılar. Oxlar yağış kimi o həzrətin səhabələrinin üzərinə töküldü və səhabələrdən bir neçəsi yerindəcə şəhid oldular.

Bəli, təkcə Kərbəla hadisəsində deyil, Həzrət Peyğəmbərin (s) məbəsindən başlamış İmam Zamanın (ə) zühuruna qədər bütün dövrlərdə yaşayan məsum imamların əsas hədəfi yalnız və yalnız İslam və onun hökmləri olmuşdur. Nəyin bahasına olursa olsun harama yol vermək olmaz və müqəddəs hədəfə çatmaq üçün yalnız pak vasitələrdən istifadə etmək lazımdır. İbadətdə, ziyarətdə və ticarətdə heç bir haram vasitələrdən istifadəyə yol vermək olmaz.

İslam dini də bizdən məhz bunu istəyir. İmam Hüseynin (ə) aşurası, Kərbəlası və hərəkatının əsas sözü və əsas məğzi də elə budur ki, İslamın hökmləri İslamın ayrılmaz bir hissəsidir. Əgər İslam hökmlərindən ayrı düşsə, o zaman bu həqiqi İslam deyil və belə bir İslam yalnız onun münafiqlərinə sərf edə bilər.

**Üçüncü nümunə: Düşmənə qarşı fədakarlıq etmək**

İmam Hüseynin (ə) qiyamı cəmi 160 gün (5 ay 10 gün) davam etmişdir. Həzrət İmam Hüseyni (ə) bu müddət ərzində çoxlu təhlükələr gözləyirdi, amma zərrə qədər məkruha (bəyənilməyən işlərə) yol vermədi və heç bir müstəhəb əməli

tərk etmədi. Çünki o həzrət elə məhz bu səbəbə görə, yəni vaciblərə yerində əməl olunması, haramların tərk edilməsi, məkruhların tərk olunması və müstəhəb əməllərin yerinə yetirilməsi üçün xəlq olunmuşdur.

Kərbəla hadisəsinin ən mühüm dərslərindən biri də məhz fədakarlıqdır. Fədakarlıq başqasını özündən üstün hesab etmək deməkdir. Məsələn, fərz edək ki, iki nəfər acıb və onların ixtiyarlarında isə çox az çörək vardır. Onlardan birinin həmin çörəyi yeməyib öz dostuna verməsinə "fədakarlıq" deyirlər. Yəni bu, dostunu özündən üstün hesab etməkdir.

Mərhum Ayətullah Mütəhhəri yazır: "İnsanlar dünyada üç qisimdirlər:

1. Birinci qisim insanların məntiqi hiylə, kələk və qüdrət əsasında formalaşıb. Onlar öz işlərini bunun hesabına irəli aparırlar.

2. İkinci qisim insanların məntiqi isə alver üzərində qurulub, istər ictimai nöqteyi-nəzərdən olsun, istərsə də siyasi nöqteyi-nəzərdən. Məsələn, müxtəlif partiyalar. Onlar bir-birilərinin əməllərinə uyğun hərəkət edirlər.

3. Üçüncü qisim insanların məntiqi isə fədakarlıq üzərində qurulub. Bu qrupun öndəri İslam Peyğəmbəri (s) və Əhli-beytdir (ə). Xüsusilə İmam Hüseyn (ə) və onun sadiq səhabələridir.

Bunu imamlar və İslam Peyğəmbəri (s) öyrətmişdir və onların hərəkətlərində heç bir fərq yoxdur. Həzrət Peyğəmbərin (s) iki vəzifəsi var idi, biri nübüvvət, digəri isə imamət idi. Dünyasını dəyişəndə nübüvvəti özü ilə apardı, imaməti isə Həzrət Əliyə (ə) həvalə etdi. Yəni imamət məqamında Həzrət Əli (ə) ilə Həzrət Peyğəmbər (s) eyni məqamdadırlar.

**Ənsarın şəninə ayə**

Müsəlmanlar Bəni-Nəzir yəhudilərinə qalib gələndən sonra İslam Peyğəmbəri (s) ənsara belə bir təkliflə müraciət etdi: “Ya evlərinizi və mallarınızı özünüzdə saxlayın, müharibədə əldə etdiyiniz qənimətləri mühacirlərə bağışlayın. Ya da həm qənimətə şərik olun və həm də evlərinizi, mallarınızı mühacirlərlə bölüşün.”

Ənsardan olanlar dedilər: “Ey Allahın Rəsulu! Biz həm müharibədən əldə edilən qənimətlərin hamısını mühacirlərə veririk və həm də öz evlərimizi və mallarımızı onlarla bölüşürük.”

Onlar bunu deyəndən sonra “Həşr” surəsinin 9-cu ayəsi nazil oldu. Ayədə deyilir:

والذِين تبوؤوا الدار والْإِيمانَ مِن قَبلِهم يحِبونَ من هاجر إِلَيهم ولَا
يجِدونَ فِي صدورِهِم حاجةً مما أُوتوا ويؤثِرونَ علَى أَنفُسِهِم ولَو كَانَ
بِهِم خصاصةٌ ومن يوق شح نفْسِهِ فَأُولَئِك هم الْمفْلِحون

–Həm də (ənsardan) o kəslər üçündür ki, hicrət və iman evini (Mədinə mühitini) özü üçün yurd seçib onlara tərəf hicrət edənləri sevər, onlara (mühacirlərə) verilən qənimətə görə ürəklərində həsəd duymaz, özləri ehtiyac içində olduqları halda onları özlərindən üstün tutarlar. Nəfsin xəsisliyindən qorunub saxlanılan kimsələr – məhz onlar nicat tapanlardır.

**Əhli-beytin (ə) davranışında fədakarlığın nümunələri**

İslam Peyğəmbəri (s) və Həzrət Əli (ə) həmişə fədakarlıq edərdilər.

1. Bir gün şam namazını qılandan sonra bir nəfər İslam Peyğəmbərinə (s) yaxınlaşıb dedi ki, ey Allahın Rəsulu! Mən qəribəm. Həm acam və həm də gecələməyə yerim yoxdur.

İslam Peyğəmbəri (s) bir nəfəri öz evinə göndərdi ki, get evdə hər nə varsa gətir. Həmin şəxs qayıdıb dedi ki, ey

Allahın Rəsulu (s), evdə heç nə yoxdur. Sonra Peyğəmbər (s) üzünü məsciddəkilərə tutub buyurdu: “Sizlərdən hansı biriniz bu qəribi evinə aparmağa hazırdır?” Həzrət Əli (ə) buyurdu ki, icazə ver, mən aparım.

Əli (ə) həmin qəribi götürüb öz evinə gəldi. Evə gələndən sonra Həzrət Xanım Fatimədən (s.ə) soruşdu ki, qonağa yemək vermək üçün nəyimiz var? Xanım Zəhra (s.ə) buyurdu ki, özümüz üçün bir az yemək var. Əli (ə) buyurdu ki, elə isə uşaqları yatırt, özümüz isə bir şey fikirləşərik. Yeməyi qonağa verək.

Evdə hər nə var idisə hamısını qonağa verdilər. Sabahısı gün Həzrət Əli (ə) Həzrət Peyğəmbərin (s) yanına gələndə Allahın Rəsulu (s) aşağıdakı ayəni onun üçün oxudu:

وَيُؤْثِرُونَ عَلَىٰ أَنفُسِهِمْ وَلَوْ كَانَ بِهِمْ خَصَاصَةٌ

–Özləri ehtiyac içində olduqları halda onları özlərindən üstün tutarlar.

2. Həzrət Əli (ə) və ailəsi nəzir edib üç gün oruc tutmuşdular. Birinci gecə iftar vaxtı miskin, ikinci gecə yetim və üçüncü gecə əsir gəlib qapını döydü. Həzrət (ə) çörəyi onlara verib özləri su içib yatdılar. Sonra aşağıdakı ayə nazil oldu:

وَيُطْعِمُونَ الطَّعَامَ عَلَىٰ حُبِّهِ مِسْكِينًا وَيَتِيمًا وَأَسِيرًا

–Və onlar yeməklərini, özləri(nin ehtiyacı olub çox) istədikləri halda Allaha olan məhəbbət üzündən fəqirə, yetimə və əsirə verərlər.[1]

3. Əbu Tifl deyir: “Əli (ə) təzə və çox gözəl bir köynək almışdı. Yolda çılpaq bir şəxslə rastlaşdı və köynəyi ona bağışladı. Sonra buyurdu: “Rəsulallahdan (s) belə buyurduğunu eşitmişəm: “Hər kim başqasını özündən üstün saysa, qiyamət günü Allah onu cənnətə aparacaq.” Bunu yalnız cənnətə inanan insan edər. O, cənnətin varlığına ürəkdən inanır.”

---

[1] İnsan surəsi, 8-ci ayə.

4. Bir gün müharibələrin birində döyüşün ən çətin anlarında müşriklərdən biri Həzrət Əliyə (ə) dedi:

–Ya Əli, qılıncını mənə ver.

Həzrət Əli (ə) öz qılıncını ona sarı atdı. Həmin şəxs öz-özlüyündə belə bir vaxt kim kimə qılıncını verər? – deyə düşündü. Həzrət Əlidən (ə) "Döyüş meydanındasan. Nə üçün qılıncını ona verdin?" – deyə soruşdular. Həzrət (ə) buyurdu: "Quran buyurur ki, səndən kimsə bir şey istəsə, onu əliboş qaytarma."

Bu, həqiqi imanın mənasıdır. Həmin müşrik atından enib Həzrət Əlinin (ə) yanına gəldi və dedi:

–Bu davranış yalnız (iman) din əhlində olar.

Sonra həmin müşrik o həzrətin əllərindən öpdü və iman gətirdi.

5. Bir nəfər Həzrət Əlinin (ə) yanına gəlib o həzrətə nalayiq sözlər deməklə onu təhqir etdi.[1] Bir müddətdən sonra həmin şəxs çox pis vəziyyətə düşdü və o həzrətdən kömək istəmək məcburiyyətində qaldı. Həzrətin (ə) qapısına gəldi və İmam Əli (ə) onun bütün istədiklərini ona verdi. Səhabələrdən bəzisi dilə gəldilər ki, ağa, bu şəxs bir neçə gün bundan qabaq sizə nalayiq sözlər deyən adamdır. Siz isə bu gün ona belə kəramət edirsiniz?! Həzrət (ə) onların cavabında buyurdu: "Mən də bu şəxsin həmin adam olduğunu bilirəm. Lakin mən onun cəhalətinin mənim kəramətimə qələbə çalmasını istəmirəm."

Bax, buna deyərlər imamət. Həzrət Əli (ə) insanları hidayət etmək üçün gəlmişdi, intiqam almaq üçün yox. O, insanları cəhənnəmdən çıxarıb cənnətə aparmaq üçün gəlmişdi. Elə bu səbəbdən də özü hamıdan irəlidə gedirdi. Cənnətə adam aparmaq istəyən hər bir şəxs gərək özü qabaqda getsin.

---

[1] Onu öyrədib göndərmişdilər.

Buna görə də müqəddəs hədəfə çatmaq istəyən hər bir kəs gərək müqəddəs vasitələrdən istifadə etsin.

6. Həzrət Əli (ə) öz canını Həzrət Peyğəmbərin (s) yolunda fəda etdi. Məkkədə olan dönəmdə müşriklər toplaşıb Həzrət Peyğəmbəri (s) öldürmək qərarına gəldilər. Hər qəbilədən bir nəfəri dəvət etmişdilər ki, Həzrət Peyğəmbəri (ə) öldürəndən sonra kimsə kimisə bu məsələdə günahlandıra bilməsin, yəni törədiləcək cinayət əməlinin məsuliyyəti öncədən bütün qəbilələr arasında bölüşdürülmüşdü. Bu isə o demək idi ki, hamının əli qana bulaşsın və Bəni-Haşim təklikdə onlarla mübarizə apara bilməsin.

Cənab Cəbrayıl (ə) onların bu mənfur niyyətlərini İslam Peyğəmbərinə (ə) xəbər verdi və buyurdu ki, gərək Məkkəni tərk edəsən. Bəs, "Ləylətül-məbit"də Həzrət Peyğəmbərin (s) yerində yatan kim idi?! Həzrət Əli (ə) həmin gün canı canla dəyişdi. İmam Əli (ə) Həzrət Peyğəmbərin (s) yerində yatdı ki, müşriklər Həzrət Peyğəmbərin (s) yatdığını güman edib onun evinə tökülüşsünlər və İslam Peyğəmbəri (s) də sağ-salamat Məkkədən çıxıb getsin. Bu hadisədən sonra aşağıdakı ayə nazil oldu:

وِمِن الناسِ من يشِري نفْسه اِبِتغاء مرضاتِ اللّٰهِ

–İnsanlardan eləsi də var ki, Allahın razılığı üçün öz canını satır.[1]

Allah-taala göydə iki mələyi – Cəbrayıl (ə) və Mikayılı (ə) bir-birinə qardaş elədi. Sonra onlara "sizlərdən hansınız ömrünü öz qardaşına verər", – deyə soruşdu. Amma onlardan heç biri buna razı olmadılar. Sonra buyurdu: "Əli (ə) və Peyğəmbəri (s) bir-birinə qardaş etmişəm və Əli (ə) öz ömrünü Peyğəmbərə (s) qurban verdi. Siz də gedin səhərə kimi Əlini (ə) qoruyun." Cənab Cəbrayıl (ə) Həzrət Peyğəmbərin (s) yanına

---

[1] Bəqərə surəsi, 207-ci ayə.

gəlib buyurdu ki, Allah-taala göydə mələklərin arasında Əlinin (ə) vücudu ilə fəxr etdi.

İslam Peyğəmbəri (ə) Əhli-beytə (ə) və səhabələrinə bunları təlim etmişdir. Səhabələrdən bəziləri bu kimi gözəl xüsusiyyətlərə malik idilər.

7. Corc Zeydan “Tarixi təməddün” kitabında yazır: “Yərmuk müharibəsində Huzeyfə ibn Yəman öz əmisi oğlu ilə birgə iştirak edirdi. Döyüş bir az sakitləşəndən sonra Huzeyfə əmisi oğlunu axtarmağa başladı. Onu yaralı halda tapdı və başının üstündə dayanıb dedi:

–Görürəm vəziyyətin yaxşı deyil.

Əmisi oğlu dedi: “Allaha şükür olsun, yaxşıyam.”

Huzeyfə dedi: “Xətrin nə istəyir?”

O dedi: “İmkan olsa bir az su istəyirəm.”

Huzeyfə tez gedib bir qab su gətirdi. Əmisi oğlunun yanındakı yaralı müsəlmanlardan biri də onlardan su istədi. Huzeyfənin əmisi oğlu dedi:

–Suyu apar ver ona. Əvvəl o içsin, sonra mən içərəm.

Huzeyfə suyu həmin yaralı müsəlmana verəndə bir başqası dedi ki, mənə də su verin. O, suyu üçüncü müsəlmanın yanına apardı. Yaralı baxıb gördü ki, su qabı doludur. Soruşdu:

–Bəs sən onlara su vermədin?

Huzeyfə dedi: “Yox, onlar içmədilər, dedilər ki, suyu apar ona ver.”

Həmin yaralı müsəlman dedi: “Yox, mən də içmərəm. Apar əvvəl onlar içsinlər, su qalsa, mən də içərəm.”

Huzeyfə birinci yaralı müsəlmanın, yəni əmisi oğlunun yanına gəldi. Gördü ki, o, dünyasını dəyişib. Sonra ikinci yaralının yanına getdi və gördü ki, o da dünyasını dəyişib. Daha sonra üçüncü yaralının yanına gəldi və gördü ki, o da dünyasını dəyişib.

Bax, buna deyərlər fədakarlıq. İslam təlimindən savayı başqa heç bir təlimdə belə bir şey yoxdur. İslam təlimində cənnətə yəqini olanlar yalnız buna əməl edirlər.

**Həzrət İmam Hüseyn (ə) üçün fədakarlıq edənlərin nümunələri**

Kərbəla hadisəsində də fədakarlıq barədə çoxlu nümunələr qeyd etmək olar. Sanki İmam Hüseyn (ə) bir şam kimi ortada dayanıb və səhabələr, onların övladları, xanımlar pərvanətək onun başına dolanırlar.

**1. Həzrət Əbülfəzl Abbasın (ə) fədakarlığı**

Kərbəla hadisəsində bütün fədakarlıqların ən gözəli, ən eşidilməlisi, ən ləzzət almalı olanı Həzrət Əbülfəzl Abbasın (ə) fədakarlığıdır. Əgər hər hansı bir insan gündə bir neçə dəfə o həzrətin fədakarlıqlarından eşitsə, yenə də insana ləzzət edər.

Həzrət Əbülfəzl (ə) İmam Hüseyn (ə) onun qardaşı olduğuna görə ona belə bir münasibət bəsləmirdi. İmamları çıxmaq şərtilə Həzrət Əbülfəzl (ə) fiqh elmində bütün səhabələrdən üstün idi. Bu barədə çoxlu hədislər də nəql olunmuşdur. Nuraniyyətdə hamıdan nurani idi. İmam Səccad (ə) buyurur: "Əmim Əbülfəzlin gözlərində bəsirət var idi." Həzrət Əbülfəzl (ə) abid, arif, fəqih və öz əsrinin ən ziyalı şəxslərindən biri idi. Elə bu səbəbdən də hamı onun sözünə qulaq asırdı.

İmam Səccad (ə) buyurmuşdur: "Cənnətdə bütün şəhidlər əmim Abbasın məqamına baxıb qibtə edəcəklər."

Hədislərdə belə nəql olunub ki, Allah-taala Cəfər Təyyara cənnətdə bir cüt qanad verdiyi kimi, Həzrət Abbasa da Kərbəlada qollarının əvəzində ona bir cüt qanad vermişdi.

Ariflərdən biri deyir: "Allah-taala heç bir kəsə Əbülfəzlə (ə) Kərbəlada verdiyi qollar kimi qol verməyib. Ona kəramət

sahibi olan bir qol verib ki, heç bir kəs onun qapısından əliboş geri qayıtmaz.”

Aşura gecəsi İmam Hüseyn (ə) bir xütbə oxuyaraq buyurdu ki, bunların davası mənimlədir. Sizlərlə heç bir işləri yoxdur. Hər kim istəyirsə qalxıb gedə bilər. Hamıdan əvvəl Əbülfəzl (ə) ayağa qalxıb söylədi: “Səndən sonra biz necə yaşaya bilərik?! Sən dünyadan köçüb gedəsən, amma biz isə su içib çörək yeyək?! Bu, mümkün olan bir şey deyil.”

Kərbəla hadisəsində İbn Ziyad İmam Hüseynin (ə) qardaşlarına amannamə göndərdi. Həzrət Əbülfəzl (ə) onun cavabında buyurdu ki, Allahın amanı İbn Ziyadın amanından daha əhəmiyyətlidir.

*Dedi ey piri müzəvvir itiribsən özüvi,*
*Mərifət yoxdu, tutub pərdeyi qəflət gözüvi,*
*Deyiləm müştəri bu sözlərə qurtar sözüvi,*
*Üməvilər ola bilməz hədəfi aliyədə,*
*Sənə də lənət, amannamə yazan valiyə də.*

Həzrət Əbülfəzl (ə) çayın içinə girib tuluğu su ilə doldurdu. Sonra ovcunu da su ilə doldurdu. Zalımlara başa saldı ki, mən bu sudan içə bilərəm, amma əllərini araladı və ovcundakı su Fərata töküldü. İmam Hüseynin (ə) və Əhli-beytin (ə) susuzluğunu yadına salıb suyu yerə tökdü. Sonra bu şeiri oxudu:

يا نفْس مِن بعدِ الْحسينِ هوني          و بعده لا كُنتِ اَنْ تكُوني
هذا الْحسين شارِب الْمنون          و تشرِبين بارد الْمعِين
و الله ما هذا فعالُ دِينِي

–Ey nəfs, Hüseyndən sonra (dünya) zillətdir. Ondan sonra (dünyada) gərək olmayasan (yaşamayasan). Bu Hüseyn (şəhadət)

şərbəti içir, sən sərin su içirsən?! And olsun Allaha, bu mənim məramım deyil.

Allah-taala Kərbəlada insaniyyət sərgisi qurdu və bütün peyğəmbərlər, mələklər həmin sərgiyə tamaşa edirdilər. O sərginin güllərindən biri Həzrət Əbülfəzlin (ə) çayın içinə girməsi, amma oradakı sudan içmədiyi məqamdır.

Bu səbəbdən də Həzrət Əbülfəzl (ə) mələklərdən üstündür.

*Cövhəri qeyrət tələb etsən əgər Abbasa bax,*
*İstəsən ruhi şücaətdən xəbər Abbasa bax.*

*Bir qolun İslam[1] edib tərif, iman[2] bir qolun,*
*İstəsən İslamu imandan xəbər Abbasa bax.*

*Bilmiyirsən gər bəşər üstün yaranmış ya mələk,*
*Sən də birlikdə mələklən ey bəşər Abbasa bax.*

*Bilmirəm nə halə qalmışdı o qeyrət qaməti,*
*Bir-birə əhli səma söylərdilər Abbasa bax.*

*Seyyida, gər səndə talibsən əzadar olmağa,*
*Meydana qolsuz yıxılmış ba hünər Abbasa bax.*

Həzrət Əbülfəzlə (ə) İslam Peyğəmbərinin (s) ətri dəymiş, o, Həzrət Əlidən (ə), İmam Həsəndən (ə), İmam Hüseyndən (ə) dərs almış və Allahın ayələrindən bəhrələnmişdi.

### 2. Hənzələ ibn Səd Şaminin fədakarlığı

Hənzələ ibn Səd Şami gəlib İmam Hüseynin (ə) qarşısında dayandı, bütün vücudunu nizə, ox və qılınclara sipər etdi. Düşmən qoşunu üçün aşağıdakı ayəni oxudu:

يا قَومِ إني أخاف علَيكُم مثْلَ يومِ الْأحزابِ. مِثْلَ دأْبِ قَومِ نوحٍ وعادٍ وثَمود والذِين مِن بعدِهِم وما الله يرِيد ظُلْما للْعِبادِ

[1] Yəni Peyğəmbər (s).
[2] Yəni Həzrət Əli (ə).

–Ey mənim qövmüm, şübhəsiz, mən sizin üçün tayfaların (qarşılaşdıqları hadisə) gününün bənzərindən qorxuram. Nuhun qövmünün, Ad və Səmud (qövmlərinin) və onlardan sonrakıların barəsində istifadə edilmiş üsulun (gözlənilmədən kütləvi şəkildə məhvə düçar etməyin) bənzərindən! Allah heç vaxt bəndələrinə zülm etmək istəmir.[1]

Həzrət İmam Hüseyn (ə) ona buyurdu:

رحِمك الله. أنهم قَد استوجبوا الْعذاب حِين ردوا علَيك ما دعوتهم إلَيهِ مِن الْحق

–Allah sənə rəhmət eləsin! Sən onları haqqa dəvət etdiyin halda onlar sənə rədd cavabı verib (cəhənnəm) əzabını seçirlər.

Sonra Hənzələ üzünü İmam Hüseynə (ə) tutub dedi:

أفَلا نروح إلَي ربنا و نلْحِق بِاخوانِنا؟

–Allahın hüzuruna gedib şəhid olan qardaşlarıma qovuşmayımmı?

Həzrət (ə) buyurdu:

رح الَى خيرٍ مِن الدنيا و ما فِيها و الَي ملكٍ لا يبلي

–Bəli, dünya və dünyada olan şeylərdən yaxşı olan behiştə get, həmişəlik və cavidan olan padşahlığa tərəf get!

Həmçinin Züheyr ibn Qeyn və Əmr ibn Qurtə İmam Hüseynin (ə) yolunda var qüvvəsi ilə cihad etdikdən sonra hər ikisi dedilər:

أوفَيت يا بن رسول الله؟

–Ey Peyğəmbərin oğlu, öz əhdimə vəfa etdimmi?

Həzrət (ə) hər ikisinə buyurdu:

نعم أنت أمامِي فِي الْجنة

–Bəli, sən məndən qabaq behiştə gedəcəksən.

---

[1] Ğafir surəsi, 30-31-ci ayələr.

**Düşmənə qarşı fədakarlıqdan bir nümunə**

İmam Hüseynin (ə) karvanı zilhiccə ayının 8-ci günü, yəni Həzrətin (ə) möhtəşəm xütbəsindən sonra Məkkədən hərəkət etdi və 25 gündən sonra (məhərrəm ayının 2-si) Kərbəlaya yetişdi. Yarı yolda, yəni Şəraf adlı məntəqəyə çatanda İmam Hüseyn (ə) göstəriş verdi ki, günəş çıxmamışdan qabaq bütün tuluqları su ilə doldursunlar.

Həmin gün günortadan qabaq Hürr min nəfər silahlı atlı ilə sözügedən məntəqəyə gəlib çatdı. İmam Hüseyn (ə) onların susuzluğunu və yorğunluğunu müşahidə etdikdən sonra göstəriş verdi ki, onların həm özlərinə və həm də atlarına su versinlər. Həzrətin (ə) səhabələri həm onları və həm də onların atlarını su ilə sirab etdilər.

Hürrün ordusundan bir nəfər isə həmin vaxt geridə qalmışdı. Həzrətin (ə) səhabələri Hürrün döyüşçülərinə su verməklə məşğul olduqlarından geridə qalmış həmin əsgəri görmürdülər. O əsgər deyir: “Elə bu vaxt gördüm ki, əzəmətli bir şəxs mənə yaxınlaşıb su təklif etdi. Mən Hicaz ləhcəsini bilmədiyimdən onu başa düşmədim. Sonra həmin şəxs mənim ləhcəmdə mənə su təklif etdi. Mən suyu içdim. Sonradan bildim ki, o şəxs Həzrət Hüseyn ibn Əli (ə) imiş.”

Bax, buna deyərlər fədakarlıq. Bu, rəhmətin mənbəyidir, bu, izzətin mənbəyidir.

*Hüseyndür ayəti rəhmət, Hüseyndür ğayəti rəhmət,*
*Hüseyndür qibleyi qeyrət, Hüseyndür məniye heyrət.*
*Hüseyndür ruhi hürriyyət, Hüseyndür fəxri heysiyyət,*
*Hüseynsiz neylirəm fəzli, Hüseynsiz fəzlə min lənət.*

Həzrət Əbülfəzlə (ə) fədakarlığı və qeyrəti öyrədən İmam Hüseyndir (ə). Tasua günü fədakarlıq gecəsi, izzət gecəsi və iman gecəsidir. Elə bu səbəbdən İslam Peyğəmbəri (s) buyurmuşdur: “Aşura gecəsi ibadət edən şəxsə bütün mələklərin ibadətinin savabı qədər savab veriləcək.”

Cünki bütün peyğəmbərlər insanları “təzkiyə” etmək üçün gəlmişlər. Elə bu gecə də təzkiyə gecəsidir. Bu gecə Həzrət Peyğəmbərin (s) hədəfi və məqsədi həyata keçir.

اَلْاِسلام نبوي الْحدوس و حسيني الْبقاء

–İslamı gətirən Həzrət Peyğəmbərdir (s), amma onu qoruyub saxlayan isə Hüseyndir (ə).

Əgər Hüseynin (ə) Kərbəlası olmasaydı, Müaviyənin oğlu Yezid İslamı dəfn edəcəkdi. Bu gün bizim heç birimiz müsəlman olmayacaqdıq. İmam Hüseyn (ə) İslamın dəfn edilməsinə imkan vermədi. Əgər Həzrət İmam Hüseyn (ə) İslamı qorumasaydı, onlar İslamı məhv edəcəkdilər. İmam Hüseynin (ə) sözü bu idi ki, Yezid xəlifə adı altında İslamın başına bu oyunları açmaq istəyir, ancaq mən hər nə qədər varam buna imkan verməyəcəyəm!”

**Üçüncü nümunə: Səbir**

Yuxarıda qeyd etdiyimiz kimi, müsəlman müqəddəs hədəfə çatmaq üçün gərək müqəddəs vasitələrdən istifadə etsin. İnsan gərək həm hədəfdə mömin və təqvalı olsun, həm də hədəfə çatmaq üçün istifadə etdiyi vasitələrdə də gərək mömin və təqvalı olsun. Pak və müqəddəs hədəfə çatmaq üçün gərək pak və müqəddəs vasitələrdən istifadə edilsin.

Bunu həm Quran təsdiqləyir, həm Həzrət Peyğəmbərin (s) sünnəsi təsdiqləyir və həm də Əhli-beytin (ə) davranışı təsdiqləyir. İnsanın haram vasitələrlə yüksək mənəviyyata sahib olması mümkün deyil. Bir insanın yalan danışmaqla, günah etməklə, Allaha qarşı üsyan etməklə və Allah-taalanın sözündən çıxmaqla müqəddəs hədəfə nail olması qeyri-mümkündür. Çünki atılan müqəddəs olmayan (napak) bir addım insanın ruhuna və cisminə öz mənfi təsirini göstərir. Belə bir insanda mənəvi yüksəlişin baş verməsi əsla mümkün olan bir iş deyildir.

Hər bir şəxs əgər gecələri qalxıb ibadət etmək istəyirsə, gərək gündüzlər də özünü imtahan etsin. Əgər insanlar gündüzlər özlərinə nəzarət etməyi bacarsalar, o gecə ibadətləri də yaxşı olacaqdır və onun mənəviyyatı da güclənəcəkdir. Yox, əgər onların nəzarətləri zəif olsa və ya nəzarətləri, ümumiyyətlə, olmasa, yəni istədiklərini yesələr, istədiklərini danışsalar, hara gəldi baxsalar və istədikləri səsləri eşitsələr, bu kimi insanlar gecələr ibadət etməyə müvəffəq olmayacaqlar, yaxud ibadətlərindən bəhrələnə bilməyəcəklər.

Mərhum Əllamə Təbatəbayi İslam dünyasının nümunəvi şəxsiyyətlərindən biriydi. O, elmi baxımdan çox dahi bir şəxsiyyət, mənəvi baxımdan isə çox nadir insanlardan biri olmuşdur. Ürfani baxımdan da seçilmiş bir şəxsiyyət kimi məşhur idi. Özünün də dediyinə görə, özü öz ixtiyarında olan bir insan olmuşdur. Yəni dil mənimdir, göz mənimdir, qulaq mənimdir, hara istəsəm ora baxaram, hara istəməsəm, oraya da baxmaram. Əlliillik, altmışillik zəhmətin sayəsində özünü özünə tabe etməyə nail ola bilmişdir. İslam Peyğəmbəri (s) buyurmuşdur:

اَلْمؤمِين ملْجم

–Möminin cilovu olar.

Atın yüyəni olmadıqda onu saxlamaq mümkün olmadığı kimi, mömin də özünə nəzarət etməsə, həddini aşar.

Həzrət Peyğəmbərdən (s) soruşdular ki, möminin cilovu nədir? Həzrət Peyğəmbər (s) buyurdu:

أَلْقُرانُ لُجام الْمؤمِين

–Möminin cilovu Allahın kitabı olan Qurandır.

Möminin yüyəninin öz əlində olması onun əməlindən bilinər. Baxıb baxmaması, yeyib yeməməsi onun öz əlində olmalıdır.

Bəzi insanlar isə öz şəhvətlərinin əsiri olurlar. Yəni belələrinin yüyəni şəhvətinin əlində olur. Onun baxması, yatması,

gecələr oyaq qalması, yeməsi və s. kimi əməlləri şəhvətinin istəyinə əsaslanır. Lakin bəzi insanların şəhvətlərinin yüyəni onların öz əllərində olur. Yəni belə insanlar öz şəhvətlərini idarə edə bilirlər.

Belə deyirlər ki, Xorasan şahlarından biri dünyasını dəyişmişdi. O, öləndən sonra oğlu onu yuxusunda görür. Yuxuda ondan "əmir necəsən?" – deyə soruşur. Şah deyir: "Oğlum, mənə əmir demə, əsir de."

Əgər insanın yüyəni öz əlində olsa, o zaman insaniyyətini əldən vermiş olmaz.

Mərhum Əllamə Təbatəbayi hətta fiziki baxımdan belə öz ixtiyarında idi. Belə ki, İngiltərədə onun gözlərində cərrahiyyə əməliyyatı aparanda həkimlər narkoz vurulmasını tələb etsələr də, ağa buna razılıq vermir. Həkimlər deyirlər ki, ağrını hiss etməməyin üçün sənə iynə vurulmalıdır. Həmçinin aparatlar vasitəsilə sənin gözünü açıq şəkildə saxlayacaq və əməliyyat aparacağıq. Ağa deyir ki, nə iynə vurmaq lazımdır və nə də aparatlara ehtiyac var. Mən gözümü açıq saxlayacağam və siz də cərrahiyyə əməliyyatı aparacaqsınız.

Həkim əvvəlcə ağanın sözlərinə inanmır. Deyir ki, əl gözə yaxınlaşanda insanın özündən asılı olmayaraq göz yumulur. Bu da cərrahiyyə əməliyyatına mane olur.

Ağa deyir: "Mənim icazəm olmadan gözün nə ixtiyarı var yumulsun? Mən əlli il, altmış il çalışmışam ki, gözlərim mən istəyəndə açılsın və mən istəyəndə bağlansın."

Beləcə, həkimlər heç bir keyitmə iynəsindən belə istifadə etmədən ağanın gözündə cərrahiyyə əməliyyatı aparırlar.

Bəzi insanlar isə bu kimi söhbətləri boş sözlər hesab edirlər. Halbuki onlar anlamırlar ki, belə şəxsiyyətlər bu aləmdən çıxaraq artıq başqa aləmdədirlər.

Elə bu səbəbdən də tövsiyə olunur ki, müqəddəs hədəfə çatmaq üçün gərək müqəddəs vasitələrdən istifadə edilsin. Ona görə ki, birinci müqəddəs olmayan vasitə ikinci müqəddəs

vasitənin həyata keçməsinin qarşısını alır. Başqa sözlərlə desək, birinci haram addım ikinci mənəvi addımın qarşısını alır.

**Mədrəsə illərindən bir xatirə**

Bir gün mədrəsədə oxuduğum zaman dostlarımdan birinin qaldığı otağa getdim. Gördüm ki, ağlaya-ağlaya dəmir çay qutusunun üstündəki qadın şəklini iynə ilə pozur. "Nə olub, niyə belə edirsən?" – deyə soruşdum. Dedi ki, bu çay qutusuna iynə-sap yığmışam. Dünən dərs oxuyan zaman gözüm onun üzərində olan qadın şəklinə düşdü. Bir dəfə baxdım, ancaq gözüm onda qaldığı üçün ikinci dəfə də baxdım. Bunun nəticəsində gecə namazına qalxa bilmədim.

Başqa bir dostum da var idi. Mübarək ramazan ayında minbərdə moizə edirdi. Bir dəfə o, mənə dedi: "Mübarək ramazan ayında məni iftar süfrəsinə dəvət edirdilər. Çoxuna gedə bilməsəm də, bəzilərinin dəvətini məcbur qəbul edir və həmin məclislərə gedirdim. İftar vaxtı çalışırdım ki, az yemək yeyim. Sonra da məscidə gəlib camaatla namaz qılırdım. Namazdan sonra minbərdə moizə edərkən öz halımdan ehsan sahibinin çörəyinin halal və ya haram olduğunu anlayırdım.

Əgər insanda mənəviyyat yüksək şəkildə inkişaf etsə, o zaman əmin olun ki, zərgər tərəzisi onun yanında heç nədir. Haram bir şeyə baxmaq və ya bir tikə haram yemək insanın həyatına öz mənfi təsirini göstərir. Amma bəzi insanlar yenə də bu kimi faktları əfsanə hesab edirlər.

İmam Hüseynin (ə) davranışı da məhz bu cür olmuşdur. O həzrət Mədinədən çıxdıqdan sonra, yəni Məkkə və Kərbəla yollarında heç bir məkruh əməl etməmişdir. Kərbəla hadisəsi bizlərə bax bu dərsləri öyrədir.

"Ülvi şərəf bağışlayar insanə, Kərbəla."

Həzrət İmam Hüseyn (ə) insanları müqavimət göstərməyə, dözümə və səbir etməyə dəvət edirdi. Gəlin unutmayaq ki, İslam əxlaqının dərslərindən biri də məhz elə səbirdir.

1. Allah-taala səbirli insanları sevir:

والله يحب الصابرين

–Allah səbirliləri sevir.

İmam Hüseyn (ə) Allahın xoşu gəlməyən və razılığı olmayan heç bir şeyə tərəf getmədi. Allah-taala "Fəcr" surəsinin axırıncı ayələrində buyurur:

يا أيتها النفس المطمئنة. ارجعي إلى ربك راضية مرضية. فادخلي في عبادي. وادخلي جنتي

–Ey arxayın olmuş nəfs. Dön Rəbbinə, sən Ondan, O da səndən razı olaraq. Mənim bəndələrimin zümrəsinə daxil ol. Və Mənim cənnətimə daxil ol!

Hədislərdə belə nəql olunub ki, bu surə İmam Hüseyn (ə) haqda nazil olmuşdur.

Zalımlar İmam Hüseynin (ə) başını kəsərək mükafat almaq üstündə bir-biriləri ilə dava edirdilər. Amma həmin mükafat onların heç birinə qismət olmadı. Onlar elə güman edirdilər ki, haram yolla məqsədə çatmaq olar.

Ömər ibn Səd İmam Hüseynə (ə) dedi ki, "gördün, mən deyən oldu?" Amma heç nə o dediyi kimi olmadı. O, öz istədiyinə çata bilmədi. Çünki vasitə müqəddəs olmasa, insan hədəfə çata bilməz.

2. Allah-taala Özü də səbirli insanlarla bir cərgədədir.

واصبروا إن الله مع الصابرين

–Səbir edin ki, həqiqətən, Allah səbirlilərlədir.[1]

Səbir edərək müqavimət göstərən hər bir kəs Allah-taalanın Özü durduğu cərgədə durmuş sayılır.

3.Səbir etməklə yüksək (ali) məqamlara yetişmək olar.

وجعلنا منهم أئمة يهدون بأمرنا لما صبروا وكانوا بآياتنا يوقنون

[1] Ənfal surəsi, 46-cı ayə.

–Səbir etdikləri və ayələrimizə yəqinliklə inandıqları üçün Biz onlardan əmrimizlə (insanlara) haqq yolu göstərən imamlar təyin etdik.[1]

Bu ayə Bəni-İsrail barəsindədir. Ayəyə əsasən imamlıq etməyin iki şərti vardır: Biri Allahın ayələrinə iman gətirmək və yəqin əldə etmək, ikincisi isə səbir və müqavimətdir.

Əgər insan seçdiyi yolda şübhəsi olsa, heç bir vaxt məqsədə çata bilməz. İnsanda gərək seçdiyi yolun düz olmasına əminlik və qəti inam olsun. Başqalarının sözləri gərək insanı öz yolundan saxlamasın.

Çox insanlar İmam Hüseynə (ə) dedilər ki, getmə, bu yolun axırı təhlükəlidir. Həzrət (ə) isə onlara belə buyurdu: "Barmaqlarımın arasından gözümlə görürəm ki, Kufənin ac qurdları mənim bədənimin ətilə qarınlarını qoyuzdururlar."

Həzrət İmam Hüseyn (ə) Məkkədən çıxanda buyurmuşdu: "Mən bədənimin doğranılıb Nəvabis və Kərbəla arasında səpələndiyini görürəm."

Həzrət (ə) bu sözləri söyləyəndə heç bir kəs onu başa düşmürdü. Tarix boyu tədqiqatçılar bu haqda araşdırmalar aparsalar da, həmin fikrin mənasını başa düşə bilməyiblər. Alimlərdən biri Nəvabisin hara olması barədə tədqiqat apardıqdan sonra belə bir nəticəyə gəlmişdir ki, Hürrün yaxın qohumları orada iştirak etdikləri üçün onun başını kəsmədilər. Hürrün adamları onun cəsədini götürüb apardılar və öz yerlərində dəfn etdilər. Hürrün dəfn olunduğu həmin yerin adı Nəvabisdir. İmam Hüseyni (ə) müdafiə edənlərin mübarək bədənləri Nəvabis ilə o həzrətin qətlgahı arasında səpələnmişdi. Həzrət (ə) bununla da demək istəyirdi ki, Kərbəlada şəhid olan hər bir kəs mənim bədənimin bir üzvü sayılır.

Hər bir əsrin imamına tabe olan insanlar həmin əsrin imamının bədəninin bir üzvü kimi hesab olunur. Hər bir

[1] Səcdə surəsi, 24-cü ayə.

insanın öz zəmanəsinin imamının bədəninin bir üzvü olmağa layiq ola bilməsinin mənası isə budur ki, əgər həmin şəxs Kərbəlada olsaydı, deməli o da mütləq şəhid olardı.

İmam Sadiq (ə) bu haqda belə buyurmuşdur:

قَمن صبر و احتسب لَم يخرج مِن الدنيا حتي يقر اللَه لَه عيناً فِي اعتدائه مع ما يدخر لَه فِي الْآخِرةِ

–Hər kim səbirli olsa və Allahın hesabına buraxsa, dünyadan köçməmiş Allah onun düşmənlərini məhv etməklə onun gözlərini aydın edər və onun axirəti üçün mükafat zəxirə edər.[1]

Səbrin tutumu və potensialı o qədər böyükdür ki, insanı Allaha yaxınlaşdıra bilir. Həzrət Əli (ə) səbir barəsində qısa, lakin çox məzmunlu bir hədisdə belə buyurmuşdur:

من صبر علَى اللهِ وصلَ إلَيه

–Allah yolunda səbir edən hər bir kəs (məqsədinə) Allaha çatar.

Allaha yaxın olmağın ən gözəl vasitələrindən biri səbirdir.

**Səbrin qisimləri**

İslam Peyğəmbəri (s) buyurmuşdur:

ألصبر ثَلاثَةٌ:صبر عند الْمصِيبة, صبر علَى الطّاعة و صبر عنِ الْمعصِية

–Səbir üç qisimdir. Müsibət baş verən zaman səbir etmək, itaətkarlığa səbir etmək və günahlardan çəkinməyə səbir etmək.

Həyatda hər bir insan müxtəlif hadisələrlə qarşılaşır. Əgər insan səbirli olsa, o zaman özünü itirmədən və dağ kimi dayanıb hadisələri müşahidə edir. Allah-taala insanların başına müxtəlif müsibətlər (övladı, canı, malı və s. ilə bağlı)

[1] Üsuli-kafi, 3-cü cild, səh. 142, hədis-3.

gətirməklə onları imtahana çəkir. Bununla da insanın dəyər və qiymətini müəyyənləşdirir.

Səbirdən söz açanda əlbəttə ki, Xanım Zeynəbin (s.ə) etdiyi səbirdən danışmaq gərəkdir. Xanım Zeynəbin (s.ə) vüqarı və əzəmətinin müqabilində dağ nədir ki. Çünki bu xanımı Həzrət Fatimeyi Zəhra (s.ə) tərbiyə etmişdir:

*Hər ana sən kimi olsa, qızı da Zeynəb olar.*

Odur ki, səbir etməyə nümunə olaraq Xanım Zeynəbin (s.ə) və İmam Hüseynin (ə) adlarını qeyd etmək lazımdır.

Həmçinin itaət etmək məsələsində də gərək insan səbirli olsun. İsti havalarda oruc tutmaq səbir istəyir. İmam Hüseyn (ə) aşura günü o isti havada oruc tutmuşdu. Deyirdi ki, cəddim Rəsulallahın (s) görüşünə oruc halda getmək istəyirəm. Aşura gününün aclığı və susuzluğu onu narahat etmirdi. Suyun, çörəyin, maaşın və vəzifənin olmaması düşmənin gözündə böyük bir müsibətdir. İmam Hüseynin (ə) nəzərində isə bunların hamısı sıfır dərəcəli bir məsələdir. Onun gözündə Allahın görüşünə nə cür getmək daha mühüm məsələdir. Elə bu səbəbdən də aşura günü Həzrət (ə) qüsl etdi, oruc tutdu və namazı camaatla birgə qıldı.

Habelə günaha qarşı səbir etmək. İmam Hüseyn (ə) Kərbəlada səbrin hər üç növünü öz səhabələrinə və Əhli-beytinə (ə) tövsiyə edirdi. Özü də Kərbəlada səbrin hər üç növünü yaşadı.

### 1. Kərbəlada günaha qarşı səbir etməyin nümunəsi

Həzrət İmam Hüseyn (ə) düşmənin hücuma hazırlaşdığını, hətta suyun insanlara çatdırılmasına mane olduğunu bildiyi halda mövcud durum haqda moizə etdi. Bunun iki səbəbi var idi:

1. Haqqı aydınlaşdırmaq istəyirdi. Bəzi insanlar aldadıldıqları üçün yollarını azmışdılar. Həzrət (ə) istəyirdi ki, onlar haqq yolunu yenidən tapsınlar.

2. İkinci tərəfdən isə haqq ilə batili elə bəyan etdi ki, sabah bəziləri "لولا أرسلت إلينا رسولا فنتبع آياتك من قبل أن نذل ونخزى" – "Nə üçün bizə bir peyğəmbər göndərmədin ki, zəlil və xar olmamışdan qabaq Sənin ayələrinə tabe olaq"[1] ayəsini dəlil gətirərək deməsinlər ki, bizim həqiqətdən xəbərimiz yox idi.

Elə bu səbəbdən Həzrət (ə) onlara buyurdu: "Səbir edin, Həzrət Peyğəmbərin (s) övladını öldürməyə tələsməyin. Qoy həqiqət sizlərə aydın olsun."

أيها الناس اسمعوا قولي و لا تعجلوا حتي أعظكم بما هو حق لكم علي

–Ey camaat! Mənim sözümü eşidin və (məni öldürməklə günah etməyə) tələsməyin. İcazə verin, mən həqiqəti sizin üçün danışım.

**2. Kərbəlada itaətə səbir etməyin nümunəsi**

Mərhum Nəcəfinin nəql etdiyinə əsasən, Məsudi öz əsərində yazır:

–İmam Hüseyn (ə) sübh namazından sonra üzünü öz səhabələrinə tutub həmd-sənadan sonra buyurdu:

إن الله تعالي أذن في قتلكم و قتلي في هذا اليوم فعليكم بالصبر و القتال

–Həqiqətən, bu gün Allah-taala sizin və mənim şəhid olmağıma razı olmuşdur. Səbri və döyüşməyi sizlərə tövsiyə edirəm.

Daha sonra Həzrət (ə) buyurdu:

صبراً بني الكرام فما الموت إلّا قنطرةٌ تعبر بكم عن البؤس و الضراء الي الجنان الواسعة و النعيم الدائمة. فايكم يكره أن ينتقل من سجن إلي قصر؟ و ما هو لأعدائكم إلا كمن ينتقلُ من قصر إلي سجن و عذاب.

---

[1] Taha surəsi, 134-cü ayə.

إِن أَبِي حدثَنِي عن رسولِ اللهِ (ص): إِن الدنيا سِجن الْمؤمِن و جنةُ الْكافِر و الْموت جسر هؤلاءِ اِلي جناتِهم و جسر هؤلاءِ اِلي جحِيمهم. ما كَذَبت و لا كُذِبت.

–Ey kəramətli (kişilərin) övladları, səbirli olun! Ölüm körpüdən başqa bir şey deyil. O, sizi çətinlik və bəladan geniş və daimi nemətləri olan cənnətə aparır. Sizi zindandan qəsrlərə aparan şeydən niyə qorxursunuz?! Ondan sizin düşmənləriniz qorxur. Çünki onlar qəsrdən çıxıb zindana və əzaba gedən kimsələr kimidirlər.

Həqiqətən, atam mənə Rəsulallahdan (s) belə nəql etmişdir: “Dünya möminin zindanı, kafirin isə cənnətidir. Ölüm bunları cənnətlərinə və onları isə cəhənnəmlərinə çatdırır. Mən yalan demirəm və mənə də yalan deməyiblər.”

Ölüm dünyaya bağlı olan insanlara çətin gəlir. İnsan bu dünyada gözünü yuman kimi və o biri dünyada gözünü açan kimi ilk gördüyü İslam Peyğəmbərinin (s) mübarək camalı olacaqdır.

Əgər bir insan dəstəmaz alıb namaz qılarkən səcdə halında yatsa, Allah-taala mələklərə belə müraciət edər: “Ey mənim mələklərim, ona baxın! Ruhu Mənim yanımdadır, amma bədəni səcdə halındadır.” Allah-taala belə bir insanın vücudu ilə fəxr edir. Sonra üzünü mələklərə tutub deyir: “Ona muzd olaraq nə verim?”

Mələklər deyərlər: “Onu bağışla.”

Allah-taala buyurar: “Bu azdır.”

Mələklər deyərlər: “İlahi, ona cənnəti ver.”

Allah-taala buyurar: “Bu da azdır.”

Mələklər deyərlər: “Biz bundan başqa bir şey bilmirik.”

Allah-taala buyurar: “Onlara cənnətdə Həzrət Peyğəmbərin (s) və Ali-Peyğəmbərin (ə) həqiqi camallarını görməyi nəsib edəcəyəm.”

Əgər insan belə bir camala baxmağın ləzzətinin nə olduğunu anlasa, artıq dünya və dünyada olanlar ona ləzzət etməz. Elə bu səbəbdən Həzrət Əli (ə) buyurmuşdur: "Uşaq anasının sinəsini (döşündən süd əmmək üçün) axtardığı kimi (meyilli olduğu kimi) mən də ölümü o cür axtarıram." Həzrət Əli (ə) orada nələrin olduğunu çox gözəl bilirdi.

Elə buna görə də İmam Hüseyn (ə) öz səhabələrini və Əhli-beytini (ə) həm günah etməməyə və həm də səbirli olmağa dəvət edirdi.

**3. Kərbəlada müsibətə qarşı səbir etməyin nümunəsi**

İslam Peyğəmbəri (s) 18 aylıq oğlu İbrahimi dəfn edən zaman buyurdu: "Oğlum, ürək yanır və gözümün yaşı axır. Buna baxmayaraq mən Allahın təqdirinə razıyam."

Xanım Zeynəb (s.ə) Kərbəlada baş verən müsibətlərə dözür, amma Hüseyndən (ə) ayrılmaq onun üçün çox çətindir. Bu dərdə ürəyi yanır və gözünün yaşını tökürdü.

*Yar baxır ağlama, ay zi məqam,*
*Olma belə qalibi bicani eşq.*
*Eşqimizin var əbədi dövləti,*
*Həqq Özü vermiş bizə bu neməti,*
*Neyləyirəm canu səru itrəti,*
*Bəsdi mənə dilbərimin vəsləti,*
*Xəncəru şəmşir ilə var ləzzəti,*
*Yar baxa doğrana qurbani eşq.*

Həzrət Nuh (ə) 950 il təkallahlılığı təbliğ etdi, amma heç bir kəs onun sözlərinə baxmadı. Artıq təbliğat aparmaqdan da yorulmuşdu. Onun yorğunluğu, eləcə də hər şey Allahın gözü qarşısında və nəzarəti altında olduğunu bilməsi ilə aradan getdi. Həzrət İmam Hüseyn (ə) də Əliəsğər (ə) onun qucağında ikən oxla vurulanda buyurdu: "Bu, mənim üçün

çox asandır. Çünki bu, Allahın gözü qarşısında baş verir və Xaliqim bu hadisəyə baxır.”

Xanım Zeynəbin (s.ə) gözləri qarşısında qardaşı İmam Hüseynin (ə) başını kəsdilər, Əbülfəzli (ə) öldürdülər, digər qardaşlarını da öldürdülər, qızları əsir oldu, amma o, ibadətindən əl çəkmədi. Əvvəlki gecələr gecə namazını qıldığı kimi, aşura günü axşam da (Şami-qəriban gecəsi) gecə namazını tərk etmədi. Çünki onların hər bir işi Allah yolundadır və Allahın rizası üçündür.

## ZÜLM VƏ ONUN NÖVLƏRİ

Aşura günü İslam tarixində ən həssas günlərdən biridir. Aşura günü zaman baxımından adi bir gündür, lakin böyük bir tarixdir. Aşura günü mərifət günüdür, ürfan günüdür və eşq günüdür. Aşura günü übudiyyətin zirvəsidir, tarixdə ibadətin ən mühüm nümunəsidir və bu gün Allahın yer üzündə görünən qüdrətidir. Aşura günü bəşəriyyətin mahiyyəti və insanı ən yüksək dərəcəyə ucaldan bir hadisədir.

Aşura heç bir vaxt unudulmayacaq. Aşura həm təqvanın nümayiş etdirilməsi və həm də paklığın, təmizliyin, şücaətin, rəşadətin, hürriyyətin, azadlığın, bir sözlə, imanın və mərifətin nümunəsidir. Digər bir tərəfdən isə aşura xəbis insanların pisliklərinin, habelə fasid insanların cinayət və günahlarının nümunəsidir.

Aşura günü iki ordu bir-biri ilə qarşı-qarşıya gəlmişdir. Onlardan biri übudiyyətin, Rəhman və Rəhimin ordusuydu, digəri isə xəbisliyin, fisqin və zülmün ordusu idi.

Onlar bir dəstə dünyapərəst, şəhvətpərəst, Həzrət Peyğəmbəri (s) və Allahı tanımayan adamlar toplusuydu. Onlar lənətin mənası idilər. Onlar qəflət dəryasında boğulanlar, cəhalət toplusu, rəyasətpərəst, cinayətkar, alçaqlığın özəyi və Allah qarşısında açıq-aşkar fitnə-fəsad törədən insanlar idilər. Hədislərə əsasən onların aşura günü törətdikləri cinayətə görə mələklər ağlamışdır. İmam Hüseynin (ə) müsibətinə yerlər və göylər ağlamışdır. Onların aşura günü törətdikləri cinayət nəticəsində əsən yellər, ay, günəş və göydəki ulduzlar İmam Hüseynin (ə) müsibətinə ağlamışdır. Onların bu cinayətlərinin nəticəsində dəryadakı balıqlar və göydəki quşlar da ağlamışdır. O zalımların ordusu belə bir ordu idi.

Qarşı tərəfə isə nurani bir imam rəhbərlik edirdi. Onun sol çiynindəki mələk o həzrət anadan olan vaxtdan axırıncı nəfəsinə qədər qələmini bircə dəfə də olsa kağızın üzərinə

qoymamışdır. Ondan hətta məkruh (bəyənilməyən) bir əməl də yazmamışdır. İmam Hüseyn ibn Əli (ə) belə bir dəstəyə rəhbərlik edən və bəşəriyyətə nümunə olan bir insan idi.

*Hüseyn övla, Hüseyn mövla, Hüseyn dövlət,*
*Hüseyn sövlət, Hüseyn dəsti rübubiyyət,*
*Hüseyn məsti rübibiyyət, Hüseyn cənnət,*
*Hüseyn minnət, Hüseyn ləzzət, Hüseyn izzət,*
*Hüseyn dəstani ruhani, Hüseyn bostani ruhani.*

İki ordu üz-üzə dayanıb, yerə tökülən isə Hüseyn ibn Əlinin (ə) qanıdır.

*Rəf-rəfi eşqi minib fikrəti agah ilə,*
*Rubəru durdu Hüseyn ləşkəri gumrah ilə.*

Həzrət İmam Hüseyn (ə) onlara buyurdu ki, icazə verin, mən sözümü deyim, sonra mənim qanımı tökərsiniz. Əgər mənim qanımı töksəniz, artıq tövbəniz qəbul olunmayacaqdır. Bu gün "Yezid mömınlərin əmiri idi və İmam Hüseyni (ə) öldürəndən sonra peşman olub tövbə etdi", – deyənlərin başlarında əmmamə olsa da belə onlar lənətə layiqdirlər. Onlar cahil və xəbis adamlardır. Onlar aşuranın insanlara bəxş etdiyi mənəviyyatı heç bir vaxt anlaya bilməzlər. Onlar yalnız qan tökdüklərini düşünürlər.

Onlar qan tökdükdən sonra tövbə etməklə hər şeyin bitdiyini fikirləşirlər. Xeyr, belə deyil, onlar yanlış düşünürlər.

Aşura günü İmam Hüseyn (ə) sübut etdi ki, Yezid kimi fasiq bir insanla mübarizə aparmaq İslamın ruhunun, Quranın mətninin və Allahın istəyidir. Allah-taala Quranda cənnət və cəhənnəm əhlinin dilindən xitab edərək buyurur:

ونادى أصحاب الْجنةِ أصحاب النارِ أن قَد وجدنا ما وعدنا ربنا حقا فَهلْ وجدتم ما وعد ربكُم حقا قَالُواْ نعم فَأَذنَ مؤذنٌ بينهم أن لعنةُ اللّهِ

عَلَى الظَّالِمِين. الَّذِين يصدونَ عن سَبِيل اللّهِ ويبغونها عِوجا وهم بِالآخِرَةِ كَافِرونَ.

–Və cənnət əhli cəhənnəm əhlini səsləyəcəklər: "Biz Rəbbimizin bizə vəd etdiyini doğru və sabit gördük, siz də Rəbbinizin sizə vəd etdiyi şeyi haqq və sabit gördünüzmü?". (Cəhənnəmdəkilər) deyəcəklər: "Bəli!" Belə olduqda onların arasında bir carçı səslənəcək: "Allahın lənəti olsun zalımlara!" O kəslərə ki, (camaatı) Allahın yolundan döndərir, o yolun əyriliyini istəyir (onu əyri göstərir) və axirət gününü inkar edirdilər.[1]

Allahın əmri ilə insanlar ədalətə riayət etməli və zülmdən uzaq olmalıdırlar. Başqa bir ayədə buyurulur:

إِن اللّه يأمر بِالْعدل والإِحسانِ وإِيتاء ذِي الْقُربى وينهى عنِ الْفَحشاء والْمنكَرِ والْبغيِ يعِظُكُم لَعلَّكُم تذَكَّرونَ

–Şübhəsiz, Allah (fərdi, ailəvi və ictimai) ədaləti, yaxşılıq etməyi və qohumun (özününkülərin və Peyğəmbərin (s) məsum qohumlarının) haqlarını ödəməyi əmr edir və çox çirkin günahlardan, xoşagəlməz əməllərdən, zülm və həddi aşmaqdan çəkindirir. Sizə öyüd verir ki, bəlkə ibrət götürdünüz.[2]

Quranın əsl müfəssiri olan İslam Peyğəmbəri (s) buyurmuşdur: "İnsanla cənnətin arasında yeddi mühüm (və ağır) mərhələ və dayanacaqlar vardır. Onlardan ən asanı ölümdür. Soruşdular: "Ey Allahın Rəsulu! Heç kəsin asanlıqla qurtara bilməcəyi və hamısından çətini hansıdır?" Həzrət (s) buyurdu:

اَلْوقُوف بين يدي اللهِ عز و جل إِذا تعلق مظْلُومون بِالظّالِمِين

–Ən ağır mərhələ məzlumların Allah qarşısında zalımların yaxasından yapışmasıdır.

---

[1] Əraf surəsi, 44-45-ci ayələr.
[2] Nəhl surəsi, 90-cı ayə.

Belə olan halda zalımların xilas olması mümkün deyil. İnsana elə gəlir ki, bu dünyada əlindən gələn cinayəti və zülmü etməklə iş bitir. Onlar (Aşura günü cinayət törədənlər) İslam adı ilə İslamın imamını öldürməklə müsəlmanları bütün xalqlar arasında rüsvay etdilər və elə güman edirdilər ki, bununla iş bitdi.

Zalım insanlar bəzi vaxtlar istədikləri cinayətləri edirlər, sonra isə bir mömin görən kimi onların gözündə yaxşı görsənmək üçün Allahdan, dindən və imandan danışırlar.

İbn Abbas belə nəql edir: “Allah-taala İslam Peyğəmbərinə (s) belə bir vəhy etdi:

قُلْ لِلظّالِمين لا يذْكُرونني فَإنه حقّاً علَي انْ أَذْكُر من ذَكَرني إن ذِكْري إياهم انْ ألْعنهم

–Ey Peyğəmbər (s) zalımlara de ki, Mənim adımı dillərinə gətirməsinlər! Çünki Mən Özümə, Mənim adımı zikr edəni zikr edəcəyimi vacib etmişəm. Mənim onları zikr etməyim şəxsən Özüm onlara lənət oxumağımdır.

Allah-taala Qurani-kərimdə buyurur:

فَاذْكُروني أَذْكُرْكُم

–Buna görə də Məni yada salın ki, Mən də sizi yada salım.[1]

Başqa bir ayədə isə belə buyurulur:

اُدعوني أَستجِب لَكُم

–Məni çağırın ki, Mən də duanızı qəbul edim.[2]

Zülm edənlər elə güman etməsinlər ki, bu gün onların etdikləri zülmlər bəzilərinin tərəfindən dəstəklənməklə iş bitəcəkdir. (Bəni-Üməyyə) bütün moizə edənlərə, minbərdə xütbə oxuyanlara və haram yeyən ruhanilərə başa salmışdır

---

[1] Bəqərə surəsi, 152-ci ayə.
[2] Ğafir surəsi, 60-cı ayə.

ki, minbərdə Əlinin (ə), İmam Həsənin (ə), İmam Hüseynin (ə) və Həzrət Peyğəmbərin (ə) ailəsinin əleyhinə çıxışlar etsinlər. Sonu nə oldu?!

**Quranda zülmün növləri**

Quran ayələrinə əsasən zülm üç növdür:

1. İnsanın Allaha qarşı etdiyi zülm;

2.İnsanın öz-özünə etdiyi zülm;

3. Bir insanın digər insanlara qarşı etdiyi zülm.

Həzrət Əli (ə) “Nəhcül-bəlağə”nin 175-ci xütbəsində Qurana əsaslanaraq zülmü üç qismə bölür və belə bəyan edir.

أَلَا وَإِن الظلْم ثَلاثَةٌ: فَظُلْم لا يغفَر و ظُلْم لا يترك و ظُلم مغفُورق لا يطْلَب. فَأَما الظلْم الذِي لا يغفَر فَالشرك بِاللهِ. قَالَ للهُ سبحانه: "إِن اللهَ لا يغفِر أَنْ يشرك بِهِ". و أَما الظلْم الذِي يغفَر فَظُلْم الْعبدِ نفْسه عِند بعضِ الْهناتِ و أَما الظلْم الذِي لا يترك فَظُلْم الْعِباد بعضهم بعضاً...

–Bilin ki, zülm üç qisimdir: Bağışlanmayan zülm, məsuliyyətə alınacaq zülm və məsuliyyətə alınmadan bağışlanmış zülm. Bağışlanmayan zülmə gəldikdə, bu, Allaha şərik qoşmaqdır. Eyib və nöqsan sifətlərdən pak və uzaq olan Allah buyurur: “Allah Ona şərik qoşanları bağışlamır.” Bağışlanan zülmə gəldikdə, o, bəndənin bəzi kiçik günahlar etməklə özünə olan zülmüdür. Məsuliyyətə alınan zülm isə bəndənin digər bəndəyə olan zülmüdür.

**İnsanın Allaha qarşı etdiyi zülm**

Allah-taala Qurani-kərimdə buyurur:

فَمن أَظْلَم مِمن كَذَب علَى اللهِ وكَذب بِالصدق إِذْ جاءه

–Belə isə kim Allaha iftira yaxandan (Onun övladı və şəriki olmasına qail olandan) və həqiqət (peyğəmbərlik və

sənin kitabın) ona çatanda onu təkzib edəndən daha zalımdır?![1]

Zülmün bu qismi Allaha qarşı edilən zülmdür və bunun bağışlanması mümkün deyil.

**İnsanın öz-özünə etdiyi zülm**

Allah-taala "Fatir" surəsinin 32-ci ayəsində bu haqda buyurur:

ثُمَّ أَوْرَثْنَا الْكِتَابَ الَّذِينَ اصْطَفَيْنَا مِنْ عِبَادِنَا فَمِنْهُمْ ظَالِمٌ لِنَفْسِهِ

–Sonra Biz bu kitabı bəndələrimizdən (sonuncu ümmət və İslam əhli olaraq) seçdiklərimizə miras verdik. Onlardan bəzisi (ümmətin günahkarları) özünə zülm edər.

Namaz qılmayan, oruc tutmayan, vacib əməlləri yerinə yetirməyən və haram işlər görən hər kəs başqalarına deyil, yalnız özlərinə zülm etmiş olurlar.

*Zahid məni aldatma cəhənnəmdə od olmaz,*
*Onlar ki, yanırlar odu burdan aparırlar.*

Belə insanlar günah etməklə özləri üçün cəhənnəm odunu qazanırlar. Allahın sənin və mənim namazımıza nə ehtiyacı vardır? Hər kim hər nə qədər günah edirsə, özündən başqa heç bir kəsi yandırmır. Yalnız özü üçün cəhənnəm odunu qızışdırır.

**İnsanın başqa insanlara etdiyi zülm**

إِنَّمَا السَّبِيلُ عَلَى الَّذِينَ يَظْلِمُونَ النَّاسَ وَيَبْغُونَ فِي الْأَرْضِ بِغَيْرِ الْحَقِّ
أُولَئِكَ لَهُمْ عَذَابٌ أَلِيمٌ

–(Cəza və tənbeh) yol(u) yalnız insanlara zülm edən və yer üzündə haqsız yerə hökmranlıq və fəsad axtaran kəslərə

---

[1] Zumər surəsi, 32-ci ayə.

qarşıdır (belələrinə qarşı açıqdır). Onlar üçün ağrılı bir əzab vardır.[1]

**Zülmün qəhrəmanı Yezid**

Aşura günü İmam Hüseyn (ə) Yezidi iki cümlə ilə həm özünə, həm Allaha və həm də Allahın bəndələrinə zülm edən insan kimi təqdim etmişdir. Yəni zülmün hər üç qisminin qəhrəmanı Yeziddir.

Hicrətin 60-cı ili, rəcəb ayının 15-ci günü Müaviyə cəhənnəmə vasil oldu. Yezid bütün nümayəndəliklərə məktub yazaraq Müaviyənin ölümü və özünün xəlifə təyin olunduğu barədə xəbərdarlıq etdi. O dönəmdə Mədinə şəhərinin valisi Vəlid idi. Ona yazdığı məktub digər məktublardan fərqli idi. Məktubun məzmunu belədir:

خذ الْحسين و عبد اللهِ بن عمر و عبد اللهِ بن زبير أخذاً شدِيداً لَيست
ِفيِه رخصةٌ حتي يبايِعوا و السلام.

–Hüseyni, Abdullah ibn Öməri və Abdullah ibn Zübeyri beyət etmələri üçün onlara təzyiq göstər və beyət etmədikləri müddətdə onların getmələrinə icazə vermə. Vəssəlam.

Yəni onlar beyət etməsələr onlar üçün azadlıq deyilən bir şey yoxdur. Ya beyət etsinlər, ya da başlarını mənim üçün göndər. Vəlid məktubu oxuyandan sonra Mərvanı yanına çağırıb vəziyyəti ona danışdı. Mərvan gecə ikən camaatın arasında səs-küy düşməmiş onların hər üçünü çağırıb öz otağında onlardan beyət almasını məsləhət gördü.

Vəlid gecə ikən İmam Hüseyni (ə) saraya çağırdı və Həzrət (ə) bir dəstə özünə yaxın insanlarla onun sarayına getdi. O, məktubu oxuyaraq Həzrəti (ə) məsələdən agah etdi. Həzrət İmam Hüseyn (ə) onun cavabında buyurdu: “Əgər siz camaatın mənim beyət etməyimi görməsini istəyirsinizsə, o

[1] Şura surəsi, 42-ci ayə.

zaman gecə tək otaqda mənim sizə beyət etməyimin nə faydası vardır? Sabah camaatı dəvət edin, əgər məsləhət olsa, mən də gəlib məsələni orada həll edərik.”

Mərvan Vəlidə Həzrət İmam Hüseynin (ə) getməsinə maneə olması üçün işarə etdi. İmam Hüseyn (ə) həmin məclisdə Vəlidə bir söz söylədi və sabahısı gün isə küçədə Mərvana bir söz dedi. Həzrət İmam Hüseyn (ə) Vəlidə dedi:

أيها الْأمِيرِ إنا أهلُ بيتِ النبوة و معدِنُ الرسالَةِ و مختِلف الْملائِكَةِ و مهبط الرحمة بِنا فَتح الله و بِنا يختِم. و يزيد رجلٌ شارِب الْخمرِ و قَاتِلُ النفْسِ الْمحترمِةِ معلِن بِالْفسقِ. و مِثْلي لا يبايِع مِثْلَه. و لكِن نصبح و تصبِحونَ و ننظر و تنظُرونَ أينا أحق بِالْخِلافَةِ و الْبيعة.

–Ey əmir! Bizlər Peyğəmbərin (s) Əhli-beyti, risalətin mədəni (mənbəyi), mələklərin tez-tez gəlib-getdiyi evin sahibləri və Allahın rəhmətinin nazil olduğu insanlarıq. Allah hər şeyi (bütün varlıqları) bizimlə başlatmış və bizimlə bitirəcəkdir. Yezid isə şərab içən, əlini günahsız insanların qanına bulayan və fisqi-fücur əməlləri açıq-aşkar edən bir insandır. (Həm bu gün və həm də qiyamət gününə qədər) mənim kimisi onun kimisinə beyət etməz. Ancaq bu xüsusda biz və siz gələcəyi nəzərə almalıyıq. O zaman xilafət və beyət məqamına hansımızın daha səlahiyyətli olduğunu görəcəksiniz.

Həzrət (ə) bunları söyləyib saraydan çıxıb getdi.

Həzrət burada “Yezid isə şərab içən, əlini günahsız insanların qanına bulayan və fisqi-fücur əməlləri açıq-aşkar edən bir insandır.” – deməklə Yezidin öz-özünə zülm etməsindən xəbər verir. Yəni Yeziddə imandan, təqvadan, şərəfdən, insaniyyət və islamiyyətdən heç bir əsər-əlamət yoxdur. O, özünə zülm edən insandır. Başqa bir yerdə Həzrət (ə) onun barəsində belə buyurur:

أَلا وَإِن هؤلاءِ قَد لَزِموا طاعةَ الشيطان و تركُوا طاعةَ الرحمان

–Bilin və agah olun! Həqiqətən, bu tayfa şeytana itaət edir və Allahın itaətindən boyun qaçırır.

İmam Hüseyn (ə) "نصبح و تصبحون" ifadəsi ilə demək istəyirdi ki, zaman keçdikcə kimin xəlifəliyə daha layiq olduğu bilinəcəkdir. Qılınc və zor gücünə alınan xilafət həqiqi xilafət sayılmır. Xilafət və hakimiyyət Allahın haqqıdır və Ondan başqa heç bir kəsin hakimiyyətə gəlməyə haqqı yoxdur. Bu haqq Allahın Özünün və Onun icazəsi ilə Peyğəmbərinə (s) verdiyi bir ixtiyardır. İslam Peyğəmbəri (s) də bu ixtiyarı öz canişininə vermişdir. Ondan qalan hər bir hakimiyyət boş və mənasız bir şeydir.

Yəni Yezid çox gözəl bilirdi ki, xilafət onun haqqı deyil. O, Allah və İslam Peyğəmbəri (s) barəsində heç nə deyə bilmirdi və çox gözəl bilirdi ki, İslam Peyğəmbəri (s) buyurmuşdur: – "Əli məndən və mən də Əlidənəm." Həmçinin o, İslam Peyğəmbərinin (s) – "Hüseyn məndən və mən də Hüseyndənəm", – söylədiyini çox yaxşı bilirdi. Hüseyni (ə) və Əlini (ə) öldürmək Həzrət Peyğəmbəri (s) öldürmək deməkdir. Amma onlar zahirdə öz mənafelərinə uyğun olaraq Həzrət Peyğəmbərin (s) adını belə çəkmirdilər. Ancaq həqiqətdə imkanları olsaydı Həzrət Peyğəmbərin (s) belə başını kəsərdilər.

İndi Allahın höccətinin gəlib saxta və qondarma bir xəlifəyə beyət etməsi əsla mümkün deyildir.

**Yezidin açıq-aşkar küfr etməsi**

İmam Hüseyn (ə) Mərvana söylədi: "Mən özüm əziz İslam Peyğəmbərinin (s) belə buyurduğunu eşitmişəm: "Hər zaman Müaviyəni minbərdə görsəniz, qarnını yırtın." Camaat bunu etmədikləri üçün ondan daha pisinin əsiri oldular.

Yezidin onlara hökmdar olması onların özlərinin cəzası idi.

İmam Hüseynin (ə) və Kərbəla şəhidlərinin bəzilərinin kəsilmiş mübarək başlarını Şama gətirdilər. Dəməşqin məscidinin qapılarından birinin adı “Cəyrun”dur. Yezid məscidin qapısında dayanıb şəhidlərin mübarək başlarının gətirilməsinə və əsirlərin gəlməsinə tamaşa edirdi. Əsirlər Cəyrundan daxil olduqda və Yezid onları görən kimi dərhal aşağıdakı şeiri oxumağa başladı:

لَما بدت تِلْك الْحمول و اَشرقَت     تِلْك الشموس علَي ربي جِيروني

نعب الغراب فَقُلْت صح أو لا تصح     فَلَقَد قَضيت مِن الغريم ديوني

–Şəhidlərin başları Cəyrundan daxil olanda bir qarğanın səsi gəldi. Yezid dedi: “Ey qarğa, indi istəyirsən oxu, istəyirsən oxuma. Mən artıq Peyğəmbərin (s) ailəsindən intiqamımı almışam.”

...Sonra təşkil olunmuş məclisdə Xanım Zeynəb (s.ə) ayaq üstə dayandı və bütün qızlar da onun arxasında idilər. İmam Səccad (ə) da bir kənarda əyləşmişdi. Yezid isə öz taxtında oturmuşdu və Həzrət İmam Hüseynin (ə) kəsilmiş mübarək başını bir teştin içinə qoyub onun qarşısına qoymuşdular. Məclisə çoxlu qonaqlar da dəvət olunmuşdu. Yezid “Xeyzəran” çubuğunu əlinə alıb o həzrətin mübarək dodaqlarına vura-vura aşağıdakı şeiri oxuyurdu:

لَيت أشياخِي بِبدرٍ شهدوا     جزع الخزرج مِن وقَع الْأسل

لِأهلوا و الستهلوا فَرحاً     ثُم قالوا يا يزِيد لا تشل

قَد قَتلْما الْقَوم مِن ساداتهم     و عدلْناه بِبدرٍ فَأعتدل

لَعِبت هاشِم بِالْملْك فَلا     خبر جاءَ و لا وحي نزل

لَست مِن خندفٍ إنْ لَم أنتقم     مِن بِني أحمد ما كانَ فَعل

–Kaş, Bədr müharibəsində öldürülən tayfa başçılarımız burada olardı və görərdilər ki, Xəzrəc tayfası bizim qılınc-

larımız qarşısında necə də nalə çəkirlər. Təki onlar bu səhnəni görərək şadlanıb deyərdilər: "Ey Yezid, çox sağ ol! Biz Bəni-Haşim tayfasının böyüklərini öldürdük. Bədr mühari-bəsində ölən ata-babalarımızın intiqamını aldıq. Bəni-Haşim xilafətlə oynadı, (Peyğəmbərin) xəbər gətirməsi və vəhyin nazil olması yalandır. Əgər Əhmədin övladlarından onların intiqamını almasam, Xəndəfin oğlu deyiləm."

Bu sözlər Yezidin öz dilindən çıxıb və bütün məqtəllərdə qeyd olunmuşdur. Heç kəs bunun sənədinin zəif olduğunu söyləməmişdir. Yezid bu sözləri deməklə əsl həqiqətdə Allahı qəbul etmir, Allahı tanımır və İslam Peyğəmbərini (s) qəbul etmirdi.

Sonra Xanım Zeynəbə (s.ə) baxıb "Bu xanım kimdir? Necə də təkəbbürlə dayanıb. Siz bunun adamlarından məgər öldürməmisiniz?" – deyə soruşdu. Dedilər: "Yezid, ölənlər-dən altı nəfər onun qardaşlarıdır. Onun iki oğlu və qardaşı balaları şəhid olub. Onun tayfasından 18 nəfər şəhid olub. Məgər bunu tanımırsan? Bu, Əlinin (ə) qızı Zeynəbdir (s.ə)."

Bir gün Müaviyəyə dedilər ki, sən hakimiyyəti əldə etmək istəyirdin. Onu da əldə etdin. Həzrət Əliyə (ə) lənət oxutdurmaq nəyinə lazımdır? Müaviyə onların cavabında dedi:

–Uşaqların belə tərbiyə olunmasını və yaşlıların da bu cür qocalıb dünyadan getmələrini istəyirəm.

Yezid üç il yeddi ay iki gün hakimiyyətdə oldu. Haki-miyyətinin üçüncü ilində Məkkə şəhərinə (xüsusilə Kəbə evinə) od vurdu. İkinci ilində Mədinə şəhərində olan səha-bələri və Quran qarilərini (Hirrə hadisəsində) qətl etdirdi. Hakimiyyətinin birinci ilində isə Kərbəla hadisəsini törətdi.

İmam Hüseyn (ə) insanları başa salırdı ki, Yezid zalımdır və zalımla mübarizə aparmaq imamın borcudur. Həzrət (ə) insanlara sübut etdi ki, Yezidin İslam adından danışmağa ixtiyarı yoxdur.

Yezid isə zülm etməklə heç bir əsirin hörmətini saxlamadı. O, nə Peyğəmbərə (s), nə Xanım Fatiməyə (s.ə), nə Əhli-beytə (ə), nə Qurana və nə də İslama ehtiram göstərmədi. Yezid İbn Ziyadı Kufəyə vali təyin etdi və bütün ixtiyarları da ona verdi.

*Yaru ənsarini gizlətsə də sən tapdırarsan,*
*Şühəda nəşinin üstündə gərək at çapdırasan.*

İmam Hüseyn (ə) bütün səhabələri şəhid olandan sonra düşmənin zülmünü və fəsadını bütün dünyaya sübut etmək üçün altıaylıq körpəsini də meydana gətirdi. Xristian alimi Corc Zeydan özünün tarix kitabında yazır: "Əgər Yezidin əleyhinə əlimizdə heç bir sənəd olmasa da belə, Əliəsğərin şəhid olması faktı bunun üçün kifayət edər."

## ƏRBƏİN MESAJI

*Təfsir edib müqəddəs olan qani ərbəin,*
*Yaydi cahana ətri şəhidani ərbəin.*

*Qurtardi çün imami zəmanin şəhadəti.*
*Çəkdi Yezid nəqşə o şeytanın ümməti,*
*Ta Kərbəladə dəfn edə həqqu həqiqəti,*
*Batil edib o nəqşeyi şeytani ərbəin.*

*Ol ki, salıb səmayə sədasin şəhadətin,*
*İsbat edib cəhanə Hüseynin vilayətin,*
*Ya ki salıbdi caninə lərzə cinayətin,*
*Mənasi ruhi həqqidi ünvani ərbəin.*

*Ayrıldı şəhri Şamidən əşrafi həqşinas,*
*Başlandi ta Mədinədə məzlum Hüseynə yas,*
*Zəhra da gəldi eylədi Zeynəbdən iltimas,*
*Doldurdu va Hüseynilə dünyani ərbəin.*

*Kərbübəladə bir gözəl aləm yaratdı eşq,*
*Ol aləm içrə dağ kimi matəm yaratdı eşq,*
*Matəm içində cənnəti əzəm yaratdı eşq,*
*Çəkdi üzə o cənnəti əlani ərbəin.*

*Saldi səmayə bərqini tiği ədalətin,*
*Göstərdi əhli aləmə zülmün nihayətin,*
*Tarixə səbt qıldı Hüseynin şücaətin,*
*Şərh etdi xəlqə qüdrəti Qurani ərbəin.*

*Aydınladı cəmali həqqi misli afitab,*
*Bəlləndi Kərbəladə nədən qopmuş inqilab,*
*Bir cilvə saldi Seyyidin əşari oldi nab,*
*Etdi onun kəlamini nurani ərbəin.*

Həm aşuranın, həm də ərbəinin dünyaya bir sözü və mesajı vardır. Bu söz müxtəlif kitablarda qeyd olunmuşdur və ayrı-ayrı alimlər öz bəhslərində bu məsələyə toxunmuşlar. Bu mesajı söyləməzdən öncə kiçik bir müqəddiməni qeyd etməyi zəruri hesab edirik.

Allah-taala insanları hidayət etmək üçün peyğəmbərlər göndərmiş və səmavi kitablar nazil etmişdir. Peyğəmbərlər ən çətin anlarda belə öz vəzifələrini yerinə yetirmişlər. Hər zaman düşmənlər birləşərək peyğəmbərləri aradan götürmək istəmişlər, ancaq bu kimi hallarda Allah-taala Öz peyğəmbərlərini himayə və müdafiə etmişdir. Bu məsələ müqəddəs kitabımız Qurani-kərimdə də bir neçə dəfə qeyd olunmuşdur.

## Saleh Peyğəmbərin (ə) macərası

Həmin peyğəmbərlərdən biri də Həzrət Saleh dir (ə). Quran ayələrində onun qövmünün adı Səmud qövmü adlanır və bu qövmün adı Qurani-kərimdə bir neçə dəfə qeyd olunmuşdur. Səmud qövmü Şam ilə Mədinə arasında böyük bir ərazidə yerləşirdi. Bu ərazinin adı "Vadiul-qura" adı ilə məşhurdur. Onlar bütpərəst idilər və hər cür fəsad işlərlə məşğul olurdular. Onların etmədiyi elə bir günah qalmamışdır.

Allah-taala Saleh Peyğəmbəri (ə) onları hidayət etmək üçün göndərmişdir. O da öz növbəsində onları Allaha doğru itaətə, ibadətə, düzgünlüyə, mürüvvətə, şərafətə, hürriyyətə, insaniyyətə, sədaqətə və səmimiyyətə dəvət etməkdə çox səylər göstərmişdir. Lakin, necə deyərlər, belə şeylərin bazarı çox kasad olar. Onun qövmü axırda Saleh Peyğəmbərdən (ə) möcüzə istədilər. Onlar "sən həqiqətən də əgər Allahın peyğəmbərisənsə, onda bizə bir möcüzə göstər", – deyə söylədilər. Saleh Peyğəmbər (ə) Allahdan möcüzə istədi və Allah-taala da onların istəyini qəbul etdi. Lakin Allah onların

yalan danışdıqlarını və möcüzəni bəhanə etdiklərini yaxşı bilirdi.

Onlar uzun müddət bu diyarda yaşadıqları üçün bu məntəqədəki qəsəbələri, küçələri, dağları, biyabanları və çeşmələri çox yaxşı tanıyırdılar. Saleh Peyğəmbər (ə) onların hamısını bir dağın ətəyinə dəvət edib soruşdu: "Bu dağı tanıyırsınızmı?" Onlar da "Bəli, yaxşı tanıyırıq", – deyə cavab verdilər. Saleh Peyğəmbər (ə) dedi: "Bu dağa diqqətlə baxın."

Onlar dağa diqqətlə baxanda elə həmin vaxt Allahın izni ilə dağdan bir dəvə çıxdı. Onların hamısı təəccübləndilər. Çünki onlar bilirdilər ki, orada nə bir anbar var, nə bir tövlə var və nə də bir bağ və s. başqa bir şey vardır.

Allah-taala onlara bu möcüzəni göstərdi və onları imtahan etmək üçün buyurdu ki, göndərilən bu dəvə ("Naqə"[1]) sizə əmanətdir. Kəndin suyu bir gün sizin istifadənizə veriləcək, bir gün də bu dəvənin ixtiyarında olacaqdır.

Möcüzəni onlar özləri istəmişdilər, lakin möcüzə onlara heç bir təsir göstərə bilmədi. Onlar yavaş-yavaş həm dəvəni və həm də Saleh Peyğəmbəri (ə) öldürmək qərarına gəldilər. Tarix boyu belə olmuşdur və hər zaman yığışıb hər hansı bir məsələni müzakirə ediblərsə, müzakirənin sonu bir dəstə xəstə və zəif adamların, qocaların və uşaqların ölməyilə nəticələnmişdir. Sonra da izi itirmək üçün əlləri çatan öndər şəxsləri öldürmüşlər.

Onlar öz aralarından ən bədbəxt bir nəfəri bu işi həyata keçirmək üçün seçirdilər. Qurani-kərimdə belə bir işin yerinə yetirilməsini öhdəsinə götürən şəxs "أشقا", yəni "ən bədbəxt" adam kimi qeyd edilmişdir. Qəddar İbn Salif adlı bir nəfər bu işi könüllü olaraq öz boynuna çəkdi. O, dəvənin qıçlarını kəsməyi öz öhdəsinə götürdü. Onlar o qədər abırsız

---

[1] Naqə – dişi dəvəyə deyilir.

adam idilər ki, son nəticədə Allahın möcüzəsi ilə oyun oynamağa başladılar.

Allah-taala Saleh Peyğəmbərə (ə) buyurdu ki, onlara üç gün möhlət ver.

فَقَالَ تمتعواْ فِي دارِكُم ثَلاَثَةَ أَيامٍ ذَلِك وعد غَير مكْذُوبٍ.

–Saleh Peyğəmbər (ə) dedi: "Üç gün (möhlətiniz var), evlərinizdə bəhrələnin (sonra əzab gələcəkdir). Bu, yalan olmayan bir vəddir."[1]

Allah-taala onlara ona görə üç gün möhlət verdi ki, birdən onların arasından kimsə anlamamazlıq üzündən onlara qoşulmuşdusa və ayrılmaq istəyirdisə, yaxud tövbə etmək istəsəydi bunun üçün fürsətləri olsun. Çünki əzab nazil olandan sonra tövbə etməyin heç bir xeyri yoxdur. Tövbə etməyin müddəti ya əzab nazil olana qədərdir, ya da cənab Əzrayıl (ə) gələnədəkdir. Hər nə qədər əzab nazil olmayıbsa və ya cənab Əzrayıl (ə) gəlməyibsə, tövbə etməyin yeri vardır.

Ardınca Allah-taala belə buyurur:

وأَخذَ الَّذِين ظَلَمواْ الصيحةُ فَأَصبحواْ فِي دِيارِهِم جاثِمِين

–Və zülm etmiş kəsləri (göydən gələn öldürücü bir) bağırtı yaxaladı. Beləliklə, öz evlərində diz çöküb üzü üstə düşmüş ölülər oldular.[2]

Allah-taala onların arasından peyğəmbərə iman gətirənləri, onu müdafiə edənləri və onun sözlərinə qulaq asanları çıxatdı. Ayədə deyilir:

فَلَما جاء أَمرنا نجينا صالِحا والَّذِين آمنواْ معه بِرحمةٍ منا ومِن خِزيِ يومِئِذٍ

–Beləliklə, (onların əzabı barəsində) Bizim əmrimiz yetişdikdə və Bizim istəyimiz qətiləşən zaman Saleh və

[1] Hud surəsi, 65-ci ayə.
[2] Hud surəsi, 67-ci ayə.

onunla birlikdə iman gətirənlərə tərəfimizdən olan bir rəhmət ilə (həmin qövmün şərindən) və o günün zəlilliyindən və rüsvayçılığından nicat verdik.[1]

Allah-taala bu macəranı "Şəms" surəsində İslam Peyğəmbəri (s) üçün nəql etmişdir. Orada deyilir:

كَذبت ثَمود بِطغواها. إِذِ انبعثَ أَشقَاها. فَقَالَ لَهم رسولُ اللهِ ناقَةَ اللهِ وسقْياها. فَكَذبوه فَعقَروها...

–Səmud (qövmü) azğınlıq üzündən (Salehi və Allahın möcüzəsini) təkzib etmişdi. Onların ən bədbəxti ayağa qalxdığı (Salehin dəvəsini öldürmək üçün könüllü olduğu) zaman. Allahın peyğəmbəri onlara demişdi: "Allahın dəvəsinə ziyan yetirməkdən və ona öz növbəsində su içməyə mane olmaqdan çəkinin!" Amma onlar onu (Salehi) təkzib etdilər və Allahın dəvəsini öldürdülər.[2]

## Ayələrin ərbəinlə bağlılığı

Yuxarıda qeyd olunan ayələr dəvəni öldürəni iki cür bəyan edir. Bir qisim ayələrdə deyilir ki, dəvəni öldürən bir nəfər idi. Digər ayələrdə isə "dəvəni öldürdülər" – deyə bəyan olunur. "Şəms" surəsinin 12-ci ayəsinin "إِذِ انبعثَ أَشقَاها" cümləsindəki fel bu işi həyata keçirən insanın tək olduğunu bildirir. Amma 14-cü ayədə "فَعقَروها"[3] – "dəvəni öldürdülər" deyilir ki, bu da işi həyata keçirənlərin bir neçə nəfər olduğunu bildirir.

Həzrət Əli (ə) bu cümləni "Nəhcül-bəlağə"nin 192-ci xütbəsində belə şərh etmişdir.

---

[1] Hud surəsi, 66-cı ayə.
[2] Şəms surəsi, 11-14-cü ayələr.
[3] "عقَرو" – bu kəlmə dəvənin dörd ayağının kəsilməsini ifadə edir.

وَ إِنما عقَر ناقةَ ثمود رجلٌ واحِد فَعمهم اللهُ بِالْعذابِ لَما عموه بِالرضا. فَقالَ سبحانه: فَعقَروها...

–Səmudun dəvəsini bir nəfər kəsib öldürdü. Allah isə onların hamısını əzaba düçar etdi. Ona görə ki, onlar dəvəni öldürməyə razı olmuşdular. Elə bu səbəbdən də eyib və nöqsanlardan pak olan Allah-taala buyurur: "فَعقَروها", yəni Səmud tayfasından olanlar dəvəni kəsib öldürdülər.

Yəni əlinə qılınc alan bir şəxslə evində əyləşib, lakin bu hadisədən xəbər tutduqdan sonra həmin adamla razılaşan şəxs də onunla eyni dərəcədə qərar tutur. İmam Hüseynin (ə) ziyarətnaməsində oxuyuruq:

فَلَعن اللهُ أُمةً قَتلَتك و لَعن اللهُ أُمةً ظَلَمتك و لَعن اللهُ أُمةً سمِعت بِذلِك فَرضِيت بِهِ.

–Allah səni qətlə yetirən camaata lənət etsin! Allah sənə zülm edən camaata lənət etsin! Allah bu xəbəri eşidib ona razı olan camaata lənət etsin!

Yəni əlinə qılınc alımış Şimr, orduya başçılıq edən Ömər ibn Səd, qətlə əmr verən Yezid, habelə İbn Ziyad və Şüreyh qazı ilə birgə evində oturan və bu xəbəri eşidərək heç bir etirazını bildirməyən adamlar da onlarla eyni bir sırada qərar tutmuş sayılırlar. Belə ki, biri əlinə qılınc alıb baş kəsir, digəri əmr verməklə zülm etmiş olur, üçüncüsü isə bu xəbəri eşidir və sakitcə dayanaraq heç bir reaksiya vermir.

Fransa alimlərindən olan professor Yusti yazır: "Əgər hər hansı bir cəmiyyətdə bir nəfər günahsız insan öldürülürsə, o cəmiyyətin bütün insanları əlləri qana batmış insanlar hesab olunurlar."

Fransız alimi bu kəlməni 40 il bundan qabaq demişdirsə, gəlin unutmayaq ki, İslam Peyğəmbəri (s) həmin fikri 1400 il öncə buyurmuşdur:

من شهد أمراً فَكَرِهه كَانَ كَمن غَاب عنه و من غاب عن أمرٍ فَرضِيه كَانَ كَمن شهده.

–Əgər bir insan hansısa bir (xoşagəlməz) hadisənin şahidi olsa və həmin hadisədən acığı gəlsə, sanki o, qeyd olunan hadisəni görməmişdir. Amma bir insan hansısa bir (xoşa-gəlməz) hadisənin şahidi olmasa, lakin həmin hadisənin baş verməsinə sevinib, heç bir narazılığını bildirməsə, belə bir insan sanki o hadisənin şahidi olmuş hesab edilir.

İmam Rza (ə) isə çox açıq şəkildə buyurmuşdur:

لَو أن رجلاً قُتِلَ فِي الْمشرِق فَرضِي بِقَتلِهِ رجلٌ بِالْمغرِبِ لَكَانَ راضٍ عِند اللهِ عز و جل شرِك الْقاتِل

–Əgər məşriqdə bir nəfər öldürülsə və məğribdə bir nəfər onun öldürülməsinə razı olsa, Allah-taala yanında razı olan həmin şəxsin qətlində şərik hesab olunur.

Həzrət Əli (ə) xəlifəlik dövründə üç dəfə müharibə etməyə məcbur olmuşdur. Onlardan birincisi Siffeyn müharibəsi, ikincisi Nəhrəvan müharibəsi və nəhayət, üçüncüsü Cəməl müharibəsi idi.

Cəməl müharibəsində həm qırmızı bir dəvəni bəzədilər və həm də Həzrət Peyğəmbərin (s) həyat yoldaşını yerindən qaldırıb döyüş meydanına gətirdilər. Onlar İslam aləminə elə bir zərbə vurdular ki, müsəlmanlar bu günədək hələ də həmin zərbənin təsirindən özlərinə gələ bilməyiblər. Onlar fitnəni elə bəzədilər ki, bu gün də hara baxırsansa, Cəməl döyüşündə Həzrət Peyğəmbərin (s) xanımının sözündən danışırlar. Fitnə çox qorxulu bir şeydir. Fitnə o deməkdir ki, haqq ilə batili elə qarışdırırlar ki, yolu ayırd etmək mümkün olmasın. Elə buna görə də Quranda deyilir ki, fitnə qətldən ağırdır (qorxuludur).

Bəzi insanlar Cəməl müharibəsində böyük bir fitnə yarat-dılar. Həzrət Əli (ə) bu fitnəyə qalib gəldi və o, qalib gələndən sonra bir nəfər dedi:

وِدِدت أن أَخِي فُلاناً كانَ شاهِدنا لِيري ما نصرك اللهُ بِهِ علَي أعدائِك. فَقالَ علَيهِ السلام: أهوي أخِيك معنا؟ قالَ: نعم. قَالَ فَقَد شهدنا.

و لَقَد شهدنا فِي عسكَرِنا هذا أقْوام فِي أصلابِ الرجالِ و أرحامِ النساءِ سيرعف بِهِم الزمانُ و يقْوي بِهِم الْإِيمانُ.

–İstəyərdim ki, qardaşım filankəs də bu döyüşdə bizimlə birgə olaydı və Allahın səni düşmənlərin üzərində necə qələbə çaldırdığını görəydi. Həzrət (ə) buyurdu: “Sənin qardaşının meyli və istəyi də bizimlədirmi?” Dedi: “Bəli.” Həzrət (ə) buyurdu: “O da bu döyüşdə bizimlə olmuşdur.”

Bizi istəyənlərdən hətta kişilərin belində və qadınların bətnində olanlar da bizimlə birgə qoşunumuzda olmuşlar. Tezliklə ruzigar onları insanın burnundan qəfil axan qan kimi meydana gətirib zahir edəcəkdir. Onların hesabına iman güclənəcəkdir.[1]

Belə bir cümləni heç bir məzhəbdə və təlimdə tapmaq mümkün deyil. Heç bir təlimin belə bir kəlamı yoxdur.

Yəni onlar dünyaya gələndən və tarixi oxuyandan sonra öz mövqelərini müəyyən edərlər. Əgər yüz ildən sonra dünyaya gəlib “Haqq Əli (ə) ilədir” – desələr, yenə də onlar bu müharibədə bizimlə birgə iştirak etmiş sayılırlar. Əgər min ildən sonra dünyaya gəlib və “Hüseyn (ə) haqdır, Yezid isə batildir” – desələr, onlar İmam Hüseynin (ə) dəstəsində iştirak etmiş sayılırlar.

İnsan heç bir vaxt başqalarının azdırıcı təbliğatına aldanmamalıdır. Biz baxıb görürük ki, bu gün dünyanın ən böyük insanları xurafat içində yaşayırlar. Onlar məntiq əsasında danışmalarına baxmayaraq, yenə də istəmədikləri insanları xurafatçılıqda məhkum edirlər. Onların apardıqları təbliğata görə, bu gün Hüseyn ibn Əli (ə) kimi əzəmətli bir şəxsiyyətin

---

[1] Nəhcül-bəlağə, 12-ci xütbə.

əza məclisinin keçirilməsini müdafiə etmək xurafat sayılır. Amma bir baxın görün özləri necə xurafata qərq oldular. Yerin birini 1000 dollara alırdılar və mağazalardakı şamlar da satılıb qurtarmışdı, nə var, nə var dünyanın axırı olacaqdır.

And olsun Allaha, əgər bu hadisə 100 il bundan qabaq və ya 1000 il bundan öncə olsaydı, bu gün onu oxuyan adamın gülməyi gələrdi. Çünki dünyanın böyük-böyük insanları da onlara qoşulmuşdu. Amma çox təəssüflər olsun ki, bu kimi hadisələr bu gün də bizim gözlərimizin qarşısında baş verir.

Əlbəttə ki, elmi məlumatlara əsaslanıb bəzi hadisələrin baş verəcəyindən xəbər vermək mümkün olan bir şeydir. Amma dünyanın axırından xəbər vermək, həqiqətən də, utandırıcı və gülünc bir məsələdir. Bu canı əvvəl-axır tapşırmalıyıq. Harada çıxacaqsa, bunun artıq heç bir fərqi yoxdur. Bu can nə vaxta qədər bizə verilibsə, onun yalnız şükrünü etmək lazımdır və hər bir zaman ölüm məmuru gəlib onu bizdən istəsə, təslim etməyə hazır olmalıyıq. Və həm də imanımız olmalıdır ki, o dünya bu dünyadan izzətlidir. O dünyada Allahın ədaləti bərqərardır, o dünyada peyğəmbərlər var, o dünyada ənbiyalar var, o dünyada cənnət var və o dünyada şərəfli insanlar hamısı bir yerdə əyləşiblər. Orada şərəfli insanlar şərəfsizlərdən ayrıdırlar. Orada mələklər, nuraniyyət və gözəl olan hər bir şey vardır.

## Ərbəinin dərsləri

Aşura və ərbəin bizə bu kimi dərsləri öyrədir. İmam Hüseyn (ə) öz tərəfdarları ilə Beyzə məntəqəsinə çatanda Hürr də min nəfərlik ordusu ilə gəlib həmin yerə çatdı. Azan verildi və İmam Hüseyn (ə) namaz qılmaq üçün ayağa qalxdı. Hürr də öz döyüşçüləri ilə gəlib Həzrətə (ə) iqtida etdilər. Hürr "Əgər Hüseyn ibn Əli (ə) namaz qılırsa, mən kiməm ki, gedib ayrıca namaz qılım", – deyərək namaz

qılmaq məqsədilə o həzrətə qoşuldu. Namaz qurtarandan sonra Həzrət İmam Hüseyn (ə) ayağa qalxıb bir neçə dəqiqə moizə etdi. İlk olaraq İslam Peyğəmbərindən (s) bir hədis nəql etdi:

أيها الناس إن رسولَ اللهِ صلي اللهُ عليهِ و آلِهِ قالَ: من رأي سلْطاناً جائِراً مستحِل لحرامِ الله ناكِثاً عهده مخالِفاً لسنةِ رسول اللهِ يعملُ في عِبادِ اللهِ بالإثْمِ و الْعدوان فلم يغير عليهِ بفعلٍ و لا قولٍ كانَ حقاً علي اللهِ أنْ يدخِلَه مدخلَه.

–Ey camaat! Həqiqətən, Allahın Rəsulu (s) buyurmuşdur: "Hər kim Allahın halalını haram edən, Onun peymanını pozan, Həzrət Peyğəmbərin (s) göstərişlərinin əksinə əməl edən və Allah bəndələrinə qarşı günah və düşmənçilik edən zalım bir padşah görsə və dili, ya əməli ilə ona etiraz etməsə, Allah-taala onu da zalım padşahı daxil etdiyi cəhənnəmə daxil edəcəkdir."

İmam Hüseyn (ə) Həzrət Peyğəmbərin (s) hədisini nəql edəndən sonra öz sözünü belə bəyan etdi:

ألا و إن هؤلاءِ قد لزموا طاعةَ الشيطان و تركُوا طاعةَ الرحمان و أظْهروا الْفَساد و عطوا الْحدود و استأْثروا بالْفَيءِ و أحِلوا حرام اللهِ و حرموا حلاله و أنا أحق مِن غَيري بهذا الْأمر لقَرابتي مِن رسول اللهِ صلي اللهُ عليهِ و آلِهِ.

–Həqiqətən, bu tayfa (Yezid və onun tərəfdarları) şeytana itaət edirlər və Allahın itaətindən boyun qaçırırlar. Yer üzündə fəsadı yayırlar və Allahın qoyduğu hüdudlara təcavüz edirlər, beytülmalı öz istədikləri kimi xərcləyirlər, Allahın haramını halal, halalını isə haram edirlər. Mən Həzrət Peyğəmbərə (s) yaxın olduğuma görə bu işə (bunlara) etiraz etməkdə hamıdan daha çox haqlıyam.

Bu işə (bunlara) etiraz etməkdə məndən yaxşı kim ola bilər. Mən Allahın höccətiyəm, Həzrət Peyğəmbərin (s) oğluyam, Zəhranın (s.ə) balasıyam, Həzrət Peyğəmbər (s) mənim dodaqlarımdan, ürəyimdən və boğazımdan öpüb. Həzrət Peyğəmbər (s) mənim barəmdə "Cənnət cavanlarının ağasıdır" – deyə söyləmişdir. Bunlar mənim barəmdə deyilmişdir, indi mən olan yerdə kim etiraz etməlidir.

Həzrət (ə) həmin xütbədə nəyə görə evində oturmaması, nəyə görə Mədinədə qalmaması, nəyə görə Məkkədə ziyarəti tərk edib oradan çıxması, qızlarını və bacılarını nəyə görə özü ilə gətirməsi və s. kimi məsələlərə açıqlama gətirdi. Qiyamının səbəbini və hədəfini həmin xütbədə söylədi.

Bu, aşura məktəbinin dərsidir və ərbəin onun davamıdır. Ərbəin günü Həzrəti (ə) ilk ziyarət edən Cabir ibn Abdullah Ənsari olmuşdur. Onu bütün müsəlmanlar tanıyırlar. O, Həzrət Peyğəmbərin (s) səhabəsi və İslam Peyğəmbərindən (s) sonra beş imamı ziyarət etmiş yaşlı bir mömin idi.

Cabir ibn Abdullah Ənsari Kərbəla hadisəsini eşidəndən sonra çox ağladı və o həzrəti ziyarət etmək üçün Ətiyyə ilə birlikdə Kərbəlaya gəldi. Ətiyyə İslam Peyğəmbərini (s) görməmişdi. O, dövrünün böyük alimlərindən biri hesab olunurdu. Ətiyyə Qurana beş cildlik təfsir yazmışdır. Bəzi rəvayətlərdə belə qeyd olunur ki, Cabir ibn Abdullah Ənsari onun ustadı olmuşdur.

Beləcə, Cabir ibn Abdullah Ənsari Ətiyyə ilə birlikdə Kərbəlaya yetişdilər. Kərbəlaya gəldikdə Cabir ibn Abdullah Ənsari İmam Hüseynə (ə) salam verdi.

اَشهد أنك ابن خاتمِ النِبيين و الْخامِس اَهلِ الْكِساء و ابن فاطِمةَ سيدةِ نساءِ الْعالَمِين و علَيك سلام الله. أشهد أنكُم اَقَمتم الصلوةَ و آتيتم الزكوةَ و أمرتم بِالْمعروفِ و نهيتم عنِ الْمنكَرِ و جاهدتم الْمولْهيدين و عبدتم اللهَ حتي اَتاكُم الْيقِين

–Şəhadət verirəm ki, sən peyğəmbərlərin sonuncusunun oğlusan. Şəhadət verirəm ki, sən beş kimsənənin beşincisisən. Şəhadət verirəm ki, sən iki dünya qadınlarının xanımı Fatimənin oğlusan. Allahın salamı olsun sənə! Şəhadət verirəm ki, siz (əbədiyyətə qovuşana qədər) namazı bərpa etdiniz, zəkat verdiniz, (insanları) yaxşılığa dəvət etdiniz və pisliklərdən çəkindirdiniz, fasiq insanlarla mübarizə apardınız və son nəfəsə qədər Allaha itaət etdiniz.

Cabir ibn Abdullah Ənsari salam verdikdən sonra dedi:

و الذي بعثَ محمداً بالْحق نبياً، لَقَد شاركْناكُم فيما دخلْتم فيه

–And olsun Məhəmmədi (s) haqq olaraq peyğəmbər göndərən Allaha! Siz iştirak etdiyiniz hadisədə biz də sizinlə şərikik.

Ətiyyə deyir: “Bunu eşidən kimi səbir edə bilməyib soruşdum: “Bu necə ola bilər. Axı bunların qolları kəsilib, bunların başlarına qılınc dəyib, bunların balaları yetim qalıb. Bacılar qardaşsız, analar isə oğulsuz qalıb. Amma biz öz evimizdə oturmuşduq. İndi biz bunlarla necə şərik ola bilərik?”

Cabir ibn Abdullah Ənsari dedi:

إني سمعت حبيبي رسولَ الله صلى الله عليه و آله و سلم يقُولُ: من أحب قَوماً حشر معهم و من أحب عملَ قَوم أُشرِك في عملهم، و الذي بعثَ محمداً بالْحق نبياً إن نيتي و نية أَصحابي على ما مضى عليه الْحسين عليه السلام و أصحابه

–Mən həbibim Həzrət Peyğəmbərdən (s) belə eşitmişəm ki, bir qövmü sevən və onun əməlinə razı olan hər bir kəs qiyamət günü onunla məşhur olacaqdır. And olsun Məhəmmədi (s) haqq olaraq peyğəmbər göndərən Allaha! Mənim Hüseynə (ə) çox böyük məhəbbətim var, mənim niyyətim onun niyyəti ilə eynidir və mənim dostlarımın niyyəti onun səhabələrinin niyyəti ilə eynidir.

Bu, ərbəinin bizlərə verdiyi dərsdir.

Elə bu səbəbdən Allah-taala Qurani-kərimdə buyurur ki, – amma onlar onu (Salehi) təkzib etdilər və Allahın dəvəsini öldürdülər. Salehin dəvəsini bir nəfər öldürdü, ancaq Allah bu işə razı olanların hamısını ona şərik etdiyi kimi, Kərbəla hadisəsi və başqa hər bir hadisə də onun kimidir. Baş verən hər bir hadisəyə öz mövqeyini bildirən hər bir kəsin (müxalif olub-olmamasından asılı olmayaraq) rəyi onun əməl kitabça-sına yazılır. Həmin hadisənin üstündən min il keçsə də belə.

Cabir ibn Abdullah Ənsari Ətiyyəyə dedi: "Ətiyyə, mənim gözlərim görmür. Məni qüsl almaq üçün Fərat çayına apar."

Ətiyyə Cabirin əlindən tutub onu Fərat çayına apardı. Cabir ibn Abdullah Ənsari qüsl alandan sonra boğçasındakı təmiz libaslarını geyinib ətir vurdu və sonra isə Ətiyyəyə dedi ki, məni ağam Hüseynin (ə) qəbrinin üstünə apar. Ətiyyə deyir: "Cabiri o həzrətin qəbrinin üstünə apardım. O, əllərini qəbrin üstünə qoyub üç dəfə uca səslə dedi:

يا حسين! يا حسين! يا حسين! ثُم قَالَ: حِيب لَا يجِيب حِيبه وأُنى لَك ِبالْجواب وقَد شطحت أوداجك على أنباجك، و فُرق بين رأْسك و بدنك

–Ya Hüseyn! Ya Hüseyn! Ya Hüseyn! Sonra əlavə etdi: "Dost dosta məgər cavab verməzmi?" Sonra öz-özünə dedi: "Hüseyn (ə) sənə necə cavab versin, halbukı onun başı bədənindən ayrılmışdır! Halbuki onun boğazının damarları qırılıb?!"

Ətiyyə deyir: "Cabir bunları deyib özündən getdi. Mən onun üzünə su səpib ayıltdım. Cabir oturub ağlayırdı və mən də ətrafa nəzər salırdım. Orada bizdən başqa heç bir kəs yox idi. Uzaqdan bir qaraltının bizə tərəf gəldiyini gördüm. Təəccüb elədim, görəsən, gələnlər kimlərdir. Bir qədər keçən-dən sonra onlar yaxınlaşdılar. Əzəmətli bir karvanın gəldiyini

gördüm. Cabirə dedim ki, bir karvan bizə yaxınlaşır. Çox əzəmətli bir karvana oxşayır.

Karvan bizə yaxınlaşanda gördük ki, gələn İmam Səccadın (ə) karvanıdır. İmam Səccad (ə) öz bibiləri və İmam Hüseynin (ə) ailəsi ilə birlikdə gəldilər. Onlar gələndən sonra biz bir kənara çəkildik. Onlar şəhidlərin qəbirlərinə yaxınlaşanda səsləri ərşə ucaldı. Balaca qızlar, analar, bacılar dəvələrdən endilər və hər kəs gəlib üzünü öz əzizinin qəbrinin üstünə qoydu. Xanım Zeynəb (s.ə) yaxınlaşıb üzünü İmam Hüseynin (ə) mübarək qəbrinin üstünə qoydu və dedi:

*Anamoğlu, səndən sonra işıqlı gün mənə qara gecədi,*
*Hüseyn, buyur görüm atamoğlu, yaraların necədi.*
*Bildim susuzluğuvu, sənə su gətirmişəm,*
*Bir dəstə qəbrivün üstə mələr ahu gətirmişəm.*
*Hərəmlərin də, özüm də salamatam qardaş,*
*Vəli Rüqəyyə balandan xəcalətəm qardaş.*

***Ərbəin günü Kərbəlada olan insanların xoş halına!***

***Adları Xanım Zeynəbin (s.ə) karvanında qeyd olunan insanların xoş halına!***

***Xoş o insanların halına ki, İmam Hüseynə (ə) zəvvar olublar!***

***Allah-taala onların hamısını salamat eləsin!***
***Allah-taala onların hamısının dualarını qəbul etsin!***
***Allah-taala onların hamısının ziyarətini qəbul etsin!***
***Allah-taala ərbəin ziyarətini bizlərə də qismət eləsin!***

***Amin, ya Rəbbəl aləmin!***

**MÜNDƏRİCAT**

Əzadarlığın mənası ........................................................ 3
Əzadarlıq nədir? ........................................................ 5
Xatırlamağın yolları ........................................................ 9
Əyyamullahı (Allahın günlərini) xatırlayın ........................ 10
“Əyyamullah” nə deməkdir? ........................................ 10
Xüsusi günlər ........................................................ 11
Məhərrəm və aşura əyyamullahdır ........................................ 13
Allahın nişanələrini qoruyun ........................................ 14
Allahın nişanələrinə ehtiram göstərilməsinin yolları .......... 14
Əzadarlığın qaydası ........................................................ 15
Aşura İslamda xüsusi günlərdən biridir ................................ 16
Əhli-beytə (ə) məhəbbətin vacibliyi ........................................ 17
Bizim Əhli-beytə (ə) ehtiyacımız var ........................................ 18
Həzrət Peyğəmbərin (s) baxışında əzadarlıq ........................ 21
Şəhadətdən öncəki əzadarlıq ................................................ 22
İmam Həsənin (ə) əza saxlaması ........................................ 25
Həzrət Əlinin (ə) əzadar olması ........................................ 26
Şəhadətdən sonrakı əzadarlıq ................................................ 27
Savabı məhdud olmayan əməllər ........................................ 32
Gecə namazı ........................................................ 32
Oruc ........................................................ 33
Əhli-beytin (ə) əzadarlığında ağlamaq ................................ 33
Əzadarlıq haqda məsumların (ə) əməlləri ........................ 33
Əzadarlığın təşkil olunmasına təkid ................................ 34
Mələklərin və bütün kainatın İmam Hüseynə (ə) əzadarlıq etməsi ........................................................ 35

İmam Hüseyn (ə) haqda şeir və mərsiyə yazmağa təşviq....37
İmam Hüseynin (ə) əzasına vəsait ayırmağa təkid.............38
İmam Hüseynə (ə) ağlamağın təsir və xüsusiyyətləri..........42
İmam Hüseynə (ə) ağlamağın mənəvi təsirləri....................43
1. Günahların bağışlanması ...............................................43
2. Kövsər suyundan bəhrələnmək.......................................43
3. Ölüm halında məsum imamların (ə) insanın başı üzərinə gəlməsi.........................................................................44
4. Cəhənnəm atəşinin haram olması...................................47
5. Məsum imamların xeyir-duasını qazanmaq ...................47
6. Qəbir rahatlığı.................................................................47
7. Hesab-kitabın rahat olması .............................................50
8. Əzadarlığın mükafatı behiştdir (cənnətdir).....................50
Əzadarların müxtəlif dərəcələri ..........................................53
1. Həccin savabı..................................................................54
2. İmam Hüseynin (ə) ziyarətinin savabı............................56
Əzadarların mərifəti...........................................................57
Birinci dərəcə.....................................................................57
İkinci dərəcə.......................................................................60
Üçüncü dərəcə ...................................................................63
Dördüncü dərəcə................................................................67
Təkamül (kamillik) qanunu ................................................70
“ثار اللّٰه” (Sarullah) və “و الْوتر الْموتور” (vəl-vitrəl-məvtur) kəlmələrinin mənası...........................................................73
Həqiqi əzadar.....................................................................81
“Vəsilə” kəlməsinin mənası................................................86

Quran və sünnə nöqteyi-nəzərindən kərbəla hadisəsi və İmam Hüseyn (ə) inqilabı ................................................. 103
Birinci müqəddimə ........................................................ 104
İnsanın təfsiri. İnsan alimlərin nəzərində .......................... 104
İkinci müqəddimə .......................................................... 106
Mərifət və ibadətdə insana mütləq yolgöstərən olmalıdır .... 106
Üçüncü müqəddimə ........................................................ 114
Allaha itaət etmək nə deməkdir? ...................................... 114
Məsələnin geniş şəkildə izahı ........................................... 114
Birinci: Quranda Quran .................................................. 115
İkinci: Quranda Həzrət Peyğəmbər (s) ............................. 117
Üçüncü: Quranda Peyğəmbərin (s) əməlləri və rəftarı ...... 121
İslam Peyğəmbərinin (s) məqamı .................................... 122
1. Peyğəmbər (s) nübüvvət baxımından Quranla bərabərdir ......................................................................... 123
2. İslam Peyğəmbəri (s) əməl və əxlaq baxımından Quranla bərabərdir ........................................................... 123
Qurani-natiqlə qurani samitin (danışan Quranla sakit Quranın) müqayisəsi ........................................................ 132
1. Quran ilahi rəhmətə malik bir kitabdır .......................... 133
2. Quran ümumbəşəri bir kitabdır .................................... 133
3. Quran həm aydın, həm də hər şeyi aydınlaşdıran (izahedici) bir kitabdır ....................................................... 134
4. Quranda heç bir səhv, xəta və əyrilik yoxdur ............... 135
5. Quranın daxil olduğu qəlbə Allah-taala əzab verməyəcək ..................................................................... 136
6. Quran əzizdir (əzəmətlidir) ............................................ 137
7. Quran nurdur ................................................................ 140

8. Quran mübarəkdir, bərəkətlidir ....................................141
9. Quran moizədir ............................................................142
10. Quran itaət edilməsi vacib olan bir kitabdır ................142
11. Quran zülmətdən (qaranlıqlardan) nura hidayət edən bir kitabdır ........................................................................143
12. Quran nicat bayrağıdır ................................................144
13. Quranın sözü qətidir ...................................................145
14. Quran səmavi kitabları təsdiq edən və qoruyandır ......145
15. Quran şəfadır ..............................................................146
İslam Peyğəmbəri (s) və Əhli-beyt (ə) Quranla eynidirlər ........................................................................150
Nübüvvətdən sonra müsəlmanların təklifi ........................152
Əhli-beytlə (imamlarla) (ə) Qurani-kərimin şərikliyi ........156
1. Hər ikisi Həzrət Peyğəmbərin (s) yadigarıdır ................156
2. Hər ikisi nurdur ............................................................157
3. Hər ikisi hidayət yoluna və nicat tapmağa vəsilədirlər .....159
4. Hər ikisi insanlara şəfa verir .........................................161
5. Hər ikisinə baxmaq ibadət sayılır .................................163
6. Hər ikisi imamdır ..........................................................163
7. Hər ikisi qiyamət günü şəfaət edəcək ...........................164
8. Hər ikisi həmişə təzədir (heç vaxt köhnəlmir) ...............165
9. Hər ikisi möcüzə sahibidir ............................................166
10. Hər ikisinin məclisində iştirak etmək ibadət sayılır ....168
Əhli-beytin (ə) Quranla şərikliyinin dəlili ........................170
Əhli-beytin (ə) Peyğəmbərlə (s) eyniliyinin dəlili .............170
Övladlarımızı gərək Əhli-beytin (ə) məhəbbəti ilə tərbiyə edək ..............................................................................172
İmam Hüseynin (ə) rəftari ilə qurani uyğunlaşdirmaq ......173

1. Möminlərə qarşı təvazökar ............................................ 175
İmam Hüseynin (ə) rəftarında bunun nümunəsi ................ 176
2. Daha gözəl və ən üstün hədiyyə ................................... 177
İmam Hüseynin (ə) rəftarında bunun nümunəsi ................ 177
3. Pisliyə qarşı yaxşılıqla cavab........................................ 178
İmam Hüseynin (ə) rəftarında bunun nümunəsi ................ 178
4. Yüksək dərəcədə əfv və güzəşt..................................... 179
İmam Hüseynin (ə) rəftarında bunun nümunəsi ................ 179
5. Cavidan moizə ............................................................. 181
İmam Hüseynin (ə) rəftarında bunun nümunəsi ................ 181
6. Allahın düşmənləri ilə sərt rəftar ................................. 182
İmam Hüseynin (ə) rəftarında bunun nümunəsi ................ 183
7. Şücaət Allah qarşısında təslim olmaqdan irəli gəlir ...... 185
İmam Hüseynin (ə) rəftarında bunun nümunəsi ................ 185
8. Aşura gününün Firon ailəsindən olan möminini tanıtdırmaq ...................................................................... 187
İmam Hüseynin (ə) rəftarında bunun nümunəsi ................ 187
Aşura məktəbinin yaşamasinin səbəbləri .......................... 190
Allah-taalaya bağlı olmaq ................................................ 193
İxlas ................................................................................. 194
Aşura günü İmam Hüseynə (ə) qoşulanlar ........................ 197
1. Hürr ibn Yezid Riyahi .................................................. 197
2. Əmr ibn Xalid Seydavi .................................................. 198
3. Yezid ibn Ziyad ............................................................ 198
Həzrət Əbülfəzlin (ə) ixlası .............................................. 199
Şəhidlərin varisləri .......................................................... 201
İslam dininin inkişafının səbəbləri ................................... 204
İslam dini üç prinsip əsasında inkişaf etmişdir................. 206

İmam Hüseynin (ə) qiyamının Quran baxımından izahı ...211
Allahın dininə kömək etmək və Quranın hökmlərinin icrası vacibdir...211
İmam Hüseyn (ə) Allahın dininə kömək haqda...211
İmam Hüseynin (ə) Bəsrə camaatına yazdığı məktub...213
“Əmr be məruf” və “nəhy əz münkər”lə İslam ümmətini islah etmək...214
Ən yaxşı ümmət...215
İmam Hüseyn (ə) “əmr be məruf” haqda...215
İslam hakimiyyətində fəsad və pozğunluq...217
İmam Hüseyn (ə) Yezidin hakimiyyəti haqda...218
İmam Hüseynin (ə) əzadarlığı Əhli-beytə (ə) məhəbbətin təzahürüdür...221
Birinci məsələ...222
İslam Peyğəmbəri (s) həyatda olan zaman...222
İkinci məsələ...226
İslam Peyğəmbərinin (s) vəfatından sonra...226
İmam Hüseynə (ə) əza saxlamağın səbəbi...229
Dünyada aldanılmış insanlar...234
İmam Hüseyn (ə) hərəkatinin həmişəyaşar olmasının səbəbləri...246
1. İmam Hüseyn (ə) inqilabı Quran ayələrilə üst-üstə düşürdü...247
2. İmam Hüseyn (ə) inqilabı haqqı müdafiə edirdi...247
3. Şəhidlərin varisləri...254
“Ətiullah” (Allaha itaət edin) ayəsi və həzrət Əbülfəzl (ə)...256
Vilayət və imamətin mənası...257
Tasua gününü məşhurlaşdıran Əbülfəzl (ə) ağadır...263

Nəfsi istəklərə qalib gəlmək ............................................268
Namaz və aşura................................................................270
Namaz çox mühüm və vacib bir əməldir..........................271
Namazı vaxtında qılmaq...................................................274
Namazı camaatla birgə qılmaq .........................................277
Namazla aşuranın bağlılığı ..............................................278
Nəfsi istəklər....................................................................285
Qətl ilə ölümün fərqi........................................................285
Kərbəlada qətlin səbəbi....................................................287
Kərbəla şəhidlərinin qatili kimdir?..................................288
Yezid ibn Müaviyə ..........................................................288
Şüreyh qazı .....................................................................289
Übeydullah ibn Ziyad ......................................................290
Şimr ibn Zilcoşən............................................................292
Quran baxımından İmam Hüseynin (ə) qatili ...................292
Ziyarətin mənası və fəziləti .............................................302
Birinci faydası: İbrət almaq .............................................302
İkinci faydası: Savab əldə etmək......................................303
Nəticə..............................................................................306
İmam Hüseynin (ə) ziyarətinin savabı..............................309
İmam Hüseynin (ə) ziyarətinin faydası ............................312
Dünyadakı faydası ...........................................................312
Axirətdəki faydası............................................................313
Əmanət.............................................................................317
Əmanət nədir?..................................................................312
Quran və Əhli-beyt (ə) əmanətdir.....................................322
Əzadarlığın və ağlamağın faydası ....................................327
1. Allah-taala ona cənnətdə ev inşa edər ..........................327

2. Böyük günahlar bağışlanar ........................................... 328
3. Cənnətdə Kövsər suyundan bəhrələnər ......................... 328
4. Cəhənnəm odu ona haram olar ..................................... 329
İmam Hüseynin (ə) baxışında ibadətin mənası.................. 330
Müqəddimə ..................................................................... 331
İbadətin həqiqəti ............................................................. 332
İbadətin növləri ............................................................... 334
1. Qulların ibadəti ........................................................... 336
2. Tacirlərin ibadəti.......................................................... 336
3. Ariflərin ibadəti ........................................................... 338
Nəticə ............................................................................. 341
İmam Səccadın (ə) aşiqanə ibadəti .................................... 344
Allaha eşqlə ibadət etməyin əlamətləri............................. 345
İmam Hüseynin (ə) ürfani halı və kəlamları...................... 353
Döyüş meydanında zöhr namazı....................................... 358
İmam Hüseynin (ə) kəlamında bir neçə məqam ................ 359
"Leylətül-hərir"də gecə namazı........................................ 360
İmam Hüseynin (ə) baxışında ımamət............................... 363
İmam Hüseynin (ə) imamət haqda kəlamları .................... 367
Birinci bölüm .................................................................. 367
Hidayət edən rəhbər və zəlalətə aparan rəhbər.................. 367
İkinci bölüm.................................................................... 370
Haqq və batil rəhbərlərin nümunələri ............................... 370
İmam Hüseynin (ə) dövrünün fasid hökmdarını ifşa
etməsi ............................................................................. 371
Birinci nümunə ............................................................... 372
Hədisdəki mühüm məqamlar............................................ 372
İkinci nümunə ................................................................. 373

İmam Hüseynin (ə) Müaviyəyə cavab məktubu................375
Saleh və səlahiyyətli (layiqli) rəhbərin xüsusiyyətləri ......378
İmam Hüseynin (ə) Mərvanla Vəlidə cavabı.....................378
Üçüncü bölüm..................................................................382
Rəhbərlik etməyin şərtləri................................................382
Kufəlilərin Həzrət Hüseynə (ə) məktubu...........................382
İmam Hüseynin (ə) Kufə camaatına məktubu...................384
Qeyd olunmuş dörd şərtin izahı........................................386
Birinci şərt: Qurana əməl edən olmalıdır ..........................386
İslamın meydana gəldiyi ilk dövrün faciəsi.......................386
Altıaylıq uşağı dünyaya gətirən qadın...............................387
"Səqəleyn" hədisinin mənası ............................................389
Həzrət Əbülfəzl Abbas (ə) barədə bir hekayə ...................391
İkinci şərt: Haqqı icra edən olmalıdır ...............................395
Haqq əbədi, batil isə müvəqqətidir....................................395
Haqq qalacaq, batil isə məhvə məhkumdur.......................398
Qələbə haqq ilədir............................................................398
İmanın şərt olmasının izahı...............................................399
Haqq cəbhəsində mehriban olun! .....................................401
Haqqa səbir etmək ...........................................................403
Hakimiyyət haqqı bərqərar etmək üçündür .......................403
İmam Hüseynin (ə) hərəkatının nəticələri .........................405
Ölüm İmam Hüseynin (ə) baxışında.................................409
İnsan daim son mənzilə doğru hərəkətdədir......................410
Dünya həyatının mənası ...................................................413
Ən üstün ölüm..................................................................415
Həzrət Əliəkbərin (ə) şəhadəti..........................................420
Üçüncü şərt: Ədalətə riayət etməlidir...............................423

Həzrət Əlinin (ə) Siffeyndəki xütbəsi ............................... 426
Dördüncü şərt: Canını Allaha vəqf və həsr etməlidir ........ 429
Sələbiyyə məntəqəsi ....................................................... 431
Düşmənin Həzrət Əlinin (ə) haqq olması barədə sözü ...... 432
İslam təlimlərində əzadarlığın əsası varmı? ...................... 438
Birinci hədis ..................................................................... 440
İkinci hədis ....................................................................... 441
Məhərrəm ayının ilk on gününün əzadarlığı ...................... 442
İmam Hüseynin (ə) müsibətinə ağlamaq və insanları ağlatmaq ......................................................................... 444
İmam Hüseynə (ə) ağlamaq ibadətdir ............................... 444
Evdə əzadarlıq etmək ....................................................... 445
Qara köynək geyinmək .................................................... 446
Əzadarlıqda başsağlığı verməyin qaydası ......................... 448
Aşura müsibətinin qeyd olunmasının səbəbi ..................... 448
İmam Hüseynə (ə) əza saxlayanlar .................................. 452
Quranda vasitə (təvəssül) ................................................. 455
Hədislərdə vasitə (təvəssül) .............................................. 456
Hədislərdən nümunə ........................................................ 457
İmam Hüseyn (ə) vəsilə sahibidir ..................................... 458
Birinci vəsilə: Beyət və şəhadət ........................................ 459
İkinci vəsilə: Beyət və özünü ona oxşatmaq ..................... 459
Üçüncü vəsilə: Beyət və şəhidlərin hədəflərinə şərik olmaq .............................................................................. 462
İmam Hüseynin (ə) əzadarlarının əcri iki qisimdir ............ 464
İmam Hüseynin (ə) rəftarında əxlaqi dəyərlər ................... 466
Vasitələrdən istifadə etmək qaydası .................................. 470
Görəsən, yalnız ilahi hədəf kifayət edirmi? ....................... 471

Çirkin (müqəddəs olmayan) vəsilədən istifadənin nümunələri ........................................................................477
Tarixdən nümunə ............................................................478
Çirkin vasitələrdən istifadə etməməyin nümunələri ..........479
1. İslam Peyğəmbərinin (s) davranışından nümunələr ......479
Birinci nümunə ...............................................................479
İkinci nümunə .................................................................480
Fəratın yolunun bağlanması..............................................483
2. Həzrət Əlinin (ə) davranışından nümunələr ..................486
Birinci nümunə ...............................................................488
İkinci nümunə .................................................................489
Üçüncü nümunə ..............................................................490
Dördüncü nümunə ..........................................................492
Həzrət Əli (ə) və beytülmal ..............................................492
Həzrət Əlinin (ə) dostlarının ondan istəkləri .....................494
Beşinci nümunə ..............................................................496
Həzrət Əlinin (ə) beytülmal haqda başqa bir kəlamı .........496
İmam Hüseyn (ə) və vasitədən istifadə etmə üslubu .........498
Nümunələr ......................................................................501
Birinci nümunə ...............................................................501
Döyüşə ilk başlamamaq (Kufə yolunda) ...........................501
İkinci nümunə .................................................................503
Döyüşə ilk başlamamaq (Aşura günü)...............................503
Ənsarın şəninə ayə ..........................................................508
Əhli-beytin (ə) davranışında fədakarlığın nümunələri ......508
Həzrət İmam Hüseyn (ə) üçün fədakarlıq edənlərin nümunələri ........................................................................513
1. Həzrət Əbülfəzl Abbasın (ə) fədakarlığı .......................513

2. Hənzələ ibn Səd Şaminin fədakarlığı ............................515
Düşmənə qarşı fədakarlıqdan bir nümunə .........................557
Üçüncü nümunə ................................................................518
Səbir ...............................................................................518
Səbrin qisimləri ..............................................................524
1. Kərbəlada günaha qarşı səbir etməyin nümunəsi ..........525
2. Kərbəlada itaətə səbir etməyin nümunəsi .....................526
3. Kərbəlada müsibətə qarşı səbir etməyin nümunəsi .......528
Zülm və onun növləri .......................................................530
Quranda zülmün növləri ...................................................534
İnsanın Allaha qarşı etdiyi zülm .......................................534
İnsanın öz-özünə etdiyi zülm .............................................535
İnsanın başqa insanlara etdiyi zülm ..................................535
Zülmün qəhrəmanı Yezid .................................................536
Yezidin açıq-aşkar küfr etməsi ..........................................538
Ərbəin mesaji ..................................................................542
Saleh Peyğəmbərin (ə) macərası .......................................542
Ayələrin ərbəinlə bağlılığı ................................................546
Ərbəinin dərsləri ..............................................................550